Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Beynəlxalq Musiqi Şurası
Azərbaycan Milli Komitəsi

# MƏDƏNİYYƏTİMİZİN
# VƏ
# MƏDƏNİ İNCİLƏRİMİZİN
# HAMİSİ

*Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın mədəniyyət sahəsində fəaliyyəti*

**Dövri mətbuat materialları əsasında tərtib edilmişdir (1995-2007)**

Bakı 2007

Tərtibçi və elmi redaktor: **Sevda Məmmədəliyeva**

Layihənin müəllifi: **Lalə Kazımova**

**Mədəniyyətimizin və mədəni incilərimizin hamisi**

Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007, 424 səh.
(rəngli fotoşəkillərlə)

ISBN - 9952 - 426 - 42 - 9

© «NURLAR», 2007

*"Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva on il bundan öncə Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaratmış və həmin Fondun çərçivəsində böyük işlər görülmüşdür. Mən onun bu sahədəki fəaliyyətini izləyir və yaxından öyrənirdim. Mən gördüm ki, bu sahədə Mehriban xanımın xidmətləri əvəzsizdir…*

*İndi o, nəinki Azərbaycanda, həm də regional miqyasda, hətta deyərdim ki, qlobal miqyasda fəaliyyət göstərir".*

***Koitiro Matsuura,***
***YUNESKO-nun baş direktoru***

*«Gənc, müstəqil Azərbaycan qarşısında
bu günümüzədək gəlib çatmış zəngin
irsi bərpa edib qorumaq kimi məsul və
şərəfli vəzifə dayanır».*

*«Mən fəxr edirəm ki, Üzeyir Hacıbəyov,
Qara Qarayev, Səttar Bəhlulzadə, Mstislav
Rostropoviç kimi şəxsiyyətlərin Vətəni olan
ölkəni YUNESKO-da xoşməramlı səfir
kimi təmsil edəcəyəm».*

***Mehriban Əliyeva***

## *OXUCULARA*

Qloballaşma dövründə unikal və universal dəyərləri özündə birləşdirən, ictimai inkişafın xüsusi bir modeli – Azərbaycan modeli get-gedə geniş miqyas alır, bəşər ruhunun Azərbaycan mədəniyyəti adlı unikal bir məhsulu yayılır.

Topluda biz Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın fədakar xeyriyyəçilik fəaliyyətini məhz bu konteksdə nəzərdən keçirməyə cəsarət etmişik.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva YUNESKO-nun 60 illiyinə həsr edilmiş "Sivilizasiyalararası dialoq" həftəsi çərçivəsində Parisdə keçirilmiş "Azərbaycan: mədəniyyətlərin və sivilizasiyaların qovşağında" adlı tədbirdəki çıxışında demişdir: "Azərbaycan zəngin mədəni irsi və ənənələri ilə fərqlənən qədim diyardır. Azərbaycan əsrlər boyu sivilizasiyalararası dialoqun aparılmasında mühüm rol oynamışdır. Ölkəmiz Şərqlə Qərbin qovuşduğu məkanda yerləşir. 1918-ci ildə Şərqdə ilk demokratik cumhuriyyət məhz Azərbaycanda yaradılmışdır. Bu, bütün islam aləmində Avropa tipli ilk parlament respublikası idi. Bununla bərabər, islam ölkələri arasında opera, balet, teatr, qadın məktəbləri, azad mətbuat, kişilər və qadınlar üçün bərabər seçki hüququ ilk dəfə məhz Azərbaycanda formalaşmışdır. Bu gün Azərbaycan Avropa dəyərlərini qəbul edən və getdiyi yolu tam dərk edən müasir ölkəyə çevrilmişdir. Uğurlu inkişafın mühüm amillərindən biri ondan ibarətdir ki, Azərbaycan dünyəvi dövlətdir, yüksək tolerantlığı ilə fərqlənən ölkədir".

İntellektual elitanın parlaq nümayəndəsi olan Mehriban xanım Əliyeva mədəniyyətin və biliklərin müxtəlif sahələri arasında, Şərq ilə Qərb arasında yeni

perspektivli əlaqələr yaradır. Azərbaycanın birinci xanımı öz çıxışlarında ümumdünya miqyasında inkişafın müasir vektorunun dərk edilməsi şəraitində milli ənənələrin qorunub saxlanmasının zəruriliyini dəfələrlə qeyd etmişdir. Axı ənənə toxunulmaz sayılan norma, ideya və predmetlərin donub qalmış toplusu deyil. Biz ənənənin kreativliyini, onun müasir dövrün qlobal problemləri labirintində öz orijinal yolumuzu tapmağa imkan verən nəhəng yaradıcı potensialını nəzərdən qaçıra bilmərik.

YUNESKO-nun baş direktoru cənab Koitiro Matsuura Azərbaycanın kütləvi informasiya vasitələrinə müsahibəsində demişdir: «Azərbaycan YUNESKO çərçivəsində keçirilən tədbirlərdə get-gedə daha fəal iştirak edir. Xüsusilə də mən vurğulamaq istəyirəm ki, ölkənin birinci xanımı Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri seçildikdən sonra böyük fəaliyyətə başlamışdır. Qısa müddət ərzində o, şifahi və musiqi ənənələrinin təbliği və qorunması sahəsində böyük xidmətlər göstərmişdir. Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva on il bundan öncə Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaratmış və həmin Fondun çərçivəsində böyük işlər görülmüşdür. Mən onun bu sahədəki fəaliyyətini izləyir və yaxından öyrənirdim. Mən gördüm ki, bu sahədə Mehriban xanımın xidmətləri əvəzsizdir və belə qərara gəldim ki, o, YUNESKO-nun xoşməramlı səfiri təyin edilsin. O, bu vəzifəyə təyin olunduqdan sonra Azərbaycanda mədəniyyət sahəsində böyük işlər görmüşdür. Biz onun xüsusilə şifahi və musiqi ənənələrinin qorunması sahəsindəki fəaliyyətini qeyd edirik. Bu da ki, YUNESKO-da qəbul olunmuş təbirlə desək, qeyri-maddi mədəni irsin qorunması deməkdir. Mehriban xanım Əliyeva Azərbaycan təhsili sahəsində də böyük xidmətlər göstərmişdir. İndi o, nəinki Azərbaycanda, həm də regional miqyasda, hətta deyərdim ki, qlobal miqyasda fəaliyyət göstərir».

YUNESKO-nun baş direktoru cənab Matsuuranın təbirincə desək, Mehriban xanım Əliyevanın fəaliyyəti-

nin qlobal xarakteri bizim mədəniyyətin inkişafın aparıcı amilinə və strateji resursuna çevrilməsinə şərait yaradır.

Bu məsələdə ölkəmizdə yaradılan Heydər Əliyev Mərkəzi xüsusi rol oynayacaqdır. Mərkəz bütün cəmiyyət miqyasında biliklərin idarə edilməsi funksiyalarını yerinə yetirməkdən əlavə, ölkəmizin informasiya, təhsil və mədəni məkanının vəhdətini qoruyub saxlamağa şərait yaradacaqdır. Multimədəniyyət ideyalarını təcəssüm etdirən bu Mərkəz dünyanın mədəni sərvətlərini özündə cəmləşdirməklə XXI əsrin çağırışlarına Azərbaycanın intellektual və mədəni cavabı olacaqdır. Millətin intellektual sərvətlərinin toplanması, qorunması, sistemləşdirilməsi və istifadəsi ilə bağlı çoxfunksiyalı bir təsisat olan Mərkəz Heydər Əliyevin unikal dövlət quruculuğu və mədəni quruculuq təcrübəsinə əsaslanan elitaların siyasi mədəniyyətini formalaşdırmaq məqsədini də qarşıya qoyacaq.

2006-cı ilin mart ayında Mehriban xanım Rusiyada dərc edilən «Drujba narodov» jurnalının Azərbaycan ədəbiyyatına həsr edilmiş xüsusi nömrəsində oxuculara aşağıdakı sözlərlə müraciət etmişdir: «Azərbaycan ədəbiyyatı – ənənələrin gücünün həmişə çox parlaq şəkildə ifadə edildiyi ədəbiyyatdır. Belə ənənələrdən biri də hər il mart ayında Azərbaycanda Yeni ilin bayram edilməsi ənənəsidir. Milli rəmzlərlə, ecazkar kodlarla, Yunqun arxetipləri ilə zəngin olan Novruz üçün səciyyəvi sayılan bir fenomen də var: Günəşi daha parlaq nur saçmağa məcbur edən, qarı əridən, torpağı dirilik suyu ilə suvararaq onu canlandırmağa qadir olan söz sehri. Məhz Novruz bayramı günlərində Azərbaycan ədəbiyyatı sizin evlərinizə qonaq gəlir. Gəlir ki, bu görüşün sevincini, eləcə də əvvəlki illərin kədərini sizinlə bölüşsün».

Daha bir vacib məqam haqqında.

İSESKO-nun xoşməramlı səfiri qismində nitqində Mehriban xanım demişdir: «Hazırda İslam Ölkələrinin Təhsil, Elm və Mədəniyyət Təşkilatı ilə Heydər Əliyev

Fondu arasında əməkdaşlıq üçün çox geniş imkanlar mövcuddur. Bildiyiniz kimi, Heydər Əliyev Fondu yaradıldığı andan elmin və təhsilin inkişafını, milli mədəni irsimizin qorunub saxlanmasını özünün fəaliyyətinin prioritet istiqaməti kimi müəyyən etmişdir. Biz qısa müddətdə çoxsaylı layihələr həyata keçirmiş, böyük uğurlar qazanmışıq. «Yeniləşməkdə olan Azərbaycana yeni məktəb» layihəsi, uşaq evlərinin və internat-məktəblərin inkişafı, kor və zəif görən insanların informasiya-kommunikasiya texnologiyalarından istifadə etmələrinin təmin edilməsi layihələri artıq həyata keçirilmişdir və bu gün biz həmin layihələrin konkret nəticələrini görürük. Biz öz fəaliyyətimizdə milli-mədəni irsimizin qorunub saxlanmasına böyük diqqət yetiririk. Bildiyiniz kimi, Heydər Əliyev Fondunun təşəbbüsü və YUNESKO-nun dəstəyi ilə Azərbaycan paytaxtında Beynəlxalq Muğam Mərkəzi tikilir. Deyə bilərəm ki, Muğam Mərkəzinin binası paytaxtımızın ən gözəl guşəsində – dənizkənarı milli parkda ucaldılır. Bir neçə tarixi və dini abidə – Cavadxan məqbərəsi, Pir Həsən ziyarətgahı, Mövsüm Səlim və Həzrəti Zeynəb məscidləri bərpa edilmişdir. Bundan əlavə, Heydər Əliyev Fondu dünyanın bir sıra elmi mərkəzləri ilə çox sıx əməkdaşlıq edir. Bir il ərzində biz Fondda bir neçə beynəlxalq konfrans keçirmişik. YUNESKO ilə birgə təşkil edilmiş, Bakıda və Parisdə keçirilmiş «YUNESKO-Azərbaycan: gələcəyə körpü» mövzusunda konfrans təhsil sahəsində islahatlara həsr edilmişdir.

Heydər Əliyev Fondu İSESKO-nun və YUNESKO-nun prinsiplərinə əsaslanaraq belə hesab edir ki, başqa dövlətlərin və xalqların üzləşdiyi çətinliklərin dəf edilməsində onlara kömək də çox vacibdir... İnanıram ki, İSESKO ilə Heydər Əliyev Fondu arasında dostluq və əməkdaşlıq naminə bundan sonrakı fəaliyyət daha da uğurlu olacaqdır...».

Modernizmin və ənənəviliyin bənzərsiz sinergetizmi, universalizm və milli qürur hissləri, tolerantlıq və dövlət mənafelərinin qorunmasında prinsipiallıq, alter-

nativlərin nəzərə alınması və gələcəyin dəqiq strateji planlaşdırılması kimi xüsusiyyətləri ilə seçilən Azərbaycan siyasi mədəniyyəti Mehriban xanımın şəxsində özünün parlaq ifadəçisini tapmışdır.

Xarici ölkələrdən, o cümlədən Rusiyadan olan mütəxəssislərin fikrincə, baş redaktoru Mehriban xanım Əliyeva olan "Azərbaycan – İrs" jurnalı Azərbaycan mədəniyyətinin, ölkənin tarixinin həqiqi tükənməz mənbəyi, onun bir növ vizit vərəqidir.

Mehriban xanım Əliyevanın milli ənənələrə həssas münasibətin canlı nümunəsi olan çoxşaxəli fəaliyyətinin bir sahəsi də muğam sənətinin dəstəklənməsi və təbliğ edilməsi ilə bağlıdır. Axı muğam sənəti azərbaycanlıların nəzərində milli mənlik şüurunun və özünüidentifikasiyanın əsasını təşkil edən mühüm mədəni dəyərlərdən biridir. Azərbaycan muğamının bədii dəyəri, onun həm milli mədəniyyət üçün, həm də bütün bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti 2003-cü ildə YUNESKO kimi nüfuzlu beynəlxalq təsisat tərəfindən yüksək qiymətləndirilmiş və o, «bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şedevrlərindən biri» elan edilmişdir.

Mehriban xanım Əliyevanın fikrincə, «Azərbaycan milli musiqi incilərindən biri olan muğamı qorumaq, inkişaf etdirmək və təbliğ etmək, muğamın möhtəşəmliyini, onun dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaq bizim hər birimizin mənəvi borcumuzdur».

Bizim gənclərin kulturologiyaya, dünya bədii mədəniyyətinə marağının artdığı dövrdə, Mehriban xanım Əliyeva öz fəaliyyətində dünyanın mədəni irsinə, mədəniyyət şedevrlərinə böyük diqqət yetirir.

Mehriban xanımın şəxsiyyətinə, onun milli və ümumbəşəri mədəniyyətin tərəqqisi naminə fəaliyyətinə ictimai maraq daim yüksək səviyyədədir. Oxuculara təqdim edilən kitab bu ictimai tələbata bir növ cavabdır. Bu toplu Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun həyata keçirdiyi böyük və çoxtərəfli xeyriyyəçilik işinin yalnız bir qismi-

ni əks etdirir. Diqqətli oxucu bu kitabı oxumaqla Mehriban xanım Əliyevanın çoxşaxəli şəxsiyyətini, onun liderlik keyfiyyətlərini, tutduğu vəzifələrdə yorulmadan apardığı işin müxtəlif aspektlərini daha yaxşı dərk etmək imkanı əldə edəcəkdir. Gənclərimiz bu kitabdan bəhrələnməklə özləri üçün xalqımıza və ölkəmizə, Azərbaycanın xoşbəxt gələcəyinə xidmət örnəyi seçəcək, faydalı mənəvi nəticələr çıxara biləcəklər.

*Ə.Qarayev,*
*Azərbaycan Respublikasının*
*mədəniyyət və turizm naziri*

# I. Mehriban xanım Əliyeva mədəniyyətimiz, mədəni irsimiz və incəsənət xadimləri haqqında

## *Musiqi, Musiqi...*

Dünyanın ən dilbər guşələrindən biri olan Azərbaycan əsrlər boyu böyük mədəniyyətin beşiyi, musiqiçilərin vətəni olmuşdur. «Musiqi azərbaycanlıların qanına ana südü ilə hopur» kəlamı tarixi həqiqəti əks etdirən müdrik sözlərdir. Azərbaycanın simvolu kimi dünyanın hər yerində bəlli olan minilliklərin yaddaş kitabəsi – Qobustan qayaüstü rəsmlərindən ən məşhuru – yallı gedən insanlardır. Bu rəqsi indi də toydadüyündə, el şənliklərində, bayramlarda ifa edirlər. Atropatenanın zərdüştlük ayinlərini müşayiət edən musiqinin izləri indi də musiqi folklorunda yaşayır. Böyük Nizaminin əsərlərində adları çəkilən çeşid-çeşid orta əsr musiqi alətlərinin (saz, ud, bərbər, setar, çənq, qanun, müşkar, ərğanun, kamança, rübab, tənbur, ney, kəranay, şeypur, kus, davul, dəf, nağara, zəndan) mövcudluğu onu sübut edir ki, dahi şairin yaşadığı dövrdə Azərbaycanda nəinki solo, həmçinin ansambl ifacılığı da geniş yayılmışdı. Azərbaycanlı alimlər – Səfiəddin Urməvi (XIII) və Əbdülqadir Marağayi (XIV) orta əsr şərq klassik musiqi elminin ən nüfuzlu simaları kimi tanınır. Tarix boyu Azərbaycan müxtəlif siyasi-ictimai şəraitdə varlığı və müstəqilliyi, mənliyi uğrunda mübarizə aparıb. Onun qəhrəmanlıq səhifələri musiqi salnaməmizdə – aşıq dastanlarında, qəhrəmani, cəngi havalarında təcəssüm olunub. Azərbaycan muğamı dünya musiqi sənəti xəzinəsi incilərindən biri kimi təravətini əsrlərdən bəri qoruyub saxlamışdır. «Qafqazın konservatoriyası» adlandırılan Şuşa Azərbaycan musiqi sənəti tarixinə onlarla böyük muğam ustası – xanəndə-

lər, tarzənlər bağışlamışdır. «Şuşa və Azərbaycan musiqisi» sözləri isə Azərbaycanla maraqlanan, onu sevən, tədqiq edən hər kəs üçün ayrılmaz vəhdətdir. Səttar, Sadıqcan, Cabbar Qaryağdı oğlu, Məşədi Cəmil Əmirov, Xan Şuşinski, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Məcid Behbudov və neçə-neçə muğam ustadının adı Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda məşhurdur. XX yüzillik Azərbaycan musiqisinin çoxəsrlik inkişafında yeni mərhələ açdı. Cəmi bir neçə onillik ərzində Azərbaycanda avropa zəminə dayaqlanan yeni musiqi ənənələri, ifaçılıq məktəbi yarandı. 1908-ci ildə «Şərq musiqisinin patriarxı» sayılan Üzeyir Hacıbəylinin «Leyli və Məcnun» operası ilə bəstəkarlıq erasının təməli qoyulur. Təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində ilk opera olan «Leyli və Məcnun» musiqi aləminə muğam ilə operanın orijinal sintezini təqdim etdi. Üzeyir Hacıbəylinin «Arşın mal alan» operettası dünyanın bütün qitələrini fəth etdi. Şərqin ilk konservatoriyalarından biri də 1921-ci ildə Bakıda açıldı. Hal-hazırda Azərbaycan dünya miqyasında yüksək ifaçılıq ənənələri, gözəl musiqi kollektivləri, bəstəkarlıq məktəbi ilə tanınır. Azərbaycan bəstəkarları – Qara Qarayev, Əfrasiyab Bədəlbəyli, Fikrət Əmirov, Niyazi, Arif Məlikov, Tofiq Quliyev, Vasif Adıgözəlov, Azər Rzayev, Rauf Hacıyev, Firəngiz Əlizadə, Aqşin Əlizadə, Fərəc Qarayev, Rəhilə Həsənova və başqalarının əsərləri XX əsr dünya musiqi sənətinin ayrılmaz tərkib hissəsidir. Beynəlxalq müsabiqələr laureatları Fərhad Bədəlbəyli, Sərvər Qəniyev, Xuraman və Fidan Qasımovalar, Adilə Əliyeva, Vasif Həsənov və başqaları Azərbaycan ifaçılıq məktəbinin dünya miqyasında tanınmış nümayəndələridir. Xanəndə Alim Qasımovun, caz müğənnisi Əzizə Mustafazadənin beynəlxalq aləmdə böyük uğurları da xüsusi qeyd olunmalıdır. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra musiqi sahəsində də beynəlxalq əlaqələr genişlənmişdir. Bakıda xarici musiqiçilərin iştirakı ilə beynəlxalq musiqi festivalları təşkil edilir. Öz növbəsində bizim musiqi xadimlərimiz xarici

ölkələrdə keçirilən musiqi tədbirlərində iştirak edirlər. Dünya miqyaslı musiqiçilər – Mstislav Rostropoviç, Bella Davidoviç, Dmitri Şestakoviç böyük həvəslə Bakıya gəlir, konsertlərlə çıxış edir, açıq dərslər verirlər. Yeni mərhələdə Azərbaycan musiqi sənətinin inkişafında Azərbaycan Mədəniyyətinin Dostları Fondu yaxından iştirak edir. Fondun son tədbirlərindən biri – «İpək yolu – Birinci Simfonik və Kamera Musiqisi Festivalı» da böyük əks-səda oyatmışdır...

## *Azərbaycan Məbədləri*

Tarixən Azərbaycan böyük bir sahədə Qafqaz dağlarından başlayıb müasir İrandakı Səfidrud çayı arasındakı ərazidə yerləşirdi. Azərbaycan ərazisindən karvan yolları, o cümlədən Şumer, Assuriya, Yunan, Roma, İran, Türk, Hind, Çin və s. kimi qədim sivilizasiyaları birləşdirən Böyük İpək Yolu keçirdi. Bu sivilizasiyaların hər biri öz mədəniyyətini və etiqadını güclə, yaxud «xoşluqla» Azərbaycanda yaymağa can atırdı. Azərbaycan bu gün özünə doğmalaşmış İslam dinini qəbul edənə qədər demək olar ki, dünyanın bütün dinlərindən keçmişdir. Qərbdən Bizans, cənub-qərbdən Suriya Azərbaycanda xristianlığı, cənubdan, cənub-şərqdən İran zərdüştlüyü, şimaldan Xəzərlər iudaizmi yaymağa cəhd göstərirdi, səlcuqlar, türk-monqollar isə özləri ilə buddizmi gətirmişdilər. Çox vaxt məbədləri əhalinin əsas hissəsinin dini qəbul etməsindən, yaxud da onun dövlət dini elan olunmasından çox-çox əvvəl inşa etməyə başlayırdılar. Belə ki, tək Qafqazda deyil, bütün xristian aləmində ən qədim abidələrdən sayılan Şəkinin Kiş kəndindəki xristian məbədi Qafqaz Albaniyasının xristianlığı qəbul etməsindən xeyli əvvəl tikilmişdi. «Avesta»da adı çəkilən Təxti-Süleymandakı odlar məbədi zərdüştlüyün ən qədim abidələrindən biri olmaqla bərabər, həm də ən çox sayılanı idi. Özlərinin məşhur məbədləri olmasına baxmayaraq, Sasani şahənşahlarının tacqoyma mərasimlə-

ri bu məbəddə keçirilirdi. Yampolski Azərbaycanı zərdüştlüyün papalıq vilayəti adlandırırdı. Belə vilayətlərdən biri, özündə Qobustan və Abşeronu birləşdirən və hazırda Suraxanıda fəaliyyətdə olan Atəşgah məbədi, qədim odlar məbədi və odlar mehrabının qalıqları tapılan Bakı rayonu idi. Zaqatala rayonunda eramızın əvvəllərində çox unikal qayaüstü məzdəkizm abidəsi günümüzədək gəlib çatmışdır. Qarabağda, Şəki-Zaqatala rayonunda, həmçinin Qazax rayonunda xristianlığın çoxlu məbədləri qalmışdır. İlk dəfə İlhanilər tərəfindən inşa edilmiş çoxlu Budda məbədləri sonradan islamı qəbul etmiş xələfləri tərəfindən dağıdılmışdı. Qədim yəhudi məbədi qalmamışdır. Dağ yəhudilərinin bu gün də Qubada fəaliyyətdə olan ilk sinaqoqu XIX əsrin sonlarında tikilmişdir. Ərəb müsəlman dünyasından xaricdə ən qədim məscidlər Azərbaycanda inşa edilib, bu günümüzədək qalmışdır. Yuxarıda deyilənlərlə əlaqədar çoxları Azərbaycanı Allah tərəfindən xeyir-dua verilmiş ölkə hesab edirdilər: O (Azərbaycan ölkəsi), bəxtiyar ölkələrdən biridir. Onda günəş idrakı parladı. Bu ölkə Allahdan xeyir-dua alıb. O, peyğəmbərlərin və müqəddəslərin mehrabıdır. Gənc, müstəqil Azərbaycan qarşısında bu günümüzədək gəlib çatmış zəngin irsi bərpa edib qorumaq kimi məsul və şərəfli vəzifə dayanır...

## *Qızıl irsimiz*

2001-ci ildə Şah İsmayılın Azərbaycan Şahı kimi taxta çıxması və Səfəvi Dövlətini yaratmasının 500 illiyi tamam olur. Səfəvilər dövründə Azərbaycanda təsviri sənət qeyri-adi yüksəkliklərə çatmışdı ki, bu da öz növbəsində, ölkədə bu incəsənət növünün gələcək inkişafına böyük təsir göstərmişdi. O dövrün dahi Azərbaycan rəssamları, dünya şöhrəti qazanmış Sultan Məhəmməd, Ağa Mirək, Mir Müsəvvir, Mir Seyid Əli, Müzəffər Əli, Muhammədi və başqalarının xatirəsini yad etmək üçün jurnalımızın bu nömrəsini təsviri sənət mövzusu-

na həsr etmişik. Azərbaycan təsviri sənətinin tarixi kökləri çox qədimdir. Qədim rəssamlar insan və ov etdikləri heyvan təsvirlərini yüksək bədii ustalıqla təsvir etmişlər. Onlar artıq o dövrdə mərasim rəqslərinin hərəkətlərini və ov zamanı təqib səhnələrinin dinamikasını təsvir etməyi bacarmışlar. Qobustanda olan bir çox qayaüstü rəsmlər sübut edir ki, rəssamlar mərasimlərin məzmunundan asılı olaraq qadağan olunmuş ecazkar obrazların abstrakt təsvirlərini verməyi öyrənmişlər. Azərbaycanın ərazisində (Manna dövləti, e.ə. IX-VII əsrlər) öz gözəlliyi və işləmə texnikası ilə insanı heyran edən və üzərində allahlara qurbankəsmə səhnələri, ölkə başçıları, musiqiçilər və başqalarının təsvirləri olan nadir qablar tapılmışdır. Tanınmış rus sənətşünası Lukonin hesab edir ki, qonşu ölkələrin incəsənətinin mənbəyini Manna dövlətinin ərazisində axtarmaq lazımdır. O yazır: «Bu ərazinin incəsənəti həm skiflərin incəsənətinin, həm midiyalıların incəsənətinin, həm farsların incəsənətinin formalaşması üçün əsas olmuşdur. Zaviye abidələri ilə təmsil olunan bu dövr xüsusilə maraqlıdır. Çünki, bir tərəfdən, bu abidələrdə biz yaxın zamanlarda tapılmış sivilizasiyanın son inkişaf mərhələsini müşahidə edirik, o biri tərəfdən isə, onlar skif incəsənətinin başlanğıc mərhələsi və fars incəsənətinin ilk abidələri ilə bilavasitə bağlıdırlar. Orta əsrlərdə kitab incəsənətinin inkişafı ilə əlaqədar Azərbaycan müsəlman şərqində kitab miniatürünün inkişafında əsas mərkəzlərdən biri olur. Yaxın və Orta Şərqdə ilk, ən erkən miniatürlər Azərbaycan şəhərlərindən Xoy, Marağa və Təbrizdə Azərbaycan Atabəyləri (Eldəgizlər) dövründə, XIV əsrin sonu və XV əsrin əvvəllərində yaradılmışdır. Bir qədər sonra, Azərbaycan dövlətləri Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilərin bədii emalatxanalarında dünya bədii mədəniyyəti xəzinəsini zənginləşdirmiş özünəməxsus və orijinal kitab miniatür məktəbləri yaranır. Alman alimi F.Şults XIV-XV əsr Azərbaycan (Təbriz) miniatür məktəbini Şərqin bir çox bədii məktəblərinin Alma-materi adlandırmışdır. İlk mərhə-

lədə Azərbaycan miniatürü Mesopotamiya və türk-uyqur incəsənətinin təsiri altında inkişaf edirdi. Lakin, artıq XVII əsrin əvvəllərində və daha sonra, Avropa rəssamlığının təsiri təkcə miniatür yaradıcılığında deyil, təsviri incəsənətin başqa növlərində də aydın gözə çarpır. XIX əsrin əvvəllərində Azərbaycanın şimal hissəsinin Rusiyaya birləşdirilməsindən sonra bu proses öz ifadəsini saray və binaların divar naxışlarında və tezəcə yaranan dəzgah rəssamlığında tapır. Təbriz, İrəvan, Şuşa, Şəki, Xoy şəhərlərindəki saray və fərdi yaşayış evləri yeni üslubda naxışlanır. İranda və Azərbaycanda (İrəvani, Qarabaği, Allahverdi Əfşar, Mir Əli, Məhəmməd Həsən Əfşar və bir çox başqaları) Azərbaycan zadəganlarının gözəl portretləri yaradılır. Avropa-rus məktəbi rəssamlarının ilk nümayəndələri (İbrahim Səfi, Bəhruz Kəngərli, Əzim Əzimzadə və başqaları) yaradıcılıq yoluna qədəm qoyurlar. 1920-ci ildən başlayaraq ölkədə Azərbaycan üçün yeni peşəkar bədii təhsil sistemi formalaşmağa başlayır. Yeni Azərbaycan rəssamlıq məktəbi yaranır. Sosialist realizmindən avanqarda kimi çətin inkişaf yolu keçmiş və özündə Şərqin və Qərbin ənənələrini birləşdirmiş bu məktəb yeni minilliyin əvvəlində kamillik səviyyəsinə çataraq özündə parlaq bədii fenomeni təcəssüm etdirir. Səttar Bəhlulzadə, Tahir Salahov, Toğrul Nərimanbəyov, Rasim Babayev, Mikayıl Abdullayev, Nadir Əbdürrəhmanov, Cavad Mircavadov, Əşrəf Murad oğlu, Tofiq Cavadov, Qorxmaz Əfəndiyev, Müslüm Abbasov, Kamal Əhməd, Altay Sadıqzadə, Qəyyur Yunus və bir çox başqalarının adları Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda məşhurdur.

## *Mənəvi irsimiz*

Azərbaycan xalqının klassik mədəni irsi, cəmiyyətin mənəvi və sosial həyatına daxil olmuş dini-fəlsəfi təlim – sufizm ilə qırılmaz tellərlə bağlı olmuşdur. Azərbaycanda islamaqədərki dövrün zəngin mədəni ənənə-

lərinin saxlanılması və yenidən dərkində sufizm müstəsna rol oynamışdır. Sufizmlə bağlı yaranmış fəlsəfi, etik və estetik normalar müəyyən bir həyat tərzini şərtləndirərək Azərbaycan xalqının mədəniyyət və incəsənətinə elə dərindən nüfuz etmişdir ki, onları öyrənmədən o dövrün fəlsəfəsini, poeziyasını, musiqisini və incəsənətini daha dərindən dərk etmək çətindir. Sufilər belə hesab edirdilər ki, insanın ən yüksək həyat amalı şəxsiyyətin mənəviləşməsi və kamilləşməsidir. Ancaq kamil bir şəxsiyyət Allaha olan mistik məhəbbət vasitəsilə müəyyən bir əhval-ruhiyyədə ona yaxınlaşmaq və onunla qovuşmaq iqtidarındadır. Bu vəziyyətə çatmaqda musiqi, poeziya və rəqs sufilərə yardımçı idi. Belə ki, sufi ordenlərində təşəkkül tapmış mərasimlər həyata keçirilir, Sufi xanəgahlarında yaşayan sufi-dərvişlər hər bahar səyahətə çıxır və bu təlimi təbliğ edirdilər. Səyyah sufi-dərvişlər xalq arasında o qədər populyar idilər ki, xalq nağıl və dastanlarının qəhrəmanlarına çevrilir, onların təsviri miniatürlərdə, xalçalarda və s. həkk olunurdu. Azərbaycan torpağında Şərqin məşhur sufi alimləri – ulu şeyxlər Səfiəddin İshak Ərdəbili, Əbuhəfs Ömər əs-Sührəvərdi və Sədrəddin əl-Xalvati yaşayıb yaratmışlar. Dünyada tanınmış Səfəviyyə, Sührəvərdiyyə, Xəlvətiyyə ordenlərini məhz onlar yaratmışdı. Azərbaycan, sufi aləmində böyük nüfuza malik Baba Kuhi Bakuvi, Əyn əl-Kuzat, Şeyx Zahid Lənkərani, Mahmud Şəbustəri, Abu Nəcib əs-Sührəvərdi, Şihabəddin Əbulfatih Sührəvərdi, Fəzlullah Təbrizi, Şibli və başqalarının vətənidir. Nizami, Məhsəti Gəncəvi, Həqiqi, Nəsimi, Xətai, Füzuli, Mirzə Şəfi Vazeh kimi dahi Azərbaycan şairlərinin yaradacılığı da sufizm ideyaları ilə hopdurulmuşdur. Sufizmin təsirindən XIX-XX əsrlərin əvvəllərində yaşayıb-yaratmış Azərbaycan şair və yazıçıları da yan keçməmişlər. XX əsrin əvvəllərində yaranmış romantizm ədəbi məktəbinin banisi Hüseyn Cavid, Məhəmməd Hadi və başqalarının əsərlərindəki güclü və təsirli romantik obrazlar sufi idealları özlərində daşıyan qəhrəmanlardır. Musiqi sənətinin və musiqi

ənənələrinin inkişafı və hifz olunmasında da sufilər böyük rol oynamışlar. Sufı məclislərində musiqi daim səslənir, mərasim rəqsləri ifa olunurdu. Bu məclislərdə qadınlar da iştirak edir, şeirlər söyləyir, oxuyur və rəqs edirdilər.

Jurnalın bu nömrəsi sufizmin Azərbaycan mədəniyyəti və incəsənətinə təsirindən bəhs edən materialları təqdim edir. İnanırıq ki, topladığımız və təqdim etdiyimiz materiallar oxucu auditoriyası tərəfindən böyük maraqla qarşılanacaq.

## *Rəşid adlı bir möcüzə*

**...**Rəşid Behbudov yaradıcılığından bəhs edərkən "ilk dəfə" ifadəsi tez-tez səslənib. Məhz Rəşid ilk dəfə olaraq ekranda bənzərsiz Əsgər və operada Balaş obrazlarını yaradıb. Məhz Rəşid bir çox mahnının ilk və təkrarolunmaz ifaçısı olub. Məhz Rəşid ilk dəfə Mahnı Teatrı adlı ecazkar bir dünya yaradıb. Məhz Rəşid ilk dəfə olaraq Azərbaycan nəğməsi ilə, demək olar ki, bütün dünyanı dolanıb, Yer kürəsinin hər bir nöqtəsində doğma Azərbaycanı tərənnüm edib. Bütöv bir dünya idi Rəşidin özü də, sözü də. Hər birimiz özümüzü Rəşid adlı bir dünyanın ayrılmaz parçası hiss edərək çox gözəl başa düşürük ki, Rəşid nəğməsi, Rəşid səsi, Rəşid avazı hələ uzun illər bizim daxilimizdə yaşayacaqdır. Rəşid möcüzəsi dedikdə, biz Rəşidin özünün və sənətinin bu bənzərsizliyinə işarə edərək heç vaxt dəqiq təhlilə yatmayan bir çox problemləri sözün gücü ilə açıqlamaq istəyirik. Gözəl başa düşürük ki, əslində, Rəşid yaradıcılığı, Rəşid sənəti həyatımızın elə ayrılmaz hissəsi olub ki, bu deyilən söz bizim özümüzün haqqındadır. Qəribə musiqi duyumu var idi Rəşid Behbudovun. Onun nəğməsində, onun yaradıcılığında dövrün mühiti ilə ecazkar bir həmahənglik duyulurdu. Azərbaycan musiqi tarixində Rəşid bizim özümüzü də, bizim bədii zövqümüzü də dəyişdirməyə qadir olan bir sənətkar ki-

mi qalacaqdır. XX əsrdə Azərbaycan musiqisində baş verən dəyişikliklərin səbəblərini Rəşid möcüzəsində axtarıb tapmaq olar. Müasir dünyanın bütün ritmlərini, daxili melodiyalarını böyük həssaslıqla duyan Rəşid Behbudov özünə xas olan dərin zövqü, coşğun ehtiras və hərarətli yeni melodiyalar, yeni ab-hava, yeni musiqi mənzərəsi formalaşdırırdı. Rəşid Behbudovun sənət aləmində gerçəkləşdirdiyi bir inqilab, sözsüz ki, Azərbaycan musiqi sənətinə xas olan milli muğam ənənələrinin üzərində qurulmuşdu. O, bizim keçmişimizi öz daxilində əridərək, sənət süzgəcindən keçirə-keçirə Azərbaycan mahnısına yeni bir həyat verdi. Böyük bir ustad kimi o, dünənimizi, bu günümüzü və sabahımızı öz yaradıcılığında bir vəhdət halında, bütöv bir şəkildə birləşdirməyə qadir oldu. Dərin ustalıq tələb edən bu heyrətamiz dəyişikliklər onun nə dərəcədə böyük ustad olduğunun kiçik bir sübutudur. O bu gün də hamımızın ustadıdır. Onun fəth etdiyi zirvələr bu gün də bizim üçün gözqamaşdırıcı üfüqlər açır. Rəşidin öz üslubu, öz sözü var idi sənətdə. Belə bir üslubun formalaşması ilk növbədə Rəşid şəxsiyyəti ilə bağlı idi. Hansı musiqişünası dindirsəniz, deyəcək ki, müğənnilərin ifa üslubunu məhz bəstəkarlar formalaşdırır. Rəşid səsi, Rəşid ifa tərzi isə əksinə, bir çox bəstəkarların yaradıcılığına böyük təsir göstərərək yeni bir üslubun formalaşmasına təkan verdi. Səhnədə Rəşidi dinləməyə başlayan zaman insanda ancaq bir fikir yaranırdı ki, bu nəğmənin varsa-yoxsa bir müəllifi vardır – o da Rəşid Behbudov özüdür. Əbəs yerə deyil ki, Tofiq Quliyev Rəşidi ifa etdiyi bütün əsərlərinin həmmüəllifi adlandırırdı. Rəşidin ürəyindən gələn, bizim ruhumuzu oxşayan, bizi pərvazlandırıb az qala uçmağa vadar edən, səsin sehrinə bürünüb gələn bu sözlər, bu cazibədar musiqi elə bil Rəşidin beynində, içində, qəlbində yaranıb bizə çatdırılır. Rəşid möcüzələrinin, Rəşid uğurlarının, Rəşid ölməzliyinin bir sirri də məhz budur. Ovsun dolu səsiylə Rəşid elə bir möcüzədir ki, sadəcə adını çəkməklə, gözlər önündə bütöv bir dünya canlanır. Həm də elə bir

dünya ki, hər təzə gələn nəsil onu yeni bir tərzdə qavrayır. Yaşamağı ondandı ki, dünyanı qurtaracaq ruhuyla gözəl idi Rəşid və bir da ona görə ki, bənzərsiz idi, bir daha təkrarı olmayacaqdı onun. Rəşid Behbudovun sənət dünyasında Şərqlə Qərb, Asiya ilə Avropa, gündoğanla günbatan bir-birinə qovuşur. Dünya şöhrətini qazandıqdan sonra da o, Rəşid olaraq qaldı. O, yenə də həmin "arşınmalçı" Əsgər, "talesiz" Balaş, könülaçan, qəlb oxşayan o şirin və məlahətli səsiylə doğma Qarabağı, doğma Azərbaycanı tərənnüm edən dahi müğənni, sadə insan, əsl vətəndaş olaraq qaldı. Elə Qarabağ dərdi də onun incə sənətkar qəlbini qırdı. Qarabağ dərdi ilə Rəşid köç etdi bu dünyadan. Şirin ana laylasından dilimizin ətri gəlir. Beşikdəykən uşaqlıq dünyamız anamızın ətrinə bürünən layla və nazlamalarla dolu bir dildə yaranır. Bizim hamımızı öz qoynuna alan böyük Azərbaycan dünyası da elə bil bütövlükdə Rəşid səsi, Rəşid avazı, Rəşid nəğməsi ilə bizi böyüdüb boya-başa çatdırıb. Bu dünya durduqca Rəşid möcüzəsi də yaşayacaqdır.

## *Üzüyümün qaşı firuzədəndir...*

Müasir Azərbaycan mədəniyyətinin möcüzəli, ecazkar bir musiqi dünyası var. Bu dünyanın parlaq ulduzları – Fidan və Xuraman Qasımovalar artıq iyirmi beş ildir valehedici, bənzərsiz, ilahi səsləri ilə Azərbaycanı dünyada tanıdan əsl sənət elçiləridir. Milli vokal məktəbimizin mötəbər beynəlxalq müsabiqələrdə ən yüksək səviyyədə – qaliblər zirvəsində təmsil olunması ilk dəfə Fidan və Xuraman Qasımovaların adı ilə bağlıdır. Fidan xanımın İtaliyada (Viotti adına), Xuraman xanımın Yunanıstanda (Mariya Kallas adına), Rusiyada (Pyotr Çaykovski adına) sənət yarışmalarında parlaq qələbələri XX əsr Azərbaycan musiqi tarixinə qızıl hərflərlə yazılmışdır. Tale onlardan sanki heç nəyi əsirgəməyib – gözəl səs, gözəl sima, nadir istedad... Hər iki

bacının ümumiləşdirilmiş obrazı məhz bu iki kəlməyə köklənir: Gözəllik və İstedad. Fidan Qasımovanın Nigarı, Marqaritası, Dezdemonası, Tatyanası, Mimisi..., Xuraman Qasımovanın Sevili, Toskası, Aidası... Müğənnilərin opera səhnəsində yaratdıqları obrazlar qalereyası texniki kamilliyi, obrazın daxili aləminin parlaq təcəssümü ilə diqqəti cəlb edir. Hələ onların dünya vokal ədəbiyyatını – Baxdan tutmuş müasir Azərbaycan bəstəkarlarının əsərlərinə qədər – əhatə edən zəngin repertuarını demirik. İyirmi beş ildə Fidan və Xuraman Qasımovaların həyatında uğur, parlaq qələbələr kədərli, qəmli anlarla qoşa addımlayıb. Lakin hər iki sənətkar taleyin zərbələrinə sinə gərərək bu gün də dünyanın hər bir guşəsində bol-bol alqış qazanır, Azərbaycan musiqisinin salnaməsini yaradır. Fidan və Xuraman Qasımovalar ən ali dövlət mükafatlarına layiq görülüblər. Lakin onların ən böyük mükafatı tamaşaçı ilə dolu, güllü-çiçəkli konsert zalları, teatr səhnələri, xarici ölkələrə çoxsaylı dəvətlər, Bakı Musiqi Akademiyasındakı tələbələri və həmkarlarının məhəbbətidir.

# II. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun tədbirləri

## *Azərbaycan Mədəniyyətinin Dostları Fondu 1995-ci ildə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmışdır*

Fond Azərbaycanın tarixini, mədəniyyətini, mədəni irsini Azərbaycanda, dünyada və beynəlxalq təşkilatlarda təbliğ edir.

### *1. Sərgilər*

### *Milli Geyimlər Sərgisi*

Bu günlər Azərbaycan Tarixi Muzeyinin Şərq salonunda «Azərbaycan milli qadın geyimləri» sərgisi açılıb. Açılışda eyni zamanda «Milli geyim» müsabiqəsinin nəticəsi də elan olunub. Bu iki tədbir keçmişlə müasirliyin ünsiyyəti idi. Çünki müsabiqə məhz milli xüsusiyyətli geyim modelləri üzrə aparılmış və mükafatlar da ən yaxşı eskizlər üçün nəzərdə tutulmuşdur.

Qonaqları və müsabiqə qaliblərini salamlayan akademik Püstəxanım Əzizbəyova sərginin məqsədini, mahiyyətini açıqlayıb, bölgə geyimləri haqqında məlumat verdi. Bakı, Qazax, Şamaxı, Naxçıvan, Şəki, Gəncə, Şuşa xanımlarının geyim dəstləri fərqlənir, göz oxşayır, ruha rahatlıq gətirir, maraq doğurur. Arxalıq, eşmək, çəpkən, kürdü, ləbbadə, araxçın... Hər mövsümə uyğun geyimlər. Onların hər biri yüksək zövqdən xəbər verir. Sərginin diqqət çəkən cəhəti salonun baş tərəfində mötəbər yer tutmuş şəxsi kolleksiyalardır. Bu guşədə Xan qızı Natəvanın zərif əllərindən çıxmış tikmələr, naxışlı işləmələr yüksək zövq nümunəsidir.

Müasir dünyada geyim sənəti mötəbər mövqe tutur. Sivilizasiyaya əvəzsiz töhfələr vermiş bir xalq kimi bu gün də Azərbaycan geyim sənəti özünü dünyaya tanıtmalıdır. Kosmopolit təfəkkürdən uzaq, köklərinə bağlı sənətkarlar bu işin öhdəsindən gələ bilər. Keçirilən müsabiqə də bunu göstərir. Milli geyim modelləri müsabiqəsini təşkil edən Azərbaycan Mədəniyyətinin Dostları Fondu, Bakı geyim modelləri evi və «Adidas» firması onlarca modeldən yalnız üçünə pul mükafatı və digər həvəsləndirici hədiyyələr təqdim etdi.

***Sevil Axundova***
***Ədəbiyyat qəzeti,***
***1996, 7 iyun***

## *«Azərbaycanın abidələri uşaqların gözü ilə»*

Mədəniyyət Nazirliyinin və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təşkilatçılığı ilə fevralın 19-da Səttar Bəhlulzadə adına sərgi salonunda «Azərbaycanın abidələri uşaqların gözü ilə» adlı uşaq incəsənət sərgisi açılmışdır.

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyeva açılış mərasimində iştirak etmişdir.

Respublikamızın tanınmış mədəniyyət və incəsənət xadimlərinin, xarici ölkələrin səfirlərinin də iştirakı ilə keçirilən açılış mərasimində mədəniyyət naziri Polad Bülbüloğlu, Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov çıxış etdilər.

Qeyd olundu ki, sərgidə 5-16 yaş arasında 100-dən artıq uşağın təsviri sənətin müxtəlif janrlarında 150-yə yaxın əl işi nümayiş etdirilir. Bədii səviyyəsinə görə diqqəti cəlb edən əsərlərin müəllifləri təkcə Bakı məktəbliləri deyil, onların arasında respublikamızın bütün bölgələrinin təmsilçiləri də vardır. Azərbaycanın mədəni irsinə saf uşaq məhəbbəti və səmimiyyəti ilə seçilən işlər uşaq-

larımızın vətən sevgisindən, onların gələcəkdə yaxşı fırça ustası kimi yetişəcəklərindən xəbər verir.

Mərasimdə belə sərgilərin respublikamızın müxtəlif bölgələrində də açılmasının əhəmiyyəti vurğulandı.

Tədbirin keçirilməsində Azərbaycan Mədəniyyətinin Dostları Fondunun və onun prezidenti Mehriban Əliyevanın xüsusi xidmətlərini vurğulayan natiqlər bildirdilər ki, Fondun sifarişi ilə sərgidəki əsərlərin yüksək poliqrafik səviyyədə kataloqu hazırlanmışdır.

Mehriban xanım Əliyevanın kataloqa yazdığı ön sözdə uşaqlara müraciətlə deyilir:

«Dünyanın ən tanınmış mədəniyyət ocaqlarından biri də bizim doğma Vətənimiz, Azərbaycandır. Qədim və müasir incəsənətimizin gözəl nümunələri bir çox ölkələrdə məşhurdur. Azərbaycan torpağı tarixin hər bir dövründə dünya mədəniyyəti xəzinəsinə görkəmli şəxsiyyətlər bəxş etmişdir. İstedadlı Azərbaycan xalqının yaratdığı mədəniyyət inciləri onları görənləri heyran etmiş, bu əsərlərin sorağı bütün Yer kürəsinə yayılmışdır.

Bu inciləri yaratmaq nə qədər çətindirsə, onları qoruyub saxlamaq, nəsildən-nəslə ərməğan etmək də asan iş deyil. Başqa mədəniyyət nümunələri kimi, memarlıq abidələrinin də yaşaması üçün bir çox insanlar böyük zəhmət çəkmiş, ayrı-ayrı zamanlarda daşdan yaradılmış əsərlərin bugünkü nəslə çatdırılması yolunda xeyli işlər görmüşlər.

Bu gün siz də bu insanlar sırasındasınız. Mən inanıram ki, sizin istedadınız, çəkdiyiniz rəsmlər, milli memarlıq incilərimizi zərif uşaq əllərinizlə təsvir etməyiniz o deməkdir ki, siz doğma vətəninizi sevir, onun gözəlliklərinin yaşaması üçün çalışırsınız.

Əziz balalar, sizə uğurlar arzulayıram!».

Sərgi iştirakçılarının hamısına hədiyyələr və kataloq təqdim olundu.

Kataloq uşaqlarda böyük sevinc doğurdu və onlar bunu əziz xatirə kimi saxlayacaqlarını bildirdilər.

Mehriban Əliyeva sərginin eksponatlarına baxdıqdan sonra yeniyetmə istedadlarla və onların valideynlə-

ri ilə söhbət etdi, uşaqlara avtoqraf verdi. O, səfirlərlə və onların xanımları ilə də görüşdü.

Axırda «Bəri bax» vokal qrupunun konserti oldu.

Mehriban Əliyeva sərgi iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

*AzərTAc,*
*2000,19 fevral*

## *Azərbaycan, Koreya və Türkiyə rəssamlarının əsərlərinin sərgisi açılmışdır*

Azərbaycan Mədəniyyətinin Dostları Fondu və «SEBA» Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının birgə təşkilatçılığı ilə Azərbaycanda Koreya mədəniyyəti günləri çərçivəsində iyunun 26-da Səttar Bəhlulzadə adına sərgi salonunda Azərbaycan, Koreya və Türkiyə rəssamlarının əsərlərindən ibarət sərgi açılmışdır.

Bu münasibətlə keçirilən mərasimdə mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, «SEBA» Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının rəhbəri Ruhəngiz Heydərova, Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov, Koreyanın ölkəmizdəki səfiri Li Çxor Qvan və Türkiyə-Koreya Mədəniyyət Mübadiləsi qurumunun nümayəndələri çıxışlarında bu sərginin təşkilinə göstərdiyi köməyə görə Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirdilər.

Bu sərginin Azərbaycanın mədəni həyatında çox önəmli bir hadisə olduğunu, Koreya mədəniyyətini Azərbaycan ictimaiyyətinə yaxından tanıdacağını, xalqlarımız arasında əlaqələrin dərinləşməsinə xidmət edəcəyini söyləyən natiqlər vurğuladılar ki, mədəniyyət günlərinin keçirilməsi ölkələrimizin mədəniyyət və incəsənət sahəsində əməkdaşlığına gözəl nümunədir. Xalqlarımızın dostluq və qardaşlığı bundan sonra daha da

inkişaf edəcək, qarşılıqlı ünsiyyət nəticəsində mədəniyyətlərimiz zənginləşəcəkdir.

Sonra iştirakçılar hər üç ölkə rəssamlarının sərgidə nümayiş etdirilən rəsm əsərləri ilə tanış oldular.

*Xalq qəzeti,*
*2005, 28 iyun*

## 2. Konsertlər

### *Rusiyanın balet ulduzları Respublika Sarayının səhnəsində*

Xəbər verdiyimiz kimi, iyunun 18-də Respublika Sarayında Rusiyanın məşhur balet ustaları Nadejda Pavlova və Vyaçeslav Qordeyevin, habelə Moskvanın «Rus baleti» Dövlət Teatrının iştirakı ilə balet gecəsi keçirilmişdir. Azərbaycanın Milli Qurtuluş gününə həsr olunmuş gecənin təşkilatçıları Azərbaycan Mədəniyyətinin Dostları Fondu və «Most-bank Azərbaycan» Kommersiya Bankı idi.

Salona toplaşanlar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi hərarətlə qarşıladılar.

Gecənin əvvəlində Azərbaycan Mədəniyyətinin Dostları Fondunun üzvü, xalq artisti Fərhad Bədəlbəyli və «Media-most» birliyinin Baş direktorunun müavini Heydər Babayev dünya incəsənət ulduzlarının Azərbaycana gəlməsi üçün lazımi imkan və şərait yaratdığına görə ölkəmizin rəhbəri Heydər Əliyevə dərin minnətdarlıqlarını bildirdilər.

Nadejda Pavlova və Vyaçeslav Qordeyev, habelə «Rus baleti» teatrının artistləri Çaykovskinin, Qriqin, Hendelin və digər xarici bəstəkarların baletlərindən partiyaları ifa etdilər.

Prezident Heydər Əliyev böyük uğurla keçən konsertin fasiləsi zamanı ictimaiyyətin və ziyalıların nümayəndələri ilə səmimi söhbət etdi.

* * *

Dövlətimizin başçısı balet gecəsi başa çatdıqdan sonra səhnə arxasına gələrək görkəmli sənətkarlarla görüşdu və uğurlu çıxışlarına görə onlara ürəkdən təşəkkürrünü bildirdi.

Prezident Heydər Əliyev dedi:

- Sizin hamınızı gözəl çıxışınız münasibətilə təbrik edirəm. Bu gün bizdə incəsənət bayramı, balet bayramıdır. Hər şeydən öncə sizə Azərbaycana, Bakıya gəlməyə imkan tapdığınıza və bugünkü gözəl çıxışınızı iyunun 15-də qeyd etdiyimiz Milli Qurtuluş günümüzə həsr etdiyinizə görə sizə təşəkkür etmək istəyirəm. Respublikamıza, xalqımıza böyük diqqətinizə görə sağ olun.

Siz çıxışınızı layiqincə alqışlayan bütün tamaşaçılara böyük sevinc və zövq verdiniz. Siz Bakıya ilk dəfə gəlmişsiniz. Rus baletinin gözəl ustaları Nadejda Pavlova, Vyaçeslav Qordeyev və bütün bu qədd-qamətli, qəşəng balerinalar Bakıya ilk dəfə gəlmişlər. Siz bu gün çox əla rəqs etdiniz. Bu, böyük bayramdır və yəqin hiss etdiniz ki, tamaşaçılar sizi səhnədən buraxmaq istəmirdilər. Mən çox şadam ki, siz öz gözəl sənətinizi bizim tamaşaçılarımıza, xalqımıza göstərdiniz. Mən şadam ki, bu gün Saraya toplaşmış ictimaiyyətimiz sizi bir daha şəxsən gördü. Çünki siz böyük incəsənət ustalarısınız və sizinlə hər görüş estetik zövqdən başqa, həm də böyük hadisədir. Çox sağ olun. Sizə ürəkdən təşəkkür edir, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıram. Siz hamınız gözəl formadasınız və öz parlaq sənətinizi hələ uzun illər nümayiş etdirəcəksiniz. «Rus baleti» ən yüksək sənətkarlıq nümayiş etdirir. Mən şadam ki, «Rus baleti» öz layiqli adını, ənənələrini saxlayır və siz bu gün bunu çox gözəl nümayiş etdirdiniz. Bir daha çox sağ olun.

*Azərbaycan,*
*1998, 20 iyun*

## *Moiseyev Ansamblı Bakıda*

Noyabrın 6-da Respublika sarayının səhnəsində bənzərsiz milli geyimlərin əfsanəvi gözəlliyi göz oxşayır, hərarətli musiqi qəlbləri riqqətə gətirir, coşğun rəqslər hamını valeh edirdi. Həmin gün burada xalq artisti İqor Moiseyevin rəhbərliyi ilə dünya şöhrətli Rusiya Dövlət Akademik Xalq Rəqsləri Ansamblının konserti oldu. Məşhur baletmeysterin truppası Azərbaycan Mədəniyyətinin Dostları Fondunun dəvəti ilə Bakıya konsert verməyə gəlmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev konsertdə olmuşdur. Salona toplaşanlar dövlətimizin başçısını hərarətlə alqışladılar.

Yüksək sənətə və ustalığa görə qonaqlara təşəkkürünü bildirən tamaşaçılar konsertin hər nömrəsini gurultulu alqışlarla qarşılayırdılar.

Konsert başa çatdıqda Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli İqor Moiseyevə və ansamblın kollektivinə gözəl çıxışa görə təşəkkür etdi. Dünya şöhrətli baletmeyster İqor Moiseyev isə onları Bakıya dəvət etdiyinə görə Azərbaycan Mədəniyyətinin Dostları Fonduna minnətdarlığını bildirdi.

***AzərTAc,***
***1998, 7 noyabr***

* * *

Dekabrda 93 yaşını qeyd edəcək və bu məşhur ansamblın banisi olan tanınmış baletmeysterin kollektivi Bakıya Azərbaycan Mədəniyyətinin Dostları Fondunun, onun sədri Mehriban Əliyevanın dəvəti ilə gəlmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev konsertdə olmuşdur. Ölkənin əsas konsert salonuna toplaşan tamaşaçılar dövlətimizin başçısını hərarətlə alqışlamışlar.

Ansambl öz pərəstişkarlarının ümidlərini doğrultdu. Bənzərsiz milli geyimlərin əfsanəvi gözəlliyi, qəlbləri riqqətə gətirən hərarətli musiqi və coşğun rəqslər,

ifaçıların yüksək məharəti və ustalığı tamaşaçılarda böyük heyranlıq doğururdu. Onlar konserti açan sürətli və eyni zamanda lirik rus xalq «Yay» rəqsindən başlayaraq cənublulara xas ehtirasla ifa edilmiş, nikbinlik, ruh yüksəkliyi doğuran və günəşin zərrin şüaları kimi bərq vuran «Araqon xotası»nadək hər bir rəqs nömrəsini sürəkli, gurultulu alqışlarla qarşılayırdılar. Rəqs sənətinin qızıl fonduna daxil olmuş həmin rəqslər və digər nömrələrin əksəriyyəti Bakı tamaşaçısına çoxdan və yaxşı tanışdır. Bunlar «Qədim şəhər Kadrili», moldovanların «Cok» rəqslərindən süita, yunan «Sirtaki»si, italyan «Siciliya tarantellası», xüsusi artistlik məharəti tələb edən kalmık rəqsi və Argentina çobanlarının bütün dünyada daim heyranlıqla qarşılanan «Qauço» rəqsidir. Köhnəlməyən və öz orijinallığını həmişə saxlayan bir rəqs – Rusiyanın əməkdar artisti Aleksandr Matus-Marçukun ifa etdiyi «İki körpənin güləşməsi» adlı nanay xalq oyunu tamaşaçılarda, həmişə olduğu kimi, yenə də məftunluq və fərəhli gülüş doğurmuşdur.

Az tanınmış, amma çox gözəl və yumor hissi ilə ifa olunmuş «Fin polkası», xoş ovqat oyadan və rəqs etmək əhvalı doğuran yəhudi «Hava-nagila»sı, geyimlərin al-əlvanlığı və hərəkətlərin rəvanlığı ilə valeh edən Misir rəqsi, habelə məzəli belarus rəqsi «Yuroçka» bakılıları ürəkdən sevindirdi.

Əlbəttə ki, İqor Moiseyevin Bakı tamaşaçısına şəxsi hədiyyəsi uslubca orijinal və mürəkkəb ünsürlərlə dolu şən Azərbaycan xalq rəqsi «Çobanı» salondakılara xususi sevinc bəxş etdi.

* * *

Ansamblın ifa etdiyi bütün rəqs nömrələrinin quruluşçusu ən adlı-sanlı maestro İqor Moiseyev və Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli yüksək sənətə, ustalığa görə artistlərə təşəkkürünü bildirmiş tamaşaçıların gurultulu alqışları altında konsertdən sonra səhnəyə çıxdılar.

Fərhad Bədəlbəyli bu konsertlə tamaşaçılara bağışlanmış sehrli anlara görə İqor Moiseyevə təşəkkür edərək, Prezident Heydər Əliyevin fasilə zamanı İqor Moiseyevlə qısa və səmimi görüşü zamanı dediyi bu sözləri misal gətirdi: «Moiseyev tarixə düşmüş insandır».

BMA-nın rektoru Azərbaycan Mədəniyyətinin Dostları Fondunun, onun sədri Mehriban Əliyevanın dəvətini qəbul etdiyinə görə İqor Moiseyevə təşəkkür edərək dedi ki, ansamblın Bakıda verdiyi bu konsert xeyriyyə konsertidir. O, nəqliyyat xərclərini öz üzərinə götürmüş «AB finans» firmasına da təşəkkür etdi.

Sonra İqor Moiseyev tamaşaçılara müraciət etdi. O dedi: «13 illik ayrılığımız sizə bəslədiyimiz xoş hissləri və sizin bizə səmimi duyğularınızı əsla azaltmayıb. Bunu biz bugünkü uğurdan və bizi necə qarşılamağınızdan görürük». O, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun salonda olan sədri Mehriban Əliyevaya dəvətə görə təşəkkür etdi. Ansambl bu dəvətə cavab vermişdir, çünki kollektivi Bakı həmişə yaxşı qəbul etmiş və o, buraya həmişə ən səmimi hisslərlə gəlmişdir. Maestro dedi: «Mən də, truppamız da xoşbəxtik ki, əlaqələrimiz nəinki qırılmamışdır, hətta möhkəmlənmişdir».

* * *

Azərbaycan Prezidenti Heydər Əliyev konsertdən sonra səhnə arxasına gələrək ansamblla görüşdü.

Dövlətimizin başçısı onda böyük təəssürat doğuran gözəl çıxışa görə artistlərə təşəkkür etdi və konsertin birinci hissəsinə baxa bilmədiyinə təəssüfləndiyini söylədi.

Ölkəmizin rəhbəri sözünə davam edərək dedi: «Sizin ansambl məşhurdur, onun artıq 62 yaşı var, mən özüm onu 30, yaxud 40 il olar ki, tanıyıram və rəqqaslarınızın çıxışına da həmişə məftun olmuşam. Sizin yaradıcılığınız həmişə heyranlıq doğurubdur və görüşümüz zamanı dediyim kimi, bu, nəinki Rusiyanın və keçmiş Sovet İttifaqının mədəni həyatında, həm də bütün

dünyada nadir hadisədir. Məsələn, mən ikinci belə ansambl tanımıram. Siz başqalarında olmayan öz dəstxəttinizə, özünüzə xas gözəlliyə, xarakterə, temperamentə maliksiniz».

Prezident Heydər Əliyev İqor Moiseyevin rəqqasları seçmək istedadını da qeyd etdi və bildirdi ki, onların dəyişməsi ansamblın ustalığının yüksək səviyyəsinə təsir göstərmir.

Respublikamızın rəhbəri dedi: «Siz tamaşaçıların münasibətini hiss etdiniz və bunu görmək mənə çox xoş idi. Bu, tamaşaçılarımızın sizin sənətinizə məhəbbətindən də, sənətinizi başa düşməsindən də xəbər verir. İndi müxtəlif dövlətlərdə yaşamağımıza baxmayaraq, tamaşaçılarımız sənətinizi yenə də qiymətləndirirlər. Mən belə alqışları, nidaları çoxdan eşitməmişdim. Sizin hamınızı təbrik edirəm, sizin hamınız gözəl və heyrətamiz rəqs edirsiniz. Məsələn, «Fin polkası»nı götürək. Onu iki adam ifa edir. Amma nə qədər orijinaldır! Ancaq məni hamısından çox nanay xalq oyunu heyrətləndirdi. Mən bu rəqsi ilk dəfə gördüm. Nə isə qeyri-adi bir rəqsdir. O, bunların hamısını necə edirsə, bunu bir nəfərin etdiyini dərhal başa düşmürsən. Gözəldir, hamınızı təbrik edirəm, çox şadam ki, siz bizə təşrif gətirdiniz».

Sonra İqor Moiseyev «Mən xatırlayıram...» kitabını Prezident Heydər Əliyevə bağışladı. Maestroya təşəkkürünü bildirən dövlətimizin başçısı dedi ki, şübhəsiz, bu kitab da İqor Moiseyevin həyat və yaradıcılığı kimi maraqlıdır.

Bundan sonra söhbət Azərbaycanın xalq artisti Əminə Dilbazinin iştirakı ilə davam etdi. Prezident Heydər Əliyev dedi ki, Əminə xanım Azərbaycanda bütün xalq rəqsləri ifaçılığının banisidir. Əminə Dilbazi onun çoxdan tanıdığı İqor Moiseyevin nərdi və armudu stəkanları sevdiyini qeyd edərək dedi: «Mən gənclik illərimi, Moiseyevin ansamblının bütün gözəlliyini xatırladım. Moiseyevin bütün məktəbini saxlayıb yaşatmaq lazımdır, çünki bu məktəb ümümdünya əhəmiyyətinə

malikdir. Bu məktəb standart pedaqoqlar, baletmeysterlər məktəbi deyildir, o, tapıntıdır, rəqs mədəniyyətidir, rəqs tarixidir».

Prezident Heydər Əliyev «İki körpənin güləşi» nanay xalq oyununun ifaçısı Aleksandr Matus-Marçuku gözəl və heyranedici çıxışa görə xususi təbrik etdi.

Görüşün sonunda dövlətimizin başçısı gözəl konsertə görə ansamblın bütün üzvlərinə bir daha təşəkkür etdi. Artistlər də təbriklərə və xoş sözlərə görə dövlətimizin başçısına öz minnətdarlıqlarını bildirdilər.

*Azərbaycan,*
*1998, 8 noyabr*

## «Sədası bahardır Vətənimizin»

Aprelin 21-də Respublika sarayında xalq artistləri, dövlət mukafatı laureatları Fidan və Xuraman Qasımova bacılarının iştirakı ilə konsert olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev konserti dinləmək üçün saraya gəldi. Salona toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Respublika Mədəniyyət Nazirliyinin və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təşəbbüsü ilə «Sədası bahardır Vətənimizin» devizi altında keçirilən konsertin əvvəlində bədii rəhbər və baş dirijor, xalq artisti Rauf Abdullayevin idarəsi ilə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında Motsartın «Fiqaronun toyu» operasından uvertüra səsləndi. Sonra xalq artistləri Fidan və Xuraman Qasımova bacıları dünyanın, o cümlədən Azərbaycanın görkəmli bəstəkarlarının klassik və yeni əsərlərini ifa etdilər.

Fasilə zamanı Azərbaycan Prezidenti Heydər Əliyev sarayın foyesini gəzdi, ədəbiyyat, elm, mədəniyyət, incəsənət xadimləri ilə, xarici qonaqlarla, səfirlərlə səmimiyyətlə görüşdü.


"MUĞAM-İRS"
LAYİHƏSİ
"QARABAĞ
XANƏNDƏLƏRİ"


QARABAĞ XANƏNDƏLƏRİ
QARABAĞ XANƏNDƏLƏRİ













Konsertin ikinci hissəsində Qara Qarayevin «İldırımlı yollarla» baletindən adajio, gənc bəstəkarların yeni yazdıqları və ilk dəfə səslənən «Bahar duası», «Ulduzlar», «Azərbaycanım mənim» mahnıları, həmçinin klassik bəstəkarların əsərlərindən nümunələr yüksək peşəkarlıqla ifa olundu, musiqisevərlərin hərarətli alqışları ilə qarşılandı.

Müvəffəqiyyətlə keçən konsert başa çatdıqdan sonra Xuraman Qasımova öz adından və bütün ifaçılar adından Heydər Əliyevə dərin minnətdarlığını bildirərək dedi:

– Möhtərəm cənab Prezident, icazə verin Sizə öz təşəkkürümüzü bildirək ki, vaxt ayırıb bizim konsertimizə təşrif buyurdunuz. Hamınıza təşəkkür edirik ki, bizi belə dəstəkləyir, alqışlayırsınız. Çox xoşbəxtik və sevinirik ki, hörmətli Prezidentimiz öz gəlişi ilə bu konsertə xüsusi yaraşıq verdi. Biz sizin hamınıza bütün kollektivin adından «çox sağ olun» deyirik.

Əlbəttə, biz hamımız çox həyəcanlıyıq. Azərbaycan Mədəniyyətinin Dostları Fonduna, onun sədri, daxilən də, zahirən də çox gözəl insan olan Mehriban xanıma mədəniyyətimizə göstərdiyi qayğıya görə təşəkkür edirik. Mədəniyyət Nazirliyinə, konsertimizin baş tutmasına kömək edən bütün insanlara dərin minnətdarlığımızı bildiririk. Çox sağ olun.

* * *

Prezident Heydər Əliyev konsertdən sonra xalq artistləri Fidan və Xuraman Qasımova bacıları, Rauf Abdullayev ilə görüşdü, onları uğurlu çıxışları münasibətilə təbrik edərək dedi:

– Həmişəki kimi, çox yaxşı oxudunuz. Yadınızdadırmı, mən söz vermişdim gələcəyəm və gəldim.

**Fidan Qasımova:** – Çox sağ olun. Hər zaman olduğu kimi, Siz sözünüzün üstündə durursunuz, bizə qayğı göstərirsiniz, dəstək verirsiniz. Cənab Prezident, proqramımız xoşunuza gəldimi?

**Heydər Əliyev:** – Yaxşı oxudunuz, çox yaxşı, xoşuma gəldi.

**Xuraman Qasımova:** – Sizi yormadıq ki?

**Heydər Əliyev:** – Yox. Bu gün mənim doğrudan da çox ağır günüm idi. Mən saat 2-dən buraya gələnə qədər ağır bir müşavirə keçirirdim. Həddindən artıq yorulmuşdum və oradan çıxıb buraya gəlmişəm. Orkestr də çox xoşuma gəldi. Orkestr xeyli irəliləyibdir.

**Fidan Qasımova:** – Möhtərəm Prezident, Siz gələndə daim qayğı göstərirsiniz.

**Heydər Əliyev:** – Bir mən gələndə yox, indi də bu orkestrin səviyyəsi qalxıbdır. Bu, çox gözəldir.

Mədəniyyət naziri Polad Bülbüloğlu: – Cənab Prezident, Siz kömək etdiniz, maaşları qaldırdınız, musiqi alətləri aldınız. Ona görə də səviyyəsi qalxıbdır.

**Heydər Əliyev:** – Elədir, indi orkestr çox gözəl bir simfonik orkestrdir.

**Rauf Abdullayev:** – Çox sağ olun, cənab Prezident, Sizə minnətdarıq.

Prezident Heydər Əliyev incəsənət ustaları ilə xatirə şəkli çəkdirdi.

Milli Məclis sədrinin birinci müavini Arif Rəhimzadə, sədrin müavini Yaşar Əliyev, Prezidentin İcra Aparatının şöbə müdiri Fatma Abdullazadə, Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev və ailə üzvləri, xarici ölkələrin səfirləri və digər rəsmi şəxslər də konsertdə olmuşlar.

***Azərbaycan,***
***2000, 22 aprel***

## *Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təşəbbüsü ilə muğam axşamı keçirilmişdir*

Martın 21-də Novruz bayramı münasibətilə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycan Mədəniyyətinin Dostları Fondu YUNESKO-nun dəstəyilə reallaşdırdığı “Muğam dəst-

gahları” layihəsi çərçivəsində muğam axşamı keçirmişdir.

Salona toplaşanlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, xanımı Mehriban Əliyevanı və Gürcüstan Prezidentinin xanımı Sandra Elizabet Rulofsu hərarətli alqışlarla qarşıladılar.

Dövlət Mahnı və Rəqs Ansamblının ifasında milli rəqs ifa olunduqdan sonra səhnəyə gələn Bahar qızı iştirakçıları əziz Novruz bayramı münasibətilə təbrik etdi və dedi ki, ölkəmiz müstəqillik qazandıqdan sonra bu bayram dövlət səviyyəsində qeyd olunur. Yeni həyatın canlanmasının müjdəçisi olan Novruzu xalqımız həmişə dərin məhəbbət və sevgi ilə qarşılayır.

Milli geyimli qızlar su, yel, od və torpaq çərşənbələrin mahiyyəti barədə məlumat verdilər. Bildirildi ki, bütün bunlara görə ta qədimdən Novruz bayramı dörd həftə davam edir.

Sonra Azərbaycanın əməkdar artisti Mənsum İbrahimov və xalq artisti Səkinə İsmayılova “Rast” və “Hümayun” muğamlarını məharətlə ifa etdilər. Onların çıxışları və həmişəyaşar muğamlarımız böyük maraqla dinlənildi, sürəkli alqışlarla yüksək qiymətləndirildi.

Milli Məclisin sədri Murtuz Ələsgərov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər müvəffəqiyyətlə keçən konsertdə olmuşlar.

***AzərTAc***
***2005, 31 mart***

## *Azərbaycan Mədəniyyətinin Dostları Fondu Filarmoniyada muğam axşamı təşkil etmişdir*

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun «Muğam dəstgahları» layihəsi çərçivəsində iyunun 8-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında növbəti muğam axşamı təşkil edilmişdir.

Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-

nun xoşməramlı səfiri Mehriban Əliyeva konsertdə olmuşdur.

Budəfəki muğam axşamında cavan nəslə mənsub ifaçılar – respublikanın əməkdar artisti Aygün Bayramova və Zabit Nəbizadə çıxış etmişlər. Musiqisevərlər Aygün Bayramovanın ifasında «Şahnaz» və «Kəsmə şikəstə», Zabit Nəbizadənin oxuduğu «Çahargah» muğamlarını hərarətlə, dəfələrlə sürəkli alqışlarla qarşıladılar. Bu alqışlarda xanəndələri ustalıqla müşayiət edən tarzənlər Elçin Haşımov və Ələsgər Məmmədovun, kamança çalanlar Elnur Əhmədov və Xəyyam Məmmədovun, digər musiqiçilərin də payı vardı.

Musiqi sənətimizin baş tacı olan muğamların qorunub saxlanması və təbliğinə son dövrdə göstərilən diqqət və qayğı həm ictimaiyyət, həm də incəsənət xadimləri tərəfindən çox böyük razılıqla qarşılanır və haqlı olaraq deyilir ki, «Muğamatın keşiyində duranlar min yaşasın».

Konsertdən sonra respublikamızın bir qrup tanınmış ağsaqqal sənətçisi Mehriban xanım Əliyevaya yaxınlaşaraq, xalqımızın milli mədəniyyətinin misilsiz sərvəti olan muğamlarımızın dünyada təbliği sahəsində gördüyü işləri yüksək qiymətləndirdilər və ona dərin təşəkkürlərini bildirdilər.

***Xalq qəzeti,***
***2005, 9 iyun***

## *Atəşgahda unudulmaz konsert*

Avqustun 25-də Suraxanıdakı qədim Atəşgah məbədində ölkəmizdə rəsmi səfərdə olan YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın, onun xanımının, YUNESKO-nun xoşməramlı səfirlərinin şərəfinə Azərbaycan incəsənət ustalarının iştirakı ilə böyük konsert olmuşdur.

Qəsəbə sakinləri YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliye-

vanı hərarətlə, gül-çiçəklə qarşıladılar. Mehriban Əliyeva YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranı və xanımını səmimiyyətlə qarşıladı. Hörmətli qonağa və xanımına gül dəstələri təqdim edildi. Geniş konsert proqramında səslənən mahnı və muğamlar, oynaq rəqs havaları qonaqlarda Azərbaycanın zəngin mədəniyyətinin mühüm qollarından biri haqqında əyani təsəvvür yaradırdı. Konsert boyu məbədin divarındakı geniş ekranda Azərbaycanın təbiətini, tarixi abidələrini əks etdirən sənədli kinokadrlar bu təəssüratı daha da gücləndirirdi.

Mədəniyyət naziri Polad Bülbüloğlu çıxış edərək, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın «Şöhrət» ordeni ilə təltif olunmasını böyük razılıq hissi ilə qarşılandığını vurğuladı, onu ölkəmizin elm, mədəniyyət, təhsil işçiləri adından təbrik etdi. Nazir YUNESKO-nun xoşməramlı səfiri, məşhur skripkaçı İvri Gitlisin ad günü olduğunu bildirərək, qocaman sənətçiyə təbriklərini yetirdi və onu səhnəyə dəvət etdi. İvri Gitlis öz qısa çıxışında avqustun 25-nin dünyanın bir çox tanınmış simalarının, gözəl sənətçilərin, məşhur insanların doğum günü olduğunu vurğuladı və dedi ki, bu insanlar içərisində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyeva da var. Mehriban xanımı bütün xoşməramlı səfirlər, YUNESKO ailəsi adından təbrik edən İvri Gitlis onu musiqi ilə salamladı.

Konsert atəşfəşanlıqla başa çatdı.

Atəşgahın həyətində rəqs edənlər Mehriban xanımı, qızları Leyla və Arzunu, cənab Koişiro Matsuuranı və xanımını, xoşməramlı səfirləri də rəqsə dəvət etdilər.

YUNESKO-nun Baş direktoru Koişiro Matsuura bu konsertin onun və səfər yoldaşlarının qəlbində silinməz iz qoyduğunu, Azərbaycanın zəngin tarixi və mədəniyyəti, musiqisi ilə daha dərindən tanış olmağa imkan yaratdığını söylədi, bu xoş anları onlara bəxş edən

Mehriban xanıma öz minnətdarlığını, ad günü münasibətilə ən xoş arzularını bildirdi. Mehriban xanım Əliyeva xoş sözlərə və təbriklərə görə YUNESKO-nun Baş direktoruna təşəkkürünü bildirdi, ona Bakıya səfərini əks etdirən fotoalbom hədiyyə etdi.

Milli Məclisin sədri Murtuz Ələsgərov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər, xarici ölkələrin respublikamızdakı səfirləri, yaradıcı ziyalıların nümayəndələri konsertdə olmuşlar.

***Xalq qəzeti,***
***2005, 26 avqust***

## 3. Xeyriyyə konsertləri

### Azərbaycan Mədəniyyətinin Dostları Fondu

Sentyabrın 9-10-da ilk dəfə olaraq Bakıda Azərbaycan Dövlət Sirkinin binasında "Rusiya ulduzlarının nümayişi" adlı xeyriyyə konsertləri təşkil edilir. Konsertlərdə Dmitri Malikov, Soso Pavliaşvili, Viktor Çayka, Əzizə, İrina Saltıkova, İrina Miroşniçenko, Angelina Vovk (aparıcı) iştirak edəcəklər.

***Azərbaycan,***
***1996, 6 sentyabr***

### «Vivaldi-Orkestr»in xeyriyyə konserti

Dekabrın 20-də Bakıda, Akademik Opera və Balet Teatrında Rusiya Dövlət Akademik Kamera Orkestrinin – «Vivaldi-orkestr»in xeyriyyə konserti olmuşdur. Konserti Azərbaycan Mədəniyyətinin Dostları Fondu və «Most-bank» təşkil etmişlər.

Salona toplaşanlar Azərbaycan Prezidenti Heydər Əliyevi hərarətlə qarşıladılar.

«Most-bank»ın prezidenti Vladimir Qusinski konsertin başlanmasından əvvəl çıxış edərək dedi ki, bu

konsert «Most-bank»ın törəmə bankı olan «Most-bank Azərbaycan»ın fəaliyyətinin bir illiyinə həsr olunmuşdur. O, bu bankın ölkəmizdə uğurla fəaliyyət göstərməsinə imkan yaradıldığına görə Azərbaycan Prezidenti Heydər Əliyevə təşəkkür etdi.

Sonra Azərbaycan Mədəniyyətinin Dostları Fondunun İdarə Heyətinin üzvü, Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli çıxış edərək bədii rəhbəri, dirijoru və solisti Rusiyanın xalq artisti Svetlana Bezrodnaya olan orkestri yenidən dinləmək üçün yaradılmış gözəl imkana görə «Most-bank»a Fondun adından və ilk növbədə onun həmsədrləri adından minnətdarlığını bildirdi. F.Bədəlbəyli Azərbaycan mədəniyyətinin inkişafına Fondun töhfəsindən danışdı.

Sonra «Vivaldi-orkestr»in konserti başlandı. Vivaldinin, Motsartın, Ştrausun, Sibeliusun, Şostakoviçin, Qara Qarayevin, Korellinin, Dvorjakın, Andersonun əsərləri səsləndi. SSRİ xalq artisti, Rusiyanın dövlət mükafatı laureatı pianoçu Nikolay Petrov və beynəlxalq müsabiqələr laureatı, P.İ.Çaykovski adına X beynəlxalq müsabiqənin Qran-pri mükafatına layiq görülmüş müğənni Xiblı Gerzmava Baxın, Verdinin və Koççinin əsərlərini ifa etdilər.

Tamaşaçılar Rusiyanın məşhur teatr və kino aktyoru, «Donuzabaxan qız və çoban» filmindən tanış olan SSRİ xalq artisti, Dövlət mükafatı laureatı Vladimir Zeldini səmimi qarşıladılar. O, həmin filmdən monoloqu və mahnını ifa etdi. V.Zeldin 1983-cü ildə Bakıya qastrol səfərini xatırlayaraq konsertlərin birindən sonra Heydər Əliyevlə görüşündən danışdı və onun son dərəcə ağıllı və olduqca cəzbedici insan olduğunu bildirdi. Aktyor dedi ki, Azərbaycanın bəxti çox gətirmişdir ki, onun Heydər Əliyev kimi rəhbəri var. Svetlana Bezrodnaya da səmimi qarşılandıqlarına görə dövlətimizin başçısına, habelə tamaşaçılara minnətdarlığını ifadə etdi. O dedi ki, Bakı artistlər üçün xoşbəxt şəhərdir, vaxtilə məşhur olan «Bakının musiqili

payızı» festivalında iştirak etmək üçün «Vivaldi-orkestr» də 1989-cu ildə, yarandığından cəmi yarım il sonra buraya dəvət olunmuşdur. S.Bezrodnayanın dediyi kimi, orkestrin öz həyatında ilk iki konsertin məhz Bakıda verməsi kollektivin sonrakı fəaliyyəti üçün vizit vəsiqəsi olmuşdur. O zaman konsertin Bakıda çəkilmiş lenti dünyanın bütün ölkələrini dolaşmışdır. S.Bezrodnaya V.Zeldinin Azərbaycan Prezidenti Heydər Əliyev haqqında dediyi sözlərə şərik çıxaraq vurğuladı ki, dövlət başçısının müdrikliyi və təmkini, daxili və zahiri gözəlliyi bütünlükdə Azərbaycanın simasını müəyyən edir. O, dövlətimizin başçısına uğurlar və cansağlığı dilədi.

* * *

Prezident Heydər Əliyev konsertdən sonra orkestrin musiqiçiləri ilə görüşdü. Dövlətimizin başçısı «Vivaldi-orkestr»in yüksək peşəkarlığını vurğulamaqla yanaşı Azərbaycan incəsənətinin də yüksək səviyyəsini qeyd etdi. Ölkəmizin rəhbəri «Vivaldi-orkestr»in kollektivinə gələcək fəaliyyətində uğurlar, xoş günlər arzuladı, onu qarşıdan gələn Yeni il münasibəti ilə təbrik etdi və Bakıya bir daha gəlməyə dəvət etdi.

Konsertdə baş nazir Artur Rasizadə, xarici işlər naziri Həsən Həsənov, mədəniyyət naziri Polad Bülbüloğlu, xarici ölkələrin Bakıdakı səfirliklərinin başçıları, beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndələri, digər rəsmi şəxsi şəxslər də olmuşlar.

***Azərbaycan, 1996,***
***21 dekabr***

## *Respublika sarayında xeyriyyə konserti*

Noyabrın 25-də Respublika Sarayında Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təşəbbüsü ilə «Uşaqlar gələcəyimizdir» devizi altında xeyriyyə konserti olmuşdur.

Salona toplaşanlar Azərbaycan Prezidenti Heydər Əliyevi hərarətli alqışlarla qarşıladılar.

Tədbirin aparıcısı Nərgiz Cəlilova məlumat verdi ki, xeyriyyə konserti respublikamızda şəkər xəstəliyinə tutulmuş uşaqlara yardım məqsədilə təşkil edilmişdir. Konsertdən əldə edilən vəsait uşaqların müalicəsi üçün lazım olan cihazların, tibb ləvazimatının və dava-dərmanın, habelə Kübra Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu üçün xüsusi UZİ aparatının alınmasına xərclənəcəkdir. Aparıcı Fondun sədri Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü ilə indiyədək bir neçə belə humanist tədbir keçirildiyini bildirdi və uşaqlar ona təşəkkür etdi.

Xüsusi vurğulandı ki, dövlətimizin başçısının ölkəmizdə gənclərə, uşaqlara göstərdiyi diqqət və qayğı nəticəsində onların sağlam və gümrah böyüməsi üçün lazımi şərait yaradılmışdır.

Sonra Azərbaycanın görkəmli incəsənət xadimləri – xalq artistləri Fərhad Bədəlbəyli, Fidan və Xuraman Qasımova bacıları, Alim Qasımov, müğənnilər Brilyant Dadaşova, Zülfiyyə Xanbabayeva, Xəyalə Manaflı, habelə «Bakılı oğlanlar» klubu, «Rast» qrupu, «Bəri bax» ansamblı, Dövlət Kamera Orkestri, Dövlət Uşaq Filarmoniyasının rəqs ansamblı, eləcə də Rusiyanın tanınmış estrada müğənniləri Larisa Dolina, Batırxan Şukenov, Aleksandr Buynov, Andrey Qubin və «Strelki» qrupu konsert proqramı ilə çıxış etdilər. Onların ifa etdikləri bir-birindən gözəl və rəngarəng mahnılar, musiqi nömrələri, o cümlədən Prezidentin nəvəsi Leyla Əliyevanın sözlərinə bəstələnmiş «Tənha oturacaq» mahnısı böyük maraqla dinlənildi, alqışlarla qarşılandı.

* * *

Konsert başa çatdıqdan sonra respublikamızın Prezidenti Heydər Əliyev səhnə arxasına gələrək Azərbaycanın və Rusiyanın incəsənət ustalarını uğurlu çıxışları münasibətilə təbrik etdi, onlara yeni nailiyyətlər arzuladı:

– Çox gözəl konsertinizə görə sizi təbrik edirəm. Siz bu gün Azərbaycanın mədəniyyətinin, incəsənətinin yeni nailiyyətlərini bir daha nümayiş etdirdiniz. Ancaq bunun məni çox sevindirən mənası ondan ibarətdir ki, uşaqlar həm oynayırlar, həm də onlara qayğı göstərilir. Xüsusən şəkər xəstəliyi olan uşaqlar üçün bu gün xeyriyyə konserti verildi.

Sizin hər birinizin çıxışı, təbiidir ki, bizi çox sevindirir, insanlara sevinc gətirir. Sizin ifaçılığınızla, gözəl səsinizlə, mahnılarınızla, rəqslərinizlə bərabər, bugünkü çıxışınız məni ona görə çox sevindirdi ki, bu, xəstə uşaqlara, o cümlədən şəkər xəstəliyinə tutulmuş uşaqlara kömək üçün təşkil olunmuşdur. Şəkər xəstəliyi elə bir ağır xəstəlik deyildir. Bu xəstəliyə adətən yaşlı adamlar tutulurlar, ancaq uşaqlar da xəstələnirlər. Amma onları sağaltmaq müalicə və vəsait tələb edir. Mən çox məmnunam ki, bu xeyriyyə konserti onların müalicəsinə kömək edəcəkdir. Ona görə də «Mədəniyyətin Dostları» Fondunun təşəbbüsü, – Mehriban Əliyeva buradadır, – çox böyük tərifə və hər cür dəstəyə layiqdir. Mən ümid edirəm ki, bu, şübhəsiz, digər xeyriyyə təşkilatları üçün nümunə olacaq ki, onlar uşaqlar, xəstə uşaqlar haqqında düşünsünlər, belə uşaqlara qayğı göstərsinlər, xalqımızın, cəmiyyətimizin, xüsusən uşaqların sağlamlığının möhkəmləndirilməsinə öz töhfələrini versinlər.

Burada Moskvadan gəlmiş qonaqlarımız vardır. Yəqin ki, onlar məni başa düşmür və Anar Məmmədxanov da tərcümə etmir. Sən niyə tərcümə etmirsən?

**Anar MƏMMƏDXANOV:** Cənab Prezident, baş üstə, tərcümə edərəm.

**Heydər ƏLIYEV:** Edə bilməyəcəksən. Mən dediyim sözləri onlara çatdıra bilməyəcəksən.

**Anar MƏMMƏDXANOV:** Əlbəttə, Sizin hər bir sözünüzün böyük mənası vardır. Rusca heç ona uyğun sözlər yoxdur.

**Heydər ƏLIYEV:** Rusca var, rusca sözlər çoxdur.

Konsert ona görə gözəldir ki, Fondda bizə dəfələrlə dedikləri kimi, burada həm Azərbaycanın, həm də Ru-

siyanın, Moskvanın ulduzları toplaşıblar. Bu, salondakıların münasibətindən də görünürdü. İkincisi də, mən ulduzların hamısını, doğrudur, hamısını olmasa da, hər halda tanıyıram. Bu konsertin Azərbaycan musiqisindən ibarət hissəsində bizim Fidan və Xuraman Qasımovalar kimi görkəmli müğənnillərimizin iştirakının özü bu tədbirin səviyyəsini qaldırır. Bizim qədim muğamlarımızı yeni səpgidə təqdim edən Alim Qasımovun və digərlərinin – Brilyant xanımın, Zülfiyyə xanımın və bir çox başqalarının, əlbəttə ki, Fərhad Bədəlbəylinin adlarını da çəkməliyik. Fərhad Bədəlbəyli həmişəki kimi, yenə də royalda gözəl ifa etdi. Bütün başqaları da. Əlbəttə, uşaqların rəqsləri xüsusi hisslər doğurur, bu, olduqca təsirlidir. Bir baxın, necə balaca, qəşəng və gözəl uşaqlardır, necə rəqs edirlər, gülürlər, bizə baxırlar.

Hesab edirəm ki, bizim moskvalı qonaqlarımız müasir estradanın ən yaxşı nümunələrini göstərdilər. İndi camaat, xüsusən gənclər estradanı sevir. Əlbəttə, biz də sevirik, elə bilməyin ki, təkcə gənclər sevir. Mən özüm də sevirəm, salonda oturub qonaqlarımızı məmnuniyyətlə dinləyirdim. Onların səsləri də gözəldir, musiqi də, mahnılar da gözəldir. Ümumiyyətlə, bütövlükdə hamısı gözəldir. Bizim həmyerlimiz Dolina burada həmişə heyranlıq doğurur. Ancaq bu gün onunla birlikdə burada çıxış edərkən başqaları da var, ola bilsin, onlar bundan əvvəl Azərbaycanda olublar, bəlkə də olmayıblar. Bir sözlə, hamısı yaxşı formada idi, hamı ruh yüksəkliyi ilə, ürəklə çıxış edirdi.

Sizin səsləriniz və ifaçılıq məharətiniz, şübhəsiz ki, dinləyicilərə çox böyük zövq verdi. Mənə dedilər ki, bu konsertə gəlmək arzusunda olanların sayı lap çox idi, amma bilet tapa bilməyiblər. Bəziləri isə bir təhər buna imkan tapmaq üçün gəliblər. Salonda boş yer yox idi. Bu, əlbəttə, Azərbaycanın incəsənət xadimlərinə, xüsusən də Rusiyanın incəsənət xadimlərinə göstərilən böyük maraqdan xəbər verir. Buraya gəldiyinizə görə, – bugünkü çıxışınıza, mahnılara, rəqslərə görə sağ olun, hamı rəqs edir və oxuyurdu – bu, çox orijinaldır.

Əvvəllər isə belə deyildi, yaxşı müğənni səhnəyə çıxır, bir yerdə dayanır, musiqiçilər çalır və o, oxuyurdu. İndi isə artıq başqa zəmanədir. Amma biz həmin vaxtları xatırlayırıq. İndi isə rəqs edir, atılıb-düşür, oxuyurlar. Mən fikirləşirəm ki, bu, necə mümkün olur? Buradan oraya qaçmaq, tullanmaq, bəzən hətta salto etmək və eyni zamanda oxumaq lazımdır. Əlbəttə, bütün bunlar bu zəmanəyə, xüsusən də bütün dünyada, o cümlədən həm Rusiyada, həm də Azərbaycanda gənclərə xas olan hallardır.

Əziz dostlar, siz bu gün çox gözəl çıxış etdiniz. Mən sizə təşəkkür edirəm ki, siz buraya gəlmisiniz, bugünkü əla çıxışınıza görə təşəkkürümü bildirir və sizə yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Təbii ki, bu konsertdə bizə böyük fərəh verən bir də odur ki, salondakılar rus musiqisini və Azərbaycan musiqisini eyni dərəcədə sevirlər. Azərbaycan mahnıları, rus mahnıları eyni ruh yüksəkliyi ilə qarşılanır. Hesab edirəm ki, bu, çox mühüm cəhətdir. Əlbəttə, mən şadam ki, bizim xalqımız, xüsusən gənclərimiz təkcə öz milli musiqimizi sevməklə kifayətlənmirlər. Onlar öz milli mədəniyyətlərinə böyük məhəbbət bəsləyirlər, eyni zamanda başqa xalqların, ilk növbədə bütün Rusiya xalqlarının musiqisini və mahnılarını dinləməyi xoşlayırlar. Ona görə ki, biz həmişə Rusiya ilə bağlı olmuşuq.

«Bakılı oğlanlar» klubunun üzvləri buradadırlar. Mən sizi qazandığınız qələbə münasibətilə təbrik edirəm. Ümumiyyətlə, sizə oturub tamaşa edəndə, şübhəsiz ki, diqqət yayınır, amma televiziya ilə baxanda hərəkətləri, mimikanı və s. yaxından görürsən, bu, daha yaxşıdır. Ancaq şübhəsiz ki, siz məni də unutmursunuz, sizin dostluq şarjınız həmişə xoşuma gəlir, əgər bacarsanız, daha nəsə tapın. Mən bilirəm, bax o, bu işləri yaxşı bilir, boyu balaca olduğuna görə burada çox da gözə dəymir. Ancaq dediklərimin hamısını çox yaxşı təqdim edir. O, çox adamları yamsılayır, hərəni də müxtəlif şəkildə. Bu gün sizin çıxışınız qısa oldu, sonra aşıq rolunda sənin qardaşın çıxış etdi. Gələn dəfə sizinlə görüşərik.

Mən sizi bir daha təbrik edirəm. Sizə cansağlığı, uğurlar diləyir və ən xoş arzularımı yetirirəm.

**Larisa DOLİNA:** Biz də Sizə cansağlığı arzulayırıq. Çox sağ olun. Heydər Əliyeviç, icazə verin, Sizinlə görüşməyimiz münasibətilə üzünüzdən öpüm.

Prezident Heydər Əliyev xeyriyyə konsertinin iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

Mədəniyyət naziri Polad Bülbüloğlu, Prezidentin İcra Aparatının şöbə müdiri Fatma Abdullazadə, Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyev, onun xanımı – Azərbaycan Mədəniyyətinin Dostları Fondunun sədri Mehriban Əliyeva konsertdə olmuşlar.

***Azərbaycan,***
***2000, 26 noyabr***

## *4. Təqdimatlar, müsabiqələr, yubileylər*

### *Respublika Dövlət İncəsənət Muzeyinin albom-kataloqunun təqdimatı*

Yanvarın 25-də Azərbaycan Prezidenti Heydər Əliyev respublika Dövlət İncəsənət Muzeyinin albom-kataloqunun təqdimat mərasimində iştirak etmişdir. Albom-kataloq Azərbaycan Mədəniyyətinin Dostları Fondunun və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) köməyi ilə nəşr olunmuşdur.

Təqdimat mərasimini respublikanın mədəniyyət naziri Polad Bülbüloğlu giriş sözü ilə açaraq vaxt tapıb bu mərasimdə iştirak etdiyinə görə Azərbaycan Prezidenti Heydər Əliyevə dərin minnətdarlığını və təşəkkürünü bildirdi. Qədim əsrlərdən müasir dövrə qədər yaradılmış Azərbaycan, Qərbi Avropa, rus, Şərq ölkələri təsviri və dekorativ tətbiqi sənət əsərlərinin nümayiş

etdirildiyi Dövlət İncəsənət Muzeyinin yeni albom-kataloqunun Azərbaycan Mədəniyyətinin Dostları Fondunun və ABƏŞ-in birgə köməyi ilə nəşr edilməsini mühüm hadisə kimi qiymətləndirən natiq mədəniyyətimizin digər sahələri üzrə də belə albomların hazırlanmasının vacib olduğunu söylədi.

Polad Bülbüloğlu Azərbaycan Dövlət İncəsənət Muzeyinin albom-kataloqunun ilk nüsxəsini dövlətimizin başçısı Heydər Əliyevə təqdim etdi.

Sonra söz ABƏŞ-in vitse-prezidenti Art Makkafiyə verildi. O, Azərbaycan Dövlət İncəsənət Muzeyinin albom-kataloqunun nəşr olunmasında yaxından iştirak etməkdən məmnun qaldıqlarını bildirdi. Azərbaycan neft yataqlarının birgə işlənməsi barədə imzalanmış «Əsrin müqaviləsi»nin həyata keçirilməsi sahəsində ABƏŞ-in gördüyü işlərdən bəhs edən cənab Makkafi Azərbaycan incəsənətinin geniş təbliğində bundan sonra da yaxından iştirak edəcəyini vurğuladı.

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun üzvlərindən biri olan ABŞ səfirinin xanımı Ənn Kozlariç mərasimdə çıxış edərək bu albom-kataloqun nəşr edilməsində ABƏŞ-lə birlikdə yaxından iştirak etmələrindən məmnun olduğunu söylədi. Bu nəşrin Azərbaycan incəsənətinin geniş təbliğində böyük əhəmiyyət kəsb etdiyini nəzərə çarpdıran xanım Kozlariç xalqımızın zəngin ənənələrə malik incəsənətinin dünya xalqları mədəniyyəti arasında özünəməxsus yer tutmasından razılıqla söhbət açdı.

Xanım Kozlariç daha sonra yeni albom-kataloqun təqdimatı münasibətilə təşkil olunmuş konsert barədə ətraflı məlumat verdi. Xalq artisti, professor Fərhad Bədəlbəylinin müşayiəti ilə xalq artistləri Xuraman və Fidan Qasımovalar, Azər Zeynalov Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərini ifa edərək dinləyiciləri heyran qoydular.

Konsertdən sonra Azərbaycan Prezidenti Heydər Əliyev ifaçılarla səmimi görüşdü və onlara yeni-yeni yaradıcılıq uğurları arzuladı.

Mərasimdə Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, xarici işlər naziri Həsən Həsənov, təhsil naziri Lidiya Rəsulova, Bakıda səfərdə olan Rusiya Federasiyası Prezidentinin müşaviri Emil Pain, ABŞ-ın ölkəmizdəki səfiri Riçard Kozlariç və digər rəsmi şəxslər iştirak edirdilər.

*Azərbaycan,*
*1997, 28 yanvar*

## *Azərbaycan Mədəniyyətinin Dostları Fondu «Azərbaycan xanəndələri» adlı divar təqvimi (2005) buraxmışdır*

Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə işıq üzü görmüş bu nəfis tərtibatlı təqvimdə musiqi mədəniyyətimizin inkişafında, muğam sənəti və milli ifaçılıq tariximizdə böyük rol oynamış 12 görkəmli xanəndənin portreti təqdim olunmuşdur. Sənətdə öz məktəbini yaratmış həmin müğənnilər – Cabbar Qaryağdıoğlu, Keçəçi oğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, Əbdülbaqi Zülalov (Bülbülcan), Məşədi Cəmil Əmirov, İslam Abdullayev, Məcid Behbudov, Hüseynqulu Sarabski, Seyid Şuşinski, Murtuza Məmmədov (Bülbül), Zülfü Adıgözəlov, Xan Şuşinski haqqında həm də qısa bioqrafik məlumat verilmişdir.

Azərbaycan, rus və ingilis dillərində buraxılmış təqvim Mehriban xanım Əliyevanın bu il sentyabrın 9-da Parisdə ona YUNESKO-nun xoşməramlı səfiri adının təqdim edilməsi mərasimindəki çıxışında dediyi sözlərlə açılır: «Muğam da, aşıq yaradıcılığı da, milli musiqi alətlərimizin bənzərsiz melodiyaları da bu günə qədər qoruyub saxladığımız və gələcək gün naminə qorumağa borclu olduğumuz irsin yalnız bir hissəsidir. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun fəa-

liyyəti məhz bu məqsədə yönəldilmişdir, YUNESKO-nun xoşməramlı səfiri kimi mənim bütün gələcək fəaliyyətim də bu məqsədə yönələcəkdir».

*Xalq qəzeti, 2004,*
*31 dekabr*

## *«Qarabağ xanəndələri» albomunun təqdimat mərasimi*

Aprelin 8-də «Gülüstan» sarayında YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyevanın «Azərbaycan muğamları» layihəsi çərçivəsində «Qarabağ xanəndələri» albomunun təqdimatı keçirilmişdir.

YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva mərasimi açaraq dedi:

– Hörmətli mərasim iştirakçıları! «Qarabağ xanəndələri» albomunun təqdimat mərasiminə xoş gəlmisiniz. «Qarabağ xanəndələri» albomu «Muğam-irs» layihəsinin ilk albomudur. Siz hər bıriniz bu albomu hədiyyə olaraq almısınız. Mən inanıram ki, bu albomla tanış olanda hiss etmisiniz ki, biz onu nə qədər məsuliyyətlə, digər tərəfdən də böyuk məhəbbətlə hazırlamışıq. Heç də təsadüfi deyil ki, bizim ilk layihəmiz Qarabağ xanəndələrinə həsr olunmuşdur. Biz Qarabağ torpağının acısını, Azərbaycanın haqq səsini muğam vasiləsilə bütün dünyaya çatdırırıq. Bu ilin mart ayında YUNESKO-nun qərargahında xoşməramlı səfirlərin illik toplantısında bu albom təqdim olunmuş və çox böyük diqqət və maraq cəlb etmişdi. Mənim muğam ustaları ilə ilk görüşümdən çox az vaxt keçib, amma bu müddətdə kifayət qədər iş görülübdür. Artıq muğam dəstgahlarının Filarmoniyada səslənməsi bir ənənəyə çevrilibdir. Muğam Mərkəzinin inşası barəsində qərar qəbul olunub, muğam ensiklopediyası hazırlanır.

Muğam sənətinə həsr olunmuş traktatlar tərcümə edilir və çapa hazırlanır. Bütün bu addımlar bizim birgə

səylərimizin nəticəsidir. Mən bu gün Azərbaycanın bütün muğam ustalarına, sənətkarlarımıza, alimlərimizə, muğamı sevən hər bir insana çox dərin minnətdarlığımı və hörmətimi bildirmək istəyirəm.

Muğam artıq təkcə bizim Azərbaycanın yox, bütün dünyanın sərvətidir. Bizim məqsədimiz muğamı qorumaq, inkişaf etdirmək, muğamın gözəlliyini, onun dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaqdır. Bu yolda hər birimizə uğurlar arzulayıram və mərasimi açıq elan edirəm.

Sonra «Qarabağ xanəndələri» albomunda səs yazısı olan 24 sənətçinin ifasında muğam parçaları səsləndirildi. Xalqımızın bənzərsiz muğam sənəti nümunələri, bütün Şərqin əvəzsiz ifacılarının – Keçəçi oğlu Məhəmmədin, Məşədi Məmməd Fərzəliyevin, Məcid Behbudovun, Seyid Şuşinskinin, Xan Şuşinskinin, İslam Abdullayevin, Bülbülün, Zülfü Adıgözəlovun, Əbülfət Əliyevin, müasir muğam ustalarının ifası böyük maraqla qarşılandı. Muğam ustalarının ürəkləri riqqətə gətirən ifası layihə çərçivəsində «Salnamə» studiyasında rejissor Xamis Muradovun rəhbərliyi ilə hazırlanmış sənədli filmin kadrlarının nümayişi ilə müşayiət olunur, belə nadir sənətkarlar yetirən Azərbaycan torpağının misilsiz gözəllikləri bir daha göz önündə canlanır, sanki indi yağı tapdağında, işğal altında olan doğma torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə səsləyirdi. Bəli, belə möcüzəli musiqinin beşiyi olan torpaq düşmən əlində qala bilməz! «Qarabağ bülbülləri»nin ecazkar səsi, gözəl ifası isə əmin etdi, ki, xalqımızın, zəngin mədəniyyət xəzinəsi olan muğam sənətimizin gələcəyi etibarlı əllərdədir.

Xalq artisti Habil Əliyev mərasimin sonunda sənət yoldaşları adından çıxış edərək dedi ki, bu gün xalq musiqisi ifaçılarının bayramıdır, amma bu, təkcə musiqimizə, ifaçılara yox, xalqımızın milli-mədəni sərvətinə verilən qiymətdir. Mən muğamlarımızın qorunmasına, təbliğinə göstərdiyi qayğıya görə YUNESKO-nun xoşmə-

ramlı səfiri Mehriban xanıma bütün sənət adamları adından təşəkkür edirəm. Həqiqətən çox böyük iş görülmüşdür və bu xeyirxahlığa görə hamımız ona minnətdarıq.

Təqdimat mərasimində Milli Məclisin sədri Murtuz Ələsgərov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, parlament sədrının və baş nazirin müavinləri, deputatlar, respublikanın elm, mədəniyyət və incəsənət xadimləri, Azərbaycandakı diplomatik korpusun nümayəndələri iştirak edirdilər.

*Xalq qəzeti,*
*2005, 9 aprel*

## "Dan ulduzu" uşaq yaradıcılıq festivalı başa çatmışdır

Azərbaycanın uşaq evləri və internat məktəblərində tərbiyə alan kimsəsiz və əlil uşaqların "Dan ulduzu" birinci bədii yaradıcılıq festivalı başa çatmışdır.

Heydər Əliyev adına Sarayda "Dan" Beynəlmiləlçi Gənclər və "Nur" Uşaq və Gənclər İctimai Birlikləri Azərbaycan Respublikası Gənclər, İdman və Turizm, Təhsil, Mədəniyyət nazirlikləri, Bakı Şəhər İcra Hakimiyyəti və Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin dəstəyi ilə "Dan ulduzu" birinci bədii yaradıcılıq festivalı qaliblərinin yekun konserti olmuşdur.

Təntənəli mərasimdə Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyevanın festivala təbrik məktubu oxunmuşdur. Təhsil naziri Misir Mərdanov, gənclər, idman və turizm naziri Əbülfəz Qarayev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını uşaqlara çatdırmış, Beynəlxalq Uşaqları Müdafiə günü münasibətilə onları təbrik etmişlər. Qeyd olunmuşdur ki, bir neçə il idi bu bayramı həmişə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev uşaqlarla birlikdə keçirirdi. Bu gün isə Heydər Əliyev siyasətini uğurla davam etdi-

rən Prezident İlham Əliyevin salamları ilə bu məclisi başlayırıq. Uşaqların bayramı ilə “Dan ulduzu” festivalının eyni günə düşməsi çox önəmli hadisədir. İnanırıq ki, tezliklə Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq və çadırlarda yaşayan uşaqlar azad və xoşbəxt həyata qovuşacaqlar. Natiqlər uşaqları, qalibləri təbrik etmiş, festivalın təşkilatçılarına və kömək göstərənlərə minnətdarlıqlarını bildirmişlər.

Müsabiqədə qaliblərə “Dan ulduzu” laureatı adı, “Qran-pri”, həvəsləndirici mükafatlar, qiymətli hədiyyələr təqdim olunmuş, yekun konsertində laureatlarla yanaşı, populyar müğənnilər, ifaçılar çıxış etmişlər.

***AzərTAc***

## *Gənc ifaçıların müsabiqəsi start götürmüşdür*

Bakı Musiqi Akademiyasında gənc ifaçıların IV ümumşəhər müsabiqəsinin açılışı olmuşdur. Mərasimdən əvvəl iştirakçılar Fəxri xiyabanda ümummilli liderimiz Heydər Əliyevin məzarını ziyarət etmişlər.

Mehriban xanım Əliyevanın sədrlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondunun keçirdiyi müsabiqə bir həftə davam edəcəkdir.

Müsabiqənin açılış mərasimində Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin “Qız qalası” xoru Azərbaycanın dövlət himnini və ümummilli liderimiz Heydər Əliyevə həsr olunmuş “Cənab Prezident” odasını ifa etmişdir.

Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin direktoru Nigar Cərullaqızı, Bakı Musiqi Akademiyasının rektoru, xalq artisti, professor Fərhad Bədəlbəyli gənc ifaçıları təbrik etmiş, onlara yeni uğurlar arzulamış, müsabiqənin keçirilməsinə yardımçı olanlara minnətdarlıqlarını bildirmişlər.

Müsabiqədə Bakı şəhər musiqi məktəblərinin 100 nəfər gənc ifaçısı 3 qrup üzrə və 3 mərhələdə yarışacaqdır. Müsabiqəyə mayın 22-də yekun vurulacaqdır.

***AzərTAc***

## *Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın vokalçıların Bülbül adına 3-cü Beynəlxalq Müsabiqəsinin münsiflər heyətinin üzvləri ilə görüşü*

Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva dekabrın 5-də vokalçıların Bülbül adına 3-cü Beynəlxalq müsabiqəsinin münsiflər heyətinin üzvləri ilə görüşmüşdür.

Münsiflər heyətinin sədri, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Lenin və SSRİ Dövlət mükafatları laureatı, Beynəlxalq Musiqi Xadimləri İttifaqının prezidenti, akademik İrina Arxipova, üzvlər-Mariya Biyeşu (Moldova), Bibigül Tulegenova (Qazaxıstan), Firəngiz Əhmədova, Fərhad Bədəlbəyli (Azərbaycan), Mati Palm (Estoniya), Mariya Stefyuk (Ukrayna), Nodar Andquladze (Gürcüstan), Korneliya fon Kerssenbrok (Almaniya), Oleq Melnikov (Belarus) əvvəlcə Fondun sərgi və ekspozisiyası ilə tanış oldular. Qonaqlara ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən fotoşəkillər barədə ətraflı məlumat verildi.

Hörmətli qonaqlar fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərə, dünyanın tanınmış siyasi xadimlərinin ona bəxş etdikləri hədiyyələrə, ulu öndərimiz haqqında kitablara, onun müxtəlif ölkələrin liderləri, xüsusən elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkillərinə böyük maraqla baxdılar.

Sonra Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva ilə görüş oldu.

Mehriban xanım qonaqları səmimiyyətlə salamladı, onları ölkəmizdə və ulu öndər Heydər Əliyevin adını daşıyan Fondda görməkdən çox böyük qürur hissi keçirdiyini söylədi. O, Heydər Əliyev Fondu haqqında qısa məlumat verərək bildirdi ki, 2004-cü il mayın 10-dan fəaliyyətə başlayan Fondun əsas məqsəd və vəzifələri Heydər Əliyev tərəfindən yaradılmış azərbaycançılıq fəlsəfəsini, azərbaycançılıq ideyasını təbliğ etmək və gələcək nəsillərə çatdırmaqdır. Ancaq bununla bərabər, Fond fəaliyyətə başladığı ilk gündən qarşıya zamanın tələblərinə cavab verən vəzifələr qoymuş, böyük, qlobal layihələr həyata keçirməyə başlamışdır. Fondun prezidenti konkret insanların problemlərinin həllinə kömək, ölkənin sosial problemlərinin həlli, uşaq evləri və internat məktəblərində təlim-tərbiyə alan, diabet xəstəliyindən əziyyət çəkən uşaqlara yardım, talassemiyasız həyat, təhsil, mədəniyyət sahəsində çox böyük layihələr həyata keçirdiyini diqqətə çatdırdı. Belə layihələrdən biri olan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində cari ilin son altı ayında respublikamızın bütün regionlarında 130 məktəb tikilib istifadəyə verildiyini vurğuladı.

Müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyevin həmişə mədəniyyətin inkişafına, xalqlar arasında dostluq əlaqələrinin genişlənməsinə böyük diqqət yetirdiyini vurğulayan Mehriban xanım, dünya şöhrətli siyasi xadimin Azərbaycan professional vokal sənətinin banisi Bülbülün 100 illik yubileyi münasibətilə imzaladığı Sərəncamda hər 3 ildən bir görkəmli sənətkarın xatirəsinə həsr edilmiş beynəlxalq müsabiqənin də keçirilməsini gərəkli saydığını, əvvəlki iki müsabiqənin yüksək səviyyədə təşkil olunduğunu, həmin müsabiqələrin qalibi olan 30-dan çox vokalçının dünyanın möhtəşəm konsert salonlarında dəfələrlə uğurla çıxış etdiklərini diqqətə çatdırdı, 3-cü müsabiqədə də Rusiya, Ukrayna, Gürcüstan, Moldova, Özbəkistan, Qazaxıstan, Çin və İrandan 60 gənc vokalçının iştirak etməsini yüksək dəyərləndirən Mehriban xanım Əliyeva əmin ol-

duğunu bildirdi ki, artıq yekun mərhələsinə qədəm qoyan bu müsabiqənin qalibləri də ifaçılıq sənətinə öz töhfələrini verəcəklər.

İrina Arxipova xoş sözlərə, Bakıda hər addımda hiss etdikləri qonaqpərvərliyə görə Mehriban xanıma təşəkkürünü bildirdi, budəfəki gəlişində paytaxtda xeyli dəyişiklikləri müşahidə etdiyini, habelə Fondun çox maraqlı ekspozisiyaları ilə tanışlıqdan məmnun qaldığını söylədi. Mehriban xanımı respublikanın ali qanunvericilik orqanına seçilməsi münasibətilə təbrik edərək, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti kimi onun gördüyü çox dəyərli işlər, çoxşaxəli xeyriyyəçilik fəaliyyəti barədə məlumatı olduğunu bildirdi.

Vokalçıların Bülbül adına 3-cü Beynəlxalq müsabiqəsinin yüksək səviyyədə təşkil edildiyini, xeyli istedadların üzə çıxarıldığını, ən çox da azərbaycanlı vokalçıların çıxışlarından razı qaldıqlarını vurğulayan sənətçilər Mehriban Əliyevanın xalqlar arasında mədəni əlaqələrin inkişafına öz dəyərli töhfəsini verməsini razılıq hissi ilə vurğuladılar, özlərinin də ölkələrində ayrı-ayrı mədəniyyət cəmiyyətlərinə, təşkilatlarına rəhbərlik etdiklərini söyləyərək, əməkdaşlığın və qarşılıqlı əlaqələrin möhkəmlənməsi naminə mövcud imkanlardan daha səmərəli istifadə olunması barədə Mehriban xanımın fikirlərini, təşəbbüslərini dəstəklədiklərini, bu ideyanın da həyata keçəcəyinə əminliklərini bildirdilər.

Səmimi şəraitdə keçən görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə də ətraflı fikir mübadiləsi aparıldı.

Mehriban xanım münsiflər heyətinin üzvlərinə Heydər Əliyev Fondunun mədəniyyət sahəsində həyata keçirdiyi layihələrdən olan “Qarabağ xanəndələri” musiqi albomunu, Fondun fəaliyyətindən bəhs edən kitabı hədiyyə etdi.

Qonaqlar Mehriban xanımla birgə xatirə şəkli çəkdirdilər və Fonddan xoş təəssüratla ayrıldılar.

***AzərTAc***
***2005, 5 dekabr***

## *“Qədim Şuşa”nın təqdimatı*

M.F.Axundov adına Milli Kitabxanada Çingiz Qacarın “Qədim Şuşa” kitabının təqdimatı olmuşdur. Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev çıxışında bildirmişdir ki, kitabın təqdimatı ağrılı bir gün olan mayın 8-də, Şuşanın isğalının 15-ci ilində keçirilir.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın kitaba yazdığı ön sözdə deyilir: “Dünyada bir sıra mədəni, tarixi və siyasi səbəblər sayəsində rəmz-şəhərlərə çevrilən xeyli şəhər var. Kurort-şəhər, muzey-şəhər, Şərqin musiqi akademiyası sayılan Şuşa hər bir azərbaycanlı üçün belə şəhərdir...”

Ə.Qarayev demişdir: “Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu, Azərbaycan Mədəniyyətinin Dostları Fondu ölkəmizin tarixi və mədəni mərkəzinin işğalı barədə həqiqətlərin dünyaya çatdırılması üçün məqsədyönlü iş aparır. Biz Şuşa abidələrinə vurulan ziyanın miqyasını indiyədək bilmirik”. O, iştirakçılara İran kinematoqrafçılarının Şuşa abidələrinin indiki vəziyyəti haqqında çəkdikləri sənədli filmə baxmağı təklif etmişdir.

Şuşa Şəhər İcra Hakimiyyətinin başçısı Nizami Bəhmənov, AMEA-nın müxbir üzvü Fəridə Məmmədova, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun icraçı direktoru İbrahim Quliyev və digər çıxış edənlər Şuşa abidələrini özününküləşdirməyə çalışan erməni işğalçılarına qarşı etiraz səsinə çevrilən kitabın müəllifinə təşəkkürlərini bildirmişlər. Qədim Şuşa Qarabağın qədim tarixindən, alban məbədlərindən, hökmdarlarından, ermənilərin bu diyarda məskunlaşmasından, abidələrimiz, qarabağlıların məşğuliyyətindən və mədəniyyətindən söhbət açır.Kitabın redaktorları AMEA-nın müxbir üzvü Fəridə Məmmədova və Vasif Quliyevdir.

***Mədəniyyət qəzeti,***
***2007, 11 may***

## *"Qədim Şuşa" kitabının təqdimatı keçirildi*

Mayın 8-də Axundov adına Milli Kitabxanada Şuşanın işğalının 15-ci ildönümünə həsr olunmuş tədbir keçirildi. Tədbiri giriş sözü ilə açan mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Şuşanın və şuşalıların acı taleyindən bəhs etdi. "Artıq 15 ildir ki, Azərbaycanın mirvarisi olan Şuşanın həsrətindəyik".

Böyük imperiyanın siyasətini həyata keçirən bədnam qonşular onlara havadarlıq edən qüvvələrin köməyi nəticəsində, musiqimizin beşiyini işğal edib. Öncə Qərbi Azərbaycan torpaqlarında özlərinə yer edən insanlar torpağı özününkü bilib genişləndirmək iddiasına düşüblər. Özləri də buna inanıb dünyaya haray salıblar. Faciənin səbəbkarına çevrilən ermənilər Şuşanın mədəni obyektlərini bir sözlə, torpağımızı darmadağın ediblər. Bütün beynəlxalq ictimaiyyətin səylərinə, Azərbaycanın sülhsevər niyyətinə baxmayaraq təcavüzkarlar bü gün də öz siyasətlərinə davam edirlər.

Bu gün Prezidentin siyasətinin əsas məqsədi ədaləti bərpa etmək, məhz Şuşada Azərbaycan bayrağını dalğalandırmaqdır: "Bizim hər birimiz bu gün bu siyasəti dəstəkləyir, çalışırıq ki, ədalət bərqərar olsun".

Nazir "Qədim Şuşa" adlanan yeni nəşri təqdim etdi. Sonra bildirdi ki, nəşrin ortaya çıxmasında Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın böyük əməyi olub.

Kitab rus dilindədir. Bu eyni zamanda tək azərbaycanlıların deyil, həm də beynəlxalq ictimaiyyət üçün nəzərdə tutulduğundan rus dilində nəşr edilib. "Qədim Şuşa" ümumilikdə Azərbaycan xalqının zəngin xəzinəsini nümayiş etdirir.

O eyni zamanda yaxın dövrlərdə ermənilərin qəsb etdiyi torpaqlarda 700-dən artıq tarixi abidə və mədəniyyət müəssisələrini yenidən bərpa etmək niyyətinə qarşı olduqlarını və bu barədə müvafiq təşkilatlara mə-

lumat göndərdiklərini bildirdi. Aydın oldu ki, beynəlxalq ictimaiyyət də bu rəyə qoşulub.

Sonra nazir tədbir iştirakçılarını iran jurnalistlərinin yaxın zamanlarda Şuşada olarkən çəkdikləri videolentə baxmağa dəvət etdi.

Nümayişin ardından Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Nizami Bəhmənov danışdı. Kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkür etdi. Xüsusilə Qacarlar sülaləsinin davamçısı olan kitabın müəllifi Çingiz Qacarın əməyini qiymətləndirdi. O, ermənilərin Şuşanın işğalı günü ərəfəsində hazırladıqları saxta baş-plana bir Azərbaycan vətəndaşı kimi qarşı çıxdığını söylədi.

Sonra Milli Elmlər Akademiyasının müxbir üzvü Fəridə Məmmədova qeyd etdi ki, kitabın faciəvi tarixlə əlaqədar nəşr olunması vətənpərvərlik addımıdır. Burada ölkənin hərtərəfli fəaliyyəti, Şuşa, eləcə də yurdumuzun bütün bölgələrinə xas olan mədəniyyəti, musiqisi, adət-ənənələri, ədəbiyyatı, incəsənəti işıqlandırılıb. Millət vəkili, dramaturq, publisist Hüseynbala Mirələmov bu unikal kitabı Qarabağın ağısına bənzətdi, Şuşasız Qarabağın ola bilməyəcəyini vurğuladı. Danışıqlar yolu ilə olmasa da müharibə yolu ilə torpaqlarımızın qayıdacağına ümid etdiyini bildirdi.

Azərbaycan Mədəniyyəti Dostları Fondunun katibi İbrahim Quliyev bizim bəyliyimizin, xanımlığımızın rəmzi olan füsunkar Şuşanın itkisindən duyulan ağrını ifadə etməyə çalışdı.

Tədbirdə Milli Kitabxananın fondundan olan Qarabağa aid kitablar da nümayiş olundu.

Sonda millət vəkili Elman Məmmədov və kitabın müəllifi Çingiz Qacar bu günün faciəsindən və yeni nəşrin əhəmiyyətindən danışdılar.

***Kino+,***
***2007, 11 may***

# III. Heydər Əliyev Fondunun tədbirləri

## *Heydər Əliyev Fondu 10 may 2004-cü ildə yaradılmışdır*

Fondun məqsədi ümummilli liderimiz Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, milli-mənəvi dəyərlərin qorunması, azərbaycançılıq məfkurəsinin geniş təbliğ olunmasına kömək etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirlərin həyata keçirilməsinə dəstək vermək, ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım etməkdən ibarətdir.

## *Bakıda Heydər Əliyev Fondunun təntənəli açılışı olmuşdur*

Mayın 10-da, müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin doğum günündə Bakının Azərneft meydanı yaxınlığında-Niyazi küçəsində milli memarlıq üslubunda tikilmiş yeni binada Heydər Əliyev Fondunun təntənəli açılış mərasimi olmuşdur.

**Azərbaycan Prezidenti İlham Əliyev
mərasimdə iştirak etmişdir.**

Mərasimə toplaşanlar respublikamızın rəhbərini səmimiyyətlə qarşıladılar.

Fond Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə ehtiramını ifadə etmək arzu və istəyi, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyə-

sini əks etdirmək zərurəti, qloballaşan dünyada Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq niyyəti və Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq üçün yaradılmışdır. Fondun məqsədi ümummilli liderimiz Heydər Əliyevin zəngin irsinin öyrənilməsinə, ölkəmizin tərəqqisi və Azərbaycan xalqının rifahı naminə ondan istifadə olunmasına xidmət edən genişmiqyaslı proqramların həyata keçirilməsini dəstəkləmək, milli-mənəvi dəyərlərin qorunması, azərbaycançılıq məfkurəsinin və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, müstəqil Azərbaycan Respublikasının iqtisadi qüdrətinin artırılmasına xidmət edən layihələrin gerçəkləşdirilməsində iştirak etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirlərin həyata keçirilməsinə dəstək vermək, ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım etməkdən ibarətdir.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva, dövlət, hökumət rəsmiləri, xarici ölkələrin Bakıdakı təmsilçiləri, ictimaiyyətin nümayəndələri müxtəlif dövrlərdə çəkilmiş və ulu öndər, türk dünyasının böyük oğlu Heydər Əliyevin şəxsi arxivində saxlanılan sənədli kadrlar əsasında hazırlanmış filmə baxdılar. Sonra Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

– Əziz dostlar!

Hörmətli qonaqlar!

Baxdığımız bu kadrlar, onların demək olar ki, əksəriyyəti Heydər Əliyevin şəxsi, yəni ailə arxivindən götürülmüş kadrlardır. Onların əksəriyyəti, bəlkə də,

ilk dəfədir geniş auditoriyaya təqdim olunur. Biz hesab etdik ki, bunu etməliyik.

Heydər Əliyev dahi şəxsiyyətdir, görkəmli siyasi xadimdir, müasir Azərbaycanın qurucusudur. Ancaq, eyni zamanda, Heydər Əliyev çox mehriban ata idi, çox qayğıkeş baba idi. Çox əziz dost idi. Onun bu xüsusiyyətləri bizə, onun ailə üzvlərinə çox yaxşı tanış idi. Mən də, bacım da, uşaqlarımız da bütün zamanlarda, bütün dövrlərdə ona həmişə bizim üçün ən önəmli olan məsələlərlə əlaqədar müraciət edirdik və həmişə ondan məsləhət, ata sözü eşidir, qayğı görürdük.

Bu gün Heydər Əliyevin doğum günüdür və ilk dəfədir ki, bu gün onsuz keçir. Bu, bizim hamımız üçün, onu tanıyan, onu sevən, onunla birlikdə işləyən bütün insanlar üçün böyük sınaqdır, böyük dərddir. Adətən, bu gün adi bir gün kimi keçərdi. Yəni hər hansı xüsusi bir tədbir keçirilməzdi. O, həmişə bunun əleyhinə olurdu. Bəzi hallarda təkliflər gələndə deyirdi ki, xeyr, bu, adi bir gündür, ailəmiz üçün əziz bir gündür. Biz bu günü həmişə ailə şəraitində qeyd edirdik.

Xatirimdədir, bu, bəlkə də, bir dəfə, 1993-cü ildə – Heydər Əliyevin 70 illiyində daha da geniş tərkibdə qeyd olunmuşdur. O, həmin vaxt Naxçıvanda yaşayırdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri idi. Onunla Naxçıvanda birlikdə işləyən insanlar bir məclis süfrəsi açmışdılar. Orada onun yaxınları yığışmışdı, qohumları gəlmişdi, Bakıdan gələn tərəfdarları, Yeni Azərbaycan Partiyasının fəalları gəlmişdi. O dövr çətin bir dövr idi. Azərbaycanın o vaxtkı rəhbərliyi Heydər Əliyevə təzyiqlər etməyə çalışırdı və müəyyən təzyiqlər olmuşdu. Əlbəttə, Heydər Əliyevin Azərbaycanda artan nüfuzu Bakıda oturanları narahat edirdi. Ona görə o vaxt Naxçıvana gəlmiş insanlar, həqiqi mənada, onun əsl tərəfdarları idilər. Oraya gəlmək üçün, əlbəttə, cəsarət tələb olunurdu.

Xatırlayıram, o çox gözəl bir gün idi. Heydər Əliyev də çox şad idi. Biz də, hamımız çox sevinirdik. Çox gözəl bir gün idi. O gündən, təxminən bir ay keçəndən

sonra xalqın tələbi ilə Heydər Əliyev Bakıya gəldi, Azərbaycana rəhbərliyə gəldi və o dövrdən, o günlərdən etibarən Azərbaycanın inkişaf dövrü başlandı.

1970-ci illərdə, 1980-ci illərdə də Heydər Əliyev Azərbaycanda rəhbər vəzifədə çalışanda Azərbaycan daim uğurlar qazanırdı. Azərbaycanın inkişaf ahəngi digər müttəfiq respublikalarla müqayisədə çox yüksək idi. Azərbaycanda yeni müəssisələr, sənaye obyektləri, mədəniyyət ocaqları yaradılırdı. Bütün bu məsələlərə böyük diqqət verilirdi. Demək olar ki, o illər bütün respublikalar eyni səviyyədə idi, lakin respublikanın rəhbərindən çox şey asılı idi. O, daim çalışırdı ki, bütün yeni texnologiyaları, müəssisələri Azərbaycana gətirsin. Bütün imkanlardan istifadə edirdi ki, Azərbaycan inkişaf etsin. Məhz o illərdə Azərbaycanda kənd təsərrüfatı da çox sürətlə inkişaf etdi. Azərbaycanda memarlıq baxımından bu gün də Bakını gözəlləşdirən binalar, saraylar tikildi. O vaxt statistika göstərirdi ki, Sovet İttifaqında yalnız iki respublika mənfəətlə işləyir. Onlardan biri də Azərbaycan idi. Digərləri hamısı dotasiya ilə işləyirdi.

Bu gün Azərbaycanın iqtisadi potensialında çox mühüm rol oynayan müəssisələr məhz o illərdə, onun tərəfindən yaradılmışdı. Əgər biz bu müəssisələri indi çıxsaq, görərik ki, Azərbaycanın iqtisadiyyatı belə ahənglə inkişaf edə bilməzdi. Əgər məhz o illərdə Azərbaycanda bu müəssisələr yaradılmasaydı, biz bu gün böyük çətinliklərlə yaşayardıq. O illərdə Azərbaycanın digər sahələri də inkişaf edibdir.

Məhz onun təşəbbüsü ilə, demək olar ki, Sovet İttifaqında Moskva şəhərindən başqa ilk dəfə hərbi təmayüllü məktəb yaradılmışdır. Cəmşid Naxçıvanski adına həmin məktəb bu gün də yaşayır, Azərbaycan ordusu üçün peşəkar kadrlar hazırlayır. Amma o illərdə bunu etmək, bilirsiniz, hər adamın, əlbəttə, ağlına gəlməzdi. Bunu edən adam çox irəliyə baxırdı. Hiss edirdi, duyurdu ki, bir gün Azərbaycan müstəqil olacaq, bir gün Azərbaycana müstəqil ordu və bu orduda xidmət edəcək zabitlər, generallar lazım olacaqdır. Mən hesab

edirəm və buna əminəm ki, həmin məktəb o məqsədlə yaradılıbdır. Belə hallar çoxdur. Belə misallar çoxdur. Heydər Əliyevin bütün həyatı, bütün fəaliyyəti bir amala qulluq edirdi. Azərbaycançılıq, Azərbaycan dövlətinə, Azərbaycan xalqına xidmət, millətimizə xidmət etmək onun həyatının ən ümdə amalı idi.

1993-cü ildə yenidən hakimiyyətə qayıdandan sonra, o, öz həyatını yenidən xalqa xidmətə sərf etmişdir. 1993-cü ilə qədər Azərbaycan, demək olar ki, dağılmaq ərəfəsində idi. Ölkədə gedən proseslər Azərbaycanı dağıdırdı, böhran-iqtisadi, siyasi, hərbi böhran yaşanırdı.

Azərbaycan müharibə vəziyyətində idi. Torpaqlarımız işğal olunurdu. Eyni zamanda, vətəndaş müharibəsi də başlamışdı. Əgər o vaxt, 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə Azərbaycana hakimiyyətə qayıtmasaydı, ölkə parçalana bilərdi. Demək olar ki, ölkə dünyada gedən bütün proseslərdən təcrid olunmuş vəziyyətdə idi. O çətin dövrdə, çətin vəziyyətdə onun nə silahı var idi, nə ordusu var idi, nə də dəstəsi var idi. Yalnız siyasi iradəsi, bir də xalqın inamı, dəstəyi var idi. O, bu dəstəyə arxalanaraq, on il ərzində Azərbaycanı böhrandan tərəqqiyə gətirdi. Bu gün Azərbaycan inamla irəliləyir, Azərbaycanın bütün sahələri inkişaf edir.

Azərbaycan beynəlxalq təcriddən çıxdı. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların üzvüdür, onlarda fəal iştirak edir. Bütün dövlətlər tərəfindən tanınır. Azərbaycana böyük hörmət var. Artıq demək olar ki, regional məsələlərdə Azərbaycanın sözü həlledici sözdür. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə həyata keçirilə bilməz. Beləliklə, Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bizim nüfuzumuz artır, gücümüz artır. Bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin xidmətləridir.

Yenə deyirəm, Azərbaycanın iqtisadiyyatı dağılmış vəziyyətdə idi. Müəssisələr dayanmışdı, istehsal yox idi. İqtisadi tənəzzül yüzlərlə faizlə ölçülürdü və demək olar

ki, 1996-cı ilə qədər ölkədə yaşanan böhran bizim hamımıza çox mənfi təsir göstərirdi. Amma onun iqtisadi siyasəti nəticəsində, Azərbaycanda aparılan iqtisadi islahatlar nəticəsində ölkə tez bir zamanda dirçəldi. Bu gün Azərbaycan keçmiş sovet respublikaları arasında iqtisadiyyatın inkişaf ahənginə görə birinci yerdədir. Azərbaycan adambaşına düşən xarici sərmayələrin həcminə görə birinci yerdədir. Bu, Heydər Əliyevin siyasətinin, onun gördüyü işlərin nəticəsidir.

Bilirsiniz, adam yaxşı şəraitə, yaxşı meyllərə öyrənir, tez alışır. Bəzən elə gəlir ki, belə də olmalıydı. Xeyr, əgər 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, tamamilə başqa cür olacaqdı və bunu heç təsəvvür etmək də mümkün deyildir.

Ermənistan-Azərbaycan müharibəsinə son qoyuldu, atəşkəs əldə edildi və bu rejim bizə imkan verdi ki, öz iqtisadiyyatımızı, digər sahələri inkişaf etdirək. Əgər bu gün bizə təcavüz edən ölkə ilə Azərbaycanı müqayisə etsək, görərik ki, kim üstündür. Azərbaycanın gələcək perspektivləri bizə imkan verəcək ki, istədiyimizə nail olaq. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, işğal edilmiş torpaqlar geri qaytarılacaqdır. Başqa cür də ola bilməz. Bu, bizim siyasətimizin əsas istiqamətlərindən biridir və Heydər Əliyev çoxlu səylər qoymuşdur ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında əsl həqiqətləri bütün dünya ictimaiyyətinə çatdırsın. Məhz o illər ərzində görülən işlərin, təbliğat işlərinin nəticəsində dünya birliyində bu münaqişə haqqında ədalətli təsəvvür yaranıbdır.

Ordu quruculuğunda böyük işlər görülübdür. 1993-cü ildə Azərbaycanda ordu yox idi. Ayrı-ayrı dəstələr var idi. O dəstələrin müəyyən siyasi əqidəsi var idi və hər bir siyasi qurum özünə bir dəstə yaradırdı. Heydər Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanda güclü ordu yaradılıbdır. Bu gün Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir. Azərbaycanın iqtisadi potensialı gücləndikcə, ölkəmiz zəngin dövlətə çevriləndən sonra, əlbəttə, ordu

potensialımız da çox güclənəcək və bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Mən inanıram və əminəm ki, bu, belə də olacaqdır.

Bütün digər məsələlər də var və bunların hamısını bu gün, necə deyərlər, təqdim etmək çox vaxt aparar. Amma elə bir sahə yoxdur ki, orada son 10 il ərzində irəliləyiş, tərəqqi olmasın. Elm, mədəniyyət, incəsənət sahələrində də Azərbaycan, demək olar ki, indi intibah dövrünü yaşayır.

On il tarix baxımından böyük bir müddət deyildir. Amma baxın, son on ildə Azərbaycanda nə qədər böyük işlər görülübdür. Azərbaycan nə qədər böyük uğurlar əldə edibdir. Bütün bu uğurlara görə biz xalqımızın ümummilli lideri Heydər Əliyevə borcluyuq.

Bu gün onun adını daşıyan Fondun təqdimat mərasimi keçirilir. Bu ideya yeni deyildir. Bir neçə il bundan əvvəl belə bir fikir yaranmışdı ki, Heydər Əliyev Fondu yaradılsın. O da bu fikrə müsbət yanaşmışdı, amma nə isə bunu həyata keçirmək mümkün olmadı. Amma biz hesab etdik ki, bu gün belə bir Fond lazımdır. Bu Fond artıq yaradılıbdır. Fond Heydər Əliyevin siyasi irsini öyrənəcək, onu təhlil, tədqiq və təbliğ edəcəkdir. Fondun qarşısında böyük vəzifələr durur. Fond ictimai təşkilatdır. Ümid edirəm ki, Azərbaycanın ictimai həyatında Fondun rolu böyük olacaqdır.

Bu gün Heydər Əliyev bizimlə deyil, amma onun fiziki yoxluğu bizi ruhdan salmamalıdır. Onun ideyaları yaşayır, onun siyasəti yaşayır, onun fəlsəfəsi, azərbaycançılıq fəlsəfəsi, ideologiyası yaşayır və onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır və onun yolu ilə inkişaf edir. Hamımızın borcudur ki, biz doğma Vətənimizi onun yolu ilə irəliyə aparaq. Hamımızın borcudur ki, onun siyasətini yaşadaq, Azərbaycanı gücləndirək və onun istədiyi kimi, onun yolu ilə gələcəyə aparaq. Mən əminəm və şübhə etmirəm ki, biz bunu edəcəyik.

Xalq ötən il keçirilən prezident seçkilərində Heydər Əliyevin siyasətini bir daha dəstəklədi. Azər-

baycanda bu siyasətə alternativ yoxdur. Bu siyasət Azərbaycana böyük uğurlar gətiribdir və əminəm ki, daha yeni-yeni uğurlar gətirəcəkdir.

Sağ olun.

Prezident İlham Əliyev mayın 10-da Fondun açılışı zamanı Gürcüstan Prezidenti administrasiyasının başçısı İrakli Çubitaşvilini qəbul etdi.

* * *

İrakli Çubitaşvili Azərbaycan dövlətinin başçısına Gürcüstan Prezidenti Mixail Saakaşvilinin səmimi salamını yetirdi.

Azərbaycan Prezidenti İlham Əliyev Acarıstanla bağlı məsələnin dincliklə həllindən məmnunluğunu bildirdi, onun salamını və ən xoş arzularını Gürcüstan Prezidentinə yetirməyi xahiş etdi.

İrakli Çubitaşvili Prezident Mixail Saakaşvilinin məktubunu Prezident İlham Əliyevə təqdim etdi.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev sonra Rusiyanın mədəniyyət və kütləvi kommunikasiyalar nazirinin müavini Mixail Şvıdkoyu, həmyerlilərimiz Yuli və Mixail Qusmanları qəbul etdi.

Dövlətimizin başçısı qonaqları salamlayaraq, xalqımız üçün belə əziz gündə ölkəmizə gəldiklərinə görə, Heydər Əliyevin xatirəsinə diqqətcil münasibətə görə təşəkkürünü bildirdi.

Mixail Şvıdkoy Heydər Əliyevin şəxsiyyətindən danışaraq dedi: “O bizim üçün Azərbaycanla Rusiya arasında mədəniyyət sahəsində qarşılıqlı münasibətlərə həmişə xüsusi əhəmiyyət verən bir insan idi. Ona görə də biz gəlməyə bilməzdik”.

Prezident İlham Əliyev vurğuladı ki, Heydər Əliyev Moskvanın, Rusiyanın yaradıcı ziyalılarının nümayəndələri ilə görüşlərini həmişə səmimiyyətlə xatırlayırdı.

Sonra Prezident İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən, onun ömür yoluna həsr olunmuş "Azərbaycan naminə" sənədli filminə baxdı, Fondun salonlarında nümayiş etdirilən eksponatlarla tanış oldu. Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən eksponatlar Azərbaycan tarixinin ən zəngin bir dövrü barədə tam təəssürat yaradır. Onların arasında Heydər Əliyevin uşaqlıq, yeniyetmə və gənclik dövrünün, habelə siyasi fəaliyyətinin müxtəlif anlarını əhatə edən çoxsaylı fotoşəkillər, dünyanın böyük siyasi liderlərinin Prezident Heydər Əliyevə bağışladığı hədiyyələr, onun Moskvada, Azərbaycanda və o cümlədən Naxçıvan Muxtar Respublikasında çalışdığı dövrlərdə istifadə etdiyi əşyalar, ulu öndərimiz haqqında yazılmış kitablar vardır.

Ayrıca bir otaqda internet xətti ilə Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini nümayiş etdirən məlumat bazasına daxil olmaqla, bu müdrik şəxsiyyətin çoxcəhətli ictimai-siyasi fəaliyyəti barədə informasiya almaq mümkündür.

Azərbaycan Prezidenti İlham Əliyev Fondun fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Bu gün Azərbaycanın ümummilli lideri Heydər Əliyevin doğum günüdür. Bu bayram günündə onun adını daşıyan Fondun təqdimat mərasimi keçirilmişdir. Heydər Əliyev Fondu xalqımızın ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin siyasi irsini öyrənəcək, təhlil, tədqiq və təbliğ edəcəkdir.

Heydər Əliyev Fondu ictimai təşkilatdır və Azərbaycanın ictimai həyatında mühüm rol oynayacaqdır. Heydər Əliyevin ideyaları, fikirləri yaşayır. Heydər Əliyev siyasəti, fəlsəfəsi, ideologiyası yaşayır və bundan sonra da əbədi yaşayacaqdır. Heydər Əliyevin əsəri olan müasir Azərbaycan onun yolu ilə irəliyə, yeni qələbələrə doğru inamla gedəcəkdir".

***Xalq qəzeti,***
***2004, 10 may***

## *«Bütün bu uğurlara görə biz xalqımızın milli lideri Heydər Əliyevə borcluyuq»*

Dünən-müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin doğum günündə Bakının Azərneft meydanı yaxınlığında – Niyazi küçəsində milli memarlıq üslubunda tikilmiş yeni binada Heydər Əliyev Fondunun açılış törəni olub.

Fondun məqsədi milli liderimiz Heydər Əliyevin zəngin irsinin öyrənilməsinə, ölkəmizin tərəqqisi və Azərbaycan xalqının rifahı naminə ondan istifadə olunmasına xidmət edən geniş proqramların həyata keçirilməsini dəstəkləmək, milli-mənəvi dəyərlərin qorunması, azərbaycançılıq məfkurəsinin geniş təbliğ olunmasına kömək etmək, müstəqil Azərbaycan Respublikasının iqtisadi qüdrətinin artırılmasına xidmət edən layihələrin gerçəkləşdirilməsində iştirak etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirlərin həyata keçirilməsinə dəstək vermək, ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım etməkdən ibarətdir.

Tədbirdə çıxış edən Prezident İlham Əliyev vurğulayıb ki, Heydər Əliyev dahi şəxsiyyət, görkəmli siyasi xadim olmaqla yanaşı, çox mehriban ata, qayğıkeş baba, əziz dost idi: «Onun bu xüsusiyyətləri bizə, onun ailə üzvlərinə çox yaxşı tanış idi. Mən də, bacım da, uşaqlarımız da bütün zamanlarda, bütün dövrlərdə ona həmişə bizim üçün ən önəmli olan məsələlərlə əlaqədar müraciət edirdik və həmişə ondan məsləhət, ata sözü eşidir, qayğı görürdük. Bu gün Heydər Əliyevin doğum günüdür və ilk dəfədir ki, bu gün onsuz keçir. Bu, bi-

zim hamımız üçün, onu tanıyan, onu sevən, onunla birlikdə işləyən bütün insanlar üçün böyük sınaqdır, böyük dərddir. Adətən, bu gün adi bir gün kimi keçərdi. Yəni hər hansı xüsusi bir tədbir keçirilməzdi. O, həmişə bunun əleyhinə olurdu. Bəzi hallarda təkliflər gələndə deyirdi ki, xeyr, bu, adi bir gündür, ailəmiz üçün əziz bir gündür. Biz bu günü həmişə ailə şəraitində qeyd edirdik».

Cənab Prezident bildirib ki, Heydər Əliyev həmişə həyatını xalqına həsr edib: «Əgər 1993-cü ildə Heydər Əliyev xalqın tələbilə Azərbaycana hakimiyyətə qayıtmasaydı, ölkə parçalana bilərdi. Demək olar ki, ölkə dünyada gedən bütün proseslərdən təcrid olunmuş vəziyyətdə idi. O çətin dövrdə, çətin vəziyyətdə onun nə silahı var idi, nə ordusu var idi, nə də dəstəsi var idi. Yalnız siyasi iradəsi, bir də xalqın inamı, dəstəyi var idi. O, bu dəstəyə arxalanaraq, on il ərzində Azərbaycanı böhrandan tərəqqiyə gətirdi. Bu gün Azərbaycan inamla irəliləyir, Azərbaycanın bütün sahələri inkişaf edir. Elə bir sahə yoxdur ki, orada son 10 il ərzində irəliləyiş, tərəqqi olmasın. Elm, mədəniyyət, incəsənət sahələrində də Azərbaycan, demək olar ki, indi intibah dövrünü yaşayır. On il tarix baxımından böyük bir müddət deyil. Amma baxın, son on ildə Azərbaycanda nə qədər böyük işlər görülüb. Azərbaycan nə qədər böyük uğurlar əldə edib. Bütün bu uğurlara görə biz xalqımızın milli lideri Heydər Əliyevə borcluyuq.

Bu gün onun adını daşıyan Fondun təqdimat mərasimi keçirilir. Bu ideya yeni deyil. Bir neçə il bundan əvvəl belə bir fikir yaranmışdı ki, Heydər Əliyev Fondu yaradılsın. O da bu fikrə müsbət yanaşmışdı, amma nə isə bunu həyata keçirmək mümkün olmadı. Amma biz hesab etdik ki, bu gün belə bir Fond lazımdır. Fond Heydər Əliyevin siyasi irsini öyrənəcək, onu təhlil, tədqiq və təbliğ edəcək. Ümid edirəm ki, Azərbaycanın ictimai həyatında Fondun rolu böyük olacaq.

Bu gün Heydər Əliyev bizimlə deyil, amma onun fiziki yoxluğu bizi ruhdan salmamalıdır. Onun ideyala-

rı yaşayır, onun siyasəti yaşayır, onun fəlsəfəsi, azərbaycançılıq fəlsəfəsi, ideologiyası yaşayır və onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır və onun yolu ilə inkişaf edir».

***Azərbaycan,***
***2004, 11 may***

## *Heydər Əliyev Fondunun hazırladığı «Azərbaycan» internet portalının təqdimat mərasimi keçirilmişdir*

İyulun 22-də Azərbaycan Dövlət Filarmoniyasında Heydər Əliyev Fondunun yeni layihəsi olan «Azərbaycan» internet portalının təqdimat mərasimi keçirilmişdir. Salona toplananlar Azərbaycan Prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.

Mərasimi Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva açdı.

### Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın çıxışı

– Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Əziz qonaqlar!

Sizi Heydər Əliyev Fondu tərəfindən hazırlanmış «Azərbaycan» internet portalının təqdimat mərasimində salamlayıram və bu axşam bizimlə olduğunuz üçün Sizə dərin minnətdarlığımı bildirirəm.

Heydər Əliyev Fondu artıq bir ildən çoxdur ki, fəaliyyətə başlayıbdır. Biz qarşımıza çox böyük vəzifələr qoyaraq, onların həllinə nail olmağa, konkret layihələr işləyib həyata keçirməyə çalışırıq.

Yardıma ehtiyacı olan hər bir insana qayğı və diqqət Heydər Əliyev Fondunun əsas vəzifələrindən biridir.

Ölkəmizdə sosial problemlərin həllində Fond çox fəal iştirak edir və bir sıra humanitar layihələr hazırlayıb həyata keçirir. İnternat-məktəblərin və uşaq evlərinin inkişafı layihəsi çərçivəsində indi Bakıda 12 məktəbdə əsaslı təmir aparılır. Demək olar ki, bu məktəblərin əksəriyyəti yenidən inşa edilir. «Diabetli uşaqlara ən yüksək qayğı» və «Talassemiyasız həyat naminə» layihələri ilə yanaşı, cəmiyyətimizin bu cür problemlərinə yeni bir nəzər nöqtəsindən baxmağa çalışırıq. Fondun təşəbbüsü ilə respublikamızın bütün guşələrində ən ağır vəziyyətdə olan 132 məktəb üçün bina tikilir. Məktəblər yerli şəraitə uyğun layihələrlə inşa edilir. Bu gün demək olar ki, məktəblərin əksəriyyətində tikintiyə başlanıb. Ölkəmizin tarixi abidələrinin qorunmasında da Fond fəal iştirak edir. Gəncə şəhərində Cavadxan türbəsinin, Bakının Şüvəlan qəsəbəsində yerləşən Pirhəsən ziyarətgahının bərpa edilməsi, Abdulla Şaiqin ev-muzeyinin təmir edilməsi Fondun bu istiqamətdə gördüyü tədbirlərin yalnız bir neçəsidir.

Amma Fondumuzun ən məsul və ən şərəfli vəzifəsi Heydər Əliyev tərəfindən yaradılan azərbaycançılıq ideyasını, azərbaycançılıq fəlsəfəsini təbliğ etməkdir. Biz çalışırıq ki, bu ideyanı davam etdirək. Bu gün diqqətinizə çatdırılan layihə də bu məqsədə xidmət edir.

Portalın üzərində işə başlamazdan əvvəl biz «Azərbaycan və internet» adlanan maraqlı bir araşdırma aparmışıq. Azərbaycanın dünya informasiya məkanına inteqrasiya olunması, Azərbaycan dilində internet resursları bizi maraqlandırdı. Bu araşdırmaların bəzi nəticələrini sizin diqqətinizə çatdırmaq istərdim. Bəzi mənbələrə görə, Azərbaycanda internetdən istifadə edənlərin sayı 300 min, digərlərinə görə isə 400-450 min nəfərə çatır. Yer kürəsində internet istifadəçilərinin sayı 1 milyarda çatır ki, bu da dünya əhalisinin 14 faizini təşkil edir. Məlumdur ki, Azərbaycanda internet poçt sistemi 1991-ci ildən fəaliyyət göstərir. İndi artıq Azərbaycanda internet resurslarının mövcudluğundan danışmaq mümkündür. Hazırda ölkəmizdə 3145 azər-

baycandilli, 830 türkdilli, 1300 ingilisdilli, 1600 rusdilli sayt mövcuddur. Saytların məzmununu təhlil etsək, onların 150-si dövlət qurumlarına, nazirliklərə, siyasi partiyalara, ictimai təşkilatlara məxsusdur. Azərbaycanın rayonları barədə ümumi məlumatları əks etdirən cəmi 15 sayt mövcuddur. Qarabağ müharibəsinə, Xocalı soyqırımına, erməni vəhşiliklərinə həsr olunmuş 17 sayt mövcuddur. 26 sayt diasporla bağlı məsələləri əhatə edir.

Çox yaxşı haldır ki, dünyada gedən qloballaşmanın aparıcı qüvvələrindən biri olan informasiya və kommunikasiya texnologiyaları da Azərbaycanda öz yerini tutur. İnternet ölkəmizdə dinamik inkişaf edir. Yeni texnologiyalarla məşğul olan təşkilatların sayı günbəgün artır. Bizdə indi kifayət qədər internet resursu var. Amma məsələni daha dərindən öyrənəndə bir sıra daha ciddi nöqsanlar üzə çıxır. Şəbəkənin abreviaturası ilə bağlı problemlər, yüksək səviyyəli axtarış sistemlərinin olmaması, saytların yeni informasiyalarla təmin edilməməsi, konkret bir problemə həsr olunmuş saytlarla yanaşı çox formal, müasir tələblərə cavab verməyən saytlar da vardır. Ölkəmizin beynəlxalq imicinə zərbə vuran, böhtan, yalan yayan, yanlış mövqeli, o cümlədən xalqımızın ən böyük problemi olan Dağlıq Qarabağ münaqişəsi barədə Ermənistanın mövqeyini əks etdirən külli miqdarda müxtəlif dilli saytlar da mövcuddur. Məhz bütün bunlara görə biz «Azərbaycan» portalının yaradılmasını çox zəruri hesab etdik. Bunu vaxtında atılmış bir addım kimi qiymətləndiririk. Əminəm ki, ölkəmizin ən qədim tarixindən tutmuş bugünkü reallığına qədər dövrü özündə əks etdirən bu portal çox problemlərin həllində mühüm rol oynayacaqdır.

Portal 3 dildə – Azərbaycan, ingilis və rus dillərində tərtib olunmuşdur. Yaxın gələcəkdə portalın alman, fransız, ərəb versiyalarının da hazırlanması nəzərdə tutulur. Mən portalın hazırlanmasında fəal iştirak edən bütün təşkilatlara, hər bir insana Heydər Əliyev Fondu adından dərin minnətdarlığımı bildirmək istəyirəm.

İnanıram ki, «Azərbaycan» internet portalı çox qısa bir zamanda qiymətli və dəqiq informasiya mənbəyinə çevriləcəkdir.

Əziz qonaqlar, çıxışımın sonunda sizə işlərinizdə böyük uğurlar, həyatınızda çoxlu işıqlı və xoşbəxt günlər arzulayıram. İndi isə sizi Azərbaycan portalı haqqında filmə baxmağa dəvət edirəm.

Çox sağ olun.

* * *

Sonra «Azərbaycan» internet portalı (www. azerbaijan.az) haqqında film göstərildi. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanı dünyaya tanıtmaq, ölkəmizi inkişaf yoluna çıxarmaq, hüquqi, demokratik dövlət quruculuğu yolu ilə tərəqqiyə zəmin yaratmaq üçün həyata keçirdiyi genişmiqyaslı işlərin müasir dövrdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, milli müstəqillik dövründə iqtisadiyyatın, elmin, mədəniyyətin müxtəlif sahələrində əldə edilmiş uğurlar filmdə əyani göstərildi. Təqdim edilən portalın Azərbaycan həqiqətlərinin internet şəbəkəsi vasitəsilə dünyaya yayılması, xalqımızın min illər boyu yaratdığı maddi-mənəvi dəyərlərin dünyaya tanıdılması kimi əhəmiyyətli bir arzu, amalla araya-ərsəyə gətirilmiş bu böyük layihənin vüsəti filmdə bir daha öz ifadəsini tapdı. Portalın «Xəbərlər», «Ümumi məlumat», «Təbiət», «Tarix», «İqtisadiyyat», «Mədəniyyət», «Cəmiyyət», «Dövlət hakimiyyəti», «Azərbaycan beynəlxalq aləmdə», «Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi», «İnzibati-ərazi vahidləri» və «Xəritələr» bölmələrinin hər biri haqqında verilən geniş məlumat razılıqla qarşılandı. Hər bölmədə mövzuya uyğun əhatəli elmi məlumatlarla yanaşı, çoxsaylı foto-şəkillərin, sənədlərin toplanması materialların dəyərini və təsir gücünü daha da artırır. Materialların həcminə, zənginliyinə və əhatəliliyinə, habelə istifadə olunmuş internet texnologiyalarına görə portalın respublikada analoqu yoxdur. Müasir informasiya texnologiyalarının imkanlarını bir

daha nümayiş etdirən «Azərbaycan» portalı ölkəmizin beynəlxalq aləmdə təbliği işinə, dünyada Azərbaycan haqqında tam, həqiqi və dolğun təsəvvür yaradılmasına sanballı kömək göstərəcəkdir.

* * *

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

– Hörmətli xanımlar və cənablar!

Bu gün «Azərbaycan» portalının nümayişi bizim hamımızı çox sevindirir. Çox gözəl portaldır və burada Azərbaycan haqqında çox dəqiq və müfəssəl məlumat öz əksini tapıbdır. Azərbaycan haqqında məlumatlar internetdə, müxtəlif saytlarda mövcuddur, amma ilk dəfədir ki, bütün məlumat bir portalda cəmləşibdir.

Bu gün bu barədə kifayət qədər məlumat verildi, film də nümayiş etdirildi. Əminəm ki, dünyanın istənilən yerində Azərbaycanla maraqlanan insanlar portaldan səmərəli istifadə edəcəklər. Bizim reallıqlarımız, Azərbaycanda gedən proseslər, Azərbaycan həqiqətləri mütləq dünya birliyinə qərəzsiz, olduğu kimi çatdırılmalıdır. Hamımız yaxşı bilirik ki, Azərbaycana qarşı dünyada çox güclü erməni lobbisi fəaliyyət göstərir. Demək olar ki, Azərbaycana qarşı informasiya müharibəsi aparılır və əlbəttə ki, biz buna adekvat, çox layiqli cavabımızı verməliyik. «Azərbaycan» portalının yaranması bu işdə bizə çox gözəl kömək edəcəkdir. Biz Azərbaycan haqqında məlumatları dünya birliyinə çatdıracağıq, eyni zamanda, öz təbliğat işimizi daha da səmərəli qurmalıyıq.

Heydər Əliyev Fondunun təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş bu layihə çox önəmlidir və əminəm ki, gələcəkdə bu portal daim yeniləşərək, diqqət mərkəzində qalacaqdır.

Fondun fəaliyyəti çoxşaxəlidir. Keçən ilin mayın 10-da Heydər Əliyev Fondunun açılış mərasimi keçirilmiş, Fond fəaliyyətə başlamışdır. Qısa müddət ərzində

Fond ictimai həyatımızın müxtəlif sahələrində çox mühüm işlər görür. Fondun xeyriyyəçilik fəaliyyəti çox genişdir. Ağır şəraitdə yaşayan insanlara kömək göstərilir, kimsəsiz uşaqlara daim diqqət göstərilir, Heydər Əliyevin tarixi irsinin öyrədilməsinə böyük diqqət yetirilir. Qısa müddətdə müxtəlif istiqamətlərdə görülən işlər çox təqdirəlayiqdir. Fond bu müddət ərzində bizim ictimai həyatımızın çox vacib amilinə çevrilib və əminəm ki, bundan sonra da çox səmərəli işləyəcək və öz funksiyasını ləyaqətlə davam etdirəcəkdir.

Bu gün mən sizi bir daha salamlamaq istəyirəm. Sizin hər birinizə uğurlar diləyir və arzu edirəm ki, hamımız çalışaq, hərə öz yerimizdə öz əməyimiz, işimiz və fəaliyyətimizlə doğma Vətənimizi, dövlətimizi möhkəmləndirək, Azərbaycanı müasirləşdirək, zəngin, qüdrətli dövlətə çevirək. Bu işdə sizin hamınıza uğurlar diləyirəm.

Sağ olun!

*Xalq qəzeti,*
*2005, 23 iyul*

## *Heydər Əliyev Fondunun daha bir layihəsi uğurla başa çatdı. Fondun hazırladığı «Azərbaycan» portalı internet şəbəkəsinə ötürüldü*

Məlum olduğu kimi, Heydər Əliyev Fondu ölkəmizdə ayrı-ayn sahələrlə bağlı bir sıra tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə milli-mənəvi sərvətlərimizin qorunması və bərpası, təhsil və səhiyyə ocaqlarının yenidən qurulması, aztəminatlı ailələrin diqqət və qayğı ilə əhatə olunması istiqamətində geniş işlər görülür. Fond həmçinin ideoloji məsələlərin gerçəkləşməsi ilə bağlı tədbirlər də həyata keçirir. Belə tədbirlərdən biri də iyulun 22-də Azərbaycan Dövlət Fi-

larmoniyasında Heydər Əliyev Fondunun yeni layihəsi olan «Azərbaycan» internet portalının təqdimatı olub.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də iştirak edib.

Mərasimi Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva açaraq ilk öncə tədbir iştirakçılarına səmimi salamlarını çatdırıb və onlara mərasimə qatıldıqlarına görə dərin minnətdarlığını bildirib. Sonra Mehriban xanım tədbir iştirakçıları qarşısında geniş nitq söyləyib. Artıq bir ildən çoxdur fəaliyyətə başlayan Heydər Əliyev Fondunun qarşısında çox böyük vəzifələrin durduğunu qeyd edən Fondun prezidenti onların həllinə nail olmağa, konkret layihələr işləyib həyata keçirməyə çalışdıqlarını bildirib. «Yardıma ehtiyacı olan hər bir insana qayğı və diqqət Heydər Əliyev Fondunun əsas vəzifələrindən biridir», – deyən Mehriban xanım ölkəmizdə sosial problemlərin həllində fondun çox fəal iştirak etdiyini diqqətə çatdırıb. O qeyd edib ki, internat-məktəblərin və uşaq evlərinin inkişafı layihəsi çərçivəsində indi Bakıda 12 məktəbdə əsaslı təmir aparılır. Demək olar ki, bu məktəblərin əksəriyyəti yenidən inşa edilir. Bundan başqa, fondun təşəbbüsü ilə respublikamızın bütün guşələrində ən ağır vəziyyətdə olan 132 məktəb üçün bina tikilir. Məktəblər yerli şəraitə uyğun layihələrlə inşa edilir. Bu gün demək olar ki, məktəblərin əksəriyyətində tikintiyə başlanıb.

Ölkəmizin tarixi abidələrinin qorunmasında da fondun fəal iştirak etdiyini xüsusi olaraq vurğulayan Mehriban xanım Gəncə şəhərində Cavadxan türbəsi, Bakının Şüvəlan qəsəbəsində yerləşən Pirhəsən ziyarətgahının bərpa edilməsi, Abdulla Şaiqin ev-muzeyinin təmir edilməsini fondun bu istiqamətdə gördüyü tədbirlərin bir hissəsi kimi nəzərə çatdırıb.

Fondun ən məsul və ən şərəfli vəzifəsinin Heydər Əliyev tərəfindən yaradılan azərbaycançılıq ideyasını, azərbaycançılıq fəlsəfəsini təbliğ etməkdən ibarət olduğunu diqqətə çatdıran Mehriban xanım qeyd edib ki,

«Biz çalışırıq ki, bu ideyanı davam etdirək. Və bu gün diqqətinizə çatdırılan layihə də bu məqsədə xidmət edir».

Portalın üzərində işə başlamazdan əvvəl «Azərbaycan və internet» adlanan maraqlı bir araşdırma apardıqlarını deyən Fondun prezidenti bu araşdırmaların bəzi nəticələrini tədbir iştirakçılarının diqqətinə çatdırıb: «Bəzi mənbələrə görə, Azərbaycanda internetdən istifadə edənlərin sayı 300 min, digərlərinə görə isə 400-450 min nəfərə çatır. Yer kürəsində internet istifadəçilərinin sayı 1 milyarda çatır ki, bu da dünya əhalisinin 14 faizini təşkil edir. Məlumdur ki, Azərbaycanda internet poçt sistemi 1991-ci ildən fəaliyyət göstərir. İndi artıq Azərbaycanda internet resurslarının mövcudluğundan danışmaq mümkündür. Hazırda ölkəmizdə 3145 azərbaycandilli, 830 türkdilli, 1300 ingilisdilli, 1600 rusdilli sayt mövcuddur. Saytların məzmununu təhlil etsək, onların 150-si dövlət qurumlarına, nazirliklərə, siyasi partiyalara, ictimai təşkilatlara məxsus olduğunu görərik. Azərbaycanın rayonları barədə ümumi məlumatları əks etdirən cəmi 15 sayt mövcuddur. Qarabağ müharibəsinə, Xocalı soyqırımına, erməni vəhşiliklərinə həsr olunmuş 17 sayt mövcuddur. 26 sayt diasporla bağlı məsələləri əhatə edir».

Dünyada gedən qloballaşmanın aparıcı qüvvələrindən biri olan informasiya və kommunikasiya texnologiyalarının Azərbaycanda da yüksək səviyyədə tətbiq olunduğunu qeyd edən Mehriban xanım ölkəmizdə yeni texnologiyalarla məşğul olan təşkilatların sayının günbəgün artdığını diqqətə çatdırıb. O bildirib ki, məsələni daha dərindən öyrənəndə bir sıra daha ciddi nöqsanlar üzə çıxır. Belə ki, hazırda ölkəmizin beynəlxalq imicinə zərbə vuran, böhtan, yalan yayan, yanlış mövqeli, o cümlədən xalqımızın ən böyük problemi olan Dağlıq Qarabağ münaqişəsi barədə Ermənistanın mövqeyini əks etdirən külli miqdarda müxtəlif dilli saytlar mövcuddur. «Məhz bütün bunlara görə biz «Azərbaycan» portalının yaradılmasını çox zəruri hesab etdik.

Bunu vaxtında atılmış bir addım kimi qiymətləndiririk», – deyən Mehriban xanım əmin olduğunu bildirib ki, ölkəmizin ən qədim tarixindən tutmuş bugünkü reallığına qədər dövrü özündə əks etdirən bu portal çox problemlərin həllində mühüm rol oynayacaq.

Fondun prezidenti məlumat üçün bildirib ki, portal 3 dildə – Azərbaycan, ingilis və rus dillərində tərtib olunub. Və yaxın gələcəkdə onun alman, fransız, ərəb versiyalarının da hazırlanması nəzərdə tutulur.

Nitqinin sonunda Mehriban xanım qonaqları «Azərbaycan» portalı haqqında filmə baxmağa dəvət edib və «Azərbaycan» internet portalı (www.azerbaijan.az) haqqında film göstərilib. Qeyd edək ki, filmdə ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanı dünyaya tanıtmaq, ölkəmizi inkişaf yoluna çıxarmaq, hüquqi, demokratik dövlət quruculuğu yolu ilə tərəqqiyə zəmin yaratmaq üçün həyata keçirdiyi genişmiqyaslı işlərin müasir dövrdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, milli müstəqillik dövründə iqtisadiyyatın, elmin, mədəniyyətin müxtəlif sahələrində əldə edilmiş uğurlar əyani şəkildə öz əksini tapıb. Azərbaycan həqiqətlərinin internet şəbəkəsi vasitəsilə dünyaya yayılması, xalqımızın min illər boyu yaratdığı maddi-mənəvi dəyərlərin dünyaya tanıdılması kimi mühüm əhəmiyyətli bir arzu, amalla araya-ərsəyə gətirilmiş bu böyük layihənin vüsəti filmdə bir daha öz ifadəsini tapıb.

Sonra çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti Mahmud Kərimov Heydər Əliyev Fondu tərəfindən hazırlanmış, dövrün tələblərinə cavab verən, xalqımızın həyatındakı mühüm ictimai-siyasi, tarixi, elmi və mədəni hadisələri obyektiv şəkildə əks etdirən «Azərbaycan» portalını dövlətimizin mühüm atributlarından biri, onun inkişaf səviyyəsinin göstəricisi kimi qiymətləndirib. Bu portalın istifadəyə verilməsini ümummilli liderin ideyalarının gerçəkləşməsi istiqamətində atılan ən mühüm addımlardan biri kimi dəyərləndirən AMEA-nın Prezidenti Azərbaycanın ulu tarixi, işıqlı zəkaları, möhtəşəm mədəniyyəti və sənət uğurla-

rı, təbii sərvətlərindən, geosiyasi mövqeyindən, intellektual potensialından məharətlə bəhrələnərək müasir dünya birliyinə inamla inteqrasiyasının portalda öz əksini tapdığını qeyd edib.

Mərasimdə çıxış edən rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov da müasir informasiya texnologiyalarının imkanlarını bir daha nümayiş etdirən «Azərbaycan» portalının ölkəmizin beynəlxalq aləmdə təbliği işinə, dünyada Azərbaycan haqqında tam, həqiqi və dolğun təsəvvür yaradılmasına sanballı kömək göstərəcəyinə əminliyini ifadə edib.

«Azərbaycan» internet portalının ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə olduğu kimi çatdırılmasında əhəmiyyətli rol oynayacağına biz də əminik və layihəni həyata keçirən Heydər Əliyev Fonduna bu istiqamətdə bundan sonra da uğurlu fəaliyyət arzulayırıq.

*Sevinc PAŞAYEVA,*
*Azad Azərbaycan,*
*2005, 24 iyul*

## *BMT-nin inkişaf proqramı ilə Heydər Əliyev Fondu arasında əməkdaşlıq sazişinin imzalanma mərasimi*

Dekabrın 9-da BMT-nin İnkişaf Proqramı ilə Heydər Əliyev Fondu arasında saziş imzalanmışdır.

Fondun icraçı direktoru Anar Ələkbərov mərasimi açaraq bildirdi ki, iki qurum arasında görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsinə dair əməkdaşlıq sazişi və layihə sənədi imzalanacaqdır.

Sənədləri Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputa-

tı Mehriban xanım Əliyeva və BMT-nin Azərbaycandakı prezident-əlaqələndiricisi Marko Borsotti imzaladılar.

Sənədlər imzalandıqdan sonra Mehriban xanım Əliyeva çıxış edərək dedi:

– Hörmətli cənab Borsotti!

Hörmətli xanımlar və cənablar!

Bu gün Heydər Əliyev Fondu ilə BMT İnkişaf Proqramı arasında çox önəmli bir saziş imzalandı. Ölkəmizdə kor və görmə qabiliyyəti zəif olan insanların informasiya kommunikasiya texnologiyalarına çıxışını təmin edən layihə artıq həyata keçirilməyə başlanır. Azərbaycanda 320 min əlil insan yaşayır. Onlardan 40 mini kor və görmə qabiliyyəti zəif olan şəxslərdir. Layihə bu insanların həyata qoşulmasına, onların informasiya kommunikasiyaları vasitələri ilə bilik və məlumat əldə etmək imkanlarının genişləndirilməsinə, onların məşğulluğunun artırılmasına, ümumən bu insanların yaşayış tərzini yaxşılaşdırmağa xidmət edəcəkdir. Bu saziş Heydər Əliyev Fondu ilə BMT-nin İnkişaf Proqramı arasında əməkdaşlığın ilk təməlidir. Heydər Əliyev Fondu yaradıldığı ilk gündən cəmiyyətimizin ən zəif təbəqələrinə böyük diqqət və qayğı ilə yanaşır. Artıq bu gün hamıya tanış olan fəaliyyətimiz bunu sübut edir. “Diabetli uşaqlara ən yüksək qayğı”, “Talassemiyasız həyat”, “Yeniləşən Azərbaycana yeni məktəblər”, “Uşaq evi və internat məktəblərinin inkişafı” proqramları qısa bir zamanda həyata keçirilmişdir və nəticədə minlərlə insana yardım göstərilmiş, kimsəsiz uşaqlara qayğı artırılmış, mühüm sosial problemlər həllini tapmışdır. Məhz bu fəaliyyətinə görə Heydər Əliyev Fondu Azərbaycanda böyük hörmətə malik olan və ölkənin ictimai həyatında mühüm rol oynayan bir qurumdur.

Bu gün Heydər Əliyev Fondu beynəlxalq səhnəyə çıxır. Dünyanın ən mötəbər, ən nüfuzlu təşkilatı olan Birləşmiş Millətlər Təşkilatı ilə birgə fəaliyyətə başlayır. Mən əminəm ki, bu gün başladığımız layihə çox böyük uğurla nəticələnəcək, əldə olunan təcrübə kor və görmə qabiliyyəti zəif olan insanların imkanlarını genişləndir-

mək üçün hazırlanan yeni strategiyaya yardım göstərəcəkdir.

Sonda mən layihə üzrə işləyən bütün insanlara öz dərin minnətdarlığımı bildirmək istəyirəm, Fondun əməkdaşlarına, BMT-nin İnkişaf Proqramına və şəxsən cənab Borsottiyə minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun.

Sonra BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi cənab Marko Borsotti çıxış edərək dedi:

– Hörmətli xanım Mehriban Əliyeva!

Hörmətli xanımlar və cənablar!

Mənə elə gəlir ki, bu gün BMT-də çalışan hər bir mütəxəssis, əməkdaş üçün çox əlamətdar gündür. Çünki BMT olaraq biz Heydər Əliyev Fondu ilə birgə çox önəmli bir addım atdıq. Bunun nəticəsində kor və görmə qabiliyyəti zəif olan insanlara lazımi xidmətlər göstəriləcəkdir. Bir çox ölkələrdə rəqəmsal fərqin aradan qaldırılmasından ötrü müxtəlif tədbirlərin həyata keçirilməsi BMT-nin İnkişaf Proqramı üçün mühüm bir məsələdir. Bu məsələyə əvvəlcə hörmətli şəxsiyyət Heydər Əliyev, daha sonra isə cənab Prezident İlham Əliyev tərəfindən göstərilən maraq bizim üçün çox mühüm oldu. Azərbaycanın Tunisdə keçirilən son konfransdakı iştirakı isə onun bu sahəyə marağının nə qədər böyük olmasına bir sübut idi. Burada əsas məqsəd və əsas yekun ondan ibarət idi ki, bu cür inkişaf edən ölkə üçün heç kəs diqqətdən kənarda qalmamalıdır. Bu layihənin həyata keçirilməsi təkcə Azərbaycana xidmət etməyəcək, həm də digər ölkələrə böyük bir nümunə olacaqdır. Mən tam əminəm ki, bu layihə çox səmərəli olacaq, müsbət nəticələrini verəcək və biz növbəti istiqamətlərdə əlaqələrimizi, əməkdaşlığımızı möhkəmləndirəcəyik.

Çıxışımı yekunlaşdıraraq xanım Mehriban Əliyevaya bildirmək istərdim ki, bu istiqamətdə getməyimiz və burada olmağımızın səbəbi məhz Mehriban xanımın baxışlarına əsaslanır. Çox sağ olun.

İmzalanma mərasimindən sonra Fondun icraçı direktoru Anar Ələkbərov jurnalistlərə məlumat verərək

bildirdi ki, imzalanan saziş layihələri BMT-nin "Minilliyin Bəyannaməsi"ndə dövlət və hökumət başçıları tərəfindən yeni texnologiyaların, xüsusilə informasiya-kommunikasiya texnologiyalarının (İKT) hamı üçün təmin olunması barədə götürülmüş öhdəliyə və Azərbaycan hökumətinin İKT üzrə Milli Strategiyasına uyğun hazırlanmışdır. Bu layihə üç mərhələdə həyata keçiriləcəkdir. İlk mərhələ kor və görmə qabiliyyəti zəif olan insanların İKT-yə ehtiyaclarını müəyyən etmək, onlar üçün rəqəmsal fərqin aradan qaldırılması üzrə ayrıca proqram layihəsi hazırlamaqdan ibarətdir. Bu məqsədlə sorğular, müzakirələr keçirilməli, təcrübə mübadiləsi aparılmalı, alınacaq avadanlığın növləri müəyyən edilməlidir.

İkinci mərhələdə kor və görmə qabiliyyəti zəif olan uşaqlar üçün internat məktəbində model İKT sinfinin yaradılması istiqamətində işlər aparılacaqdır. Burada kompüter avadanlığının alınıb quraşdırılması, proqram təminatının lokallaşdırılması, internetə çıxışın təmin edilməsi və xüsusi tədris-təlim proqramlarının hazırlanması başlıca vəzifələr olacaqdır.

Audiokitabxanaların hazırlanması, təlim mərkəzlərinin yaradılması, kitabxana fondunun audioformata çevrilməsi üçün səsyazma studiyasının qurulması, bu studiyanın yardımı ilə mövcud kitabxanalarda Brayl şriftli və audiokitabların bərpası, internetə çıxış, informasiya texnologiya əsaslı təlim kursları, internetdə informasiyanın tapılması, əldə edilməsi kimi xidmətləri təmin edən kompüter mərkəzinin yaradılması, təlim kurslarında dərs deyəcək müəllimlərin, təlimçilərin hazırlığı üçüncü mərhələdə həyata keçiriləcəkdir.

***AzərTAc***
***2005, 9 dekabr***

## *Heydər Əliyev Fondunda Rusiyanın "Puşkin kitabxanası" fondundan kitabların hədiyyə edilməsi mərasimi*

Fevralın 1-də Heydər Əliyev Fondunda Rusiyanın "Puşkin kitabxanası" Fondundan kitabların hədiyyə edilməsi mərasimi keçirilmişdir.

Mərasimi Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva mərasimi açdı.

Sonra "Puşkinskaya biblioteka" Fondunun baş direktoru Mariya Vedenyapina səmimi sözlərə görə Mehriban xanım Əliyevaya təşəkkür edərək dedi:

– Mən həqiqətən hesab edirəm ki, kitab ən yaxşı hədiyyədir, çünki "Puşkinskaya biblioteka" Fondu, ilk növbədə, kitablar və kitabxanalarla işləyir. İkincisi, demək istərdim ki, ölkələr arasında münasibətlərdə kitab ən xeyirxah və etibarlı səfirdir. Ona görə mənə çox xoşdur ki, məhz bugünkü hadisə – "Puşkinskaya biblioteka" Fondunun Heydər Əliyev Fonduna kitablar hədiyyə etməsi Azərbaycanda Rusiya ilinin açılışının başlanğıcı olacaqdır. Həqiqətən hesab edirəm ki, ən başlıcası, ən vacibi və faydalısı bir-birimizə olan marağı itirməməkdir. Əgər bu meyar varsa, əgər tələbələrə və müəllimlərə rus dilində ədəbiyyat lazımdırsa, biz onlara həvəslə kömək edirik. Əslində bu, yardım deyil, birgə layihədir.

Mən "Puşkinskaya biblioteka" Fondu haqqında bir neçə kəlmə demək istərdim, çünki burada məndən soruşurlar ki, Sankt-Peterburqdakı Puşkin evinə bizim hansı aidiyyətimiz var. Biz Puşkin evi deyilik, baxmayaraq ki, onunla çox yaxşı və sıx əməkdaşlıq edirik. "Puşkinskaya biblioteka" Fondunun əsas qayğısı kəndlərdəki, məktəblərdəki kiçik kitabxanalarından başlayaraq, federal və ali məktəb kitabxanalarınadək Rusiya kitabxanalarıdır. Biz fondları komplektləşdirir, həm universitet kitabxanaları, həm də kütləvi kitabxanalar üçün müxtəlif tipli kataloqlar buraxırıq. Eyni zamanda, ki-

tabxana işinin dəstəklənməsinə yönəldilmiş müxtəlif sosial layihələr həyata keçiririk, bu isə mahiyyət etibarilə elmin, təhsilin, mədəniyyətin dəstəklənməsi deməkdir. Odur ki, biz artıq federal hökumət tərəfindən də dəstəklənən ayrıca böyük layihə həyata keçiririk. Bu, "Kənd kitabxanaları" layihəsidir. Cari ildən həqiqətən böyük problemləri olan məktəb kitabxanalarının komplektləşdirilməsinin yenidən qurulmasına dair təzə layihənin gerçəkləşdirilməsinə başlamışıq. Doğrudan da, əvvəllər deyirdik ki, biz ən çox mütaliə edən millətik, kitab ən yaxşı hədiyyədir. Ancaq hazırda, yeni informasiya texnologiyalarının dünyanı fəth etdiyi dövrdə, təəssüf ki, kitab nüfuzunu itirir.

Başqa bir proqramımız – mütaliənin dəstəklənməsinə və genişləndirilməsinə yönəldilmiş "Mütaliə edən Rusiya" proqramıdır. Biz bunu əsas layihəmiz sayırıq, çünki, həqiqətən, kitabsız savadlı nəsil tərbiyə etmək olmaz. Ona görə də çox ümid edirəm ki, bugünkü tədbir ölkələrimizin rifahı naminə, başlıcası isə, uşaqlarımızın həqiqətən savadlı, mədəni böyüməsi və bizim onlarla fəxr edə bilməyimiz naminə əməkdaşlığın möhkəm bünövrəsini qoyacaqdır.

Mərasimdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun kafedra müdiri, professor Tatyana Alekseyeva da çıxış etdi. Rusiya alimi dedi:

– İndiki halda, mən, görünür, kitab istehlakçısıyam, belə ki, ilk növbədə, elmi, pedaqoji cəmiyyəti təmsil edirəm. Ona görə mən də bəzi mülahizələrimi sizinlə bölüşmək istərdim.

Deyildiyi kimi, bu sərgidə 800-dən çox dərslik nümayiş etdirilir. Mən bunu bir daha vurğulamaq istərdim, çünki bu rəqəm özlüyündə çox təsirli olsa da, müəllimlərin, elmi işçilərin daim qarşılaşdıqları bəzi məsələlər barədə düşünməyə vadar edir. 800 dərslik çoxdur, yoxsa azdır? Ümumiyyətlə, bu cür ədəbiyyatı nəşr etmək vəzifəsinin yerinə yetirildiyini, həm müəllimlərin, həm də tələbələrin xarici elmin və vətən elminin ən yeni ixtira və kəşflərinə yolunun açıldığını söylə-

mək üçün nə qədər dərslik lazımdır? Bu, olduqca aktual məsələdir. Son 2-3 ildə elmi ictimaiyyətdə, Rusiyada bu mövzuda çox ciddi diskussiyalar gedir: yeni nəsil üçün dərslik nədən ibarətdir, o, necə olmalıdır, nə qədər, hansı fənlər üzrə dərslik olmalıdır. Ümumiyyətlə, kifayət qədər ciddi problem də var ki, universitetdə dərslik lazımdırmı? Universitet təhsili əzəldən onu nəzərdə tutmuşdur ki, tələbə lap əvvəldən orijinal mətnlərlə, orijinal əsərlərlə tanış olmalıdır. İndiki halda mən humanitar sahədən danışıram. Ola bilsin, burada heç bir dərslik gərək deyildir. Bu, heç də sadə bir məsələ deyil və həqiqətən, ciddi fikir ayrılıqlarına səbəb olur.

Son nəticədə bizim elmi ictimaiyyətimiz, – hər halda Moskvadakı, – razılaşdı ki, dərsliklərin və dərs vəsaitlərinin hansısa faizi lazımdır. Bu dərsliklərin kimə lazım olması, onların tələbələrə, yoxsa, ilk növbədə, müəllimlərə lazım olması isə başqa məsələdir. Həm bu, həm də digər nöqteyi-nəzərin öz tərəfdarları və əleyhdarları var. Tələbələrə gəldikdə isə, düşünürəm ki, burada hər şey aydındır. Müəyyən xətt var, baza bilikləri olmalıdır, tələbələr imtahanları uğurla vermək üçün hansısa kitaba əsaslanmalıdırlar.

Müəllimlərə gəldikdə isə, burada vəziyyət bir qədər mürəkkəbdir. Humanitar sahənin mütəxəssisləri çox yaxşı bilirlər ki, biz XX yüzilliyin böyük hissəsini bada vermişik – ilk növbədə, xaricdə yaranan elmi məktəblərlə, XX əsrin dəyərləri sayılan böyük əsərlərlə tanış olmaq imkanımız yox idi. Müəllim heyətinin əksəriyyəti onlarla 1990-cı illərin əvvəllərində tanış olmağa başlamışdır.

Mənim sahəmə gəldikdə isə, burada tezliklə üzə çıxan kifayət qədər ciddi problemlər var. Məsələn, məlum olmuşdur ki, siyasi nəzəriyyədən, siyasi elmlərdən dərs deyən müəllimlərin yalnız 0,2 faizi xarici dilləri hansısa mətni orijinaldan oxuya biləcək səviyyədə bilir. Mən hələ təhlildən danışmıram. Bu, 1990-cı illərin məlumatıdır. Başqa sözlə, müəllim heyəti qarşısında humanitar sahədə nəhəng dünya təcrübəsini qısa müd-

dətdə mənimsəmək kimi çox ciddi problem dururdu. Nə qədər kədərli olsa da, onların əksəriyyəti özü öyrənənlər idi. Axı, hamı yaşa dolmuş, formalaşmış insanlardır və onlar tələbələrlə birlikdə parta arxasında əyləşərək, bu böyük ədəbiyyat axınını mənimsəməyə başlamalı idilər. Bu zaman fəal surətdə tərcümələrlə məşğul olmağa başlayan Rusiyanın nəşriyyat korpusu böyük kömək göstərdi.

Biz yaxşı başa düşürük ki, bu tərcümələr, onların tirajları azdır, bu kitablara ehtiyacı olan adamlara çatmır. İndi yeni nəsil dərsliklər problemi yaranır. Onlar bir tərəfdən, sovet tədris-təhsil sistemində olan nailiyyətlərini itirməməli, digər tərəfdən isə, bizim tanış ola bilmədiyimiz ən yeni kəşflərlə tamamlanmalıdır. Düşünürəm ki, bu işdə "Puşkinskaya biblioteka" kimi fondların əhəmiyyəti olduqca böyükdür.

Dərslik naşirləri qarşısında çox ciddi problem durur – ənənələri, mövcud bilik və bacarığı qoruyub saxlamaq şərti ilə, müasir, habelə xarici ictimai-siyasi təfəkkürün bizə təklif etdiklərinə tənqidi yanaşmaq.

Məncə, burada təqdim olunan dərsliklərin bir hissəsi bu ciddi fikir ayrılığını, ciddi dilemmanı həll etmək cəhdidir. Bunun nə dərəcədə uğurla həyata keçiriləcəyini isə bu kitablarla işləyənlər deyə biləcəklər. Demək istəyirəm ki, belə kitablar çox olmalıdır, onlar müəllimlərin masasının üstündə olmalıdır. Belə kitablar çox olduqca, biz müqayisəli təhlil aparır və ümumi məqsədimiz olan yeni, bizdən daha savadlı nəsil yetişdirmək kimi nəticə əldə edirik.

Sonra AMEA-nın prezidenti Mahmud Kərimov çıxış etdi:

– İlk növbədə, fürsətdən istifadə edərək, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanı "2005-ci ilin adamı" elan olunması münasibətilə təbrik etmək istərdim.

Lap bu günlərdə ictimaiyyətə Heydər Əliyev Fondunun fəaliyyəti haqqında hesabat təqdim edildi. Biz

Fondun gördüyü çox böyük işlər, nəcib xeyriyyəçilik fəaliyyəti, təhsilə, səhiyyəyə dəstəyi, uşaq evlərinə yardımı barədə bir daha məlumat aldıq. Bu, həqiqətən, böyük işdir və biz onu yüksək qiymətləndiririk. İndi yenə də Heydər Əliyev Fondu tərəfindən təşkil olunmuş tədbirə toplaşmışıq. Bu da çox əlamətdar hadisədir, "Puşkin kitabxanası" Fondunun hədiyyə etdiyi kitabların bizə belə gözəl kolleksiyası təqdim olunmuşdur.

Bu hədiyyənin bizim üçün dəyərini lazımınca qiymətləndirmək çətindir. Azərbaycanı və Rusiyanı iki yüzillik birgə tarix, bütün sahələrdə – iqtisadiyyat, mədəniyyət, elm və təhsildə ən sıx dostluq əlaqələri birləşdirir. Sirr deyil ki, Azərbaycan xalqı dünya və Avropa ədəbiyyatına rus mədəniyyəti vasitəsilə qovuşmuşdur. Əlbəttə, biz onu da bilirik ki, ümumi mənəvi dəyərlərin formalaşmasına Puşkin, Dostoyevski, Tolstoy, Qoqol ilə yanaşı, Nizami, Nəsimi, Füzuli, Mirzə Fətəli Axundov da çox böyük təsir göstərmişlər. Bu ənənələr indi də davam etdirilir, əlaqələrimiz bu gün də uğurla inkişaf edir. Bu kitabların indiki təqdimatı buna misal ola bilər. Biz bu hədiyyəni Heydər Əliyevin xatirəsinə ehtiram, Azərbaycan xalqına, onun mədəniyyətinə hörmət kimi dəyərləndiririk.

Həqiqətən, bu gün elektron-informasiya vasitələri həyatımızın bütün sahələrinə tətbiq edilsə də, zənnimcə, kitab öz əhəmiyyətini itirməyib və necə deyərlər, bilik mənbəyi, ən yaxın adamın sənə edə biləcəyi ən əziz hədiyyə olaraq qalmaqdadır. Azərbaycanda kitabı həmişə yüksək qiymətləndirmişlər.

AMEA-nın prezidenti xatırlatdı ki, Azərbaycan dövlətinin başçısı İlham Əliyev 2003-cü ildə İsveçrədə keçirilmiş informasiya cəmiyyətinə dair dünya zirvə toplantısında belə bir məqsəd irəli sürmüşdür: neftin dəyərini insani dəyərə çevirək. İsveçrədən qayıtdıqdan dərhal sonra latın qrafikası ilə kitabların kütləvi nəşri haqqında Fərman imzaladı. Bu sahədə iş görülür, artıq hərəsi 25 min nüsxə ilə yüzlərlə kitab nəşr edilmişdir. Bu kitablar respublika və məktəb kitabxanalarına hədiyyə olunur.

M.Kərimov vurğuladı ki, bu gün, ərazimizin 20 faizinin işğal altında olduğu, mindən çox kitabxananın yandırıldığı, milyonlarla kitabın məhv edildiyi bir vaxtda "Puşkinskaya biblioteka" Fondunun hədiyyəsi xüsusilə qiymətli və əhəmiyyətlidir. O, Azərbaycana verilən belə qiymətli hədiyyəyə görə fondun rəhbərliyinə və kollektivinə, habelə bu tədbirin baş tutmasında böyük xidməti olan Mehriban xanım başda olmaqla Heydər Əliyev Fondunun kollektivinə təşəkkürünü bildirdi. AMEA-nın prezidenti dedi ki, bu kitablar öz sahibini tapmışdır. Çünki onların hədiyyə edildiyi kollektiv öz mədəniyyətinə, mənəvi dəyərlərinə diqqət və qayğı ilə yanaşır. Buna görə də kitabların qiymətini bilir və onlardan düzgün istifadə etməyi bacarır.

Arzu edirəm ki, bu təşəbbüs dəstəklənsin, inkişaf etdirilsin və bu, sonuncu hədiyyə olmasın.

Mehriban xanım Əliyeva hədiyyə olunan kitablara baxdı və qonaqları da Heydər Əliyev Fondunun fəaliyyətə başladığı dövrdən nəşr etdirdiyi kitablarla tanış etdi.

Mərasimdə ölkəmizin tanınmış alimləri, incəsənət və mədəniyyət xadimləri, Milli Məclisin deputatları iştirak edirdilər.

***AzərTAc***
***2006, 1 fevral***

## *Uşaq musiqi festivalı açılmışdır*

Aprelin 15-də Bakı Musiqi Akademiyasında (BMA) Azərbaycan Mədəniyyətinin Dostları Fondunun dəstəyi ilə bu təhsil ocağının nəzdində fəaliyyət göstərən Orta ixtisas musiqi məktəb-studiyasının (OİMMS) 25 illik yubileyinə həsr olunmuş uşaq musiqi festivalının açılış mərasimi keçirilmişdir.

BMA-nın rektoru, SSRİ xalq artisti, professor Fərhad Bədəlbəyli, məktəb-studiyanın direktoru Tərlan Seyidov OİMMS-in tarixi, fəaliyyəti haqqında, festival

çərçivəsində üç yaş qrupunda beş ixtisas-fortepiano və bəstəkarlıq xalq çalğı alətləri və xanəndəlik, simli alətlər, nəfəs və zərb alətləri və vokal üzrə keçiriləcək müsabiqə barədə qısa məlumat vermişlər. Müsabiqələrin gənc istedadların həyatında böyük əhəmiyyət kəsb etdiyi və bu festivalın onların sənətdə inkişafına təkan verəcəyi əminliklə vurğulanmış, məktəbin məzunlarının beynəlxalq müsabiqələrdə uğurları diqqətə çatdırılmışdır.

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun icraçı direktoru İbrahim Quliyev Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyevanın adından tədbirin iştirakçılarını təbrik etmiş, onlara uğurlar diləmişdir. Natıq artıq 10 ildir ki, fəaliyyət göstərən Azərbaycan Mədəniyyətinin Dostları Fondu və onun prezidenti Mehriban xanım Əliyeva tərəfindən gələcəyimiz olan uşaqlara göstərilən diqqət və qayğıdan danışmış, fondun mədəniyyətimizin inkişafı üçün bundan sonra da töhfələrini əsirgəməyəcəyini bildirmişdir. Sonra məktəb-studiya məzunları və şagirdlərinin ifasında Azərbaycan, Rusiya və Avropa ölkələri bəstəkarlarının əsərləri səslənmişdir. İki həftə davam edəcək festivalın yekun konserti aprelin 29-da olacaqdır.

***AzərTAc***
***"Respublika",***
***2006, 16 aprel***

## *“Azərbaycan: Sivilizasiyalararası dialoqun keçmişi və bu günü” mövzusunda beynəlxalq konfrans konfransın açılışı*

Aprelin 19-da Heydər Əliyev Fondunda “Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü” mövzusunda beynəlxalq konfrans başlanmışdır.

Konfransı Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva açdı.

## Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, milli məclisin deputatı Mehriban xanım Əliyevanın çıxışı

– Hörmətli xanımlar və cənablar, əziz qonaqlar!

Sivilizasiyalararası dialoqun dünəni və bu günü mövzusunda keçirilən beynəlxalq konfransın bütün iştirakçılarını Heydər Əliyev Fondunda ürəkdən salamlayıram. Latın Mədəniyyəti Akademiyasını təmsil edən və xarici ölkələrdən gəlmiş qonaqlarımıza ən xoş arzularımı çatdırmaq istəyirəm və inanıram ki, bu gün Heydər Əliyev Fondu ilə başlanan əməkdaşlıq gələcəkdə daha da səmərəli olacaqdır. Konfransda Azərbaycan Respublikasını təmsil edən bütün nümayəndələrə, ictimai xadimlərə, müxtəlif təşkilatlardan olan insanlara “Xoş gəlmisiniz!” deyirəm. Fondumuzun qapıları Azərbaycanı dünya birliyində layiqli təmsil etməyə qadir olan bütün təşəbbüslərə, bütün təkliflərə, layihələrə daim açıqdır. Konfransın bütün iştirakçılarına cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

Latın Mədəniyyəti Akademiyasının rəmzini görərkən, yəqin ki, bizim hər birimizin yadına Azərbaycan narı düşdü. Bu, nar çiçəyidir və biz hər birimiz onu görəndə Azərbaycan narını yadımıza salırıq. Nar Azərbaycan torpağının ən gözəl nemətlərindən biridir və bizim dastanlarda, mahnılarda, nağıllarda çox böyük yer tutur. Məlumdur ki, Məhəmməd Peyğəmbər narı insanları nifrətdən azad etməyə qadir bir nemət sayırdı. Digər rəvayətə görə, nar İsa Peyğəmbərin göylərdən gətirdiyi bir nemətdir. Buddizmdə üç xüsusi fərqlənən nemətlərdən biri də nardır. Bir çox qədim mədəni ənənələrdə nar həyat ağacının meyvəsi sayılır. Bu gün isə biz deyə bilərik ki, nar dünyada olan müxtəlif mədəniyyətlərin eyni kökə malik olmasının rəmzidir.

Əziz dostlar, Latın Mədəniyyəti Akademiyası 2000-ci ildə latın mənşəli ölkələrin mədəni irsini qorumaq məqsədi ilə yaradılmışdır. Eyni zamanda, dünyada gedən mürəkkəb siyasi proseslərə cavab olaraq son bir neçə ildə bu akademiya "Latin dünyası və islam aləmi" adlı konfranslar keçirir. Bütün müsəlman aləmində çox müsbət qarşılanan bu təşəbbüs konkret dialoqun nə qədər faydalı olduğunu nümayiş etdirir. Bu gün biz sivilizasiyalararası dialoqun keçmişindən söhbət açaraq xüsusi vurğulamalıyıq ki, qədim və çox zəngin yunan-Roma sivilizasiyasının ilk varisi məhz Şərq olubdur. Müsəlman renessansı kimi tarixə düşən bu dövrdə müsəlman ölkələrində ən mütərəqqi, ən qabaqcıl ideyalar yaşadılıb, inkişaf etdirilibdir. Şərq alimlərinin və filosoflarının əsərləri ilə zənginləşən bu irs orta əsrlərdə yenidən Avropaya qaytarılıbdır. Bütün Şərqin, müsəlman aləminin bu irsin qorunmasında rolu əvəzsizdir.

2006-cı ildə konfransın məhz Bakı şəhərində keçirilməsini ölkəmizin mədəniyyətlərarası dialoq sahəsində çox müsbət təcrübə toplaması ilə əlaqələndiririk. Həqiqətən də, əsrlər boyu Böyük İpək yolu üstündə yerləşən ölkəmiz çox yüksək tolerantlığa malik və müxtəlif mədəniyyətləri birləşdirən bir məkan kimi tanınır. Bu, bizim qürur duyduğumuz keçmişimizdir və inanıram ki, gələcəkdə də bu sahədə Azərbaycan öz müsbət rolunu oynayacaqdır.

Məlumdur ki, bu gün bəşəriyyət çox mürəkkəb bir dilemma qarşısındadır. Bu, həm siyasi, həm də elmi müstəvidə olan problemdir. Müasir alimlərin bir qismi sivilizasiyaların toqquşmasından söhbət açır və bunu elmi cəhətdən əsaslandırmağa çalışırlar. Digər mövqedə olan insanlar isə hesab edirlər ki, bizim zəngin müxtəlifliyimiz bəşəriyyətin ən böyük sərvətidir. Onlar dialoqun tərəfdarıdırlar və biz bu insanlarla həmfikirik. Belə bir dialoqun reallaşması üçün hər bir ölkədə konkret işlər görülməlidir. Biz çox yaxşı bilirik ki, cəmiyyətdə olan mühit, formalaşan ənənələr insanları

bir-birinə qarşı ya düşmən, ya da dost etməyə qadirdir. Bu istiqamətdə ən vacib amillərdən olan təhsil və mədəniyyəti xüsusi qeyd etmək istərdim. Bu gün biz elə bir təhsil sistemi qurmağa çalışmalıyıq ki, müasir dünyada layiqli yaşamağa qadir olan, humanizm və sülh ideyalarına sadiq olan vətəndaş tərbiyə edə bilək.

Mən konfrans iştirakçılarının diqqətinə çatdırmaq istərdim ki, Heydər Əliyev Fondu tərəfindən "Yeniləşən Azərbaycana yeni məktəb" adlı irimiqyaslı layihə həyata keçirilir. Layihənin ilk mərhələsi təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsinə xidmət edir. Biz yeni məktəblər tikir, onları müasir avadanlıqla təchiz edirik. Ancaq bu, yalnız ilk addımdır. Bizim ali məqsədimiz ölkəmizdə ən müasir, ən yüksək tələblərə cavab verən təhsil sistemi yaratmaqdır. Biz heç zaman unutmamalıyıq ki, uşaqlar məktəbdə təkcə müxtəlif biliklər qazanmırlar, həm də bir şəxsiyyət kimi formalaşırlar, onların əsas dəyərlər sistemi formalaşır. Bu gün, biz ənənələrə sadiq qalaraq, gənc nəsli tolerantlıq ruhunda tərbiyə etsək, sabah onlar sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa daha hazır olacaqlar.

Təbiidir ki, hər bir xalqın öz tarixi var, öz xüsusiyyətləri, öz ənənələri, öz yolu var. Amma yəqin ki, hər bir xalqın gələcəyi üçün, sabahı üçün ən mühüm amillərdən biri mədəniyyətdir. Mən bu sözü çox geniş mənada işlədirəm. Fikrimcə, elm, dil, təhsil, incəsənət, hətta iqtisadi nailiyyətlər də mədəniyyətin tərkib hissəsidir. Öz mədəniyyətinə, öz tarixinə, öz ənənələrinə hörmətlə yanaşan xalq gərək eyni şəkildə fərqli mədəniyyətlərə də, fərqli tarixə də hörmətlə yanaşsın. Ksenofobiya, faşizm, digər millətlərə nifrət hissi – bunlar hamısı çox təhlükəli hallardır. Bu baxımdan, mən qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan çox yüksək tolerantlığa malik ölkə kimi bütün dünyaya nümunə ola bilər. Əsrlər boyu karvan yolları üstündə yerləşən bu diyar digər millətlərin və dinlərin nümayəndələri ilə təmas qurmağı bacarır. Bu gün də bizim ölkədə məscid, sinaqoq, katolik və pravoslav kilsələri mövcuddur. Torpağı-

mızda yaşayan hər bir millətin təmsilçisi eyni hüquqlu Azərbaycan vətəndaşıdır. Başqa dinə dözümlülük və hörmət var. Elə bilirəm ki, bunlar hamısı bütün dünya üçün mesaj ola bilər.

Hörmətli konfrans iştirakçıları, belə bir tədbirin ölkəmizdə keçirilməsi heç də təsadüfi deyildir. Bu gün Azərbaycan dünya birliyinə inteqrasiya edən, Şərq və Qərb, Avropa və Asiya mədəniyyətlərini özündə birləşdirən, fərqli düşüncəyə çox hörmətlə yanaşan bir ölkədir. İnanıram ki, bu konfransın nəticələri və əldə olunan təcrübə gələcəkdə dialoqa yardım edəcəkdir.

Bir daha sizə cansağlığı, konfransa uğurlar arzulayıram. İndi isə sizi "Azərbaycanda dini dözümlülük və qarşılıqlı anlaşma" mövzusunda filmə baxmağa dəvət edirəm.

*AzərTAc*
*2006, 19 aprel*

## *Bakıda "Üns yaradıcılıq səhnəsi" teatrının təntənəli açılışı olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir*

Aprelin 22-də Bakıda, Neftçilər prospekti 69 ünvanında yerləşən "ÜNS yaradıcılıq səhnəsi" teatrının təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Dövlətimizin başçısını, xanımı Mehriban Əliyevanı və qızı Arzunu binanın qarşısında "ÜNS yaradıcılıq səhnəsi" layihəsinin müəllifi və rəhbəri, professor Nərgiz Paşayeva, Rusiyanın və Azərbaycanın tanınmış incəsənət və mədəniyyət xadimləri böyük hörmət və ehtiramla qarşıladılar, onlara gül dəstəsi təqdim olundu.

Prezident İlham Əliyev üzərinə "ÜNS yaradıcılıq səhnəsi" 2006-cı ildə yaradılmışdır. Bu mədəni layihə

Aida xanım İmanquliyevanın xatirəsinə ithaf olunur" sözləri yazılmış lövhəni və teatr binasının xarici görünüşünü seyr etdi. Dövlətimizin başçısı teatrın rəmzi açılışını bildirən lenti kəsdi, ailə üzvləri ilə birlikdə teatrın foyelərinə, aktyor otaqlarına, səhnənin quruluşuna baxdı. Binanın təmir-tikinti işləri on ay çəkmişdir. Yeni tikilmiş hissənin memarı Oqtay Səttarovdur. Rəssam Altay Sadıqzadənin dizaynı əsasında qurulmuş metal konstruksiyalar teatrın əsas giriş hissəsinə xüsusi yaraşıq verir. Hər iki foyedə güclü obrazlılığa və təsir gücünə malik müasir sənət nümunələri, rəsm əsərləri asılmışdır. Teatrın binasının önündə və foyedə qoyulmuş heykəltəraşlıq əsərləri xalq rəssamı Fuad Salayevə məxsusdur, burada poetik və satirik obrazlar böyük ustalıqla işlənmişdir.

"ÜNS yaradıcılıq səhnəsi" nəzdində xeyriyyəçi gənclər qrupu da fəaliyyət göstərir. Sonra teatrın təntənəli açılışı oldu. "ÜNS yaradıcılıq səhnəsi" layihəsinin müəllifi və rəhbəri, professor Nərgiz Paşayeva mərasim iştirakçılarını səmimiyyətlə salamlayaraq dedi ki, Azərbaycanda 150 illik bir dövrdə milli səhnəmiz zəngin teatr məktəbini formalaşdırmış və ənənələr yaratmışdır. Böyük aktyorlar Şərq mədəniyyəti üçün ənənəvi olmayan sahədə böyük uğurlar qazanmış, özlərindən sonra böyük məktəb və ənənə qoymuşlar. "ÜNS yaradıcılıq səhnəsi" teatrının əsas məqsədlərindən biri Azərbaycanda teatr sənətinin zəngin ənənələrinə əsaslanaraq onu indiki, müasir səviyyəyə qaldırmaq, bir növ ənənəni və yeniliyi birləşdirməkdir. Qeyri-kommersiya xarakterli olmaqla fikri, ideyanı, mənəvi tələbatı reallaşdırmaq məqsədi daşıyan layihədə üstünlük teatr tamaşalarına verilsə də, burada ədəbi-bədii axşamlar, maraqlı şəxsiyyətlərlə görüşlər, maarifçi xarakterli tədbirlər də təşkil ediləcəkdir. Çünki məhz bu teatr mədəniyyətin bir çox növlərini və janrlarını özündə təmsil edir və mərkəzi xarakter daşıyır. O xüsusi vurğuladı ki, bu layihənin ideya istiqamətlərindən biri də Şərq və Qərb mədəniyyətləri birliyinin bədii əksini sənətdə və

mədəniyyətdə göstərməkdir. Bu mədəni layihə anamın – öz həyat və yaradıcılığı ilə sanki Şərq və Qərb birliyini təmsil edən, XX əsr milli elmimizin və mədəniyyətimizin tanınmış şərqşünas alimi Aida xanım İmanquliyevanın xatirəsinə ithaf olunur. Sonra "ÜNS" teatrının ilk səhnə əsəri – "Bakı" musiqili tamaşası göstərildi. Tamaşanı yüksək peşəkarların rəhbərliyi altında Bakı Musiqi Akademiyasının, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Bülbül adına orta ixtisas musiqi məktəbinin tələbələri – 16 gəncdən ibarət kollektiv hazırlamışdır. Tamaşada unudulmaz bəstəkar Tofiq Quliyevin 30 mahnısından istifadə olunmuşdur. Dinləyicilər nəğmələrlə yanaşı, çox az ifa olunan və geniş auditoriyaya bəlli olmayan melodiyalara maraqla qulaq asdılar. Bu mahnılar Moskva arxivlərində uzun axtarışlardan sonra tapılmış və musiqisevərlərə yenidən təqdim edilmişdir. Tamaşanın quruluşu üzərində Rozetta və Maksimilian Nemçinskilər (Moskva), xalq artisti Azər Paşa Neymət (Bakı) işləmişlər. İştirakçıların vokal hazırlığına Rauf Babayev rəhbərlik etmişdir. Səhnənin dekorativ fonu rəssam Altay Sadıqzadənin əsərlərindən ibarətdir. Tamaşanı müşayiət edən tanınmış caz qrupu – Salman Qəmbərov və "Bakustic-jazz" Tofiq Quliyevin mahnılarının işlənilməsində melodiyaların təravət və gözəlliyini olduğu kimi saxlamış, onları yeni müasir çalarlarla zənginləşdirmişdir. Əsərin "Bakı" adlanması isə təkcə şəhər və paytaxt mənasında deyil, mentaliteti, həyat və təfəkkür tərzini, insanların, mədəniyyətlərin və dünyagörüşlərin bir şəhər daxilində birliyini təmsil etmək mənasını verir. Tamaşanın sonunda bu günün vətənpərvərlik ruhuna tam uyğun gələn "Azərbaycan" mahnısı səsləndirildi və tamaşaçıların hərarətli, sürəkli alqışları ilə qarşılandı.

***AzərTAc***
***"Xalq qəzeti",***
***23 aprel 2006-cı il***

İyunun 10-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Üzeyir Hacıbəyovun 120 illiyinə həsr edilmiş və "Space" televiziyasının keçirdiyi "Televiziya muğam müsabiqəsi-2005"in finalçılarının yekun konserti olmuşdur.

Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın müsabiqə iştirakçılarına müraciətini Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov oxudu.

Müraciətdə deyilir:

"Hörmətli muğam müsabiqəsinin iştirakçıları!

Azərbaycan milli musiqisinin incilərindən olan muğamın qorunması, inkişaf etdirilməsi və təbliği, muğamın gözəlliyinin, onun dərin fəlsəfəsinin gələcək nəsillərə çatdırılması hər birimizin mənəvi borcudur. Təsadüfi deyil ki, ulu öndərimizin adını daşıyan Heydər Əliyev Fondunun çoxsaylı məqsədlərindən biri də milli mənəvi dəyərlərimizin, o cümlədən muğamlarımızın qorunması və təbliği ilə bağlıdır.

Son iki ildə bu sahədə uğurlu addımlar atılmış, muğamın təbliği ilə bağlı görüşlər, muğam axşamları keçirilmiş, "Muğam-İrs" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomu nəfis şəkildə buraxılmışdır. Ötən ilin avqust ayında isə YUNESKO-nun dəstəyi ilə dənizkənarı Milli parkda Beynəlxalq Muğam Mərkəzinin təməli qoyulmuşdur.

Fondun təşəbbüsü ilə muğam sənətinin tanınmış ifaçılarının iştirakı ilə ardıcıl olaraq muğam axşamlarının təşkili bütün sənətsevərlər, milli musiqi həvəskarları tərəfindən dərin razılıqla qarşılanır, bu ənənə yüksək dəyərləndirilir. Ürəkaçan haldır ki, gənc xanəndələrimiz də bu işə öz töhfələrini verirlər. Bir neçə ay davam edən "Muğam müsabiqəsi-2005" artıq sona yetir. Bu müddət ərzində gənc iştirakçılar uğurlu çıxışları ilə tamaşaçı rəğbəti qazandılar, muğam sənətinin gözəlliyi bir daha nümayiş olundu.

Müsabiqənin bu əlamətdar sonuncu günündə bütün iştirakçıları ürəkdən təbrik edir, hər birinə uğur və qələbə sevinci arzulayıram. Ümid edirəm ki, bundan sonra da siz qədim muğam sənətinin yaşaması və çiçəklənməsi üçün əlinizdən gələni əsirgəməyəcəksiniz.

*Hörmətlə,*
***Mehriban ƏLİYEVA,***
*Heydər Əliyev Fondunun prezidenti".*

Xatırladaq ki, müsabiqə başlanmazdan xeyli əvvəl, 2005-ci il fevralın 2-də Mehriban xanım respublikamızın adlı-sanlı muğam ustalarını Heydər Əliyev Fonduna dəvət edərək qədim muğam sənətimizin qorunub-saxlanması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, nəhayət, muğamın inkişafı, yeni ifaçılar nəslinin yetişdirilməsi naminə çox dəyərli layihələr irəli sürmüşdür.

"Space" Müstəqil Teleradio Şirkəti də bu təşəbbüsə qoşularaq Azərbaycan professional musiqisinin banisi, dahi Üzeyir Hacıbəyovun 120 illiyinə həsr olunmuş muğam televiziya müsabiqəsi keçirməyi qərara almışdır. Muğam sənətinin ən mahir bilicilərindən ibarət münsiflər heyəti Azərbaycanın bütün bölgələrindən 500-ə yaxın gənc ifaçı dinləmiş və onların içərisindən 20 iştirakçı seçmişdir. Noyabr ayının 21-dən başlanmış müsabiqənin gedişi birbaşa efirdə 100 saatdan artıq yayımlanmışdır.

Final mərhələsinə çıxan ifaçıların iştirakı ilə Şamaxıda, Lənkəranda, Qəbələdə, Gəncədə, Yevlaxda, Sumqayıtda, Abşeron və Əzizbəyov rayonlarında konsertlər təşkil olunmuşdur. Yekun konsertində Babək Niftəliyev, Vəfa Orucova, İlkin Əhmədov, Təyyar Bayramov, Qoçaq Əsgərov, Elnur Zeynalov, Elşad Aydınoğlu, Pərvaz İbrahimli, Zülfiyyə Məmmədova, Aytən Məhərrəmova, Bəyimxanım Mirzəyeva, Gülnar İsayeva, habelə müsabiqənin əvvəlki iştirakçıları çıxış etdilər.

Müsabiqə boyu gənc ifaçıları müşayiət etmiş, onların çıxışlarının hazırlanmasında böyük əməyi olan istedadlı musiqiçilərin – "Humay" mükafatı laureatları tarzən Elçin Həşimov və kamançaçalan Elnur Əhmədovun, habelə nağaraçalan Kamran Kərimovun xidmətləri xüsusi vurğulanmalıdır. İştirakçıların seçilməsində, onlara yol göstərilməsində, ifalarının obyektiv və peşəkarlıqla qiymətləndirilməsində münsiflər heyətinin üzvləri – xalq artistləri Arif Babayev, Ağaxan Abdullayev, Ramiz Quliyev, Mənsum İbrahimov və Möhlət Müslümovun, əməkdar incəsənət xadimi, professor Ramiz Zöhrabovun, şair, füzulişünas Həkim Qəninin və muğam televiziya müsabiqəsinin layihə müəllifi Nadir Axundovun əvəzsiz əməyi olmuşdur.

Tamaşaçıların və münsiflər heyətinin səsverməsinin yekununa görə Bayramov Təyyar 1-ci, Əhmədov İlkin 2-ci, Niftəliyev Babək 3-cü yerə layiq görüldülər. Onlara Heydər Əliyev Fondu və Azərbaycan Mədəniyyətinin Dostları Fondu adından diplomlar, mükafatlar, müvafiq olaraq 2000, 1500 və 1000 manatlıq çeklər təqdim olundu.

Qalan 9 nəfər iştirakçı diplomlara və hər biri 500 manat pul mükafatına layiq görüldü. Müsabiqənin dəstəklənməsinə görə Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevaya təşkilatçılar adından bir daha dərin minnətdarlıq bildirildi. İlk televiziya muğam müsabiqəsinin qaliblərinə və diplomantlarına gələcək sənət yollarında uğurlar diləyirik.

***AzərTAc***
***"Azərbaycan",***
***2006, 11 iyun***

## *Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın birinci beynəlxalq rus kitabı festivalının iştirakçıları ilə görüşü*

Birinci beynəlxalq rus kitabı festivalının iştirakçılarından böyük bir qrupu sentyabrın 15-də Heydər Əliyev Fondunda olmuşdur.

Qonaqlara məlumat verildi ki, Fond 2004-cü il mayın 10-da – Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğum günü fəaliyyətə başlamışdır. Görkəmli siyasi xadimin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun əsas məqsədləri Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, ulu öndərin Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, xarici qonaqlarda əyani təsəvvür yaratmaqdan ibarətdir. Fond dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsinə kömək etməyi, ölkənin sosial problemlərinin həllini dəstəkləməyi, konkret insanlara qayğını da prioritet vəzifələrindən sayır. Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliğində də qurumun dəyərli, səmərəli köməyi var.

Fondun ekspozisiyalarına maraqla baxan qonaqların məşhur dövlət xadiminin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən fotolara dair xeyli sualları cavablandırıldı. Onlar fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə də tanış oldular. Xüsusilə

Moskvada keçmiş SSRİ hökumətinin rəhbərlərindən biri kimi onun çoxşahəli fəaliyyətini əks etdirən sənədlər qonaqlarda xoş təəssürat yaratdı. Onlar Azərbaycanın, eləcə də dünyanın müxtəlif ölkələrinin tanınmış elm, incəsənət, ədəbiyyat xadimləri ilə görüşlərdə, müxtəlif tədbirlərdə çəkilmiş şəkillərə də böyük maraqla baxdılar.

Sonra qonaqlar kinosalonda Heydər Əliyev Fondunun fəaliyyətinə, həyata keçirdiyi layihələrə, beynəlxalq əlaqələrinə dair sənədli filmə tamaşa etdilər.

Festival iştirakçıları ilə görüş çay süfrəsi arxasında davam etdirildi. Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva qonaqları Azərbaycanda Rusiya İli çərçivəsində keçirilən Birinci beynəlxalq rus kitabı festivalı münasibətilə təbrik edərək dedi: İlk belə festivalın məhz Bakıda keçirilməsi tamamilə qanunauyğundur. Siz yəqin bilirsiniz ki, Azərbaycanda rus ədəbiyyatına, incəsənətinə, mədəniyyətinə həmişə ehtiramla yanaşmışlar. Lakin tariximizin müəyyən dövründə – ölkələrimizin müstəqilliyə qovuşduğu dövrdə yəqin ki, obyektiv səbəblərə görə biz "mədəni qıtlıq" hiss etdik. Biz bu gün də mədəni dialoqun zəruriliyinə, ünsiyyətə, qonşuların və dostların mədəniyyəti ilə tanış olmağa ikiqat ehtiyac duyuruq.

Bu baxımdan bizim çox yaxşı ənənələrimiz var və çox xoşdur ki, onlar davam və inkişaf edir.

Azərbaycan postsovet məkanında yeganə dövlətdir ki, müstəqillik əldə olunduqdan sonra burada heç bir rusdilli məktəb bağlanmadı, bu məktəblərin hamısı fəaliyyətini davam etdirir. Azərbaycan və bakılılar dünya mədəniyyətinin bir hissəsi olan rus mədəniyyətinə həmişə məhəbbət və hörmətlə yanaşmışlar. Ölkənin paytaxtında Bakı Slavyan Universiteti fəaliyyət göstərir.

Mehriban xanım Əliyeva başçılıq etdiyi Fondun fəaliyyətindən danışaraq bildirdi ki, o, 2004-cü ilin mayında, Heydər Əliyevin doğum günü açılmışdır. Fondun fəaliyyət sahəsi çox genişdir. Humanitar proqramlar, yəni təhsil, səhiyyə, sosial məsələlər, cəmiyyətin ən aztəmi-

natlı təbəqələrinə, qaçqın-köçkünlərə, – onlar Azərbaycanda təxminən bir milyon nəfərdir, – yardım öncül istiqamətlərdir.

Təhsil sahəsinə xüsusi diqqət yetirilir. Çox böyük layihələr həyata keçirilir, iki il əvvəl yeni məktəblərin tikintisi layihəsinə başlanmışdır. Heydər Əliyev Fondunun dəstəyi ilə 2004-cü ilin mayından bu günədək 260 yeni məktəb tikilmişdir. Onların əksəriyyəti dağlıq, gediş-gəliş çətin olan rayonlarda inşa edilmişdir. Bu proqram davam etdirilir və yaxın illərdə daha 500 məktəb tikmək planlaşdırılır.

Fondun keçirdiyi tədbirlər ölkədə geniş dəstəklənir.

Heydər Əliyev Fondunun prezidenti festivalın yüksək səviyyədə keçdiyinə əminliyini bildirərək dedi ki, ona maraq olduqca böyükdür, paytaxtın bir çox vətəndaşları festivalın tədbirlərində iştiraklarına kömək göstərmək xahişi ilə müraciət etmişlər.

Görüşdə görkəmli yazıçılar, ictimai xadimlər Çingiz Aytmatov, Oljas Süleymenov, Tatyana Ustinova, Federal Mətbuat və Kütləvi Kommunikasiyalar Agentliyinin rəhbəri Mixail Seslavinski, “Rus Klubu” Beynəlxalq Mədəni-Maarif İttifaqının prezidenti Nikolay Sventitski, İTAR-TASS-ın baş direktoru Vitali İqnatenko və başqaları çıxış edərək bildirdilər ki, bu festival dövlətlərimizin həyatında çox böyük hadisədir. Bu, təkcə ədəbi hadisə, humanitar münasibətlər sahəsində hadisə deyil, həm də xalqlarımızın düzgün yolla, müstəqil və çox gözəl yolla getmələrinin daha bir sübutudur.

Qonaqlar qeyd etdilər ki, onlar Azərbaycanda sovet və müasir rus ədəbiyyatının, klassik rus ədəbiyyatının necə sevildiyinin və oxunduğunun şahidi oldular. Tədbirlər zamanı paytaxt vətəndaşları ilə görüş və söhbətlərinin necə səmimilik və mehribanlıq şəraitində keçməsindən yaxşı mənada təəccüb qalmışlar.

Festivalın birinci günü çox tədbirlər keçirilmişdir. Sentyabrın 16-da iştirakçılar üç rayonda olacaq, öz oxucuları ilə görüşəcəklər.

Qonaqlar Heydər Əliyev Fondunun fəaliyyətindən danışaraq, Mehriban xanım Əliyevanın rolunu yüksək qiymətləndirdilər. Bildirdilər ki, indi dünyada fondlar çoxdur. Lakin Heydər Əliyev Fondunun fərqləndirici xüsusiyyəti bundadır ki, o, fəaliyyətin müxtəlif istiqamətlərini özündə birləşdirmişdir – bunlar mədəniyyət və tarix, təhsil və səhiyyə, bir çox digər humanitar məsələlərdir.

Heydər Əliyev Fondunun prezidenti bildirdi ki, bu qurumun planlarına ölkədə kitab mağazalarının geniş bir şəbəkəsini yaratmaq da daxildir.

Görüşdə iştirak edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev qonaqlara dövlət başçısı İlham Əliyevin incəsənət xadimlərinə böyük diqqət yetirdiyindən danışdı.

Sonra görüş iştirakçılarına Fondun xatirə hədiyyələri təqdim olundu.

Festival iştirakçıları adından Fonda hədiyyə nəşrləri, görkəmli siyasi xadim Heydər Əliyevin tarixi fotoşəkilləri təqdim edildi.

Görüşdən sonra qonaqlar Heydər Əliyev Fondunun buraxdığı kitablar, albomlar, audio və video məhsulla tanış oldular.

***AzərTAc***
***2006, 15 sentyabr***

# IV. Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun YUNESKO ilə birgə layihə və tədbirləri

## Heydər Əliyev Fondunda görüş

Oktyabrın 7-də Azərbaycan Mədəniyyətinin Dostları Fondunun sədri, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Dünya İrs siyahısına daxil edilmiş İçərişəhər, Şirvanşahlar sarayı, Qız qalası abidələri ilə bağlı «dəyirmi masa»da iştirak etmək üçün Bakıya gəlmiş missiyanı qəbul etmişdir. Missiyanın tərkibinə YUNESKO-nun Dünya İrs Komitəsinin mütəxəssisi xanım Fumiko Ohinata, İCCROM-un nümayəndəsi, Litvanın paytaxtı Vilnüs şəhərinin tarixi qoruq hissəsinin direktoru Gediminas Rutkauskas və İCOMOS-un nümayəndəsi, Macarıstan milli İCOMOS təşkilatının sədri Gergeli Nagi daxildirlər.

Söhbət zamanı İçərişəhər tarix-memarlıq qoruğunda yaranmış vəziyyət haqqında ətraflı fikir mübadiləsi aparılmış, mövcud problemlərin həlli ilə bağlı rəy və təkliflər dinlənilmişdir. YUNESKO ekspertləri İçərişəhərin xüsusi təhlükədə olan Dünya İrs abidələri siyahısından çıxarılması haqqında öz mülahizələrini bildirmiş, bunun üçün Bakıda keçirilən «dəyirmi masa» zamanı yolların araşdırılacağını və yekun nəticələr haqqında Azərbaycan hökumətinə məlumat verəcəklərini vurğulamışlar.

Görüşdə Dünya İrs abidələri siyahısına daxil ediləcək Qobustan tarix-bədii qoruğu və Atəşgah haqqında da söhbət getmişdir.

Mehriban xanım Əliyeva Azərbaycanda Dünya İrs abidələri ilə əlaqədar yaranmış problemlərin həll olunması üçün ölkəmizin qanunlarına uyğun tədbirlərin

görüləcəyini və İçərişəhərin xüsusi təhlükədə olan abidələr siyahısından çıxarılaraq, Dünya İrs abidələri siyahısına daxil edilməsinə kömək göstərəcəyini bildirmişdir.

Görüşdə mədəniyyət naziri Polad Bülbüloğlu iştirak etmişdir.

*AzərTAc,*
*2004, 7 oktyabr*

## *Azərbaycan Mədəniyyətinin Dostları Fondu Filarmoniyada muğam axşamı təşkil etmişdir*

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun və YUNESKO-nun «Muğam dəstgahları» layihəsi çərçivəsində fevralın 18-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında muğam axşamı təşkil olunmuşdur.

Salona toplaşan muğamsevərlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun rəhbəri Mehriban xanım Əliyevanı hərarətlə qarşıladılar.

Muğam axşamını Asəf Zeynallı adına Musiqi Kollecində təhsil alan gənc xanəndələr «Çahargah» təsnifi ilə açdılar. Sonra muğam ustası, xalq artisti Ağaxan Abdullayevin ifasında «Zabul-segah» səsləndi.

Fasilə zamanı Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva respublikamızın görkəmli ziyalıları, mədəniyyət və incəsənət xadimləri ilə görüşüb ətraflı söhbət etdilər. Prezident İlham Əliyev onların qayğıları və problemləri ilə maraqlandı. Xalq artistləri Əlibaba Məmmədov, Canəli Əkbərov incəsənət xadimlərinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə dərin təşəkkürlərini bildirdilər. Onlar Azərbaycan xalq musiqisinin misilsiz sərvəti olan muğamların dünyada təbliği sahəsində Azərbaycan Mədəniyyətinin Dostları Fondunun məqsədyönlü fəaliyyəti-

nin respublika ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildiyini də qeyd etdilər.

Prezident İlham Əliyev Azərbaycanın mədəni irsinin qorunmasının, bütün dünyada daha geniş və ən yüksək səviyyədə təbliğ olunmasının zəruriliyini vurğuladı.

Fasilədən sonra muğam ustaları – xalq artisti Arif Babayev, əməkdar artistlər Könül Xasıyeva, Nəzakət Teymurova, Aygün Bayramova, habelə Fehruz Səxavət, Səbuhi İbayev və Cabir Abdullayevin ifa etdikləri «Şur» dəstgahı gurultulu alqışlarla qarşılandı.

Milli Məclisin sədri Murtuz Ələsgərov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitələrin, şirkətlərin başçıları, paytaxt ictimaiyyətinin nümayəndələri müğam axşamında olmuşlar.

*AzərTAc,*
*2005,18 fevral*

## *Azərbaycan Mədəniyyətinin Dostları Fondundan*

2005-ci il avqustun 23-də YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın Azərbaycan Respublikasına səfəri başlayır. Ölkənin birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın dəvəti ilə respublikamıza gələn Koişiro Matsuuranın üç günlük səfəri çərçivəsində rəsmi görüşlər, Azərbaycanın ictimai-mədəni həyatı və bir sıra tarixi-mədəni abidələri ilə tanışlıq nəzərdə tutulur. Baş direktor Koişiro Matsuura ilə birlikdə Azərbaycana YUNESKO-nun xoşməramlı səfirləri – Migel Anxel Estrella, Ömər Zülfi Livanelli, Patrik Bodri, Madanceet Sinqh, Kitin Minyoz, İvri Qitlis və xanım Kira Fuk Fan Ti də gələcəklər. Avqustun 24-də ümummilli lider Heydər Əliyevin abidəsini və Şəhidlər Xiyabanını ziyarət etdikdən sonra qonaqlar Heydər Əliyev Fondu ilə tanış olacaqlar. Bundan sonra Koişiro Matsuura və xoşməramlı səfirlər respublikanın birinci

xanımı, xoşməramlı Mehriban Əliyeva ilə görüşəcəklər. Görüşdə Azərbaycan ilə YUNESKO arasında səfir mədəniyyət, elm, təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunacaqdır.

Xoşməramlı səfir Mehriban Əliyeva görüşdə qədim tarixi abidələrimizdən Qobustanın, Atəşgahın, Naxçıvan türbələrinin, Xəzəryanı müdafiə tikililərinin və Şəki Xan sarayının YUNESKO-nun «Ümumdünya mədəni və təbii irsin qorunması» siyahısına daxil edilməsi təklifi ilə çıxış edəcəkdir. Qeyd edək ki, YUNESKO-nun bu siyahısına indiyədək Azərbaycandan yalnız İçərişəhər daxil edilmişdir.

YUNESKO-nun Baş direktoru ilə söhbət zamanı Mehriban xanım Əliyeva beynəlxalq qurumun rəhbərliyi qarşısında aşıq sənətinin YUNESKO-nun «Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri» siyahısına salınması təkllfini irəli sürəcəkdir. Qeyd edək ki, muğam sənəti artıq qurumun bu siyahısına daxil edilmişdir. Görüşdə YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Azərbaycanın işğal altında olan ərazilərində tarixi və mədəni abidələrin dağıdılmasını və bu sahədə yaranmış vəziyyəti bir daha qonaqların nəzərinə çatdıracaq və təşkilatın bu məsələyə diqqətinin artırılmasının vacibliyini vurğulayacaqdır.

Azərbaycanda təhsilin inkişafı sahəsində YUNESKO ilə əməkdaşlığın genişləndirilməsi səfər çərçivəsində xüsusi diqqət mərkəzində olacaqdır. Qeyd edək ki, cari il iyulun 6-da Parisdə YUNESKO-nun iqamətgahında «Davamlı inkişaf üçün Azərbaycanda təhsil islahatları» mövzusunda konfrans keçirilmişdir. Bu, YUNESKO-nun tarixində hər hansı bir ölkənin təhsili ilə bağlı ayrıca keçirilən ilk konfrans idi. Bu istiqamətdə növbəti konfrans «YUNESKO – Azərbaycan: Azərbaycanın təhsil problemləri və perspektivləri» mövzusunda «Gülüstan» sarayında YUNESKO-nun Baş direktoru Koişiro Matsuura və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə keçiriləcəkdir. Qeyd edək ki, Azərbaycan YUNESKO ilə birlikdə inklüziv təhsil (yəni qüsurlu

uşaqların normal məktəblərdə təhsil prosesinə cəlb edilməsi), «Təhsil hamı üçün», assosiativ təhsil və s. kimi layihələr həyata keçirir. Konfransda bu istiqamətdə layihələrin artırılması diqqət mərkəzində olacaqdır. Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın və təşkilatın Baş direktoru Koişiro Matsuuranın çıxış edəcəkləri konfransda doğma yurd-yuvalarından qaçqın və məcburi koçkün düşmüş uşaqların təhsil problemləri və bu istiqamətdə görülən işlər də qonaqların diqqətinə çatdırılacaqdır.

Səfərin ikinci günü Azərbaycan Prezidenti İlham Əliyev YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranı qəbul edəcəkdir. Görüşdən sonra təhsil sahəsində əməkdaşlığa dair memorandumun imzalanması nəzərdə tutulur. Qonaqlar İçərişəhərdə Şirvanşahlar sarayı, xalça sexi, Karvansara, Qız qalası ilə tanışlıqdan sonra Bakı Muğam Mərkəzinin təməlqoyma mərasimində iştirak edəcəklər. Nümayəndə heyətinin Qobustana səfəri də nəzərdə tutulur.

Səfərin sonunda qonaqlar Atəşgahda Azərbaycan Mədəniyyətinin Dostları Fondunun 10 illik yubileyinə həsr olunmuş konsert proqramına tamaşa edəcəklər.

*Xalq qəzeti,*
*2005, 23 avqust*

## *"Gülüstan" sarayında YUNESKO – Azərbaycan birgə konfransı keçirilmişdir*

Konfransı Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva açdı.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın çıxışı

– Cənab Baş direktor!

Hörmətli xanım Matsuura!
Əziz xoşməramlı səfirlər!
Xanımlar və cənablar!

Bugünkü konfransın iştirakçılarının hamısını salamlayır, Sizin hər birinizə “Xoş gəlmisiniz!” deyirəm. İnanıram ki, bugünkü konfransımız çox səmərəli keçəcək və Azərbaycan təhsilinin inkişafına öz müsbət təsirini göstərəcəkdir.

İlk növbədə icazə verin, ölkəmizdə rəsmi səfərdə olan YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranı sizin hamınızın adından salamlayım. Cənab Baş direktorla birlikdə Azərbaycana gəlmək üçün vaxt və imkan tapdığına görə xanım Takaka Matsuuraya öz minnətdarlığımı bildirirəm. Nəzərinizə çatdırmaq istərdim ki, bu gün bizim qonaqlarımız arasında mənim həmkarlarım, YUNESKO-nun xoşməramlı səfirləri də iştirak edirlər. İcazə verin, onları Sizə təqdim edim.

Məşhur fransız astronavtı cənab Patrik Bodrini və onun ailə üzvlərini sizə təqdim edirəm. Xüsusi vurğulamaq istərdim ki, cənab Patrik Bodri gənclər üçün Avropa kosmik düşərgəsi layihəsinin müəllifidir. Onun təhsillə bağlı çoxsaylı layihələri böyük uğur qazanmışdır.

Bizim hörmətli qonaqlarımızın arasında xoşməramlı səfir cənab Ömər Zülfi Livanelli də var. Onun zəngin yaradıcılığı xalqlar və mədəniyyətlər arasında dialoqun qurulmasına da xidmət edir.

Xoşməramlı səfir cənab Kitin Minyoz məşhur səyyah və alimdir. O, sülh ideyalarının təbliği və ətraf mühitin qorunması sahəsində çox mühüm işlər görmüşdür. Mən onu və onunla birlikdə ölkəmizə gələn xanımını salamlayır və Sizə təqdim edirəm.

Mahir musiqiçi İvri Gitlis artıq 20 ildir ki, xoşməramlı səfir kimi təhsilin və mədəniyyətin inkişafına xidmət edir. O, sülhə və birliyə çağıran mahnıları ilə bir çox ölkələrdə yaxşı tanınır.

Xoşməramlı səfir xanım Ki Fuk Fan Ti bütün həyatını sülh və barış ideyalarına həsr etmişdir. Onun yaratdığı Beynəlxalq Ki Fondu hərbi münaqişələr zamanı

zərər çəkən uşaqlara yardım göstərir. Mən onu və həyat yoldaşını Sizə təqdim edirəm.

Hörmətli cənab Baş direktorla birlikdə Azərbaycana YUNESKO-nun məsul işçiləri və ekspertləri də gəliblər. Ekspertlərin bir çoxu ölkəmizdə olub, məcburi köçkün və qaçqın ailələrində yaşayan uşaqların təhsil problemləri ilə bağlı müxtəlif layihələri işləyib hazırlayıblar və bu gün də bizimlə əlaqələrini uğurla davam etdirirlər.

Bu gün bizim konfransda Azərbaycan təhsilinin çox nüfuzlu nümayəndələri iştirak edirlər. Mən inanıram ki, siz bugünkü konfransın ideyalarını öz konkret fəaliyyətinizdə həyata keçirməyə çalışacaqsınız. Sizə bu işdə uğurlar arzulayıram.

Bugünkü tədbirimizdə səfirlər və beynəlxalq qurumların nümayəndələri də iştirak edirlər. Ümidvaram ki, Azərbaycan təhsilinin dünya təhsil məkanına daxil olması prosesində onlar da öz köməyini göstərəcəklər.

Bizim konfransın çox simvolik və böyük mənaya malik adı var: Gələcəyə körpü. Mən inanıram ki, biz birlikdə bu körpünü yaratmağa nail olacağıq.

Əziz dostlar! YUNESKO-nun dəstəyi ilə 2000-ci ildə Dakarda keçirilən ümumdünya təhsil forumunun sənədləri sizə yaxşı məlumdur. Əslində bu hamımız üçün təhsil sahəsində müəyyən edilmiş ümumi bir strategiyadır. Sözsüz ki, hər bir ölkə bu strategiyanı həyata keçirəndə öz milli xüsusiyyətlərini və təhsil sahəsində toplanmış təcrübəni nəzərə almalıdır.

Məlumdur ki, Azərbaycanın təhsil sistemində həyata keçirilən islahatlar xüsusi dövlət proqramı şəklində təsdiq olunmuşdur. Bu qlobal proqramla yanaşı, Təhsil Nazirliyi və təhsillə bağlı olan digər qurumlar da çox mühüm layihələr üzərində işləyirlər. Bu layihələrin bir qismində mötəbər beynəlxalq təşkilatlar da iştirak edir.

Mən təhsillə bağlı bir layihəni xüsusi vurğulamaq, “Yeniləşən Azərbaycana yeni məktəb” barəsində ayrıca danışmaq istərdim. Bu layihədə dövlət qurumları ilə

yanaşı, vətəndaş cəmiyyətinin bir çox strukturları da iştirak edir. Bildiyiniz kimi, Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən bu layihə çərçivəsində təkcə bu il ərzində ölkəmizin müxtəlif regionlarında 132 məktəbin inşası və lazımi avadanlıqla təchiz olunması nəzərdə tutulmuşdur.

Bu gün mən böyük fərəh hissi ilə demək istəyirəm ki, bu il ərzində Azərbaycanda irimiqyaslı bir layihə həyata keçirilmişdir. Ölkə Prezidentinin sərəncamına müvafiq olaraq klassik, müasir Azərbaycan və dünya ədəbiyyatının ən dəyərli əsərləri latın qrafikası ilə çap olunur. Bu layihə üzrə indiyədək 250-dən çox kitab hərəsi 25 min tirajla çap edilərək Azərbaycan oxucularına çatdırılmışdır. Azərbaycanın hər bir məktəbi, kitabxanası bu kitablarla təmin olunmuşdur. Həmin kitablar bu gün bu sarayda nümayiş etdirilir.

Bir sözlə, bütün bunlar deməyə imkan verir ki, bizim təhsilimizin inkişaf istiqaməti düzgündür və böyük uğurlarımız da vardır. Amma uğurlarla yanaşı, təhsil sistemində bu günə qədər həllini tapmayan problemlər də var. Bu problemlərin bir çoxu keçmiş sovetlər məkanına xas olan problemlərdir. Mənə elə gəlir ki, bu problemlərin aradan qaldırılması üçün pilot layihələr həyata keçirsəydik, pis olmazdı. Digər keçmiş sovet respublikalarında da bu təcrübədən istifadə oluna bilərdi.

Bizim ən ağır problemimiz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Azərbaycan 1 milyondan artıq qaçqın və məcburi köçkünü olan ölkədir. Ərazimizin 20 faizi işğal altındadır. Məcburi köçkünlərin təhsilinin təşkili ilə bağlı ölkəmizdə nadir təcrübə qazanılmışdır. Biz işğala məruz qalan ərazilərdə əvvəllər mövcud olan təhsil infrastrukturunu qoruyub saxlaya bilmişik. Bu məktəblər qaçqın-köçkün-lər yaşayan düşərgələrdə yerləşir. Biz həm də müəllim kollektivlərini saxlaya bilmişik və onlar düşərgələrdə uşaqların təlim-tərbiyəsi ilə məşğul olurlar. Bu, doğrudan da nadir bir təcrübədir. Mən inanıram ki, bu təcrübədən bütün münaqişə zonalarında istifadə oluna bilər. Hamımızın

ən böyük arzusu odur ki, torpaqlarımız azad olunandan sonra bu məktəblər öz doğma yerlərinə qayıtsın və fəaliyyətini artıq normal şəraitdə davam etdirə bilsin.

Ümidvaram ki, YUNESKO ilə birlikdə hazırlanan yeni proqramlar məcburi köçkün və qaçqın uşaqlarının təhsilinə öz müsbət təsirini göstərəcəkdir.

Hörmətli Baş direktor! Çıxışımın sonunda sizə bir kitab təqdim etmək istərdim. Sizin nitqlərinizdən ibarət olan bu kitab xüsusi nəşrdir. Bu kitab Azərbaycan oxucularına ünvanlanmış sözlərinizlə açılır. Kitaba Azərbaycan xalqının qəhrəmanlıq dastanı olan "Dədə Qorqud"un təntənəli yubileyində çıxışınız da daxildir. Bu kitabın nəşri ilə bağlı Sizi ürəkdən təbrik edirəm. İcazə verin, kitabı Sizə təqdim edim və Sizi çıxışa dəvət edim.

## YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın çıxışı

– Çox hörmətli xanım Əliyeva!

Hörmətli Baş nazirin müavini!

Hörmətli təhsil naziri!

BMT-nin nümayəndələri, xanımlar və cənablar!

Bu konfransın açılışında iştirak etmək mənim üçün böyük şərəfdir. Konfrans təhsilə həsr olunmuşdur və bu, Azərbaycan üçün çox mühüm məsələlərdən biridir. Azərbaycanla YUNESKO-nun əməkdaşlığı çox böyük önəm daşıyır. Mən xanım Mehriban Əliyevaya işgüzarlığına və canfəşanlığına görə minnətdarlığımı bildirmək istəyirəm. YUNESKO-da biz onun mədəniyyət sahəsindəki gözəl işlərindən xəbərdarıq. Eyni zamanda, təhsil sahəsində gördüyü işləri də nəzərəçarpan və təqdirəlayiqdir.

Təhsil naziri Misir Mərdanova da öz minnətdarlığımı bildirirəm ki, Parisdə müzakirələr zamanı bu təşəbbüsü irəli sürüb və çox yerində, vaxtında keçirilən bir tədbirin təşkilinə nail olubdur.

Bu, mənim Azərbaycana ikinci səfərimdir, Cənab İlham Əliyevin və Mehriban xanımın dəvəti ilə ölkənizə gəlmişəm. Birinci dəfə mən beş il öncə Prezident Heydər Əliyevin dəvəti ilə "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyinə həsr edilmiş tədbirlərlə əlaqədar gəlmişdim. Heydər Əliyevlə çəkilmiş şəkillərimi bu gün Fondda görəndə çox şad oldum. Bu şəkillər mənə çox dərin təəssürat bağışlamışdır.

Bizim ikitərəfli münasibətlərimizdə çox irəliləyiş olmuşdur. Bakının İçərişəhəri 2003-cü ildə YUNESKO-nun dünya mədəni irsi siyahısına daxil edilmişdir. Mən bu gün orada da olmuşam. YUNESKO-nun mədəni irs siyahısına düşə biləcək yerlərə də baş çəkəcəyəm. Onlar Qobustan və Atəşgahdır. Bu səfər zamanı mən Heydər Əliyev Fondunda da olmuşam. Azərbaycanın birinci xanımı tərəfindən yaradılan daha bir fondda olmağı da qarşıma məqsəd qoymuşam. Bu, Azərbaycan Mədəniyyətinin Dostları Fondudur. Eyni zamanda, bu səfər zamanı Beynəlxalq Muğam Mərkəzinin binasının təməlinin qoyulmasmda da iştirak edəcəyəm və bu, mənim üçün böyük şərəfdir.

Bildiyiniz kimi, 2003-cü ildə Azərbaycan muğamı YUNESKO-nun bəşəriyyətin mənəvi və şifahi mədəni irsinə daxil edilmişdir. Lakin indiki səfərimin əsas məqsədlərindən biri məhz təhsillə bağlıdır. Yəni biz Azərbaycanla bu sahədə əməkdaşlığımızı daha da genişləndirmək istəyirik. Artıq bizim Azərbaycanla texniki və peşə təhsili, informasiya və kommunikasiya texnologiyaları sahəsində geniş əməkdaşlığımız var və bu, YUNESKO-nun iki qurumunun – texniki və peşə təhsili və təlimi üzrə mərkəzinin (Bonnda yerləşir) və Moskvada yerləşən təhsildə informasiya texnologiyaları strukturunun xətti ilə həyata keçirilir.

Eyni zamanda, YUNESKO "Təhsil hamı üçün" təşəbbüsünü həyata keçirir. 2005-ci ildə irəli sürülmüş bu təşəbbüsdə YUNESKO-nun davamlı inkişaf layihəsinə yönəldilmiş təhsil proqramının yerinə yetirilməsi çox önəmli yer tutur. Bu proqramda 2005-ci ildən 2014-cü

ilə qədər təhsil onilliyinin keçirilməsi qərara alınmışdır və YUNESKO bu sahədə əsas rol oynayacaq təşkilatlardan biridir. Bu məqsədlə hazırda biz hərtərəfli plan üzərində işləyirik.

Bilirik ki, Azərbaycan bu təşəbbüsə qoşulan əsas tərəfdaşlardan biri olacaq və davamlı inkişafa yönəldilmiş proqramları dəstəkləyəcəkdir. Bu il Prezident İlham Əliyev tərəfindən yüksək səlahiyyətlərə malik olan təhsil komissiyası yaradılmışdır. Komissiyanın əsas vəzifəsi təhsilin bütün aspektlərini yaxşılaşdırmaq və dünya standartlarına uyğun bir şəklə gətirməkdir. Bunun üçün Azərbaycanda mövcud olan təhsil sisteminin güclü və zəif tərəfləri dərindən öyrəniləcək və təhsilin yaxşılaşdırılmasına dair aparılacaq işlərin istiqamətləri müəyyənləşdiriləcəkdir.

Bu il iyulun 6-da YUNESKO Parisdə təhsil sisteminin davamlı inkişafına yönəldilmiş islahatlara həsr olunmuş bir konfrans keçirmişdir. Konfrans Azərbaycanın təhsil naziri tərəfindən də dəstəklənmişdir. Azərbaycandakı indiki konfrans çox vaxtında keçirilən bir tədbirdir. Azərbaycanda təhsil sistemi sahəsində çox nəzərəçarpan müsbət dəyişikliklər baş vermişdir. Bununla əlaqədar biz çox dərin müzakirələr aparmışdıq və bu müzakirələr zamanı Azərbaycanda təhsilin bütün aspektləri nəzərdən keçirilmişdir.

Biz bilirik ki, Azərbaycan çox böyük problemlərlə rastlaşmışdır. Bununla belə, çox yüksək nailiyyətləri qoruyub saxlaya bilmişdir. Yəni savadlılığın səviyyəsi, davamlılıq çox yüksək olaraq qalır.

Bununla belə, bəzi problemlər var və əgər indi onların üzərində işləməsək, uzunmüddətli perspektivdə bu problemler ölkənin təhsil sisteminə və iqtisadi inkişafına çox mənfi təsir göstərə bilər. Artıq bizə verilən məlumata görə, xüsusən orta məktəblərdə davamlılığın azalması müşahidə olunur, Ümumiyyətlə, müəllimlik metodikalarına yenidən baxılmalıdır. Təhsil mühitinin pisləşməsi ilə müşayiət olunan bəzi aspektlər mövcuddur. İnformasiya texnologiyalarının olmaması böyük







# MUĞAM EVİ




Avrasiyada mədəniyyət müxtəlifliyi:
Azərbaycan - sivilizasiyalararası dialoqun keçmişi və bu günü
XIII Beynəlxalq Konfrans
Bakı şəhəri, 19-21 aprel, 2006-cı il
HEYDƏR ƏLİYEV
FONDU
ACADEMIE DE LA LATINITE
Culture of the Difference in Eurasia:
Azerbaijan - Past and Present in the Dialogue of Civilizations
13th İnternational Conference
Baku, April 19-21, 2006
Kandido Mendes
Mehriban Əliyeva
Əl Həsən Bin Talal







bir problemdir. Son bir neçə il ərzində Azərbaycanda çox ölçülüb-biçilmiş makroiqtisadi siyasət aparıldığına görə və neft sektoruna qoyulan sərmayələr sayəsində üzümüzə gələn bir neçə il ərzində ölkədə ÜDM-in 3 dəfə artacağı gözlənilir. Ümidvarıq ki, neft sənayesindən əldə olunan gəlirlər çox düşünülmüş şəkildə istifadə olunacaq, ölkənin insan potensialının güclənməsinə yönəldiləcəkdir. Prezident İlham Əliyev tərəfindən bu sahədə aparılan siyasət bizdə nikbinlik doğurur.

Bu konfransda biz Azərbaycanda təhsil islahatına yönəldilmiş tədbirlər haqqında daha geniş məlumat almaq istərdik. Bütün bunlar Parisdə müzakirə olunan məsələlərin məntiqi davamı olacaq və davamlı inkişafa yönəldilmiş təhsil onilliyinin əsas məqsədlərini Azərbaycanda tətbiq etmək niyyəti güdür. Öz tərəfimizdən sizə islahatlarınızda hərtərəfli yardım göstərəcəyik. Son müzakirələrimizin nəticəsi olaraq, Azərbaycan hökuməti ilə əməkdaşlığa dair memorandum imzalayacağıq. Bizim əsas prioritetlərimiz strateji planlaşdırma və təhsilin idarə edilməsi, təhsil əldə etmək imkanlarında bərabərlik, təhsilin keyfiyyəti, əsas texniki və peşə vərdişləri, yüksək informasiya və kommunikasiya texnologiyalarının təhsilə tətbiqi və təhsildə beynəlxalq əməkdaşlıqdır.

Azərbaycana bu səfərimin əsas məqsədləri Azərbaycanda keçirilən təhsil islahatlarının izlənməsi və təhlili və bunun əsasında Təhsil Nazirliyinin ümumi məruzəsini hazırlamaqdır.

Mən ümidvaram ki, sizin keçmişdə əldə etdiyiniz nailiyyətlər bu konfransda müzakirə olunacaqdır. Lakin bununla yanaşı, mövcud olan problemlər haqqında geniş fikir mübadiləsi ediləcək və bu da aparılan islahatları daha da istiqamətləndirəcəkdir. Konfransın nəticələrinə əsasən, YUNESKO-nun gələcəkdə Azərbaycana göstərəcəyi yardımın istiqamətlərini müəyyənləşdirəcəyik.

Diqqətinizə görə sağ olun.

* * *

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva konfransın geniş iclasına yekun vurdu:

– Bu gün biz Azərbaycan təhsilinin problemlərini birlikdə müzakirə edərək fikir birliyi nümayiş etdirdik. Mən inanıram ki, bu fikir birliyi bizə gələcəkdə bütün problemlərin həllində yardım edəcək, ümumi işimizdə böyük rol oynayacaqdır.

Konfrans iştirakçıları latın qrafikası ilə nəşr edilmiş kitabların sərgisinə baxdılar. Tədbir iştirakçılarına hədiyyə olaraq Azərbaycan Mədəniyyətinin Dostları Fondunun vəsaiti ilə YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın Azərbaycan dilində çapdan çıxmış “Quruculuq salnaməsi” kitabı paylandı. Sonra konfrans iştirakçıları xatirə şəkli çəkdirdilər. Qonaqlar “Gülüstan” sarayından Bakının mənzərəsini seyr etdilər.

*Xalq qəzeti,*
*2005, 25 avqust*

## *Qobustan Dövlət Tarixi Bədii Qoruğu ilə tanışlıq*

Avqustun 25-də YUNESKO-nun Baş direktoru Koişiro Matsuura, xanımı və YUNESKO-nun nümayəndə heyətinin üzvləri Qobustan Dövlət Tarixi Bədii Qoruğunda olmuşlar.

Burada qonaqları Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva səmimiyyətlə qarşıladı.

YUNESKO-nun Baş direktoru, xoşməramlı səfirlər əvvəlcə sərgi ilə tanış oldular. Qobustandakı qədim qayaüstü təsvirlərin fotoşəkilləri, arxeoloji qazıntılar zamanı tapılmış maddi mədəniyyət nümunələri qonaqlarda böyük maraq doğurdu. Onlar Qobustanda tikiləcək

muzey binasının layihəsi ilə də tanış oldular. AMEA-nın müxbir üzvü, professor Cəfər Qiyasi müəllifı olduğu layihə haqqında ətraflı məlumat verdi.

Azərbaycanın mədəniyyət naziri Polad Bülbüloğlu cənab Koişiro Matsuuraya xatırlatdı ki, 3 il əvvəl biz Qobustan abidələrinin YUNESKO-nun dünya mədəni irsi siyahısına daxil olunması məsələsi ilə bağlı müraciət etmişik. Qobustan dünyada kifayət qədər məşhur olmasına baxmayaraq, müraciətimizə müsbət cavab verilməyibdir. Cənab Koişiro Matsuura dedi ki, bunun səbəbi müraciətdə lazımi sənədlərin olmamasıdır. O, Qobustanın YUNESKO-nun dünya mədəni irsi siyahısına daxil edilməsində bütün lazımi köməyin göstəriləcəyini bildirdi. Mehriban xanım Əliyeva vurğuladı ki, bütün məsələlər yaxın vaxtlarda həll olunacaq, lazımi sənədlər toplanacaq və YUNESKO-ya göndəriləcəkdir. Biz çox səbirsizliklə gözləyirdik ki, YUNESKO-nun Baş direktoru buraya gəlsin və Qobustan abidələri ilə tanış olsun. Çünki Qobustan, həqiqətən də, dünya miqyaslı bir abidədir.

Söhbət əsnasında bildirildi ki, qonaqların burada tanış olduqları sərgi Avropa Şurasında da göstərilmişdir. Orada sərgının bir həftə nümayiş etdirilməsi nəzərdə tutulmuşdu. Amma maraq çox olduğuna görə, bu müddət iki həftəyədək uzadılmışdı. Bu sərginin YUNESKO-nun iqamətgahında da təşkil edilməsi məqsədəuyğun olardı. Cənab Koişiro Matsuura bu fikri müsbət qarşıladı və Qobustanın dünya mədəni irs siyahısına daxil olunması ilə bağlı dedi ki, hesab edirəm, budəfəki müraciətiniz uğurlu olacaqdır.

Sonra qonaqlar Qobustan qoruğunu gəzdilər, yaşı on minilliklərlə ölçülən və xalqımızın qədim mədəniyyətindən xəbər verən qayaüstü təsvirləri bilavasitə seyr etdilər.

Azərbaycanın xalq artisti Sadıq Zərbəliyevin «Qavaldaş»da ifa etdiyi musiqi isə qonaqlarda çox böyük heyrət doğurdu və onlar bunu alqışlarla qarşıladılar.

Daha sonra söhbət çay süfrəsi arxasında davam etdirildi. Qoruqla tanışlıqdan xatirə olaraq qonaqlara «Qobustan: Qayaüstü rəsmlər» kitabı hədiyyə edildi.

YUNESKO-nun Baş direktorıu Koişiro Matsuura qoruğun rəy kitabına ürək sozlərini yazdı.

***Xalq qəzeti,***
***2005, 26 avqust***

## *Beynəlxalq Muğam Mərkəzi tikintisinin layihəsinin müzakirəsi*

Dekabrn 14-də Heydər Əliyev Fondunda paytaxtın Dənizkənarı milli parkında yaradılacaq Beynəlxalq Muğam Mərkəzinin binasının layihəsi respublikamızın tanınmış muğam ifaçılarının iştirakı ilə müzakirə olunmuşdur.

Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva muğam ustalarını səmimiyyətlə salamlayaraq bildirdi ki, xalqımızın milli mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan muğam sənətimizin qorunub saxlanması, tədqiqi, öyrənilməsi, dünyaya tanıdılması, gələcək nəsillərə çatdırılması üçün Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr cəmiyyətdə böyük razılıq hissilə qarşılanır, nüfuzlu beynəlxalq təşkilatlarda, dünyanın bir sıra ölkələrində də çox geniş maraq doğurur. Bu ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyevin və YUNESKO-nun baş direktoru cənab Matsuuranın iştirakı ilə Milli parkda nadir musiqi məbədinin – Beynəlxalq Muğam Mərkəzinin təməlinin qoyulduğunu xatırladan Mehriban xanım, tikintinin eskiz və layihəsi, arxitekturası ilə bağlı respublikamızın ən məşhur muğam ifaçılarının fikirlərini öyrənmək istədiyini vurğuladı. İndiyədək 10 layihə təqdim olunduğunu, əsas diqqətin qədim milli və

müasir arxitektura elementlərini birləşdirməklə musiqimizin əsas sütunu olan muğam sənətinin dərin fəlsəfəsini özündə təcəssüm etdirən bir kompleksin inşasına nail olmağı arzu etdiyini bildirən Fondun prezidenti, musiqi xadimlərini açıq, işgüzar fikir mübadiləsinə çağırdı.

Sonra layihələrin həm slaydları, həm də kağız üzərində eskizləri göstərildi.

Respublikanın xalq artistləri, professorlar Arif Babayev və Canəli Əkbərov, Habil Əliyev, Ağaxan Abdullayev, Alim Qasımov, Teymur Mustafayev, Mənsum İbrahimov və başqaları milli mədəniyyətimizin zirvəsi olan muğam sənətimizə Mehriban xanımın göstərdiyi qayğını, bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirdilər, təqdim olunmuş layihələr barədə öz təklif, tövsiyə və fikirlərini bildirdilər.

Müzakirələrin əhəmiyyətli olduğu, qarşılıqlı fikir mübadiləsinin bundan sonra da davam etdiriləcəyi vurğulandı.

# *Mehriban xanım Əliyevanın YUNESKO-da fəaliyyəti*

## *Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban Əliyeva YUNESKO-nun baş direktoru ilə görüşmüşdür*

Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya rəsmi səfəri çərçivəsində onun xanımı, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban Əliyeva yanvarın 23-də Parisdə, YUNESKO-nun iqamətgahında bu beynəlxalq qurumun baş direktoru Koiçiro Matsuura ilə görüşmüşdür.

Söhbət zamanı baş direktor xalqımızın ədəbi abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi ilə bağlı YUNESKO-da keçirilmiş tədbiri xatırlatmış, Prezident Heydər Əliyevin görkəmli dövlət xadimi və dünyanın tanınmış siyasi lideri olduğunu xüsusi vurğulayaraq, Azərbaycanla YUNESKO arasında sıx əməkdaşlığın yaranmasında onun əvəzsiz xidmətlərini yüksək qiymətləndirmişdir.

Cənab Matsuura daha sonra rəhbərlik etdiyi beynəlxalq qurumun dünyanın, o cümlədən qədim tarixi və zəngin abidələri olan Azərbaycanın mədəniyyətinə və incəsənətinə xüsusi diqqət göstərdiyi, gözəl memarlıq kompleksi İçərişəhərin Dünya Mədəni İrs siyahısına və xanəndə Alim Qasımovun ifasında Azərbaycan muğamlarının bəşəriyyətin qeyri-maddi irs siyahısına daxil edilməsi barədə ətraflı məlumat vermişdir.

Görüşdə son zamanlar YUNESKO ilə Azərbaycan arasında əlaqələrin daha da genişləndiyi, ölkəmizdə qaçqın uşaqların təhsilinə xüsusi diiqqət yetirildiyi və bununla bağlı Dövlət Proqramının hazırlanaraq həyata keçirildiyi, onlar üçün yeni məktəblərin inşa edilməsində bu qurumun yardımı böyük razılıq hissi ilə vurğu-

lanmış, Bakıda "Qafqaz xalqlarının ənənələri evi"nin yaradılması fikri səslənmişdir.

Mehriban xanım Əliyeva görüşdən xatirə olaraq, YUNESKO-ya azərbaycanlı rəssamın müasir tablosunu hədiyyə etmişdir. Azərbaycanın Fransadakı səfiri Eleonora Hüseynova görüşdə iştirak etmişdir.

*AzərTAc*
*2004, 24 yanvar*

## *Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban Əliyevanın YUNESKO-nun Baş direktoru ilə görüşündə əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə olunmuşdur*

Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya rəsmi səfəri çərçivəsində onun xanımı, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban Əliyeva yanvarın 23-də Parisdə, YUNESKO-nun iqamətgahında bu beynəlxalq qurumun Baş direktoru Koişiro Matsuura ilə görüşmüşdür.

Ölkəmizin Fransadakı fövqəladə və səlahiyyətli səfiri Eleonora Hüseynova AzərTAc-ın müxbirinə bildirmişdir ki, söhbət zamanı Baş direktor xalqımızın ədəbi abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi ilə bağlı Bakıda keçirilmiş təntənələrdə iştirak etdiyini xatırlatmış, Prezident Heydər Əliyevin görkəmli dövlət xadimi və dünyanın tanınmış siyasi lideri olduğunu xüsusi vurğulayaraq, Azərbaycanla YUNESKO arasında sıx əməkdaşlığın yaranmasında onun əvəzsiz xidmətlərini yüksək qiymətləndirmişdir.

Mehriban xanım Əliyeva cənab Matsuuranın rəhbərlik etdiyi beynəlxalq qurumun dünyanın, o cümlədən qədim tarixi və zəngin abidələri olan Azərbaycanın mədəniyyətinə və incəsənətinə xüsusi diqqət göstərdiyi-

nə, gözəl memarlıq kompleksinin – İçərişəhərin Dünya Mədəni İrs siyahısına və xanəndə Alim Qasımovun ifasında Azərbaycan muğamlarının bəşəriyyətin qeyri-maddi irs siyahısına daxil edilməsinə görə minnətdarlıq etmişdir.

Daha sonra Mehriban xanım Əliyeva yaratdığı və rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondunun fəaliyyəti və məqsədlərindən söhbət açmış, zəngin mədəniyyətimizin görkəmli, eləcə də gənc nümayəndələrinə himayə və yardım, qədim sənət növlərinin saxlanılması və yaşadılması, kitab və kompakt disklərin buraxılması, kimsəsiz və xəstə uşaqlara yardım, onların həyat və tədris şəraitlərinin yaxşılaşdırılması və sair kimi xeyirxah işlərindən danışmışdır. O, Fondun beynəlxalq miqyaslı tədbirlər də təşkil etdiyini bildirmiş, Bakıda "İpək yolunun musiqisi" festivalı və Yaponiya mədəniyyəti günləri keçirildiyini misal gətirmişdir.

Mehriban xanım Əliyeva Azərbaycan üçün ən mühüm problem– qaçqın-köçkünlər, xüsusilə onların uşaqlarının təhsili məsələsinə toxunmuş, ölkəmizdə bununla bağlı dövlət proqramının hazırlanaraq həyata keçirildiyini vurğulamış, məktəblərin dərs və texniki ləvazimatla təchiz edilməsinə YUNESKO-nun yardım göstərməsini arzulamışdır.

Eyni zamanda, Mehriban xanım Əliyeva çoxmillətli Qafqazda xalq sənətlərinin qorunması, təbliği ilə məşğul olacaq "Qafqaz xalq ənənələri evi"nin Bakıda yaradılması ideyasını cənab Koişiro Matsuuranın nəzərinə çatdırmışdır. O, dünyada maddi və qeyri-maddi mədəni irsin qorunub saxlanması ümdə vəzifəsi olan YUNESKO-nun bu layihədə əməkdaşlığını təklif etmişdir.

Görüşdə son zamanlar YUNESKO ilə Azərbaycan arasında əlaqələrin daha da genişlənməsi, Azərbaycanın bu mötəbər qurumda çəkisinin və rolunun artırılması üçün Azərbaycan dövlətinin daha çox səy göstərəcəyi vurğulanmışdır.

Mehriban xanım Əliyeva görüşdən xatirə olaraq, YUNESKO-ya müasir azərbaycanlı rəssamın bir tablosunu hədiyyə etmişdir.

*AzərTAc,*
*2004, 26 yanvar*

## *Mehriban xanim Əliyevaya BMT-nin İxtisaslaşmış Təşkilatının Xoşməramlı Səfiri fəxri adı verilməsinə həsr olunmuş mərasim keçirilmişdir*

Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya işgüzar səfəri çərçivəsində sentyabrın 9-da Parisdə – YUNESKO-nun iqamətgahında dövlətimizin başçısının xanımı Mehriban Əliyevaya BMT-nin bu ixtisaslaşmış təşkilatının Xoşməramlı səfiri fəxri adı verilməsinə həsr olunmuş mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı iqamətgahın önündə YUNESKO-nun Baş direktoru Koiçiro Matsuura, Xoşməramlı səfirlər proqramının rəhbəri xanım Bəsma İrşeid və digər rəsmi şəxslər böyük səmimiyyətlə qarşıladılar.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ilə YUNESKO-nun Baş direktoru Koiçiro Matsuura arasında görüş oldu.

Söhbət zamanı Azərbaycanla YUNESKO arasında əməkdaşlığın perspektivləri, həyata keçirilən birgə proqramlar, ölkəmizdə mədəni irsin qorunması, Azərbaycan mədəniyyətinin dünyada layiqincə təbliğ edilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdən sonra Azərbaycan Respublikası Prezidentinin xanımı Mehriban Əliyevaya YUNESKO-nun Xoşməramlı səfiri fəxri adının verilməsinə həsr edilmiş mərasim oldu.

Mərasimdə çıxış edən YUNESKO-nun Baş direktoru Koiçiro Matsuura bildirdi ki, Azərbaycan Mədəniyyətinin Dostları fondunun rəhbəri kimi xanım Mehriban

Əliyeva YUNESKO-nun Xoşməramlı səfiri fəxri adına layiq görülmüşdür. O, Azərbaycanın mədəni irsinin qorunmasında Mehriban xanımın fəaliyyətindən danışdı, eyni zamanda, ölkədə musiqi təhsilinin inkişafı sahəsində də böyük xidmətləri olduğunu vurğuladı.

Baş direktor dünya mədəni irsinin qorunmasında YUNESKO-nun fəaliyyətindən də söhbət açdı və əmin olduğunu bildirdi ki, Xoşməramlı səfir kimi Mehriban Əliyeva bu sahədə böyük xidmət göstərəcəkdir.

Sonra cənab Matsuura YUNESKO-nun Xoşməramlı səfiri diplomunu və vəsiqəsini Mehriban Əliyevaya təqdim etdi.

Mehriban xanım Əliyeva mərasimdə çıxış edərək, Xoşməramlı səfir fəxri adına layiq görüldüyünə görə YUNESKO-nun rəhbərliyinə minnətdarlığını bildirdi. Gələcək fəaliyyətində YUNESKO-nun dünya mədəni irsinin qorunması prinsipini rəhbər tutacağını vurğulayan Mehriban Əliyeva dedi ki, Şərqlə Qərb arasında körpü olan Azərbaycanın mədəniyyətində Şərq və Qərb mədəniyyətlərinin sintezi özünü bariz şəkildə göstərir. Mən fəxr edirəm ki, Üzeyir Hacıbəyov, Qara Qarayev, Mstislav Rostropoviç kimi şəxsiyyətlərin vətəni olan ölkəni YUNESKO-da Xoşməramlı səfir kimi təmsil edəcəyəm.

Mehriban Əliyeva xatırlatdı ki, Azərbaycan bəşər mədəniyyəti xəzinəsinə "Kitabi-Dədə Qorqud" eposu, muğam sənəti kimi misilsiz sərvətlər vermişdir. Yüksək texnologiyalar və qloballaşma dövründə qeyri-maddi mədəni irsin qorunmasının böyük əhəmiyyəti vardır və Azərbaycan Mədəniyyətinin Dostları fondunun fəaliyyətində də bu məqsəd mühüm yer tutur. Mehriban xanım vurğuladı ki, Xoşməramlı səfir olaraq bu məsələyə böyük diqqət yetirəcək və ona YUNESKO-nun yüksək fəxri adının verilməsini bu təşkilatın prinsiplərinə sadiqliyinin daha bir ifadəsi kimi qəbul edir.

Mərasimdə Prezident İlham Əliyev çıxış etdi. Dövlətimizin başçısı dedi ki, Azərbaycanın nümayəndəsinin Xoşməramlı səfir adına layiq görülməsi mədəniyyətimizin həyatında mühüm hadisədir. Bu, onu göstərir ki,

YUNESKO, dünya birliyi ilə mədəni əlaqələrimiz daha da inkişaf edir. Ölkəmiz YUNESKO ilə çox uğurlu əməkdaşlıq edir və hazırda birgə layihələr, proqramlar həyata keçirilir. Azərbaycanın çox zəngin mədəni irsi var və bu qarşılıqlı əməkdaşlıq gələcəkdə ölkəmizin YUNESKO ilə daha da yaxınlaşmasına imkan verəcəkdir.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan dünya birliyinə inteqrasiya edir və biz beynəlxalq qurumlarla, o cümlədən Avropa strukturları ilə müxtəlif sahələrdə fəal əməkdaşlıq edirik. Mehriban Əliyevanın yaratdığı Azərbaycan Mədəniyyətinin Dostları fondu on ildir ki, xalqımızın mədəni irsinin qorunmasında, onun əsasını qoyduğu "Azərbaycan-İRS" jurnalı isə həmin irsin təbliğində böyük rol oynayır. Azərbaycan Prezidenti əmin olduğunu vurğuladı ki, Mehriban Əliyevanın beynəlxalq miqyasda fəaliyyəti də faydalı olacaqdır. Dövlətimizin başçısı Xoşməramlı səfirə uğurlar dilədi, eyni zamanda, Azərbaycanın nümayəndəsinə bu yüksək adın verilməsinə görə YUNESKO-nun rəhbərliyinə minnətdarlığını bildirdi.

***AzərTAc***
***2004, 10 sentyabr***

## *YUNESKO-nun Baş direktoru Azərbaycan Mədəniyyətinin Dostları Fondunun sədri Mehriban Əliyevaya YUNESKO-nun xoşməramlı səfiri fəxri adı vermişdir*

Bununla əlaqədar Mehriban xanıma ünvanlanmış məktubda deyilir:

***"Azərbaycanın Birinci Xanımı***
***Mehriban Əliyevaya***

Əziz xanım Əliyeva!

Cari ilin yanvarında YUNESKO-nun iqamətgahına səfərinizlə əlaqədar Sizinlə görüşmək mənə çox xoş idi.

Sizin təşəbbüsünüzlə 1995-ci ildə yaradılan və rəhbərliyinizlə fəaliyyət göstərən, YUNESKO-nun məqsəd və məramları ilə bilavasitə bağlı olan Azərbaycan Mədəniyyətinin Dostları Fondunun fəaliyyəti ilə böyük maraqla tanış oldum. Azərbaycanda musiqi təhsilinin inkişafına köməyinizi və təşkilatınızın səlahiyyətinə daxil olan digər bir çox mühüm layihələri dəstəkləməyinizi xüsusi qeyd etmək istərdim.

Bu deyilənləri əsas tutaraq, habelə xüsusən xalq musiqisinin, ədəbiyyat və poeziyanın inkişafına və yayılmasına dair layihələrin dəstəklənməsi sahəsində əhəmiyyətli nəticələr əldə edilməsində xidmətlərinizin qiymətləndirilməsi əlaməti olaraq, mən Sizə məmnuniyyətlə YUNESKO-nun şifahi ənənələr və musiqi ənənələri sahəsində xoşməramlı səfiri adı verirəm. Sizə bu fəxri adın təqdim edilməsi mərasimi 2004-cü il sentyabrın 9-da YUNESKO-nun iqamətgahında olacaqdır.

YUNESKO-nun xoşməramlı səfirlər proqramının rəhbəri xanım Bəsma İrşeidə tapşırılmışdır ki, YUNESKO-nun xoşməramlı səfiri kimi fəaliyyətinizin istiqamətlərinin Təşkilatın fəaliyyəti ilə, xüsusən qeyri-maddi vokal irsinin inkişafına və yayılmasına kömək göstərilməsi sahəsində, əlaqələndirilməsini Sizinlə birlikdə müəyyənləşdirsin.

YUNESKO-nun rolunun təbliğində və ictimaiyyəti onun məqsəd və məramları ilə tanış etməkdə bizə yardımçı olan görkəmli şəxsiyyətlər sırasında Sizi tezliklə salamlamaq ümidi ilə

*Səmimiyyətlə, Sizin*
*Koişiro Matsuura*
*YUNESKO-nun Baş direktoru*
*Paris, 13 avqust 2004-cü il".*

## YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın çıxışı

– Hörmətli xanım Mehriban Əliyeva!

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Hörmətli xoşməramlı səfirlər, xanımlar və cənablar!

YUNESKO evinə xoş gəlmisiniz. Sizin hamınızı YUNESKO-nun iqamətgahında böyük məmnuniyyətlə salamlayıram.

Bu əlamətdar gündə Azərbaycan Mədəniyyətinin Dostları Fondunun sədri xanım Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri adına layiq görülür. Bu ad ona şifahi irsin və musiqi yaradıcılığı irsinin qorunub saxlanılması və inkişaf etdirilməsinə görə təqdim olunur. Mən bu mərasimdə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevin iştirak etməsindən şərəf duyuram. Həm hörmətli Prezidentə, həm də xanımı Mehriban Əliyevaya “YUNESKO evinə xoş gəlmisiniz!” deyirəm. Bu imkandan istifadə edərək, zati-aliləri cənab Prezidentə dövlət quruculuğu və sosial inkişaf sahəsində əldə etdiyi uğurlara nə qədər heyran olduğumuzu da bildirmək istəyirəm.

Xanım Mehriban Əliyevanın yüksək ada layiq görülməsi təşkilatımızın tarixindəki mühüm bir anda baş verir. Bu təltif onu göstərir ki, mədəniyyət inkişafın tacıdır və tacları bəzəyən bütün ləl-cəvahiratdan daha qiymətlidir.

YUNESKO həmişə mədəniyyəti və inkişafı bir-birindən ayrılmaz hesab edir. Biz iqtisadi inkişafı ayrılıqda nəzərdən keçirmir, inkişaf dedikdə, həm də intellektual səviyyənin yüksəkliyini, ruhi, mənəvi, emosional rahatlığı nəzərdə tuturuq. Bu inkişaf qrupların, icmaların, millətlərin gələcəyi ilə yanaşı, həm də onların tarixlərinin qorunmasını nəzərdə tutur.

Ona görə də burada toplaşmış hörmətli qonaqlara böyük məmnuniyyət hissi ilə xanım Mehriban Əliyeva-

nın Azərbaycanda mədəniyyət sahəsində yorulmaz fəaliyyəti barədə danışmaq istəyirəm. Mən onun mədəni irsin, o cümlədən musiqi irsinin qorunması, musiqi təhsili sahəsində gördüyü işləri xüsusi vurğulamaq istəyirəm. Xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondu onun təşəbbüsü ilə 1995-ci ildə yaranmışdır və bu günə qədər uğurla fəaliyyət göstərir.

Musiqi təhsili və gələcək nəslin maarifləndirilməsi xanım Əliyevanın rəhbərlik etdiyi Fondun daim diqqət mərkəzində olmuşdur. Təqdirə və hörmətə layiq haldır ki, Fondun təşkil etdiyi xeyriyyə konsertləri dinləyicilərə sevinc bəxş etməklə yanaşı, milli mədəniyyətin zəngin ənənələrinin yaşadılmasına da xidmət etmişdir. Fondun səyləri nəticəsində Azərbaycanda musiqi gimnaziyası və musiqi məktəbi tamamilə təmir olunmuş, minlərlə yeniyetmə və gəncin musiqi aləminə qovuşa bilməsi üçün gözəl şərait yaradılmışdır. İmkansız ailələrdən olan uşaqların bu prosesə cəlb olunması xüsusilə diqqətəlayiq haldır.

Böyük məmnuniyyətlə mən üç dildə nəşr olunan “Azərbaycan-İrs” jurnalını da xatırlatmaq istəyirəm. Xanım Əliyeva bu jurnalda baş redaktor vəzifəsini icra edir. Jurnal Azərbaycanın və eləcə də bütün Qafqaz regionunun tarixi mədəniyyəti barədə məlumatlar yaymaqla kifayətlənmir, eyni zamanda, bütün dünya xalqlarının adət-ənənələrindən ətraflı bəhs edir.

Bilirəm ki, xanım Əliyeva Azərbaycanda musiqi və şifahi xalq yaradıcılığının yayılmasına böyük önəm verir. Azərbaycan zəngin musiqi və şifahi xalq yaradıcılığı ənənələrinə malikdir. Son illər isə bu sahəyə maraq hədsiz dərəcədə artmışdır.

Musiqinin və musiqi alətlərinin funksiyası yalnız səslərlə bitmir. Bunlar xalqların və millətlərin tarixi yolunu, onların keçirdikləri hissləri, habelə estetik dəyərləri əks etdirir. Təsadüfi deyil ki, bəşəriyyətin mədəni incilərinin qorunması ilə bağlı 2003-cü ildə təşəbbüs irəli sürülərkən cəmi 30 saniyəlik proqrama məhz musiqi fraqmenti daxil edilmişdi.

Bu gün bizimlə bu mərasimdə iştirak edən digər xoşməramlı səfir xanım Marianna Volqaros bu təşəbbüsü dəstəkləmişdir. YUNESKO üzv ölkələri daim mədəni irsi inkişaf etdirməyə, xüsusilə nadir incilərin qorunub saxlanılmasına xüsusi qayğı göstərməyə çağırır. Keçən il qəbul olunmuş milli mədəni irsin qorunması ilə bağlı Konvensiya bu yonümdə çox mühüm bir sənəd və xalqları bu istiqamətdə birləşdirən ilk vasitə olmuşdur. Yeni Konvensiya hələ 1972-ci ildə qəbul olunmuş dünya mədəni və təbii irsinin qorunması haqqında Konvensiyaya mükəmməl bir əlavə idi. YUNESKO bu Konvensiyanı tezliklə ratifikasiya etməyi bütün dünya ölkələrinə tövsiyə edir. Biz arzu edirik ki, bu mühüm sənədin müddəalarının yerinə yetirilməsi prosesinə mümkün qədər tez bir zamanda başlanılsın.

Zati-aliləri, xanımlar və cənablar!

Şifahi xalq ədəbiyyatının və musiqi irsının qorunması sahəsindəki yorulmaz səyləri ilə YUNESKO-nun xoşməramlı səfiri adını qazanan xanım Mehriban Əliyeva təşkilatmızın ideya və məramlarını həyata keçirən digər xoşməramlı səfirlərin sırasına daxil olur. Bu fəxri adı qəbul etdiyinə görə YUNESKO adından ona minnətdarlığımı bildirirəm. Çox şadam ki, YUNESKO-nu və bizim hamımızı narahat edən məsələlərlə bağlı səfirlik missiyasını yerinə yetirməyə razılıq vermişdir. Ümumi məqsədlərimizin həyata keçməsi üçün nüfuzundan istifadə edərək, işimizə töhfə vermək üçün göstərəcəyi səylərə görə xanım Mehriban Əliyevaya təşəkkürümüzü bildiririk.

Xanım Əliyeva, böyük məmnuniyyət hissi ilə musiqi mədəniyyətinin inkişafındakı səylərinizə görə Sizə YUNESKO-nun xoşməramlı səfiri fəxri adını təsdiqləyən diplomu təqdim edirəm. Sizə habelə müvafiq sertifikat da təqdim edir, yeni işinizdə uğurlar diləyirəm. YUNESKO-nun səfirləri ailəsinə daxil olmağınız münasibətilə Sizi bir daha təbrik edirəm.

* * *

Sonra Azərbaycan Prezidentinin xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya söz verildi.

**YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın çıxışı**

– Hörmətli cənab Baş direktor!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, xoşməramlı səfir kimi yüksək ada layiq görüldüyümə görə YUNESKO-ya və cənab Matsuura, şəxsən Sizə, öz dərin minnətdarlığımı bildirim.

YUNESKO-nun əsas prinsiplərindən biri dünya mədəniyyətinin nadirliyini gələcək nəsillər üçün qoruyub saxlamaqdan ibarətdir. Mən də öz fəaliyyətimdə bu prinsipi əsas tuturam. Ona görə mənə bu yüksək adın verilməsi mənim üçün həm böyük şərəf, həm də böyük məsuliyyətdir. Bu, mədəniyyətlər və sivilizasiyalar arasında, keçmişlə bu gün arasında əlaqə yaratmaq məsuliyyətidir.

Azərbaycanı çox vaxt Qərblə Şərq arasında körpü adlandırırlar. Bu, hələ tarixi Böyük İpək yolu dövründən ölkəmizin əlverişli coğrafi-siyasi mövqeyə malik olması ilə bağlıdır. Azərbaycan özünün çoxəsrlik tarixi boyunca təkcə nəqliyyat dəhlizi kimi deyil, həm də mədəniyyətlərin dialoqunda öz sözünü deməyə qadir olan bir ölkə kimi tanınır. Mən fəxr edirəm ki, ölkəmizdə tamamilə bənzərsiz bir mədəni məkan yaranmışdır. Biz öz mədəniyyətimizin, adət-ənənələrimizin, tarixi irsimizin təkrarolunmaz incilərini qoruyub saxlayaraq, dünya mədəniyyətinin nümunələrini qəbul edə bilmişik. Bu gün biz müxtəlif xalqların mədəniyyət elementləri ilə milli mədəniyyətimizin tərkib hissəsi arasında oxşarlığın şahidi oluruq. Bu isə heç də təsadüfi deyildir. Belə ki, bu proseslərin arxasında öz tolerantlığı, xeyirxahlığı, öyrənib-öyrətmək bacarığı ilə seçilən və mədəniyyətlər arasında körpülər yaradan azərbaycanlıların neçə-neçə nəsli durur.

Azərbaycan Üzeyir Hacıbəyov, Qara Qarayev, Səttar Bəhlulzadə, Mstislav Rostropoviç kimi dünya şöhrətli mədəniyyət xadimlərinin vətənidir. Bu cür şəxsiyyətlərin yetişməsi üçün şərait yarada bilmiş xalqımız, həqiqətən də, böyük xalqdır.

Öz milli mənliyimizi, mədəniyyətimizi qoruyub saxlamaqla yanaşı, biz dünya mədəniyyəti xəzinəsinə 1300 illiyi YUNESKO çərçivəsində qeyd olunmuş “Kitabi-Dədə Qorqud” eposu, şifahi və qeyri-maddi irs inciləri siyahısına daxil edilmiş Azərbaycan muğamı kimi töhfələr verə bilmişik. Bu gün, yüksək texnologiyalar, qloballaşma və informasiya inteqrasiyası dövründə qeyri-maddi irsin qorunub saxlanılması xüsusi əhəmiyyət kəsb edir. Bütün bəşəriyyət qeyri-maddi irsin qorunmasında çox maraqlıdır. Bu məsələdə YUNESKO-nun rolu, şübhəsiz ki, çox böyükdür.

Yeri gəlmişkən, mən YUNESKO tərəfindən qeyrimaddi irsin qorunması haqqında Konvensiyanın qəbul edilməsində cənab Matsuuranın böyük xidmətini vurğulamaq istərdim.

Muğam da, aşıq yaradıcılığı da, milli musiqi alətlərimizin bənzərsiz melodiyaları da Azərbaycan xalqının bu günə qədər qoruyub saxladığı və gələcək gün naminə qorumağa borclu olduğumuz irsin yalnız bir hissəsidir. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun fəaliyyəti məhz bu məqsədə xidmət edir. Xoşməramlı səfir kimi mənim bütün gələcək fəaliyyətim də bu məqsədə xidmət edəcəkdir.

Azərbaycan xalqı öz yaddaşını, dilini, musiqisini, eposlar yaratmaq bacarığını, bir çox əsrlər boyu yaşadıla bilən dəyərli nümunələri bütün bəşəriyyətin sərvəti hesab edir. Mənə bu gün verilən fəxri adı, hər şeydən əvvəl, YUNESKO-nun prinsiplərinə sadiq olmağımın ifadəsi kimi qəbul edirəm. Sizi əmin etmək istəyirəm ki, bu yüksək mükafat məni və başçılıq etdiyim Azərbaycan Mədəniyyətinin Dostları Fondunu mədəni irsimizin qorunması naminə daha böyük səylə çalışmağa sövq edəcəkdir.

Fəaliyyətimə verilmiş bu yüksək qiymətə görə bir daha təşəkkürümü bildirirəm.

Diqqətinizə görə sağ olun.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.

**Azərbaycan Prezidenti**
**İlham Əliyevin nitqi**

– Hörmətli cənab Baş direktor!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Azərbaycanın mədəni həyatında çox mühüm bir gündür. Ölkəmizin nümayəndəsi YUNESKO-nun xoşməramlı səfiri adına layiq görülür. Bu, çox əlamətdar bir hadisədir. Çünki bu, mədəni əlaqələrimizin möhkəmlənməsi deməkdir.

Azərbaycan və YUNESKO-nun əməkdaşlığının uzun tarixi vardır. Biz Baş direktorun ölkəmizə səfərini xatırlayırıq. Onun apardığı müzakirələr çox əhəmiyyətli olmuşdur. İndi biz birgə layihələr, proqramlar həyata keçiririk ki, Azərbaycan xalqının mədəni və tarixi irsini qoruyub saxlayaq və təbliğ edək.

Azərbaycanın çox qədim tarixi və zəngin mədəni irsi var. Ölkəmiz dünya mədəniyyətinə çoxlu töhfələr vermişdir. Eyni zamanda, dünya mədəniyyətinin nümunələri də Azərbaycanda geniş təmsil olunmuşdur. YUNESKO ilə qarşılıqlı əməkdaşlıq gələcəkdə bizim daha da yaxınlaşmağımıza kömək edəcəkdir.

Azərbaycan beynəlxalq aləmin bir hissəsi, müstəqilliyini nisbətən yeni qazanmış ölkədir. Əlbəttə, ölkəmizin beynəlxalq birliyə tam inteqrasiyası üçün hələ çox iş görülməlidir. Biz bu istiqamətdə fəal iş aparırıq. Avropa ölkələri ilə, ümumən beynəlxalq qurumlarla həm siyasi, həm iqtisadi, həm də sosial səviyyədə geniş əlaqələrimiz vardır. Şübhəsiz ki, biz mədəni əməkdaşlıq sahəsində daha çox uğur əldə etməyi də arzulayırıq.

Mən əminəm ki, xanım Mehriban Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri təyin olunması bu sahədə bizə yardım edəcəkdir. Mehriban xanımın on ilə yaxın bir müddətdə rəhbərlik etdiyi Fond mədəniyyətin inkişaf etdirilməsi, mədəni irsin qorunması, xalqımızın ənənələrinin yaşadılmasında mühüm rol oynamışdır. Onun təsis etdıyi jurnal, fondun həyata keçirdiyi müxtəlif layihə və proqramlar ölkəmizdə mədəniyyət və incəsənətin ümumi inkişafına müsbət təsirini göstərir. Əminəm ki, bu təyinatdan sonra həm Mehriban xanımın, həm də Fondun fəaliyyəti beynəlxalq miqyasda daha çox nəzərə çarpacaqdır.

Bu gün mənim üçün ikiqat əlamətdardır. Çünki bu, yalnız Azərbaycan nümayəndəsinin YUNESKO-nun xoşməramlı səfiri adına layiq görülməsi deyil, həm də mənim xanımımın təltif olunmasıdır. Çox şadam ki, onun fəaliyyəti bu cür yüksək qiymətləndirilir və tanınır. Elə bilirəm ki, o, xoşməramlı səfir adını daşımağa layiqdir. Çünki o, həmişə insanlara xoş münasibəti, xoş niyyəti ilə seçilibdir. Bu, onun xasiyyətinin fərqləndirici cəhətidir. Əminəm ki, bu yeni işdə də fəal çalışacaq və fəaliyyəti ilə ümumi məqsədlərimizə töhfəsini əsirgəməyəcəkdir. Ümumi məqsədlərimiz isə bir-birimizi daha yaxından tanımaq, insanları, mədəniyyətləri tanıtmaq, müxtəlif xalqların və ölkələrin mədəniyyətlərindən bəhrələnməkdir.

Əminəm ki, Mehriban xanım bu vəzifəni səylə yerinə yetirəcək və bu vacib işdə uğurlar qazanacaqdır.

Bu fəxri adın verilməsinə görə YUNESKO-ya bir daha minnətdarlığımı bildirir, yeni səfiri təbrik edir və ona uğurlar arzulayıram.

* * *

Rəsmi hissədən sonra Mehriban xanım Əliyevaya xoşməramlı səfir fəxri adı verilməsi münasibətilə qəbul təşkil edildi.

Daha sonra mərasim iştirakçıları Mehriban Əliyevanın fəaliyyətinə həsr olunmuş jurnalla, habelə

xalqımızın adət və ənənələri, məişəti barədə məlumatları əks etdirən guşə ilə tanış oldular.

*Xalq qəzeti,*
*2004, 11 sentyabr*

## YUNESKO-nun baş direktoru xoşməramlı səfir Mehriban xanım Əliyevanı qəbul etmişdir

YUNESKO-nun baş direktoru Koiçiro Matsuura Parisdə xoşməramlı səfirlərin illik iclasında iştirak edən xoşməramlı səfir, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyevanı qəbul etmişdir.

Görüş zamanı Mehriban xanım Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını baş direktora çatdırmışdır. Son dövrdə YUNESKO ilə Azərbaycan arasında əməkdaşlığın daha da inkişaf etdiyini vurğulayan xoşməramlı səfir Azərbaycan musiqisinə, xüsusilə muğama göstərilən qayğını, onun mədəni irs siyahısına daxil edilməsini, YUNESKO-nun bu sahədə məqsədyönlü fəaliyyətini yüksək qiymətləndirmişdir.

Mehriban xanım Əliyeva rəhbərlik etdiyi fondların gördüyü işlər, maddi-mədəni irsin, o cümlədən muğamların qorunması və təbliği ilə bağlı həyata keçirilən layihələr barədə məlumat vermiş, eyni zamanda bu və digər məsələlərdə YUNESKO-nun dəstəyinə, yardımına ehtiyac duyulduğunu söyləmişdir. Mehriban xanım YUNESKO-nun xoşməramlı səfirlərinin illik iclasının ümumi fəaliyyət proqramına təsirini də vurğulamışdır.

Cənab Koiçiro Matsuura xoşməramlı səfirlərin illik iclasında iştirakına görə Mehriban xanım Əliyevaya təşəkkür etmişdir. Ötən ilin sentyabrında YUNESKO-da keçirilmiş tədbirdə Prezident İlham Əliyevin iştirakından böyük məmnunluq duyduğunu söyləyən Koiçiro Matsuura dövlətimizin başçısının onu Azərbaycana sə-

fərə dəvət etdiyini xatırlatmış və bu il həmin səfərin baş tutacağına əmin olduğunu bildirmişdir.

Baş direktor YUNESKO ilə Azərbaycan arasında elm, təhsil və mədəniyyət sahələrində mövcud əlaqələrin inkişafından razı qaldığını xüsusi vurğulamışdır. K.Matsuura Azərbaycan Prezidentinin maddi-mədəni irsin qorunması sahəsindəki tədbirlərini yüksək qiymətləndirmiş, Azərbaycanı zəngin tarixi abidələrə, mədəniyyətə, o cümlədən musiqiyə malik bir ölkə kimi səciyyələndirmişdir.

Azərbaycanın YUNESKO yanındakı daimi nümayəndəsi səfir Eleonora Hüseynova görüşdə iştirak etmişdir.

***AzərTAc***
***2005, 4 mart***

## *Parisdə YUNESKO-nun xoşməramlı səfirlərinin illik iclası başlanmışdır*

YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyeva xoşməramlı səfirlərin illik iclasında iştirak etmək üçün Fransa paytaxtına gəlmişdir.

Martın 3-də iclas öz işinə başlamışdır. YUNESKO-nun iqamətgahında Mehriban xanım Əliyevanı təşkilatın Baş direktoru Koişiro Matsuura və digər rəsmi şəxslər səmimiyyətlə qarşılamışlar. Baş direktor iclası açaraq, xoşməramlı səfirlərin beşinci görüşünün iştirakçılarını salamlamış, son bir ildə iki nəfərin xoşməramlı səfir adına layiq görüldüyünü xatırlatmışdır. Xoşməramlı səfir adına layiq görülmüş Mehriban xanım Əliyevanın ölkəmizdəki fəaliyyətindən məlumat verən K.Matsuura bildirmişdir ki, o, 1995-ci ildən qeyri-hökumət təşkilatı olan Azərbaycan Mədəniyyətinin Dostları Fonduna rəhbərlik etməklə yanaşı, mədəni irsin

qorunması, 2003-cü ildə YUNESKO-nun bəşəriyyətin mədəni irs siyahısına daxil etdiyi muğamların təbliği və zəngin Azərbaycan musiqsinin inkişafı sahəsində xüsusi xidmətlər göstərmişdir. Xoşməramlı səfir kimi Mehriban Əliyeva mədəni irsin qorunub saxlanmasına dair Konvensiyanın təqdimatı ilə bağlı ötən ilin dekabr ayında Kazan şəhərində keçirilmiş tədbirdə iştirak etmışdir. Baş direktor son zamanlar Mehriban xanım Əliyevanın xəstə və valideyn himayəsindən məhrum uşaqlara göstərdiyi qayğını yüksək qiymətləndirmişdir.

Sonra Koişiro Matsuura dünyanı təhdid edən hadisələrə xoşməramlı səfirlərin göstərdiyi münasibətdən, xüsusilə QİÇS kimi təhlükəli xəstəlikdən əzab çəkən xəstələrə onların köməyindən söhbət açmış, rəhbərlik etdiyi qurumun təhsil sahəsində BMT ilə əlaqəsindən ətraflı danışmış və YUNESKO-nun tədrisin keyfiyyətini daim diqqət mərkəzində saxladığını vurğulamışdır.

Baş direktor bildirmişdir ki, Cənub-Şərqi Asiyadakı dağıdıcı sunami zamanı valideynlərini itirmiş uşaqlara qayğı göstərmək məqsədi ilə YUNESKO xüsusi layihə hazırlamışdır. Cənab K.Matsuura İraq və Əfqanıstanda müharibələr nəticəsində tarixi abidələrin dağılmasından narahatlıqla bəhs etmiş, mədəniyyətin inkişafına göstərdikləri xidmətlərinə görə bir çox xoşməramlı səfirə, o cümlədən Mehriban xanım Əliyevaya təşəkkür etmişdir.

YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva iclasda çıxış etmişdir. O demişdir:

– Əvvəlcə, burada olmağımdan məmnunluq duyduğumıı demək istəyirəm. Bildiyiniz kimi, ilk dəfədir ki, bu görüşdə iştirak edirəm və mən YUNESKO ailəsi ilə – sizinlə birgə olmağımdan çox sevinirəm.

Bu gün 2004-cü ilin sentyabr ayından xoşməramlı səfir kimi mədəni irsin qorunmasına cəlb olunduğum bir sıra layihələr barədə qısa məlumat vermək istəyirəm.

Bizim layihəmiz milli musiqimiz olan muğam və onun müxtəlif sahələrini əhatə edir. Ümumilikdə biz 10-dan çox layihə üzərində işləyirik. Bunlardan bəzilə-

ri artıq başa çatmışdır. Digərləri isə yaxın gələcək üçün nəzərdə tutulmuşdur. İcazə verin, yenicə başa çatmış bir layihə – Azərbaycan muğam sənətkarlarının əvvəllər yazılmış musiqi parçalarının təmizlənməsi və yenidən yazılması barədə danışım. Onların orijinallarının bir çoxunu xaricdə axtarmalı olduq. Buna baxmayaraq, biz uğur əldə etdik və onları CD-lərə köçürə bildik. Sizə musiqi dəstini təqdim etmək istəyirəm. Ümid edirəm ki, bu musiqini dinləməklə siz zövq alacaqsınız. Buna əlavə olaraq, biz məşhıır xanəndələr haqqında və muğam fəlsəfəsinə aid bir sıra kitablar nəşr etməyi də planlaşdırırıq.

Bizim diqqətimiz başlıca olaraq bir məsələyə – Bakı şəhərində Beynəlxalq Musiqi Mərkəzinin yaradılmasına yönəldilmişdir. Bu musiqi mərkəzinı yaradarkən nəinki musiqiçilərin, həm də musiqisevərlərin buraya gələrək musiqini dinləməsini, ənənəvi musiqimiz barədə müzakirələr aparmağı və yaşlı nəsildən olan sənətkarların öz təcrübələrini, biliklərini və ustalıqlarını yeni nəsillə bölüşdürməsini nəzərdə tutmuşuq. Ümid edirik ki, bu mərkəz həm də müxtəlif ölkələrdən olan insanların görüş yerinə çevriləcək, dünya mədəni irsinin qorunub saxlanılması yolunda daha bir addım olacaqdır.

Sonda demək istəyirəm ki, Azərbaycan YUNESKO ilə yaxın əməkdaşlıqdan qürur duyur və onun dünyadakı layihələrinin bir hissəsi olmağa həmişə hazırdır. Sizinlə bir yerdə olmaqdan qürur duydum. Çox yaxın gələcəkdə sizi Azərbaycanda salamlamağa ümid edirəm. Çox sağ olun!

* * *

Mehriban xanım Əliyevanın çıxışı çox maraqla dinlənilmiş və sürəkli alqışlarla qarşılanmışdır.

Digər xoşməramlı səfirlər də gördükləri işlər barədə məlumat vermiş, bütün dünyanı hədələyən QİÇŞ xəstəliyinin yayılmasından narahatlıqlarını vurğulamış, YUNESKO tərəfindən həyata keçiriləcək tədbirlərə münasibətlərini bildirmiş və təkliflərini söyləmişlər.

Türkiyənin xoşməramlı səfiri ermənilər tərəfindən uydurulmıış «soyqırımı» bir çox ölkələrin tanımasından narahatlığını xüsusi vurğulamış, YUNESKO xətti ilə bu məsələnin araşdırılmasına dünyanın tanınmış tarixçi alimlərinin cəlb olunmasını xahiş etmişdir.

İclasın gedişində sunami faciəsini, Əfqanıstanda buddizmə məxsus tarixi abidənin talibilər tərəfindən dağıdılmasını, ərəb dünyası musiqisini, adət və ənənələrini əks etdirən, Afrika ölkələrində içməli su problemindən, uşaqlar arasında savadsızlıqdan bəhs edən sənədli filmlər göstərilmişdir.

Sonra YUNESKO-nun Baş direktoru Koişiro Matsuura xoşməramlı səfirlərlə xatirə şəkli çəkdirmiş və onların şərəfinə ziyafət vermişdir. Azərbaycan Prezidentinin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə və ölkəmizin YUNESKO-dakı səfiri Eleonora Hüseynova iclasda iştirak etmişlər.

***Əsgər ƏLİYEV***
***Xalq qəzeti,***
***2005, 4 mart***

## *YUNESKO-nun Xoşməramlı Səfirlər Proqramının Rəhbəri*

2005-ci il martın 3-də Parisdə YUNESKO-nun iqamətgahında xoş məramlı səfirlərin illik iclası keçirildi. Həmin toplantıda Mehriban xanım Əliyeva iştirak etmişdir.

YUNESKO-nun baş direktoru Koiçiro Matsura iclası açaraq, xoşməramlı səfirlərin beşinci görüşünün iştirakçılarını salamlamış, son bir ildə iki nəfərin xoşməramlı səfir adına layiq görüldüyünü qeyd etmiş və yeni üzvlərin fəaliyyəti ilə toplantı iştirakçılarına məlumat vermişdir. O, Azərbaycandan olan xoşməramlı səfirin həyata keçirdiyi proqram və layihələrlə qonaqları tanış etmişdir. Mehriban Əliyevanın xoşməramlı səfir

kimi ötən ilin dekabr ayında mədəni irsin qorunub saxlanmasına dair Konvensiyanın təqdimatı ilə bağlı Kazan şəhərində keçirilmiş tədbirdə fəal iştirak etməsini xüsusi vurğulamış, səfirin xəstə və valideyn himayəsindən məhrum uşaqlara göstərdiyi qayğını isə yüksək qiymətləndirmişdir.

YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva iclasda çıxış edərək həyata keçirdiyi proqram və layihələr haqqında məlumat vermişdir. O demişdir: "Bizim layihəmiz milli müsiqimiz olan muğam və onun müxtəlif sahələrini əhatə edir. Ümumilikdə biz 10-dan çox layihə üzərində işləyirik. Bunlardan bəziləri artıq başa çatmışdır, bəziləri icra olunur. Digərləri isə yaxın gələcək üçün nəzərdə tutulmuşdur. İcazə verin, yenicə başa çatmış bir layihə – Azərbaycan muğam sənətkarlarının əvvəllər yazılmış musiqi parçalarının təmizlənməsi və yenidən yazılması barədə danışım. Onların orjinallarının bir çoxunu xaricdə axtarmalı olduq. Buna baxmayaraq, biz uğur əldə etdik və onları CD disklərə köçürə bildik. Sizə bu musiqi dəstini təqdim etmək istəyirəm. Ümid edirəm ki, bu musiqini dinləməklə Siz zövq alacaqsınız. Buna əlavə olaraq, biz məşhur xanəndələrimiz və muğam fəlsəfəsi haqqında bir sıra kitablar nəşr etməyi də planlaşdırırıq.

Bizim diqqətimiz başlıca olaraq bir məsələyə – Bakı şəhərində Beynəlxalq Musiqi Mərkəzinin yaradılmasına yönəldilmişdir. Bu musiqi mərkəzini yaradarkən nəinki musiqiçilərin, həm də musiqisevərlərin buraya gələrək musiqini dinləməsini, ənənəvi musiqimiz barədə müzakirələr aparmağı və yaşlı nəsildən olan sənətkarların öz təcrübələrini, biliklərini və ustalıqlarını yeni nəsillə bölüşdürməsini nəzərdə tutmuşuq. Ümid edirik ki, bu mərkəz həm də müxtəlif ölkələrdən olan insanların görüş yerinə çevriləcək, dünya mədəni irsinin qorunub saxlanması yolunda daha bir addım olacaqdır." İllik toplantıda bir sıra digər məsələlər də müzakirə olunmuşdur.

İclasdan sonra Parisin "Löduayen" salonunda Azərbaycan musiqisindən ibarət konsert təşkil edilmiş-

dir. Toplantı və konsert zamanı Mehriban xanım bir sıra rəsmi şəxslərlə və xoşməramlı səfirlərlə görüşüb söhbətlər etmiş, proqramlar barədə fikir mübadiləsi aparmışdır. Mehriban xanım Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri kimi həyata keçirmək istədiyi proqram və lahihələr az deyildir. Onlardan bir qismi artıq ardıcıl yerinə yetirilir. Digər qismi isə hazırlanma və işlənmə dövrünü yaşayır. Belə proqram və layihələr haqqında məlumatlar yaxın gələcəkdə saytın səhifələrində öz əksini tapacaqdır.

*AR MOK-nin İnformasiya Şöbəsi*
*2005, 28 may*

## Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın YUNESKO-nun baş direktorunun xanımı Takaka Matsuura ilə görüşü

Avqustun 24-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva YUNESKO-nun baş direktorunun xanımı Takaka Matsuura ilə görüşmüşdür.

Söhbət zamanı Mehriban xanım Əliyeva ölkəmizdə gedən ictimai-siyasi proseslərdə qadınların rolu barədə qonağa məlumat verdi. Azərbaycanda gender siyasətinin uğurla tətbiq olunduğunu söyləyən Mehriban xanım qadınların Milli Məclisdə və yüksək dövlət vəzifələrində təmsil olunmalarına dair çoxsaylı misallar gətirdi.

Mehriban xanım Əliyeva Azərbaycanda elmin, mədəniyyətin tərəqqisində, mədəni irsin qorunması və təbliğində YUNESKO-nun dəstəyini yüksək qiymətləndirdi.

Xanım Takaka Matsuura Bakıda keçirdikləri görüşlərdən aldığı təəssüratlarını bölüşdü. O, müstəqillik əldə etdikdən sonra Azərbaycanda baş verən

köklü dəyişikliklərin öz ölkəsində maraqla izləndiyini söylədi, YUNESKO-nun Azərbaycana diqqət yetirməsinin təsadüfi olmadığını bildirdi.

*AzərTAc*
*2005, 24 avqust*

## *Bakıda Beynəlxalq Muğam Mərkəzinin təməli qoyulmuşdur*

Avqustun 24-də Bakıda, Dənizkənarı Milli Parkda YUNESKO-nun dəstəyi ilə yaradılan Beynəlxalq Muğam Mərkəzinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Mərasimə toplaşanlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranı və xanımı Takaka Matsuuranı, bu beynəlxalq qurumun nümayəndə heyətinin üzvlərini hərarətli alqışlarla qarşıladılar.

Mərasimi Azərbaycanın mədəniyyət naziri Polad Bülbüloğlu açdı.

Möhtərəm cənab Prezident!
Hörmətli Mehriban xanım!
Hörmətli cənab Matsuura!
Hörmətli xanımlar və cənablar!

Bu gün biz milli ruhumuzun, təfəkkürümüzün ən bariz təcəssümü olan möhtəşəm muğam sənətimizin qorunması istiqamətində növbəti və sözün əsl mənasında, tarixi hadisənin canlı iştirakçılarıyıq.

Bu gün yeni bir musiqi məbədinin – Beynəlxalq Muğam Mərkəzinin təməli qoyulur. Tədbirin müstəsna əhəmiyyətini nəzərə alaraq, Mehriban xanımın dəvəti ilə ölkəmizə gəlmiş YUNESKO-nun Baş direktoru cənab Matsuura və xanımı, YUNESKO-nun dünyada tanınmış bir sıra xoşməramlı səfirləri bizimlədirlər. Mən hörmət-

li qonaqları salamlayır, Azərbaycanın muğam ustaları, musiqiçiləri adından onlara dərin təşəkkürümü bildirirəm. Azərbaycan xalq musiqisinin şah qolu olan muğamlarımızın qədim tarixi var. Əsrlər boyu muğam sənətinin ilkin təravəti, klassik forması və orijinallığı Yaxın Şərq və Orta Asiya ölkələri arasında, demək olar ki, Azərbaycanda qorunub saxlanılmışdır. Dəfələrlə nüfuzlu beynəlxalq forumlarda, festivallarda, müsabiqələrdə, simpoziumlarda səslənən Azərbaycan muğamları həmişə böyük məhəbbətlə, alqışlarla qarşılanmış, onu yaradan xalqın qüdrətini bir daha sübut etmişdir.

Xalqımızın canına, qanına hopmuş, daxili dünyasının ayrılmaz hissəsi olan muğam sənəti 2003-cü ildə YUNESKO-nun tərtib etdiyi «Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri» siyahısına daxil edilmişdir.

Azərbaycan muğamları bu gün də yaşayır və inkişaf edir. Əlbəttə, muğamları yaşadan və inkişaf etdirən – onun ifaçılarıdır. Onların sırasında bütün dünyada tanınan adlar vardır.

Muğam aləmində Qarabağ muğam məktəbi xüsusi yer tutur və təsadüfi deyil ki, bu yaxınlarda Mehriban xanımın təşəbbüsü və rəhbərliyi ilə «Qarabağ xanəndələri» adlı çox nəfis bir albom buraxılmış və onun təntənəli təqdimatı keçirilmişdir.

Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri seçilməsi ilə muğamlarımızın qorunması və təbliği yeni vüsət tapmışdır. Məhz Mehriban xanımın təşəbbüsü ilə Azərbaycan Dövlət Filarmoniyasında xalq musiqisi ifaçılarının silsilə konsertləri təşkil olunur, muğam ustaları ilə işgüzar görüşlər keçirilir. Azərbaycan mədəniyyətinə, incəsənətinə daim qayğı və diqqət göstərən Mehriban xanımın muğam ustalarına verdiyi dəstək onları ruhlandırır, yeni uğurlara səfərbər edir!

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev xalq musiqisinə, xüsusilə muğam sənətçi-

lərinə daim qayğı göstərir. Muğamlarımızın yaşaması, qorunması və dünyada tanınması üçün bu gün təməlini qoyduğumuz Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında sərəncam, muğam ifaçılarının böyük bir hissəsinin yüksək mükafatlara, fərdi təqaüdlərə, fəxri adlara layiq görülməsi buna sübutdur.

İnanıram ki, Beynəlxalq Muğam Mərkəzi bu canlı və nadir sənətin bütün dünyada təbliği və tanınması, habelə tədqiqi və öyrənilməsi sahəsində nüfuzlu bir mədəniyyət ocağına çevriləcək və bizim hamımız onun keçirəcəyi mötəbər tədbirlərin, konsertlərin, festival və simpoziumların iştirakçısı olacağıq.

Mən buna əminəm və hamınızı bu münasibətlə səmimi qəlbdən təbrik edirəm.

Diqqətinizə görə minnətdaram.

İndi də icazənizlə, sözü YUNESKO-nun musiqi sahəsində qızıl mükafatını alan, Azərbaycan Respublikasının xalq artisti Alim Qasımova verim.

* * *

Görkəmli muğam ustası, Azərbaycan muğamlarının dünyada tanıdılması işində böyük xidmətləri olan xalq artisti Alim Qasımov mərasim iştirakçılarını, xarici qonaqları bütün muğamseverlər adından salamlayaraq dedi ki, mən bu ulu sənətin yolçusu kimi çox sevinirəm. Bakının çox gözəl yerində Beynəlxalq Muğam Mərkəzinin bünövrəsi qoyulur. Ona görə bu işin təşəbbüsçülərinə, bu işdə böyük kömək edənlərə minnətdarlığımızı bildirirəm. Xalqımızın bir bayatısını xatırlatmaq istəyirəm:

Əzizim bizim qala,
Həmişə bizim qala.
Tikmədim, özüm qalam,
Tikdim ki, izim qala.

Çox sağ olun, minnətdaram.

**YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın çıxışı**

– Zati-aliləri cənab Prezident!
Hörmətli xanım Əliyeva!
Hörmətli mədəniyyət naziri!
Hörmətli qonaqlar!
Hörmətli dostlar, xanımlar və cənablar!

Mən bugünkü təməlqoyma mərasimində iştirakımdan dərin məmnunluq hissi duyuram. Sizinlə birgə bu mərasimdə iştirak etməyimdən çox şadam.

Yaradılacaq Beynəlxalq Muğam Mərkəzi, şübhəsiz ki, öz töhfəsini verəcəkdir. Mədəniyyət nazirinin dediyi kimi, 2003-cü ilin noyabr ayında Azərbaycan muğamının 28 əsəri qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Bu da YUNESKO-nun İkinci Bəyannaməsində əks olunmuşdur. Bildiyiniz kimi, bu ilin mart ayından sentyabr ayına qədər Yaponiyada beynəlxalq sərgi keçirilmişdir və mən orada qərar qəbul etdim ki, iyulun 27-də həmin sərgidə BMT günü qeyd olunsun.

BMT günü zamanı mən dünyanın qeyri-maddi mədəni irsi siyahısına daxil olan əsas musiqi əsərləri sırasında məhz Azərbaycan muğamının da səsləndirilməsi, təqdim olunması qərarına gəlmişdim və bu mərasim çox yaxşı təşkil edilmişdi.

Xanım Mehriban Əliyevaya mən xüsusi minnətdarlığımı bildirirəm ki, Azərbaycanın muğam ustalarından ibarət bir qrupun həmin vaxt Yaponiyaya göndərilməsinə öz yardımını göstərdi. Buna görə də ona ürəkdən minnətdaram. Orada muğamı dinləyən bütün yaponlar, ümumiyyətlə, digər ölkələrdən gəlmiş sərgi iştirakçıları bundan çox böyük və xoş təəssürat aldılar.

Mən bu gün buraya gəlməmişdən əvvəl İçərişəhərdə oldum. Onu da deyim ki, İçərişəhər də bu günlərdə dünyanın mədəni irsi siyahısına daxil edilmişdir. Bu təşəbbüs maddi mədəniyyət abidələrinin qorunmasına dair 1972-ci üdə qəbul olunmuş Konvensiya çərçivəsində qaldırılmışdır. Bu Konvensiya şifahi və qeyri-maddi

mədəni irsə aid deyildir. Bunu nəzərə alaraq, YUNESKO 2003-cü ildə qeyrı-maddi mədəni dəyərlərin qorunması ilə bağlı yeni bir Konvensiya qəbul etdi. Bu Konvensiyanın müddəalarına uyğun olaraq, Azərbaycan muğamı da qeyri-maddi mədəni dəyərlərin biri kimi, həmin Konvensiyanın əks etdirdiyi siyahıya daxil olundu.

Azərbaycan muğamının əsas əsərləri bundan sonra qorunmağa başlandı. Mən sizə məlumat vermək istəyirəm ki, bu proses davam edəcək və bu siyahıya gələcəkdə muğam sahəsində yeni əsərlər də daxil olunacaqdır.

YUNESKO maddi və qeyri-maddi mədəni irslərin qorunmasında çox qətiyyətlidir, əzmlidir. Bu mənada adlarını çəkdiyim iki konvensiya hüquqi baxımdan çox mühüm sənədlərdir!

Beynəlxalq Muğam Mərkəzi muğamın təbliğ olunmasında, onun tam qorunmasında və dünyada daha da tanıdılmasında xüsusilə əhəmiyyətli rol oynayacaqdır. İnanırıq ki, bu nümunəyə uyğun olaraq, bütün dünyada qeyri-maddi mədəni irsin qorunmasına daha da böyük diqqət yetiriləcəkdir.

Bu gün burada cənab Prezident İlham Əliyevlə, xanım Mehriban Əliyeva və YUNESKO-nun xoşməramlı səfirləri ilə birlikdə təməlqoyma mərasimində iştirak etməkdən böyük məmnunluq duyduğumu bir daha ifadə edirəm. Sağ olun.

* * *

Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

## Azərbaycan Prezidenti İlham Əliyevin mərasimdə nitqi

YUNESKO-nun hörmətli Baş direktoru cənab Matsuura!

Hörmətli xanım Matsuura! Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən sizi bir daha salamlayıram və bu gün Beynəlxalq Muğam Mərkəzinin təməl daşının qoyulması münasibətilə hamınızı ürəkdən təbrik edirəm. Bu gün böyük bayramdır. Muğam Azərbaycan mədəniyyətinin ən gözəl incisidir.

Azərbaycan musiqisi muğam üzərində qurulmuşdur. Biz öz mədəni irsimizə çox böyük diqqətlə və qayğı ilə yanaşırıq. Azərbaycanın çox zəngin mədəniyyəti var və biz çalışırıq ki, öz mədəniyyətimizi inkişaf etdirək və dünya ictimaiyyətinə daha da yaxşı tanıdaq. Muğam hər bir azərbaycanlı üçün çox əzizdir, doğmadır. Ancaq bu günə qədər Azərbaycanda muğam evi, Muğam Mərkəzi yox idi. Mən çox şadam ki, bu gün təməlini qoyduğumuz bina bir müddətdən sonra öz qapılarını açacaq və Azərbaycanda çox gözəl Muğam Mərkəzi yaradılacaqdır.

Şübhə etmirəm ki, bu mərkəz qısa müddət ərzində tikilib başa çatdırılacaq, dünyanın ən yüksək standartlarına cavab verəcəkdir. Ümid edirəm ki, YUNESKO-nun Baş direktoru cənab Matsuura və dəyərli qonaqlarımız Muğam Mərkəzinin açılış mərasimində də bizimlə bərabər olacaqlar. Bu gün həqiqətən çox böyük bayramdır. Azərbaycan musiqisevərlərinin bayramıdır, muğam ustalarının bayramıdır və bütün Azərbaycan xalqının bayramıdır. Çünki nə qədər ki, muğam var, Azərbaycan xalqı da var.

Bu fürsətdən istifadə edərək, cənab Matsuuraya dərin minnətdarlığımı bildirirəm ki, onun şəxsi təşəbbüsü ilə Azərbaycanın milli irsinin, mədəni irsinin qorunması işində böyük işlər görülübdür. YUNESKO-nun vasitəsilə Azərbaycan öz mədəniyyətini dünya ictimaiyyətinə daha geniş şəkildə təqdim edə bilibdir. Ümid edirəm ki, gələcəkdə YUNESKO ilə Azərbaycan arasında gözəl əməkdaşlıq ənənələri yaşayacaqdır və möhkəmlənəcəkdir. Cənab Matsuuranın Azərbaycanın mədəni irsinin təbliğ olunmasında və YUNESKO tərəfindən qorunmasında müstəsna xidmətləri vardır və bu, Azərbaycanda yüksək qiymətləndirilir. Bu məqsədlə bu gün mənim sərəncamımla cənab Matsuura Azərbaycanın

yüksək mükafatı – «Şöhrət» ordeni ilə təltif olunubdur. Bu münasibətlə sizi bir daha ürəkdən təbrik edirəm.

Əziz dostlar, Beynəlxalq Muğam Mərkəzinin təməlinin qoyulması münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və YUNESKO-nun Baş direktoru Koişiro Matsuura gilizi binanın təməlinə qoydular və ilk beton qarışığı tökdülər. Gilizin içərisindəki kağızda Azərbaycan və ingilis dillərində bu sözlər yazılmışdı: «YUNESKO-nun dəstəyi ilə yaradılan Beynəlxalq Muğam Mərkəzinin təməl daşı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və YUNESKO-nun Baş direktoru Koişiro Matsuura tərəfindən 2005-ci il avqustun 24-də qoyulmuşdur».

Mərasimdə iştirak edən muğam ustaları, mədəniyyət və incəsənət xadimləri Prezident İlham Əliyevlə səmimi görüşdülər, dövlətimizin başçısına və Mehriban xanım Əliyevaya bu tarixi hadisəyə, muğam sənətinə verdikləri yüksək qiymətə görə dərin təşəkkürlərini bildirdilər.

***Xalq qəzeti,***
***2005, 25 avqust***

## *Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu təşkilatın baş direktoru Koişiro Matsuura ilə görüşü*

Sentyabrın 16-da Parisdə Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyəti Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva YUNESKO-nun baş direktoru Koişiro Matsuura ilə görüşmüşdür.

YUNESKO-nun baş direktoru Mehriban xanımı hörmətlə qarşıladı, BMT-nin 60 illiyi ilə əlaqədar Nyu-Yorkda keçirilən tədbirə qatıldığı üçün akademik Yusif Məmmədəliyevin 100 illiyi ilə bağlı yubiley mərasimində iştirak edə bilməməsindən təəssüfləndiyini söylədi. Cənab Matsuura dedi ki, mənə verilən məlumata görə, yubiley tədbirləri yüksək səviyyədə keçmişdir. Baş direktor Azərbaycana son səfərini məmnunluqla xatırlayaraq, ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Mehriban xanıma dərin minnətdarlığını bildirdi. Bakıdakı görüşlərin onda çox gözəl təəssürat yaratdığını söyləyən Koişiro Matsuura YUNESKO ilə Azərbaycan arasındakı əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı.

Mehriban xanım Əliyeva səmimi və xoş sözlərə görə baş direktora təşəkkür etdi, akademik Yusif Məmmədəliyevin yubileyinin Parisdə qeyd olunmasından məmnunluğunu bildirdi. O, YUNESKO ilə Azərbaycan arasında əməkdaşlığın inkişafından razılıqla söhbət açaraq, qarşılıqlı əlaqələrin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyini vurğuladı.

Səmimilik şəraitində keçən görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi edildi.

***AzərTAc***
***2005, 16 sentyabr***

## *YUNESKO İçərişəhər üçün xüsusi komissiya göndərəcək*

*Ötən həftə Azərbaycana rəsmi səfərini başa çatdıran Baş direktor K.Matsuura belə deyib*

Ötən həftənin ən yadda qalan hadisələrindən biri də YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın Azərbaycana üç günlük rəsmi səfəri oldu. Koişiro Matsu-

ura cümə günü Azərbaycanı tərk etdi. YUNESKO Baş direktorunu Heydər Əliyev adına Beynəlxalq Hava Limanında mədəniyyət naziri Polad Bülbüloğlu, «AzAL» Dövlət Şirkətinin prezidenti Cahangir Əsgərov və digər rəsmi şəxslər yola saldı. Bakını tərk etməzdən əvvəl Koişiro Matsuura səfər təəssüratlarını jurnalistlərlə bölüşdü: «Mən çox şadam ki, səfərim uğurla keçdi. Cənab Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevaya, o cümlədən, ölkənizin mədəniyyət və təhsil nazirlərinə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Səfərimin ən böyük uğuru Azərbaycanla YUNESKO arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandumun imzalanmasıdır. Bu sənəd YUNESKO və Azərbaycan arasında bir çox sahələrdə, ilk növbədə, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın yeni mərhələsini açıb. Qobustan tarixi qoruğunun YUNESKO-nun maddi-mədəni abidələr siyahısına daxil edilməsi ilə bağlı Azərbaycana xüsusi ekspertlər qrupu göndərmək niyyətindəyəm».

Koişiro Matsuura YUNESKO tərəfindən qorunan abidələr siyahısına daxil edilmiş İçərişəhərin açınacaqlı durumundan narahatlıq keçirdiyini deyib: «İçərişəhər YUNESKO tərəfindən qorunur. Təəssüf ki, bu nadir maddi irs YUNESKO-nun təhlükədə olan abidələri siyahısına daxildir. İçərişəhəri bu siyahıdan çıxarmaq üçün Azərbaycan və YUNESKO-nun birgə səy göstərməsi vacibdir. Mən geri qayıtdıqdan sonra bu məsələni xüsusi diqqətdə saxlayacağam. İçərişəhərin mövcud durumunu dəyərləndirmək üçün YUNESKO Azərbaycana xüsusi komissiya göndərəcək». Koişiro Matsuura Azərbaycana səfərinin yekunlarına həsr olunmuş hesabat hazırlamaq və təşkilatın müzakirəsinə təqdim etmək niyyətindədir. Qeyd edək ki, Koişiro Matsuuranın Azərbaycana səfəri Heydər Əliyev Fondunun rəhbəri, Azərbaycan Mədəniyyətinin Dostlan Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın dəvəti ilə baş tutub.

***Kino,***
***2005, 31 avqust***

## *Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Fransaya səfəri*

Sentyabrın 13-də Parisdə YUNESKO-nun iqamətgahında görkəmli Azərbaycan alimi akademik Yusif Məmmədəliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Tədbirdə iştirak etmək üçün Parisə gəlmiş Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanı YUNESKO-nun iqamətgahında təşkilatın baş direktorunun xanımı Takaka Matsuura, baş direktorun müavini Valter Erdelen və digər rəsmi şəxslər qarşılamışlar.

Azərbaycanın mədəniyyət naziri Polad Bülbüloğlu foto həvəskarı olan alimin vaxtilə çəkdiyi fotoşəkillərdən ibarət sərgi barədə Mehriban xanım Əliyevaya və qonaqlara məlumat verərək bildirmişdir ki, bu fotolar dünya şöhrətli alimin maraq dairəsinin genişliyini, eyni zamanda Vətəninə, xalqına bağlılığını əks etdirir.

Mehriban xanım və yubiley mərasiminin iştirakçıları Yusif Məmmədəliyevin çəkdiyi fotoşəkillərə maraqla tamaşa etmişlər.

Yubiley mərasimi Y.Məmmədəliyevin həyat və fəaliyyətindən bəhs edən “Zamanın zirvəsi” sənədli filminin nümayişi ilə başlanmışdır.

YUNESKO-nun baş direktoru adından onun müavini Valter Erdelen, habelə Fransa Kimya Cəmiyyətinin prezidenti Arman Latt və Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov mərasimdə çıxış etmişlər. Natiqlər akademik Yusif Məmmədəliyevin 100 illiyinin YUNESKO-nun iqamətgahında keçirilməsinin bu qurum üçün böyük şərəf olduğunu vurğulamış, alimin kimya elminin, müasir neft kimyası sənayesinin inkişafında əvəzsiz xidmətlər göstərdiyini, onun 200-dən artıq elmi məqalənin və 6 monoqrafiyanın müəllifi

olduğunu, alimin ixtirasının məhsulu olan yeni yanacaq texnologiyasının İkinci Dünya müharibəsində qələbənin qazanılmasında böyük rol oynadığını, Sumqayıtda kimya müəssisələrinin yaradılmasında xüsusi əmək sərf etdiyini, ölkəsini beynəlxalq elmi məclislərdə layiqincə təmsil etdiyini vurğulamış, Azərbaycanda Şamaxı astrofizika rəsədxanasının, beş yeni elmi tədqiqat institutunun fəaliyyətə başlamasının məhz Yusif Məmmədəliyevin adı ilə bağlı olduğunu bildirmişlər.

Alimin nəvəsi Yusif Məmmədəliyev çıxışında bu mərasimin təkcə babasının xatirəsinə deyil, bütün Azərbaycan elminə həsr edildiyini, alimin xatirəsinin əbədiləşdirilməsində ulu öndərimiz Heydər Əliyevin böyük xidmətləri olduğunu xüsusi vurğulamışdır. O, babasının adını daşımasından fəxr duyduğunu söyləmiş, belə bir mötəbər tədbirin keçirilməsinə görə YUNESKO-nun baş direktoru Koişiro Matsuuraya və Azərbaycan Prezidenti İlham Əliyevə Məmmədəliyevlər ailəsi adından təşəkkür etmişdir.

YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva mərasimdə çıxış etmişdir.

Tədbirin sonunda Azərbaycan incəsənət ustaları geniş konsert proqramı ilə çıxış etmişlər. Konsert zamanı milli rəqslərimiz ifa olunmuş, Azərbaycanı tərənnüm edən mahnılar səslənmişdir.

Konsertin gedişi zamanı ölkəmizin zəngin tarixi abidələrini, gözoxşayan mənzərələrini, Bakı və Parisin görməli yerlərini əks etdirən sənədli filmlərdən parçalar da nümayiş etdirilmişdir.

Mehriban xanım Əliyeva konsertdən sonra incəsənət ustalarımıza təşəkkürünü bildirmiş, onlarla xatirə şəkli çəkdirmişdir.

Yubiley mərasimindən sonra Azərbaycan mətbəxinin ləziz yeməklərinin təqdim edildiyi ziyafət verilmişdir.

Sentyabrın 16-da Parisdə Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyəti Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban

xanım Əliyeva YUNESKO-nun baş direktoru Koişiro Matsuura ilə görüşmüşdür.

YUNESKO-nun baş direktoru Mehriban xanımı hörmətlə qarşıladı, BMT-nin 60 illiyi ilə əlaqədar Nyu-Yorkda keçirilən tədbirə qatıldığı üçün akademik Yusif Məmmədəliyevin 100 illiyi ilə bağlı yubiley mərasimində iştirak edə bilməməsindən təəssüfləndiyini söylədi. Cənab Matsuura dedi ki, mənə verilən məlumata görə, yubiley tədbirləri yüksək səviyyədə keçmişdir. Baş direktor Azərbaycana son səfərini məmnunluqla xatırlayaraq, ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Mehriban xanıma dərin minnətdarlığını bildirdi. Bakıdakı görüşlərin onda çox gözəl təəssürat yaratdığını söyləyən Koişiro Matsuura YUNESKO ilə Azərbaycan arasındakı əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı.

Mehriban xanım Əliyeva səmimi və xoş sözlərə görə baş direktora təşəkkür etdi, akademik Yusif Məmmədəliyevin yubileyinin Parisdə qeyd olunmasından məmnunluğunu bildirdi. O, YUNESKO ilə Azərbaycan arasında əməkdaşlığın inkişafından razılıqla söhbət açaraq, qarşılıqlı əlaqələrin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyini vurğuladı.

Səmimilik şəraitində keçən görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi edildi.

***AzərTAc***
***2005, 13 sentyabr***

## *Azərbaycan – YUNESKO əlaqələri*

Akademik Yusuf Məmmədəliyevin yubileyi Parisdə, YUNESKO-nun iqamətgahında qeyd edilmişdir.

Parisdə, YUNESKO-nun iqamətgahında görkəmli Azərbaycan alimi akademik Yusuf Məmmədəliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Tədbirdə iştirak etmək üçün Parisə gəlmiş Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanı YUNESKO-nun iqamətgahında təşkilatın Baş direktorunun xanımı Takaka Matsuura, Baş direktorun müavini Valter Erdelen və digər rəsmi şəxslər qarşılamışlar. Azərbaycanın mədəniyyət naziri Polad Bülbüloğlu foto həvəskarı olan alimin vaxtilə çəkdiyi fotoşəkillərdən ibarət sərgi barədə Mehriban xanım Əliyevaya və qonaqlara məlumat verərək bildirmişdir ki, bu fotolar dünya şöhrətli alimin maraq dairəsinin genişliyini, eyni zamanda Vətəninə, xalqına bağlılığını əks etdirir.

Mehriban xanım və yubiley mərasiminin iştirakçıları Yusuf Məmmədəliyevin çəkdiyi fotoşəkillərə maraqla tamaşa etmişlər. Yubiley mərasimi Y.Məmmədəliyevin həyat və fəaliyyətindən bəhs edən «Zamanın zirvəsi» sənədli filminin nümayişi ilə başlanmışdır.

YUNESKO-nun Baş direktoru adından onun müavini Valter Erdelen, habelə Fransa Kimya Cəmiyyətinin Prezidenti Arman Latt və Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti Mahmud Kərimov mərasimdə çıxış etmişlər.

Natiqlər akademik Yusuf Məmmədəliyevin 100 illiyinin YUNESKO-nun iqamətgahında keçirilməsinin bu qurum üçün böyük şərəf olduğunu vurğulamış, alimin kimya elminin, müasir neft kimyası sənayesinin inkişafında əvəzsiz xidmətlər göstərdiyini, onun 200-dən artıq elmi məqalənin və 6 monoqrafiyanın müəllifi olduğunu, alimin ixtirasının məhsulu olan yeni yanacaq texnologiyasının İkinci Dünya müharibəsində qələbənin qazanılmasında böyük rol oynadığını, Sumqayıtda kimya müəssisələrinin yaradılmasında xüsusi əmək sərf etdiyini, ölkəsini beynəlxalq elmi məclislərdə layiqincə təmsil etdiyini vurğulamış, Azərbaycanda Şamaxı Astrofizika Rəsədxanasının, beş yeni elmi-tədqiqat institutunun fəaliyyətə başlamasının məhz Yusuf Məmmədəliyevin adı ilə bağlı olduğunu bildirmişlər.

Alimin nəvəsi Yusuf Məmmədəliyev çıxışında bu mərasimin təkcə babasının xatirəsinə deyil, bütün Azərbaycan elminə həsr edildiyini, alimin xatirəsinin əbədiləşdirilməsində ulu öndərimiz Heydər Əliyevin böyük xidmətləri olduğunu xüsusi vurğulamışdır. O, babasının adını daşımasından fəxr duyduğunu söyləmiş, belə bir mötəbər tədbirin keçirilməsinə görə YUNESKO-nun Baş direktoru Koişiro Matsuuraya və Azərbaycan Prezidenti İlham Əliyevə Məmmədəliyevlər ailəsi adından təşəkkür etmişdir. YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva mərasimdə çıxış etmişdir.

### YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın çıxışı

– Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycanın görkəmli alimi Yusuf Məmmədəliyevin 100 illiyinə toplaşan bütün qonaqları ürəkdən salamlayıram. Bu yubiley bayramının təşkilində əməyi olan hər bir insana, xüsusilə YUNESKO-nun rəhbərliyinə və əməkdaşlarına öz dərin minnətdarlığımı bildirirəm.

Son zamanlar Azərbaycanla YUNESKO arasındakı münasibətlər çox parlaq şəkildə özünü büruzə verir. Bu, çox sevindirici haldır. Bu, keçirilmiş tədbirlərdə, bizim rəsmi və qeyri-rəsmi görüşlərimizdə, YUNESKO-nun Baş direktoru cənab Koişiro Matsuuranın ölkəmizə səfərlərində, ən əsası, adi insanlarda bu quruma olan məhəbbətdə və diqqətdə əks olunur. Mən çox şadam ki, bu gün yubiley mərasimləri həm Azərbaycanda, həm də Fransanın paytaxtı Parisdə keçirilir.

Yusuf Məmmədəliyevin 100 illik yubileyinin YUNESKO-nun təqviminə salınması onun elmi fəaliyyətinə verilən yüksək qiymətdir. Bu insan həm şəxsiyyəti, həm də elmin və təhsilin inkişafı sahəsində gördüyü işləri ilə tarixdə və insanların qəlbində yaşayır. Biz indi deyə bilərik ki, görkəmli Azərbaycan alimi YUNESKO-nun ideyalarına xidmət etmişdir.

Y.Məmmədəliyev sanki bir ömürdə bir neçə həyat yaşamışdır. İlk növbədə, bu, istedadlı alimin tədqiqatçı həyatıdır. O, Azərbaycanda üzvi kimya məktəbinin əsasını qoymuşdur. Onun adı neft elmi və neftə aid olan elmi sahələrlə sıx bağlıdır. Ölkəmizin ən böyük sərvətlərindən olan neft, sanki, bu insana öz sirlərini açmağa qərar vermiş, onun tükənməz enerji mənbəyinə çevrilmişdir. Biz Yusuf Məmmədəliyevin hər hansı tədqiqatına nəzər salsaq, orada belə bir sözə rast gələrik: ilk dəfə. Ona görə də təsadüfi deyil ki, bütün dünya Y.Məmmədəliyevi sanballı tədqiqatçı və novator kimi tanıyır. Yusuf Məmmədəliyevin həyatı mürəkkəb bir dövrə təsadüf etmişdir. İkinci Dünya müharibəsi zamanı o, elmi-tədqiqat işləri ilə bağlı fəaliyyətini davam etdirirdi. XX əsrin 40-cı illərində keçmiş Sovet İttifaqında hasil edilən neftin 70-80 faizi Azərbaycanın payına düşürdü. Ölkəmiz həm təbil ehtiyatları hesabına, həm də elmi potensialı ilə faşizm üzərində qələbənin qazanılmasında çox böyük rol oynamışdı.

Yusuf Məmmədəliyev həm də böyük bir maarifçi həyatı yaşamışdır. Demək olar ki, görkəmli alim müəllimlik istedadına da malik idi. 0, ilk dəfə dərs demək üçün sinfə daxil olanda cəmi 16 yaşı vardı. Azərbaycan Dövlət Universitetinin dosenti, kafedra müdiri, professoru və nəhayət rektoru olarkən belə, o, öyrənmək və öyrətməkdən çox böyük zövq alan bir insan idi. Alimin qoyub getdiyi irs təkcə onun kitablarında və elmi ixtiralarında yox, həm də bir çox gənclərin taleyindədir.

YUNESKO-nun yarandığı 1945-ci ildə Y.Məmmədəliyev Azərbaycan Elmlər Akademiyasının banilərindən biri kimi, onu təsis etmişdir. Qısa bir müddətdən sonra Akademiyanın prezidenti seçilmiş və müasir tələblərə cavab verən elm ocağı yaratmışdır. Bu insanın ömrü təzadlarla da dolu idi. Y.Məmmədəliyev çox sülhsevər insan idi. Lakin onun yaratdığı maddələr inanılmaz gücə malik idi. O, çox təmkinli adam idi. Lakin onun ixtiraları maşınların, təyyarələrin sürətinin artmasına imkan vermişdir. O, olduqca açıqqəlbli bir in-

san idi. Lakin kifayət qədər bağlı cəmiyyətdə yaşayıb-yaradırdı.

Yusuf Məmmədəliyevin ömrü çox qısa, lakin çox parlaq olmuşdur. O, işlədikcə, yaratdıqca, qurduqca yenə də işləməyə, yaratmağa və qurmağa çalışırdı. Sanki harayasa tələsirdi. Kim bilir, bəlkə də qeyri-adi intuisiya ona xəbər verirdi ki, vaxt az, amma görüləsi işlər çoxdur.

Bu gün Y.Məmmədəliyevin 100 illik yubileyinin YUNESKO-da keçirilməsinin çox böyük rəmzi mənası var. Bu insan bütün ömrünü elmə, təhsilə və mədəniyyətə həsr etmişdir. YUNESKO, əslində, bu gün öz sadiq əsgərlərindən birinin yubileyini qeyd edir. Məhz bu mənada mən deyərdim ki, Yusuf Məmmədəliyev xoşbəxt insan idi.

Əziz dostlar, çıxışımın sonunda mən sizi bu bayram münasibətilə bir daha təbrik edirəm. Azərbaycanla YUNESKO-nun əməkdaşlığına yeni uğurlar və böyük gələcək arzulayıram. Çox sağ olun!

Mehriban xanımın çıxışı sürəkli alqışlarla qarşılanmışdır. Tədbirin sonunda Azərbaycan incəsənət ustaları geniş konsert proqramı ilə çıxış etmişlər. Konsert zamanı milli rəqslərimiz ifa olunmuş, Azərbaycanı tərənnüm edən mahnılar səslənmişdir.

Konsertin gedişi zamanı ölkəmizin zəngin tarixi abidələrini, gözoxşayan mənzərələrini, Bakı və Parisin görməli yerlərini əks etdirən sənədli filmlərdən parçalar da nümayiş etdirilmişdir.

Mehriban Əliyeva konsertdən sonra incəsənət ustalarımıza təşəkkürünü bildirmiş, onlarla xatirə şəkli çəkdirmişdir.

Yubiley mərasimindən sonra Azərbaycan mətbəxinin ləziz yeməkiərinin təqdim edildiyi ziyafət verilmişdir.

***Əsgər ƏLİYEV***
***Azərbaycan,***
***2005, 15 sentyabr***

## *Parisdə YUNESKO-nun iqamətgahında akademik Yusuf Məmmədəliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli mərasim*

Sentyabrın 13-də Parisdə YUNESKO-nun iqamətgahında görkəmli Azərbaycan alimi akademik Yusuf Məmmədəliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Tədbirdə iştirak etmək üçün Parisə gəlmiş Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanı YUNESKO-nun iqamətgahında təşkilatın baş direktorunun xanımı Takaka Matsuura, baş direktorun müavini Valter Erdelen və digər rəsmi şəxslər qarşılamışlar.

Azərbaycanın mədəniyyət naziri Polad Bülbüloğlu foto həvəskarı olan alimin vaxtilə çəkdiyi fotoşəkillərdən ibarət sərgi barədə Mehriban xanım Əliyevaya və qonaqlara məlumat verərək bildirmişdir ki, bu fotolar dünya şöhrətli alimin maraq dairəsinin genişliyini, eyni zamanda Vətəninə, xalqına bağlılığını əks etdirir.

Mehriban xanım və yubiley mərasiminin iştirakçıları Yusuf Məmmədəliyevin çəkdiyi fotoşəkillərə maraqla tamaşa etmişlər.

Yubiley mərasimi Y.Məmmədəliyevin həyat və fəaliyyətindən bəhs edən "Zamanın zirvəsi" sənədli filminin nümayişi ilə başlanmışdır.

YUNESKO-nun baş direktoru adından onun müavini Valter Erdelen, habelə Fransa Kimya Cəmiyyətinin prezidenti Arman Latt və Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov mərasimdə çıxış etmişlər. Natiqlər akademik Yusuf Məmmədəliyevin 100 illiyinin YUNESKO-nun iqamətgahında keçirilməsinin bu qurum üçün böyük şərəf olduğunu vurğulamış, alimin kimya elminin, müasir neft kimyası sənayesinin inkişafında əvəzsiz xidmətlər göstərdiyini, onun 200-

dən artıq elmi məqalənin və 6 monoqrafiyanın müəllifi olduğunu, alimin ixtirasının məhsulu olan yeni yanacaq texnologiyasının İkinci Dünya müharibəsində qələbənin qazanılmasında böyük rol oynadığını, Sumqayıtda kimya müəssisələrinin yaradılmasında xüsusi əmək sərf etdiyini, ölkəsini beynəlxalq elmi məclislərdə layiqincə təmsil etdiyini vurğulamış, Azərbaycanda Şamaxı astrofizika rəsədxanasının, beş yeni elmi tədqiqat institutunun fəaliyyətə başlamasının məhz Yusuf Məmmədəliyevin adı ilə bağlı olduğunu bildirmişlər.

Alimin nəvəsi Yusuf Məmmədəliyev çıxışında bu mərasimin təkcə babasının xatirəsinə deyil, bütün Azərbaycan elminə həsr edildiyini, alimin xatirəsinin əbədiləşdirilməsində ulu öndərimiz Heydər Əliyevin böyük xidmətləri olduğunu xüsusi vurğulamışdır. O, babasının adını daşımasından fəxr duyduğunu söyləmiş, belə bir mötəbər tədbirin keçirilməsinə görə YUNESKO-nun baş direktoru Koişiro Matsuuraya və Azərbaycan Prezidenti İlham Əliyevə Məmmədəliyevlər ailəsi adından təşəkkür etmişdir.

YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva mərasimdə çıxış etmişdir.

Tədbirin sonunda Azərbaycan incəsənət ustaları geniş konsert proqramı ilə çıxış etmişlər. Konsert zamanı milli rəqslərimiz ifa olunmuş, Azərbaycanı tərənnüm edən mahnılar səslənmişdir.

Konsertin gedişi zamanı ölkəmizin zəngin tarixi abidələrini, gözoxşayan mənzərələrini, Bakı və Parisin görməli yerlərini əks etdirən sənədli filmlərdən parçalar da nümayiş etdirilmişdir.

Mehriban xanım Əliyeva konsertdən sonra incəsənət ustalarımıza təşəkkürünü bildirmiş, onlarla xatirə şəkli çəkdirmişdir.

Yubiley mərasimindən sonra Azərbaycan mətbəxinin ləziz yeməklərinin təqdim edildiyi ziyafət verilmişdir.

***AzərTAc***
***2005, 15 sentyabr***

## *Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Fransaya səfəri*

Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, BMT-nin Elm, Təhsil və Mədəniyyət Məsələləri Təşkilatının (YUNESKO) xoşməramlı səfiri Mehriban Əliyeva bu qurumun 60 illiyi ilə bağlı keçirilən yubiley tədbirlərində iştirak etmək üçün Parisə gəlmişdir.

YUNESKO-nun iqamətgahında Mehriban xanım Əliyevanı təşkilatın rəsmiləri böyük hörmətlə qarşılamışlar.

Yığıncaqdan əvvəl Mehriban xanım Əliyeva BMT-nin keçmiş baş katibi Butros Butros Qali, ayrı-ayrı vaxtlarda YUNESKO-nun baş direktorları işləmiş Amadu Mathar M.Bov və Federiko Mayor ilə görüşmüşdür.

Təntənəli mərasimdə əvvəlcə bu mötəbər təşkilatın tarixini əks etdirən film göstərilmiş, müxtəlif dünya xalqlarının dilində YUNESKO-nun məram və məqsədləri səsləndirilmişdir.

Yubiley tədbirini giriş sözü ilə açan YUNESKO-nun baş direktoru Koişiro Matsuura dünyanın tanınmış ictimai və siyasi xadimlərinin mərasimdə iştirak etməsini qurumun yüksək nüfuzundan xəbər verdiyini bildirmişdir. O, müxtəlif ölkələrin təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlıq qurmaq məqsədi ilə 1945-ci il noyabrın 16-da yaradılmış təşkilatın – YUNESKO-nun çətin, lakin şərəfli yol keçdiyini xatırlatmış, onun kommunikasıya, mədəniyyət, elm və təhsil kimi mühüm sahələri əhatə etdiyini, insanların formalaşmasında xüsusi rol oynadığını vurğulamışdır. Baş direktor rəhbərlik etdiyi təşkilatın xalqlar arasında hər cür dini və irqi ayrı-seçkiliyi rədd etdiyini, insanların yaratdığı maddi və mədəni irslərə hörmətlə yanaşdığını, dünyanın bütün bölgələrində qeyri-maddi sərvətlərin qorunması, müasir dövrdə mədəniyyətlərin sintezinə,

elm, təhsil və mədəniyyətin inkişafına xüsusi qayğı göstərdiyini bildirmişdir.

Koişiro Matsuura YUNESKO-nun fəaliyyətinin təkcə bu missiya ilə məhdudlaşmadığını diqqətə çatdırmış və demişdir ki, hazırda bəşəriyyətin əsas problemlərindən olan müharibələrə və beynəlxalq terrorizmə “Yox!” deyən YUNESKO-nun əsas məqsədi insan ləyaqətini, insan mənəviyyatını uca tutmaqla, haqq, ədalət və sülh naminə fəaliyyətini genişləndirməklə beynəlxalq mədəni irsin qorunmasına töhfə verməkdir. YUNESKO bu yolda dünya xalqlarının sıx birliyinə daha çox ümid edir.

Ayrı-ayrı ölkələrin nümayəndələri YUNESKO-nun dəstəyi ilə həyata keçirilən layihələrin bütövlükdə dünya mədəni irsinin qorunmasına hərtərəfli təsir göstərdiyini yüksək dəyərləndirmişlər.

Yığıncaqda Ukraynanın Prezidenti Viktor Yuşşenko çıxış etmiş, Fransanın xarici işlər naziri Filip Dust-Blazi, Seneqalın Milli Məclisinin sədri Pan Dion öz ölkələrinin prezidentlərinin təbrik məktublarını oxumuş, YUNESKO-nun Baş Konfransının sədri Musa ben Cəfər ben Hassan qurumun fəaliyyətindən söhbət açmışdır.

Yığıncaq iştirakçıları İordaniyada törədilmiş terror aktları zamanı həlak olmuş insanların xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Sonra YUNESKO-nun baş direktoru adından ziyafət verilmişdir.

Axşam 17 ölkənin incəsənət ustalarının iştirakı ilə maraqlı konsert proqramı göstərilmişdir. Azərbaycanın simfonik orkestrinin ifasında Almaniyada yaşayıb-yaradan həmyerlimiz, bəstəkar Firəngiz Əlizadənin əsəri səslənmişdir. Ölkəmizin incəsənət ustalarının çıxışı diqqətlə dinlənilmiş, sürəkli alqışlarla qarşılanmışdır.

İki yüzə yaxın ölkənin üzv olduğu YUNESKO-nun yubiley tədbirində Azərbaycan incəsənət ustalarının çıxışına xüsusi yer verilməsi ölkəmizin bu təşkilatdakı yüksək nüfuzunun daha bir təsdiqidir.

***AzərTAc***
***2005, 17 noyabr***

## *Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva bu mötəbər təşkilatın 60 illik yubiley tədbirində iştirak etmişdir*

Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, BMT-nin Elm, Təhsil və Mədəniyyət Məsələləri Təşkilatının (YUNESKO) xoşməramlı səfiri Mehriban Əliyeva bu qurumun 60 illiyi ilə bağlı keçirilən yubiley tədbirlərində iştirak etmək üçün Parisə gəlmişdir.

YUNESKO-nıın İqamətgahında Mehriban Əliyevanı təşkilatın rəsmiləri böyük hörmətlə qarşılamışlar. Yığıncaqdan əvvəl Mehriban Əliyeva BMT-nin keçmiş baş katibi Butros Butros Qali, ayrı-ayrı vaxtlarda YUNESKO-nun Baş direktorları işləmiş Amadu Mathar M.Bov və Federiko Mayor ilə görüşmüşdür.

Təntənəli mərasimdə əvvəlcə bu mötəbər təşkilatın tarixini əks etdirən film göstərilmiş, müxtəlif dünya xalqlarının dillərində YUNESKO-nun məram və məqsədləri səsləndirilmişdir.

Yubiley tədbirini giriş sözü ilə açan YUNESKO-nun Baş direktoru Koişiro Matsuura dünyanın tanınmış ictimai və siyasi xadimlərinin mərasimdə iştirak etməsini qurumun yüksək nüfuzundan xəbər verdiyini bildirmişdir. O, 1945-ciil noyabrın 16-da yaradılmış təşkilatın – YUNESKO-nun müxtəlif ölkələrin təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlıq qurmaq məqsədilə çətin, lakin şərəfli yol keçdiyini xatırlatmış, onun kommunikasıya, mədəniyyət, elm və təhsil kimi mühüm sahələri əhatə etdiyini, insanların formalaşmasında xüsusi rol oynadığını vurğulamışdır.

Baş direktor rəhbərlik etdiyi təşkilatın xalqlar arasında hər cür dini və irqi ayrı-seçkiliyi rədd etdiyini, insanların yaratdığı maddi və mədəni irslərə hörmətlə yanaşdığını, dünyanın bütün bölgələrində qeyri-maddi sərvətlərin qorunması, müasir dövrdə mədəniyyətlərin

sintezinə, elm, təhsil və mədəniyyətin inkişafına xüsusi qayğı göstərdiyini bildirmişdir.

Koişiro Matsuura YUNESKO-nun fəaliyyətinin təkcə bu missiya ilə məhdudlaşmadığını diqqətə çatdırmış və demişdir ki, hazırda bəşəriyyətin əsas problemlərindən olan müharibələrə və beynəlxalq terrorizmə «Yox» deyən YUNESKO-nun əsas məqsədi insan ləyaqətini, insan mənəviyyatını uca tutmaqla, haqq, ədalət və sülh naminə fəaliyyətini genişləndirməklə beynəlxalq mədəni irsin qorunmasına töhfə verməkdir.

YUNESKO bu yolda dünya xalqlarının sıx birliyinə daha çox ümid edir. Ayrı-ayrı ölkələrin nümayəndələri YUNESKO-nun dəstəyi ilə həyata keçirilən layihələrin bütövlükdə dünya mədəni irsinin qorunmasına hərtərəfli təsir göstərdiyini yüksək dəyərləndirmişlər. Yığıncaqda Ukraynanın Prezidenti Viktor Yuşşenko çıxış etmiş, Fransanın xarici işlər naziri Filip Dust-Blazi, Seneqalın Milli Məclisinin sədri Pan Dion öz ölkələrinin prezidentlərinin təbrik məktublarını oxumuş, YUNESKO-nun Baş Konfransının sədri Musa ben Cəfər ben Hassan qurumun fəaliyyətindən söhbət açmışdır. Yığıncaq iştirakçıları İordaniyada törədilmiş terror aktları zamanı həlak olmuş insanların xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. Sonra YUNESKO-nun Baş direktoru adından ziyafət verilmişdir. Axşam 17 ölkənin incəsənət ustalarının iştirakı ilə maraqlı konsert proqramı verilmişdir. Azərbaycan simfonik orkestrinin ifasında Almaniyada yaşayıb-yaradan həmyerlimiz, bəstəkar Firəngiz Əlizadənin əsəri səslənmişdir, ölkəmizin incəsənət ustalarının çıxışı diqqətlə dinlənilmiş, sürəkli alqışlarla qarşılanmışdır. İki yüzə yaxın ölkənin üzv olduğu YUNESKO-nun yubiley tədbirində Azərbaycan incəsənət ustalarının çıxışına xüsusi yer verilməsi ölkəmizin bu təşkilatdakı yüksək nüfuzunun daha bir təsdiqidir.

***Əsgər ƏLİYEV***
***Xalq qəzeti,***
***2005, 17 noyabr***

## *YUNESKO-nun 60 illik yubiley tədbiri*

Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, BMT-nin Elm, Təhsil və Mədəniyyət Məsələləri Təşkilatının (YUNESKO) xoşməramlı səfiri Mehriban Əliyeva bu qurumun 60 illiyi ilə bağlı keçirilən yubiley tədbirlərində iştirak etmək üçün Parisə gəlmişdir.

YUNESKO-nun iqamətgahında Mehriban xanım Əliyevanı təşkilatın rəsmiləri böyük hörmətlə qarşılamışlar.

Yığıncaqdan əvvəl Mehriban xanım Əliyeva BMT-nin keçmiş baş katibi Butros Butros Qali, ayrı-ayrı vaxtlarda YUNESKO-nun baş direktorları işləmiş Amadu Mathar M.Bov və Federiko Mayor ilə görüşmüşdür.

Təntənəli mərasimdə əvvəlcə bu mötəbər təşkilatın tarixini əks etdirən film göstərilmiş, müxtəlif dünya xalqlarının dilində YUNESKO-nun məram və məqsədləri səsləndirilmişdir.

Yubiley tədbirini giriş sözü ilə açan YUNESKO-nun baş direktoru Koişiro Matsuura dünyanın tanınmış ictimai və siyasi xadimlərinin mərasimdə iştirak etməsini qurumun yüksək nüfuzundan xəbər verdiyini bildirmişdir. O, müxtəlif ölkələrin təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlıq qurmaq məqsədi ilə 1945-ci il noyabrın 16-da yaradılmış təşkilatın – YUNESKO-nun çətin, lakin şərəfli yol keçdiyini xatırlatmış, onun kommunikasıya, mədəniyyət, elm və təhsil kimi mühüm sahələri əhatə etdiyini, insanların formalaşmasında xüsusi rol oynadığını vurğulamışdır. Baş direktor rəhbərlik etdiyi təşkilatın xalqlar arasında hər cür dini və irqi ayrı-seçkiliyi rədd etdiyini, insanların yaratdığı maddi və mədəni irslərə hörmətlə yanaşdığını, dünyanın bütün bölgələrində qeyri-maddi sərvətlərin qorunması, müasir dövrdə mədəniyyətlərin sintezinə, elm, təhsil və mədəniyyətin inkişafına xüsusi qayğı göstərdiyini bildirmişdir.

Koişiro Matsuura YUNESKO-nun fəaliyyətinin təkcə bu missiya ilə məhdudlaşmadığını diqqətə çatdırmış və demişdir ki, hazırda bəşəriyyətin əsas problemlərindən olan müharibələrə və beynəlxalq terrorizmə "Yox!" deyən YUNESKO-nun əsas məqsədi insan ləyaqətini, insan mənəviyyatını uca tutmaqla, haqq, ədalət və sülh naminə fəaliyyətini genişləndirməklə beynəlxalq mədəni irsin qorunmasına töhfə verməkdir. YUNESKO bu yolda dünya xalqlarının sıx birliyinə daha çox ümid edir.

Ayrı-ayrı ölkələrin nümayəndələri YUNESKO-nun dəstəyi ilə həyata keçirilən layihələrin bütövlükdə dünya mədəni irsinin qorunmasına hərtərəfli təsir göstərdiyini yüksək dəyərləndirmişlər.

Yığıncaqda Ukraynanın Prezidenti Viktor Yuşşenko çıxış etmiş, Fransanın xarici işlər naziri Filip Dust-Blazi, Seneqalın Milli Məclisinin sədri Pan Dion öz ölkələrinin prezidentlərinin təbrik məktublarını oxumuş, YUNESKO-nun Baş Konfransının sədri Musa ben Cəfər ben Hassan qurumun fəaliyyətindən söhbət açmışdır.

Yığıncaq iştirakçıları İordaniyada törədilmiş terror aktları zamanı həlak olmuş insanların xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Sonra YUNESKO-nun baş direktoru adından ziyafət verilmişdir.

Axşam 17 ölkənin incəsənət ustalarının iştirakı ilə maraqlı konsert proqramı göstərilmişdir. Azərbaycanın simfonik orkestrinin ifasında Almaniyada yaşayıb-yaradan həmyerlimiz, bəstəkar Firəngiz Əlizadənin əsəri səslənmişdir. Ölkəmizin incəsənət ustalarının çıxışı diqqətlə dinlənilmiş, sürəkli alqışlarla qarşılanmışdır.

İki yüzə yaxın ölkənin üzv olduğu YUNESKO-nun yubiley tədbirində Azərbaycan incəsənət ustalarının çıxışına xüsusi yer verilməsi ölkəmizin bu təşkilatdakı yüksək nüfuzunun daha bir təsdiqidir.

***AzərTAc***
***2005, 17 noyabr***

## *Xoşməramlı səfir Mehriban Əliyeva: «Azərbaycanla YUNESKO arasında həmişə sıx əməkdaşlıq olub»*

YUNESKO Birləşmiş Millətlər Təşkilatı sistemində ən kütləvi qurumlardan biridir. İndi onun 60 illiyi bayram edilir və bu yubiley təntənələri düz 60 həftə çəkəcək. Bu il sentyabrın 5-də start götürmüş intellektual marafon gələn il noyabrın 5-də finişə çatacaq. Əlbəttə, heç bir məcburiyyət olmadan üzv dövlətlər YUNESKO-nun qrafiki əsasında hər həftə ictimaiyyətin diqqətini ümumbəşəri miqyasda bu və digər mühüm problemə yönəltməyə çalışacaqlar. Məsələn, gələn il iyunun 26-dan iyulun 1-dək söhbət idmanda dopinqlə mübarizədən gedəcək, iyulun 24-də kütləvi informasiya vasitələrində plüralizm həftəsi açılacaq (mövzuların tam mətnini internetdə YUNESKO saytında tapmaq olar). Ötən həftə isə Parisdə rəsmi yubiley tədbirləri keçirildi. Bu təntənəli mərasimdə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva da iştirak edirdi. YUNESKO-nun iqamətgahında böyük hörmətlə qarşılanan Mehriban xanım Əliyeva BMT-nin Baş katibi Koişiro Matsuura, Fransanın xarici işlər naziri, Seneqalın Xalq Toplantısının sədri, YUNESKO-nun sabiq Baş direktorları, habelə Ukraynanın Prezidenti V.Yuşşenko ilə görüşüb. İki yüzə yaxın dövlətin üzv olduğu YUNESKO-nun yubiley yığıncağında cəmi 17 ölkənin, o cümlədən Azərbaycanın incəsənət ustaları maraqlı konsert proqramı göstəriblər. Azərbaycan simfonik orkestri bu mötəbər təşkilatın ölkəmizə yüksək etimadını ləyaqətlə doğruldub. Orkestrin ifasında Almaniyada yaşayıb-yaradan həmyerlimiz, bəstəkar Firəngiz Əlizadənin əsəri səsləndirilib. Dünyanın tanınınış ictimai və siyasi xadimləri artistlərimizin çıxışını heyranlıqla dinləyiblər. Orkestr onların alqışları altında əsəri təkrar ifa etməli olub.

BMT-nin Elm, Təhsil və Mədəniyyət Məsələləri Təşkilatı – YUNESKO 1945-ci il noyabrın 16-da yaradı-

lıb, müxtəlif ölkələrin bu sahələrdə əməkdaşlığını qurmağa xidmət edir. Təşkilat xalqlar arasında hər cür dini və irqi ayrı-seçkiliyin aradan qaldırılmasına çalışır, insanların formalaşmasında xüsusi rol oynayır, bəşəriyyətin maddi və mədəni irsinin, dünyanın bütün bölgələrində qeyri-maddi sərvətlərin qorunması, müasir dövrdə mədəniyyətlərin sintezi, elm, təhsil və mədəniyyətin inkişafı qayğısına qalır. Müharibələrə və beynəlxalq terrorizmə «yox!» deyən, insan ləyaqətini, insan mənəviyyatını uca tutan, haqq, ədalət və sülh naminə çarpışan YUNESKO bu yolda dünya xalqlarının sıx birliyinə daha çox ümid edir.

YUNESKO 1972-ci ildə ümumdünya mədəni və maddi irsininin mühafizəsi üzrə Konvensiya qəbul edib. 1975-ci ildən qüvvədə olan bu Konvensiyanı indiyədək 140-a qədər dövlət təsdiqləyib. Ümumdünya İrs siyahısına artıq Avstraliyada Böyük mərcan sualtı qayaları kimi təbiət möcüzəsi də daxil olmaqla Hindistanda Tac-Mahaldan Malidə qədim Tinibuktu şəhərinədək 812 obyekt salınıb. YUNESKO Kambocanın qədim paytaxtı Anqkor və Mərakeşin Fes şəhəri kimi nadir mədəniyyət abidələrinin, Varşavanın tarixi mərkəzinin, Moskva Kremlinin və Qızıl meydanın, Brazilia və Venesiya şəhərlərinin, ABŞ-da Yelloustoun milli parkının mühafizəsinə texniki kömək göstərir, dünyada ən zəngin mədəni irsə malik Əfqanıstanda yeni layihə həyata keçirir. Müstəqil Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür, bu il YUNESKO-nun İcra Şurasının üzvü seçilib. İndi Şuranın tərkibində 58 üzv ölkədən biri olan Azərbaycanın YUNESKO qərarlarının işlənib hazırlanmasında, beynəlxalq humanitar əməkdaşlıq vasitələri ilə xarici siyasət məsələlərinin həllində onun nüfuzundan və intellektual gücündən istifadə etmək imkanları artıb. Söhbət həm də konkret layihələrin Azərbaycan ərazisində reallaşmasından, bu layihələrə Azərbaycan ekspertlərinin intellektual və informasiya töhfəsindən gedir. YUNESKO-nun belə elmi layihələrinə Hökumətlərarası Okeanoqrafiya Komissiyası, Beynəlxalq Hidroloji

Proqram, Fundamental elmlər üzrə Beynəlxalq Proqram, «İnsan və biosfera» proqramı, Beynəlxalq Geologiya Proqramı və sair daxildir. Eyni zamanda YUNESKO 2005-ci ildə hamı üçün təhsil təşəbbüsünü irəli sürüb. Bu təşəbbüsdə onun davamlı inkişaf layihəsinə yönəldilmiş təhsil proqramının yerinə yetirilməsi çox önəmli yer tutur. Proqramda 2005-2014-cü illərdə təhsil onilliyinin keçirilməsi qərara alınıb və YUNESKO bu sahədə aparıcı təşkilatlardan biridir. Bu ilin avqustunda Bakıda keçirilən «YUNESKO-Azərbaycan: Gələcəyə körpü» konfransı da davamlı inkişafa yönəldilmiş təhsil onilliyinin əsas məqsədlərini Azərbaycanda tətbiq etmək niyyəti güdürdü. YUNESKO-nun Baş direktoru Koişiro Matsuura konfransda çıxışında bəyan etdi: «Bilirik ki, Azərbaycan bu təşəbbüsə qoşulan əsas tərəfdaşlardan biri olacaq və davamlı inkişafa yönəldilmiş proqramları dəstəkləyəcək. Bu il Prezident İlham Əliyev tərəfindən yüksək səlahiyyətlərə malik Təhsil Komissiyası yaradılıb. Komissiyanın başlıca vəzifəsi təhsilin bütün aspektlərini yaxşılaşdırmaq və dünya standartlarına uyğun şəklə gətirməkdir. Bunun üçün Azərbaycanda mövcud olan təhsil sisteminin güclü və zəif tərəfləri dərindən öyrəniləcək və təhsilin yaxşılaşdırılmasına dair işlərin istiqamətləri müəyyənləşdiriləcək... Öz tərəfimizdən sizə islahatlarınızda hərtərəfli yardım göstərəcəyik. Son müzakirələrimizin yekunu olaraq Azərbaycan hökuməti ilə əməkdaşlığa dair Memorandum imzalayacağıq. Bizim əsas prioritetlərimiz strateji planlaşdırma və təhsilin idarə olunması, təhsil almaq imkanlarında bərabərlik, təhsilin keyfiyyəti, əsas texniki və peşə vərdişləri, yüksək informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, təhsildə beynəlxalq əməkdaşlıqdır. Konfransın nəticələrinə əsasən YUNESKO-nun gələcəkdə Azərbaycana yardımının istiqamətlərini müəyyənləşdirəcəyik».

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva müsa-

hibəsində «YUNESKO-Azərbaycan: Gələcəyə körpü» konfransının adının çox rəmzi və böyük məna daşıdığını vurğulayaraq bildirdi:

– Azərbaycanla YUNESKO arasında həmişə sıx əməkdaşlıq olub. Bu konfrans əməkdaşlığımıza yeni təkan verəcək, biz birlikdə gələcəyə körpü salmağa nail olacağıq. Bu körpünün dayaqları çoxdan qoyulub və kifayət qədər möhkəmdir. Azərbaycanın bir sıra görkəmli şəxsiyyətlərinin yubileyləri YUNESKO-nun təqviminə salınıb və bəşəriyyət üçün böyük əhəmiyyətli hadisə kimi qeyd edilir. Dahi Məhəmməd Füzulinin 500, «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileylərinin yekun tədbirlərində YUNESKO-nun Baş direktoru cənab Matsuura da iştirak edib və hər iki yubileylə bağlı YUNESKO-nun iqamətgahında tədbirlər keçirilib. Azərbaycan YUNESKO-nun bir sıra elm, təhsil və mədəniyyət proqramlarında fəal iştirak edir, YUNESKO Azərbaycana aid məsələlərin yoluna qoyulmasından kənarda qalmır. Azərbaycanda təhsil sisteminə həsr edilmiş bu konfransın hazırlanmasına da YUNESKO xüsusi qayğı və diqqət göstərib: əvvəl öz ekspertlərini ölkəmizə göndərmişdi, sonra Parisdə ilkin tədbir oldu, cənab Matsuuranın və xoşməramlı səfirlərin iştirakı ilə Bakıda başa çatdırıldı. Biz cənab Matsuuranın Azərbaycana səfəri zamanı ölkəmizin bir sıra maddi və qeyri-maddi irsinin qorunmasına dair müzakirələr apardıq. Məlumdur ki, YUNESKO İçərişəhəri, Qız qalasını çox nadir memarlıq incisi kimi dünya mədəni irsi siyahısına salıb, Azərbaycan muğamını bəşəriyyətin şah əsərləri sırasına daxil edib. Azərbaycan musiqi mədəniyyətinin muğam kimi əhəmiyyətli olan başqa bir qolunun – aşıq sənətinin də YUNESKO-nun qeyri-maddi irs siyahısına salınması vacib, zəruridir. Elə meyxananın da. Bu sənətin qədimdə böyük ənənələri olub və indi də istedadlı davamçıları var, amma fəlsəfəsi və tarixi yetərincə öyrənilməyib. Çox ümid bəsləyirəm ki, Ümumdünya İrs Komitəsinin gələn ilin yayında keçiriləcək növbəti toplantısında Qobustan Dövlət Tarixi-Bədii Qoruğunun da

dünya mədəni irsi siyahısına düşməsi öz müsbət həllini tapacaq.

YUNESKO-nun Baş direktoru Koişiro Matsuura da müsahibəsində buna tam əminliyini ifadə edərək dedi:

– Qobustanın namizədliyi artıq gündəlikdə durur. Lakin YUNESKO-nun iki əsas tələbi var və onlar yerinə yetirildikdən sonra Qobustanın adı dünya mədəni irsi siyahısına salınacaq. Bu tarixi qoruq şəxsən mənə xoş, unudulmaz təəssürat bağışladı. Daşlarda, qayalarda təsvirləri görməkdən məmnun oldum. Azərbaycana ikinci səfərimdən çox razıyam. Birinci, 2002-ci il səfərimdən də razı qalmışdım, lakin bu dəfə görüşlərimiz daha səmərəli, daha faydalı keçdi. Sizin ən ağrılı probleminiz Qarabağ münaqişəsidir. Bu münaqişə tezliklə dinc yolla, sülh yolu ilə öz həllini tapmalıdır. Mən bir milyondan artıq azərbaycanlı qaçqının, məcburi köçkünün son dərəcə ağır və çətin vəziyyətdə yaşamasından məyusluğumu bildirirəm. İnanıram ki, bu məsələ BMT-nin məlum qətnamələri əsasında həll olunacaq və YUNESKO işğaldan azad edilmiş Azərbaycan abidələrinin də qorunması ilə bağlı qəti tədbirlər görəcək.

YUNESKO-nun baniləri (onun əsasını İkinci Dünya müharibəsi illərində müttəfiq ölkələrin maarif nazirləri qoyublar) yəqin təsəvvürlərinə də gətirə bilməzdilər ki, dövlətlərin və sistemlərin ən qanlı qarşıdurması qurtardıqdan 60 il sonra özgə torpaqlarına təcavüz edən, məktəbləri, xəstəxanaları, mədəniyyət abidələrini dağıdan quvvələr tapılacaq. Lakin tapıldı və indi YUNESKO özünün bütün intellektual, mənəvi potensialını işə salıb Yer üzündə qaynar nöqtələrin hamısında alovun söndürülməsini, bütün münaqişələrə son qoyulmasını bərqərar etməlidir.

***Bariz ƏSƏDOV,***
***Azərbaycan,***
***2005, 27 noyabr***

## *Parisdə YUNESKO-nun xoşməramlı səfirlərinin yığıncağı*

Martın 15-də YUNESKO-nun iqamətgahında xoşməramlı səfirlərin illik yığıncağı keçirildi. Mehriban xanım Əliyevanı YUNESKO-nun protokol rəhbəri Jan Lui Şan və xoşməramlı səfirlər proqramının başçısı xanım Basma İrşeid qarşıladılar.

Yığıncaq başlamazdan əvvəl YUNESKO-nun baş direktoru Koişiro Matsuura Mehriban xanım Əliyevanı Azərbaycan parlamentinin deputatı seçilməsi münasibətilə bir daha təbrik etdi. Xoşməramlı səfirlər də Mehriban xanımı təbrik etdilər və deputatlıq fəaliyyətində müvəffəqiyyətlər arzuladılar.

Sonra yığıncaq başlandı. Yığıncağı giriş sözü ilə açan YUNESKO-nun baş direktoru Koişiro Matsuura yenidən bu vəzifəyə seçilməsi münasibətilə ona təbrik məktubu göndərənlərə minnətdarlığını bildirdi, yığıncağın gündəliyi barədə məlumat verdi. O, ötən il ərzində mədəniyyət, elm və təhsil sahəsində görülmüş işlərdən danışdı, dünyanı narahat edən problemlərin aradan qaldırılmasında YUNESKO-nun yaxından iştirakından bəhs etdi və bu sahədə əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğuladı.

YUNESKO-nun əsas prinsiplərindən biri olan mədəni və bəşəri irslərin qorunmasında 30 xoşməramlı səfirin gördüyü işlərə toxunan baş direktor Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyevanın xüsusi xidmətlərini qeyd etdi və ona təşəkkürünü bildirdi. Koişiro Matsuura YUNESKO tərəfindən həyata keçirilən “Hamı üçün təhsil” layihəsinin müvəffəqiyyətlə reallaşdırıldığını xatırlatdı.

Yığıncaqda çıxış üçün söz Mehriban xanım Əliyevaya verildi.

## YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çıxışı

– Hörmətli baş direktor!

Hörmətli xoşməramlı səfirlər!

Xanımlar və cənablar!

Bu, YUNESKO-nun 60 illiyini qeyd etdikdən sonra bizim ilk görüşümüzdür. 60 il ərzində bu təşkilat özünün ən yüksək ideyalarına xidmət etmişdir. Həmin müddət ərzində gözəçarpacaq nailiyyətlər əldə olunmuş, böyük işlər görülmüş və bir çox mühüm layihələrdə uğurlar qazanılmışdır.

Cənab Matsuura, icazə verin, YUNESKO-nun 60 illiyi münasibətilə sizi bir daha səmimi qəlbdən təbrik edim və bütün YUNESKO ailəsinə təhsilin, mədəniyyətin və elmin inkişaf etdirilməsində uğurlar arzulayım, müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında konstruktiv dialoqun daha da möhkəmləndirilməsində nailiyyətlər diləyim.

YUNESKO-nun baş direktorunun rəhbərlik etdiyi böyük bir nümayəndə heyətinin qurumun 60 illiyi ərəfəsində Azərbaycana səfəri ölkəmizin tarixində daim yaşayacaqdır. Buna görə də mən öz səmimi minnətdarlığımı, nümayəndə heyətinin tərkibində Azərbaycana səfər etmiş xoşməramlı səfirlərə səmimi qəlbdən təşəkkürümü bildirirəm. Biz onlarla birlikdə təhsil problemlərini müzakirə etdik. Çünki bu problemlər hər bir ölkənin gələcəyi üçün çox vacibdir.

Biz birlikdə tarixi Qobustana səfər etdik. Tanınmış Norveç alimi Tur Heyerdalın dediklərinə görə, Qobustan bizim hamımızın eyni köklərə, eyni keçmişə malik olduğumuzu sübut edir. Biz Suraxanıda Atəşgahda təşkil olunmuş gözəl konsert dinlədik və bu tarixi Atəşgah onu nümayiş etdirir ki, Azərbaycan müxtəlif mədəniyyətlərə məxsus irsi lazımınca qorumaq iqtidarında olmuşdur.

Biz hamımız Muğam Mərkəzinin təməl daşını qoyduq və ümidvaram ki, yaxın gələcəkdə biz onun açılış mərasimində iştirak edəcəyik.

Mən bütün həmkarlarımı məlumatlandırmaq istəyirəm ki, rəhbərlik etdiyim Heydər Əliyev Fondu Azərbaycanda öz fəaliyyətini genişləndirmişdir. 2005-ci ilin mart ayında keçirilmiş illik konfrans zamanı bildirdim ki, YUNESKO-nun tədbirlərində iştirak etmiş hər kəs "Hamı üçün təhsil" proqramının vacibliyini, onun həyata keçirilməsinin əhəmiyyətini lazımınca qeyd etmişdir. Lakin, eyni zamanda, mən xüsusilə aydın şəkildə vurğulamaq istəyirəm ki, dünyanın hər bir güşəsində bu proqramın həyata keçirilməsi müxtəlif millətlərə qeyri-tarazlı münasibətdən, yanaşmadan azad olmalıdır. Misal üçün, önəmli bir faktdır ki, YUNESKO-nun işçi qrupu Azərbaycanda qaçqın və məcburi köçkünlərin uşaqlarının təhsil problemlərinin həllinə yardım etmək üçün ölkəmizə gəlmişdir.

Nəhayət, 2006-cı ildə həyata keçirdiyimiz ilk layihə iki xoşməramlı səfir tərəfindən təşkil olunmuş festival oldu. Bu, Mstislav Rostropoviçlə həyata keçirdiyimiz birgə layihə idi. Fevralın 20-dən etibarən bir həftə ərzində biz Azərbaycanda dünya şöhrətli bəstəkar Dmitri Şostakoviçin 100 illiyini qeyd etdik. Mən belə gözəl musiqi bayramına görə, festivaldan dərhal sonra Azərbaycanda qızılcaya qarşı aparılmış genişmiqyaslı peyvənd kampaniyasına görə Mstislav Rostropoviçə bu gün öz dərin minnətdarlığımı bildirirəm.

Hörmətli dostlar, mən sizi bir daha görməyimdən çox şadam. Sizə çoxlu uğurlar, möhkəm cansağlığı və səadət arzulayıram.

***AzərTAc***
***2006, 15 mart***

## *Parisdə "Qeyri-maddi mədəni irsin qorunması haqqında" konvensiyanı ratifikasiya etmiş ölkələrin baş assambleyasının ilk iclası*

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyanı ratifikasiya etmiş ölkələrin Baş Assambleyasının YUNESKO-nun mədəniyyət bölməsinin təşəbbüsü ilə keçirilmiş ilk iclasında iştirak etmək üçün iyunun 26-da Parisə gəlmişdir. Mehriban xanım Əliyeva YUNESKO-nun baş direktoru tərəfindən yığıncağa dəvət olunmuş yeganə xoşməramlı səfirdir.

YUNESKO-nun iqamətgahına gələn Mehriban xanımı qurumun xoşməramlı səfirlər proqramının rəhbəri Basma İrşeyd, protokol rəhbəri Jan-Lük Şan və Azərbaycanın YUNESKO yanındakı daimi nümayəndəliyinin başçısı, səfir Eleonora Hüseynova qarşıladılar.

Yığıncağı giriş sözü ilə baş direktorun mədəniyyət üzrə köməkçisi Fransuaz Ribiyer açdı.

YUNESKO-nun baş direktoru Koişiro Matsuura qonaqları, o cümlədən ölkəmizdə şifahi mədəni irsin qorunması və inkişaf etdirilməsində xüsusi xidmətləri olan, yeganə xoşməramlı səfir kimi belə mötəbər tədbirdə iştirak edən Mehriban xanım Əliyevanı salamladı.

Mehriban xanım Əliyeva iclasda çıxış etdi.

### Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çıxışı

– Cənab baş direktor,

Xanımlar və cənablar!

İlk növbədə, qeyri-maddi mədəni irsin qorunması haqqında Konvensiyanın qüvvəyə minməsi kimi əlamətdar hadisə münasibətilə sizin hamınızı təbrik etmək istəyirəm.

Mən iştirakçı dövlətlərin Baş Assambleyasında iştirak etmək üçün dəvətinə, eləcə də bu Konvensiyanın üzv dövlətlər tərəfindən tezliklə ratifikasiyasına yönəlmiş səylərinə görə YUNESKO-nun baş direktoru Koişiro Matsuuraya minnətdarlığımı bildirirəm.

Qeyri-maddi mədəni irs dünya xalqlarının genetik əsasını təşkil edir. Həmin əsas əsrlər boyu qurulmuş və xalqların, etnik qrupların formalaşmasında, özlərinin ümumiliyinin dərk edilməsində və sonra isə millətlərin və dövlətçiliyin formalaşmasında vacib rol oynamışdır.

Bu gün, biz dünya xəritəsində bir çox millətlərin yaşadığı 190-dan çox dövlət görürük. Onların hər birinin özündə maddi və qeyri-maddi mədəni dəyərləri birləşdirən özünəməxsus tarixi irsi var. Hər bir dövlətin vəzifəsi nəinki həmin dəyərlərin qorunması, həm də yeni nəsillərin həmin dövlətin özünəməxsus adət və ənənələri əsasında tərbiyələndirilməsi üçün şərait yaradılmasından ibarət olmalıdır.

Bəşəriyyətin hazırkı inkişaf mərhələsi insanın praktik olaraq, bütün fəaliyyət sahələrini əhatə etmiş qloballaşma ilə səciyyələnir. Təbii ki, qloballaşma özü ilə bir çox üstünlüklər gətirir və bəşəriyyət qarşısında duran problemlərin həlli üçün yeni imkanlar açır. Xüsusən də müxtəlif mədəniyyətlərin bir-birinə qovuşması və hər mədəniyyətin bütün bəşəriyyət üçün dəyərinin qavranılması baş verir. Lakin, eyni zamanda, qloballaşma yeni təhdidlər və çağırışlarla müşayiət olunur. Onlardan ən təhlükəlisi isə stereotiplərin diktə olunmasıdır. Bunların sırasında ən zəifi məhz qeyri-maddi mədəni dəyərlərdir. Bu gün nəinki incəsənət əşyalarının, həm də adət-ənənələrin, ritualların, yəni mədəniyyətin ən qədim ifadə formasının qorunmasına ehtiyac duyulur.

Bu, həmçinin yaranmış qeyri-dözümsüzlük, dinlərarası toqquşma, terrorçuluq və ekstremizm meyilləri qarşısında mühüm əhəmiyyət kəsb edir. Bir çox hallarda, həmin meyillərin əsasında mədəni bələdçi istiqamətlərin və dəyərlərin itirilməsi durur. Bütün sivil xalq-

lar bu bəlaya qarşı mübarizədə öz səylərini birləşdirməlidir, çünki bu maneəni yalnız birbaşa və səmimi dialoq vasitəsilə aradan qaldırmaq olar.

Bu baxımdan, Konvensiyanın qüvvəyə minməsi bəşəriyyətin mədəni irsinin qorunub saxlanılmasına yönəlmiş və vaxtında atılmış addımdır.

"Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiya dünya mədəniyyətinə böyük töhfə vermiş Azərbaycan xalqı üçün də böyük əhəmiyyət daşıyır.

Azərbaycan qədim ölkədir, lakin gənc müstəqil dövlətdir. Azərbaycanın əsrlər boyu qorunmuş və saxlanılmış mədəni irsi, ənənələrimiz, musiqimiz, dilimiz, adətlərimiz siyasi sabitliklə birlikdə bizim müstəqilliyimizin təminatçısıdır. Azərbaycan muğamı 2003-cü ildə bəşəriyyətin şifahi və qeyri-maddi irsi incilərinin siyahısına daxil edilmişdir. Muğam qədim incəsənətdir və onun dərin fəlsəfəsi bir nəsildən digər nəslə ötürülməlidir. Xalq yaradıcılıq sənətinin qorunması, bərpası və inkişafı Azərbaycanda dövlətin mədəniyyət siyasətinin prioritetlərindən biridir.

Azərbaycan çoxmillətli ölkədir və bu, xalqımızın sərvətidir. Milli azlıqların mədəniyyətinin inkişafı daim dövlətin diqqət mərkəzindədir. Müxtəlif dinlərə aid bütün tarixi abidələr dövlət tərəfindən qorunur və saxlanılır. Azərbaycanlıların dini dözümlülüyü dünyada yaxşı məlumdur və yüksək qiymətləndirilir.

Mən iclas iştirakçılarını məmnunluq hissi ilə məlumatlandırmaq istəyirəm ki, Konvensiyanın ratifikasiya prosesi Azərbaycanda son mərhələdədir və yaxın gələcəkdə bizim ölkəmiz həmin Konvensiyanın iştirakçısı olan dövlətlərin siyahısına daxil olacaqdır.

Bu gün dünyada münaqişələr mövcuddur, müharibələr gedir. Bütün bəşəriyyətə məxsus olan tarixi və mədəni dəyərlər məhv edilir. Bir çox şeylər birdəfəlik itirilir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində xalqımızın yüzlərlə qədim memarlıq və mədəniyyət abidələri dağıdılıbdır. Ənənəvi olaraq, ən yaxşı muğam ustalarının

doğulub boya-başa çatdığı şəhərlər bu gün tamamilə yerlə-yeksan edilibdir. Bununla bağlı, icazə verin, münaqişələr zonalarında yerləşən mədəni və tarixi abidələrin taleyinə beynəlxalq təşkilatlar və bütövlükdə, dünya ictimaiyyətinin daha böyük diqqətinin vacibliyini bir daha vurğulayım. Mədəni irsə qarşı təcavüz qəbuledilməzdir. Öz mədəniyyətinə hörmət edərək və onu qoruyaraq, eyni zamanda, ümumbəşər və dünya mədəniyyətinə də hörmətlə yanaşmaq və onu qorumaq vacibdir.

Hörmətli dostlar!

Bu gün dünyada cərəyan edən hadisələrlə bağlı birmənalı yekun fikirlər söyləmək kifayət qədər çətindir. Lakin bir məsələ tam aydındır: mədəniyyət daha geniş anlamda müasir cəmiyyətin bir çox problemlərini həll edə biləcək universal vasitədir. Buna görə də bəşəriyyətin mədəni irsinin qorunması və saxlanılması bizim üçün olduqca vacibdir.

Sonda, mən bu Konvensiyanın tezliklə ratifikasiyasına yönəlmiş böyük səylərinə görə YUNESKO-nun baş direktoru Koişiro Matsuuraya bir daha öz minnətdarlığımı bildirmək istəyirəm.

Mən sizin hamınıza gələcək illər ərzində uğurlu və məhsuldar iş arzulayıram.

Çox sağ olun!

***AzərTAc***
***2006, 26 iyun***

## *Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın YUNESKO-nun baş direktoru ilə görüşü*

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva oktyabrın 20-də YUNESKO-nun baş direktoru Koişiro Matsuura ilə görüşmüşdür.

Görüş zamanı Azərbaycanla YUNESKO arasındakı əməkdaşlığın yeni yolları və formaları müzakirə edilmiş, xüsusilə, qurumun təşəbbüsü ilə Azərbaycanda 2008-ci ildə "Avropada və Mərkəzi Asiyada qlobal maariflənmə" mövzusunda regional konfransın keçirilməsi imkanları araşdırılmışdır. Mehriban xanım Əliyeva bu məsələyə müsbət yanaşaraq, onu dəstəkləmişdir.

Cənab Koişiro Matsuura bu təklifi dəstəklədiyi üçün Mehriban xanıma minnətdarlığını bildirmişdir. Baş direktor demişdir ki, konfransa hazırlıq məqsədi ilə 2007-ci ildə YUNESKO-nun ekspertlərindən ibarət nümayəndə heyəti Azərbaycana səfər edəcəkdir.

Söhbət zamanı YUNESKO-nun dəstəyi ilə Azərbaycanda təhsil sahəsində yeni layihələrin həyata keçirilməsi də müzakirə olunmuşdur.

Görüşdən sonra YUNESKO-nun baş direktoru Koişiro Matsuura xoşməramlı səfir Mehriban xanım Əliyevanın şərəfinə ziyafət vermişdir.

***AzərTAc***
***2006, 21 oktyabr***

## *YUNESKO-da Azərbaycan günü ilə bağlı tədbir*

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva YUNESKO-nun 60 illiyinə həsr olunmuş "Sivilizasiyalararası dialoq" həftəsi çərçivəsində "Azərbaycan: mədəniyyətlərin və sivilizasiyaların qovuşuğunda" adı altında keçirilən Azərbaycan günü ilə bağlı tədbirdə iştirak etmək üçün Parisə gəlmişdir.

YUNESKO-nun iqamətgahında Mehriban xanımı təşkilatın baş direktorunun müavini Marsio Barboza, protokol idarəsinin başçısı Jan Lük Şan, xoşməramlı səfirlər proqramının rəhbəri Basma İrşeid, Azərbaycanın YUNESKO yanında daimi nümayəndəliyinin rəhbəri, səfir Eleonora Hüseynova və digər rəsmi şəxslər səmimiyyətlə qarşıladılar.

Azərbaycan günü YUNESKO-nun sərgi salonunda təşkil olunmuş və respublikamızın gözəl mənzərələrini, zəngin mədəniyyətini, tarixini, xalqımızın adət-ənənələrini, mədəni irs nümunələrini, azsaylı xalqların həyatını əks etdirən fotoşəkillərdən, misgərlik sənətinin nümunələrindən ibarət sərgi ilə açıldı.

Sərgini açan mədəniyyət və turizm naziri Əbülfəs Qarayev xoşməramlı səfir Mehriban xanım Əliyevanın səyləri sayəsində son zamanlar YUNESKO ilə Azərbaycan arasında hərtərəfli əməkdaşlığın inkişaf etdiyini xüsusi vurğulamış, təhsil sisteminin yenidən qurulmasında təşkilatın ölkəmizə köməyindən, Azərbaycanda milli azlıqların mədəniyyətinin inkişafına dövlət qayğısından, mədəni və qeyri-maddi irsin qorunub saxlanılmasında, abidələrimizin Dünya mədəni irs siyahısına daxil edilməsində YUNESKO-nun rolundan danışmışdır.

Xoşməramlı səfir Mehriban xanım Əliyeva və təşkilatın baş direktoru Koişiro Matsuura sərgi ilə yaxından tanış olmuşlar.

Sonra Mehriban Əliyeva açılış mərasimində çıxış etmişdir.

## Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın çıxışı

– Xanımlar və cənablar,

Hörmətli qonaqlar,

İlk növbədə, mən sizin hamınızı Azərbaycan gününün təqdimatında salamlamaq və bu cür mühüm tədbirdə iştirak etdiyinizə görə öz təşəkkürümü bildirmək istəyirəm.

Bu gün burada bizimlə birgə olduğuna görə YUNESKO-nun baş direktoru cənab Koişiro Matsuuraya xüsusi minnətdarlığımı ifadə edirəm.

Bu il biz YUNESKO-nun 60 illiyini qeyd edirik. Ötən 60 il ərzində YUNESKO dünya mədəniyyəti, təhsili və el-

minin inkişafına, habelə müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasındakı dialoqa böyük töhfə vermişdir. Sülh, dözümlülük, mədəni irs kimi universal dəyərlər YUNESKO-nun fəaliyyətinin əsasını təşkil edir. Yoxsulluğun azaldılması, hamı üçün təhsil və dünyadakı bütün millətlərin inikişafı həmin fəaliyyətin ayrılmaz hissəsidir.

Bu gün biz YUNESKO-nun Dözümlülük həftəsi – "Sivilizasiyalararası dialoq" çərçivəsində Azərbaycan gününü keçiririk və fikrimcə, bu, çox rəmzi xarakter daşıyır. Çünki dünən bizim bir müstəqil ölkə kimi 15 yaşımız tamam oldu.

Azərbaycan zəngin mədəni irsi və ənənələri ilə seçilən qədim diyardır.

Əsrlər boyu Azərbaycan sivilizasiyalar arasında dialoqun aparılmasında mühüm rol oynamışdır. Ölkəmiz Şərqlə Qərbin qovuşduğu məkanda yerləşir. Şərqdə ilk demokratik respublika 1918-ci ildə məhz Azərbaycanda qurulmuşdur. Bu, bütün müsəlman dünyasında Avropa tipli ilk parlament respublikası olmuşdur.

Eyni zamanda, müsəlman ölkələri arasında ilk opera, balet, teatr, qadın məktəbləri, azad mətbuat, kişi və qadınlar üçün bərabər seçki hüququ Azərbaycanda təşəkkül tapmışdır.

Hazırda, Azərbaycan Avropa dəyərlərini bölüşən və getdiyi yolunu tam anlayan müasir ölkəyə çevrilmişdir. Uğurlu inkişafın mühüm amillərindən biri də ondan ibarətdir ki, Azərbaycan dünyəvi dövlət, yüksək dözümlülüyü ilə seçilən bir ölkədir.

Tarixən Azərbaycan çoxmillətli ölkə olubdur. Buradakı bütün milli azlıqlar Konstitusiya əsasında bərabər hüquqa malikdir və bir ailə kimi yaşayır. Dini və etnik dözümlülük əldə etdiyimiz uğurların əsas elementidir və bizim sərvətimizdir.

Azərbaycan ilə YUNESKO arasında əməkdaşlığın tarixi müstəqilliyimiz dövründən başlayır. Ötən illər ərzində təhsil, elm və mədəniyyət sahələrində bir çox birgə layihələr həyata keçirilmişdir. Azərbaycanın maddi və qeyri-maddi mədəni abidələri artıq YUNESKO-nun Dünya irsi

siyahısındadır. Məsələn, YUNESKO tərəfindən İçərişəhər dünyanın ən gözəl abidələri siyahısına, Azərbaycan muğamı isə Qeyri-maddi mədəni irs siyahısına salınmışdır.

Cənab Koişiro Matsuura 2005-ci ildə Azərbaycana etdiyi səfəri zamanı YUNESKO-nun dəstəyi ilə tikilən Beynəlxalq Muğam Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak etmişdir. Həmin vaxt biz eyni zamanda "YUNESKO-Azərbaycan: gələcəyə körpü" adlı beynəlxalq konfrans keçirdik, təhsil məsələlərini müzakirə etdik. İndə isə Azərbaycanı regionda ən yaxşı təhsil sistemi nümunəsinə çevirmək arzusundayıq.

Eyni zamanda biz YUNESKO ilə birlikdə qaçqın və məcburi köçkün uşaqlar üçün mühüm təhsil layihələri həyata keçiririk. YUNESKO ilə əməkdaşlığımız "Atəşgah" məbədinin bərpası, Qobustanın Dünya mədəni irs siyahısına salınması kimi layihələri də əhatə edir.

Azərbaycan YUNESKO ilə nəinki ölkə daxilində layihələr üzrə əməkdaşlıq edir. YUNESKO-nun məqsədlərinə uyğun olaraq, beynəlxalq ictimaiyyətin hər bir üzvünün ehtiyac duyan digər ölkələrə və xalqlara yardım etməsi zəruridir. YUNESKO ilə birlikdə biz Pakistanın Müzəffərabad şəhərində zəlzələ nəticəsində dağılmış məktəbi yenidən tikməyi planlaşdırırıq.

Bütün bunlar onu göstərir ki, Azərbaycan ilə YUNESKO arasındakı əməkdaşlıq çox məhsuldar, geniş və uğurludur.

Hörmətli dostlar,

Bu gün mən, bir tərəfdən, ölkəmi – Azərbaycan Respublikasını – bu mötəbər məclisdə təmsil etməkdən böyük şərəf hissi duyuram. Digər tərəfdən isə, YUNESKO-nun xoşməramlı səfiri kimi yenidən sizinlə öz ümumi ailəmizdə olmağıma çox şadam.

Yekun olaraq, icazə verin, bu cür təntənəli tədbirə gəldiyinizə görə hamınıza bir daha minnətdarlığımı bildirim və uğurlar arzulayım. Əminəm ki, tədbir xoşunuza gələcəkdir.

Diqqətinizə görə sağ olun.

***AzərTAc***
***2006, 21 oktyabr***

# V. Mehriban xanım Əliyeva haqqında məqalə və materiallar

## YUNESKO-nun xoşməramlı səfirləri

YUNESKO-nun Xoşməramlı Səfirləri tanınmış vəkillərdən ibarət olan, YUNESKO-nun ideallarını öz adları və nüfuzları vasitəsilə təbliğ edən görkəmli bir qrupdur. Bu xüsusi şəxslər YUNESKO-nun işini, missiyasını yayır və təbliğ edirlər. Onlar dünyanın diqqətini YUNESKO-nun işinə cəlb edilməsinə kömək etmək üçün öz istedad və statuslarından istifadə etməyə razılıq vermişlər.

Ümumbəşəri və qlobal problemlərin həlli ayrılıqda götürülmüş bir və bir neçə dövlətin fəaliyyətindən deyil, dünya dövlətlərinin bu istiqamətdəki birgə səylərindən asılı olduğundan dövlətlərarası təşkilatların müasir dövrdə rolu günbəgün artır. Belə təşkilatlardan ən böyüyü və mötəbəri olan BMT-nin əsas məqsədləri də beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq, xalqların bərabərliyi və öz müqəddəratını təyin etmək prinsiplərini rəhbər tutaraq millətlər arasında dostluq münasibətlərini inkişaf etdirmək, iqtisadi, sosial, mədəni və humanitar xarakterli problemlərin həllində beynəlxalq əməkdaşlığı həyata keçirmək kimi vacib məsələləri özündə birləşdirir. BMT və onun sisteminə daxil olan bütün digər təşkilatların fəaliyyəti məhz bu məqsədlərə xidmət göstərir.

Beynəlxalq aləmdə baş verən proseslərə fəal şəkildə qoşulmaq, ümumbəşəri və qlobal problemlərin həllindən kənarda qalmamaq üçün BMT-nin üzvü olmaq əsas amillərdən biri kimi meydana çıxır. BMT-nin tribunası dövlətin öz məqsəd və məramlarını dünyaya bəyan etmək, istər xarici, istərsə də daxili problemlərin həlli üçün ölkələri əməkdaşlığa çağırmaq məqsədilə istifadə edə biləcəyi ali kürsülərdən biridir.

Azərbaycan 1992-ci il martın 2-də BMT-yə üzv qəbul olunmuşdur. Ümummilli liderimiz Heydər Əliyev BMT-nin Baş Məclisindəki çıxışında demişdir: "Bütövlükdə Azərbaycan Respublikası gələcək üçün BMT-nin perspektivlərini nikbinliklə qiymətləndirir və bundan sonra da Birləşmiş Millətlər Təşkilatının yüksək prinsiplərini müdafiə etmək, təşkilatın nüfuzunun və səmərəsinin artırılmasına nail olmaq əzmindədir". BMT ilə əməkdaşlığın həyata keçirilməsinin əsas yollarından biri də bu təşkilatın ixtisaslaşmış qurumları ilə əlaqələri gücləndirmək, onlarda layiqincə təmsil olunmaqdır.

BMT-nin bütün dünyada geniş tanınan ixtisaslaşmış qurumu YUNESKO (United Nations Educational, Scientific and Cultural Organization– BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri Üzrə Təşkilatı) 1946-cı ildə yaradılmışdır. Onun əsas məqsədləri təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığı həvəsləndirməklə sülhün və təhlükəsizliyin təmin olunmasına yardım göstərmək, BMT-nin Nizamnaməsinə uyğun olaraq irqinə, cinsinə, dilinə və dininə fərq qoymadan bütün insan hüquq və azadlıqlarına nail olmaqdır. Bu məqsədləri həyata keçirmək üçün YUNESKO aşağıdakı vəzifələri yerinə yetirir:

– xalq təhsilini həvəsləndirir;
– biliklərin artırılmasına, saxlanmasına və yayılmasına xidmət edir;
– mədəniyyətin yayılmasına və təbliğinə kömək göstərir;
– kütləvi informasiya vasitələrinin köməyi ilə xalqlar arasında qarşılıqlı anlaşmanı inkişaf etdirir.

YUNESKO öz fəaliyyətini tərbiyə, elm, mədəniyyət, kommunikasiya, xüsusi elmlər və inkişaf, sülh və insan hüquqları kimi əsas istiqamətlərə yönəldir və həmin məqsədlə müxtəlif proqramların həyata keçirilməsinə çalışır. Ümumi informasiya, kommunikasiyanın inkişaf etdirilməsi, savadsızlığın ləğvi, tərcümələr, okeanoqrafik tədqiqatlar və sahil ərazilərinə nəzarət edilməsi və s. beynəlxalq proqramlar bu qəbildəndir. YUNESKO-nun

fəaliyyət sferasında mədəniyyət və təhsil məsələləri xüsusi yer tutur. Təşkilat dünya xalqlarının mədəniyyətinin öyrənilməsi və yayılması ilə yanaşı, bütün dünyada tanınan, yüksək nüfuz sahibi olan şəxsiyyətlərlə əməkdaşlığa, belə nüfuzlu şəxsiyyətlərin köməyi ilə qlobal problemlərin həllinə xüsusi diqqət verir. YUNESKO-nun xoş məramlı səfiri adının təsis edilməsi də, dünyanın hümanist ideallarının gerçəkləşməsində böyük xidmətləri olan nüfuzlu şəxsiyyətlərini bir araya toplamaq, onlarla əməkdaşlıq etmək məqsədi daşımışdır. YUNESKO-nun Xoşməramlı Səfirlərinin ümumi siyahısı böyük deyildir. Təşkilatın bütün dünya üzrə cəmi 41 xoş məramlı səfiri vardır. Alisia Alanso, Valdas Adamkus, Montserrat Kabalye, Klaudia Kardenalle, Şahzadə Lalla Meryam, Susanna Rinaldi, Mstislav Rastropoviç, Zurab Sereteli və başqa məşhur şəxslər müxtəlif vaxtlarda YUNESKO-nun xoşməramlı səfirləri elan edilmişlər.

2004-cü il sentyabrın 9-da Parisdə – YUNESKO-nun iqamətgahında Mehriban xanım Əliyevaya BMT-nin bu ixtisaslaşmış təşkilatının Xoşməramlı səfiri fəxri adı verilməsinə həsr olunmuş mərasim keçirilmişdir. Bu mərasim Azərbaycan mədəniyyətinin inkişafı və təbliğində xüsusi xidmətlərinə görə Mehriban xanım Əliyevanın folklor, xor və musiqi ənənələri üzrə YUNESKO-nun Xoşməramlı Səfiri elan edilməsinə həsr edilmişdir.

Tədbirdə YUNESKO-nun baş direktoru cənab Koiçiro Matsura çıxış edərək Mehriban xanımı YUNESKO-nun Xoş Məramlı Səfiri elan etdi. Baş direktor təqdimetmə çıxışında qeyd etmişdir ki, “musiqi təhsilinin təbliği, musiqi ənənələrinin gələcək nəsillərə ötürülməsi Mehriban xanım Əliyevanın daim diqqət mərkəzində olmuşdur. Mən onun Azərbaycan mədəniyyətində müstəsna xidmətləri olan, milli mədəniyyətin aparıcı şəxslərinin xeyriyyə konsertlərini təşkil etməsi sahəsindəki təşəbbüslərini çox yüksək qiymətləndirirəm”. Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin, xüsusən musiqinin folklorun öyrənilməsi, toplanması, qələmə alınıb yayılmasında xidmətləri son dərəcə böyükdür.

Mehriban Əliyevanın 1995-ci ildə yaratdığı və rəhbərlik etdiyi "Azərbaycan Mədəniyyətinin Dostları" fondu yarandığı gündən Azərbaycan mədəniyyətinin nümunələrini toplamağı, onları öyrənməyi və təbliğ etməyi qarşısına məqsəd qoymuşdur və onun həyata keçirdiyi çoxsaylı tədbirlər bu sahədə böyük irəliləyişə səbəb olmuşdur.

Fondun yardımı ilə Azərbaycan mədəniyyətinin inciləri toplanıb qorunmuş, ölkə folkloru, xor və musiqi ənənələri milli və beynəlxalq miqyasda geniş təbliğ olunmuşdur. Azərbaycan folklorunun, xalq musiqisinin, xüsusən muğamları özünəməxsusluğu ilə həmişə seçilmiş, təkcə ölkə daxilində deyil, onun hüdudlarından kənarda da yüksək dəyərləndirilmişdir.

Xoşməramlı Səfirin elan edilməsi mərasimində Mehriban xanım çıxışında demişdir: "Unikal sənət nümunəsi olan qədim muğamlar və onların bizim musiqi alətlərindəki təkrarolunmaz melodiyaları mənəvi-mədəni sərvətimizin bugünədək qorunub saxlaya bildiyimiz kiçik bir hissəsidir və onu gələcək üçün də qorumaq son dərəcə vacibdir. Bu iş Azərbaycan Mədəniyyəti Dostları fondunun önəmli fəaliyyət istiqaməti və Xoşməramlı Səfir kimi şəxsən mənim əsas məqsədlərimdən biri olacaqdır". Azərbaycanın ənənəvi musiqisi olan muğamlar hələ də sonadək dərk olunmamış ümumbəşəri irsin ən nadir şedevrləridir. YUNESKO-nun 2003-cü il oktyabrında keçirilmiş Baş Konfransında muğamlara məhz belə bir qiymət verilmiş, Azərbaycan muğamları ümumbəşəri dəyərlər sırasına daxil edilmişdir. Bu işdə Mehriban xanımın müstəsna xidməti olmuşdur və o, həmin fəaliyyəti ardıcıl davam etdirir. Təsadüfi deyil ki, YUNESKO-nun xoşməramlı səfirinin həyata keçirdiyi "Muğam dəsgahları" proqramının layihəsi çərçivəsində 2005-ci il fevralın 18-də Bakının ən gözəl musiqi salonlarından birində – Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında muğam axşamı təşkil olunmuşdur. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva iştirak etmişlər.

Xoşməramlı Səfirlər kimi, siz, YUNESKO-nun ideallarını öz istedadınız və nüfuzunuz vasitəsilə təbliğ etməyə razılıq vermisiniz. Sizin oynaya biləcəyiniz rol əvəzsizdir. YUNESKO tərəfindən dəstəklənən əsas məsələlərə olan şəxsi marağınızla, mediya sahəsində malik olduğunuz populyarlıqla və karyeranız və reputasiyanızla, siz ictimaiyyəti daha ədalətli dünya naminə səfərbər etməyə kömək göstərəcəksininz. Sizin vəzifəniz təhlükə altında olan dəyərlərin və sülh mədəniyyətinin yaradılmasında bizim hər birimizin oynaya biləcəyimiz rolun əhəmiyyəti barədə insanları daha geniş miqyasda xəbərdar etməkdir.

***Koiçiro Matsuura***
***YUNESKO-nun Baş Direktoru***

YUNESKO-nun fəaliyyəti görkəmli bir qrup olan və dünyanın diqqətinin Təşkilatımızın işinə cəlb edilməsinə kömək etmək üçün öz istedad və statuslarından istifadə etməyə razılıq vermiş Xoşməramlı Səfirlər tərəfindən yayılır və təbliğ edilir. Bu xüsusi şəxslər – YUNESKO-nun Xoşməramlı Səfirləri dünyanın bütün nöqtələrini təmsil edir və ən müxtəlif şəxsi və ixtisas göstəricilərinə malikdirlər. Həmçinin bu şəxsləri əlaqələndirən bir öhdəlik də var – bizim hər birimiz həmrəylik məsuliyyəti daşıyırıq və ümumi dünyamızın vəziyyətini yaxşılaşdırmaq üçün tədbirlər görməyə səlahiyyətliyik. Onları, sülh, ədalət, həmrəylik və qarşılıqlı anlaşma kimi meyarların qorunması naminə YUNESKO-nun missiyasını dünyanın hər yerində insanların qəlblərinə və şüurlarına aşılamaq vəzifəsi birləşdirir.

Viktor Hüqo demişdir: “Sevmək hərəkət etməkdir”. Bizim Xoşməramlı Səfirlərimiz YUNESKO-nun elçiləri kimi bəşəriyyətə olan bu sevgi və qayğı naminə fəaliyyət göstərirlər və biz hamımız bu bəşəriyyəti hər birimiz üçün daha gözəl etmək istiqamətində çalışmalıyıq.

***Basma İrşid***

## *Azərbaycanın birinci xanımı YUNESKO-nun xoşməramlı səfiri təyin olunacaq*

AzərTAc-ın YUNESKO-nun mətbuat xidmətindən aldığı məlumatda deyilir ki, BMT-nin bu ixtisaslaşmış təşkilatının Baş direktoru Koişiro Matsuura Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı şifahi və musiqili xalq yaradıcılığı irsinin qorunması üzrə xoşməramlı səfir təyin edəcəkdir.

Təyinat mərasimi bu il sentyabrın 9-da Parisdə – YUNESKO-nun iqamətgahında olacaqdır.

Mətbuat xidmətinin məlumatında daha sonra deyilir:

«Bu fəxri ad Mehriban Əliyevanın ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın təbliğinə, habelə musiqi təhsilinin və beynəlxalq mədəni mübadilələrin gücləndirilməsinə və gənclərin dəstəklənməsinə yönəlmiş fəaliyyətini dəyərləndirməyə görə verilir.

Təhsilcə həkim, YUNESKO-nun ideallarına bağlı olan Mehriban Əliyeva ölkəsində mədəniyyət, təhsil və idman sahələrində şəxsən fəallıq göstərir. O, 1995-ci ildə yaratdığı Azərbaycan Mədəniyyətinin Dostları Fondu vasitəsilə festivallar, sərgilər, konsertlər və digər mədəni tədbirlər təşkil etməklə ölkəsinin zəngin mədəniyyətinin, o cümlədən şifahi və qeyri-maddi irsinin beynəlxalq miqyasda tanınmasına, bunların milli və regional səviyyədə qorunmasına töhfəsini verir.

Üç övlad anası olan Mehriban Əliyeva uşaqların problemlərinə də xüsusi diqqət yetirir. Onun səyləri və xeyriyyəçilik fəaliyyəti sayəsində Bakının rayonlarından birində kimsəsiz uşaqlar üçün ev təmir edilib müasirləşdirilmiş, qaçqınlar düşərgəsində musiqi məktəbi açılmış, diabet xəstəliyi olan uşaqlar müalicə edilmişdir. Nəhayət, Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi o, ölkəsində idmanın inkişafına öz töhfəsini verir.

Xoşməramlı səfirlər öz nüfuz və xarizmaları sayəsində YUNESKO-nun ideallarının həyata keçirilməsinə

töhfə verən şəxsiyyətlərdir. Fransız kosmonavtı Patrik Bodri, Mali alimi şeyx Modibo Diarra, İslandiyanın keçmiş prezidenti Viqdis Finnboqadottir, İordaniya şahzadəsi Firial, İspaniya dənizçisi Kitin Munyoz və italyan aktrisası Klaudia Kardinale onların sırasındadır».

*Xalq qəzeti,*
*2004, 5 oktyabr*

## *Mehriban Əliyeva xoşməramlı səfir oldu*

Dünən Parisdə YUNESKO-nun iqamətgahında Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya BMT-nin bu ixtisaslaşmış təşkilatının xoşməramlı səfiri fəxri adı verilməsinə həsr olunmuş tədbir keçirilib.

Mərasimdə çıxış edən YUNESKO-nun Baş direktoru Koişiro Matsuura bildirib ki, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun rəhbəri kimi xanım Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri fəxri adına layiq görülüb.

O, Azərbaycanın mədəni irsinin qorunmasında Mehriban xanımın fəaliyyətindən danışıb, eyni zamanda, ölkədə musiqi təhsilinin inkişafı sahəsində də böyük xidmətləri olduğunu vurğulayıb. Baş direktor dünya mədəni irsinin qorunmasında YUNESKO-nun fəaliyyətindən də söhbət açıb və əmin olduğunu bildirib ki, xoşməramlı səfir kimi Mehriban Əliyeva bu sahədə böyük xidmət göstərəcək. Sonra cənab Matsuura YUNESKO-nun xoşməramlı səfiri diplomunu və vəsiqəsini Mehriban Əliyevaya təqdim edib.

Mehriban xanım Əliyeva xoşməramlı səfir fəxri adına layiq görüldüyünə görə YUNESKO-nun rəhbərliyinə minnətdarlığını bildirib. Gələcək fəaliyyətində YUNESKO-nun dünya mədəni irsinin qorunması prinsipini rəhbər tutacağını vurğulayan xanım Əliyeva deyib ki, Şərqlə Qərb arasında körpü olan Azərbaycanın

mədəniyyətində Şərq və Qərb mədəniyyətlərinin sintezi özünü bariz şəkildə göstərir: «Mən fəxr edirəm ki, Üzeyir Hacıbəyov, Qara Qarayev, Mstislav Rostropoviç kimi şəxsiyyətlərin vətəni olan ölkəni YUNESKO-da xoşməramlı səfir kimi təmsil edəcəyəm».

Mehriban Əliyeva xatırladıb ki, Azərbaycan bəşər mədəniyyəti xəzinəsinə «Kitabi-Dədə Qorqud» eposu, muğam sənəti kimi misilsiz sərvətlər verib.

Tədbirdə Prezident Ilham Əliyev də çıxış edib. Dövlət başçısı deyib ki, Azərbaycanın təmsilçisinin xoşməramlı səfir adına layiq görülməsi mədəni həyatımızda mühüm hadisədir. Bu, onu göstərir ki, YUNESKO, dünya birliyilə mədəni əlaqələrimiz daha da inkişaf edir. Azərbaycanın çox zəngin mədəni irsi var və bu qarşılıqlı əməkdaşlıq gələcəkdə ölkəmizin YUNESKO ilə daha da yaxınlaşmasına imkan verəcək.

*Mərkəz,*
*2004, 5 oktyabr*

## *Azərbaycan Prezidenti İlham Əliyevin xanımı Mehriban Əliyevaya YUNESKO-nun xoşməramlı səfiri adı verilməsi mərasimi*

Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya işgüzar səfəri çərçivəsində sentyabrın 9-da Parisdə – YUNESKO-nun iqamətgahında dövlətimizin başçısının xanımı Mehriban Əliyevaya BMT-nin bu ixtisaslaşmış təşkilatının xoşməramlı səfiri adı verilməsinə həsr olunmuş mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı iqamətgahın önündə YUNESKO-nun Baş direktoru Koişiro Matsuura, xoşməramlı səfirlər proqramının rəhbəri xanım Bəsma İrşeid və digər rəsmi şəxslər böyük səmimiyyətlə qarşıladılar.

Mərasimdə YUNESKO-nun Baş direktoru Koişiro Matsuura çıxış etdi.

Dövlətçilik sistemində Xaqan-xatun modelini əslində bütün dünya türk ruhundan əxz edib. Xanım Mehriban Əliyevanın timsalında bu qədim ənənənin müstəqil Azərbaycanın dövlətçilik sistemində yenidən bərpası onun ölməz türk ruhuna sədaqət hissi ilə bağlıdır.

Qədim əsatirlərimizin birində belə bir tarixi epizod təsvir olunur: düşmən sərkərdəsi mühasirəyə aldığı şəhər-qaladakı qadınlara döyüş zamanı xətər toxunmasın deyə, onların qısa müddət ərzində şəhərdən çıxmalarını əmr edir. Xanımlara gedərkən yalnız onlar üçün ən qiymətli olan nəyisə aparmaq imkanı verilir. Azərbaycan qadınının müdrikliyi düşmən sərkərdəsini az sonra çətin vəziyyət qarşısında qoyur. Çünki belə bir əmr ardınca şəhər qadınları bütün maddi sərvətləri yağılara buraxmış, özləri ilə yalnız həyat yoldaşlarını, ata və qardaşlarını aparmışdılar. Tarix Azərbaycan qadınını min illər sonra da, bax beləcə xatırlayacaq.

Bizim milli təfəkkürümüzdə Vətən və Ana məfhumları bir-birindən ayrı deyil. Bu assosiativ əlaqə indiyə qədər Vətən haqqında köksümüzdən qopan ən ulu məcazda da ifadə olunur: məhz Ana Vətən. Deməli Azərbaycan şüurunda Vətən də, dövlət də, dövlətçilik də, vətən müqəddaratının qorunması üçün həyata keçirilən siyasət də ilk növbədə ana, qadın adının ucalığından, müqəddəsliyindən başlayır. “Kitabi-Dədə Qorqud” dastanlarında igidinə “başım baxtı, evim taxtı” deyib öyündüyü Azərbaycan qadını isə özünü heç vaxt Vətən, Yurd uğrunda aparılan mübarizələrdən kənarda hiss etməyib. Zərurət anında siyasi proseslərə, savaşlara qatılıb. Tarixin daş yaddaşında Tomris ana, Türkan xatun, Nüşabə, Sara xatun, Tuti bikə, Xurşudbanu Natəvan, Ağabəyim Ağa, Zərifə xanım, Qarabağ savaşında şəhid cismi ilə bir ovuc Vətən torpağını bağrına basıb işğalçılardan qoruyan Qaratel, Gültəkin və başqa bu kimi hünərvərlərin adlarını həkk edib.

Bu mənada, Azərbaycan xanımlarının siyasətdə, diplomatiyada iştirak tarixini siyasət, diplomatiya faktlarının yarandığı gündən hesablamaq gərəkdir.

Azərbaycan qadını dünyanın əksər qütblərində "ağır bir sənət" kimi qəbul edilən siyasətdə iştirakı ilə siyasi ab-havaya bir saflıq, təmizlik, zəriflik gətirib. Azərbaycan qadını həmişə təmsil olunduğu əhatədə qardaş qırğınlarına, fitnə-fəsadlar, parçalanma və təfriqələrə, söyüş və təhqirlərə, bir sözlə, bütün pis meyillərə qarşı qoruyucu sipər kimi çıxış edib. Kişilərin bir çoxu hər hansı hadisə və prosesdə qadının iştirakını nəzərə alaraq bir çox mənfi meyillərdən məhz buna görə çəkiniblər.

Azərbaycan mentalitetinə görə ortaya atılan bir parça ipək o səbəbdən, hətta irimiqyaslı müharibələri belə dayandırmaq imkanına malikdir ki, vaxtilə həmin ipək parçası hansısa qadının baş örpəyi olub.

Azərbaycan örpəyinə münasibət, ümummilli liderimiz Heydər Əliyevin həyata keçirdiyi siyasətdə də xüsusi aktuallığa malikdir. Bu münasibət onun aşağıdakı fikirlərində çox dəqiq ifadə olunmuşdur: "Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ilə millətinə, torpağına olan hədsiz məhəbbəti və gözəlliyi, Azərbaycan xalqının milli xüsusiyyətlərinə sadiqliyi ilə tanınmışdır. Əsrlər boyu Azərbaycan qadınının üzərinə böyük zəhmətlər düşmüşdür. O zəhməti də qadın həmişə mərdliklə, cəsarətlə çəkmiş və bu zəhmətdən heç vaxt inciməmişdir. Sona çatan XX əsr Azərbaycan qadını üçün böyük nailiyyətlər, hadisələr, böyük dəyişikliklər əsri olmuşdur. Ən böyük nailiyyət ondan ibarətdir ki, Azərbaycan qadını azadlığa çıxmışdır. Bu, böyük bir hadisə, tarixi bir uğurdur".

Bu mövqeyi ümummilli liderimiz Yeni Azərbaycan Partiyasının ikinci qurultayı zamanı qadınlar haqqında səsləndirdiyi fikirlərlə belə davam etdirmək olar: "Qadınlar cəmiyyətdə çox həlledici təbəqədir. Qadın ailəni saxlayan bir insandır. Ona görə də bütün qadınlar bi-

zim cəmiyyətdə çox əhəmiyyətli rol oynayırlar, təkcə dövlət içərisində yox.

Mən bunları deyərək qadınların bizim üçün nə qədər əziz olduğunu bir daha bəyan etmək istəyirəm. Qadınlara xüsusi qayğı göstərmək lazımdır. Onların problemləri ola bilər, bunları mütləq aradan qaldırmaq, qadınlara kömək etmək lazımdır".

Dövlət idarəçiliyində Azərbaycan qadınlarının peşəkarlığından, intellektual qabiliyyətindən istifadə meyili Heydər Əliyev siyasətində daim mühüm yer tutmuş, ümummilli liderin rəhbərliyi ilə ölkəmizdə səmərəli şəkildə həyata keçirilən dövlət qadın siyasəti xanımlarımızın bütün sahələrdə yüksək səviyyədə təmsilçiliyi üçün geniş imkanlar yaratmışdır. Bu gün də layiqincə davam etdirilən bəlli siyasi kurs hesabına Azərbaycan qadını istər ölkə daxilində, istərsə də ölkə xaricində cəmiyyətin ayrı-ayrı sahələrinə dair müxtəlif problemlər barədə öz sözünü deyə bilir, bu problemlərin həllini təmin edən yeni-yeni uğurlara imza atır. Ölkənin birinci xanımı, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun və Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri təyin edilməsi də bunun bariz təzahürüdür. Qeyd edək ki, indiyə qədər bu ada dünyanın məşhur adamları layiq görülmüşlər. Xoşməramlı səfirlər arasında dünya şöhrətli musiqiçi Mstislav Rostropoviç, aktrisa Klaudia Kardinale, Mərakeş şahzadəsi Lalla Məryəm, Litva prezidenti Valdis Adamkus, Lüksemburqun Boyük hersoqunun xanımı Mariya Tereza və başqalarının adları çəkilir. Bu sırada Azərbaycan nümayəndəsinin də təmsilçiliyi son dərəcə fərəhləndirici bir hadisədir.

Geostrateji mövqeyinə görə Azərbaycan iki dünyagörüşünün, iki həyat tərzinin, iki mədəniyyətin qovuşduğu məkanda yerləşir. Bizlər Qərblə Şərqin dialoqunu öz gündəlik həyatımızda hiss edirik. Maraqlıdır ki, kifayət qədər sərt ziddiyyətlərlə davam edən belə bir dialoq Azərbaycan mədəniyyətində hər hansı çatışmazlıqlara gətirməyib, əksinə, bu məmləkətdə bənzərsiz bir mədəni mühit formalaşdırıb. Çünki əsrlərdən üzü bəri

yol gələn, zaman-zaman saf çeşmə kimi daha da durulan, cilalanan zəngin Azərbaycan mədəniyyəti bütün kənar müdaxilələrə sinə gərmək gücündədir. Azərbaycan da malik olduğu mədəni potensialla bu dialoqda öz sözünü deyir və mövqeyini sübuta yetirir. Azərbaycan mədəniyyəti dünya mədəniyyəti nümunələrinə qarşı deyil. Mehriban xanım Əliyevanın söylədiyi kimi, bizlər öz mədəniyyətimizi, adət-ənənələrimizin, tarixi irsimizin təkrarolunmaz incilərini qoruyub saxlayaraq dünya mədəniyyəti nümunələrini qəbul edə bilmişik: “Bu gün biz müxtəlif xalqların mədəniyyət elementiəri ilə milli mədəniyyətimizin tərkib hissəsi arasında oxşarlığın şahidi oluruq. Bu isə heç də təsadüfi deyildir. Bu proseslərin arxasında öz tolerantlığı, xeyirxahlığı, öyrənib-öyrətmək bacarığı ilə seçilən mədəniyyətlər arasında da körpülər yaradan azərbaycanlıların neçə-neçə nəsli dayanır.

Azərbaycan Üzeyir Hacıbəyov, Qara Qarayev, Səttar Bəhlulzadə, Mstislav Rostropoviç kimi dünya şöhrətli mədəniyyət xadimlərinin vətənidir. Bu cür şəxsiyyətlərin yetişməsi üçün şərait yarada bilən xalqımız həqiqətən də böyük xalqdır”.

Bu fikirlərin müəllifinə, Mehriban xanım Əliyevaya YUNESKO-nun verdiyi xoşməramlı səfir təyinatı isə ümumilikdə dünyanın Mehriban xanımın timsalında bütün Azərbaycan xalqına, milli mədəniyyətimizə, folklorumuza, tariximizə, dilimizə, incəsənətimizə göstərdiyi diqqət kimi qəbul olunmalıdır. Bu təyinat həm də Mehriban Əliyevanın timsalında Azərbaycan qadınının öz fədakarlığı və bacarığını beynəlxalq miqyasda təsdiq etməsinə əyani bir sübutdur. Və ən nəhayət, bu ad Mehriban xanım Əliyevanın şifahi irsin və musiqi yaradıcılığı irsinin qorunub saxlanması, inkişafı sahəsində ortaya qoyduğu zəhmətin xoş bəhrəsidir. Sentyabrın 9-da YUNESKO-nun Parisdəki iqamətgahında xoşməramlı səfir adının təqdimat mərasimində də qurumun Baş direktoru Koişiro Matsuura onun bu sahədəki xidmətlərini yüksək dəyərləndirdi. Mehriban Əliyevanın

rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondunun 1995-ci ildə Mehriban xanımın təşəbbüsü ilə yarandığını diqqətə çatdıran Baş direktor bu günə qədər də uğurla fəaliyyət göstərdiyini bildirdi: "Musiqi təhsili və gələcək nəslin maarifləndirilməsi xanım Əliyevanın rəhbərlik etdiyi fondun daim diqqət mərkəzindədir. Təqdirə və hörmətəlayiq bir haldır ki, Fondun təşkil etdiyi xeyriyyə konsertləri dinləyicilərə sevinc bəxş etməklə yanaşı, milli mədəniyyətin zəngin ənənələrinin yaşadılmasına da xidmət etmişdir. Fondun səyləri nəticəsində Azərbaycanda musiqi gimnaziyası və musiqi məktəbi tam təmir olunmuş, minlərlə yeniyetmə və gəncin musiqi aləminə qovuşa bilməsi üçün gözəl şərait yaradılmışdır. İmkansız ailələrdən olan uşaqların bu prosesə cəlb edilməsi xüsusilə diqqətəlayiq haldır".

Koişiro Matsuura Mehriban Əliyevanın baş redaktoru olduğu "Azərbaycan-İrs" jurnalının da fəaliyyətinə xüsusi diqqət yönəltdi: "Böyük məmnuniyyətlə üç dildə nəşr olunan "Azərbaycan-İrs" jurnalını da xatırlamaq istəyirəm" dedi. Baş direktor: "Jurnal Azərbaycanın və eləcə də bütün Qafqaz regionunun tarixi və mədəniyyəti barədə məlumatlar yaymaqla kifayətlənmir. Eyni zamanda, bütün dünya xalqlarının adət-ənənələrindən ətraflı bəhs edir".

YUNESKO-nun Baş direktorunun həmin mərasimdə Azərbaycan musiqisi və folkloru barədə səsləndirdiyi fikirlər də öz vətənini, xalqını sevən kəsdə qürur doğurmaya bilməz. Koişiro Matsuura Azərbaycanın zəngin musiqi və şifahi xalq yaradıcılığı ənənələrinə malik olduğunu vurğuladı: "Son illər bu sahəyə maraq hədsiz dərəcədə artmışdır. Musiqi və musiqi alətlərinin funksiyası yalnız səslərlə bitmir. Bunlar xalqların və millətlərin tarixi yolunu, onların keçirdikləri hissləri, habelə estetik dəyərləri özündə əks etdirir. Təsadüfi deyil ki, bəşəriyyətin mədəni incilərinin qorunması ilə bağlı 2003-cü ildə təşəbbüs irəli sürülərkən cəmi 30 saniyəlik proqrama məhz musiqi fraqmenti daxil edilmişdir.

Şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunması sahəsindəki yorulmaz səyləri ilə YUNESKO-nun xoşməramlı səfiri adını qazanan xanım Mehriban Əliyeva təşkilatımızın ideya və məramlarını həyata keçirən digər xoşməramlı səfirlər siyahısına daxil olur. Çox şadam ki, YUNESKO-nu və bizim hamımızı narahat edən məsələlərlə bağlı o, səfirlik missiyasını yerinə yetirməyə razılıq vermişdir".

Dünyanın ən nüfuzlu mədəniyyət qurumunun Mehriban Əliyevaya göstərdiyi bu yüksək etimad ümumilikdə Azərbaycanın böyük uğurudur.

Müstəqilliyimiz bərpa olunduqdan sonra dünya düzənində öz yerini yenicə möhkəmlədən Azərbaycan bu kimi töhfələrlə beynəlxalq birliyə inteqrasiya istiqamətində böyük imkanlar qazanır. Müstəqil dövlətimiz bu gün bütün dünyada aparılan mədəniyyətlərarası dialoqdan kənarda qala bilməz. Azərbaycan malik olduğumuz zəngin mədəniyyətlə bu dialoq prosesinin əsas iştirakçılarından birinə çevrilmək imkanına malikdir. Lakin bunun üçün hələ çox işlər görülməlidir. Bu zərurət Azərbaycan Prezidenti cənab İlham Əliyevin həmin mərasimdəki çıxışında da ifadə olunur: "Biz bu istiqamətdə fəal iş aparırıq. Avropa ölkələri ilə, ümumən beynəlxalq qurumlarla həm siyasi, həm iqtisadi, həm də sosial səviyyədə geniş əlaqələrimiz vardır. Şübhəsiz ki, biz mədəni əməkdaşlıq sahəsində daha çox uğur əldə etməyi arzulayırıq".

Azərbaycan Prezidenti əmin olduğunu bildirdi ki, Mehriban Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri təyin olunması bu sahədə Azərbaycan dövlətinə yardım göstərəcək: "Mehriban xanımın on ilə yaxın bir müddətdə rəhbərlik etdiyi fond mədəniyyətin inkişafı, mədəni irsin qorunması, xalqımızın ənənələrinin yaşadılmasında mühüm rol oynamışdır. Onun təsis etdiyi jurnal, fondun həyata keçirdiyi müxtəlif layihə və proqramlar ölkəmizdə mədəniyyət və incəsənətin ümumi inkişafına müsbət təsirini göstərir. Əminəm ki, bu təyinatdan sonra həm Mehriban xanımın, həm də fon-

dun fəaliyyəti beynəlxalq miqyasda daha çox nəzərə çarpacaq”.

Mehriban Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri adına layiq görülməsi həm Azərbaycan Prezidenti, həm də Mehriban xanımın həyat yoldaşı kimi İlham Əliyev üçün təbii ki, ikiqat sevinc hissi yaradır. O hesab edir ki, Mehriban xanım xoşməramlı səfir adını daşımağa layiqdir: “Çünki o həmişə insanlara xoş münasibəti, xoş niyyəti ilə seçilib. Bu onun xasiyyətinin fərqləndirici cəhətidir. Əminəm ki, bu yeni işdə də fəal çalışacaq və fəaliyyəti ilə ümumi məqsədlərimizə töhfəsini əsirgəməyəcək”.

Elmi ədəbiyyatlarda mədəniyyət anlayışlarına verilən bütün təriflər forma fərqindən asılı olmayaraq yekunda bir məzmun üzərində qərar tutur: insanların əldə etmiş olduqları bütün maddi və mənəvi nailiyyətlərin məcmusu. Bu nailiyyətlər yalnız dünən əldə edilməyib və yalnız bu gün də qazanılmır. Böyük insan toplumlarının taleyindən yalnız xırdaca elementlər götürən bu nailiyyətlərin arxasında min illərin zəhmət və iztirabları dayanır. Bu nailiyyətləri qazanmaq dünən insanlar üçün nə qədər çətin idisə, bu gün onun ən gözəl nümunələrini seçib ayırd etmək, göz bəbəyi kimi qorumaq və bəşər mədəniyyətinin ardıcıllığının təminatı naminə gələcək nəsillərə yetirmək də bir o qədər məsuliyyətli və şərəfli işdir. Mədəniyyətlər və sivilizasiyalar, keçmişlə bu gün arasında əlaqə yaratmaq işinin məsuliyyəti hamıdan daha çox YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın özünə məlumdur.

Qloballaşan dünyamız bu gün əlahəzrət informasiyanın və fantastik surətlə inkişaf edən informasiya texnologiyalarının diqqəti ilə qarşı-qarşıya qalıb. Bu özlüyündə nə qədər mütərəqqi bir inkişaf faktı olsa da, bu inkişaf mədəni irsə qarşı təcavüz təhlükəsini get-gedə artırmaqdadır. Belə bir zamanda Mehriban Əliyeva ulularımızdan bizə miras qalan mədəniyyət incilərimizin qorunub daha da zənginləşdirilərək gələcək nəsillərə

əmanət edilməsini özü üçün ən ali məqsədlərdən biri kimi müəyyənləşdirib. Bu məqsədin icrası üçün o, dəqiq fəaliyyət konsepsiyasına malikdir. Mehriban Əliyeva YUNESKO-nun rəhbərliyi ilə görüşü zamanı Bakıda "Qafqaz xalq ənənələri evi"nin yaradılması təşəbbüsü ilə çıxış edib. Belə bir qurumun təşkili Qafqaz xalqlarına məxsus mədəni irsin qorunması və təbliğat sahəsində son dərəcə mühüm addım ola bilər. Mehriban Əliyevanın "Qafqaz xalq ənənələri evi"nin yaradılması təşəbbüsünü irəli sürməsi, həmçinin dünyada maddi və qeyri-maddi mənəvi irsin qorunub saxlanması vəzifəsini yerinə yetirən YUNESKO-nu bu layihədə əməkdaşlığa dəvət etməsi bir neçə cəhəti ilə mühüm önəm daşıyır. Mehriban xanım bununla ilk növbədə təkcə Azərbaycanın deyil, bütün Qafqaz xalqlarının mədəniyyət hamisi olmaq missiyasını öz üzərinə götürüb. Digər tərəfdən, "Qafqaz xalq ənənələri evi"nin yaradılması zaman-zaman Azərbaycan və eləcə də digər Qafqaz xalqlarının mədəniyyət nümunələrinə şərik çıxan, mədəni incilərimizi həyasızcasına mənimsəyib bütün dünyada öz adı ilə təqdim etməyə çalışan ermənilərin və onların erməni xislətli havadarlarının bu cür imkanlarını sıfıra endirə bilər ki, bu da ümumilikdə Qafqaz xalqlarını erməni xislətindən xilas etmiş olar. Bu təşəbbüs həmçinin siyasi yükə malikdir. "Qafqaz xalq ənənələri evi"nin yaradılması Avropa Birliyinin təşəbbüsü ilə Qafqaz regionunda həyata keçirilən "Yeni Qonşuluq Siyasəti"nin effektivliyi baxımından son dərəcə mühüm əhəmiyyət kəsb edir.

Mehriban Əliyevanın Azərbaycan dövləti, xalqı naminə gördüyü işlər bütün bunlarla məhdudlaşmır. O, ölkənin birinci xanımı statusu ilə Azərbaycan cəmiyyətində novatordur. Dünyanın əksər ölkələrində dövlət rəhbərlərinin xanımlarının mədəni-sosial sahədə həyata keçirdikləri tədbirlər əsasında yaranan bu ənənənin Azərbaycanda formalaşdırılması məhz Mehriban Əliyevanın qismətinə yazılıb. Bunu yeni ənənənin formalaşdırılmasından daha çox dünyaya nə vaxtsa türk dünyasından yayılan və hansısa dönəmdə unutduğumuz qə-

dim ənənələrin yenidən bərpası, qayıdışı hesab etmək bəlkə də daha doğru olardı. Dövlətçilik sistemində Xaqan-xatun mödelini əslində bütün dünya məhz türk ruhundan əxz edib. Mehriban Əliyevanın timsalında bu qədim ənənənin müstəqil Azərbaycanın dövlətçilik sistemində yenidən bərpası onun ölməz türk ruhuna sədaqət hissi ilə bağlıdır. Ötən yüzillikdə lider xaqan missiyasını həyata keçirən Heydər Əliyevin ən yaxın köməyi bir xatun olaraq mərhum akademik Zərifə xanım Əliyeva idi. Yeni yüzillikdə onların ruhunun, ideyalarının varisi olan Prezident İlham Əliyevə də bu köməyi şübhəsiz ki, Mehriban xanım edəcək. Bu vəhdət, bu mənəvi birlik işğal olunmuş torpaqlarımızın azadlığa çıxmasında, Azərbaycanın bir dövlət kimi dünyada tanınmasında öz müsbət sözünü deməlidir. Bizlər Mehriban Əliyevanın bu səmtə yönəlmiş uğurlu fəatiyyətinə şahidik. İstər Azərbaycan Mədəniyyətinin Dostları Fondunun, istər Heydər Əliyev Fondunun, istərsə də Bədii Gimnastika Federasiyasının prezidenti kimi Mehriban xanımın gördüyü işlər göz önündədir. Onun atdığı addımlar, həyata keçirdiyi mədəni-ictimai tədbirlər xalqımızın, dovlətimizin inkişafına, dövlətçiliyimizin möhkəmləndirilməsinə, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutmasına doğru istiqamətlənib. Hər hansı problemin həllinə çarə arayan, haradasa kim tərəfindənsə haqqı tapdanan Azərbaycan vətəndaşı üçün Mehriban Əliyevanın timsalında artıq bir pənah yeri, bir ümid ünvanı da var.

Mehriban Əliyeva bu gün həyata keçirdiyi bəlli missiyanın əslində yaradıcısı deyil. Bu missiya Azərbaycandakı bütöv bir jurnalist nəslinin ustadı olan Nəsir Imanquliyevin, ədəbiyyat tariximizdəki ən uca zirvələrdən birini fəth etmiş böyük yazıçı və pedaqoq Mir Cəlal Paşayevin adı ilə başlayıb. Dəyərli alimlərimiz Arif Paşayevlə mərhum Aida xanım İmanquliyevanın ocağında verilən tərbiyə, ümummilli lider Heydər Əliyevdən, mərhum Zərifə xanımdan əxz edilən həyat dərsi ilə təfəkkürə, ruha qovuşub. Vaxtilə bu müqəddəs missi-

yanın icraçıları onlar idilər. Bu gün isə Azərbaycan Prezidenti İlham Əliyevlə birgə Mehriban xanım Əliyevadır. Və o, bu ali missiyaya sadiq qalmaya bilməzdi.

YUNESKO-nun xoşməramlı səfiri adı hələ yolun başlanğıcıdır – bu yolu Mehriban xanımın layiq olduğu çox mükafatlar, titullar, fəxri adlar bəzəyəcək. Lakin Mehriban Əliyeva üçün ən böyük mükafat yəqin ki, onun arzularında yaşayan Azərbaycan dövlətinin və xalqının layiq olduğu haqqa sahib çıxmasıdır. Mehriban xanımın istər Heydər Əliyev Fondu, istər Azərbaycan Mədəniyyətinin Dostları Fondu, istərsə də Azərbaycan Bədii Gimnastika Federasiyasının rəhbəri kimi atdığı bütün addımlar da elə məhz buna yönəlib.

***Nurlana ƏLİYEVA,***
***İki sahil,***
***2004, 23 oktyabr***

## *Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın şəxsi saytı açılmışdır*

Ümumdünya internet-veb məkanında Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ictimai və xeyriyyəçilik fəaliyyətini əks etdirən yeni internet-sayt açılmışdır. Saytla www.mehriban-aliyeva.org, habelə www.first-lady.az -da tanış olmaq mümkündür.

Sayt yüksək texnoloji proqram təminatı və internet texnologiyaları mütəxəssisləri qrupu tərəfindən hazırlanmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, Azərbaycan Prezidenti İlham Əliyevin, habelə onun şəxsi internet-saytlarını da həmin qrup yaratmışdır.

Qrupun rəhbəri, texnika elmləri namizədi Telman Məmmədov bildirmişdir ki, internet səhifəsi “Fəaliyyət”, “Səfərlər”, “Görüşlər”, “Müsahibələr”, “Çıxışlar”, “Xeyriyyəçilik fəaliyyəti”, “Ailə” və “Fotoalbom” bölmələrindən ibarətdir. Azərbaycan, rus və ingilis dıllərində ha-

zırlanmış internet-sayta daxil olanlar həmin bölmələrdə Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətini əks etdirən maraqlı materiallarla, habelə Azərbaycanın birinci xanımının tərcümeyi-halı ilə tanış ola bilərlər.

Saytda Mehriban Əliyevanın ölkəmizdə mədəni irsin qorunması, Azərbaycan mədəniyyətinin bütün dünyada layiqincə təbliği, idmanın, xüsusilə də Respublika Gimnastika Federasiyasının prezidenti kimi, gimnastikanın inkişafı sahəsində fəaliyyətinə həsr olunmuş məqalələr təqdim edilmişdir.

Saytın yaradıcılarının fikrincə, burada Heydər Əliyev Fonduna həsr olunmuş bölmə xüsusi yer tutur.

T.Məmmədov saytı hazırlayarkən lazımi informasiya təminatına görə Heydər Əliyev Fonduna, Azərbaycan Mədəniyyətinin Dostları Fonduna, Milli Olimpiya Komitəsinə, AzərTAc-ın rəhbərliyinə, “Respublika” qəzetinə, habelə Azərbaycan Gimnastika Federasiyasına minnətdarlığını bildirmişdir.

*Xalq qəzeti,*
*2004, 23 oktyabr*

## *Yeni miniatür kitab çapdan çıxmışdır*

Azərbaycan Respublikası «Kitab» Cəmiyyətinin xətti ilə nəfis tərtibatda «YUNESKO-nun xoşməramlı səfiri» adlı miniatür kitab çapdan çıxmışdır.

Yüksək poliqrafik səviyyədə, super cilddə, 38x51 millimetr ölçüdə olan miniatür kitabda 2004-cü il sentyabrın 7-də Parisdə YUNESKO-nun iqamətgahında Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya YUNESKO-nun xoşməramlı səfiri fəxri adının verilməsi münasibətilə keçirilən mərasimə dair materiallar öz əksini tapmışdır. Kitabda YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın, YUNESKO-nun xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın çıxışları və Azərbaycan Prezidenti İlham Əliyevin nitqi Azərbaycan, rus və ingilis dillərində verilmişdir.

Respublika «Kitab» cəmiyyətinin sədri Zərifə Salahovanın təşəbbüsü ilə nəşr olunan 176 səhifəlik miniatür kitabda verilən rəngli 12 fotoşəkil də müasir kitab sənətinin və qrafikasının qabaqcıl nailiyyətlərinin göstəricisi hesab olunmalıdır.

Z.Salahova qeyd etmişdir ki, bu gün Azərbaycanın mədəni irsinin qorunmasında, onun beynəlxalq aləmdə təbliğində böyük xidmətlər göstərən Mehriban xanım Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri adına layiq görülməsi milli mədəniyyətimizin tarixində əlamətdar hadisədir. 1995-ci ildə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış Azərbaycan Mədəniyyətinin Dostları Fondunun indiyədək uğurlu fəaliyyəti bunun bir daha bariz nümunəsidir. Mehriban xanım Əliyeva musiqi təhsili və gələcək nəslin maarifləndirilməsi, uşaqların sağlamlığının qorunması və bir çox sahələrdə də özünün xoşməramlı fəaliyyəti ilə xalqına xidmət göstərir. Kitabsevərlər tərəfindən böyük maraq və rəğbətlə qarşılanan bu yeni nəşr cari ildə ABŞ-da keçiriləcək miniatür kitab sərgisində nümayiş etdiriləcəkdir.

Kitab «İndiqo» nəşriyyatında çap olunmuşdur.

*AzərTac*
*2005, 18 fevral*

## YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva "İlin qadını" elan edilmişdir

Qadın liderlərin ictimai birliyinin təşəbbüsü ilə Azərbaycan Sosiologiya Assosiasiyasının keçirdiyi sorğunun nəticələrinə görə, YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva "İlin qadını" elan edilmişdir. Sorğu qadınların IV Beynəlxalq konfransının 10 illiyinə həsr olunmuş BMT-nin 49-cu xüsusi sessiyasına hazırlıq çərçivəsində keçirilmişdir.

Sorğunun aparılması ilə əlaqədar yaradılmış ekspert şurasının Beynəlxalq Mətbuat Mərkəzində keçirilən iclasında onun nəticələri açıqlanmışdır. Milli Məclisin deputatı, Qadın Liderlər Birliyinin sədri Məlahət Həsənova bildirmişdir ki, ictimaiyyətin bu sorğuya marağı gözlənildiyindən də yüksək olmuşdur. Nəzərdə tutulurdu ki, respondentlərin sayı təxminən 1500 nəfər olacaq, lakin sorğuda 2246 adam iştirak etmişdir.

Azərbaycan Sosiologiya Assosiasiyasının prezidenti Rüfət Quliyev demişdir ki, sorğu sərbəst surətdə seçilmiş bölgələrdə üç metodika üzrə – anket sorğusu yolu ilə, mətbuat vasitəsilə və ekspertlərin rəyləri üzrə keçirilmişdir. Anketdə mədəniyyət, publisistika, ictimai-siyasi, elm, təhsil, idman sahəsində fərqlənmiş 35 qadının adı var idi.

İştirakçıların sayı bölgələr üzrə belə idi: Bakı – 415, Əli Bayramlı – 150, Gəncə – 103, Ucar – 99, Qazax – 100, Cəlilabad – 100, Sumqayıt – 100, Dəvəçi – 100, Şamaxı – 100, Naxçıvan – 89, Yevlax – 102, Tərtər – 100, Qax – 102 nəfər. Respondentlərin 51 faizini qadınlar, 48,6 faizini kişilər təşkil etmişlər. Sorğu iştirakçılarının əksər hissəsi (41,4 faiz) 35-49 yaş qrupuna aiddir. Respondentlərin sosial statusu belədir: işləyənlər – 52,8 faiz, təhsil alanlar – 18,5 faiz, pensiyaçılar – 8,9 faiz, evdar qadınlar – 12,4 faiz, işsizlər – 7,4 faiz.

YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva daha çox (74,7 faiz) səs toplayaraq, Azərbaycan qadınına xas öz yüksək əxlaqi keyfiyyətlərinə, geniş xeyriyyəçilik fəaliyyətinə görə "İlin qadını" elan olunmuşdur.

Ekspert şurasının üzvləri Mehriban xanım Əliyevanı ümumxalq məhəbbətinə və dəstəyinə əsaslanan bu yüksək ada layiq görülməsi münasibətilə təbrik etmişlər.

İclasda həmçinin bildirilmişdir ki, qalibin, habelə ilk onluğa daxil olan şəxslərin mükafatlandırılması mərasimi yaxın günlərdə keçiriləcəkdir.

***AzərTAc***
***2005, 18 fevral***

## *«Muğam dəstgahları» layihəsi*
*Bir daha şifahi musiqi irsinin qorunması və təbliğinə dair*

Fevralın 18-də Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycan Mədəniyyətinin Dostları Fondunun və YUNESKO-nun «Muğam dəstgahları» layihəsi çərçivəsində ilk muğam konserti keçirildi. Tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev, Azərbaycan Mədəniyyətinin Dostlart Fondunun sədri, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva, görkəmli musiqi xadimləri, muğam ustadları, xarici qonaqlar, dövlət və hökumət rəsmiləri iştirak etdilər. Konsert dinləyicilər tərəfindən alqışlarla, yüksək təəssüratla qarşılandı.

Dövtət Filarmoniyasının səhnəsində Azərbaycan muğamı hələ 1930-cu illərdən başlayaraq, bu konsert qurumu təmirə dayandığı son illərə qədər səslənib. Başqa sözlə, Dövlət Filarmoniyası XX əsr ərzində Azərbaycan muğamının və eyni zamanda xalq mahnı və rəqslərimizin ən çox səsləndiyi, ifa olunduğu konsert müəssisəsi olub. Filarmoniyanın səhnəsində XX əsrin bütün görkəmli muğam və xalq mahnı ifaçıları konsertlər veriblər, bu səhnədə ifaçılıq təcrübəsi, dinləyici alqışları və sənət şöhrəti qazanıblar. Bu baxımdan, Dövlət Filarmoniyasının təmir-bərpa olunaraq musiqi mədəniyyətimizə qaytarılması həm də ifaçılıq ənənələrinin, muğam konsertlərinin bərpası və yenidən musiqi həyatımıza qaytarılması deməkdir. Digər tərəfdən, «Muğam dəstgahları» layihəsi – 18 fevral konserti muğamlarımızı bu səhnədə ifa etmiş bütün sənətkarların ruhu qarşısında, eyni zamanda muğamlarımızın tədrisi, elmi araşdırılması və nota yazılması işində ilk bünövrəni qoyan Üzeyir Hacıbəyovun, Bülbülün, Fikrət Əmirovun, Niyazinin... ruhları qarşısında böyük hörmət və ehtiram əlaməti kimi qiymətləndirilə bilər.

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun və YUNESKO-nun «Muğam dəstgahları» layihəsi haqqında

bəzi fikirlərimi oxucularla bölüşdürmək istəyirəm. Birincisi, bu layihə ilk növbədə Azərbaycan şifahi musiqi irsinin, onun orijinallığının qorunması, muğam ənənələrinin yaşadılması və təbliği məqsədi daşıyır. Bu məqsəd, əlbəttə, milli maraqlara xidmət edən yüksək humanist bir məqsəddir.

Qeyd edim ki, şifahi musiqi irsinin qorunması və yaşadılması müasir etnomusiqişünaslıq elminin ən aktual problemlərindən biridir. Təəssüflər olsun ki, ölkəmizdə hələ bu vaxta qədər Azərbaycan şifahi musiqi irsinin qorunması, saxlanması və yaşadılması probleminə həsr olunmuş elmi konfrans keçirilməyib. Halbuki müstəqillık əldə etmiş Azərbaycan xalqının şifahi musiqi mədəniyyətinin bugünkü və gələcək taleyi mütəxəssislər tərəfindən vaxtaşırı müzakirə edilməli, elmi mülahizələr, təklif və ideyalar ortaya qoyulmalı, elmi nəticələr müəyyənləşməlidir. Çünki şifahi musiqi irsinin qorunması, saxlanması və yaşadılması ciddi elmi yanaşma tələb edən problemdir. O cümlədən, qədim şifahi musiqi irsinin bərpası problemini də bu məsələlər sırasına daxil etmək lazımdır. Qədim maddi mədəniyyət nümunələrinin bərpasına dair arxeologiya, memarlıq və musiqi alətşünaslığı özünün kifayət qədər metod və təcrübəsinə malikdir. Bəs qədim dövrlərin maddi olmayan musiqi incəsənətini, musiqi nümunələrini necə bərpa etməli? Bu suala mən «Folklorizm: termin, proses, problem» («Musiqi dünyası» jurnalı, 2004, №3-4) məqaləmdə qismən cavab vermək istəmişəm. Lakin hesab edirəm ki, bu sahədə xarici ölkələrin də elmi təcrübəsini öyrənmək, ideya və təklifləri elmi şəkildə müzakirə etmək vaxtı çatmışdır. Odur ki, təklif edirəm: Azərbaycanda «Xalqların şifahi musiqi mədəniyyəti və müasirlik: saxlanma, təbliğat, bərpa, tədqiqat, əməkdaşlıq problemləri» mövzusunda beynəlxalq miqyaslı elmi-praktik simpoziumlar keçirilməsi məqsədəuyğun olar. Mütəmadi keçirilən bu beynəlxalq miqyaslı elmi-praktik tədbir yalnız Azərbaycanın, yaxud bir neçə şərq xalqının deyil, bütün dünya xalqlarının şifahi musiqisi-

ni əhatə etməlidir. Simpoziumlar vasitəsilə Azərbaycan bütün dünyada bu problemlə məşğul olan vahid elmi-mədəni məkana, vahid inteqrativ mərkəzə çevrilə bilər.

İkincisi, «Muğam dəstgahları» layihəsi Azərbaycan şifahi musiqi mədəniyyətinə göstərilən beynəlxalq marağın bilavasitə ifadəsidir, Azərbaycana bütün sahələrdə, o cümlədən, mədəniyyət sahəsində yaranmış beynəlxalq diqqət və maraq ilk növbədə ümummilli lider Heydər Əliyevin tarixi xidməti və nailiyyəti hesab olunur. Heydər Əliyev Azərbaycan mədəniyyətinin təbliği, dünyaya tanıdılması, ölkəmizin mədəni əlaqələrinin genişlənməsi istiqamətində çox uğurlu dövlət siyasəti aparmış və bu siyasət mədəniyyətimizin müasir dünyada öz layiqli yerini tuta bilməsinə, müxtəlif ölkələrdə Azərbaycan mədəni dəyərlərinə marağın durmadan artmasına, Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə inteqrasiyasına, Azərbaycan haqqında beynəlxalq miqyaslı təsəvvürlərin müsbət yönümdə dəyişməsinə səbəb olmuşdur.

Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı üçün böyük fəxarətdir ki, Azərbaycan mədəniyyəti sahəsində ümummilli lider Heydər Əliyevin apardığı uğurlu siyasi kurs bu gün də layiqincə davam etdirilir. Xüsusilə xalqımızın böyük və zəngin tarixi-mədəni dəyəri olan, bəşər sivilizasiyasının ən möhtəşəm mədəni abidələrindən sayılan Azərbaycan muğamlarına dair beynəlxalq layihələr həyata keçirilir, muğamların orijinallığı qorunur, dünyada təbliğ edilir. Bu layihələr çərçivəsində keçirilən tədbirlərdə ölkə başçısı cənab İlham Əliyevin iştirakı belə bir faktı təsdiq edir ki, Azərbaycan şifahi musiqi mədəniyyətinə diqqət və qayğı dövlət səviyyəsində reallaşdırılır və dövlət milli musiqi mədəniyyətinin qorunması, yaşadılması, təbliği yönümündə siyasətin əsas müəllifi, əsas aparıcısı və tənzimləyicisidir. Etnomədəniyyətə dövlət tərəfindən diqqət və qayğı göstərilməsi, bu sahədə qanunvericilik aktlarının qəbul edilməsi, dövlət proqramlarının və beynəlxalq layihələrin həyata keçirilməsi isə milli maraqlar baxımından çox əhəmiyyətli siyasətdir.

Azərbaycan muğamına beynəlxalq marağın daim yüksələn xətlə inkişaf etməsi hal-hazırda muğam mədəniyyətinə biganə olmayan hər birimizin qarşısında belə bir konkret vəzifə qoyur:

Azərbaycanı bütün Yaxın, Orta və Uzaq Şərqin musiqi-inteqrasiya, musiqi-dialoq, musiqi-ünsiyyət mərkəzinə çevirək. Başqa sözlə, müasir Azərbaycan bütün dünyada «Şərq musiqisi mərkəzi»nə çevrilmək şansına və imkanlarına malikdir. Bəs buna necə nail olmalı? Azərbaycanda ənənəvi şərq musiqi festivallarını, şərq musiqisi üzrə beynəlxalq elmi simpoziumları, şərq musiqisi ifaçılarının beynəlxalq müsabiqələrini təşkil etmək. Musiqişünas alimlərin və muğam ustadlarının yaxşı xatirindədir ki, sovet dönəmində 1978-ci ildən başlayaraq YUNESKO-nun xətti ilə Səmərqənddə, Daşkənddə beynəlxalq muğam simpoziumları keçirilirdi. Onu da xatırlatmaq istəyirəm ki, 1982-1990-ci illərdə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (Bakı Musiqi Akademiyasının) təşəbbüsü ilə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi bu konservatoriyada tələbə və aspirantların şərq musiqısi üzrə Ümumittifaq (SSRİ) elmi konfranslarını təşkil edibdir. Bu Şərq konfranslarının proqramları və tezisləri nəşr olunubdur. SSRİ respublikalarının konservatoriyalarından şərq musiqisini araşdıran tələbələr, aspirantlar və onların elmi rəhbərləri Bakıya gələrək, bu konfransların hər birində iştirak etmiş, məruzələrlə yanaşı, Azərbaycan xalq musiqisini də dinləmişlər.

İndi yeni tarixi şəraitdə yaşayan postsovet məkanında beynəlxalq muğam simpoziumlarını, yaxud beynəlxalq şərq musiqisi simpoziumlarını məhz Azərbaycanda bərpa etmək, yenidən təşkil etmək imkanları daha realdır.

Onu da xatırlatmaq istəyirəm ki, Bakı Musiqi Akademiyasının təşəbbüsü ilə SSRİ-də ilk dəfə 1984-cü ildə Bakıda «Şərq alətləri üzrə ifaçılıq müsabiqəsi» keçirilmişdir. Əlbəttə, o zaman bu müsabiqə yalnız «Sovet Şərqi»ni əhatə edirdi. Lakin ən əsası budur ki, Azərbaycan belə bir təcrübəyə malikdir və müasir dövrdə

Azərbaycanda 3-4 ildə bir dəfə «Şərq musiqisi ifaçılarının beynəlxalq müsabiqəsi» keçirilə bilər.

Üçüncüsü, «Muğam dəstgahları» və bu qəbildən olan layihə-konsertlər milli musiqi irsimizə vətəndaş münasibəti formalaşdırmaq baxımından çox mühüm əhəmiyyət daşıyır. Məhz bu tədbirlərin keçirilməsi və həm də tez-tez keçirilməsi tarixlərdən bizə miras qalan doğma musiqi mədəniyyətinə qarşı əhalidə, xüsusilə gənc nəsildə vətəndaş münasibəti, təəssübkeş münasibət formalaşdırmaq, vətənpərvərlik hissləri tərbiyə etmək üçün çox vacibdir. Odur ki, təklif edirəm: bu layihələr çərçivəsində konsertlər yalnız Bakıda yox, həm də başqa şəhər və rayonlarda, məsələn, Gəncədə, Lənkəranda, Şəkidə, Əli Bayramlıda, Qubada da keçirilsin. Regionlarda, əyalətlərdə yalnız iqtisadiyyatı deyil, həm də ictimai-sosial əhval-ruhiyyəni, mədəni həyatı dirçəltmək çox vacibdır. Rayonlarda vaxtilə fəaliyyət göstərmiş folklor, xalq özfəaliyyət kollektivlərinin bərpası və fəaliyyəti sahəsində, folklor-özfəaliyyət kollektivlərinin müsabiqə və festivallarının təşkili sahəsində xüsusi layihə həyata keçirilməsi, yaxud bu barədə xüsusi dövlət proqramı hazırlanması olduqca zəruri, aktual məsələdir. Həm də ona görə ki, yerlərdə folklor, xalq-özfəaliyyət kollektivləri lazımi səviyyədə fəaliyyət göstərə bilsələr, bu, Azərbaycan şifahi musiqi irsinin bərpası, qorunması və təbliği işinə də çox kömək göstərmiş olar.

Dördüncüsü, şifahi musiqi irsi yalnız muğamlardan ibarət deyil. Təəssüf ki, şifahi musiqi irsinin qorunması və təbliği məsələlərindən danışılanda, daha çox muğam musiqisinə yer ayrılır. Belə bir tendensiya isə yəqin ki müəyyən vaxtdan sonra «dalan»a yol aça bilər. Hesab edirəm ki, YUNESKO-nun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun Azərbaycan şifahi musiqi irsinə maraq və qayğısı aşıq musiqisinə, xalq mahnılarına, musiqi alətlərinə, instrumental xalq musiqisinə, milli rəqs mədəniyyətinə, qədim mərasimlərə və mərasim musiqisinə, arxivlərdə qalmış musiqi irsinə də istiqamətlənsə, bu, xalqımızın ürəyincə olar.

Bu kontekstdən çıxış edərək, bir məsələyə toxunmaq istəyirəm. Bakıda Azərbaycan xalq çalğı alətləri muzeyi fəaliyyət göstərsə də, bu muzey gözəgörünməz bir yerdədir, onun girişi isə dalanda yerləşir (inanıram ki, bir çox musiqiçilər, ziyalılar bu muzeyin mövcudluğundan, yaxud harada yerləşməsindən bixəbərdirlər). Ən acınacaqlısı budur ki, muzeyin ekspozisiyası cəmi bir darısqal otaqdan ibarətdir və burada Azərbaycan musiqi alətlərinin heç yarısı da nümayiş etdirilmir. Yaxşı olardı ki, müasir muzey standartlarına uyğun yeni binada «Azərbaycan milli musiqi alətləri muzeyi» yaradılsın. Belə bir muzey maddi və qeyri-maddi mədəniyyətimizin çox qədim və zəngin dəyərləri olan musiqi alətlərimiz haqqında geniş miqyaslı informasiya verə bilər. Xarici qonaqlarımızın belə muzeylə tanışlığı Azərbaycanın qədim və zəngin mədəniyyəti haqqında beynəlxalq ictimaiyyətin təsəvvürünü genişləndirər. Xüsusilə Azərbaycan milli musiqi alətlərinin «erməni musiqi alətləri», «Qafqaz musiqi alətləri» kimi təbliğ olunduğu bir vaxtda bu məsələnin həlli çox böyük mədəni və siyasi əhəmiyyət daşıyır.

Xarici ölkələrdə, Bakıda və rayon mərkəzlərində hökumət və qeyri-hökumət strukturlarının birgə əməkdaşlığı ilə «Azərbaycan Muğam Evi»nin yaradılması da məqsədəuyğun olar. «Muğam Evi» Azərbaycan xalq musiqi mədəniyyətinin ifa və təbliğ olunduğu mədəniyyət mərkəzi funksiyasını yerinə yetirə bilər.

Mətbuatın verdiyi imkandan istifadə edib, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun sədri, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya bütün ziyalıların və elmi ictimaiyyətin ürəyindən olan bir xahişimi də çatdırmaq istəyirəm: Azərbaycanda hər il (və yaxud iki ildə bir dəfə) «Qarabağ: tarix və mədəniyyət» mövzusunda beynəlxalq elmi simpozium keçirilsin, simpoziumun proqramına Azərbaycan xalq musiqisindən ibarət etnoqrafik konsert daxil edilsin.

***Ariz ABDULƏLİYEV***
***Yeni Azərbaycan,***
***2005, 22 fevral***

## *Xoşməramlı missiya*

*Sivilizasiyalararası dialoqun yaradılmasına töhfə verən Mehriban Əliyeva vətənində də milli-mənəvi irsin qorunması və maarifçilik fəaliyyətinin önündə gedir*

---

Ziyalı Azərbaycan qadını. İctimai-siyasi fəaiiyyətin şəxsi maraqların təminatına yönələn tərəfləri onu qətiyyən maraqlandırmayıb. Fəaliyyət qaydaları daha çox bu müstəvidə qurulanda bacardıqca kənara çəkilib. Vətənin, xalqın, ümumilikdə bəşəriyyətin mənafelərinə xidmət gününün yetişəcəyi anı gözləyib. Məqam çatan kimi bütün səylərini ortaya qoyaraq əməlləri ilə əbədiləşib. Bəlkə elə buna görə başqa xalqlardan fərqli olaraq, bizim keçmişimizdə elə bir qadın hökmdarın, sərkərdənin, şairənin, bir sözlə, müasir anlamla desək, qadın ictimai-siyasi xadimin adını çəkmək mümkun deyil ki, tarix onu daha çox bəd əməllərinə görə tanısın. Yada sala biləcəklərimiz o adlardır ki, onlar təkcə konkret şəxsiyyətlərin tarixdə bilavasitə təzahürü olmayıb, həm də bu gün Azərbaycan xalqına mənsubluğu ilə öyünən hər bir soydaşımız üçün ən ali dəyərlərin simvollarıdır. Zaman bu sıraya, təbii ki, öz əlavələrini edir. Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın timsalında bizlər yeni əsrimizin əvvəlində daha bir Azərbaycan qadınının da xalqına təmənnasız xidmət nümunəsi ilə tarixilik qazanmasına şahidik.

## *Sülh səfiri*

---

Dünyanın xilası uğrunda axtarışlar əslində bizim təsəvvür edə bildiyimizdən də əvvəllərə gedib çıxır. Minilliklər boyu Yer üzünün hər yerində insanlığa qənim kəsilmiş qanlı savaşların, həm fərdləri, həm də toplumları addım-addım izləyən ölüm təhdidlərinin, bu gün

hörümçək toru kimi bütün dünyanı sarmış terror xofunun ortadan götürülməsi, bəşəriyyətin asudə nəfəs alması üçün indiyə qədər çox prinsiplər irəli sürülüb. Əksər siyasi ideologiyaların, doktrinaların iflasından sonra indi bu həqiqət əksəriyyətin ümumi qənaətinə çevrilməkdədir ki, dünyamızın xilası daha çox məhz müxtəlif sivilizasiyalar arasında dialoqun qurulmasından, qarşılıqlı anlaşmanın əldə olunmasından gedir.

Mehriban xanım Əliyeva bu gün YUNESKO-nun xoşməramlı səfiri kimi fərqli mədəniyyətləri bir araya gətirərək ümumilikdə planetin xilası uğrunda əzmlə çalışanların ön cərgəsindədir. O, üzərinə düşən bu ali missiyanı uğurla yerinə yetirir.

Xronoloji ardıcıllıqla götürsək, Mehriban xanım Əliyevanın bu istiqamətdə fəaliyyəti 1995-ci ildə onun təşəbbüsü ilə Azərbaycan Mədəniyyətinin Dostları Fondunun yaradıldığı gündən başlanır. O vaxtdan üzü bəri musiqi təhsili və gələcək nəslin maarifləndirilməsi işi bu Fondun daim diqqət mərkəzində olub. Təşkil olunan xeyriyyə konsertlərinin dinləyicilərə bəxş etdiyi sevinc öz yerində, bu konsertlər həm də milli mədəniyyətimizin zəngin ənənələrinin qorunması işinə böyük xidmət göstərib. Davamlı səylər nəticəsində Azərbaycanda musiqi gimnaziyası və musiqi məktəbi tam təmir edilib, minlərlə yeniyetmə və gəncin musiqi aləminə qovuşa bilməsi üçün gözəl şərait yaradılıb. İmkansız ailələrin övladlarının bu prosesə cəlb olunmasını xüsusi qeyd etməliyik.

Mehriban Əliyevanın rəhbərliyi ilə Azərbaycan, rus və ingilis dillərində nəşr edilən «Azərbaycan-Irs» jurnalının gördüyü iş də Azərbaycan mədəniyyətinin beynəlxalq arenada təbliği baxımından böyük önəm daşıyır.

## *Milli «mən»in hamisi*

Bu gün bütün dünyanın informasiya əsrinə qədəm qoyması, informasiya texnologiyalarının inkişafı sahəsində əldə olunan fantastik nailiyyətlərin az qala hər gün

həyatımıza hansısa bir dəyişiklik gətirməsi nə qədər mütərəqqi meyl sayılsa belə, bu inkişaf milli tarixi-mədəni irsə müəyyən təhlükə meyillərini də istisna etmir. Belə bir əyyamda Azərbaycan və ümumilikdə Cənubi Qafqaz mədəniyyətinin YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın timsalında özünə etibarlı bir hami, xilaskar tapması sevindirici məqam kimi qiymətləndirilməlidir. Həyata keçirdiyi missiyaya o, çağdaş dünyada qarşıda dayanan ən vacib vəzifələrdən biri kimi yanaşır: «İndi, kütləvi mədəniyyət stereotiplərinin hakim olduğu bir səraitdə, milli ənənələrin qorunub saxlanılması, onlara qayğı ilə, düşünülmliş münasibət göstərilməsi son dərəcə vacibdir. YUNESKO-nun çoxsaylı vəzifələrindən biri də insanın mənəvi dünyasını qorumaqdır. Odur ki, planetimizdə məskunlaşmış xalqlardan hər birinin milli «mən»ini daha parlaq əks etdirən qeyri-maddi irs incilərinin qorunması ən aktual vəzifəyə çevrilir».

Tarixdən bizə yadigar qalmış mədəniyyət incilərimizin qorunması, bu sərvətin heç bir itkiyə məruz qalmadan gələcək nəsillərə əmanət edilməsi üçün o, dəqiq, məqsədyönlü, konkret fəaliyyət planına malikdir. Mehriban Əliyevanın Bakıda «Qafqaz xalq ənənələri evi»nin yaradılması ilə bağlı YUNESKO qarşısında irəli sürdüyü təşəbbüs də bu planın tərkib hissəsi kimi nəzərdən keçirilməlidir. Belə bir qurumun təşkili Qafqaz xalqlarına məxsus mədəni irsin qorunması, təbliği istiqamətində böyük faydalar vəd edir.

Bu təşəbbüs eyni zamanda həm də siyasi mahiyyət daşıyır. «Qafqaz xalq ənənələri evi»nin yaradılması Avropa Birliyinin təşəbbüsü ilə Qafqaz regionunda həyata keçirilən «Yeni qonşuluq siyasəti»nin icrasına əhəmiyyətli töhfə verə bilər. YUNESKO qeyri-siyasi qurum olsa da, bu təşkilatın toplantıları çərçivəsində müxtəlif problemlərin müzakirəsi zamanı Mehriban xanım Əliyeva vaxtaşırı Dağlıq Qarabağ problemini də gündəmə gətirir, Azərbaycan həqiqətlərini bütün dünyanın nəzərinə çatdırır.

## *Xalqımızın genetik kodu*

Hər dəfə muğama qulaq asanda nədənsə adama elə gəlir ki, azərbaycanlının dünya ilə ilk ünsiyyəti muğamla qurulub. Muğamı Azərbaycan xalqının genetik kodu sayan Mehriban xanım bu fikrində tam haqlıdır. Onun Azərbaycan xalqına ən böyük xidmətlərindən biri də elə bundan ibarətdir ki, o, dünyayla ilk ünsiyyətimizin qurulduğu dilə – muğamımıza yeni həyat verdi. YUNESKO artıq Azərbaycan muğamını bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil edib. Mehriban Əliyevanın təşəbbüsü ilə hazırlanan «Qarabağ xanəndələri» albomundan sonra yeni muğam layihələri üzrə işlər davam etdirilir. Avqustun 24-də isə Bakıda Beynəlxalq Muğam Mərkəzinin təməli qoyuldu. Çox keçməz, bu mərkəz paytaxtımızın ən gözəl yerlərindən birində yeni bir mənəviyyat məbədi kimi ucalar.

Mehriban xanım Əliyeva Azərbaycan, ümumilikdə ümumtürk musiqi sənətinin əhəmiyyətinə görə muğamdan əsla geri qalmayan başqa bir qolu olan aşıq sənətinə də diqqətin artırılması, bu sənətin YUNESKO-nun qeyri-maddi irs siyahısına salınması yönündə səyləri davam etdirir. Bütün bunlar YUNESKO ilə əməkdaşlıq çevrəsində görülən işlərin cüzi bir hissəsidir. Xatırladaq ki, İçərişəhər, Qız qalası çox nadir memarlıq incisi kimi artıq dünya mədəni irs siyahısına salınıb. Azərbaycanın bir sıra görkəmli şəxsiyyətlərinin yubileyləri YUNESKO-nun təqvimində öz əksini tapıb. Dahi Məhəmməd Füzulinin 500 illik, «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi ümumilikdə bəşəriyyət üçün əhəmiyyətli hadisə kimi anılıb. Bu ilin sentyabrında isə Parisdə görkəmli Azərbaycan alimi Yusuf Məmmədəliyevin 100 illik yubileyinin keçirilməsi planlaşdırılır.

## *Maarifçilik xəttinin davamçısı*

Azərbaycan qurumlarının YUNESKO-nun bir sıra elm, təhsil və mədəniyyət proqramlarında iştirakı, ələlxüsus təhsil sahəsində əməkdaşlıq cəmiyyətimiz üçün böyük əhəmiyyətə malikdir. Bir faktı diqqətə çatdıraq ki, Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən və dövlət qurumları ilə birgə vətəndaş cəmiyyətinin bir çox strukturlarının da dəstək verdiyi «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi çərçivəsində təkcə bu il ərzində ölkəmizin müxtəlif regionlarında 132 məktəbin inşası, həmçinin lazımi avadanlıqla təchiz olunması nəzərdə tutulub. Artıq başa çatmaqda olan bu proses, özünün də söylədiyi kimi, Mehriban xanım Əliyevanın birbaşa nəzarətindədir: «Çalışıram ki, tikinti ilə bağlı hər gün məlumat alım. Tikintilərin bir qismində özüm şəxsən olmuşam, işlərin həqiqətən də çox böyük sürətlə getdiyini görmüşəm. Bu məktəblərin tikintisi «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsinin yalnız ilk mərhələsidir. Hazırda ikinci mərhələyə daxil olan məktəblərin siyahısı hazırlanır. Mən inanıram ki, 3-4 ildən sonra Azərbaycanın hər bir kəndində ən müasir tələblərə cavab verən məktəb binası olacaqdır». Bu gün Mehriban Əliyevanın həyata keçirdiyi bu xətt xalqın nicat yolunu hələ yüzillər öncə təhsilin, elmin inkişafında görən M.F.Axundov, H.Zərdabi, Mirzə Cəlil kimi maarifpərvərlərimiz tərəfindən əsası qoyulmuş müqəddəs xəttin davamıdır.

Onun rəhbərlik etdiyi fond ölkəmizdəki tarixi abidələrin qorunmasında da fəal iştirak edir. Gəncə şəhərində Cavad xan türbəsinin, Comərd Qəssabın məqbərəsinin, Bakının Şüvəlan qəsəbəsində yerləşən Pirhəsən ziyarətgahının bərpasını, Abdulla Şaiqin ev-muzeyinin təmirini buna nümunə göstərə bilərik. Fond eyni zamanda Azərbaycanda müasir texnologiyaların inkişafı istiqamətində də əhəmiyyətli işlər həyata keçirir.

Bir müddət öncə geniş auditoriyaya təqdim edilən, həcminə və keyfiyyətinə görə ölkədə analoqu olmayan «Azərbaycan» informasiya portalının yaradılması internet reallığının həyatımızın ayrılmaz tərkib hissəsinə çevrildiyi indiki günlərdə Azərbaycan mədəniyyətinə verilən ən böyük töhfədir. Bu layihənin reallaşmasına Azərbaycanın aparıcı mütəxəssisləri cəlb edilib, çoxsaylı arxivlərdən, kitabxanalardan və dövlət müəssisələrindən toplanmış dəyərli materiallar, sənədli bilgilər burada öz əksini tapıb.

## *Birinci ledi*
### *Azərbaycan cəmiyyəti onu daha yaxından tanımağa başlayır*

---

Respublikamızda ilk dəfə olaraq ictimaiyyətin müxtəlif təbəqələrinin iştirakilə əlamətdar bir müsabiqə – «İlin qadını» sorğusu keçirilib. Məlum olduğu kimi, analoji sorğular dünyanın başqa ölkələrində də təşkil edilib və bu tədbirlər qadınlarin IV Beynəlxalq konfransının (1995-ci ildə Pekində keçirilmişdi) 10 illiyinə həsr olunmuş BMT-nin 49-cu xüsusi sessiyasına hazırlıq çərçivəsində keçirilir.

«Lider qadınlar» İctimai Birliyinin təşəbbüsü ilə Azərbaycan Sosiologiya Assosiasiyasının keçirdiyi sorğunun nəticələrinə görə, YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva «İlin qadını» elan edilib. Bu fakta müxtəlif aspektlərdən yanaşmaq olar, lakin, zənnimizcə, başlıca məqam ondan ibarətdir ki, Azərbaycanda ilk dəfə olaraq ictimaiyyətin diqqəti ölkənin birinci xanımının şəxsiyyəti üzərində köklənib. Təbii ki, bunu birinci növbədə Mehriban xanımın aktiv ictimai fəaliyyətinin, o cümlədən xeyriyyəçilik fəaliyyətinin cəmiyyət tərəfindən adekvat qiymətləndirilməsi kimi xarakterizə etmək lazımdır.

Eyni zamanda, bu fakt Azərbaycanda dövlət (hakimiyyət) – cəmiyyət münasibətlərində yeni ştrixlərin üzə çıxdığının göstəricisidir. Ictimai rəy artıq yalnız dövlət rəhbərinin şəxsiyyətinə, onun addımlarına deyil, ölkənin birinci xanımının fəaliyyətinə də münasibət bildirir. Bu faktı həmçinin Azərbaycan cəmiyyətinin hakimiyyətə, rəsmiyyətə münasibətində əvvəllər mövcud olmuş stereotiplərin tədricən yox olması kontekstində dəyərləndirmək lazımdır. Bu əlamətdar tendensiya hələ bir neçə il öncə özünü büruzə verməyə başlamışdı. Mərhum Prezident Heydər Əliyevin paytaxtda və regionlarda əhali ilə qeyri-rəsmi təmasları, müxtəlif bayram tədbirlərində, o cümlədən Novruz şənliklərində sıravi insanlarla səmimi iltifat qurması – bütün bu faktlar ilk baxişdan formal təsir bağişlasa da, əslində, Azərbaycan cəmiyyətinin uzun illər öyrəşdiyi və rəhbər simasinin, bir növ rəsmiyyətin zəruri ştrixləri sayılmış stereotiplərin aradan qalxması idi.

Azərbaycanda yeni Prezident seçiləndən sonra da bu təqdirəlayiq tendensiya davam etməkdədir. Cəmiyyət Prezident Ilham Əliyevin əhali ilə qeyri-formal iltifatına, yaxud onun avtomobilin sükanı arxasına keçərək paytaxtı gəzməyə çıxmasına müsbət rezonans verir. Bu faktlar nəticə etibarilə Azərbaycanda hakimiyyətlə cəmiyyət arasındakı rəsmiyyət pərdəsinin qalxmasına, bu münasibətlərin daha şəffaf və qarşılıqlı etimad atmosferində qurulmasına dəlalət edən nüanslardır. Qeyd etmək lazımdır ki, bütün sivil ölkələr üçün xarakterik olan bu tendensiya özündə demokratik və plüralist cəmiyyətin (vətəndaş cəmiyyətinin) formalaşmasını da ehtiva edən uzun bir prosesdir və Azərbaycanda da dövlət-cəmiyyət münasibətləri bu yolu keçməlidir.

Lakin hakimiyyətin cəmiyyətə açılması, dövlət rəhbərinin, onun ətrafının, habelə şəxsi həyatının, ailəsinin sıravi insanlar üçün əlçatan (təbii ki, bütün normal cəmiyyətlərdə qəbul olunmuş ictimai etika çərçivəsində) olması təkcə sözügedən formal stereotiplərin ləğvi ilə məhdudlaşmır. Bu xüsusda çox vacib missiyanı

daşiyan və dövlətin birinci adamının ictimai şüurdakı simasını bir növ tamamlayan bir şəxs də var. Bu, dövlət başçısının xanımı, yaxud, bütün dünyada qəbul olunmuş sözlə ifadə etsək, ölkənin birinci ledisidir.

«Birinci ledi» anlayışi ayri-ayri ölkələrdə dövlətçilik ənənələrindən, siyasi sistemdən, milli-mental dəyərlərdən və s. asılı olaraq müxtəlif səpgidə qəbul olunsa da, onun bütün ölkələr üçün eyni olan parametri var. Bu, dövlətin birinci xanımının yüksək ictimai statusudur. Ölkənin birinci ledisinin şəxsiyyətinə ictimai maraq miqyasina görə yalnız dövlət başçısına olan maraqla müqayisə edilə bilər.

Yeri gəlmişkən, «birinci ledi» ifadəsi XIX əsrin ortalarında ABŞ-da meydana gəlib. Hərçənd, uzun müddət Amerika cəmiyyətində birinci ledinin statusu dekorativ səciyyə kəsb edib. XX əsrdə bu status daha real və ictimai əhəmiyyətli şəkil aldı. Teodor Ruzveltin və Vudro Vilsonun hakimiyyəti gövründə onlarin xanımları faktiki olaraq Ağ ev administrasiyasının katibliyinə rəhbərlik edirdilər. ABŞ Prezidenti vəzifəsinə 4 dəfə seçilmiş Franklin Ruzveltin həyat yoldaşı Eleanor Ruzvelt geniş ictimai fəaliyyətlə məşğul olur, Konqresdə çixişlar edir, aktual məsələlərlə bağlı müsahibələr verir, mətbuatda məqalələr dərc etdirirdi. Bu fəallığın məntiqi davamı kimi o, ABŞ-in BMT-dəki təmsilçisi oldu və «Insan haqlari Bəyannaməsi»nin müəlliflərindən biri kimi tarixə düşdü. Nəhayət, ABŞ tarixində ən populyar birinci ledi olmuş Hillari Klinton böyük siyasətdə də qüvvəsini sınadı və hazırda Senatın üzvüdür, 2008-ci il seçkiləri üçün isə demokratların əsas namizədi sayılır. Bugünkü Amerika reallığında birinci ledi hakimiyyət elitasının mühüm simalarından biri kimi qəbul olunur, onun Ağ evdə geniş ştata malik ayrıca ofisi var və amerikalılar seçkilərdə təkcə Prezident və vitse-prezidentliyə namizədlərə deyil, həmçinin gələcək birinci lediyə səs verirlər və sonuncu məqam elektoral baxımdan heç də az rol oynamır.

Digər ölkələrdə birinci ledi faktoru, ABŞ-dakı qədər fəal mövqelərə malik olmasa da, yuxarıda qeyd et-

diyimiz kimi, daima ictimaiyyətin diqqət mərkəzindədir. Patriarxal ənənələrin və poliqamiyanın hakim olduğu müsəlman-ərəb ölkələrində də birinci ledinin şəxsiyyəti, bu və ya digər hərəkəti geniş ictimai diskussiya doğurur. Asiya ölkələrinin birinci lediləri isə hətta regional təşkilat (16 ölkənin təmsil olunduğu «Birinci ledilər klubu»na hazırda Pakistan Prezidentinin xanımı sədrlik edir) təsis ediblər və mütəmadi sammitlərini keçirirlər. O ki qaldi Avropaya, burada da birinci ledilər daha çox ictimai fəaliyyətlə, xeyriyyəçiliklə məşğul olurlar, müxtəlif qeyri-hökumət fondlarına rəhbərlik edirlər. Hətta fəal siyasətə qoşulanlar da var.

Qeyd edək ki, postsovet ölkələrində birinci ledi institutu (belə demək mümkünsə) hələ yeni formalaşır. Sovet dövründə dövlət başçısının şəxsi həyatı və ailəsi geniş ictimaiyyət üçün qapalı mövzu olub. Yalnız 80-ci illərin sonunda, yəni SSRI qüruba doğru gedərkən bu «ənənə» pozuldu. Sovet cəmiyyəti SSRI-nin birinci (və sonuncu) prezidenti ilə yanaşı onun xanımını, sovet dövlətinin birinci ledisini də tanıdı. Lakin Raisa Maksimovnanın hədsiz təkəbbürü və ictimai rəyi qıcıqlandıran manerası (yeri gəldi-gəlmədi, bu və digər məsələyə münasibət bildirməsi, jurnalistlərin M.Qorbaçova ünvanladığı siyasi sualları da onun əvəzindən cavablandırması) bu tanışlıqda yalnız mənfi izlər qoydu və nəticə etibarilə M.Qorbaçovun ölkə daxilindəki mənfi reputasiyasına da «əsaslı töhfə» verdi. Odur ki, R.Qorbaçovanın «nümunəsi» birinci ledi məsələsində mənfi örnək sayıla bilər.

Ölkəmizin müstəqilliyini bərpa etməsindən 14 il keçsə də, «birinci ledi» anlayişi Azərbaycan cəmiyyəti üçün yenidir. Bunun isə, necə deyərlər, obyektiv və subyektiv səbəbləri var. Bəllidir ki, mərhum dövlət başçısı Heydər Əliyevin xanımı hələ o, Moskvada, SSRI rəhbərliyində işləyərkən dünyasını dəyişmişdi. Düzdür, Azərbaycan cəmiyyəti akademik Zərifə Əliyevanı kifayət qədər tanıyırdı və onun böyük alim, qayğıkeş həkim və bir Azərbaycan qadını kimi xatirəsi ictimaiyyətin yad-

daşında yaşayır. Bununla belə, qeyd etdiyimiz kimi, sovet reallıqları çərçivəsində ölkənin, respublikanın birinci şəxsinin xanımının sözün indiki mənasında birinci ledi rolunda çıxış etməsi mümkünsüz idi. Eyni zamanda, mərhum H.Əliyevin ayrı-ayrı müsahibələrindəki, o cümlədən V.Mustafayevin filmindəki xatirələri Azərbaycan cəmiyyəti üçün əlamətdar açıqlamalar olmaqla bərabər, ictimai fikirdə dövlət başçısı və xanımı barəsində kifayət qədər komplekssiz rəyin formalaşması üçün əhəmiyyətli ştrixlər sayıla bilərdi. Bu açıqlamalardan aydın olurdu ki, əgər ömür vəfa etsəydi, müstəqil Azərbaycanın əhalisi Zərifə xanımın simasında aktiv ictimai fəaliyyətlə məşğul olan və birinci ledi missiyasını bacarıqla yerinə yetirən bir qadını görəcəkdi.

O ki qaldi Ayaz Mütəllibov və Əbülfəz Elçibəyin hakimiyyətdə olduğu dövrə, Azərbaycan cəmiyyəti nə bu şəxslərin prezident kimi normal fəaliyyətini gördü, nə də onların həyat yoldaşlarını tanıdı. A.Mütəllibovun xanımı bir neçə dəfə onu rəsmi mərasimlərdə müşayiət edərkən televiziya ekranında görünmüşdü, amma ölkə əhalisi qatı demokrat və liberal dəyərlərin daşıyıcısı kimi təqdim olunan mərhum Ə.Elçibəyin yanında onun xanımını heç televiziya ekranında da görmədi. Yerli mətbuat bu ştrixin üzərindən ümumən sakit keçsə də, o, Azərbaycana təşrif buyuran, habelə Ə.Elçibəyin xarici səfərlərini işıqlandıran əcnəbi jurnalistlərin diqqətindən yayınmamışdı.

Nəhayət, Azərbaycan cəmiyyəti ilk dəfə olaraq dövlət başçısı Ilham Əliyevin və onun xanımının timsalında ictimaiyyətlə səmimi münasibətlərdən çəkinməyən, onunla qarşılıqlı iltifat qurmağa çalışan Prezident ailəsini gördü. Qeyd etmək lazımdır ki, Azərbaycan ictimaiyyəti Mehriban xanımı o hələ birinci ledi statusunu qazanmamışdan xeyli əvvəl tanımağa başlamışdı. M.Əliyeva ali tibb təhsili (M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb Institutunu fərqlənmə diplomu ilə bitirib) alsa da, doğulub-böyüdüyü mühit etibarilə ədəbiyyata, mədəniyyətə yaxından bağlı insandır və 1995-ci ildə onun təşəbbüsü ilə «Azərbaycan

Mədəniyyətinin Dostları» xeyriyyə fondunun təsis edilməsi bunun göstəricisi idi. Fond ötən müddətdə Azərbaycanın zəngin mədəni irsinin beynəlxalq müstəvidə təbliğində, habelə xeyriyyəçilik sahəsində, milli mədəniyyətimizin qocaman korifeylərinə yardımlar edilməsində aktiv fəaliyyət göstərib. 1996-cı ildən üç dildə (Azərbaycan, rus və ingilis) nəşr olunan «Azərbaycan-Irs» jurnalı isə mədəniyyətimizin dünyaya tanıdılmasında önəmli missiyanı yerinə yetirir. Azərbaycan muğamının beynəlxalq səviyyədə tanınması və YUNESKO tərəfindən dünya mədəni irsinin inciləri sırasına daxil edilməsində fondun müstəsna xidməti olub. Təsadüfi deyil ki, YUNESKO-nun rəhbərliyi M.Əliyevanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirib və 2004-cü ilin sentyabrında ona təşkilatın xoşməramlı səfiri statusu verilib. Nəzərə alsaq ki, belə fəxri titulu dünya üzrə cəmisi 42 nəfər daşıyır və M.Əliyeva müsəlman aləmindən bu ada layiq görülmüş üç qadından biri (Mərakeşin şahzadəsi Lalla Məryəm və dünyanın məşhur xeyriyyə təşkilatlarından olan «Həriri Fondu»nun rəhbəri, Livanın keçmiş baş naziri Rafiq Həririnin bacısı Bahia Həriri də bu ada layiq görülüb), türkdilli ölkələrin isə yeganə qadın təmsilçisidir, həmin vəzifənin nə qədər məsuliyyətli olduğunu başa düşmək olar. Ölkəmizin birinci ledisi bu mötəbər təşkilatda təkcə Azərbaycanın deyil, bütün türk xalqlarının mədəni irsinin təbliğatçısı kimi şərəfli missiyanı yerinə yetirməkdədir. Ötən ilin dekabrında Kazan şəhərində (Tatarıstan) YUNESKO-nun qeyri-maddi mədəni irsin qorunmasına dair regional seminarında Mehriban xanım bu yöndə konkret təşəbbüslə çıxış edərək türk xalqlarının mədəniyyətini əhatə edən regional layihələr hazırlanacağını bildirib. Digər tərəfdən, YUNESKO-nun xoşməramlı səfiri statusu Azərbaycanın bir nömrəli probleminin dünya ictimaiyyətinə çatdırılması baxımından əhəmiyyətli bir vasitədir. Təsadüfi deyil ki, M.Əliyeva YUNESKO-nun xoşməramlı səfiri kimi iştirak etdiyi ilk beynəlxalq forumda həmin məsələni önə çəkib və dünya xəzinəsinə dəyərli töhfələr vermiş Azərbaycanın mədəni irsinin Ermənistanın təcavüzünə məruz qaldığını

vurğulayıb. O, beynəlxalq ictimaiyyətin nəzərinə çatdırıb ki, YUNESKO Azərbaycan muğamını bütün bəşəriyyətin inciləri siyahısına daxil edib, amma muğamın vətəni olan Şuşa, Qarabağın digər dilbər guşələri Ermənistanın işğalı altındadır, bu ərazilərdə Azərbaycan xalqının qədim memarlıq və mədəniyyət abidələri məhv edilib. M.Əliyevanın Azərbaycan musiqisinin şah əsəri olan muğamın inkişafi və gələcək nəsillərə çatdırılması istiqamətində fəaliyyəti də diqqətəlayiqdir. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu yaxınlarda başladığı təşəbbüs – Muğam Mərkəzinin yaradılması layihəsi ümumilikdə Azərbaycan mədəniyyəti üçün əlamətdar hadisə sayılmalıdır. Mərkəz Azərbaycan muğamının dünya miqyasına çıxarılmasında, beynəlxalq muğam simpoziumlarının, festivalların təşkilində mühüm rol oynayacaq.

Azərbaycanın birinci ledisinin ictimai fəaliyyətinin əhəmiyyətli bir istiqamətini də onun idman sahəsində gördüyü işlər təşkil edir. 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasına rəhbərlik edən M.Əliyeva həmin vəzifədə özünü bacarıqlı təşkilatçı kimi tanıdıb. Qısa müddətdə bu zərif idman növü Azərbaycanda geniş yayılmağa başlayıb, Azərbaycan gimnastları beynəlxalq miqyasda ilk uğurlarını qazanıblar. 2003 və 2004-cü illərdə bədii gimnastika üzrə Dünya Kuboku yarışlarının Bakıda keçirilməsi, həmçinin 2005-ci ildə bu idman növü üzrə dünya çempionatının ölkəmizdə keçirilməsinə dair qərarın qəbul olunması M.Əliyevanın rəhbərlik etdiyi federasiyanın beynəlxalq nüfuzunun göstəricisidir.

Bununla belə, mübaliğəsiz qeyd etmək olar ki, Azərbaycanın birinci xanımının ictimai fəaliyyətinin ən dəyərli və bütün cəmiyyətin diqqətini çəkən istiqaməti onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun başladığı geniş sosial proqramlardır. Əgər indiyədək M.Əliyevanın fəaliyyəti ölkə həyatının ayrı-ayrı sahələrini (mədəniyyət, idman) əhatə edirdisə, cəmiyyətin ən həssas, diqqət və mərhəmətə ən çox ehtiyac duyan hissəsinə – yetim, kimsəsiz, ağır xəstəliyə düçar olmuş, əq-

li və fiziki qüsurları olan uşaqlara, habelə çətin sosial şəraitdə yaşayan məcburi köçkünlərin övladlarına qayğı göstərilməsi ümumxalq əhəmiyyətli bir işdir. Sözsüz ki, bu kateqoriyaya aid olan uşaqların qibtəedilməz durumu, həmçinin mövcud büdcə imkanları daxilində onlara göstərilən dövlət qayğısının yetərli olmaması hakimiyyətə də, cəmiyyətə də yaxşı bəllidir. Eyni zamanda, o da aydındır ki, dünyanın heç bir ölkəsində bu qəbildən olan insanlara qayği və diqqət yalnız dövlət qurumlarının fəaliyyəti ilə məhdudlaşmır.

Odur ki, birinci ledinin başladığı iş qeyri-dövlət resurslarını bu istiqamətə səfərbər etmək, digər yaşıdları kimi deyə-gülə yaşamaq imkanından məhrum olan uşaqların problemlərini bütün cəmiyyətin sosial prioritetləri sırasına daxil etmək məqsədi daşıyır. Heydər Əliyev Fondu ötən ildən başlayaraq bu istiqamətdə bir sıra tədbirlər (məcburi köçkün uşaqlarına yardımların göstərilməsi, paytaxtda bir neçə internat-məktəbin təmiri, diabetli və talassemiyalı uşaqlara yardım proqramları və s.) həyata keçirir. Fond tərəfindən hazırlanan və 2005-ci ilin yanvarından həyata keçirilməyə başlanan geniş proqram isə Bakıdakı internat-məktəblərin və uşaq evlərinin yenidən qurulmasını nəzərdə tutur. Proqram çərçivəsində sözügedən müəssisələrə baş çəkən M.Əliyeva harada (təkcə Əzizbəyov rayonunda bu tipli 41 müəssisə var) konkret hansı yardımın zəruri olduğunu şəxsən dəqiqləşdirir.

Lakin bu xüsusda artıq indidən özünü göstərən bir nüansı qeyd etmək lazımdır. M.Əliyeva paytaxtdakı internat və uşaq evləri ilə tanışlığı zamanı belə bir məqam diqqəti çəkdi ki, bu ziyarəti təşkil edən hökumət nümayəndələri onun təkcə çoxsaylı problemləri olan müəssisələrə (beləleri əksəriyyət təşkil edir) deyil, həmçinin normal şəraiti (əsasən xarici donorların yardımı hesabına) olan müəssisələrə də baş çəkməsinə çalışırlar. Əlbəttə, bu, xoş niyyətlə, yəni problemləri yoluna qoyulmuş, bir növ nümunəvi sayılacaq məktəb və internatların da olduğunu göstərmək üçün edilirsə, normal

qarşılana bilər. Amma görünən odur ki, bəzi məmurlar birinci ledini kurasiyalarında olan sosial müəssisələrə (təbii ki, söhbət nümunəvi müəssisələrdən gedir) dəvət etməklə daha çox şəxsi niyyət güdürlər və özlərini reklam etmək istəyirlər. Özünü reklam etmək istəyən müxtəlif qeyri-dövlət qurumlarının, xeyriyyə təşkilatlarının da bu «yarış»a qoşulduğu bildirilir. Bu isə nəticə etibarilə ölkənin birinci ledisinin diqqət və etimadından sui-istifadə deməkdir və belə arzuolunmaz tendensiyanın cəmiyyətdə hansı rezonansı doğuracağını dərk etmək çətin deyil.

O ki qaldi ölkə əhalisinin birinci ledinin fəaliyyətinə verəcəyi qiymətə, yuxarıda qeyd etdiyimiz sorğunun nəticələri bu yöndə yalnız ilk ictimai mesaj sayıla bilər. Ən azı ona görə ki, Mehriban xanım birinci ledi simasında cəmiyyət qarşısına yeni çıxıb və onun bu ictimai vəzifədə görəcəyi əsas işlər hələ qarşıdadır. M.Əliyevanın indiyədək nümayiş etdirdiyi ictimai fəallıq, habelə beynəlxalq aləmdəki nüfuzu düşünməyə əsas verir ki, o, Azərbaycanın birinci ledisi statusunda da cəmiyyətin ən yüksək etimadına nail olacaq.

«Həyatda hər kəsin yerini və taleyini tarix müəyyən edir. Kimsənsə, elə də olmalısan. Özgələrin rollarını və obrazlarını gərək üzərinə götürməyəsən» – Mehriban xanımın özünə kredo seçdiyi bu sözlər, zənnimizcə, onun gələcək fəaliyyətinin qırmızı xəttini təşkil edəcək. O, birinci ledi kimi daşıdığı ictimai məsuliyyəti də, bu məsuliyyətin ağırlığını da yaxşı dərk edir.

***Effektiv Təşəbbüslər***
***Mərkəzinin analitik qrupu***
***525-ci qəzet,***
***2005, 22 fevral***

## *Mehriban xanım Əliyeva: «Həyatda hər kəsin yerini və taleyini tarix özü müəyyən edir»*

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın özü cəmiyyətin sabahı olan uşaqlara qayğı, mədəni irsimizin dünyada tanıdılması üçün göstərdiyi fəaliyyətlə hamıya nümunədir.

Bu gün Mehriban xanım Əliyevanın uşaqlara – cəmiyyətin ən çox diqqət və mərhəmətə möhtac olan təbəqəsinə göstərdiyi qayğını görəndə ümummilli liderimizin parlaq və nurani surəti gözümüz önündə canlanır.

Onun fidan balalara münasibətini, onlarla birlikdə qol götürüb oynadığını, sevinclərinə sevinc qatdığını xatırlayanda düşünürsən ki, uşaqları Heydər Əliyev kimi sevən, əzizləyən ikinci bir şəxs ola bilməzdi. Bu sevginin, bu əzizləmənin nəticəsi idi ki, «Heydər baba!» sözləri uşaqların dillərinin əzbərinə çevrilmişdi.

«Gəlin ocağa çəkər» – deyərlər. Mehriban xanım Əliyevanın uşaqlara, xüsusilə valideyn himayəsindən məhrum olan, eləcə də xəstə, fiziki qüsurları olan uşaqlara qayğı göstərməyi öz üzərinə götürdüyünü görəndə bu alicənablığın, böyüküröklüliyin, mərhəmət hissinin haradan qaynaqlandığı aydın başa düşülür. Buna görə də Mehriban xanımı bir müddət əvvəl Bakının internat-məktəblərində, xəstə, kimsəsiz, valideyn himayəsindən məhrum olmuş körpələrin təlim-tərbiyə aldıqları uşaq evlərində görəndə onun simasında uşaqların yeni himayəçisinin meydana çıxdığına heç kəsdə şübhə qalmadı.

Ümummilli lider Heydər Əliyevin ən böyük arzularından biri Azərbaycan uşaqlarının sağlam, gümrah böyüməsi, onların xoşbəxt gələcəyinin təmin olunması idi. Bu gün Mehriban Əliyevanın rəhbərlik etdiyi

Heydər Əliyev Fondunun fəaliyyət istiqamətlərindən biri məhz bu məsələyə yönəlib. Mehriban xanımın təşəbbüsü ilə ötən ildən başlayaraq ağır vəziyyətdə yaşayan məcburi köçkün uşaqlarına yardım, Bakı şəhərindəki internat-məktəblərin və uşaq evlərinin təmiri, diabetli və talassemiyalı uşaqlara yardım proqramları həyata keçirilməsi cəmiyyətdə nikbinlik, xoş hisslər doğurdu. Bu günlərdə Heydər Əliyev Fondunda «Uşaq evləri və internat-məkləblərin inkişafı» proqramının gedişinə həsr edilmiş tədbirdə deyilənlər bu sahədə görülmüş və indi görülməkdə olan işlərin geniş mənzərəsini yaratdı. Məlum oldu ki, Fondun fəaliyyət göstərdiyi qısa müddətdə uşaq evlərində və internat-məktəblərdə çoxlu sayda tədbirlər, şənliklər keçirilmiş, «Talassemiyasız həyat naminə» layihəsi yerinə yetirilmiş, bu layihəyə uyğun olaraq ixtisaslaşdırılmış mərkəz açılmışdır. Daha sonra bildirildi ki, «Uşaq evləri və internat-məktəblərin inkişafı» layihəsinə uyğun olaraq təlim-tərbiyə ocaqlarına baxış keçirilmiş, problemlərin həlli yolları müəyyən olunmuşdur. Regionlardakı uşaq evləri və internat-məktəblərin təmiri, yenidən qurulması da nəzərdə tutulur. Fondun prezidenti Mehriban Əliyevanın məqsədi budur ki, uşaq evlərində və internat-məktəblərdə ev şəraitinə maksimum yaxın olan şərait yaradılsın, valideyn himayəsindən məhrum olan uşaqlar hər cür qayğı ilə əhatə olunsunlar. Bu alicənablığın, ardıcıl fəaliyyətin nəticəsi artıq özünü göstərməkdədir. Hər şeydən əvvəl qeyd edək ki, ailə ocağının istisindən məhrum olmuş uşaqlara qayğını artırmaq üçün Mehriban xanım Əliyevanın fəaliyyəti, dövlət və özəl təşkilatları bu vacib məsələnin həllinə kömək göstərməyə çağırışı cəmiyyətdə böyük əks-səda doğurmuşdur. Aldığımız məlumata görə, bir sıra dövlət orqanlarının, həmçinin sahibkarların, xeyriyyəçilərin bu çağırışdan sonra yönləri uşaq evlərinə çevrilmişdir. Düşünürük ki, bu uğurlu başlanğıc daimi olacaq, cəmiyyətdə uşaq probleminin qabardılması onların gələcək xoşbəxtliyinə güclü təkan verəcəkdir.

Burada yazıya nöqtə qoymaq olardı. Lakin Mehriban xanımda uşaqların bu gününə və gələcəyinə qayğı ilə yanaşmaq kimi ən nəcib hisslərin özünü açıq göstərməsi, bu sahədə fəaliyyətin daimi olacağına bəslənən inam əlavə bir neçə söz demək zərurəti yaradır. Hər şeydən əvvəl qeyd edək ki, Mehriban xanımın cəmiyyətdə rəğbətlə qarşılanan alicənablığı valideynlərinin, bir də gəlin gəldiyi ocağın ənənəsinin davamıdır.

1995-ci iidə Azərbaycan Mədəniyyətinin Dostları xeyriyyə fondunu təsis etməsi də valideynlərinin və qaynatası Heydər Əliyevin mədəniyyətə, incəsənətə, xalqın tarixinə göstərdikləri ehtiram və diqqətlə bağlıdır. Azərbaycan muğamlarının xarici ölkələrdə tanıdılması və təbliği, YUNESKO tərəfindən dünya mədəniyyət irsinin inciləri siyahısına daxil edilməsi məhz Mehriban xanım Əliyevanın təsisçisi olduğu Fondun xidmətidir. Məlumdur ki, bu istiqamətdə göstərdiyi fəaliyyət onu YUNESKO-nun xoşməramlı səfirləri sırasına gətirib çıxarmışdır. Dünyada belə yüksək titula layiq görülənlər isə 42 nəfərdir. Mədəniyyətin, incəsənətin təbliği xalqın, ölkənin, dövlətin təbliği, eyni zamanda, xalqın problemlərinin dünyaya çatdırılması deməkdir. Mehriban Əliyevanın bu istiqamətdə daha böyük uğurlar qazanacağı heç kəsdə şübhə yeri qoymur.

Mövzu ilə əlaqədar bir fikri də əlavə edək.

ABŞ və bəzi digər dövlətlərə rəhbərlik etmiş şəxslərin xanımlarının xeyirxah işləri barədə çoxlu sayda fakt məlumdur. Məsələn, ABŞ-ın keçmiş Prezidentinin xanımı Hillari Klinton bu sahədə daha qabağa gedərək ölkənin tanınmış və nüfuzlu siyasətçiləri sırasına çıxmışdır. Üç ildən sonra keçiriləcək prezident seçkilərinə hazırlaşan Demokratlar Partiyası onun namizədliyini müdafiə etmək əzmindədir.

Azərbaycanda isə birinci xanımın xeyirxahlıq fəaliyyəti təzə məsələdir. Bu mənada, onun həyata keçirdiyi, planlaşdırdığı işlər özünü Azərbaycanda ən ağır yəzifə yükünün altına verən Prezident İlham Əliyevin siyasi fəaliyyətinə bir bütövlük və əzəmət gətirməsi göz qabağındadır.

Son olaraq qeyd edək ki, Mehriban xanım Əliyeva bu günlərdə YUNESKO-nun Paris şəhərində keçirilən illik iclasında iştirak edir. Bu beynəlxalq təskilat onun Azərbaycanda və Cənubi Qafqaz regionunda mədəni irsin qorunması, təhsilin və idmanın inkişafında xidmətlərini yüksək qiymətləndirir.YUNESKO-nun saytında Mehriban xanım Əliyeva haqqında xüsusi səhifə açılması, fəaliyyəti barədə geniş məlumat verilməsi bu fikri təsdiq edir.

Azərbaycanın beynəlxalq aləmdə tanıdılması, ölkəmizdə təhsil, idman, uşaq problemlərinin həlli istiqamətində göstərdiyi fəaliyyətdə Mehriban xanım Əliyevaya yeni-yeni uğurlar, parlaq nəticələr arzu edirik.

*Telman Qafar*
*İki sahil,*
*2005, 3 mart*

## *Xoşməramlı səfirin addımları*

Ondan nümunə götürən olacaqmı?..

Azərbaycan cəmiyyətində qadının yeri, nüfuzu və ona münasibət hər kəsə bəllidir. Təbii ki, artıq tarixə çevrilmiş bolşevik inqilabından sonra Şərqdə ilk dəfə olaraq Azərbaycan qadını yeniləşən dünyanın ağ yolunda öz qətiyyətli addımları ilə iz saldı. İstər mədəniyyət, istər elm sahəsində, ümumiyyətlə isə həyatın bütün sahələrində şərq qadını, yəni ilk öncə azərbaycanlı qadını özünü sübut etməyə başladı. Bir də ki, Azərbaycan qadınının özünü sübut etməyə o qədər də ehtiyac yox idi. Ən azı ona görə ki, onun kökündə Tomrisin, Nüşabənin, Sara xatunun, Nigarın, Xurşudbanu Natəvanın və daha onlarca tarixin yaddaşında öz adını əbədi yaşatmaq hüququ qazanmış xanımların adı dururdu.

Zaman öz inkişafının müəyyən mərhələlərində bir növ özündən əvvəlkiləri bu və ya digər formada təkrar edir. Məhz həmin təkrarlar zamanı bizim indi tez-tez iş-

lətdiyimiz ifadə yada düşür: tarix təkrar olunur! Görünür elə həmin təkrarolunmanın nəticəsidir ki, bizlərin dünyaya baxışı da təzələnir, üzərimizə götürdüyümüz məsuliyyətin yukünü dərindən başa düşməyə çalışırıq və bir daha özümüz özümüzü öyrənirik. Öyrənib görürük ki, özümüzə qarşı laqeydliyimiz, biganəliyimiz bütün zamanlarda olub və həmin «bütün zamanların» dərslərindən də nədənsə nəticə çıxarmamışıq. Çox təəssüf ki, bu gün də belədir. Elə ona görə də qələmə aldığım bu yazıda Azərbaycan qadınını təkcə ev xanımı deyil, həm də siyasətçi kimi, xeyriyyəçi kimi, həyat yoldaşının əqidədaşı, çiyin yoldaşı kimi böyük nüfuza malik olmaq, özünü təsdiq etmək, işi ilə, əməli ilə hətta kişilərə nümunə göstərmək iqtidarında olduğunu göstərmək istəyirəm.

Bunun üçün çox da uzaq tarixə üz tutmağa ehtiyac yoxdur. Ən azı ona görə ki, yaşadığımız müstəqil Azərbaycan dövlətinin hər bir vətəndaşı sonuncu prezident seçkilərindən sonra daha da fəallaşan cəmiyyətimizdə məmləkətimizin birinci xanımı olan, YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ictimai-siyasi həyatımızdakı addımlarını, gördüyü işləri, xeyirxah əməllərini müşahidə edir. Özü də bu xeyriyyəçilik, bu xeyirxahlıq, bu siyasi fəallıq nəyinsə xatirinə yox, dövlətin və dövlətçliliyin mənafeyi naminə, xalqın rifah halı üçün və nəhayət, ölkə Prezidenti İlham Əliyev cənablarının beynəlxalq aləmdə günbəgün artan nüfuzunun daha da möhkəmlənməsi naminə həyata keçirilir.

Son zamanlar həyatımızın müxtəlif sahələrində inkişaf, dirçəliş, tərəqqi özünü göstərir. Bu da təbii ki, Azərbaycan Prezidentinin bir varis kimi davamçısı olduğu siyasi kursa sədaqətinin bəhrəsidir. Bunun ikinci bir səbəbi də, zənnimcə, Prezidentimizin xanımının ona dəstək olmasıdır. İndi hər kəsin ölkə ərazisinin müxtəlif yerlərindən öz müraciət və şikayətlərini ünvanladıqları şəxslərdən ikincisi Mehriban xanım Əliyevadır. Təbii ki, hər kəs bir müraciəti yazanda ilk öncə onu kimə

ünvanlayacağını fikirləşir və sonra yazır. Yəni kimdən ümid gözləyirsə, kimə inanırsa ona üz tutur. Azərbaycanın birinci xanımının talassemiya xəstəliyinə tutulmuş uşaqlarla bağlı gördüyü tədbirlər, uşaq evlərinə baş çəkməsi, kimsəsiz uşaqlarla maraqlanması, onların şərəfinə möhtəşəm Yeni il şənliklərinin keçirilməsi və həmin şənliklərdə övladları ilə birgə iştirak etməsi, xalqımızın milli sərvəti olan muğamlarımıza diqqəti və s. hər kəsə xoş bir ovqat bəxş edir, yeni bir ümid qığılcımı yandırır.

Şəxsən mən bütün bunlardan bir vətəndaş olaraq çox məmnun oldum. Və dərhal da 1989-cu ildəki inamımda yanılmadığıma bir daha inandım. İndi Azərbaycan inkişafının elə bir mərhələsindədir ki, ölkə başçısına hər kəs kömək etməlidir. Bu kömək həm dövlət strukturlarından gəlməlidir, həm də cəmiyyətdən. Artıq Mehriban xanım öz fəaliyyəti ilə Prezidentimizə həm dəstək verir, həm də köməklik göstərir. Mən çox istərdim ki, bu gün yüksək vəzifə tutan məmurların, imkanlı iş adamlarının, nazirlərin, komitə sədrlərinin xanımları da, Milli Məclisin üzvü olan deputat xanımlarımız da Mehriban xanım Əliyevaya dəstək verəydilər, ondan nümunə götürəydilər. Onda cəmiyyətdəki problemlərin sayı bir az da azalardı. Tərəqqimiz, inkişafımız bir az da sürətlənərdi.

Hörmətli Mehriban xanım, mən bu sətirləri yazarkən kimin necə başa düşəcəyini nəzərə almışam. Ona görə də tam səmimiyyətlə ürəyimdə olanları mətbuat səhifəsinə çıxarıram. Siz bu qətiyyətli addımlarınızı həyatımızın digər sahələrinə də yönəldin. Bizi bəzi «vampir» həkimlərdən, şagirdlərin, tələbələrin əlinə baxan bəzi müəllimlərdən, vətəndaşların cibinə yol axtaran məmurlardan xilas etməkdə Prezidentimizə yardımçı olun. Özü də çox istərdim ki, təkcə Bakı və onun ətrafında deyil, bölgələrimizdə də Sizin gördüyünüz işlər barəsində vətəndaşlarımız xəbərlər eşitsinlər. Qaçqın qəsəbələrində, iqtisadi cəhətdən geri qalan rayonlarımızda, kəndlərimizdə insanların yanında olmağınızı,

onların qayğılarını dinləməyinizi istərdim. Çünki Sizin böyüdüyünüz ailə, gəlini olduğunuz ocaq bu xalq üçün, bu Azərbaycan üçün yanmağı, işləməyi Sizə nümunə göstərib, Sizə sevdirib. Siz hər an bu sevginin, bu nümunənin içərisində olmusunuz. Bu gün də möhtərəm Prezidentimiz və Siz Azərbaycan üçün işləyirsiniz, Azərbaycan üçün çalışırsınız.

Azərbaycan tarixinin bütün dövrlərində öz sədaqəti ilə, öz dərin ağlı və düşüncəsi ilə ərlərinə dayaq olan xanımlar yetərincə olubdur və bu gün də var. Onlardan biri də, daha doğrusu bugünkü siyasi həyatımızda birincisi olan Mehriban xanım Əliyevadır. Mən inanıram ki, YUNESKO-nun xoşməramlı səfiri olan, Heydər Əliyev Fondunun prezidenti kimi şərəfli bir vəzifəni icra edən Mehriban xanım Əliyeva bu nümunəsi ilə çoxlarına həm də bir mesaj göndərir. Onları ictimai həyatımızda fəal iştiraka, xalq üçün, Azərbaycan üçün işləməyə çağırır. Yəqin ki, kimlərsə, istər məmurların, istər iş adamlarının xanımları, istərsə də elə bəzi məmurların özləri Mehriban xanım Əliyevanın addımlarından nəticə çıxaracaq. Axı öyrənmək hər vaxt mümkündür, təki istəklə ürəkdə xalq üçün yanğı, təpər olsun.

***Əlican ƏLİYEV,***
***Azad Azərbaycan,***
***2005, 8 mart***

## *Mehriban Əliyeva «İlin qadını» seçilmişdir*

«Lider Qadınlar» İctimai Birliyi və Azərbaycan Sosiologiya Assosiasiyası (ASA) tərəfindən keşirilən sorğuya görə, YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva «İlin qadını» elan edilmişdir.

Azərbaycan qadınlarının tarixi salnaməsi çox səciyyəvidir. Xalqımızın qəhrəman qızı Tomrisdən tutmuş, Atabəylər dövlətinin axırıncı xanı Özbəyin ömür

yoldaşı Mehriban xanım, Qaraqoyunlu dövlətinin başçısı Qara Yusifin arvadı Tutu Bikə, xalqımızın şöhrətli qızları Məhsəti xanım Gəncəvi, Xurşudbanu Natəvan, Heyran xanım, Qönçə bəyim, Fatma xanım Kəminə və başqalarının həyatı hər bir türk qadını üçün örnəkdir. Tariximizin müəyyən dövrlərində yaşayıb-yaratmış xanımlar – Hənifə xanım Məlikova, Mədinə xanım Qiyasbəyli, Həmidə xanım, Şəfiqə xanım Əfəndizadə, Sara xanım Aşurbəyli, Gövhər xanım Qacar, Zərifə xanım Əliyeva, Aida xanım İmanquliyeva və digər yüzlərlə ziyalı qadınlarımızın xatirələri onların xeyirxah əməllərində yaşayır. Bu ənənə indi də davam edir.

İşgüzar xanımlarımız bu gün də çoxdur. Onlar qurub-yaradır, xalq, millət üçün çalışırlar. Belə işgüzar xanımlardan biri də Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır. O, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun, Heydər Əliyev Fondunun sədri kimi Azərbaycanın ictimai həyatında fəal rol oynayır. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təsisçiliyi ilə nəşr olunan «Azərbaycan-İrs» jurnalı milli irsimizin təbliğinə xidmət edir. Nəfis tərtibatlı bu jurnal dünya oxucusuna xalqımızın qədim mədəniyyətindən söz açır.

Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyeva Azərbaycan qadınına xas olan ən dəyərli keyfıyyətləri özündə cəmləşdirir. O, Azərbaycan qadınını dünyada ləyaqətlə təmsil edir, xalqımızı başqa xalqların gözündə ucaldır.

Mehriban xanımın xarici görünüşündəki cazibədarlıq onun daxili zənginliyini tamamlayır. Bu, elitar, aristokrat xanımlara məxsus simalı xanımın əsil-nəcabəti də qibtə olunandır. O, Mir Cəlal Paşayev ocağının yetirməsidir, Azərbaycanın mətbuat tarixində böyük xidmətləri olmuş Nəsir İmanquliyevin qızı, Azərbaycan qadınlığına nümunə ola biləcək gözəl xanım və alim Aida İmanquliyevanın tərbiyəsini alıb, daha sonra dünyaşöhrətli siyasətçi, ümummilli liderimiz Heydər Əliyevin ailəsində yetişib, püxtələşib, Zərifə xanım kimi bir insanın öyüd-nəsihətlərini eşidib.

Mehriban xanım həm də gözəl anadır. O, bütün tədbirlərdə öz övladları ilə birlikdə iştirak edir. Bu da onun qızlarına, balaca Heydərə olan ana nəvazişinin, ana məhəbbətinin təzahürüdür.

Mehriban xanım Azərbaycan idmanının inkişafına da böyük kömək gostərir. O, Azərbaycan Gimnastika Federasiyasının prezidentidir. Son vaxtlar bu idman növünün respublikamızda inkişafı, gimnastika üzrə beynəlxalq yarışların təşkili, gimnastlarımızın uğurlu çıxışları da məhz Mehriban Əliyevanın adı ilə bağlıdır.

Onun YUNESKO tərəfindən «xoşməramlı səfir» tituluna layiq görülməsi də Mehriban xanımın Azərbaycan dövləti, Azərbaycan xalqı qarşısında gördüyü işlərə verilən qiymətdir. Bu, həm də Azərbaycan mədəniyyətinə verilən dəyərdir. Qeyd edək ki, bu ada dünya dövlətləri arasında cəmi dörd ölkənin birinci xanımı layiq görülmüşdür ki, onlardan biri məhz Mehriban Əliyevadır.

Bu gün Azərbaycan mədəni irsinin qorunmasında, onun beynəlxalq aləmdə təbliğində Mehriban xanımın xidmətləri böyükdür. Onun təşəbbüsü ilə 1995-ci ildə yaradılmış Azərbaycan Mədəniyyətinin Dostları Fondu indiyədək uğurla fəaliyyət göstərir, tez-tez mədəni tədbirlər keçirir. YUNESKO-nun «Muğam dəstgahları» layihəsi çərçivəsində keçirilən muğam axşamları isə xüsusi qeyd olunmalıdır. Muğam axşamlarında ölkə başçısı və onun xanımı da iştirak edir, respublikamızın görkəmli ziyalıları, mədəniyyət və incəsənət xadimləri ilə görüşür, onların problemləri ilə maraqlanırlar. Azərbaycan xalq musiqisinin misilsiz sərvəti olan muğamlarımızın dünyada təbliği baxımından belə məclislərin təşkili böyük əhəmiyyət daşıyır.

Bir çox sahələrdə özünün xoşməramlı fəaliyyəti ilə xalqına xidmət edən Mehriban xanım tez-tez uşaq evlərində, internatlarda olur, valideyn himayəsindən məhrum, fiziki cəhətdən qüsurlu uşaqların problemlərini öyrənir, onların dərdlərinə şərik olur. Hiss edirsən ki, o, geniş ürək və böyük mərhəmət sahibidir.

Bu yaxınlarda xoşməramlı səfir Mehriban Əliyeva «İlin qadını» elan edildi. Qadın liderlərin ictimai birliyinin təşəbbüsü ilə Azərbaycan Sosiologiya Assosiasiyasının qadınların IV Beynəlxalq konfransının 10 illiyinə həsr olunmuş BMT-nin 49-cü xüsusi sessiyasına hazırlıq çərçivəsində Mehriban Əliyeva Azərbaycan qadınına xas öz yüksək əxlaqi keyfıyyətlərinə, geniş xeyriyyəçilik fəaliyyətinə görə «İlin qadını» seçildi. Bu, Azərbaycanın birinci ledisinin növbəti uğuru idi və əminik ki, sonuncu olmayacaq. Onunla fəxr etməyə dəyər!..

***Respublika,***
***2005, 8 mart***

## *Azərbaycan xalqı naminə xoşməramlı fəaliyyət*

Xoşməramlı səfir, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti nəinki cəmiyyətimiz, eyni zamanda beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Xanım Əliyevanın məhz zəngin Azərbaycan mədəniyyətinin qorunması və təbliği, kimsəsiz, valideyn himayəsindən məhrum, o cümlədən xəstə uşaqların himayə olunması sahəsindəki mühüm işi, həmçinin təhsilin, idmanın inkişafındakı xidmətləri – yəni kifayət qədər çoxşaxəli fəaliyyəti dünya ictimaiyyətinin də rəğbətini qazanıb. Xatırladaq ki, öz millətinə, xalqına təmənnasız xidmətdən qaynaqlanan bu fəaliyyət region ölkələrinin və dünya xalqlarının mənafeyinə uyğundur. Bəşəriyyət XXI əsrdə, qloballaşma və inteqrasiya proseslərinin sürətləndiyi vaxtda milli dəyərlərin və ənənələrin, qeyri-maddı irsin qorunub saxlanmasında, gələcək nəsillərin sağlam böyüməsində və mükəmməl təhsil almasında maraqlıdır.

Xanım Əliyevanın martın 3-4-də YUNESKO-nun xoşməramlı səfirlərinin illik iclasında iştirak etmək üçün Parisə səfəri bu baxımdan böyük maraq doğurub-

dur. Əvvəla, onu nəzərə çatdırmağı vacib sayırıq ki, illik iclasda dünyanın bir sıra görkəmli ictimai-siyasi, elm və mədəniyyət xadimləri, o cümlədən Mstislav Rostropoviç, Monserrat Kabalye, Mərakeş şahzadəsi Ləlla Məryəm, Lüksemburq hersoginyası Mariya Tereza, habelə Ömər Zülfi Livanelli, Zurab Sereteli və digər xoşməramlı səfirlər də iştirak ediblər. Öz vətəninə hədsiz bağlı olan azərbaycanlı xoşməramlı səfir ölkəsinin qədim tarixini, mədəniyyətini, ənənələrini dərindən mənimsəyib. 2004-cü ilin sentyabr ayından xoşməramlı səfir kimi mədəni irsin qorunmasına cəlb olunan xanım Əliyeva YUNESKO ailəsinə daxil olmaq imkanından həm də Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması üçün istifadə etməyə başlayıb ki, bu barədə bir az sonra söhbət açacağıq.

Azərbaycan Prezidentinin müxtəlif ölkələrə uğurla keçən səfərləri çərçivəsində həmin ölkələrin tarixi, mədəniyyəti, sosial həyatı ilə yaxından tanış olan Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətinin və indiki sosial siyasətinin sivil bəşəri dəyərlərin inkişafına böyük töhfələr verdiyinə əmin olub. 2003-cü ildə YUNESKO Azərbaycan muğamlarını bəşəriyyətin mədəni irs siyahısına daxil edibsə, burada xanım Əliyevanın rolu danılmazdır. Təşkilatın Baş direktoru Koişiro Matsuura xoşməramlı səfirlərin beşinci görüşündə ilk dəfə iştirak edən Mehriban xanım Əliyevanın ölkəmizdəki fəaliyyətindən razılığını bildirib. Onun sözlərinə görə, xanım Əliyeva 1995-ci ildən qeyri-hökumət təşkilatı olan Azərbaycan Mədəniyyətinin Dostları Fonduna rəhbərlik etməklə yanaşı, mədəni irsin qorunması, muğamların təbliği və zəngin Azərbaycan musiqisinin inkişafı sahəsində xüsusi xidmətlər göstəribdir. Xoşməramlı səfir kimi Mehriban Əliyeva mədəni irsin qorunub saxlanmasına dair Konvensiyanın təqdimatı ilə bağlı ötən ilin dekabrında Kazan şəhərində keçirilmiş tədbirdə iştirak edib. Baş direktor xanım Əliyevanın xəstə və valideyn himayəsindən məhrum uşaqlara göstərdiyi qayğını da yüksək qiymətləndiribdir.

Xoşməramlı səfirlərin illik iclasındakı çıxışında Azərbaycan muğamlarını əhatə edən 10-dan çox layihə üzərində işlənildiyini vurğulayan Mehriban xanım yenicə başa çatmış bir layihə – Azərbaycan muğam sənətkarlarının əvvəllər yazılmış musiqi parçalarının təmizlənməsi və yenidən yazılması barədə danışdı. «Onların orijinallarının bir çoxunu xaricdə axtarmalı olduq. Buna baxmayaraq biz uğur əldə etdik və onları CD-lərə köçürə bildik. Sizə musiqi dəstini təqdim etmək istəyirəm. Ümid edirəm ki, bu musiqini dinləməklə zövq alacaqsınız. Buna əlavə olaraq biz məşhur xanəndələrin haqqında və muğam fəlsəfəsinə aid bir sıra kitablar nəşr etməyi də planlaşdırırıq» – deyən Mehriban Əliyeva Bakı şəhərində Beynəlxalq Musiqi Mərkəzinin yaradılması zərurətinə toxundu. Onun fikrincə, bu musiqi mərkəzi yaradıldıqdan sonra nəinki musiqiçilərin, həm də musiqisevərlərin mərkəzə gələrək musiqi dinləməsi, ənənəvi musiqimiz barədə müzakirələr aparması, yaşlı nəsildən olan sənətkarların öz təcrübələrini, biliklərini və ustalıqlarını yeni nəsillə bölüşdürməsi mümkün olacaqdır. Mərkəz həm də müxtəlif ölkələrdən olan insanların görüş yerinə çevriləcək, dünya mədəni irsinin qorunub saxlanması naminə daha bir imkan yaradılacaqdır.

Azərbaycanla YUNESKO arasındakı münasibətlər heç vaxt indiki kimi yüksək səviyyədə olmayıbdır və ölkəmiz təşkilatın bir hissəsi olaraq onunla birlikdə dünyanın müxtəlif ölkələrində bəşəri və qlobal problemlərə dair layihələr həyata keçirməkdə israrlıdır. İkitərəfli əlaqələr qarşılıqlı faydalılıq zəminində qurulubdur və xanım Əliyeva Azərbaycan musiqisinə YUNESKO tərəfindən göstərilən qayğını yüksək dəyərləndiribdir. Əməkdaşlıq davam edir. Gələcəkdə digər layihələrin reallaşdırılması işində də təşkilatın yardımına ehtiyac duyduğunu söyləyən Mehriban xanım elm, təhsil və mədəniyyət sahələrində mövcud əlaqələrin daha da genişləndirilməsi üçün imkanların səfərbər olunduğunu vurğuladı.

Azərbaycan zəngin tarixi abidələrə, mədəniyyətə, musiqiyə, o cümlədən maddi-mədəni irsin qorunması sahəsində müəyyən təcrübəyə malikdir. Odur ki, xoşməramlı səfirlərin illik iclasından sonra Azərbaycan musiqisindən ibarət konsertin təşkilini qeyd etməliyik. Almaniyada yaşayan həmyerlimiz Firəngiz Əlizadənin pianoda çaldığı muğam parçaları fransızları və Parisə toplaşan müxtəlif ölkələrin nümayəndələrini riqqətə gətirdi. Bir bu deyil, Azərbaycan muğamının dünyanı fəth etməsi, müxtəlif dinlərə, dillərə malik insanları eyni hiss və duyğularla birləşdirməsi barədə çoxlu konkret fakt söyləmək olar. Belə bir mədəniyyətə, milli ənənələrə malik xalqımızın zəngin tarixi sərvətinin ermənilər tərəfindən dağıdılması, yaxud özününküləşdirilməsi beynəlxalq cinayət sayılmalıdır. İclasdan sonra jurnalistlərin bu barədə suallarına cavab verən xanım Əliyevaya görə, siyasətlə məşğul olmamasına baxmayaraq YUNESKO-da bizim üçün ağrılı olan bu məsələ qaldırılacaqdır: «Mən həm Baş direktorla, həm də həmkarlarımla görüşlərimdə mövcud vəziyyət barədə məlumat verdim. YUNESKO-nun Baş direktoru Bakıya dəvətimi qəbul etdi və bu il ərzində ölkəmizə səfər edəcəyinə söz verdi. Ölkəmizlə bağlı həqiqətləri öyrənmək baxımından Azərbaycanda belə görüşlərin keçirilməsi çox faydalı ola bilər və ümumi işimizə xeyir verər. Həmkarlarımdan bəzilərinin Azərbaycanda bir milyondan artıq insanın qaçqın və məcburi köçkün vəziyyətində yaşaması barədə məlumatları, demək olar ki, yox idi. Xoşməramlı səfirləri Bakıya dəvət etməkdə əsas məqsədim onlarla birlikdə qaçqın və məcburi köçkün düşərgələrinə baş çəkmək, soydaşlarımızın yaşadıqları şəraiti göstərməkdir. Bildiyiniz kimi, bugünkü iclas «Hər bir insan üçün təhsil» probleminə həsr edilmişdi. Bizim çadır şəhərciklərində yaşayan ailələrdəki uşaqların hansı şəraitdə təhsil almaları barədə xoşməramlı səfirlərə məlumat verərkən onlar bunu çox təəccüblə qarşıladılar. Onlar mənə söz verdilər ki, Azərbaycanda olarkən mütləq çadır düşərgələrinə gedəcək və vəziyyətlə yerindəcə tanış ola-

caqlar. Keçirdiyim görüşlər zamanı dağıdılmış abidələrimiz barədə də danışdım. Əlbəttə, bu istiqamətdə hələ çox işləmək lazımdır və artıq bu səfərim zamanı həmin problemlə bağlı fəaliyyətə başlamışam».

Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyeva bu sözlərlə ölkəmizin əsas problemi olan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə öz xidmətini təklif edir. Bu, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində yaranan ağır vəziyyətə – bir milyon azərbaycanlının doğma yurduna qayıda bilməməsi və uzun illər ağır şəraitdə yaşaması, çadır şəhərciklərindəki uşaqların təhsildən ayrı düşməsi və işğal altındakı mədəni sərvətlərimizin qəsdən məhv edilməsi ilə bağlı problemlərə YUNESKO-nun birbaşa müdaxiləsi demək olacaqdır. Nəzərə alsaq ki, Türkiyənin xoşməramlı səfiri ermənilər tərəfindən uydurulmuş «soyqırımı»nın YUNESKO xətti ilə araşdırılmasına dünyanın tanınmış tarixçi alimlərinin cəlb olunmasını xahiş edibdir, demək, Azərbaycanın və qardaş ölkənin eyni düşmənə qarşı ədalətli mübarizəsi bu qurumda da uğurla nəticələnəcəkdir.

Bu əminlik həm də təşkilatın Baş direktorunun cavabından doğubdur. Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində xalqımıza məxsus tarix və mədəniyyət abidələrinin dağıdılması, son zamanlar isə Şuşa şəhərində ermənilərin «arxeoloji qazıntılar» aparması ilə bağlı YUNESKO-nun hansı addımlar atacağı barədə suallara cavab verən K.Matsuura hər bir xalqa məxsus abidələrin dağıdılmasını pisləyib, maddi-mədəni irsin qorunub saxlanması istiqamətində görülən işlərdən danışıb.

Bu ilin iyun ayında Yaponiyanın Naqoya şəhərində keçiriləcək beynəlxalq sərgiyə Baş direktor tərəfindən xüsusi dəvət alan Mehriban xanım Əliyeva orada muğam ustalarından ibarət qrupun çıxışını nəzərdə tutur. Bu, Azərbaycan tarixində ilk dəfə xoşməramlı səfir adını qazanan və ölkəsini təşkilatda ləyaqətlə təmsil edən xanım Əliyevanın YUNESKO ilə birlikdə apardığı

işlər çərçivəsində yalnız bir layihədir. Xoşməramlı səfir kimi qeyri-maddi irs sahəsində təşkilatın fəaliyyətinə Mehriban xanım çox böyük dəstək verir və həm Azərbaycan nümayəndəsinin, həm də YUNESKO-nun məramı bu sahədə üst-üstə düşür. Artıq onuncu ildönümü yaxınlaşan Azərbaycan Mədəniyyətinin Dostları Fondu Azərbaycanın qeyri-maddi, mədəni irsinin qorunub saxlanılması işində böyük xidmətlər göstərib və Mehriban xanım bu sahədə də ölkəsinə mühüm töhfələr verib. Bu il fevralın 18-də Fondun YUNESKO ilə birlikdə Bakıda, Azərbaycan filarmoniyasında həyata keçirdiyi və dövlətimizin başçısı cənab İlham Əliyevin də iştirak etdiyi «Muğam dəstgahları» layihəsi ilə də tamaşaçılarını və dinləyicilərini öz cazibəsində saxlamaqdadır.

Heydər Əliyev Fondunun geniş spektrli fəaliyyətinin öncül istiqamətlərindən biri də cəmiyyətimizdə yardıma ən çox ehtiyacı olan insanlara diqqət və qayğıdır. Onlar qaçqın və məcburi köçkün ailələri, uşaq evləri, internat-məktəblərdə tərbiyə alan və müxtəlif xəstəliklərdən əziyyət çəkənlərdir. Son vaxtlar Fond bu istiqamətdə bir neçə layihə – diabetli uşaqlara ən yüksək qayğı, uşaq evlərinin və internat-məktəblərin inkişafı, «Mən Azərbaycanı sevirəm» rəsm sərgisi, qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlarla görüşlər, «Talassemiyasız həyat naminə» mövzusunda «dəyirmi masa» və s. hazırlayaraq həyata keçirib. Bütün bunlar Mehriban xanım Əliyevanın Azərbaycan xalqı naminə xoşməramlı fəaliyyətindən xəbər verir. Xüsusi bildirmək istəyirik ki, heç bir ölkənin birinci xanımı üzərinə bu qədər ağır və məsuliyyətli vəzifələr götürməyə, onların öhdəsindən uğurla gəlməyə cəsarət etmir.

YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidentı Mehriban Əliyevanın humanizmdən, mərhəmətdən, şəfqətdən yoğrulan qeyri-adi fəaliyyəti cəmiyyətin bütün təbəqələrində xoş ovqat yaradır.

Onun nəcib siması əhalinin hansı kateqoriyasından asılı olmayaraq uşaqlar, qadınlar, sadə insanlar arasında görünəndə hər kəs hörmət və ehtiramını nümayiş etdirir. Mehriban xanım isə Azərbaycanın qeyri-maddi irsinin, mədəniyyətinin qorunması və təbliği, qayğıya daha çox ehtiyacı olanlara xidmət sahəsində yeni layihələr üzərində düşünür, öz əməli ilə insanlara vətənpərvərlik, xalqına, dövlətinə sədaqət, bir-birinə hörmət hissləri aşılayır.

***V. İSMAYILOVA***
***Azərbaycan, 2005, 10 mart***

## *Məqsəd xoşməramlı olanda*

Xəbər verildiyi kimi, Türkiyənin nüfuzlu "Siyasət" jurnalının idarə heyəti Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya "2004-cü ilin birinci xanımı" mükafatının verilməsini qərara almışdır.

Nəşrin idarə heyətinin sədri, tanınmış jurnalist, ictimai xadim və iş adamı xanım Gül Kılıcaslanın Azərbaycanın Türkiyədəki səfirliyinə göndərdiyi məktubda bildirilir ki, Mehriban xanım Əliyeva "Siyasət" jurnalının təsis olunmasının on birinci ili ilə əlaqədar keçirilmiş rəy sorğusunun nəticələri əsasında və Azərbaycan-Türkiyə münasibətlərinin, qardaşlığının inkişafı, milli-mədəni dəyərlərin qorunması, qadınların, kimsəsiz uşaqların yaşayış şəraitinin yaxşılaşdırılması, Azərbaycanda və beynəlxalq miqyasda onların problemlərinə diqqət yetirilməsi sahəsində səylərinə görə bu mükafata layiq görülmüşdür.

Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyəti onun mənəviyyatı, dünyagörüşü, zərif cinsə mənsubluğu və ana olması ilə tam vəhdət təşkil edir. Mehriban xanım dər-

hal büruzə verən əsli, nəcabəti ilə ziyalılıq, kübarlıq, səmimilik, mənəvi toxluq keyfiyyətlərinə malikdir, bütün varlığı ilə azərbaycanlıdır. Azərbaycanın zəngin mədəniyyətini beynəlxalq miqyasda təbliğ edəndə, maddi və qeyri-maddi irsimizin qorunmasına çalışanda, kimsəsiz uşaqları himayə edəndə, qaçqın-köçkün balalarının sağlamlığı, təhsili qayğısına qalanda, müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqları müalicə etdirəndə Mehriban xanım populizmdən uzaqdır. Bütün bunlar – həmçinin Azərbaycan Mədəniyyətinin Dostları Fonduna rəhbərlik, ölkənin zəngin irsinin təbliğinə xidmət edən "Azərbaycan-İrs" jurnalının nəşri, ictimai-humanitar, sosial həyatda aparıcı mövqeni uzun müddət saxlamaq xanım Əliyevanın nəcib amallarından, yüksək mənəviyyatından xəbər verir.

Azərbaycanın birinci xanımını sevdirən və ona inam nümayiş etdirən keyfiyyətlər hansılardır? Birincisi, onun bütün Azərbaycan uşaqlarına olan analıq qayğısıdır. Xanım Əliyeva Bakının Nəsimi rayonundakı 268 saylı yardımçı məktəbə hamilik edir. Məktəbdə 500-ə yaxın əqli və fiziki cəhətdən geri qalan şagird təhsil alır. Onlardan 120 nəfəri hər gün dərs keçir, qalanları isə evlərdə təhsilə cəlb edilib. Son 75 ildə məktəbdə bir dəfə də əsaslı təmir işləri aparılmayıb. 2003-cü il oktyabırn 17-də Mehriban xanımın məktəbə gəlişindən sonra bu barədə məsələ qaldırılıb və məktəb əsaslı təmir olunub. Bütün bayramlarda Azərbaycanın birinci xanımı uşaqları yad etməyi unutmur, həm də təkcə bayramlarda yox, özü də yalnız bu məktəbi yox. Uşaqlara mərhəmət qarşılıqlı xoş təsir bağışlayır. Belə hərarətli görüşlərin birində Mehriban xanımın söylədiyi aşağıdakı fikirlər çox təsirli idi: "Mən çox xoşbəxtəm ki, uşaqların bu sevincini görürəm. Məni bir ana kimi başa düşməlisiniz. Bu gün biz adi bir məktəbə getsək, buradakı kimi istedadlı uşaqlar görmərik. Çox istedadlıdırlar, adi şeirləri çox gözəl söyləyirlər. Bu, son görüş deyildir. Bayram oldu, olmadı, mən hər dəfə buraya gələcəyəm. Çünki bu, mənim özümə lazımdır, buna eh-

tiyac duyuram. Məktəbin bütün ehtiyacları bundan sonra da ödəniləcəkdir". Mehriban xanım Əliyevanın simasında azərbaycanlı qadının, ananın uşaqlara, xüsusən əqli və fiziki cəhətdən qüsurlu, kimsəsiz uşaqlara necə mərhəmətlə yanaşdığını cəmiyyətimiz tez-tez müşahidə edir və razılıqla qarşılayır. Bu, həm də ulu öndərimizin siyasətinin davamı deməkdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev həmişə valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara böyük qayğı ilə yanaşırdı, heç bir bayramda uşaqları yaddan çıxarmır, onların adı ilə bağlı tədbirlərdə xüsusi şövq və həvəslə iştirak edirdi. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımın bu baxımdan Azərbaycan uşaqlarını sözün həqiqi mənasında himayə etməsi ümummilli liderimizin siyasətinin davamı, Heydər Əliyev irsinin təbliği deməkdir.

Bu günlərdə Balakən rayonunun Xalatala kəndinin 11 yaşlı sakini, I qrup əlil Məhəmməd Qurbaçovun sevincinin həddi-hüdudu yoxdur. Məhəmmədin ümummilli liderimizin adını daşıyan fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya ünvanladığı müraciət nəticəsiz qalmayıb. Mehriban xanım fondun adından Məhəmmədə kompüter dəsti hədiyyə edib. Səttar Bəhlulzadə adına sərgi salonunda uşaq evlərində və internat-məktəblərdə tərbiyə alan uşaqların Heydər Əliyev Fondunun təşəbbüsü ilə təşkil edilən "Mən Azərbaycanı sevirəm" adlı rəsm sərgisinin təəssüratları hələ xatirələrdən silinməyib. Fondun uşaqlara qayğısı sahəsində varisliyin qorunub saxlanıldığının nümunəsi olan bu sərgidə 30-a yaxın uşaq evi və internat-məktəbin nümayəndələri iştirak edib. Ağır tale ilə üzləşən, ailə qayğısına möhtac olan, lakin dövlətimizin qayğısı ilə əhatə olunan, yurdumuzun gözəlliklərini duymağı və kətan üzərinə köçürməyi bacaran uşaqların əl işləri Mehriban xanımda xoş təəssürat oyadıb. Təkcə taleləri ilə yox, istedadları ilə yaşıdlarından fərqlənən uşaqlar Azərbaycan mədəniyyətini zənginləşdirməyə qadir olduqlarını sübut ediblər. Mehriban xanım Heydər

Əliyev Fondunun keçirdiyi ilk tədbirlərdən olan bu sərgi ilə hamının diqqətini qayğıya daha çox ehtiyacı olan uşaqlara yönəltmək məqsədi güdüb. Onun sözlərinə görə, “Azərbaycandakı 65 uşaq evi və internat-məktəbdə 20 minə yaxın uşaq yaşayır, bir milyondan artıq qaçqın və məcburi köçkün övladları da müxtəlif problemlərdən əziyyət çəkir. Odur ki, məhz bu gün hamı səylərini birləşdirərək bu qəbildən olan uşaqlara qayğı və diqqət göstərməli, Heydər Əliyev Fondunun bu nəcib təşəbbüsünə qoşulmalı, onun təşkilatçıları ilə bir yerdə olmalıdır. Çünki sabah gec ola bilər”.

Mehriban xanımı cəmiyyətin bütün təbəqələrinə sevdirən digər xüsusiyyət onun Azərbaycan mədəniyyətini və incəsənətini, bütövlükdə Azərbaycan irsini yorulmadan təbliğ etməsidir. Dünya mədəniyyətinin inciləri barədə məlumatlı olan bu xanım 1995-ci ildə öz təşəbbüsü ilə yaratdığı Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti kimi hesab edir ki, qədim ənənələrə, maddi və intellektual potensiala malik olan ölkəmiz bəşər mədəniyyəti tarixində layiqli yerini tutmalıdır. Mehriban xanım Əliyeva Azərbaycanda musiqi təhsilinin inkişafına kömək edir, xüsusən xalq musiqisinin, ədəbiyat və poeziyanın yayılmasına dair layihələri dəstəkləyir. Elə buna görə də şifahi ənənələr və musiqi ənənələri sahəsində YUNESKO-nun xoşməramlı səfiri adına layiq görülüb. YUNESKO-nun hazırda sayı 41 nəfər olan xoşməramlı səfirləri cəmiyyətin diqqətinin aktual problemlərə cəlb edilməsində və dünya mədəniyyətinin təbliğində yaxından iştirak edir, qurumun müxtəlif layihə və aksiyalarının həyata keçirilməsinə dəstək verirlər. Məşhur musiqiçi Mstislav Rostropoviç, aktrisa Klaudia Kardinale, Mərakeş şahzadəsi Lalla Məryəm, Litva Prezidenti Valdas Adamkus, Lüksemburq Böyük hersoqunun xanımı Mariya Tereza, İslandiyanın keçmiş prezidenti Viqdis Finnboqadottir və neçə-neçə tanınmış şəxslər YUNESKO-nun xoşməramlı səfirləri kimi öz nüfuzlarından istifadə edərək təşkilatın ideyalarının həyata keçirilməsinə kömək edirlər. Mehri-

ban xanım Əliyeva az müddət ərzində YUNESKO ailəsində böyük hörmət və nüfuz qazanıb. Onun çoxşaxəli fəaliyyəti YUNESKO-nun məqsədi və məramı ilə üst-üstə düşür.

YUNESKO-nun Azərbaycan mədəniyyətinə və incəsənətinə xüsusi diqqət göstərməsində, İçərişəhərin Dünya Mədəni İrs siyahısına, Azərbaycan muğamlarının bəşəriyyətin qeyri-maddi irs siyahısına daxil edilməsində Mehriban xanımın əməyi böyükdür. Azərbaycan Mədəniyyətinin Dostları Fondu ölkə daxilində mədəniyyətimizin görkəmli, eləcə də gənc nümayəndələrinə himayə və yardım edir, kitab və kompakt disklər buraxır, festivallar, konsertlər, sərgilər təşkil edir. Fond Azərbaycanda beynəlxalq miqyaslı tədbirlər – Bakıda "İpək yolunun musiqisi" festivalı və Yaponiya mədəniyyəti günləri və s. həyata keçirib. Çoxmillətli Qafqazda əsrarəngiz xalq sənətinin qorunması, təbliği ilə məşğul olacaq "Qafqaz xalq ənənələri evi"nin Bakıda yaradılması ideyası da Mehriban xanım Əliyevanındır. Mehriban xanım Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi idmanın inkişafına, gənc nəslin sağlam böyüməsinə də öz töhfəsini verir.

Bu ilin mart ayının əvvəllərində xoşməramlı səfirlərin illik iclasında ilk dəfə iştirak edən xanım Əliyeva öz çıxışında Azərbaycan muğamlarını əhatə edən 10-dan çox layihə üzərində işlənildiyini vurğuladı. "Onların orijinallarının bir çoxunu xaricdə axtarmalı olduq. Buna baxmayaraq biz uğur əldə etdik və onları CD-lərə köçürə bildik. Sizə müsiqi dəstini təqdim etmək istəyirəm. Ümid edirəm ki, bu musiqini dinləməklə zövq alacaqsınız. Buna əlavə olaraq biz məşhur xanəndələr haqqında və muğam fəlsəfəsinə aid bir sıra kitablar nəşr etməyi də planlaşdırırıq" – deyən Mehriban Əliyeva Bakı şəhərində Beynəlxalq Musiqi Mərkəzinin yaradılması zərurətinə toxundu. Onun fikrincə, bu musiqi mərkəzi nəinki gözəl konsert məkanına çevriləcək, orada eyni zamanda ənənəvi musiqimiz barədə müzakirələr aparılması, yaşlı nəsildən olan sənətkarların öz

təcrübələrini, biliklərini və ustalıqlarını yeni nəsillə bölüşdürməsi mümkün olacaqdır. Mərkəz həm də müxtəlif ölkələrdən olan insanların görüş yerinə çevriləcək, dünya mədəni irsinin qorunub saxlanması naminə daha bir imkan yaradılacaqdır. Bu ilin iyun ayında Yaponiyanın Naqoya şəhərində keçiriləcək beynəlxalq sərgiyə YUNESKO-nun Baş direktoru tərəfindən xüsusi dəvət alan Mehriban xanım Əliyeva orada muğam ustalarından ibarət qrupun çıxışını nəzərdə tutur. Bu, xanım Əliyevanın YUNESKO ilə birlikdə apardığı işlər çərçivəsində yalnız bir layihədir. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun YUNESKO ilə birlikdə Bakıda, Azərbaycan Filarmoniyasında həyata keçirdiyi və dövlətimizin başçısı cənab İlham Əliyevin də iştirak etdiyi "Muğam dəstgahları" layihələri mədəniyyət tarixində əhəmiyyətli hadisə kimi qiymətləndirilir.

Məhz Mehriban xanımın xoşməramlı fəaliyyəti nəticəsində Azərbaycanla YUNESKO arasındakı münasibətlər yüksək səviyyəyə qalxıbdır. BMT-nin ixtisaslaşdırılmış qurumu olan YUNESKO ailəsinin Azərbaycan mədəniyyətinə, həqiqətlərinə Mehriban xanım Əliyevanın timsalında daha maraqla, daha hörmətlə yanaşması bizim hər birimizdə məmnunluq hissi yaradır. Xoşməramlı səfirlərin illik iclasından sonra Azərbaycan musiqisindən ibarət konsertin təşkili – Almaniyada yaşayan həmyerlimiz Firəngiz Əlizadənin pianoda çaldığı muğam parçalarının Parisi sözün həqiqi mənasında fəth etməsi təsadüfi deyildi. Mehriban xanım öz qonaqlarına sübut edirdi ki, insanı fəlsəfi düşüncələrə, sülhə, sevgiyə, hamılıqla tanınmış birgəyaşayış qaydalarına səsləyən muğam Azərbaycanın irsi, rəmzidir. Belə bir irsə malik olan xalq böyük xalqdır və onun torpaqlarının Ermənistan tərəfindən işğal altında saxlanılması, üstəlik, mədəniyyətinə ciddi zərbələr vurulması YUNESKO-nun məramına ziddir. Mehriban xanım Azərbaycanın ən ağır problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətləri həmkarlarına çatdıra bilib, Ermənistanın işğal etdiyi

Azərbaycan ərazilərindəki mədəni sərvətləri dağıtması, özününküləşdirməsi barədə məlumatlar xoşməramlı səfirlərdə hiddət və təəccüb oyadıb.

Azərbaycanın birinci xanımı YUNESKO-da bizim üçün ağrılı olan bu məsələnin qaldırılacağına nail olub: “Mən həm Baş direktorla, həm də həmkarlarımla görüşlərimdə mövcud vəziyyət barədə məlumat verdim. YUNESKO-nun Baş direktoru Bakıya dəvətimi qəbul etdi və bu il ərzində ölkəmizə səfər edəcəyinə söz verdi. Ölkəmizlə bağlı həqiqətləri öyrənmək baxımından Azərbaycanda belə görüşlərin keçirilməsi çox faydalı ola bilər və ümumi işimizə xeyir verər. Həmkarlarımdan bəzilərinin Azərbaycanda bir milyondan artıq insanın qaçqın və məcburi köçkün vəziyyətində yaşaması barədə məlumatları, demək olar ki, yox idi. Xoşməramlı səfirləri Bakıya dəvət etməkdə əsas məqsədim onlarla birlikdə qaçqın və məcburi köçkün düşərgələrinə baş çəkmək, soydaşlarımızın yaşadıqları şəraiti göstərməkdir. Bildiyiniz kimi, bugünkü iclas “Hər bir insan üçün təhsil” probleminə həsr edilmişdi. Bizim çadır şəhərciklərində yaşayan ailələrdəki uşaqların hansı şəraitdə təhsil almaları barədə xoşməramlı səfirlərə məlumat verərkən onlar bunu çox təəccüblə qarşıladılar. Onlar mənə söz verdilər ki, Azərbaycanda olarkən mütləq çadır düşərgələrinə gedəcək və vəziyyətlə yerindəcə tanış olacaqlar. Keçirdiyim görüşlər zamanı dağıdılmış abidələrimiz barədə də danışdım. Əlbəttə, bu istiqamətdə hələ çox işləmək lazımdır və artıq bu səfərim zamanı həmin problemlə bağlı fəaliyyətə başlamışam”. Mehriban xanımı cəmiyyətə sevdirən digər xüsusiyyət onun ölkənin bu ağrılı probleminə əsl vətəndaş münasibətidir.

Xatırladaq ki, Türkiyənin xoşməramlı səfiri ermənilər tərəfindən uydurulmuş “soyqırımı”nın YUNESKO xətti ilə araşdırılmasına dünyanın tanınmış tarixçi alimlərinin cəlb olunmasını xahiş edibdir. Azərbaycanı və Türkiyəni qardaş ölkələr kimi eyni tarix və mədəniyyət birləşdirdiyindən xanım Əliyevanın YUNESKO-dakı fəaliyyəti ölkələrimizin münasibətlərinin hərtərəfli

inkişafına yönəlibdir. Ümid edirik ki, "2004-cü ilin birinci xanımı"nın başladığı işlər uğurla nəticələnəcəkdir.

*V.İsmayılova*
*Azərbaycan,*
*2005, 5 aprel*

## *Bəşər mədəniyyətinin inciləri*
*(Bu, Azərbaycan muğamlarıdır)*

Azərbaycan xalqının mədəni-mənəvi irsinin möhtəşəm abidəsi sayılan muğam təkcə pərvazlandığı torpağın deyil, dünya mədəniyyətinin nadir incilərindən sayılır. Avropadan başlamış uzaq Amerikaya qədər qitələr gəzən Azərbaycan muğamları onu dinləyənləri heyrətdə qoyub. Hətta bəzilərinə elə gəlib ki, ifaçılar vurduqları qeyri-adi zəngulələri xüsusi aparat vasitəsilə səsləndirirlər. Dəfələrlə eşitmişik ki, avropalı tamaşaçı səhnəyə çıxaraq azərbaycanlı xanəndəni daha yaxından görməyə, onun səs möcüzəsini anlamağa çalışıb. Cənubi Amerikanın musiqi mütəxəssisləri belə rəyə gəliblər ki, dünyada yalnız Azərbaycan xanəndələri öz boğazlarında təbiətin səslərini yarada bilirlər. Azərbaycan muğamlarının əfsununa düşənlərin sayı bilinmir. Elə bu məziyyətlərinə görədir ki, Azərbaycan muğamları YUNESKO-nun Dünya İrs Siyahısına daxil edilmişdir.

Xalqımızın acılı-şirinli günlərini məhz öz ahəngində yaşadaraq əsrlərin dizini qatlaya-qatlaya III minilliyin əbədiyaşar sənət qalasına çevrilən muğamlar həmişə pərəstişkarları, ifaçıları tərəfindən qorunmuşdur. Babalarımız bu qiymətli xəzinəni göz bəbəyi kimi hifz edərək bizlərə çatdırmışlar. İndi konsert salonlarını, efiri, ekranı bürümüş yüngül şouların, sözün əsl mənasında gurultuların, ruhumuza yad musiqilərin içində yenə də muğam sanki bir xilaskar rolunu oynamaqdadır. İnsanın duyğularını əzən, sinirlərini tarıma çəkən qatmaqarışıq çalğılardan, cingiltili səslərdən sonra qəfildən muğam eşidəndə dincəlirsən. Sanki qasırğa qopmuş dəniz-

də bir sakitlik yaranır. İnsanın əsəblərinə ipək sığalı çəkilir, varlığını bürümüş əsəbilik əriyib gedir. Onu da etiraf edək ki, muğam və xalq mahnılarına qarşı bəzi məqamlarda bir laqeydlik də baş alıb getməkdə idi. Xüsusilə də gənclərin yüngül musiqiyə meyil etməsi, toylarda, konsert salonlarında şit nəğmələrin, ara mahnılarının müntəzəm səsləndirilməsi yaşlı nəsildə bir xiffət yaradırdı. Hətta ustad sənətkarlardan eşidirdik: «Biz də getdik. Bəs sonra bu muğamlarımızı kim yaşadacaq?»

YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban Əliyevanın «Azərbaycan muğamları» layihəsi çərçivəsində həyata keçirdiyi islahatlar sözün həqiqi mənasında böyük bir hadisəyə çevrildi. Mədəni aləmdə baş verən bu xoşməramlı islahat və tədbirlər sənət adamlarını, xüsusilə muğam ifaçılarını ürəkdən sevindirdi. Bu ilin mart ayında M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında muğam axşamlarının təşkili və bu məbəddə muğam dəstgahlarının keçirilməsi artıq ənənəyə çevrilib. Azərbaycan Mədəniyyətinin Dostları Fondu tərəfindən Muğam ensiklopediyası yaranmaqdadır. Muğam sənətinə həsr olunmuş traktatlar tərcümə edilərək çapa hazırlanır. Dövlət başçısı tərəfindən Azərbaycan musiqisində və incəsənətində özünəməxsus xidmətləri olan ifaçıların əməyi mükafatlandırıldı.

Ölkə Prezidenti cənab İlham Əliyevin aprelin 6-da imzaladığı «Bakı şəhərində Muğam Mərkəzinin yaradılması haqqında» sərəncamda deyilir: «Azərbaycan musiqisini zəngin fəlsəfi və ədəbi zəmində təşəkkül tapmış muğamsız təsəvvür etmək mümkün deyildir. Klassik ədəbiyyat nümunələri ilə üzvi surətdə vəhdət təşkil edərək sintetik sənət növü kimi meydana çıxan muğamların Azərbaycan musiqisinin inkişafında rolu böyükdür.

Bəstəkarlarımızın daim ilham mənbəyi olmuş muğamlar bir çox simfonik əsərlərin yaradılmasına təkan vermişdir. Təsadüfi deyildir ki, Azərbaycan bəstəkarlarının qələmindən çıxan simfonik muğamlar dünyanın hər yerində maraqla qarşılanır».

Aprelin 8-də «Gülüstan» sarayında YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyevanın layihəsi əsasında hazırlanmış «Qarabağ xanəndələri» albomunun təqdimat mərasimi keçirildi. Həmin albomda 24 muğam ustadının ifası öz əksini tapmışdır. Qarabağın unudulmaz səs sahiblərindən olan Cabbar Qaryağdıoğlunun, Keçəçi oğlu Məhəmmədin, Məşədi Məmməd Fərzəliyevin, Məcid Behbudoyun, Seyid Şuşinskinin, Xan Şuşinskinin, İslam Abdullayevin, Bülbülün, Zülfü Adıgözəlovun, Əbülfət Əliyeyin və müasir muğam ustalarının səs inciləri toplanmış bu albom sənətsevərlər tərəfindən rəğbətlə qarşılandı. Mərasimdə nitq söyləyən YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva demişdir: «Qarabağ xanəndələri» «Muğam-irs» layihəsinin ilk albomudur... Hər biriniz bu albomu hədiyyə olaraq almısınız. Mən inanıram ki, bu albomla tanış olanda hiss etmisiniz ki, biz onu nə qədər məsuliyyətlə, digər tərəfdən də böyük məhəbbətlə hazırlamışıq. Heç də təsadüfi deyil ki, bizim ilk layihəmiz Qarabağ xanəndələrinə həsr olunmuşdur. Biz Qarabağ torpağının acısını, Azərbaycanın haqq səsini muğam vasitəsilə bütün dünyaya çatdırırıq».

Bakı şəhərində Muğam Mərkəzinin yaradılması ilə əlaqədar ölkə başçısının sərəncam imzalaması, eləcə də Azərbaycan Mədəniyyətinin Dostları Fondunun muğamla əlaqədar layihə hazırlayıb həyata keçirməsi, xüsusi olaraq «Qarabağ xanəndələri» albomunun yaranması bütövlükdə xalq tərəfindən rəğbətlə qarşılanıb. Dövlətin xalq musiqisinə, muğamlara göstərdiyi bu diqqət muğam ifaçılarını riqqətə gətirib. Onlar bu hadisələri yüksək əhvalla qarşılayaraq bunu xoş məramlı «sənət bayramı» kimi qeyd edirlər.

**Xalq artisti Arif Babayev:**

– «Qarabağ xanəndələri» albomunun təqdimatında mən də iştirak edirdim. Çox gözəl bir gün idi. Doğrudan da bizim üçün əsl bayram oldu. Qarabağ xanəndələri-

nin – Cabbar əmidən tutmuş bugünkü ifaçılara qədər ardıcıl olaraq bir albomda toplanması ürəyimizi dağa döndərdi. Bu həqiqətən çox böyük bir işdir. Milli musiqimizə verilən qiymətdir. Hamımız ruhlanmışıq, ürəkdən sevinirik. Çox narahat idik ki, muğam sənətinə nə vaxt əsl qiymət veriləcək? Unudulmaz Heydər Əliyev bu işi çox qayğı ilə başlamışdı. Hər bir sənətçiyə necə həssaslıqla yanaşırdı. İndi bu ənənəni ölkə başçısı İiham Əliyev və Mehriban xanım çox ləyaqətlə davam etdirirlər. Milli musiqimiz – muğam və xalq mahnılarımız bizim xəzinəmizdir. Bu mənəvi varidata belə yüksək münasibət bizi çox ruhlandırdı. Bakıda Muğam Mərkəzi yaradılacaq. Vallah, möcüzədir. Biz indiyəcən belə bir şey eşitməmişdik. Bu mərkəzin yaradılması əslində böyük ocağın qurulması deməkdir. Bu, tarixi hadisədir. Milli musiqini sevən adamlar bu işi yüksək qiymətləndirirlər. «Xalq gözü tərəzidir». Onun diqqətli baxışlarından heç nə yayınmır.

**Xalq artisti Ağaxan Abdullayev:**

– Ölkə Prezidentinin Bakıda Muğam Mərkəzinin yaradılması ilə bağlı imzaladığı sərəncam muğamsevərlərin bayramına çevrildi. «Gülüstan» sarayında keçirilən təqdimat mərasimində mən öz ürək sözlərimi Mehriban xanım Əliyevaya dedim. Şükür Allaha, bizə sahib çıxan tapıldı. Bu, çox böyük işdir. Allah bunu həyata keçirən nəcib insanlara cansağlığı versin. Onlar ulu öndərimizin saldığı yolu davam etdirirlər. Həm muğam ifaçılarına göstərilən qayğı, həm də muğamlara verilən yüksək qiymət çox yerinə düşdü. Bu mövqe təkcə ifaçıları deyil, bütün xalqımızı sevindirdi. Çox şükür olsun. Ürək açan işlər elə çoxdur ki, bilmirsən hansı məqama görə təşəkkür edəsən. Aprel ayının əvvəlində cənab İlham Əliyevin sərəncamı ilə Prezidentin fərdi təqaüdçüsü olmuşam. Mənimlə birgə neçə sənətçinin adı var o siyahıda. Gör neçə ailə sevindi! Nə qədər savab işdir!

**Xalq artisti Qəndab Quliyeva:**

– Həyatımın çox çətin anlarında, qəlbimin yaralı vaxtında hörmətli Prezident cənab İlham Əliyev və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyeva məni sevindirdilər. Anadan olduğum yurdumu, ocağımı, dağımı, çeşməmi, meşəmi, orada doğulan saf səslərimizi itirmişəm. Könlümdə Qarabağ adlı bir dərd inildəyir. Sirr deyil ki, Oarabağ muğamlarımızın beşiyidir. Belə bir vaxtda muğamları yada salmaq, bu sərvətə yüksək səviyyədə diqqət göstərmək, dəyərləndirmək çox böyük hadisədir. Mən az qala unudulmuşdum. Bir qədər də belə davam etsəydi cəmiyyət elə biləcəydi ki, heç həyatda yaşamıram. Amma var olsun ölkə başçısı, məni o dəryanın dibindən üzə çıxardı. Bu günlərdə Prezidentin fərdi təqaüdünə layiq görüldüm. Muğamlarımıza diqqət artıb. «Gülüstan» sarayına mən də dəvət olunmuşdum. Mehriban xanım Əliyevanın çıxışı məni heyran etdi. Onun qəlbində qədim mədəniyyətimizə, irsimizə böyük məhəbbət var. Muğamlarımız haqqında zəngin məlumata malikdir. İnsan ki öz milli kökünə, dəyərlərinə sahib çıxdı, onun keşiyində dayandı, həqiqətən xoşbəxtlikdir. Görüşdə mən o anları yaşadım. Qarabağın unudulmuş xanəndələrini bu gün yada salıblar. Bilsəniz, yaralı qəlbim necə sevindi. Mənə elə gəldi ki, dünyasını dəyişmiş Qarabağ xanəndələrinin ruhu da şad oldu.

**Xalq artisti Mələkxanım Əyyubova:**

– Muğam hər bir azərbaycanlı üçün müqəddəsdir. Muğamlar Azərbaycan xalqına Allah tərəfindən göndərilən bir xoşbəxtlikdir. Muğamlarımızın yaradıcısı da elə ulu Tanrının özüdür. Bəzən çox qiymətli, əvəzsiz bir sərvət əlimizdə olanda onun qədrini elə də yaxşı bilmirik. Muğamlarımızı min cür ağrı-acının içindən salamat çıxardaraq bu günümüzə çatdırıblar. Ustad sənətkarların sırası çox seyrəlib. Biz – orta yaşlı nəsildə də bir narahatlıq var idi ki, bu qiymətli mənəvi sərvəti gələcək nəslə necə çatdıra biləcəyik? Prezident İlham Əliyevin imzaladığı sərəncamlar, Azərbaycan Mədəniyyətinin

Dostları Fondunun prezidenti Mehriban xanım Əliyevanın layihələri əsasında həyata keçirilən tədbirlər bu nigaranlığa son qoydu. Biz indi inanırıq ki, muğamlarımızı lazımi səviyyədə gələcək nəslə ötürə biləcəyik.

**Mədəniyyət və İncəsənət Universitetinin dosenti, muğamlarımızın mahir ifaçısı Yaqut Abdullayeva:**

– Muğamlarımızın dovlət tərəfindən dəstəklənməsi, dəyərləndirilməsi, «Qarabağ xanəndələri» albomunun təqdimatı bizə gözlənilməz bir sevinc gətirdi. Otuz ilə yaxındır ki, mən həm muğamlarımızı ifa edirəm, həm də gələcək ifaçıları yetişdirirəm. Musiqiçilər adından həm ölkə başçısına, həm də Mehriban xanım Əliyevaya sonsuz minnətdarlığımı bildirirəm. «Qarabağ xanəndələri» albomunun təqdimat mərasimində qeyri-adi hisslər keçirdim. Elə güman edirəm ki, bu, Qarabağın qayıdışına atılan ilk addımlardır. Muğamın dəyərləndirilməsi mənə torpaqlarımızın qaytarılması kimi təsir etdi.

**Əməkdar artist Mənsum İbrahimov:**

– Bizim bayramımızdır. Prezidentin sərəncamı ilə Muğam Mərkəzinin yaradılması dəyərli bir hadisədir. Bu o deməkdir ki, muğam ifaçılarının, nəhayət, Bakıda bir evi olacaq. «Qarabağ xanəndələri» albomunun işıq üzü görməsi mədəni aləmin ən mühüm hadisəsi oldu, Özümü çox xoşbəxt hiss edirəm ki, 24 diskdən biri mənimdir. Belə bir alboma salınmağımı layiq görüblərsə, böyük etimaddır. Qarabağ bu gün düşmən tapdağındadır. Qarabağ xanəndələrinin belə yüksək səviyyədə albomunun dörd dildə buraxılması təkcə mədəni deyil, həm də siyasi hadisədir. Çünki Qarabağ əzəli və əbədi olaraq Azərbaycan torpağıdır. Dünya mədəniyyətinə bəxş etdiyi incilər, korifeyiər bunu bir daha təsdiq edir.

**Əməkdar artist Nəzakət Teymurova:**

– Çox sevindirici haldır ki, dövlətimiz tərəfindən muğamlarımıza və onun ifaçılarına belə yüksək sə-

viyyədə diqqət göstərilir. Mən bu ecazkar sənət yolunun gənc nümayəndələrindən biriyəm, lakin buna baxmayaraq ulu öndərimiz tərəfindən «Əməkdar artist» fəxri adına layiq görülmüşəm. Opera və Balet Teatrının səhnəsində mənə baş rolların ifası etibar edilir. Dünyanın çox möhtəşəm səhnəsində muğamlarımızı ifa etmişəm. Əcnəbi tamaşaçıların baxışlarında duyduğum heyrəti, ehtiramı heç vaxt unuda bilmirəm. Az qala bütün dünya bizim milli musiqimizə və muğamlarımıza vurğun kəsilib. Heç kəsə demək olmaz ki, mütləq muğamı sevsin, milli musiqiyə meyil etsin. Gərək bu hər bir insanın öz içindən gəlsin. Sevinirəm ki, muğamın taleyi ilə əlaqədar narahatlıq keçirən müəllimlərimin, ustad sənətkarların üzüntüsünə son qoyuldu. Əgər bir ölkədə dövlət başçısı onun milli sərvətinə diqqətlə, həssaslıqla yanaşırsa, o məmləkətin vətəndaşları da öz borcunu anlamalı, mənəvi dəyərlərə məhəbbət göstərməlidir. Təbii ki, muğam ifaçıları olduğumuz üçün biz ikiqat sevinc keçiririk.

Səsin şeiriyyətini, sözün gizli mənasını, nağılımızı, əfsanəmizi ötənlərin buludlarından süzə-süzə ruhumuza çatdıran muğamlarımıza dövlət tərəfindən göstərilən diqqət sənət adamlarını vəcdə gətirib. Onlar öz minnətdarlıqlarını bildirməyə söz belə tapmırlar. Çünki bütün qəlblər sevincdən dolub-daşır. Çox mətləbdən xəbər verən sənət abidəsi haqqında şair Bəxtiyar Vahabzadənin 1974-cü ildə yazdığı «Muğam» poemasından seçdiyimiz misralar bu musiqi dünyasının əsl poetik pasportudur:

Daş ürəklərdə yanıb daşları sındırdı muğam,
Haqqa duşmən olanı haqqa tanıtdırdı muğam.
Nə güman eyləmisən ondakı tilsimləri sən,
«Kürü ahıyla qurutdu», «salı yandırdı» muğam.
Onun hər güşəsi bir xatirə, bir canlı kitab,
Keçilən yolları hərdən bizə andırdı muğam.

***Flora XƏLİLZADƏ,***
***Azərbaycan,***
***2005, 19 aprel***

## *Mehriban Əliyeva «İlin mədəniyyət adamı» nominasiyasına layiq görülüb*

Ötən gün Yeni Yazarlar və Sənətçilər Qurumunun (YYSQ) təşəbbüsü ilə İçərişəhərdə yerləşən Miniatür Kitab Muzeyində «Beynəlxalq Kitab və Müəllif Hüququ Günü», habelə «Ümumdünya Əqli Mülkiyyət Günü»nə həsr olunmuş tədbir keçirilib.

Tədbir çərçivəsində 2004-cü ilin nəticələrinə görə «İlin mədəniyyət adamı», «İlin ədəbiyyat adamı», «İlin mədəniyyətə dəstək verən dövlət qurumu» və «İlin mədəniyyətə dəstək verən özəl qurumu» nominasiyalarında qaliblərə diplom və hədiyyələrin təqdimatı olub.

YYSQ Gənc Art-Sosioloqlar Qrupunun texniki dəstəyinə YUNESKO tərəfindən elan edilmış 21 mart Dünya Poeziya Günü – Beynəlxalq Ədəbiyyat Bayramı münasibətilə ölkəmizin Bakı, Sumqayıt, Lənkəran, Quba və başqa şəhərlərində 16-40 yaşlı 500-dən yuxarı vətəndaşlar arasında keçirdiyi Ars-sorğunun nəticələrinə əsasən YYSQ İdarə Heyəti 2004-cü ilin nəticələrinə görə: Yeni milli mədəniyyət quruculuğu sahəsindəki xidmətlərinə, xalq musiqisi və muğamlarımızın qorunub, gələcək nəsillərə çatdırılması istiqamətindəki nailiyyətlərinə və YUNESKO-nun xoşməramlı səfiri kimi həyata keçirdiyi kültür layihələrə görə Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban Əliyeva «İlin mədəniyyət adamı»; Milli Məclisin mədəniyyət məsələləri daimi Komissiyasının rəhbəri, millət vəkili Anar «İlin ədəbiyyat adamı», Gənclər, İdman və Turizm Nazirliyi «İlin Mədəniyyətə dəstək verən dövlət qurumu», «Palmali» Şirkətlər Qrupunun prezidenti Mübariz Mənsimov «İlin Mədəniyyətə dəstək verən özəl qurumu» diplomu ilə təltif ediliblər.

***Paritet,***
***2005, 23-26 aprel***

«Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir».

Həyatın mənası, bir insan ömrü yaşayan hər kəsin dünyadakı yeri və rolu haqda deyilən bu fikirlərin dəqiq təsəvvürə, kifayət qədər dolğun və möhkəm qənaətə əsaslandığı dərhal hiss olunur. İlk növbədə ona görə ki, həmin mülahizələr səmimiyyətə və konkret, məqsədyönlü fəaliyyətə söykənir, fikrin arxasında konkret əməl, məqsədyönlü iş dayanır.

Yuxarıda qeyd etdiyimiz fikirlərin müəllifinin – ölkənin birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın indiyədək keçdiyi ömür və fəaliyyət yolu onun belə düşünməyə tam mənada haqqı, mənəvi ixtiyarı olduğuna ciddi əminlik yaradır. Bu fəaliyyət yolu isə olduqca zəngin və çoxşaxəlidir.

Ötən əsrin 80-ci illərinin sonlarından etibarən tənəzzülə uğramaqda olan Azərbaycan mədəniyyətinin təmənnasız diqqət və qayğıya böyük ehtiyacı vardı. Bu ehtiyacın mümkün dərəcədə ödənilməsinə çalışan, ictimai fəaliyyətinin ilk mərhələsində – 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunun təşəbbüsçüsü kimi çıxış edən Mehriban Əliyevanın dəstəyilə tez bir zamanda diqqətəlayiq nailiyyətlərə imza atıldı. Mehriban Əliyeva Fonda birbaşa rəhbərlik etməyə başladıqdan sonra isə qurumun fəaliyyəti daha da gücləndi və bu, Azərbaycan mədəniyyətinin böhran məngənəsindən çıxmasına əlavə təkan verdi. Görülən bütün bu işlərin geniş ictimaiyyətə çatdırılmamasının sadəcə, bir səbəbi vardı – təvazökarlıq. Bu isə onun həyat kredosuna, fəaliyyət tərzinə xas ən ümdə cəhət-

lərdən biridir: «...Ömür boyu mənim həyat amalım belə olmuşdur ki, etmək istədiyin yaxşılığı heç vəchlə gözə çarpdırmaq olmaz. İndi mən bundan, demək olar, məhrumam. Birinci xanım statusunda mən elə bir xeyriyyə aksiyası keçirə bilmirəm, o, ictimaiyyətin diqqətini cəlb etməsin. Bu isə özünü göstərməkdən tamamilə uzaq adam kimi mənə kifayət qədər çətin olur». 1996-cı ildə isə Mehriban Əliyeva milli mədəniyyətimizin geniş təbliğ olunması məqsədilə 3 dildə (Azərbaycan, ingilis və rus dillərində) nəşr olunan «Azərbaycan-İrs» jurnalını təsis etməklə Azərbaycan həqiqətlərinin daha geniş təbliği, beynəlxalq ictimaiyyətə çatdırılması yönündə növbəti addım atmış oldu. Bu jurnalın səhifələrində indiyədək Azərbaycan mədəniyyəti haqda, ölkəmizin, cəmiyyətimizin ən aktual problemləri barədə bir çox maraqlı materiallar, yüksək səviyyəli məqalələr dərc edilib. Mehriban Əliyevanın Azərbaycan musiqisinin inciləri olan muğamların tədqiqi və təbliğiylə bağlı fəaliyyəti isə ayrıca tədqiqatın mövzusu ola bilər. Həmin sahədə müəyyən önəmli addımlar atan Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri seçildikdən sonra onun bu istiqamətdə gördüyü işlər daha ardıcıl və effektli xarakter aldı. Qürur doğuran faktdır ki, YUNESKO indi Azərbaycan muğamını dünya irsi hesab edir.

Mehriban Əliyeva Azərbaycan xalqının kökü qədimlərə gedən sənət xəzinəsinə, ulu muğamatımıza, sözün əsl mənasında, sahib çıxaraq, bu sahəyə yaxından himayədarlıq etdi. İlkin nəticələrdən biri «Qarabağ xanəndələri» adlı albomun nəfis tərtibatda buraxılması oldu, Albom işıq üzü gördükdən sonra, yəqin ki, əksəriyyəti belə bir sual düşündürdü: «Muğam bütün Azərbaycanındır, onda niyə məhz «Qarabağ xanəndələri?»

Doğrudan da, albomun adını bəlkə «Azərbaycan xanəndələri» də qoymaq olardı. Amma burada böyük dəqiqliklə düşünülmüş incə bir məqam vardı. Alboma «Qarabağ xanəndələri» adı qoyulmaqla bütün dünyaya bir daha göstərildi ki, Qarabağ əzəli və əbədi Azərbaycan torpağıdır, muğam isə bu torpağın dünyaya bəxş etdiyi

nadir sənət nümunəsidir. Aydın məsələdir ki, bu, adi bir musiqi layihəsi olmadı, həm də milli-siyasi əhəmiyyət daşımaqla, illərdən bəri aparılan erməni təbliğatına vurulan böyük zərbəyə çevrildi. Elə buradaca qeyd edək ki, Mehriban Əliyevanın rəhbərliyi altında «Qarabağ» kitabının çapa hazırlanması da Azərbaycanın, Qarabağın tarixi keçmişinin öyrənilməsinə və təbliğinə diqqətin dəyərli təzahürlərindən biri kimi diqqəti çəkdi.

Mehriban Əliyevanın rəhbərlik fəaliyyətinin növbəti bəhrəsi olan bir layihə artıq həyata keçmək üzrədir. Bu layihə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun bütün əsərlərinin yenidən çap olunması ilə yanaşı, onların CD və DVD-də buraxılmasını əhatə edir.

Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu sosial sferaya aid aktual məsələləri – qaçqın və məcburi köçkünlərin, uşaq evlərinin, internat-məktəblərin, müxtəlif ağır xəstəliklərdən əziyyət çəkən insanların problemlərini daima diqqətdə saxlayır. «Uşaq evləri və internat-məktəblərin inkişafı proqramı» bilavasitə Heydər Əliyev Fondunun prezidentinin təşəbbüsü və rəhbərliyilə hazırlanıb. Bakıda və ətraf qəsəbələrdə yerləşən uşaq evi və internat-məktəblərdə mövcud problemlər öyrənilib, onların aradan qaldırılması üçün konkret işlər görülüb. 2004-cü ilin sentyabr ayında keçirilən «Mən Azərbaycanı sevirəm» mövzusunda rəsm sərgisi bu baxımdan xüsusən yaddaqalan oldu.

Cəsarətlə demək olar ki, Heydər Əliyev Fondu kimsəsiz, valideyn himayəsindən məhrum, fiziki imkanları məhdud, habelə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində qaçqın-köçkün həyatı yaşayan uşaqlara qayğı göstərmək baxımından bütün digər qurumlar üçün layiqli örnəkdir. Fond tərəfindən səhiyyə sahəsində həyata keçirilən layihələrin arasında talassemiya ilə bağlı tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Ölkəmizdə belə xəstələrin sayı, onların vəziyyəti ətraflı təhlil olunur, talassemiyanın müalicəsi və profilaktikası üçün milli proqramlar hazırlanır. Təkcə keçən il Heydər Əliyev Fondunun dəstəyilə 500-dən çox soydaşımı-

za yardım göstərilməsi Mehriban Əliyevanın xeyirxah fəaliyyətinin nəticəsidir.

Mehriban Əliyevanın istər xeyriyyəçilik, istərsə də ictimai fəaliyyətinin əsas istiqamətləri sırasında təhsil və səhiyyənin mühüm yer tutması qətiyyən təsadüfi deyil. «Azərbaycanın gələcəyi təhsilli insanların çiyinləri üzərində qurulacağını» böyük inamla vurğulamış Heydər Əliyevin ideyalarını əldə rəhbər tutan və onların həyata keçməsinə çalışan Mehriban Əliyeva təhsilə xüsusi diqqət yetirir. Bu sahəyə yönələn diqqət və qayğının ölkənin gələcəyi baxımından nə dərəcədə önəmli olduğunu bir daha qeyd etməyə, yəqin ki, ehtiyac yoxdur. Təhsilin inkişafı, yeni nəslin təlim-tərbiyəsinin yüksək səviyyədə qurulması, bu günün uşaqlarının sabahın layiqli vətəndaşları kimi yetişməsi yolunda konkret və məqsədyönlü işlər görmək ilk növbədə həqiqi vətənpərvərlikdən irəli gəlir. Yalnız vətənpərvərlik hissi, vətən sevgisindən qaynaqlanan ali duyğular insanı olduqca çətin, lakin xalqın, dövlətin gələcəyi baxımından strateji əhəmiyyətli işlər həyata keçirməyə sövq edə bilər. Heydər Əliyev Fondunun prezidenti kimi, Mehriban Əliyevanın son dövrdə atdığı addımlar, xüsusən də, konkret olaraq, təhsilə yönəltdiyi böyük diqqət onun gerçək vətəndaşlıq mövqeyində dayanmasının, nümunəvi vətənpərvərliyinin danılmaz sübutudur.

Təhsillə bağlı qarşıya qoyulan əsas məqsəd, izlənilən başlıca qayə Azərbaycanda bu sahənin çağdaş dünyanın tələb etdiyi səviyyəyə yüksəldilməsidir. Qeyd olunan məqsədə çatmaq üçün ölkədə müasir tipli yeni məktəblərin inşasının, tədris prosesinə normal şərait yaradılmasının vacibliyini dərindən dərk edən Mehriban Əliyevanın rəhbərliyilə Heydər Əliyev Fondu artıq bu yöndə konkret addımlar atmaqdadır. Qısa vaxt ərzində 126 yeni məktəb tikilməsi dövlət müstəqilliyinə cəmi 14 il əvvəl qovuşan, müharibə vəziyyətində olan, iqtisadiyyatı təzəcə inkişaf etməyə başlayan istənilən ölkə üçün fövqəladə göstərici sayıla bilər. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu məhz belə bir

layihəni tezliklə həqiqətə çevirəcək. Yaxın və uzaq xaricdə indiyədək analoqu görünməyən bu layihənin həyata keçməsi, heç şübhəsiz, təkcə Azərbaycanda deyil, bütün dünyada geniş əks-səda doğuracaq. İnanırıq ki, ölkənin birinci xanımı Mehriban Əliyevanın vətənpərvərlikdən qaynaqlanan bu xeyirxah işi sayəsində Azərbaycan mütərəqqi dünyanın diqqətini bir daha özünə cəlb edəcək, dövlətimizin nüfuzu bir qədər də yüksələcək.

***Emin HƏSƏNLİ,***
***525-ci qəzet,***
***2005, 9 iyun***

## *Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva «İlin qadını» elan edilmişdir*

«Lider qadınlar» İctimai Birliyinin təşəbbüsü ilə Azərbaycan Sosiologiya Assosiasiyasının keçirdiyi sorğunun nəticələrinə görə, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva «İlin qadını» elan edilmiş, iyulun 18-də Yaxt-klubda fəxri mükafatın təqdim olunması mərasimi keçirilmişdir.

Milli Məclisin deputatı, «Lider qadınlar» İctimai Birliyinin sədri Məlahət Həsənova bildirmişdir ki, 1995-ci ildə Pekində keçirilmiş Qadınların 4-cü Beynəlxalq konfransının 10-cu ildönümü münasibətilə Azərbaycanda 2004-cü ilin yekunlarına görə «İlin qadını»nı müəyyənləşdirmək məqsədi ilə sorğu keçirmək üçün təşkilat komitəsi yaradılmışdı. Komitənin işinə respublikamızın, eləcə də xarici ölkələrin təcrübəli ekspertləri cəlb olunmuş, onların iştirakı ilə bu ilin fevralından paytaxtda və respublikamızın regionlarında əhalinin müxtəlif təbəqələri arasından seçilmiş 1800 nəfər respondentə anket paylanmışdır. Sorğu anketinə respublikamızın ictimai-siyasi həyatında xüsusi fəallığı ilə se-

çilən qadınların adları daxil olunmuşdur. Sorğuya maraq gözlənildiyindən də artıq olmuş, müxtəlif yaş qruplarını, peşə, məşğuliyyət sahəsini əhatə edən minlərlə insan bu anonim sorğuda iştirak etmək arzusu ilə təşkilatçılara müraciət etmişdir. Sorğu iştirakçılarının 74,6 faizi Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya birinci yer vermiş, onu yenə də Azərbaycan qadınına xas olan yüksək keyfiyyətlərinə, geniş xeyriyyəçilik fəaliyyətinə görə «İlin qadını» hesab etmişdir. Bir çox respondentlər isə, nəzərdə tutulmasa da, anketin arxa tərəfində öz fikirlərini də yazmışlar. Məsələn, 77 yaşlı təqaüdçü, tarix elmləri namizədi Məmməd Tağıyev ürək sözlərini belə ifadə etmişdir: «Xeyirxahlığı, humanizmi, mərhəməti, sadəliyi və insanpərvərliyi özünə həyat tərzi hesab edən hörmətli Mehriban xanım! Siz səmimiyyətlə nəinki kimsəsizlərə kömək etməyi, hətta insanlarımıza onları sevməyi də öyrətdiniz. Siz ölkəmizdə qısa müddətdə xeyriyyəçilik hərəkatı yaratdınız. Bütün bunlar üçün çox sağ olun!»

M.Həsənova vurğulamışdır ki, bu, cəmiyyətdə minlərlə insanın Mehriban xanım haqqında formalaşmış fikrinin ifadəsidir. Təsadüfi deyil ki, respublikamızda fəaliyyət göstərən 100-ə yaxın qadın təşkilatı onu özlərinin vahid lideri seçmiş, milli birlik, yekdillik nümunəsi kimi səciyyələndirmişdir.

Sonra «İlin qadını» haqqında videofilm nümayiş etdirilmişdir.

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun, Gimnastika Federasiyasının rəhbəri kimi milli-mədəni dəyərlərimizin qorunub saxlanması və dünyada təbliği, olimpiya idman hərəkatının genişlənməsində böyük xidmətləri olan, bu sahələrdə səmərəli işlər görən Mehriban xanımın xeyriyyəçilik fəaliyyəti də filmdə öz əksini tapmışdır.

Xüsusən kimsəsiz, valideyn himayəsindən məhrum, əqli və fiziki cəhətdən qüsurlu uşaqların müalicəsi, onların təhsilə cəlb olunması, yaşayış şəraitinin yax-

şılaşdırılması ilə bağlı həyata keçirdiyi tədbirlər, respublikamızın regionlarına səfərləri zamanı uşaq evləri və internat-məktəblərin problemləri ilə tanış olub bunların həllinə kömək göstərməsi ona cəmiyyətin bütün təbəqələri arasında hörmət və ehtiram qazandırmışdır.

2004-cü il sentyabrın 9-da Parisdə Mehriban xanıma YUNESKO-nun xoşməramlı səfiri diplomunun təqdim edilməsini göstərən kadrlar da maraqla qarşılanmışdır.

Sonra Məlahət Həsənova «İlin qadını» fəxri mükafatını – Azərbaycan qadınının gözəllik, zəriflik və sədaqət rəmzi olan Mömünə xatunun adını daşıyan türbənin maketini Mehriban xanıma təqdim etmişdir.

Azərbaycan Sosioloqlar Assosiasiyasının prezidenti Rüfət Quliyev, İtaliyanın respublikamızdakı səfiri Marqarita Kosta, BMT-nin ölkəmizdəki nümayəndəliyinin rəhbəri Marko Borsotti, YUNİSEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hana Singer, Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri Zəhra Quliyeva, ABŞ-ın ölkəmizdəki səfirinin xanımı, «Dünyaya baxış» təşkilatının proqram rəhbəri Lesli Haraiş, Misirin respublikamızdakı səfiri Yusif Əhməd İbrahim əl-Şarkavi, əməkdar elm xadimi, professor Ağabəy Sultanov Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanımı yüksək mükafat münasibətilə təbrik etmiş, onun böyük ictimai, mədəni fəaliyyəti, əsl kübar xanım xarakteri, yüksək şəxsi mədəniyyəti, sadəliyi ilə xarici ölkələrin də ali dairələrində nüfuz qazandığını vurğulamışlar.

Mehriban xanım Əliyeva rəy sorğusunda iştirak edən bütüm respondentlərə, ekspertlərə, eləcə də mərasim iştirakçılarına səmimi razılığını ifadə etmiş, ölkəmizin, xalqımızın taleyüklü problemlərinin həllinə yardımçı olmaqdan qürur duyduğunu söyləmiş, bundan sonra da rəhbərlik etdiyi ictimai qurumlar vasitəsilə doğma Azərbaycanımızın tərəqqisi naminə bütün qüvvə və bacarığını sərf edəcəyini bildirmişdir.

Mehriban xanım demişdir:

– Mən öhdəmə götürdüyüm hər bir işə çox böyük məsuliyyətlə yanaşıram. Hər zaman öz fəaliyyətimdə çalışmışam bir neçə amala əsaslanım. Bunlar vətənpərvərlik, insansevərlik və mərhəmətlilikdir. Mənim fəaliyyətimə verdiyiniz yüksək qiymətə görə hər birinizə ürəkdən təşəkkür edirəm.

Mərasimdə Milli Məclisin deputatları, dövlət və hökumət nümayəndələri, respublikamızın tanınmış elm, mədəniyyət, incəsənət xadimləri, xarici ölkələrin səfirləri iştirak etmişlər.

Tədbir iştirakçıları Mehriban xanımı təbrik etmiş, onunla xatirə şəkilləri çəkdirmişlər.

***Xalq qəzeti,***
***2005, 19 iyul***

## *Məhz bu keyfiyyətlərinə görə Mehriban xanım Əliyeva yenidən «İlin qadını» seçildi*

Hazırda cəmiyyətdə qadınların böyük rola malik olması danılmaz faktdır. Demokratiya yolu ilə addımlayan ölkəmizdə də qadınlar bütün sahələrdə uğurlu fəaliyyətləri ilə seçilirlər. Onların ictimai-siyasi proseslərdə yaxından iştirak etmələri, genişmiqyaslı işlər görmələri cəmiyyətdə öz mövqelərini möhkəmləndirməyə şərait yaradır. Qadınlarımızın rəhbərlik etdikləri təşkilatlarda, təmsil olunduqları birliklərdə yüksək fəallıq və bacarıq nümayiş etdirmələri onlara həm ölkəmizdə, həm də ölkəmizin hüdudlarından kənarda böyük hörmət və nüfuz qazandırır, barələrində müsbət imic formalaşdırır.

YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın «İlin qadını» elan olunması da məhz çoxşaxəli və humanitar fəaliyyətlərinin nəticəsi olaraq xalqımızın ona hörmət və

məhəbbətinin təzahürüdür. Bu fəxri mükafat Mehriban xanıma «Lider qadınlar» İctimai Birliyinin təşəbbüsü ilə Azərbaycan Sosiologiya Assosiasiyasının keçirdiyi sorğu əsasında təqdim olunub. Məlumat üçün qeyd edək ki, 1995-ci ildə Pekində keçirilmiş Qadınların 4-cü Beynəlxalq konfransının 10-cu ildönümü münasibətilə Azərbaycanda 2004-cü ilin yekunlarına görə «İlin qadını»nı müəyyənləşdirmək məqsədilə sorğu keçirmək üçün təşkilat komitəsi yaradılmışdı. Komitənin işinə respublikamızın, eləcə də xarici ölkələrin təcrübəli ekspertləri cəlb olunub, onların iştirakı ilə bu ilin fevralından paytaxtda və respublikamızın regionlarında əhalinin müxtəlif təbəqələri arasından seçilmiş 1800 respondentə anket paylanıb. Sorğu anketinə respublikamızın ictimai-siyasi həyatında xüsusi fəallığı ilə seçilən qadınların adları daxil edilib. Qeyd edək ki, müxtəlif yaş qruplarını, peşə, məşğuliyyət sahəsini əhatə edən minlərlə insan bu anonim sorğuda iştirak etmək arzusu ilə təşkilatçılara müraciət edib. Sorğu iştirakçılarının 74,6 faizi Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya birinci yer verib, onu yenə də Azərbaycan qadınına xas olan yüksək keyfiyyətlərinə, geniş xeyriyyəçilik fəaliyyətinə görə «İlin qadını» hesab edib. Xalqımızın böyük əksəriyyətinin ölkəmizin birinci xanımına etimad göstərməsi, söz yox ki, heç də təsadüfi deyil. Və əgər Mehriban xanımın çoxşaxəli fəaliyyətinə nəzər salsaq, onun daha geniş fəaliyyət proqramına malik olması üçün rəsmi postlarda təmsil olunmağa layiq olduğunu əminliklə söyləyə bilərik.

Ölkəmizin birinci xanımını oxuculara daha yaxından tanıtmaq üçün əvvəlcə qısa arayış verək:

Mehriban Arif qızı Əliyeva Bakı şəhərində anadan olub. 1982-ci ildə Bakı şəhərində orta məktəbi qızıl medalla bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub. 1988-ci ildə M.Seçenov adına 1-ci

Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib. 1988-92-ci illər ərzində Moskvada akademik Krasnovun rəhbərliyi altında Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləyib. 1995-ci ildə Mehriban Əliyevanın təşəbbüsü ilə və hazırda onun rəhbərlik etdiyi «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu təsis olunub. 1996-cı ildə isə o, Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan «Azərbaycan-İrs» jurnalını təsis edib. 2002-ci ildə Mehriban Əliyeva Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib. O, həmçinin ümummilli liderimiz Heydər Əliyevin zəngin irsinin öyrənilməsi və dahi öndərin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəslə aşılamaq məqsədilə yaradılan Heydər Əliyev Fonduna rəhbərlik edir. 2004-cü il avqustun 13-də isə Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanması, inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri adına layiq görülüb. O, eyni zamanda 2004-cü il dekabrın 28-də Milli Olimpiya Komitəsinin 4-cü Baş Məclisində MOK-un İcraiyyə Komitəsinin üzvü seçilib. 2005-ci il iyunun 9-da isə ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmləndirilməsinə sanballı töhfələrinə görə Rusiyanın «Yüzilliyin mesenatları» Beynəlxalq Xeyriyyə Fondunun «Yaqut Xaç» ordeninə layiq görülüb.

Mehriban xanım Əliyevanın fəaliyyətinin ayrı-ayrı istiqamətlərinə diqqət yetirsək, onun xalqımızın milli sərvətlərinə, tarixi abidələrinə, sosial problemlərinə, təhsil, mədəniyyət, səhiyyə və idman sahələrinə biganə qalmadığını görərik. Onun rəhbərlik etdiyi «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunun xətti ilə milli musiqimizin qorunub saxlanması və təbliği məqsədilə keçirilən tədbirlər, «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı çərçivəsində uşaq evlərində və inter-

nat-məktəblərdə aparılan əsaslı təmir və yenidənqurma işləri, Azərbaycan Gimnastika Federasiyasının xətti ilə idmanımızın inkişafı istiqamətində atılan uğurlu addımlar Mehriban xanımın millətini sevən vətənpərvər bir insan olduğuna əyani sübutdur. Tam əminliklə deyə bilərik ki, Mehriban xanıma məhz qısa ictimai fəaliyyəti dövründə gördüyü genişmiqyaslı işlər, qazandığı uğurlar «İlin qadını» fəxri mükafatını qazandırıb. Biz onun geniş fəaliyyətinin bir məqalə çərçivəsinə sığmadığını nəzərə alaraq sonda bu yüksək mükafata layiq görülməsi münasibətilə onu ürəkdən təbrik edir, Vətənimiz və xalqımız qarşısında göstərdiyi xoşməramlı xidmətlərində yeni-yeni uğurlara imza atmasını arzulayırıq.

*Sevinc PAŞAYEVA*
*Azad Azərbaycan,*
*2005, 20 iyul*

## *Xoşməramlı səfir Mehriban xanım Əliyeva YUNESKO tribunasından Azərbaycanın haqq səsini dünyaya çatdırır*

Artıq bir neçə müddətdir ki, Azərbaycanda cəmiyyətin istifadə etdiyi mədəni və siyasi anlamlar çərçivəsinə mənası ilə tamamilə yeni, əvvəllər rastlaşmadığımız bir ifadə daxil olmuşdur: YUNESKO-nun xoşməramlı səfiri. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkəmizdə apardığı ictimai fəaliyyətin beynəlxalq miqyasda qiymətləndirilməsi nəticəsində verilmiş bu statusun şərəf və nüfuz çəkisini müəyyənləşdirmək üçün, zənnimcə, YUNESKO-nun daha bir neçə xoşməramlı səfirinin adlarını çəkmək kifayətdir: dünya şöhrətli musiqiçilər Monserrat Kabalye, Mstislav Rostropoviç, fransız kosmonavtı Patrik Bodri, İordaniya şahzadəsi Firyal, məşhur afrikalı alim Modibo Diarra, Türkiyə Böyük Millət Məclisinin deputatı, tanınmış

musiqiçi və bəstəkar Ömər Zülfi Livanelli, tanınmış fransız musiqiçisi Jan Mişel Jar, ispaniyalı səyahətçi-alim Kitin Minyos, Fransanın nəhəng «L'Oreal» şirkətinin Baş direktorunun xanımı Kristina Ouen-Cons, iş adamı Şeyx Həsən Şakir, Rusiyanın tanınmış rəssamı Zurab Sereteli, Latın Amerikasının təmsilçisi xanım Mariya de Lurdes Exidiyo Villela.

İngiliscə qudvil («goodwill») kimi səslənən bu sözün məna çalarları çoxdur. Belə ki, iqtisadiyyatda, siyasətdə, mədəniyyət və elmdə, ictimai həyatda hər sahənin məzmununa uyğun işlədilir. Lakin onun bir dəyişməz mənası var: mövcudluğu ilə insanlarda etibar, inam oyadan xoş məram, xoş niyyət. Bu sözün arxasında narahat, ziddiyyətli dünyanın insanlarını mənən yaxşılaşdırmaq, gözəlləşdirmək, əsrlərin miras qoyduğu mənəvi və mədəni sərvətləri bu gün də yaşatmaq amalı durur. YUNESKO-nun xoşməramlı səfirləri ailəsində artıq öz yerini tutmuş Mehribən xanım Əliyevanın vətənimiz üçün gördüyü işlərin mahiyyəti, bəlkə də, hələ tam dərk edilmir. Lakin tarixdə elə hadisələr olur ki, onların tarixi dəyəri təkcə gələcək nəsillərə ünvanlanmır, əksinə, elə ilk gündən müəyyənləşir. Azərbaycanın tarixində ilk xoşməramlı səfir Mehriban xanım Əliyevanın Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti kimi çoxşaxəli və çoxillik fəaliyyəti məhz bu tarixi dəyərə malikdir.

Martın əvvəllərində Parisdə YUNESKO-nun xoşməramlı səfirlərinin illik toplantısında müxtəlif məsələlər ətrafında müzakirələr aparıldı.

Açılış mərasimində YUNESKO-nun Baş direktoru cənab Koişiro Matsuura, YUNESKO-nun baş konfransının sədri zati-aliləri cənab Mişel Abiola Omovela çıxış etdilər. Tədbirlərdə YUNESKO-nun təbii fəlakətlərə qarşı xəbərdarlıq, təhsil sahəsində əsas inkişaf istiqamətləri, hamı üçün təhsil, davamlı inkişaf və təhsil layihələri müzakirə edildi. YUNESKO-nun 60 illiyi ilə əlaqədar məruzə dinlənildi, bu təşkilatın internet səhifəsi təqdim olundu.

Məlumdur ki, dünyanın ən iri beynəlxalq mədəni-humanitar təşkilatı kimi YUNESKO siyasi problemlərin müzakirəsi ilə məşğul olmur. O, siyasi müstəvidən, siyasət kürsüsündən bir növ uzaqdır. Lakin o da təkzib-edilməz həqiqətdir ki, müasir, qloballaşan dünyada hər şey siyasi gerçəkliklərə bağlıdır və çox zaman onların işığına boyanır. İlk baxışda siyasətlə birbaşa əlaqəsi olmayan addımlar, təşəbbüslər isə bu siyasətə cüzi də olsa düzəliş etmək iqtidarında ola bilir. YUNESKO-nun məramı, iş prinsipləri sırf humanitar xarakterli, siyasət baxımından bitərəf bəyan edilsə də, onun Birləşmiş Millətlər Təşkilatının bir struktur bölməsi kimi real beynəlxalq siyasətdən təcrid edilməsini də düşünmək sadəlövlük olardı. Dünya obyektiv olaraq mövcuddur və o, müharibələr, toqquşmalar, iqtisadi, siyasi və mənəvi böhranlardan xali deyildir. Müharibələrdən əziyyət çəkən, müharibələr üzündən inkişaf və tərəqqi yolunda maneələrlə rastlaşan ölkələr sırasında Azərbaycan da var. Ərazisinin 20 faizi işğal olunan, bir milyona yaxın qaçqın-köçkünü mənən və maddi baxımdan yaşadan kiçik bir ölkənin birinci dərəcəli problemi də elə bunlardır. Erməni işğalına son qoymaq üçün ölkəmizin rəhbərliyi bütün siyasi səviyyələrdə intensiv iş aparır. Təbiidir ki, YUNESKO-nun ənənəsi, fəaliyyəti istiqamətləri və xarakteri ilə əlaqədar olaraq Mehriban xanım öz çıxışında siyasi problemlərdən yan keçməli idi. Lakin Azərbaycanın birinci xanımı bu problemləri beynəlxalq təşkilatın məramına uyğun deyim və təbliğat vasitələrindən istifadə etməklə bir daha nüfuzlu tədbirlərdə mədəniyyət layihəsi çərçivəsində qaldırdı. YUNESKO-nun xoşməramlı səfirlərinin ənənəvi illik iclası bir daha Azərbaycan, onun mədəniyyəti, dünyəvi əhəmiyyətli ənənələri haqda məlumat vermək üçün, informasiya məkanı kimi mühüm əhəmiyyətə malikdir. Müasir dünyamızda məhz informasiyanın təqdimi bəzən dövlətlərin real iqtisadi, maliyyə gücü qədər təsirli və bəlkə də, daha səmərəli olur. Təsadüfi deyil ki, çox zaman informasiya məkanında müxtəlif dövlətlərin maraqları

«görüşür» və bu «görüş»ün nəticələri siyasətdə də əks-səda doğurur.

YUNESKO-nun iclas salonunda keçirilən toplantının birinci yarısına tanınmış fransız musiqiçisi, xoşməramlı səfir Jan Mişel Jar sədrlik edirdi. Əsas diqqət xoşməramlı səfirlər arasında təcrübə mübadiləsinə həsr olunmuş iclasda Mehriban xanım Əliyevanın təqdim etdiyi, müəllifi və rəhbəri olduğu «Azərbaycan muğamı» layihəsinin «Qarabağ xanəndələri» adlı tarixi, elmi, mədəni dəyərə malik ilk bölümü böyük maraqla qarşılandı.

Artıq YUNESKO öz qərarı ilə Azərbaycan muğamını dünya mədəniyyətinin misilsiz dəyərlərə malik şifahi, mənəvi sərvətləri sırasına daxil etmişdir. Qarabağ muğam məktəbi, onun tanınmış nümayəndələri haqqında nəfis şəkildə tərtib olunmuş kitab və 24 xanəndənin ifasını canlandıran kompakt disklər də Azərbaycanın ayrılmaz parçası olan Qarabağın çoxəsrlik muğam tarixini əks etdirir. Bu disklər Qarabağ muğam sənətinin səslərdə yaşayan tarixini və müasir səviyyəsini əyani şəkildə nümayiş etdirir.

«İnsanlara əbədi həqiqətlər haqqında düşünmək və bir də mənəvi rahatlıq tapmaq imkanı yaratmaq» qüdrətində olan muğam kimi misilsiz, dərin fəlsəfi mahiyyətli musiqi haqqında danışan Azərbaycanın xoşməramlı səfiri həm də mənəvi işğala məruz qalmış vətənimizin haqq səsini çatdırdı. O, Azərbaycanın sadəcə bir ərazi parçası deyil, mədəniyyətimizin, mənəviyyatımızın ayrılmaz parçası olan Qarabağ haqqında onun öz avazı, nəfəsi, tarixdən gələn ən obyektiv şahidləri və mühafizəçilərinin – musiqi səfirlərinin səsi ilə danışırdı. Mehriban xanım YUNESKO-nun açdığı imkanlar dairəsində yenə də Azərbaycan reallıqlarını, mənəvi və mədəni sərvətlərin tarixini, bugünkü potensialını yüksək, inandırıcı, cəlbedici, müasir səviyyədə təqdim etdi. YUNESKO-nun tarixində Azərbaycanın təmsil olunduğu müddətdə mədəniyyət və incəsənət ilə bağlı belə səviyyəli təqdimat ilk dəfə idi keçirilirdi. İclasda

iştirak edən bütün qonaqlara «Qarabağ xanəndələri» albomu hədiyyə edildi. Rəsmi hissədən sonra qeyri-rəsmi görüşlərdə də Azərbaycanın bu problemləri lazımi səviyyədə təqdim olundu, onlar haqqında ətraflı söhbət edildi. Ənənəyə uyğun olaraq, Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Baş direktoru və digər xoşməramlı səfirləri nahara dəvət etdi. Bu münasibətlə verilən konsertdə müasir Azərbaycan musiqi mədəniyyətinin parlaq nümayəndəsi, bəstəkar Firəngiz Əlizadənin artıq dünyanı fəth etmiş «Habilsayağı» əsəri səsləndi. Əsəri Firəngiz Əlizadə və tanınmış violonçelçi İvan Monigetti ifa etdilər. Muğam ənənəsinin qədim ruhunu, əsrlərin emosional-bədii energiyasını hifz edən musiqinin müasir, avanqard üslub vasitələri və estetikası ilə çulğalaşmış təcəssümü dinləyiciləri, sözün əsl mənasında, heyran etdi. Məşhur Azərbaycan kamança ustadı, bizim müasirimiz Habil Əliyevin çalğısından alınan təəssürat nəticəsində yazılmış kompozisiyanın adı da elə bu böyük el sənətkarının adından götürülmüşdür. Əsərin yaranması ideyası da vaxtilə Habil Əliyevin kamançada çaldığı muğamdan, onun ifa üslubundan heyrətlənən İvan Monigettiyə məxsusdur. Firəngiz Əlizadənin Azərbaycan muğamının sanki tamamilə yeni çalarlarla boyanan, müasir ritmə və deyim tərzinə köklənmiş musiqi toxumasında zərgər dəqiqliyi ilə işlənmiş muğam pannosu bu sənətin həmişəyaşar potensialının nadir bir təzahürü idi.

Elə bu görüş əsnasında CNN xəbərlər proqramında Azərbaycanda «Monitor» jurnalının redaktoru Elmar Hüseynovun qətli ilə bağlı xəbər yayıldı. Qonaqlar da bu xəbəri eşidib maraqlandılar. Hər bir insanın qətli, xüsusilə də onun həyatına zorakılıqla son qoyulması faktı dəhşət doğurur. Jurnalistin qətlə yetirilməsi hadisəsi, əlbəttə ki, ölkəmizə qarşı müəyyən qüvvələr tərəfindən təzyiq vasitəsi kimi istifadə üçün zəmin yarada bilər. Bu faktı isə bilərəkdən siyasi amilə çevirmək cəhdi ölkəmizin sivil simasının qorunmasına yönəldilmiş

işlərə və fəaliyyətə mane olur. Vahid milli ideya – müstəqil Azərbaycan ideyası insan amilinin, fərdin qiymətləndirilməsi prinsiplərinə arxalanaraq, bütövlükdə cəmiyyəti bir yüksək amal altında birləşdirməlidir. Əlbəttə ki, bu ideya, bu amal və arzular qərəzli münasibətlərdən yüksəkdə olmalıdır.

Konsertdən sonra nahar yeməyində Mehriban xanım qonaqlarına – YUNESKO-nun Baş direktoru Koişiro Matsuuraya, Mstislav Rostropoviçə, şahzadə Firyala, Ömər Zülfi Livanelliyə, Şeyx Həsən Şakirə Azərbaycanın üzləşdiyi qaçqın-köçkün problemi haqqında artıq qeyri-formal şəraitdə məlumat verdi. Naharda iştirak edən bu sətirlərin müəllifi təəssüf doğuran bir faktla qarşılaşdı. Onların çoxu Azərbaycanın bu faciəvi reallıqları barədə heç nə bilmirdilər. Mehriban xanımın qaçqın-köçkünlərin ağır şəraitdə çadır şəhərciklərində yaşamaları, xüsusilə də uşaqların bundan cox əziyyət çəkmələri, çətin şəraitdə təhsil aldıqları barədə söhbətini diqqətlə dinləyirdilər, Mstislav Rostropoviç də onun sözlərini təsdiqləyərək, bütun bunları öz gözləri ilə gördüyünü bir daha qonaqlara çatdırdı. Mənim üçün bu, səfərimizin bəlkə də ən uğurlu məqamı idi. Çünki xaricdə, xüsusilə də Avropa ölkələrində hər hansı bir həqiqəti qəzet məlumatları və rəsmi təqdim süzgəcindən keçmiş quru faktlarla deyil, şəxsi münasibətlər, inam və səmimiyyət atmosferində aldıqda daha tez qavrayırlar. Mən gorürdüm ki, onlar Azərbaycanın birinci xanımını, sadəcə, hörmət və nəzakət xatirinə dinləmir, ona inanırdılar. Onlar doğrudan da, eşitdiklərindən şok vəziyyətinə düşdükləri, təsirləndikləri üçün Azərbaycan haqqında çox məlumat almaq istəyirdilər.

Çoxları bu sətirləri oxuyanda düşünə bilər ki, işğal kimi qlobal problemi belə sadə vasitələrlə nə dərəcədə həll etmək olar və yaxud ilk baxışda, bəlkə də, kifayət qədər «təsirli siyasi gücü» olmayan belə sadə vasitələr nəyisə həll etmək iqtidarında deyildir. Lakin müasir tariximiz bəzən ilk baxışda sadə görünən vasitələrin

də siyasi müstəvidə önəmli rol oynamasına dəlalət edən hadisələrlə doludur. Bəzən məhz mədəniyyət siyasətçilərdən bir addım öndə gedərək, onların gördüyü ağır işlərin xoşməramlı, əlverişli fonunu yaradır.

Hər bir ölkənin siyasi aurası mürəkkəb bir konstruksiyanı xatırladır. Bəzən bu konstruksiyanın ümumi planında xırda, ilk baxışda nəzərə çarpmayan, gözəgörünməz detallar onun bütövlüyünü, möhkəmlıyini təmin edir. Müasir dünya nə qədər praqmatik, maddiləşmiş olsa da, mənəvi dəyərlər aktuallığını itirmir, insan amili, şəxsi münasibətlər, mədəni-mənəvi ənənələr boyük təsir gücünə malikdir. Tarix həmişə kiçik dövlətləri böyük sınaqlara çəkir. Bu sınaqlardan çıxmaq yollarında aparıcı amal, məram – vətəndaş həmrəyliyi, milli və ümumbəşəri mənəvi dəyərlər, mədəni ənənələrə sadiqlik və müasir dünya ilə ayaqlaşmaq, özünü qloballaşan dünyanın bənzərsiz bir hissəsi kimi dərk etməkdir. Tarix sübut edir ki, öz vətəndaşlarının qədrini bilən, onlarla fəxr edən, dünyada öz yerini milli siyasəti, iqtisadiyyatı, mədəniyyəti ilə özü müəyyənləşdirən ölkənin gələcəyi var.

***Nərgiz PAŞAYEVA,***
***"Azərbaycan Mədəniyyətinin***
***Dostları" Fondunun üzvü,***
***filologiya elmləri doktoru, professor.***

## *Xeyirxahlıq rəmzi*

***Z.Quliyeva***

Bu ilin qızmar yay günlərinin birində uzaq Fransadan aldığımız xoş xəbər bizi ürəkdən sevindirdi. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun sədri, Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri adını alması bütün

Azərbaycan xalqı üçün əsl bayrama çevrildi. YUNESKO-nun Baş direktoru Koişiro Matsuura Azərbaycanın birinci xanımının Azərbaycan mədəniyyətinin, musiqisinin, folklorunun qorunub saxlanılması, inkişafı və gələcək nəsillərə çatdırılması sahəsində xidmətlərini yüksək qiymətləndirmişdir. Mehriban xanımın bu yüksək ada ölkədə musiqi təhsilnin, ədəbiyyat və poeziyanın yayılmasına dair layihələri dəstəklədiyinə görə layiq görüldüyünü qeyd etmişdir. O demişdir ki, ölkədə musiqi təhsili və gənc nəslin maarifləndirilməsi xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Fondun daim diqqət mərkəzində olmuşdur. K.Matsuura onu da vurğulamışdır ki, Fondun təşkil etdiyi xeyriyyə konsertləri dinləyicilərə sevinc bəxş etməklə bərabər, həm də milli mədəniyyətin zəngin ənənələrini yaşatmaq sahəsində də böyük işlər görür.

Biz, Azərbaycan qadınları, ölkənin birinci xanımının ictimai fəaliyyətini, qadın hərəkatına xoş münasibətini diqqətlə izləyir və ürəkdən dəstəkləyirik. O, xarici ölkələrə səfərlərində Azərbaycan qadınlarını ləyaqətlə təmsil edir. Gördüyü xeyriyyə işləri, xüsusən uşaqlara diqqəti və qayğısı bizi ürəkdən fərəhləndirir.

Bu il avqustun 22-də Azərbaycan Respublikasında "Bilik günü"nün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanından sonra Mehriban xanımın yeni dərs ili münasibəti ilə Heydər Əliyev Fondu adından birinciləri təbrik edib onlara hədiyyələr verməsi balacaların da, valideynlərin də böyük sevincinə səbəb oldu. Onun məktəblilərlə, xüsusən qayğıya, diqqətə ehtiyacı olanlarla hər görüşü unudulmaz bir hadisəyə çevrilir.

Əqli cəhətdən zəif inkişaf etmiş dörd uşağın Yevpatoriyada müalicəsini təşkil etməsi isə Mehriban xanımın qayğıkeş ana olmasına gözəl sübutdur. Bu xeyirxahlığı ilə o, uşaqlara böyük sevinc, analara isə onların itmiş ümidlərini qaytardı.

Mehriban xanım Əliyevanın yaxın və uzaq xarici dövlətlərə səfəri zamanı uşaq müəssisələrinə, xüsusən

xəstəxanalara baş çəkməsi, uşaqların səhhəti və təhsili ilə maraqlanması, onun əsl nəcib Azərbaycan xanımı və xeyirxahlıq rəmzi olduğunu bir daha təsdiqləyir.

Mehriban xanımın gənc nəslin fiziki və mənəvi inkişafı naminə gördüyü işlər hər bir Azərbaycan vətəndaşının qəlbini fərəhləndirir. Xüsusən imkansız ailələrdən olan uşaqların musiqi savadına yiyələnmələri üçün əlindən gələni əsirgəmir. Musiqi gimnaziyasının təmir edilməsi, burada uşaqlar üçün gözəl şərait yaradılması diqqətəlayiqdir.

Ölkənin birinci xanımı olmaqla bərabər, ictimai-siyasi həyatda tutduğu mövqe ilə Heydər Əliyev Fondunun prezidenti kimi də olduqca böyük işlər görür.

Bütün bu xidmətləri ilə bu kübar xanım Azərbaycan qadınlarına gözəl nümunədir.

Mehriban xanıma göstərilən bu yüksək etimad bütövlüklə Azərbaycan xanımına olan diqqətdir.

Biz Mehriban xanımı xoşməramlı səfir adı alması münasibəti ilə ürəkdən təbrik edir, ona cansağlığı, xeyirxah işlərində uğurlar və ailə səadəti arzulayırıq.

***Gülzar Rzayeva***

Hazırkı dövrdə xalqımızın mədəni irsinin qorunub saxlanılması və təbliğ olunması bugünkü nəslin qarşısında duran ən vacib və ən öncül məsələlərdən biridir. Ona görə ki, hələ Azərbaycanın müstəqillik tarixindən o qədər də çox zaman ötməyib və ölkəmizin Avropaya inteqrasiya yolu tutduğu bir şəraitdə musiqimizin, şifahi xalq yaradıcılığının və digər mədəni irsimizin müasir gənclik tərəfindən arxa plana keçməsi qorxusu yarana bilər və bunun da sonradan aradan qaldırılması çətinləşə bilər.

Lakin ulu öndərimiz Heydər Əliyevin əvvəllər olduğu kimi müstəqilliyimiz dövründə də bu sahədə düşünülmüş və uzaqgörən, yorulmaz fəaliyyəti, mədəniyyət xadimlərinə, mədəniyyətimizə, gəncliyimizə xüsusi diqqətlə yanaşması hər an xoş xatirələrlə anılır

və bu diqqət, bu qayğı bu gün də ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Mədəni irsimizin qorunub saxlanılması və dünya miqyasında tanıdılması isə taleyüklü bir məsələdir. Bu taleyüklü məsələni icra etmək heç də asan iş deyil. Lakin bu işdə Prezidentimizin xanımı Mehriban Əliyevanın cəsarətli addımları böyük alqışlara layiqdir. Gələcək nəsillərin öz soyuna, kökünə bağlılığına böyük fayda verəcək bir missiyanı həyata keçirdiyini dərk edən Mehriban xanım Əliyevanın gördüyü tarixi işlər yüksək qiymətə layiqdir. Təsadüfi deyil ki, bu il sentyabrın 9-da Parisdə YUNESKO-nun iqamətgahında Mehriban xanım Əliyevaya BMT-nin bu ixtisaslaşmış təşkilatının xoşməramlı səfiri fəxri adı verilməsi də elə onun öz xalqı qarşısında böyük xidmətlərinin bəhrəsi hesab olunmalıdır.

Düşünürəm ki, bu layiqli seçim şəxsən mənim qəlbimi fərəhlə döyündürdüyü kimi, bütün Azərbaycan xalqının, ziyalı qadınlarımızın hamısının da ürəyindən xəbər verən bir hadisə oldu.

Fəxri adın verilməsi mərasimində YUNESKO-nun Baş direktoru Koişiro Matsuura demişdir:

"Bilirəm ki, xanım Əliyeva Azərbaycanda musiqi və şifahi xalq yaradıcılığının yayılmasına böyük önəm verir. Azərbaycan zəngin musiqi və şifahi xalq yaradıcılığı ənənələrinə malikdir. Son illərdə isə bu sahəyə maraq hədsiz dərəcədə artmışdır".

Bəli, bunlar dünyanın YUNESKO kimi mötəbər bir təşkilatının rəhbərinin dilindən səslənən sadə fikirlər deyil. Xalqımızın mədəni irsi barədə indi YUNESKO rəhbərində və bu təşkilatda bu qədər məlumatların, biliginin olması bizim üçün böyük uğur sayılmalıdır.

Digər bir tərəfdən özümə mənəvi borc hesab edirəm deyim ki, mədəni irsimizin təbliğinə və qorunmasına bu qədər önəm verməsi Mehriban xanımın həm də özünün soykökümüzə dərindən bağlılığının əlamətidir.

Mərhum şərqşünas alimimiz Aida xanım İmanquliyevanın, görkəmli fizik, Milli Aviasiya Akademiyasının

yaradıcısı və rektoru Arif Paşayevin övladını ancaq və ancaq Mehriban xanım kimi təsəvvür etmək olar. Ötən əsrin 70-80-ci illərində Aida xanım 20-dən artıq ərəb ölkəsində yaranmış zəngin ədəbiyyatı araşdırıb, sistemləşdirmiş, onu ümumi bir tədqiqat məcrasına yönəldərək, bu ədəbiyyatın səciyyəvi cəhətlərini müəyyənləşdirmiş, görkəmli nümayəndələrin həyat və yaradıcılığını öyrənmiş, əsərlərini yüksək nəzəri səviyyədə təhlil edərək dünya şərqşünaslığı qarşısında duran ən çətin və ən ümdə problemlərdən birini yerinə yetirmişdir. Maraqlıdır ki, Qərblə Şərqi vəhdətdə görmək istəyən Aida xanım İmanquliyeva yaşadığı az bir ömür çərçivəsində həm əski Sovet İttifaqında, həm də doğma Azərbaycanımızda yeni ərəb ədəbiyyatı kursunun yaradıcılarından biri olmuşdur.

Bu gün Mehriban xanımın ədəbi irsimizin təbliğində apardığı sistemli fəaliyyətin də beləcə soydan, kökdən gəldiyinə şübhə yeri qalmır.

Mən bir daha Mehriban xanımı bu yüksək fəxri ad münasibəti ilə təbrik edir, ona işləriniz avand, yolunuz işıqlı olsun, deyirəm!

***Məsumə Məlikova***

Çox hörmətli Mehriban xanım!

İcazə verin Sizi YUNESKO-nun xoşməramlı səfiri seçilməyiniz münasibətilə təbrik edim və Sizə xeyirxah, məhsuldar işinizdə böyük müvəffəqiyyətlər arzulayım. Sizin Azərbaycan xalqına hüdudsuz sədaqətiniz, ölkəmizin çiçəklənməsi naminə yorulmaz fəaliyyətiniz biz qadınları öz əməyimizin nəticəsinə həvəsləndirməklə yanaşı, öz qüvvəmizə inamı möhkəmləndirir, bizim həyat fəaliyyətimizin ruhən qidalanmasına səbəb olur. Siz öz üzərinizə çox çətin və şərəfli missiya götürmüsünüz, dünya sivilizasiyası qarşısında Azərbaycan qadınlarını şərəflə təmsil edirsiniz. Bütün ali keyfiyyətləri özünüzdə cəmləşdirərək Siz bir daha sübut edirsiniz ki, Azərbaycan qadını dünya ictimaiyyəti tərəfindən ümumbəşəri dəyərlərin, demokra-

tik sivilizasiyalı cəmiyyətin formalaşması işində fəal tərəfdaş, ictimai və siyasi xadim kimi tanınmağa layiqdir.

Vətənimizin tarixi bütün dövrlərdə ölkəmizin müdafiəçiləri, haqq işi uğrunda mübarizlər, siyasi xadimlər, elm və mədəniyyət xadimləri sırasına daxil olan qəhrəman qadınlarımızın adları ilə zəngindir. Doğma vətənimiz naminə gördüyünüz məhsuldar işinizlə və yorulmaz fəaliyyətinizlə Siz bu cərgədə öz layiqli yerinizi tutmusunuz. Yeni həyat quran suveren Azərbaycanımız Sizinlə fəxr edir.

Bir daha Sizə səmimi olaraq böyük müvəffəqiyyətlər və bol-bol sevinc, xoşbəxtlik arzulayıram.

*Dilruba CAMALOVA*

Tariximizin bütün zamanlarında ailə və cəmiyyətimizdə baş verən problem və məsələlərin həllində qadınlarımızın da kişilərlə eyni mövqedən çıxış etmələrinin və mübarizə aparmalarının şahidi oluruq. Bu sıradan neçə-neçə qadın diplomatlarımızın, ədib, şair və ictimai xadimlərimizin adlarını bu gün fəxrlə çəkmək olar və indi müstəqilliyimiz dövründə örnək qadınlarımızın timsalında Prezidentimizin xanımı Mehriban Əliyevanın ictimai fəaliyyətini fəxrlə qeyd etməyə dəyər.

Çünki Mehriban xanım Əliyeva bu il sentyabrın 9-da YUNESKO kimi dünya miqyaslı, mötəbər təşkilatın xoşməramlı səfiri fəxri adına layiq görülmüşdür.

Biz bunu bir tərəfdən YUNESKO-nun Mehriban xanım Əliyevanın öz xalqı qarşısındakı xidmətlərinə layiqli qiyməti kimi başa düşdüyümüz halda, digər tərəfdən də Azərbaycanın intellektual səviyyəli ziyalı qadınlarına verilən qiyməti kimi dəyərləndirə bilərik.

İndiki məqamda xalqımız qarşısında onun gördüyü çox dəyərli işlərin gələcək nəsillərin yaddaşında həmişə xoş xatirələrlə yaşayacağına əminik.

Mehriban xanım xalqımızın zəngin şifahi xalq yaradıcılığının, musiqimizin, mədəniyyətimizin təbliğində

yorulmadan, dönmədən mübarizə aparır. Çalışır ki, bu gün bütün Azərbaycan gəncliyi keçmişdən bizə yadigar qalan musiqi və xalq yaradıcılığı nümunələrimizi unutmasınlar, o kökdən qidalansınlar, o kökdən pərvazlansınlar. Bu da şübhəsiz ki, gənc Azərbaycan dövlətinin təməlinin daha möhkəm bünövrə üzərində qurulmasına böyük köməklik deməkdir.

Zəngin folkloru, xalq yaradıcılığı olan xalqımızın dünya miqyasında tanıdılması yolunda Mehriban xanım öz əməyini əsirgəmir.

Biz də bu yolda ona öz dəstəyimizi əsirgəməyəcəyik. Yolunuz uğurlu olsun, Mehriban xanım!

## *Ölkənin birinci ledisi*

Azərbaycan cəmiyyəti ilk dəfə məhz Prezident İlham Əliyevin və onun xanımı Mehriban Əliyevanın simasında ictimaiyyətlə münasibət yaradan insanlarla qarsılıqlı təmas quran prezident ailəsinin şahidi olmuşdur.

«Birinci ledi» anlayışı dünyanın əksər sivil dövlətlərində eyni məzmunda qəbul edilir – bu, dövlətin birinci xanımının, dövlət başçısının ömür-gün yoldaşının siyasi statusudur. Bir çox hallarda həmin statusu daşıyan şəxsə ictimai maraq daha çox Prezidentə olan ictimai maraqla bağlı olsa da, ayrı-ayrı məqamlarda həmin maraq birinci ledinin öz siyasi fəaliyyətindən, onun ictimai-siyasi proseslərdə iştirakından və fəallıq dərəcəsindən qaynaqlanır. Mehriban xanım Əliyevaya Azərbaycanda və xaricdə olan böyük marağı ilk növbədə onun ictimai, o cümlədən xeyriyyəçilik fəaliyyətinin adekvat dəyərləndirilməsi kimi xarakterizə etmək lazımdır.

2005-ci ilin əvvəllərində, Qadınların IV Beynəlxalq Konfransının 10 illiyinə həsr olunmuş BMT-nin 49-cu xüsusi sessiyası çərçivəsində, «Qadın Liderlər» İctimai Birliyinin təşəbbüsü ilə Azərbaycan Sosiologiya Asso-

siasiyasının keçirdiyi sorğunun nəticələrinə görə «İlin qadını» elan edilmişdir.

2246 respondentin iştirakı ilə keçirilən rəy sorğusu sərbəst surətdə seçilmiş bölgələrdə üç metodikaya əsaslanaraq – anket sorğusu, mətbuat vasitəsilə və ekspertlərin rəyləri üzrə keçirilmişdi. Anketdə mədəniyyət, publisistika, ictimai-siyasi, elm, təhsil, idman və başqa sahələrdə fərqlənmiş 35 qadının adı yer almışdır. İştirakçıların sayı bölgələr üzrə belə idi: Bakı – 415 nəfər, Əli Bayramlı – 150 nəfər, Gəncə – 103 nəfər, Ucar – 99 nəfər, Qazax – 100 nəfər, Cəlilabad – 100 nəfər, Sumqayıt – 100 nəfər, Dəvəçi – 100 nəfər, Şamaxı – 100 nəfər, Naxçıvan – 89 nəfər, Yevlax – 102 nəfər, Tərtər – 100 nəfər, Qax – 102 nəfər. Respondentlərin 51 faizini qadınlar, 49 faizini kişilər təşkil etmişdi.

Əksər hissəsi – 41,1 faizi 35-49 yaş qrupuna aid olan sorğu iştirakçılarının 52,8 faizi işləyənlər, 18,5 faizi təhsil alanlar, 8,9 faizi təqaüdçülər, 12,4 faizi evdar qadınlar, 7,4 faizi isə işsizlərdən ibarət idi.

Sorğunun nəticələrinə görə, YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, ölkəmizin birinci ledisi Mehriban xanım Əliyeva 74,4 faiz səs toplayaraq Azərbaycan qadınlarına xas yüksək əxlaqi və mədəni keyfiyyətlərinə, xeyriyyəçilik fəaliyyətinə, eləcə də ictimai-siyasi proseslərdə fəal iştirakına görə birinci yeri tutaraq «İlin qadını» elan edildi.

Bunu hər şeydən əvvəl Mehriban xanımın ictimai-siyasi fəallığının nəticəsi kimi dəyərləndirmək lazımdır. Eyni zamanda, bu fakt Azərbaycanda dövlət-cəmiyyət münasibətlərində yeni ştrixlərin üzə çıxmasının göstəricisidir. Bunu milli mentalitetimizdə yeni dəyərlərin formalaşması kimi də qiymətləndirmək olar və lazımdır.

Ədalət xatirinə bildirməliyik ki, ölkə ictimaiyyəti Mehriban xanımı hələ birinci ledi statusu əldə etməmişdən əvvəl tanımağa, hörmət və ehtiram bəsləməyə başlamışdı. Onun adı 1995-ci ildə Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təsis edilməsindən sonra daha çox duyulmuşdur. Fondun Azərbaycanın zəngin

mədəni irsinin beynəlxalq aləmdə təbliğində, eləcə də xeyriyyəçilik sahəsində gördüyü işlər xanım Əliyevanı təkcə Azərbaycanda deyil, onun hüdudlarından çox-çox uzaqlarda tanıtmışdır. Məlumat üçün bildirək ki, sözügedən qurum 1996-cı ildən «Azərbaycan-İrs» jurnalının nəşrinə başlamışdır və üç dildə – Azərbaycan, rus və ingilis dillərində nəşr edilən bu jurnal milli mədəniyyətimizin dünya miqyasında təbliği sahəsində önəmli işlər görmüş və görməkdə davam edir. Muğamın beynəlxalq arenada tanınmasında və YUNESKO tərəfindən dünya mədəni irsinin inciləri sırasına daxil edilməsində Fondun prezidenti Mehriban Əliyevanın əvəzsiz xidmətləri olmuşdur.

Birinci ledinin ictimai fəaliyyətinin önəmli bir istiqamətini də onun idman sahəsində gördüyü işlər təşkil edir. 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasına rəhbərlik edən Mehriban xanım həmin vəzifədə özünü bacarıqlı təşkilatçı kimi tanıdıb. Qısa müddətdə bu zərif idman növü ölkəmizdə geniş yayılmağa başlayıb, Azərbaycan gimnastları beynəlxalq miqyasda uğurlara imza atıblar. Dünya kuboku yarışlarının Azərbaycanın paytaxtında keçirilməsi, eləcə də bu ilin oktyabrında sözügedən idman növü üzrə Dünya çempionatının ölkəmizdə keçirilməsinə dair qərar qəbul olunması Mehriban xanımın prezidenti olduğu federasiyanın beynəlxalq nüfuzundan xəbər verir.

Birinci ledinin ictimai fəaliyyətinin ən dəyərli və xalqın təqdirlə qarşıladığı istiqamətini onun başçılıq etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi geniş sosial proqramlar təşkil edir. Əgər indiyə qədər onun fəaliyyəti ölkə həyatının ayrı-ayrı sahələrini, o cümlədən mədəniyyət və idman sahələrini əhatə edirdisə, Azərbaycan cəmiyyətinin ən çox qayğıya ehtiyac duyan hissəsinin – kimsəsiz, ağır xəstə, əlil və fiziki qüsurlu uşaqlara, eləcə də məcburi köçkünlərin övladlarına qayğı göstərməsi bu gün hər kəs tərəfindən ürəkdən alqışlanan bir iş kimi, diqqət mərkəzindədir. Deyilənlərə 132 yeni orta məktəbin tikintisini, internat-məktəblə-

rin, uşaq evlərinin təmirini və onların ən modern avadanlıqlarla təmin edilməsini də əlavə etmək yerinə düşərdi.

İyulun 18-də Yaxt-klubda Mehriban xanım Əliyevaya layiq görüldüyü «İlin qadını» mükafatının təqdimetmə mərasimi olmuşdur, ölkəmizin tanınmış ziyalılarının, siyasi xadimlərinin, Milli Məclisin deputatlarının, ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun təmsilçilərinin iştirakı ilə keçən bu tədbirdə Mehriban Əliyeva rəy sorğusunda iştirak edən bütün respondentlərə, ekspertlərə, eləcə də mərasim iştirakçılarına səmimi razılığını ifadə etdikdən sonra ölkəmizin taleyüklü problemlərinin həllinə yardımçı olmaqdan qürur duyduğunu söyləmiş, bundan sonra da rəhbərlik etdiyi ictimai qurumlar vasitəsilə doğma Azərbaycanımızın tərəqqisi naminə bütün qüvvə və bacarığını əsirgəməyəcəyini bildirmişdir.

Bu səmimi sözlərin doğruluğuna növbəti dəfə şahid olmaq üçün çox gözləmək lazım gəlmədi və 4 gün sonra xalqımız Mehriban xanımın vətən və millət naminə ortaya qoyduğu növbəti fədakarlıqla tanış olmaq imkanı qazandı. İyulun 22-də Azərbaycan Dövlət Filarmoniyasında Heydər Əliyev Fondunun yeni layihəsi olan «Azərbaycan» internet portalının təqdimat mərasimi keçirildi.

... Məlumat üçün bildirək ki, araşdırmalara əsasən, Azərbaycanda internetdən istifadə edənlərin sayı 400-450 min nəfər civarındadır və hazırda ölkəmizdə 3145 azərbaycandilli, 830 türkdilli, 1300 ingilisdilli, 1600 rusdilli sayt mövcuddur. Bu saytların 15-i bölgələrimiz barədə, 17-si Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı və erməni terrorizmi barədə, 26-sı diasporla bağlıdır. Şübhəsiz ki, bu, çox azdır, ölkəmizi, xalqımızı hərtərəfli və ən yüksək səviyyədə təmsil edə bilən sayta çox böyük ehtiyac hiss edilirdi.

«Azərbaycan» internet portalının yaradılması da məhz bu ehtiyacdan qaynaqlanmışdır. Və bu layihənin

məhz Mehriban xanım Əliyeva kimi vətənpərvərin təşəbbüsü və rəhbərliyi ilə yaradılması qanunauyğun haldır. Bundan sonra dünyanın hər bir yerindən sözügedən sayta qoşulmaq və onun «Xəbərlər», «Ümumi məlumat», «Təbiət», «Tarix», «İqtisadiyyat», «Mədəniyyət», «Dövlət hakimiyyəti», «Azərbaycan beynəlxalq aləmdə», «Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi», «İnzibati-ərazi vahidləri» və «Xəritələr» bölmələri ilə tanış olmaqla, istənilən şəxs, xalqımız və dövlətimiz barədə ən etibarlı və obyektiv məlumat almaq mümkün olacaqdır. Portal Azərbaycanın beynəlxalq aləmdə təbliğinə, ölkəmiz haqqında dolğun və gerçək təsəvvür yaradılmasına öz misilsiz töhfəsini verəcəkdir. Təqdimat mərasimində iştirak edən, Heydər Əliyev Fondunun təşəbbüsü və rəhbərliyi ilə gerçəkləşdirilmiş bu layihəni çox önəmli layihə kimi xarakterizə edən Prezident İlham Əliyev portalın gələcəkdə daim yeniləşəcəyinə və diqqət mərkəzində qalacağına əminliyini ifadə edərək demişdir: «Bu gün «Azərbaycan» portalının nümayişi bizim hamımızı çox sevindirir. Çox gözəl portaldır və burada Azərbaycan haqqında çox dəqiq və müfəssəl məlumat öz əksini tapıbdır. Azərbaycan haqqında məlumatlar internetdə, müxtəlif saytlarda mövcuddur, amma ilk dəfədir ki, bütün məlumat bir portalda cəmləşibdir».

Bütün bu deyilənlər bir daha sübut edir ki, ölkənin birinci ledisinə olan diqqət və ehtiramın arxasında xoş niyyətlərə əsaslanan real işlər dayanır.

*Maarifə HACIYEVA,*
*Sosial Rifah Partiyası Qadınlar Şurasının sədri,*
*filologiya elmləri doktoru, professor*

*Aslan MANAFOV,*
*«Asiman» xeyriyyə fondunun sədri*
*Azərbaycan, 2005, 6 avqust*

## *«Xoşməramlı səfir»*

«YUNESKO-nun xoşməramlı səfiri». Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinə həsr edilmiş kitab belə adlanır.

Azərbaycan Yazıçılar Birliyinin «Natəvan» klubunda kitabın təqdimat mərasimi keçirilmişdir. Tədbiri giriş sözü ilə kitabın elmi redaktoru və «Ön söz»ün müəllifi, respublika təhsil nazirinin müavini, Yeni Azərbaycan Partiyaşı Siyasi Şurasının üzvü, professor İradə Hüseynova açmışdır.

Yeni Azərbaycan Partiyası sədrinin müavini, YAP-ın icraçı katibi, Milli Məclisin deputatı Əli Əhmədov, Azərbaycan Yazıçılar Birliyinin katibi, xalq yazıçısı Çingiz Abdullayev, Azərbaycan Atatürk Mərkəzinin müdiri, Milli Məclisin deputatı, professor Nizami Cəfərov, Respublika Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri, professor Zəhra Quliyeva, Prezidentin İcra Aparatının bölmə müdiri Qafar Əliyev və başqaları çıxış edərək YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev irsinin öyrənilməsi, onun ideyalarının ardıcıl təbliği sahəsində göstərdiyi mühüm xidmətlərindən bəhs etmişlər. Onlar Mehriban xanımın şəxsi təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı sosial, mədəniyyət, səhiyyə layihələrindən, bu gün ölkəmizin bütün guşələrində geniş vüsət alan «Yeniləşən Azərbaycana yeni məktəb» Proqramı çərçivəsində 132 təhsil ocağının tikilməsindən, «Uşaq evləri və internat-məktəblərin inkişafı», «Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların kənar edilməsi və alternativ qayğı», «Talassemiyasız həyat naminə», «Muğam dəstgahları», «Diabetli uşaqlara ən yüksək qayğı» və digər proqramların əhəmiyyətindən ətraflı danışmışlar. Kitabdakı materiallarda bütün bunlar barədə əhatəli məlumat verildiyi vurğulanmışdır.

Xalq musiqimizin misilsiz sərvəti olan muğamlarımızın dünyada təbliğində, milli-mədəni dəyərlərimizin qorunub saxlanması və inkişaf etdirilməsində, olimpiya idman hərəkatının genişlənməsində Azərbaycan Mədəniyyətinin Dostları Fondunun, Gimnastika Federasiyasının rəhbəri kimi Mebriban xanımın məqsədyönlü fəaliyyətinin respublika ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildiyi diqqətə çatdırılmışdır. Qeyd olunmuşdur ki, belə səmərəli fəaliyyət Mehriban xanıma cəmiyyətdə nüfuz qazandırmışdır.

Xeyirxahlıq, humanizm, mərhəmət, sadəlik və insanpərvərlik prinsiplərinin vəhdətini özündə cəmləşdirən və həmin amilləri həmişə uca tutan Mehriban xanımın bu yaxınlarda keçirilmiş sorğuda «İlin qadını» seçilməsi də təsadüfi deyildir. O, bu ada əsl vətənpərvər kimi layiq görülmüşdür.

Respublikamızın 100-ə yaxın qadın təşkilatı Azərbaycan qadınına xas yüksək əxlaqi keyfiyyətləri özündə cəmləşdirən, geniş xeyriyyəçilik fəaliyyətini gündən-günə genişləndirən Mehriban xanımı özlərinin vahid lideri seçmişlər.

Kitabdakı materiallara istinad edən natiqlər onu da vurğulamışlar ki, Mehriban xanım ümummilli liderimiz Heydər Ətiyevin ölməz ideyalarının, siyasi xəttinin ən layiqli davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə respublikamızın regionlarına səfərlər edərkən insanların qayğı və problemləri ilə maraqlanır, onların həllinə kömək edir.

Bəli, Mehriban xanım Əliyevanın çox qısa müddətdə həyata keçirdiyi genişmiqyaslı tədbirlərin sayı-hesabı yoxdur. Xeyirxahlığı özünün borcu, amalı sayan bu nəcib insan şəxsi nümunəsi ilə cəmiyyətimizin diqqətini çox mühüm bir məsələyə – uşaq evlərində, internat-məktəblərdə tərbiyə alan gənclərin problemlərinin həllinə yönəltməyə çalışır. Bu istiqamətdə çox işlər görülmüşdür. Neçə-neçə internat-məktəblər, uşaq evləri təmir edilmiş, lazımi avadanlıqla təmin olunmuşdur. İndi hamıya bəllidir ki, YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev

Fondunun prezidenti Mehriban xanım Əliyevanın qədəmi hara dəyirsə, orada bir yenilik, inkişaf olur. Məsələn, Mehriban xanım Əliyevanın baş çəkdiyi Şüvəlan qəsəbəsindəki zəifeşidən və sonradan karlaşmış uşaqlar üçün respublika xüsusi internat-məktəbində, beyin iflici qalığı olan uşaqlar üçün16 saylı, yetim və valideyn himayəsindən məhrum olmuş əqli cəhətdən qüsurlu uşaqlar üçün 1 saylıi yardımçı internat-məktəblərdə, «Şimal» DRES yaşayış sahəsindəki A.S.Makarenko adına humanitar təmayüllü, Türkan qəsəbəsindəki nitqi qüsurlu uşaqlar üçün respublika xüsusi internat-məktəbində, Nəsimi rayonundakı əqli cəhətdən qüsurlu uşaqlar üçün 11 saylı yardımçı məktəbdə, Nizami rayonundakı kar uşaqlar üçün 1 saylı respublika internat-məktəbində və bir çox başqa xüsusi təyinatlı uşaq evlərində, internatlarda zəruri təmir işləri görülmüş, onlar lazımi avadanlıqla təchiz olunmuşdur.

YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və yaxından köməkliyi ilə respubkamızda, o cümlədən də paytaxtımızda yeni məktəb tikintisi, mövcud təhsil ocaqlarında təmir işləri vüsət almışdır. El üçün, milli dəyərlərimiz üçün görülən işlər həmişə yüksək qiymətləndirilir. Azərbaycan qadınına xas ən ali insani xüsusiyyətləri, dəyərli keyfiyyətləri özündə cəmləşdirən Mehriban xanım Əliyevanın xeyirxahlığı, xalqımız, gələcək nəsillərimiz üçün həyata keçirdiyi məqsədyönlü tədbirlər kimi. Cəmiyyətimizin bütün zümrələrindən olan insanlar Mehriban xanım Əliyevanın fəaliyyətini ürəkdən bəyənir, ona öz minnətdarlıqlarını bildirirlər.

Yüksək mədəniyyəti, sadəliyi YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanıma xarici ölkələrdə də nüfuz gətirmişdir. Bu fikir çıxışlarda dönə-dönə səsləndi. Natiqlər həmişə xeyirxahlığı, mərhəməti, milli vətənpərvərliyi özünə həyat devizi seçən YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanıma ölkəmizin, xalqımızın taleyüklü problemlərinin həllinə göstərdiyi sanballı köməyə görə min-

nətdarlıq etmiş, doğma Azərbaycanımızın çiçəklənməsi naminə ona daha böyük uğurlar arzulamışlar.

Milli Məclisin deputatları, dövlət və hökumət nümayəndələri, respublikamızın tanınmış elm, mədəniyyət, incəsənət xadimləri mərasimdə iştirak etmişlər.

*Ənvər MƏŞƏDİYEV,*
***Bakı, 2005, 5-10 avqust***

## *Xosməramlı Səfir Mehriban xanım Əliyeva*

Bu yaxınlarda Yazıçılar Birliyinin akt zalında Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya həsr olunmuş «Xoşməramlı səfir» kitabının təqdimat mərasimi oldu.

Kitab çox nəfis cilddə hazırlanmış, Azərbaycanın birinci xanımının gördüyü xeyirxah işlərin yekunundan ibarətdir.

Tədbiri açan təhsil nazirinin müavini, YAP Siyasi Şurasının üzvü, tarix elmləri doktoru, professor İradə Hüseynova qeyd etdi ki, Prezidentin xanımı Mehriban xanım Əliyeva Heydər Əliyevin siyasi irsinin fundamental prinsiplərinə sadiq qalaraq Azərbaycan mədəniyyətinin mühafizəsi, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində səmərəli fəaliyyət göstərir. Bu onu göstərir ki, Mehriban xanım xalqımızın milli-mənəvi dəyərlərinə sonsuz bağlıdır. Məhz bunun nəticəsidir ki, ötən il Mehriban xanım YUNESKO-nun xoşməramlı səfiri seçilmişdir.

İradə xanım onu da bildirdi ki, bu gün Mehriban xanım Əliyeva yalnız mədəniyyətimizin və xalqımıza məxsus qiymətli incəsənət əsərlərinin qorunması sahəsində çalışmır, həm də kimsəsiz uşaqlara, qayğıya ehtiyacı olan yeniyetmələrə yardım göstərir. Onun təşəbbüsü ilə uşaq evlərinə, əlil və kimsəsizlərə maddi və mənəvi yardımlar edilir.

O həmçinin qeyd etdi ki, Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun prezidenti kimi H.Əliyev irsinin qorunınası və təbliği kimi ali bir missiyanı yerinə yetirir. Mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində nümayiş etdirdiyi fəallıq, humanist fəaliyyəti Mehriban xanım Əliyevanın qısa vaxt ərzində yüksək nüfuz qazanmasına səbəb olub, yaxın günlərdə keçirilən sorğunun nəticələrinə görə «İlin qadını» adına layiq görülməsi Azərbaycan xalqının ona verdiyi yüksək qiymətin təzahürüdür.

Təsadüfi deyil ki, belə bir kitab xoşməramlı səfir Mehriban xanımın fəaliyyəti haqqında meydana gəlmişdir.

Sonra YAP-ın sədr müavini Əli Əhmədov çıxış edərək bildirdi: «Mən bu binada durmaqdan qürur duyuram. Bu tribunanın üstündə Azərbaycan ədəbiyyatının parlaq simalarının imzaları var, burda çıxış etmək mənim üçün böyük şərəfdir. Eyni zamanda, bu tədbirin özü də kifayət qədər dəyərli və əhəmiyyətlidir. Azərbaycanda bir ildən artıqdır ki, yeni bir təchizat formalaşıb ki, bu da Azərbaycanın birinci xanımının təchizatıdır.

Bütün demokratik dəyərlərə mənsub olan ölkələrdə prezident xanımları böyük ictimai vəzifələr həyata keçirirlər. Azərbaycanda da bu işləri Prezidentin xanımı Mehriban xanım Əliyeva həyata keçirir. Bu bizim üçün yeni olsa da, kifayət qədər uğurlu olubdur. Mehriban xanıma xas olan yüksək fəallıq bir sıra problemlərin üzə çıxarılmasında və onların həll olunmasında böyük rol oynamışdır. Mehriban xanım H.Əliyev Fondunun prezidenti kimi çox böyük xeyirxahlıq işləri həyata keçirir, onun bu qədər aktiv, fəallıqla çoxşaxəli işlər görməsi yəqin ki, onun Azərbaycan xalqına, vətəninə bağlılığından, sevgisindən irəli gəlir. Mehriban xanım Azərbaycanın mədəniyyətinə yardım fondu yaradıb ki, bu, mədəniyyətimizin təbliğ edilməsində geniş rol oynayır. Mehriban xanım Azərbavcanda təhsilin inkisafı üçün geniş proqram həyata keçirir. Yeni məktəb

proqramı çərçivəsində təhsilin inkişafı üçün 130-dan artıq müasir tələblərə cavab verən məktəb bir il ərzində tikilib istifadəyə verilmişdir. Bu proqram uğurla həyata keçirilir. Mehriban xanım bundan başqa xeyirxahlıq işiylə də məşhurdur, kimsəsiz uşaq və gənclərə, xəstələrə göstərdiyi yardım uğurla həyata keçirilir.

Bu gün təqdim edilən «Xoşməramlı səfir» kitabı nə qədər xoş niyyətlərdən irəli gəlir ki, Azərbaycanın birinci xanımının geniş fəaliyyətini özündə əks etdirir. Mən düşünürəm ki, Mehriban xanım Əliyevanın bu fəaliyyətinin ölkə Prezidentinin müəyyənləşdirdiyi siyasətin uğur qazanmasında xüsusi rolu vardır. Azərbaycan xalqı Prezidenti dəstəklədiyi kimi, onun xanımının da gördüyü işləri dəstəkləyir. Təsadüfi deyil ki, keçirilən sorğu nəticəsində Mehriban xanım Əliyeva «İlin xanımı» seçilmişdir. Birinci xanımın tutduğu yol H.Əliyev siyasətinin davamıdır. Odur ki, bu kitabın dəyəri yüksəkdir».

Yazıçılar Birliyinin katibi Çingiz Abdullayev çıxışında bildirdi: «Doğrudan da bura çox tarixi bir binadır. Tədbirin burada keçirilməsiylə mədəniyyətin inkişafını XX əsrdən XXI əsrə keçirtdik.

Mən həmişə deyirdim və əsərlərimdə yazırdım ki, XX əsr Azərbaycanın ən uğurlu inkişafı olmuşdur. Mədəniyyətin hər sahədə birinci inkişafı Şərqdə bizdə olub (opera, balet birinci bizdə olub, birinci kosmos institutları bizdə olub).

XXI əsrdə də Azərbaycan dövləti, xalqı digər xalqlara nümunə olacaqdır. Mən elə bir dövlət tanımıram ki, Prezidenti bir neçə dil bilsin və o dillərdə danışıb, yazsın. Bizim Prezidentimiz digər müsəlman dövlətlərinə nümunədir. Qərb ölkələrində prezidentin xanımı xeyriyyəçiliklə məşğuldur, lakin Şərq ölkələrində biz yeganəyik ki, birinci xanımımız bu cür işlər görür. Doğrudan da, Azərbaycan Prezidenti bir neçə dildə sərbəst danışır və yazır, bu bizim üçün fəxrdir. Azərbaycan xanımı bütün dünyaya bir nümunədir. Mən həmişə qorxurdum ki, H.Əliyevdən sonra Azərbaycanın taleyi necə

olacaq. Ancaq indi doğrudan da sevinirəm ki, H.Əliyevin layiqli davamçısı tapılıb. 1994-cü ildə mən bunu xatırlamırdım.

Bugünkü kitab onu göstərir ki, Azərbaycanın xoşbəxt gələcəyi var, çünki bizim belə gözəl Prezidentimiz və onun xanımı var. Bizim Avropaya olan yolumuz onu sübut edir ki, Azərbaycan inkişaf edir və XXI əsrdə daha da inkişaf edəcək».

Sonra Milli Məclisin deputatı Nizami Cəfərov çıxış edərək bildirdi: «Böyük mütəfəkkirlər onu həmişə axtarıblar ki, dünyanı nə xilas edəcək? Qərara gəliblər ki, dünyanı gözəllik xilas edəcəkdir. Gözəllik həm zahiri, həm intellekt olanda bu, tam gözəllikdir. Biz fəxr edirik ki, Azərbaycanın Prezidenti İlham Əliyev Azərbaycana, onun xanımı isə özünə yaraşır. Bu fəxrdir ki, son illərdə Azərbaycanın qadınları siyasətə gəlirlər. Siyasətdə kişilərə hər şey bağışlanır. Ancaq qadınlar isə siyasətdə olanda mütləq o, gözəl olmalı, yaxşı danışa bilməli, cəmiyyətdə həqiqəti deməyin qayda-qanununu bilməlidir. Bu yaxşıdır ki, birinci xanımımız Mehriban Əliyeva siyasətdə intellektual mədəniyyətlə çıxış edir. O, gözəl bir ailədən çıxıb, H.Əliyev məktəbini keçib. İndi ölkəni səfirlər idarə edir. Mehriban xanımın gördüyü işlər çox və rəngarəngdir. Biz onu alqışlayırıq və xanımlar üçün bir örnəkdir. Əsəri ərsəyə gətirənlərə də çox sağ ol deyirik».

Sonra Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri Zəhra xanım Quliyeva çıxış edərək bildirdi: «Cəmiyyətin 51,2%-ni qadınlar təşkil edir. Mehriban xanım 10 illiyi qızıl medalla bitirdikdən sonra Tibb İnstitutuna daxil olub. Moskvada Seçenov adına Tibb İnstitutunu bitirərək qırmızı diplom alaraq orada həkim kimi qalmışdır. Deməli, o hələ cavanlıqdan özünü elmə həsr etmişdir. Qeyd edildiyi kimi, Mehriban xanımın fəaliyyəti çoxşaxəlidir. Mədəniyyət Fondunun sədri kimi müğənnilərimizin muğama aid albomu onun mədəniyyətə verdiyi gözəl töhfədir. Bu həm də bütün dünyaya muğamlarımızın yayılması və muğamların bizim olmasını sübut edən sənəddir. Məhz buna

görə də o, YUNESKO-nun xoşməramlı səfiri seçildi. Mehriban xanım, özü dediyi kimi, çox ciddi insandır və hər bir işə məsuliyyətlə yanaşır. İrəlidə getmək və qadınları arxasınca aparmaq üçün çox çalışmaq lazımdır. Mən çox sevinirəm ki, Mehriban xanıma həsr olunan bu kitab çapdan çıxıb. Bu, birinci xanıma verilən qiymətdir. O, xalqımızın balalarının yaxşı təhsil alması üçün çoxlu məktəb tikdirib, xeyriyyəçiliklə məşğuldur. Azərbaycan xanımları ondan çox şey öyrənməlidirlər».

Təqdimat mərasimi çox yüksək səviyyədə başa çatdı. «Xoşməramlı səfir» kitabı əldən-ələ gəzdi.

Biz hamını bu kitabı oxumağa və Azərbaycanın birinci xanımından örnək olaraq qadınlarımızı aktiv siyasi mübarizəyə çağırırıq.

*Bəxtimşan Tağıyeva,*
*Mir cenhinı,*
*2005, 5-18 avqust*

## *YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın AzTV-yə müsahibəsi*

YUNESKO-nun Baş direktoru Koişiro Matsuura avqustun 25-də AzTV-yə müsahibə vermişdir.

**– Cənab Baş direktor, ölkəmizə səfərə gəlməzdən əvvəl Azərbaycan haqqında hansı təsəvvürlərə malik idiniz? Səfər çərçivəsində Azərbaycanla tanışlıqdan sonra təəssüratınız necədir? Əvvəlki və indiki təsəvvürləriniz üst-üstə düşürmü? Yoxsa fərqli məqamlar da oldu?**

– Mənim Azərbaycana ilk səfərim beş il öncə baş tutmuşdu. İndiki səfərim zamanı bir çox dəyişikliklərin şahidi oldum. Xüsusən də demək istəyirəm ki, Azərbaycanın iqtisadiyyatı bu gün rəvan qaydada inkişaf etməkdədir, 5-6 il ərzində Azərbaycan hökuməti, xüsusilə neft sənayesinin inkişafından böyük gəlirlər əldə etmişdir. Hökumət bu gəlirləri məhz inkişafa sərf edir.

– Azərbaycan Sizin rəhbərlik etdiyiniz YUNESKO çərçivəsində həyata keçirilən tədbirlərdə necə iştirak edir?

– Azərbaycan YUNESKO çərçivəsində keçirilən tədbirlərdə get-gedə daha fəal iştirak edir. Xüsusilə də mən vurğulamaq istəyirəm ki, ölkənin birinci xanımı Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri seçildikdən sonra böyük fəaliyyətə başlamışdır. Qısa müddət ərzində o, şifahi və mıısiqi ənənələrinin təbliği və qorunması sahəsində böyük xidmətlər göstərmişdir.

Bundan əlavə, Azərbaycan hökumətinin rəsmiləri də YUNESKO səviyyəsində keçirilən tədbirlərə çox fəal qoşulurlar. Xüsusilə hazırda Azərbaycan ilə YUNESKO arasında təhsil sahəsində aparılan əməkdaşlıqdan çox məmnunam.

**– Cənab Baş direktor, məlumdur ki, YUNESKO-nun xoşməramlı səfiri adına dünyada çox az sayda adam layiq görülmüşdür. Onlardan biri də öz nəcib və xeyirxah əməlləri ilə ölkəmizdə böyuk rəğbət qazanan Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyevadır. Mehriban xanımın YUNESKO-nun xoşməramlı səfiri kimi fəaliyyətini necə qiymətləndirirsiniz?**

– Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva on il bundan öncə Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaratmış və həmin Fondun çərçivəsində böyük işlər görülmüşdür. Mən onun bu sahədəki fəaliyyətini izləyir və yaxından öyrənirdim. Mən gördüm ki, bu sahədə Mehriban xanımın xidmətləri əvəzsizdir və belə qərara gəldim ki, o, YUNESKO-nun xoşməramlı səfiri təyin edilsin. Bu hadisə bir il bundan əvvəl baş verdi. O, bu vəzifəyə təyin olunduqdan sonra Azərbaycanda mədəniyyət sahəsində böyük işlər görmüşdür. Biz onun xüsusilə şifahi və musiqi ənənələrinin qorunması sahəsindəki fəaliyyətini qeyd edirik. Bu da ki, YUNESKO-da qəbul olunmuş təbirilə desək, qeyri-maddi mədəni irsin qorunması deməkdir.

Mehriban xanım Əliyeva Azərbaycan təhsili sahəsində də böyük xidmətlər göstərmişdir. İndi o, nəinki Azərbaycanda, həm də regional miqyasda, hətta deyərdim ki, qlobal miqyasda fəaliyyət göstərir.

YUNESKO-nun iki konvensiyası var. Biri maddi mədəni irslə bağlıdır. İki il öncə, 2003-cü ildə qəbul edilmiş Konvensiya isə qeyri-maddi mədəni irsin qorunması ilə bağlıdır və onun təqdimat mərasimi Rusiya Federasiyasının Kazan şəhərində keçirilmişdir. Yaxşı yadımdadır, o vaxt biz regional bir toplantı keçirdik. Azərbaycanın birinci xanımı da həmin toplantıda iştirak etdi və mənim bir daha imkanım oldu ki, onunla şəxsən görüşüm və ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə edək. Bir sözlə, yenə demək istəyirəm ki, Mehriban xanım qeyri-maddi mədəni irsin təbliği və qorunmasında çox fəal iştirak edir. Həm regional səviyyədə, həm də qlobal səviyyədə onun xidmətləri çox əhəmiyyətlidir. Mən bunu görməkdən çox şadam.

**– Cənab Baş direktor, Siz bu gün Qobustanda olmusunuz və Mehriban xanım Əliyeva bu qədim tarixi abidənin dünya mədəni irs siyahısına salınması barədə təkliflə çıxış edibdir. Bu məsələyə münasibətiniz necədir? Yəni gözləmək olarmı ki, yaxın vaxtlarda bu abidə, yəni Qobustan həmin siyahıya salınacaq?**

– Bəli, mən bu gün Qobustana səfər etdim. Qobustana səfərim mənə xoş, unudulmaz təəssürat bağışladı. Daşlarda, qayalarda olan təsvirləri görməkdən çox məmnun oldum və bunu özüm üçün çox maraqlı səfər hesab edirəm. Mən o tarixi abidənin çox mühüm cəhətlərini gördüm. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva təklif etmişdir ki, Qobustan qoruğu da dünya mədəni irsi siyahısına daxil edilsin. Bu məsələyə baxılmaqdadır.

Mən sizə məlumat vermək istərdim ki, Azərbaycan tərəfindən qaldırılmış bu təşəbbüs əsasında Qobustanın namizədliyi artıq gündəlikdə durur. Lakin bu məsələ ilə bağlı biz sonra Mehriban xanımla, habelə mədəniyyət naziri ilə hərtərəfli müzakirələr apardıqdan son-

ra belə bir qərara gəlmişik ki, YUNESKO-nun iki əsas tələbi var və onlar yerinə yetirilməlidir ki, Qobustan həmin siyahıya daxil edilsin. Birincisi ondan ibarətdir ki, tarixi abidə olaraq Qobustana aid bütün sənədlər lazımi formada hazırlanmalıdır. İkincisi, Qobustanla bağlı hərtərəfli idarəçilik planı hazırlanmalıdır. Bu iki tələb yerinə yelirilərsə, Qobustanın adı həmin siyahıya daxil ediləcəkdir. YUNESKO çərçivəsində Ümumdünya İrs Komitəsi var və o, hər il öz iclaslarını keçirir. Sonuncu iclas Cənubi Afrikada – Durban şəhərində olub, növbəti toplantı isə 2006-cı ilin yayında Litvada keçiriləcəkdir. Mən çox ümidvaram ki, bu toplantı zamanı Azərbaycanın mühüm abidəsi sayılan Qobustan da irs siyahısına daxil ediləcəkdir.

Bütün bunları nəzərə alaraq, hesab edirəm ki, biz YUNESKO-nun missiyasını Azərbaycana göndərəcəyik. Yəni ekspertlər öz azərbaycanlı həmkarlarına Qobustana aid sənədlərin tərtibatında texniki yardım göstərsinlər ki, biz istədiyimizə nail ola bilək. Mən tam əminliyimi bildirmək istəyirəm ki, dediyim iki tələb yerinə yetirildikdən sonra komitənin iclasında qərar qəbul ediləcək ki, Qobustanın adı dünya mədəni irs siyahısına daxil edilsin.

**– Artıq bütün dünyaya məlumdur ki, Azərbaycanın torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğal olunub və həmin ərazidəki xeyli sayda qədim tarixi abıdələr ermənilər tərəfindən dağıdılmışdır. YUNESKO-nun bu məsələyə ciddi reaksiyasını gözləmək olarmı və Siz bu sahədə Azərbaycana hansı yardımları edə biləcəksiniz?**

– Ən təcili məsələ ondan ibarətdir ki, münaqişə tezliklə dinc yolla öz həllini tapsın. Mən hesab edirəm ki, bu münaqişənin aradan qaldırılması BMT tərəfindən qəbul olunmuş dörd qətnamə əsasında baş verməlidir. YUNESKO-nun əsas məramı ondan ibarətdir ki, dunyanın istənilən yerində hər hansı mədəni abidə qorunsun. Mən bu münaqişə nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün çox ağır və çətin

vəziyyətdə yaşamasından məyusluğumu bildirirəm. Bu günlərdə də onların əzab-əziyyətləri davam edir. Ümid edirəm ki, bu məsələ BMT-nın qətnamələri əsasında öz həllini tapacaq və bundan sonra, şübhəsiz ki, YUNESKO həmin abidələrin qorunması ilə bağlı daha qəti və daha konkret formada hansısa tədbir görə bilər.

YUNESKO dünyanın istənilən ölkəsində tarix və mədəniyyət abidələrinin dağıdılmasının əleyhinədir və bu, qəbuledilməzdir. Çünki YUNESKO çərçivəsində bir sıra konvensiyalar qəbul olunubdur. Mən maddi mədəni irsin qorunması ilə bağlı 1972-ci ildə qəbul edilmiş Konvensiyanı xatırlatmaq istəyirəm. Həmin Konvensiyanı eyni zamanda Qobustana, İçərişəhərə də aid etmək olar və bildiyiniz kimi, İçərişəhər artıq dünya mədəni irs siyahısındadır. Digər konvensiyalar da var, məsələn, haqqında qəbul olunmuş 1954-cü il Konvensiyası. Yəni hüquqi mexanizmlər var, lakin dediymiz abidələrin qorunması sahəsində YUNESKO-nun səmərəli fəaliyyəti, iş görməsi üçün ilk şərt odur ki, münaqişə dinc yolla, sülh yolu ilə öz həllini tapsın.

**– Cənab Baş direktor, Azərbaycana səfərinizdən razı qaldınızmı? Bu səfər Azərbaycan-YUNESKO əməkdaşlığının perspektivinə nə verə biləcək?**

– Mən Azərbaycana ikinci səfərimdən çox razıyam. Eyni zamanda, ilk səfərimdən də çox məmnun qalmışdım. Azərbaycana ilk səfərim 2000-ci ilin aprel ayında baş tutdu, çox maraqlı keçdi, lakin indiki səfərim daha səmərəli və daha faydalıdır. Əgər biz YUNESKO və Azərbaycan arasında əməkdaşlığın perspektivləri haqqında danışsaq, mən onu deyə bilərəm ki, biz Azərbaycanın təhsil sistemində islahatların aparılmasında ölkənizə yardım göstərməyi planlaşdırırıq. Azərbaycan Prezidenti cənab İlham Əliyev məni qəbul edəndə onun təhsil məsələsinə birinci dərəcəli əhəmiyyət verdiyini eşitməkdən çox şad oldum. Cənab Prezident mənə məlumat verdi ki, ölkənin büdcə vəsaitinin 20 faizdən çoxu məhz Azərbaycanda təhsil problemlərinə, təhsil məsələlərinə sərf olunur. Bu da çox təqdirəlayiq hadisədir.

Cənab Prezident öz fikirlərində, öz mövqeyində çox qətidir ki, Azərbaycanın təhsil sistemində islahatlar aparılmalıdır və gənclər üçün keyfiyyətli təhsil təmin olunmalıdır. Bu baxımdan bir daha demək istəyirəm ki, BMT-nin Elm, Təhsil və Mədəniyyət Məsələləri Təşkilatı – YUNESKO Azərbaycana yeni bir missiya ilə gələcəkdir. Ekspertlərimiz Azərbaycana gəlib öz həmkarları ilə təhsil sahəsində birgə işləyəcəklər ki, lazımi nəticələr əldə olunsun. YUNESKO ilə Azərbaycan arasında elm və kommunikasiya texnologiyaları sahələrində də əməkdaşlıq aparıla bilər. Lakin mənim səfərimin yekunları haqqında danışsaq, hazırda əməkdaşlığımızın iki əsas istiqaməti mədəniyyət və təhsil sahəsi olacaqdır.

**– Müsahibəyə görə təşəkkür edirik.**

***Xalq qəzeti,***
***2005, 26 avqust***

## *Gələcəyə körpu*

*Bu körpü möhkəm təməl üzərində qurulur*
*YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu sahədə göstərdiyi səylər BMT-nin ixtisaslaşdırılmış qurumları ilə ölkəmiz arasında əlaqələri yüksək mərhələyə qaldırmışdır*

---

Birləşmiş Millətlər Təşkilatının ən mötəbər qurumlarından olan, dünyada mədəni irsin qorunması və inkişaf etdirilməsi ilə məşğul olan YUNESKO-nun Baş direktoru Koişiro Matsuura hər ölkəyə getmir, hər dəvəti də qəbul etmir. Baş direktor o dövlətin torpağına ayaq basır ki, orada xalqın əsrlərdən bəri yaratdığı maddi mədəniyyət abidələrinə, musiqiyə, incəsənətə, elmə, təhsilə hörmətlə yanaşılır, bu sahələrin qorunub gələcək nəsillərə çatdırılmasına qayğı göstərilir.

YUNESKO-nun Baş direktorunun bir neçə gün əvvəl Bakıda keçirdiyi görüşlərdə bu fikir dönə-dönə vurğulanmışdır.

Cənab Matsuura dövlətimizin başçısı İlham Əliyevlə görüşündə Azərbaycanda gedən sürətli inkişafdan, bu inkişafın sosial sahəni, o cümlədən, mədəniyyəti, təhsili əhatə etdiyindən məmnunluğunu bildirməsi adi etika xatirinə deyildi. Hörmətli qonaq bu sahədə Azərbaycanda aparılan işlərin miqyasını görərək, bunlara dövtət səviyyəsində can yandırıldığını hiss edərək ölkəmiz barədə, bu ölkənin rəhbəri İlham Əliyev, təqribən il yarım ərzində mədəniyyətə, incəsənətə, təhsilə, uşaqların sağlamlığına qayğını yüksək mərhələyə qaldırmış Mehriban xanım Əliyeva barədə ürəkdən gələn təriflərə xəsislik etmədən danışırdı. Dünyanın ən mötəbər şəxslərindən biri olan cənab Matsuuranı vəcdə gətirən xalqımızın ruhundan qopan muğam sənətinə dövlət səviyyəsində diqqət göstərilməsidir. Təsadüfi deyil ki, Azərbaycan muğamları 2003-cü ildə YUNESKO-nun tərtib etdiyi «Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri» siyahısına daxil edilmişdir. Təkcə elə bu fakt Mehriban xanım Əliyevanın xalqımız qarşısında necə böyük xidmət göstərdiyinə sübutdur. Lakin təbii ki, doğma xalqının mədəni irsinə, təhsilinə YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın göstərdiyi xidmət bununla bitmir. Digər bir fakta diqqət yetirək. Bu ilin mart ayında Yaponiyada keçirilən beynəlxalq sərgidə BMT günü qeyd olunarkən Azərbaycan müğamları səsləndirilməsinin xalqımız, ölkəmiz üçün necə böyük məsələ olduğunu sübut etməyə ehtiyac varmı? Bax, budur Mehriban xanım Əliyevanın Azərbaycan qarşısında böyük xidmətlərinin bir nümunəsi!

Daha bir xidmət: məhz Mehriban xanım Əliyevanın səylərinin nəticəsidir ki, ölkəmizlə YUNESKO arasında mövcud əməkdaşlığı gələcək illərdə daha da inkişaf etdirməyə yönəlmiş sənəd imzalanmışdır. Bu sənəd mədəni irsin qorunmasını və xüsusən, təhsil sahəsində

əməkdaşlığı nəzərdə tutur. Mehriban xanımın təşəbbüsü ilə Azərbaycan Mədəniyyətinin Dostları Fondunun yaradılması, Bakıda Beynəlxalq Muğam Mərkəzinin bünövrəsinin qoyulması, respublikada 150-yə yaxın yeni məktəb binaları tikilməsi, illərdən bəri diqqətdən kənarda qalmış uşaq sağlamlıq ocaqlarının yenidən qurulması, regionlarda təhsil, mədəniyyət ocaqlarının fəaliyyətinin canlandırılması ona Azərbaycanda böyük məhəbbət və ehtiram yaratdığı klmi, BMT dairələrində, xarici ölkələrdə və beynəlxalq təşkilatlarda da nüfuz qazandırmışdır.

Yazının əvvəlinə qayıdıb bir daha qeyd edək ki, YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranı Azərbaycana gətirən əsas səbəb də ölkəmizdə bu istiqamətlərdə görülmüş işlərin böyük miqyası idi. Onun əks-səda doğurmuş bu səfəri isə şübhəsiz ki, Azərbaycan üçün bir sıra mənalarda böyük uğurlar, yeniliklər vəd edir. Bu uğur hər şeydən əvvəl, Qobustan Dövlət Qoruğu və Suraxanıdakı Atəşgah məbədinin YUNESKO-nun mədəni irs siyahısına daxil ediləcəyi ilə bağlıdır. Digər maddi mədəniyyət abidələrimizdən bir neçəsinin də bu siyahıya salınacağı istisna deyil. Azərbaycanda təhsil problemlərinin YUNESKO ilə birlikdə həll edilməsinə dair memorandum imzalanması da şübhəsiz ki, ölkəmizlə bu mötəbər beynəlxalq təşkilat arasında qurulmuş körpülərin davamlılığını və etibarlılığını təmin edəcəkdir.

Beləliklə, YUNESKO ilə Azərbaycan arasında fikir birliyi nümayiş etdirilməsi belə bir inam yaradır ki, bu mötəbər təşkilatın xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın dediyi kimi, gələcəkdə bütün problemlərimizin həllinə yardım edəcək, ümumi işimizə böyük təkan verəcəkdir.

*Telman Qafar,*
*İki sahil,*
*2005, 27 avqust*

## *Ölkənin birinci xanımı hansı siyasi texnoloqların xidmətindən istifadə edir?*

2003-cü il Prezident seçkilərindən dərhal sonra baş verən olaylar Azərbaycan siyasətşünaslarını o qədər aludə etdi ki, ölkənin üfüqlərində yeni bir ulduzun doğduğunun fərqinə belə vara bilmədilər. Bu ulduz – ölkənin birinci ledisi Mehriban xanım Əliyeva idi. Bu, siyasi arenanın sadə tamaşaçılarına əvvəl-əvvəl adi bir meteor parıltısı kimi gəldi, lakin hadisələr inkişaf etdikcə, hamı Mehriban xanımın təsadüfi fiqur olmadığının, ictimai-siyasi mühitə tamamilə yeni baxış və yanaşma gətirdiyinin şahidi oldu. Bəli, Mehriban Əliyeva Azərbaycan siyasətinə uzun müddətdir ki, davam edən və olduqca gərgin ab-hava vermiş iqtidar-müxalifət savaşında çoxdan unudulmuş humanitar təfəkkür tərzi gətirdi. İndi artıq heç kim inkar edə bilməz ki, bu, çoxdan qərarlaşmış və bəlkə də daşlaşmış, sümükləşmiş Azərbaycan siyasi elitası tarixində yeni bir mərhələnin əsasını qoyan yanaşma idi. Mehriban xanım cəmiyyətimizə xalqın ən çox ehtiyac duyduğu dəyərlərin dirçəldilməsi, bunlara diqqət və qayğının artırılması təmayülünü daxil etdi və tez bir zamanda həmin təmayülü aparıcı xəttə çevirə bildi. Yaxşını yamandan, Xeyiri şərdən, Gerçəyi yalandan özünəməxsus bir həssaslıqla seçə bilən xalq buna politoloqlardan daha ayıq reaksiya verdi, bu zərif və cazibədar xanıma aydın diqqət yetirdi və ona daha isti, məhrəm duyğular bəslədi, dərin bir rəğbətlə yanaşmağa başladı. Siyasət alimləri isə yalnız xalqın gerçək simpatiyasını qazandıqdan sonra Mehriban Əliyevanın ictimai-siyasi statusunu etiraf etməli oldular.

Əslində, onun ictimai-siyasi mühitə qədəm qoyması bir qədər əvvəl, ulu öndərimiz Heydər Əliyevin sağlığında başlamışdı. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun yaradıcısı, «Azərbaycan-İrs» jurnalının təsisçisi olaraq zəngin mədəniyyətimizin təbliği ki-

mi mühüm bir missiyanın önündə gedən xanım Əliyevanın fəaliyyəti o dövrdə bir qədər ciddi alınmır, sadəcə, Prezident gəlininin, gələcək Prezident xanımının ictimai həyatda aktivlik göstərmək cəhdi kimi qiymətləndirilirdi. Mütərəqqi Qərb ölkələri səfirlərinin xanımlarını, qadın hərəkatı fəallarını, məşhur elm, mədəniyyət və incəsənət xadimlərini başına toplayıb, müstəqillik dövrünün keşməkeşlərində gözdən, könüldən uzaq salınmış milli mədəniyyətimizin ictimai həyatda öz layiqli yerini tutması üçün göstərdiyi fədakarlıq da indiki dövlət başçısının siyasi portretinə onun həyat yoldaşının gətirmək istədiyi ştrixlər səviyyəsində anlaşılırdı. Bu fədakarlıqda gizlənən səmimi vətənpərvərliyi, gerçək milliliyi, riyadan, məkrdən, siyasi hiyləgərlikdən uzaq ziyalılığı, tarixlərin o tayında qalmış kübar xalqçılığını layiqincə duymaq, başa düşmək və dəyərləndirmək bəlkə heç asan da deyildi. Çünki onun fəaliyyətinə münasibət – Azərbaycan siyasətində xalqın tarixi mövcudluq şərtlərindən biri və birincisi olan milli mədəniyyətə münasibətlə eyni idi. Bu, elə bir vaxt idi ki, siyasətə xoş-zor qoşulanlar xalqın adından xalq üçün müxtəlif süni və qondarma dəyərlər uydurur, onu «xoşbəxt» etmək naminə şüarlar səsləndirir, həmin uydurma dəyərlər və şüarlar uğrunda eynilə qondarma «mübarizələr» aparırdılar. Mehriban xanım isə ölkənin iki tanınmış ziyalı nəslinin düşüncə tərzini, həyat fəlsəfəsini əxz etmişdi, elə buna görə də Azərbaycan xalqına həqiqi xidmət göstərməyin düzgün yolunu dəqiq bilirdi. O yaxşı başa düşürdü ki, dünyada özünü, keçmişini, bu gününü layiqincə təmsil etməyi bacarmayan, müasir biliklərə, texnofogiyalara, təfəkkürə və mədəniyyətə yiyələnməyən xalqın gələcəyinə kimlərisə inandırmaq çətindir. Nə qədər ki, bu problemlər həll olunmayıb, dünyaya özlərini mədəni, azərbaycanlıları, türkləri isə vəhşi, barbar xalq kimi təqdim edən ermənilərin bədnam təbliğatının qarşısını almaq mümkün olmayacaq. Ümummilli liderimiz Heydər Əliyev ölkəmizi hərbi-siyasi qarşıdurmalardan, iqtisadi böhran məngənəsindən, sosial aşınma-

dan qurtarmışdı, onun qarşısında dövlətimizi dünya siyasəti meridianlarına çıxarmaq kimi qlobal problemlər dayanırdı. Buna baxmayaraq, böyük öndər Azərbaycanın mədəni yüksəlişi qayğısına da qalmış, onun inkişaf perspektivlərinin magistral yollarını müəyyənləşdirmişdi. İndi bu yolla irəliləmək istəyənləri ardınca aparmağa qadir Mehriban xanım kimi həqiqi avanqard gənclər lazım idi. Mir Cəlal, Nəsir İmanquliyev ocaqlarının tərbiyəsini görmüş Mehriban xanım öz siyasi müəllimininin, «ata» dediyi öndərimizin göstərdiyi bu yolu seçdi. Görünür, bu məqamda özünə inamı sarsılmış sadə xalqla onun baxış bucağı üst-üstə düşdüyü üçün tezliklə uğura tuş gəldi, elin rəğbətini və təmənnasız sevgisini qazandı.

...Bir mənzərəni xatırlamaq vacibdir: Ötən əsrdə xalqımızın başına gətirilmiş müsibətlərin bəlkə də ən dəhşətlisi və bənzərsizi olan 20 Yanvar faciəsinin qara ildönümlərindən biri idi. Ucu-bucağı görünməyən insan seli hər il olduğu kimi, həmin gün də aramla, səbrlə, təmkinlə, basabas salmadan, böyük ehtiramla müstəqillik uğrunda qurban getmiş günahsız şəhidlərimizin ziyarətgahına doğru irəliləyirdi. Telekameralar usanmadan, matəm musiqisi altında gedən bu prosesi canlı yayınlayırdı. İzdihamın içində ara-sıra tanınınış simalar da gözə dəyirdi, amma axşama az qaldığından ziyarətə gələnlərin böyük əksəriyyəti adi vətəndaşlar idi. Elə bu vaxt kameraların «nəzərləri» iki qızı ilə sakit-sakit şəhid məzarlarına doğru irəliləyən qara paltarlı kübar bir xanıma dikildi. O anda vətənpərvər tamaşaçının keçirdiyi hissləri «matəm qarışıq sevinc» kimi ifadə etmək olardı. Çünki həmin xanım bir özgəsi deyil, Prezidentin həyat yoldaşı, ölkənin birinci xanımı Mehriban Əliyeva idi. Övladlarını da yanına alıb, xalqının müqəddəs kədərini əlahiddə şəkildə yox, onunla bir yerdə, onunla bərabər hüquqda, bir sırada addımlayaraq bölüşməyə gəlmişdi. Bu adi hərəkət Azərbaycanın öz müstəqilliyi uğrunda, ərazi bütövlüyü uğrunda qurban verdiyi şəhidlərin xatirəsinə dərin ehtiramın bənzərsiz rəmzi məna kəsb edən

təzahürü kimi yaddaşlara həkk olundu. Hər il həmin gün bütün azərbaycanlıların qəlbində duyğuların bütöv bir qarışığı, buketi tüğyan edirdi – şəhidlərimizə görə mərhəmət, hüzn, qürur, onları gözgörəti ölümə aparmış «keşiş qaponlar»a qarşı qəzəb və hiddət, günahsız vətəndaşlarımızı qanına qəltan etmiş düşmənə nifrət və üsyankarlıq... Amma həmin gün ürəklərdə bir duyğu da öz layiqli yerini tapdı – ölkənin birinci xanımına ehtiram və minnətdarlıq duyğusu.

Əlbəttə, o gün milyonlarla həmvətənimiz telekameraların gözü ilə bu lal və hüznlü səhnəni müşahidə etmiş, bu vətənpərvər xanımın sadəliyinə, fədakarlığına, kübarlığına heyran kəsilmişdi. Mehriban xanımın bütün sonrakı fəaliyyəti də sübuta yetirdi ki, xalqa yaxınlığını, bağlılığını, hörmət və məhəbbətini belə kiçik, lakin əlamətdar addımlarla büruzə verməklə onun ruhuna hakim kəsilmək mümkündür. Kifayətdir ki, xalq sənin ona yuxarıdan aşağı baxmadığına inansın. Kifayətdir ki, xalq görsün: sən onun dərdini, ehtiyacını bilir və ona əlindən gələn qədər kömək göstərmək, dəstək vermək istəyirsən. Kifayətdir ki, xalq sənin xoş məramını anlaya bilsin. Lakin bunun özü də asan məsələ deyil. Siyasətlə illər boyu məşğul olanlar, onu özünə peşə seçənlər var ki, çoxillik fəaliyyətləri dövründə xalqın tükünü belə tərpədə bilmirlər. Onlar xalqın adından bəyanatlar verir, onun maraqları ilə alver edir, lakin xalqa qovuşmağı heç cür bacarmırlar, necə deyərlər, hərəsi öz həyatını yaşayır – xalq öz həyatını, bu tip siyasətçilər isə öz həyatlarını. Onlar özlərini xalqdan mümkün qədər daha çox ayırmağa, bununla da sanki özlərinin müstəsnalıqlarını büruzə verməyə can atır... və elə bununla da uduzurlar. Təəssüflər olsun ki, bu gün Azərbaycan siyasətində yer tutanların böyük əksəriyyəti məhz belələridir.

Belələri Mehriban xanımın xalqı ilə belə asanlıqla dil tapmasına qısqanclıqla yanaşırlar – başqa cür mümkün də deyil. Onlar bu birliyə min bir yozum verir, gah bunu kökündən inkar edir, gah da müxtəlif sə-

bəblərlə izah edirlər. Doğrudur, siyasi texnologiyaların inkişaf etdiyi, manipulyasiya imkanlarının günbəgün artdığı, insanların nəinki şüuruna, hətta təhtəlşüuruna da təsir üsullarının kəşf olunduğu bir dövrdə texnoloji imkanlardan, elmin yeni nailiyyəti sayılan metodlardan istifadə edilməsində təəccüblü bir şey də yoxdur. Və təsadüfi deyil ki, Mehriban xanımın Azərbaycan siyasətinə ildırımsürətli gəlişini, burada öz layiqli yerini tapmasını, ən əsası isə geniş xalq kütlələrinin qəlbini belə teziiklə ələ almasını da məhzı siyasi texnoloqların gücü ilə izah edənlər daha çoxdur. Etiraf edək ki, bəzən bu gənc və kübar xanımın qısa, lakin sirayətedici nitqlərinin, hətta sözsüz, yalnız jestlər və mimikalar səviyyəsində belə qarşısındakılara göstərdiyi təsirin altında bəzən bu fikrin gerçəkliyinə inanır və düşünürsən ki, görəsən, Mehriban Əliyeva hansı siyasi texnoloqların xidmətindən istifadə edir?

Amma az sonra onun fəaliyyətinin nə qədər sadə, lakin nə qədər mühüm və ardıcıl addımlardan ibarət olduğunu xatırlayır və onun təsir mexanizmini də aydınlaşdıra bilirsən. Fakt budur ki, artıq Mehriban xanım Azərbaycanın sevilən simalarından birinə çevrilib, xalq onun fəaliyyətini izləyir, onu görmək, dinləmək, onunla ünsiyyətdə olmaq istəyir. Onun məktəblərdə, tibb ocaqlarında, muğam konsertlərində, elmi konfranslarda əhalinin ən müxtəlif təbəqələri, eləcə də xarici qonaqlarla görüşlərində göstərdiyi humanizm, insanpərvərlik nümunələri Azərbaycanda bədheybət şəklə salınmış siyasətin ümumi simasına məxsusi bir gözəllik, ülvilik verir. Mehriban xanımın hər görüşünün, onun keçirdiyi hər bir aksiyanın İlham Əliyev iqtidarına xalqa yaxınlıq baxımından rəsmi təbliğatdan qat-qat artıq dividendlər gətirdiyinə indi heç kimin şübhəsi yoxdur. Doğrudanmı bütün bunlar cəmiyyətdəki statusu kifayət qədər yüksək olan, intellektual səviyyəsi ilə bu mərtəbədən də yüksəklərə qalxmağı bacaran bir xanımın şəxsi səyləri hesabına əmələ gəlir? Onun atdığı addımlar spontan səciyyəmi daşıyır, yoxsa əvvəlcədən

planlaşdırılır, düzülüb-qoşulur? Respublikanın birinci xanımı olması öz-özlüyündə aşkarlayır ki, o, «xalq arasında çıxış»larında heç də tam sərbəst və müstəqil ola bilməz. Amma axı burası da var ki, planlaşdırma ilə, etiket qaydalarına əməl etməklə bu boyda uğuru belə asanlıqla qazanmaq olmaz! Bəs nədədir Mehriban xanımın təsir gücü? Yuxarıda qeyd etdik ki, o, həddən artıq sadə, təvazökar və millətsevərdir. O, kütlənin xoşuna gəlməkdən ötrü özünü «qurutmur», nitqlərini əzbərləmir, davranışlarını rol kimi məşq etmir, xalq arasında səhnədə rol oynayırmış kimi hərəkət etmir. Düşündüyü kimi danışır, olduğu kimi görünür, baxışlarını açıq, səmimi, lakin qəti tərzdə ifadə edir, insanları özünün haqlı olduğuna inandırır. Aydın görünür ki, planlaşdırdığı tədbirlərin bütün görünən və görünməyən tərəflərini irəlicədən yaxşı-yaxşı öyrənib, qaldırdığı problemləri dərindən bilir, elə buna görə də diletant kimi görünmür. «Qarabağ xanəndələri» albomunu nəşr edəndə də, maddi tarixi abidələrimizlə bir sırada qədim muğamlarımızı YUNESKO səviyyəsində təmsil və təbliğ edəndə də xalqın əziz bildiyi dəyərlərlə işlədiyini düzgün qiymətləndirir. Bürokratik aparatın, məmurların get-gəlindən bezib haqqa ümidiərini itirmiş həmvətənlərimizin əlindən tutanda da yüksək səmimiyyət nümayiş etdirir. Onu nə populyarlıq, nə süni şöhrət, nə də bir günlük, beş günlük dəyərlər düşündürür. Xoşa gəlmək istəsəydi, Mehriban xanım yəqin ki, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun hesabına məktəblər, bağçalar, internatlar yox, məscidlər tikdirərdi. Muğam mərkəzləri deyil, estrada arenaları qurdurardı. Xalqın düşünən hissəsinə yox, emosional kütlələrinə hesablanmış tədbirlər keçirər, xeyriyyəçiliyin siyasi gəlir gətirən növləri ilə məşğul olardı.

Bu gün tək bizim yox, çoxlarının nəzərində beynəlxalq, regional, ölkə siyasətinin sərt reallıqları ilə ayaqlaşmaq zərurəti ilə üzləşən Prezidentin ictimaiyyətlə ən mahir əlaqələndiricisi məhz elə odur – Mehriban Əliyeva. Özünün daxildən gələn yüksək ünsiyyət mədə-

niyyəti, paklığı, təmizliyi, mənəvi ucalığı, ziyalı cövhəri ilə Mehriban xanım bu gün Azərbaycan dövlət idarəçiliyinə rəsmən heç bir dəxli olmasa da, İlham Əliyev siyasi xəttini bəzən təhrif edən, onunla xalq arasında sədlər yaradan «iqtidar mənsubları» ilə həqiqi antiteza təşkil edir. Mehriban xanım xalqına zidd mövqedə dayananların hamısına qarşı ən layiqli opponentdir, baxmayaraq ki, o, bu gün nə iqtidardakı, nə müxalifətdəki opponentlərinin heç birinə qarşı açıq çıxışlar etmir. Onun əleyhdarlığı da, tərəfkeşliyi də dildə deyil, əməldədir. Mehriban xanım o qədər səmimidir ki, təbliğatdan, təşviqatdan uzaq əməllərində də öz daxili aləmini gizlətməyi bacarmır. Əlindəki imkanlardan ona pənah gətirən, ondan nicat umanların nəfinə istifadə edir, xalqın zəruri ehtiyaclarını dəqiqliklə duyub qiymətləndirir. Bunlar elə güclü və parlaq fərdi keyfiyyətlərdir ki, heç bir texnoloq məsləhəti ilə başa gələ bilməz. Bunları ən mahir aktyorlar belə oynamağa qadir deyil. Bunlar insana ana südü, ata öyüdü, yaşanmış həyat təcrübəsi ilə, qazanılmış biliklərlə verilən nadir xüsusiyyətlərdir. Belə incə və həssas məsələlərdə Mehriban xanım özünəxas daxili səmimiyyəti ilə bütün texnoloji nailiyyətlərin fövqündə dayanan unikal şəxsiyyətdir.

Beləliklə, onun fəaliyyətinə bu prizmadan yanaşdıqda birinci xanımın hansı «texnoloq» və «məsləhətçi»lərin xidmətindən yararlanması da müəyyənləşir.

***Yeni Azərbaycan,***
***2005, 30 avqust***

## *Mədəni irsimiz layiqincə qorunur*

Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri seçildikdən sonra ölkəmizdə bu istiqamətində mühüm işlər həyata keçirilir

Ötən həftə respublikamızın ictimai-mədəni həyatında çox əlamətdar bir hadisə ilə yadda qaldı. Heydər

Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın dəvəti ilə YUNESKO-nun Baş direktoru Koişiro Matsuura və bir neçə xoşməramlı səfir Azərbaycana səfər etdilər. Qeyd edək ki, səfər çərçivəsində bir sıra mühüm tədbirlər keçirildi. YUNESKO-nun Baş direktoru cənab Matsuura keçirilən tədbirlərdəki nitqlərində YUNESKO ilə Azərbaycan arasındakı əməkdaşlığın indiki səviyyəsindən razı qaldığını bildirdi, xüsusən də Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın qurumun xoşməramlı səfiri seçilməsindən sonra ölkəmizdə qeyri-maddi və maddi irsin qorunması istiqamətində mühüm işlərin həyata keçirildiyini dəfələrlə vurğuladı. Öz növbəsində Mehriban xanım da YUNESKO ilə Azərbaycan arasında əməkdaşlığın bugünkü səviyyəsini yüksək qiymətləndirib. YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın Azərbaycana səfərinin yekunlarına dair Dövlət Televiziyasına verdiyi müsahibəsində Mehriban Əliyeva 1992-ci ildən YUNESKO-nun üzvü olan ölkəmizdə bu illər ərzində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirildiyini deyib. Belə ki, YUNESKO Azərbaycan muğamını bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil edib. İçərişəhər, Qız qalası isə çox nadir memarlıq incisi kimi dünya mədəni İrs siyahısına salınıb. Həmçinin Azərbaycanın bir sıra görkəmli şəxsiyyətlərinin yubileyləri YUNESKO-nun təqviminə salınıb və bəşəriyyət üçün böyük əhəmiyyəti olan hadisə kimi qeyd edilir. Məsələn, dahi Məhəmməd Füzulinin 500 illik yubileyi, «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi çox geniş tədbirlərlə qeyd olunub və yekun tədbirlərində YUNESKO-nun Baş direktoru cənab Matsuura da iştirak edib. Hər iki yubileylə bağlı YUNESKO-nun iqamətgahında, Paris şəhərində də xüsusi tədbirlər keçirilib.

Bir sıra elm, təhsil və mədəniyyət proqramlarında Azərbaycanın qurumlarının iştirak etdiyini deyən xoşməramlı səfir Azərbaycana aid olan məsələlərlə bağlı

YUNESKO çərçivəsində tədbirlər keçirildiyini söyləyərək bu sırada xüsusilə təhsil sahəsində əməkdaşlığı vurğulayıb. Buna misal olaraq o, Bakıda YUNESKO-nun Baş direktoru cənab Matsuuranın və xoşməramlı səfirlərin iştirakı ilə «Azərbaycan-YUNESKO: gələcəyə körpü» adlı təhsil sfsteminə həsr olunmuş böyük konfrans keçirildiyini nəzərə çatdırıb.

## *Qeyri-maddi irsin qorunması sahəsində yeni planlar həyata keçirilir*

Xatırladaq ki, avqustun 24-də Beynəlxalq Muğam Mərkəzinin təməli qoyuldu. Sözsüz ki, bina inşa olunandan sonra bu mərkəz bütün muğamsevərlər üçün doğma bir evə çevriləcəkdir. «Qarabağ xanəndələri» albomundan sonra muğam layihələri üzrə işlərin davam etdirildiyini deyən Mehriban xanım bu ilin sonuna qədər muğam dəstgahları albomunun işıq üzü görəcəyi, bir sıra muğam ustalarının kitablarının və albomlarının çap olunacağı barədə də məlumat verib. O qeyd edib ki, bir neçə qədim muğam traktatlarının tərcüməsi artıq başa çatıb və onlar çapa hazırdır. Eyni zamanda müasir fransız musiqişünası Jerardın əsəri də tərcümə olunub və çapa hazırdır. Bir sözlə, muğamla bağlı çox geniş layihələrin həyata keçirilməsi nəzərdə tutulub. Mehriban xanım bildirib ki, həm Muğam Mərkəzinin layihəsini müzakirə etmək, həm də gələcək planlar haqqında danışmaq üçün o, yaxın gələcəkdə tanınmış muğam ustaları ilə görüşməyi nəzərdə tutub. Muğamla yanaşı, aşıq sənətinin də YUNESKO-nun qeyri-maddi irs siyahısına salınmasının zəruriliyini vurğulayan səfir mədəni irsimizin zənginliyindən bəhs edərək onun ayrı-ayrı qollarının öyrənilməsi istiqamətində böyük işlər görülməsinin vacibliyini bildirib.

## *Maddi mədəniyyət abidələrimiz bəşəri əhəmiyyət daşıyır*

Məlum olduğu kimi, YUNESKO-nun Baş direktoru və xoşməramlı səfirlər Bakıya səfər zamanı Qobustanda oldular. Və nümayəndələr orada bu abidənin bəşəriyyət üçün nə qədər əhəmiyyətli olduğunu müzakirə etdilər. Mehriban xanım orada Qobustanın dünya mədəni və təbii irsin qorunması siyahısına salınmasını təklif etdi. Amma qeyd edək ki, YUNESKO-nun öz qaydaları var və hər bir abidənin siyahıya salınması müəyyən prosedurdan keçir. Öncə bir neçə ölkədən ekspertlər təklifləri öyrənir, öz rəylərini verir. Sonra komissiyaların iclaslarında müzakirələr gedir. Adətən, abidənin siyahıya daxil edilməsi prosesi 3-5 il çəkir. Onu da nəzərdə saxlamalıyıq ki, bir ölkədən müəyyən dövr ərzində yalnız bir abidə və ya yalnız bir əsər YUNESKO-nun siyahısına daxil edilə bilər. YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım müsahibəsində bildirib ki, gələn ilin yayında YUNESKO-nun iqamətgahında keçiriləcək növbəti toplantıda Qobustanla bağlı müzakirələr aparılacaq və o ümid etdiyini bildirib ki, bu məsələ öz müsbət həllini tapacaqdır.

## *İşğal altında olan ərazilərdəki tarix və mədəniyyət abidələri ilə bağlı məsələlər diqqət mərkəzindədir*

Məlumat üçün bildirək ki, bu problemlər haqqında Mehriban xanım Əliyeva xoşməramlı səfirlərin YUNESKO-nun iqamətgahında keçirilən illik toplantısında və Kazanda YUNESKO-nun Avropa regionu üzrə toplantısında dəfələrlə danışıb. Məlum olduğu kimi, YUNESKO elm, təhsil və mədəniyyətlə məşğul olan təşkilatdır. Bu baxımdan sübhəsiz ki, YUNESKO tarixi

abidələri qorumaq üçün tədbirlər keçirməli, konkret işlər görməlidir. Digər tərəfdən, hərbi münaqişə zonalarında vəziyyət həddən artıq siyasiləşdiyinə görə YUNESKO çalışır ki, siyasi xarakter daşıyan heç bir bəyanatla çıxış etməsin. Buna baxmayaraq, Mehriban xanım hər bir görüşündə, YUNESKO-nun əməkdaşları ilə hər bir ünsiyyətində bu məsələləri qaldırmağa çalışdığını diqqətə çatdırıb.

Mehriban Əliyeva müsahibəsində YUNESKO ilə əməkdaşlıq çərçivəsində görüləcək işlər barədə də məlumat verib. Bu tədbirlərdən ən əlamətdarı isə bu ilin sentyabr ayında Parisdə görkəmli Azərbaycan alimi Yusuf Məmmədəliyevin 100 illik yubileyinin təntənə ilə qeyd olunması olacaq.

Biz bütün bunların ölkəmizin dünya birliyinə inteqrasiya prosesini sürətləndirən amillər olduğunu nəzərə alaraq istər elm və təhsil, istərsə də mədəniyyət sahəsində çoxşaxəli fəaliyyət göstərən YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban Əliyevaya işlərində uğurlar arzulayırıq.

***Sevinc PAŞAYEVA***
***Azad Azərbaycan,***
***2005, 31 avqust***

## ***Mehriban Əliyevaya xoşməramlı səfir diplomu təqdim edildi.***
*YUNESKO Azərbaycanın birinci xanımının mədəni irsin qorunması sahəsindəki xidmətlərini yüksək qiymətləndirir*

Dünən Fransada Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya YUNESKO-nun xoşməramlı səfiri diplomu təqdim edilib. Bu məqsədlə təşkil olunan mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edib.

Əvvəlcə YUNESKO-nun rəhbəri danışaraq M.Əliyevaya xoşməramlı səfir adının verilməsini həm YUNESKO, həm də Azərbaycan üçün mühüm hadisə kimi qiymətləndirib. Onun sözlərinə görə, M.Əliyevanın fəaliyyəti nəticəsində Azərbaycanda musiqi mədəniyyətinin inkişafı sahəsində çox ciddi irəliləyişlər əldə olunub. Onun xüsusilə də muğam və aşıq yaradıcılığının qorunması sahəsindəki xidmətlərini yüksək dəyərləndirən qurum rəhbərinin fikrincə, M.Əliyeva bu işləri görməklə həm Azərbaycanda, həm də ümumilikdə Cənubi Qafqazda mədəni irsin qorunmasına böyük töhfə verib.

Xoşməramlı səfir diplomu və pasportunun təqdimatından sonra M.Əliyeva çıxış edərək bildirib ki, onun əsas məqsədi dünya mədəniyyətinin unikallığını qorumaq, keçmiş və bu gün, mədəniyyətlər arasında əlaqə yaratmaqdan ibarətdir. “Azərbaycan Şərq və Qərb arasında bir körpüdür” deyən M.Əliyeva onu da vurğulayıb ki, ölkəmiz mədəniyyətlər arasında dialoq qura bilər. Onun qənaətincə, informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir zamanda mədəni irsin qorunması xüsusi aktuallığa malikdir. M.Əliyeva xoşməramlı səfir adına layiq görülməsini YUNESKO-nun öz prinsiplərinə sadiqliyi kimi qiymətləndirib.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış edib. Dövlət rəhbəri bildirib ki, Azərbaycan nümayəndəsinin xoşməramlı səfir adına layiq görülməsi çox mühüm bir hadisədir. Onun sözlərinə görə, bu, Azərbaycan – YUNESKO əlaqələrinin güclənməsinə imkan yaradacaq. Azərbaycan Prezidenti mədəni irsin qorunması ilə bağlı həyata keçirilən layihələrin müsbət effektini diqqətə çatdırıb. Onun fikrincə, bu istiqamətdə ortaya qoyulan fəaliyyət beynəlxalq aləmdə də öz təsirini göstərəcək. Prezident Mehriban Əliyevanın fəaliyyətinə yüksək qiymətin verilməsinə çox sevindiyini və onun bu vəzifənin öhdəsindən gələcəyinə əmin olduğunu vurğulayıb.

***Şərq,***
***2004, 10 sentyabr***

## *Yusuf Məmmədəliyevin 100 illiyi YUNESKO səviyyəsində qeyd olunub*

*Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva tədbirdə çıxış edib*

---

Parisdə YUNESKO-nun iqamətgahında görkəmli Azərbaycan alimi akademik Yusuf Məmmədəliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib. Tədbirdə iştirak etmək üçün Parisə gəlmiş Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanı YUNESKO-nun iqamətgahında təşkilatın Baş direktorunun xanımı Takaka Matsuura, bas direktorun müavini Valter Erdelen və digər rəsmi şəxslər qarşılayıblar.

Azərbaycanın mədəniyyət naziri Polad Bülbüloğlu foto həvəskarı olan alimin vaxtilə çəkdiyi fotoşəkillərdən ibarət sərgi barədə Mehriban xanım Əliyevaya və qonaqlara məlumat verərək bildirib ki, bu fotolar dünya şöhrətli alimin maraq dairəsinin genişliyini, eyni zamanda Vətəninə, xalqına bağlılığını əks etdirir.

Yubiley mərasimi Y.Məmmədəliyevin həyat və fəaliyyətindən bəhs edən «Zamanın zirvəsi» sənədli filminin nümayişi ilə başlanıb.

YUNESKO-nun Baş direktoru adından onun müavini Valter Erdelen, habelə Fransa Kimya Cəmiyyətinin Prezidenti Arman Latt və Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov mərasimdə çıxış ediblər. Natiqlər akademik Yusuf Məmmədəliyevin 100 illiyinin YUNESKO-nun iqamətgahında keçirilməsinin bu qurum üçün böyük şərəf olduğunu vurğulayıb, alimin kimya elminin, müasir neft kimyası sənayesinin inkişafında əvəzsiz xidmətlər göstərdiyini, onun 200-dən artıq elmi məqalənin və 6 monoqrafiyanın müəllifi

olduğunu, alimin ixtirasının məhsulu olan yeni yanacaq texnologiyasının İkinci Dünya müharibəsində qələbənin qazanılmasında böyük rol oynadığını, Sumqayıtda kimya müəssisələrinin yaradılmasında xüsusi əmək sərf etdiyini, ölkəsini beynəlxalq elmi məclislərdə layiqincə təmsil etdiyini vurğulayıb, Azərbaycanda Şamaxı astrofizika rəsədxanasının, beş yeni elmi tədqiqat institutunun fəaiiyyətə başlamasının məhz Yusuf Məmmədəliyevin adı ilə bağlı olduğunu bildiriblər.

Alimin nəvəsi Yusuf Məmmədəliyev çıxışında bu mərasimin təkcə babasının xatirəsinə deyil, bütün Azərbaycan elminə həsr edildiyini, alimin xatirəsinin əbədiləşdirilməsində ulu öndərimiz Heydər Əliyevin böyük xidmətləri olduğunu xüsusi vurğulayıb. O, babasının adını daşımasından fəxr duyduğunu söyləmiş, belə bir mötəbər tədbirin keçirilməsinə görə YUNESKO-nun Baş direktoru Koişiro Matsuuraya və Azərbaycan Prezidenti İlham Əliyevə Məmmədəliyevlər ailəsi adından təşəkkür edib.

YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva mərasimdə çıxış edib. Mehriban Əliyeva Azərbaycanın ğörkəmli alimi Yusuf Məmmədəliyevin 100 illiyinin təşkilində əməyi olan hər bir insana, xüsusilə YUNESKO-nun rəhbərliyinə minnətdarlığını bildirib.

Mehriban Əliyeva həmçinin qeyd edib ki, son zamanlar Azərbaycanla YUNESKO arasındakı münasibətlər çox parlaq şəkildə özünü büruzə verir. Bu, çox sevindirici haldır. Bu, keçirilmiş tədbirlərdə, bizim rəsmi və qeyri-rəsmi görüşlərimizdə, YUNESKO-nun Baş direktoru cənab Koişiro Matsuuranın ölkəmizə səfərlərində, ən əsası, adi insanlarda bu quruma olan məhəbbətdə və diqqətdə əks olunur. Mən çox şadam ki, bu gün yubiley mərasimləri həm Azərbaycanda, həm də Fransanın paytaxtı Parisdə keçirilir.

Yusuf Məmmədəliyevin 100 illik yubileyinin YUNESKO-nun təqviminə salınması onun elmi fəaliyyətinə verilən yüksək qiymətdir. Bu insan həm şəxsiyyəti, həm də elmin və təhsilin inkişafı sahəsində gördüyü

işləri ilə tarixdə və insanların qəlbində yaşayır. Biz indi deyə bilərik ki, görkəmli Azərbaycan alimi YUNESKO-nun ideyalarına xidmət edib. Y.Məmmədəliyev sanki bir ömürdə bir neçə həyat yaşayıb. İlk növbədə, bu, istedadlı alimin tədqiqatçı həyatıdır. O, Azərbaycanda üzvi kimya məktəbinin əsasını qoyub. Onun adı neft elmi və neftə aid olan elmi sahələrlə sıx bağlıdır. Ölkəmizin ən böyük sərvətlərindən olan neft, sanki, bu insana öz sirlərini açmağa qərar vermiş, onun tükənməz enerji mənbəyinə çevrilmişdir. Biz Yusuf Məmmədəliyevin hər hansı tədqiqatına nəzər salsaq, orada belə bir sözə rast gələrik: ilk dəfə. Ona görə də təsadüfi deyil ki, bütün dünya Y.Məmmədəliyevi sanballı tədqiqatçı və novator kimi tanıyır.

Yusuf Məmmədəliyevin həyatı mürəkkəb bir dövrə təsadüf edib. İkinci Dünya müharibəsi zamanı o, elmi işləri ilə bağlı fəaliyyətini davam etdirirdi. XX əsrin 40-cı illərində keçmiş Sovet İttifaqında hasil edilən neftin 70-80 faizi Azərbaycanın payına duşürdü. Ölkəmiz həm təbii ehtiyatları hesabına, həm də elmi potensıalı ilə faşizm üzərində qələbənin qazanılmasında çox böyük rol oynamışdı.

Yusuf Məmmədəliyev həm də böyük bir maarifçi həyatı yaşayıb. Demək olar ki, görkəmli alim müəllımlik istedadına da malik idi. O, ilk dəfə dərs demək üçün sinfə daxil olanda cəmi 16 yaşı vardı. Azərbaycan Dövlət Universitetinin dosenti, kafedra müdiri, professoru və nəhayət rektoru olarkən belə o, öyrənmək və öyrətməkdən çox böyük zövq alan bır insan idi. Alimin qoyub getdiyi irs təkcə onun kitablarında və elmi ixtiralarında yox, həm də bır cox gənclərin taleyindədir.

YUNESKO-nun yarandığı 1945-ci ildə Y.Məmmədəliyev Azərbaycan Elmlər Akademıyasının banilərindən biri kimi, onu təsis edib. Qısa bir müddətdən sonra Akademiyanın prezidenti seçilib və müasir tələblərə cavab verən elm ocağı yaradıb.

Bu insanın ömrü təzadlarla da dolu idi. Y.Məmmədəliyev çox sülhsevər insan idi. Lakin onun yaratdığı

maddələr inanılmaz gücə malik idi. O, çox təmkinli adam idi. Lakin onun ixtiraları maşınların, təyyarələrin sürətinin artmasına imkan verib. O, olduqca açıqqəlbli bir insan idi. Lakin kifayət qədər bağlı cəmiyyətdə yaşayıb-yaradırdı.

Yusuf Məmmədəliyevin ömrü çox qısa, lakin çox parlaq olub. O, işlədikcə, yaratdıqca, qurduqca yenə də işləməyə, yaratmağa və qurmağa çalışırdı. Sanki harayasa tələsirdi. Kim bilir, bəlkə də qeyri-adi intuisiya ona xəbər verirdi ki, vaxt az, amma görüləsi islər çoxdur.

Tədbirin sonunda Azərbaycan İncəsənət ustaları geniş konsert proqramı ilə çıxıs ediblər.

***R.Məcid,***
***Zaman,***
***2005, 15 sentyabr***

## *Milli irsimizin hamisi*

Hər bir insan tutduğu vəzifədən asılı olmayaraq öz üzərinə düşən işin mahiyyətini dərk edib onun öhdəsindən ləyaqətlə gəlsə, nə sosial sahələrdə, nə də iqtisadi qurumlarda böyük problemlər yaranmaz, həyat öz axarı ilə gedər. Bu, təbiətin qanunudur. Əməksevərlik, vəzifəsinə vicdanla yanaşmaq həm icraçının özünə, həm xalqa başucalığı gətirir. Mənim 35 illik jurnalistlik təcrübəmdə istər yüksək vəzifəli şəxslər olsun, istərsə də sadə peşə sahibləri – onların müsbət, xeyirxah işləri ilə rastlaşanda mütləq münasibət bildirməyə çalışmışam.

Yeni dərs ilinin ilk günlərində isə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın respublikamızın, onun paytaxtı Bakı şəhərinin mədəni və sosial həyatında gördüyü qlobal işlərdən, xeyriyyə tədbirlərindən, ümumiyyətlə, ölkəmizin dünyada tanıtdırılmasında, onun milli irsinin qorunub saxlanılmasında böyük rolundan söhbət açmaq istəyirəm.

Milli mədəniyyətimizin zəngin ənənələrinin qorunub saxlanması, inkişaf etdirilməsi, internat-məktəblərə, ümumtəhsil ocaqlarına, gələcək nəslin maariflənməsi işinə daim kömək göstərməyi qarşısına məqsəd qoyan Azərbaycanın bu ziyalı qadını, xeyirxah insan internat-məktəblərdə, uşaq evlərində tərbiyə alıb böyüyən yüzlərlə körpənin himayəçisinə çevrilmişdir. Mehriban xanımın xeyriyyəçilik missiyası hələ on il bundan əvvəl başlayıb. Həmin dövrdə onun təşəbbüsü ilə yaradılan Azərbaycan Mədəniyyətinin Dostları Fondunun keçirdiyi xeyriyyə konsertlərindən əldə edilən vəsait mədəniyyətimizin inkişafına sərf edilir. Musiqi gimnaziyasının, musiqi məktəbinin təmir edilməsi bu sahədə atılan çox mühüm addımlardandır. Mədəni irsimizin, mədəniyyətimizin ənənələrinin qorunması, başqa ölkələrdə təbliği sahəsində Mehriban xanımın apardığı xoşməramlı iş, həyata keçirdiyi məqsədyönlü tədbirlər qısa müddətdə ölkəmizin hüdudlarını aşdı. O, YUNESKO-nun xoşməramlı səfiri secildi. Bəri başdan deyək ki, BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan bu ixtisaslaşdırılmış hökumətlərarası təşkilatın xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti kimi Mehriban xanımın fəaliyyəti get-gedə genişlənməyə başladı.

Mehriban xanım Əliyeva mədəniyyətimizin inkişaf etdirilməsi ilə yanaşı, təhsil sistemində də quruculuq işlərinin, məktəb tikintisinin vüsət almasına nail olmuşdur. Məhz Mehriban xanım Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi olduqca təqdirəlayiqdir.

Respublikamızda 132 təhsil ocağının tikilməsi, onların müasir avadanlıqla təchiz olunması, uşaq evləri və internat-məktəblərin inkişaf etdirilməsi, sosial, mədəniyyət məsələlərinin həllinə yönəldilmiş məqsədyönlü tədbirlərin məhz həmin proqram çərçivəsində həyata keçirilməsi nəzərdə tutulur.

Mehriban xanım Əliyeva incəqəlbli, kövrək insandır. O, hər dəfə internat-məktəblərə, uşaq evlərinə baş

çəkəndə körpələrə ana nəvazişi ilə yanaşır. Onların bütün qayğıları ilə maraqlanır, əməli tədbirlər görür.

Heydər Əliyev Fondunun təşəbbüsü və maliyyə vəsaiti hesabına əsaslı təmir edilməsinə və yaxud yenidən qurulmasına başlanan internat-məktəblərdə, təhsil ocaqlarında işin gedişini Mehriban xanım Əliyeva şəxsən öz nəzarəti altında saxlayır.

Heç uzağa getməyək. Bu günlərdə Nəsimi rayonundakı 1 saylı körpələr evinin Heydər Əliyev Fondunun vəsaiti hesabına yenidən qurulduqdan sonra açılış mərasimini yada salaq. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva təntənəli açılış mərasimində istirak etmişdir. 75 il bundan əvvəl istifadəyə verilmiş bu bina bir dəfə də təmir olunmamışdı. Buna görə də əsaslı təmirə ciddi ehtiyac duyulurdu. Mehriban xanım təqribən 7 ay əvvəl bu körpələr evinin Fondun vəsaiti hesabına təmir olunmasını tövsiyə etmişdı. Bəli, çox qısa müddətdə bina tamam yenidən quruldu, müasir avadanlıqla təchiz olundu.

3 yaşa qədər 67 nəfərin böyüdüyü körpələr evinin bütün otaqları, xidmətləri, ərzaqla təminatın vəziyyəti ilə və s. tanış olan YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva burada yaradılmış şəraitdən məmnun olduğunu bildirərək körpələrlə səmimi görüşdü. Mehriban xanım körpələr evinə ötən dəfəki gəlişində Orxan adlı bir körpənin pəncəsinin sındığını unutmamışdı. Həmin uşağın sağaldığını görən YUNESKO-nun xoşməramlı səfiri buna çox sevindi. Orxanı qucağına götürüb bağrına basdı. Bunu kövrək qəlbli, təmiz ürəkli, yüksək mədəniyyətli insan, ana edə bilər. Və yaxud, həmin görüş zamanı 2 yaşlı Günelin ad gününün yüksək səviyyədə keçirilməsi insani keyfiyyətlərə dəlalət etmirmi?

Dediyimiz kimi, Mehribən xanım Əliyevanın qısa zaman kəsiyində gördüyü həyati əhəmiyyətli çox mühüm işlərin hamısını yadda saxlamaq mümkün deyil. Onların həm həcmi, həm coğrafiyası genişdir. Mehri-

ban xanımın baş çəkdiyi və onun təşəbbüsü ilə əsaslı təmir edilmiş bəzi uşaq evlərinin və internat-məktəblərin adlarını çəkmək istəyirəm. Şüvəlan qəsəbəsindəki zəifeşidən və sonradan karlaşmış uşaqlar uçün respublika xüsusi internat-məktəbi, beyin iflici qalığı olan uşaqlar üçün «Şimal» DRES yaşayış sahəsindəki A.S.Makarenko adına 16 saylı humanitar təmayüllü, Türkan qəsəbəsindəki nitqi qüsurlu uşaqlar üçün respublika xüsusi internat-məktəbi, Nəsimi rayonundakı əqli cəhətdən qüsurlu uşaqlar üçün 11 saylı yardımçı məktəb, Nizami rayonundakı kar uşaqlar üçün 1 saylı respublika internat-məktəbi və bir çox başqaları. Bunlar Mehriban xanımın dalbadal baş çəkdiyi və onun təşəbbüsü ilə əsaslı təmir olunan, yenidən qurulan Bakıdakı tərbiyə müəssisələrinin heç də tam siyahısı deyil.

Görülən işlər göz qabağındadır. Yeni məktəblərin tikintisi də, 70-80 il bundan əvvəl istifadəyə verilmiş təhsil müəssisələrinin əsaslı təmir edilməsi, yenidən qurulması da. «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı çərçivəsində həyata keçirilən quruculuq işlərinin sərhədi yoxdur. Mehriban xanımın təşəbbüsü, onun prezidenti olduğu Heydər Əliyev Fondunun vəsaiti hesabına həyata keçirilən çox mühüm tədbirlər – məktəb tikintisi işləri respublikamızın bütün bölgələrində vüsət almışdır. Mayası halal, məramı xeyirxahlıq olan bu xanımın qədəmləri deyən yerdən xeyir-bərəkət əskik olmur. Ora abadlaşır, insanların rifahı, rahatlığı üçün nümunəvi şərait yaradılır.

YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Azərbaycanın bütün rayonlarına, onların mədəni irsinin qorunmasına, təhsilin inkişafına, insanların maariflənməsinə eyni münasibət bəsləyir. Ölkəmizin Prezidentinin respublikamızın rayonlarına səfərləri çərçivəsində Mehriban xanımın bölgələrdə olmasından məqsəd yerlərdə sosial şəraiti öyrənmək, vəziyyəti öz gözləri ilə görmək, lazımi tədbirlər görməkdir. Onlarca rayonda müasir tipli mək-

təblərin istifadəyə verilməsi, neçə-neçə təhsil müəssisəsi binasının tikintisinə başlanması məhz belə müşahidələrin nəticəsində olmuşdur.

Heydər Əliyev Fondunun bəhrəsini, onun prezidenti Mehriban Əliyevanın qayğısını bütün rayonlarda görür, hiss edirlər. Mehriban xanım Gəncə şəhərində, Quba, Xaçmaz, Şamaxı, İsmayıllı, Oğuz rayonlarında, Ağdaş zonasında və s. olarkən «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı çərçivəsində həmin bölgələrdə görülməsi nəzərdə tutulan işlərin böyük əksəriyyəti reallaşmışdır. Bu istiqamətdə işlər bütün rayonlarda aparılır və gündən-günə də genişlənir. Bütün bunlar özözlüyündə əmələ gəlmir. Sosial quruculuq işlərini planlaşdıran, onun həyata keçirilməsinə nəzarət edən lazımdır. Heydər Əliyev Fondunun prezidenti məhz bu prinsiplə işləyir. İşin gedişinə inansa da, onu yoxlamağı unutmur. Bu da ondan irəli gəlir ki, Mehriban xanım istəyir ki, gələcək nəsil abad, müasir məktəblərdə, lazımi şərait yaradılmış, avadanlıqla təchiz olunmuş geniş laboratoriyalarda, rahat sinif otaqlarında təhsil alsın, maariflənsin.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın ölkəmizin ayrı-ayrı rayonlarında məktəb binalarının, mədəniyyət obyektlərinin inşası ilə tanışlığı, verdiyi tövsiyələr, göstərdiyi qayğı, dediyimiz kimi, dövlətimizin başçısının həmin bölgələrə səfərləri çərçivəsində olur. Gəlin, Mehriban xanımın ölkəmizin cənub bölgəsindəki səmimi görüşlərini yada salaq. Onun Lənkəran, Masallı şəhərlərində, respublikamızın ən ucqar rayonlarından olan Lerikdə, Yardımlıda əhali ilə görüşləri, sakinlərlə isti münasibəti adamda xoş hisslər oyadırdı. Prezidentin xanımının rayonların mədəniyyət ocaqlarında, məktəblərdə insanlarla görüşləri, həmin obyektlərin vəziyyəti ilə ətraflı tanış olması bölgəyə diqqətin artırılmasına, gənclərə qayğının səviyyəsinin yüksəldilməsinə dəlalət edir.

Mehriban xanım bölgələrdə olarkən yalnız rayon mərkəzlərində yerləşən məktəblərin vəziyyəti ilə maraq-

lanmaqla fəaliyyətini məhdudlaşdırmır. O, rayonların ucqar kəndlərinə baş çəkir, məktəb binasına ehtiyac olan kəndlərdə yeni təhsil ocağının yaradılması təşəbbüsünü irəli sürür və buna lazımi köməklik göstərir. Məsələn, Oğuz rayonunun Xalxal kəndində fəaliyyət göstərən məktəb 115 il bundan əvvəl tikilmiş binada yerləşirdi. Kəndə təzə məktəb lazım idi. Bu problem də Heydər Əliyev Fondunun vəsaiti hesabına həli edildi. Xalxalda müasir tipli məktəb binası inşa olundu. Mehriban xanım həmin obyektin tikintisi ilə maraqlanarkən inşaatçılarla, kənd sakinləri ilə səmimi söhbət etmiş, onların qayğılarını öyrənmişdir.

Azərbaycan Prezidentinin bölgələrimizə səfərləri çərçivəsində ayrı-ayrı rayonların təhsil müəssisələrində, muzeylərində olan, yeni məktəb binalarının tikintisi ilə maraqlanan Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva hər yerdə səmimiyyətlə, gül-çiçək dəstələri ilə qarşılanmış, pedaqoji kollektivlər, inşaatçılar, məktəblilər, valideynlər onun səmərəli fəaliyyətindən razı qaldıqlarını bildirmişlər.

YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fəaliyyətini ölkəmizdə mədəni irsimizin qorunub saxlanması, elmimizin, təhsilimizin inkişaf etdirilməsi üçün mühüm tədbirlər həyata keşirilməsi, insanların maarifləndirilməsi sahəsində işlərin genişləndirilməsi ilə bitmiş hesab etmir. BMT və onun ixtisaslaşdırılmış qurumları ilə respublikamız arasında xoşməramlı əlaqələrin genişlənməsi üçün məqsədyönlü işlər həyata keçirir.

Təsadüfi deyildir ki, YUNESKO-nun Baş direktoru Koişiro Matsuura bu ilin avqust ayında Bakıda olarkən Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının təhsil, elm, mədəniyyət məsələləri üzrə təşkilatında uğurla təmsil olunmasında xoşməramlı səfir Mehriban xanım Əliyevanın işini xüsusi olaraq qeyd etmişdir. Cənab Koişiro Matsuuranın bəzi fikirlərinin diqqətə çatdırılmasını zəruri sayırıq. O demişdir: «...Ötən səfərimdən bəri

Azərbaycanda böyük dəyişikliklərin baş verdiyinin şahidi olmuşam. Ölkəniz böyük sürətlə inkişaf edir, çox məmnunuq ki, sosial sahəyə və təhsilə daha çox diqqət yetirilir. Bu istiqamətdə sizinlə əməkdaşlıq etməkdən çox məmnunuq. Çox şadam ki, siz ölkənizin mədəni irsini qoruyursunuz. Elə ölkələr var ki, mədəni irsin qorunmasını unudur, bunu ümumi iqtisadi inkişafa qurban verir. Lakin Azərbaycan mədəni irsin qorunmasına xüsusi fikir verir. Mehriban xanım Əliyevanın bu sahədə göstərdiyi səyləri yüksək qiymətləndirir və onu təbrik edirəm». Cənab Koişiro Matsuuranın ölkəmizin birinci xanımının mədəni irsimizin qorunması sahəsində, təhsilimizin, elmimizin inkişafında hamımızın gözləri önündə həyata keçirdiyi konkret işlərə verdiyi bu qiymət hər birimizdə qürur hissi doğurur.

YUNESKO-nun Baş direktoru Koişiro Matsuura Bakıda olduğu günlərdə bir çox görüşlər, tarixi əhəmiyyət kəsb edən «YUNESKO-Azərbaycan: Gələcəyə körpü» mövzusunda konfrans keçirilmişdir.

Mötəbər məclisdə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva çıxış etmişdir. Təhsillə bağlı aparılan islahatlar, «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı çərçivəsində həyata keçirilən tədbirlər barədə ətraflı danışan Mehriban xanım ən ağır problemimiz olan Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunmuşdur. İşğala məruz qalan ərazilərdə əvvəllər mövcud olan təhsil infrastrukturlarının qorunub saxlanılmasının qeyri-mümkünlüyünü söyləmiş, hazırda həmin məktəblərin qaçqın-köçkünlər yaşayan düşərgələrdə yerləşdiyini bildirmişdir. Mehriban xanım Əliyeva əmin olduğunu bildirmişdir ki, YUNESKO ilə birlikdə hazırlanan yeni proqramlar məcburi köçkün və qaçqın uşaqlarının təhsilinə öz müsbət təsirini göstərəcəkdir. YUNESKO-nun Baş direktorunun ölkəmizdə olduğu zaman Bakıda Beynəlxalq Muğam Mərkəzi binasının təməlinin qoyulması da tarixi hadisə kimi qiymətləndirilməlidir.

Göründüyü kimi, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın fəaliyyətinin istiqamətləri çoxşaxəlidir və o, xoşməramlı missiyasını şərəflə yerinə yetirməyə səy göstərir.

*Ənvər MƏŞƏDİYEV*
*"Bakı",*
*16-23 sentyabr 2005-ci il*

## *Azərbaycanın xarici işlər naziri YUNESKO-nun Baş Konfransının 33-cü sessiyasında çıxış etmişdir*

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat mərkəzindən AzərTAc-a bildirmişlər ki, oktyabrın 6-da nazir Elmar Məmmədyarov YUNESKO Baş Konfransının 33-cü sessiyasında iştirak etmək üçün Parisə rəsmi səfərə gəlmişdir.

Elə həmin gün nazir sessiyada çıxış edərək təşkilatın 60-cı ildönümünün qeyd olunduğu bir vaxtda belə bir sessiyanın keçirilməsinin əhəmiyyətini vurğulamış, qurumun Baş direktoru Koişiro Matsuuranın bu yaxınlarda Azərbaycana səfərini xatırlatmış, onun Azərbaycan Prezidenti İlham Əliyevlə imzaladıqları birgə rəsmi sənədin əhəmiyyətini diqqətə çatdırmış və ölkəmizdə təhsil sisteminin təkmilləşdirilməsinin zəruriliyi ilə bağlı fikirlərini söyləmişdir.

Çıxışında sessiya iştirakçılarının diqqətini əsasən uşaqların və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin qurbanı olmuş qaçqın və məcburi köçkünlərin təhsil ehtiyaclarına yönəldən nazir Məmmədyarov respublikamızın işğal olunmuş ərazilərində dağıdılmış mədəniyyət obyektləri barədə ətraflı məlumat vermiş və ölkəmizə dəymiş maddi və mənəvi zərərin aradan qaldırılmasının zəruriliyini vurğulamışdır.

Nazir Azərbaycan ilə YUNESKO arasında respublikamızda təhsil sisteminin təkmilləşdirilməsi məqsədi ilə inkişaf layihələrinin həyata keçirilməsinə yönəlmiş birgə proqramın hazırlanması haqda, bu beynəlxalq qurumun Baş direktoru ilə imzalanmış əməkdaşlıq haqda Anlaşma Memorandumunu sessiya iştirakçılarının diqqətinə çatdırmışdır. Nazir çıxışında Azərbaycan Prezidentinin təhsilə göstərdiyi qayğıdan, Azərbaycanın muğam sənətinə YUNESKO-da verilən yüksək qiymətdən danışmış, xoşməramlı səfir Mehriban xanım Əliyevanın ölkəmizdə mədəni irsin qorunması və təbliğı sahəsindəki xidmətlərindən bəhs etmişdir. Sessiyadakı çıxışını Azərbaycanın məşhur kimyaçı alimi Yusuf Məmmədəliyevin 100 illik yubileyinin bu il sentyabrın 13-də YUNESKO səviyyəsində keçirilməsinə göstərdiyi dəstəyə görə minnətdarlığını bildirməklə başa çatdıran nazir E.Məmmədyarov həmin gün YUNESKO-nun Baş direktoru K.Matsuura ilə görüşmüşdür.

Görüşdə K.Matsuura bu ilin avqustunda Bakıya səfərinin onda böyük təəssürat oyatdığını bildirmiş, səmimi salamlarını Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya çatdırmağı xahiş etmişdir.

Nazir qeyri-maddi və mədəni irsin qorunması sahəsində Azərbaycan ilə YUNESKO arasında mövcud əməkdaşlığı yüksək qiymətləndirərək, bu işin daha da genişlənməsinin vacibliyini vurğulamışdır. Eyni zamanda, Azərbaycan muğamının YUNESKO-nun Bəşəriyyətin şifahi və qeyri-maddi şah əsərləri siyahısına salınmasından məmnun olduğunu bildirən nazir, həmçinin İçərişəhər memarlıq kompleksinin qorunması, Qobustan qoruğunun və Hirkan meşələrinin Dünya İrsi siyahısına tezliklə daxil edilməsi və digər məsələlərdə YUNESKO ilə əməkdaşlığın davam etdirilməsində Azərbaycanın maraqlı olduğunu xüsusi vurğulamışdır.

Tərəflər YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu sahədə gördüyü işləri yüksək qiymətləndirmişlər.

Azərbaycanla təhsil sistemində islahatların aparılması sahəsində əməkdaşlığa xüsusi önəm verildiyini diqqətə çatdıran K.Matsuura respublikamıza bu sahədə yardımın davam etdiriləcəyini bildirmişdir.

*Azərbaycan,*
*2005, 8 oktyabr*

## Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya "Yaqut xaç" ordeninin təqdim edilməsi mərasimi

Oktyabrın 13-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya "Yüzilliyin mesenatı" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut xaç" ordeninin təqdim edilməsi mərasimi olmuşdur.

Mərasimi Bakı Slavyan Universitetinin rektoru, professor Kamal Abdullayev açaraq dedi ki, bu gün respublikanın həyatında əlamətdar hadisədir – YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut xaç" ordeni təqdim olunur. Biz onu ürəkdən təbrik edirik.

Mehriban xanımın xeyriyyəçilik fəaliyyətindən bəhs edən natiq bildirdi ki, bu fəaliyyətin xüsusi bir cəhəti var və onu bir kəlmə ilə nəciblik adlandırmaq olar. Onun gördüyü bütün işlər, ölkəmizin müxtəlif guşələrində ayrı-ayrı adamlarla keçirdiyi görüşlər məhz bu sözlə ifadə edilir. Bütün bu işləri Mehriban xanım təbiətən ona xas olan çox böyük nəcibliklə görür. Düşünürəm ki, bu da təsadüfi deyildir, çünki onun dahi azərbaycanlı, unudulmaz Prezidentimiz Heydər Əlirza oğlu Əliyevin yanında necə böyük, məzmunlu, kamil, gözəlliyinə görə möcüzəli bir məktəb keçdiyini hamımız bilirik. Bu həyat məktəbi Mehriban xanıma indi də kömək edir.

Bu gün bütün dünyada xeyriyyəçiliklə çoxları məşğul olur. Lakin ziyalılarımızın, cəmiyyətimizin müxtəlif təbəqələrinin nümayəndələri Mehriban xanım Əliyevanın nəinki bu gün gördüyü işlərə, həm də bu işləri necə gördüyünə heyrandırlar. Bu mənəvi ülviliyin ikitərəfli əlaqəsi var. Zənnimcə, Mehriban xanımın özü də mənən ucalır və çalışır ki, diqqət və qayğının yönəldildiyi və bu fəaliyyətin, missiyanın ünvanlandığı insanlar da mənən zənginləşsin, ucalsınlar. Mehriban xanım Əliyevanın bu gün Azərbaycanda fəaliyyətini fərqləndirən böyük mənəvi qovuşma baş verir. Bu, təkcə Azərbaycanda deyil, onun olduğu hər bir yerdə də müşahidə olunur.

Mən XX əsrin görkəmli Amerika yazıçısı O'Henrinin gözəl sözlərini xatırlayıram. O demişdir: "Biz o insanlara minnətdar olmalıyıq ki, onlara kömək göstərməyimizə imkan verirlər". Məhz belə münasibət – təkcə nə isə verən tərəfin deyil, həm də onu qəbul edən tərəfin bu prosesin subyekti olduğu münasibət, belə qarşılıqlı mənəvi zənginləşmə Mehriban xanımın həmin istiqamətdə fəaliyyətini səciyyələndirir.

Daha sonra natiq Azərbaycan ziyalıları adından, yaradıcı ziyalıların nümayəndələri adından Mehriban xanım Əliyevaya şəxsi xoşbəxtlik, millətin rifahı naminə çoxşaxəli fəaliyyətində, xeyriyyəçilik işində böyük uğurlar arzuladı.

Sonra Milli Məclisin deputatı, Azərbaycanın Rus icmasının sədri MİXAİL ZABELİN çıxış edərək, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın səmərəli xeyriyyəçilik fəaliyyətindən danışdı, bunun Azərbaycan xalqı tərəfindən dəstəkləndiyini bildirdi. O, Fondun Prezidentinin xeyriyyəçiliyini Rus icmasının da öz üzərində hiss etdiyinə dair misal çəkdi: icmanın nəzdində fəaliyyət göstərən uşaq düşərgəsinə Mehriban xanımın adından televizor, müxtəlif hədiyyələr verilmişdir. Bunları mərasimi əsil bayrama çevirən onun qızı Leyla təqdim etmişdir. Özü də bu, tamamilə gözlənilməz olmuşdur, çünki Fonda heç bir müraciət

edilməmişdi. Bütün bunlar həssas və kövrək uşaq qəlbində öz əksini tapmışdır.

Mixail Zabelin uşaq evlərinin tikintisi və abadlaşdırılması, mədəniyyət sahəsində böyük humanist missiyaya görə Fondun prezidentinə təşəkkür etdi. Bildirdi ki, Azərbaycanın Rus icması, digər ictimai təşkilatlar Heydər Əliyev Fondu prezidentinin məhz xeyriyyəçilik xidmətlərini yüksək qiymətləndirərək, Rusiyanın Bakıdakı səfirliyinin dəstəyi ilə Mehriban xanım Əliyevanı "Yaqut xaç" ordeninə təqdim etmişlər.

"Yüzilliyin mesenatı" Beynəlxalq Xeyriyyə Fondu idarə heyətinin üzvü, Rusiyanın əməkdar artisti ANGELİNA VOVK çıxışında vurğuladı ki, humanizm və başqasının dərdinə şərik olmaq bütün dövrlərdə insan cəmiyyətində üstünlük verilən əbədi dəyərlərdir. Zəmanəmizin böyük şəxsiyyəti Heydər Əliyev öz ölkəsinə, insanlara, xeyirxahlıq və haqq-ədalət amallarına xidmət etməklə belə təmənnasız, fədakar həyat nümunəsi göstərmişdir. A.Vovk Heydər Əliyevin qızı Sevil Əliyevanın yenicə oxuduğu müsahibəsi barədə təəssüratını bölüşərək dedi ki, Sevil xanım bu gözəl insanın həyatının bir çox səhifələrini açmışdır.

Angelina Vovk Rusiya Prezidentinin İşlər İdarəsinin, Federasiya Şurasının, Dövlət Dumasının, Moskva hökumətinin və bir sıra başqa rəsmi orqanların dəstəyi ilə yaradılan "Yüzilliyin mesenatı" Beynəlxalq Xeyriyyə Fondunun məqsəd və vəzifələrindən danışaraq bildirdi ki, digər görkəmli müasirlərin adları ilə birlikdə, Mehriban xanım Əliyevanın adı da bütün zəmanələrin ən böyük xeyriyyəçiləri və mesenatlarının siyahısına qızıl hərflərlə yazılacaqdır. Xüsusi memorialın təməlinin qoyulması mərasimi oktyabrın 15-də Moskvada olacaqdır.

Angelina Vovk dedi ki, Mehriban xanım Əliyeva özünün təşkilatçılıq məharəti sayəsində bir sıra humanitar proqramlar – Azərbaycanı beynəlxalq aləmdə sülhə, yaradıcı inkişafa və digər ölkələrlə əməkdaşlığa çalışan dövlət kimi tanıdan proqramlar həyata keçirir.

Onun misilsiz fəaliyyəti Azərbaycan xalqının çox zəngin mədəni ənənələrinin qorunub saxlanılmasına, əhalinin sosial cəhətdən ən zəif təbəqələrinin – qaçqınların, məcburi köçkünlərin, aztəminatlı ailələrdən olan uşaqların, yetimlərin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəlmişdir. Onun başçılıq etdiyi və Azərbaycan xalqının əfsanəvi ümummilli lideri Heydər Əliyevin adını daşıyan Fond bir çox sosial əhəmiyyətli layihələr həyata keçirir. Onların arasında "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat uğrunda" proqramı xüsusi qeyd edilmişdir.

Bildirildi ki, Mehriban xanım Əliyeva "Yaqut xaç" ordeni ilə təltif olunanlar arasında yeganə qadındır.

Rus Soydaşlar Beynəlxalq Şurasının idarə heyətinin sədri, "Yüzilliyin mesenatı" Beynəlxalq Fondunun idarə heyətinin üzvü qraf PYOTR ŞEREMETYEV "Yaqut xaç" ordenini Heydər Əliyev Fondunun prezidentinə təqdim edərək bildirdi ki, Mehriban xanım Əliyevanın fəaliyyəti yüksək insani özünüdərkə, alicənablığa, niyyətlərin paklığına nümunədir. O, əmin olduğunu söylədi ki, Mehriban xanım Əliyevanın səyləri Azərbaycan və Rusiya arasında dostluq əlaqələrinin möhkəmlənməsinə kömək edəcəkdir.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva mərasimdə çıxış etdi.

*AzərTAc*
*2005, 13 oktyabr*

## *O, çox iş görüb, bundan sonra daha çox iş görəcək!*

Bu fikir Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Bakının Əzizbəyov rayonunun Mərdəkan, Şüvəlan, Zirə, Türkan, Binə qəsəbələrində sakinlərlə görüşlərində səslənib.

Mehriban Əliyeva: «Mən öhdəmə götürdüyüm hər bir işə çox böyük məsuliyyətlə yanaşıram. Hər zaman öz fəaliyyətimdə çalışmışam bir neçə amala əsaslanım. Bunlar vətənpərvərlik, insansevərlik və mərhəmətlilikdir».

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva oktyabrın 12-də Bakının Əzizbəyov rayonunun Mərdəkan qəsəbəsindəki 2 nömrəli internat-məktəbdə Heydər Əliyev Fondunun vəsaiti hesabına aparılmış əsaslı təmir və yenidənqurma işləri ilə tanış olub.

Elə həmin gün Mehriban Əliyeva Mərdəkandakı Pir Həsən ziyarətgahını da ziyarət etdi, buraya gələnlərlə hal-əhval tutdu, Fondun vəsaiti hesabına aparılan əsaslı təmir-bərpa işləri ilə tanış oldu. Bu ziyarətgahda axund Hacı Turab ağa, Hacı Zeynalabdin Tağıyev, qizi Sona xanım dəfn ediliblər. Burada yenidən inşa edilən məqbərə və ibadətgah kompleksi qədim milli, dini ornamentlərlə bəzədilir, artiq son tamamlama işləri görülür. Ziyarətgaha gələnlər Prezident İlham Əliyevin və xanımının xalqımızın milli mənəvi dəyərlərinə göstərdikləri qayğı, hörmət və ehtiramı yüksək qiymətləndirdilər, razılıqlarını bildirdilər, ən xoş arzularını çatdırdılar.

...Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva oktyabrin 14-də rayonun Zirə, Türkan, Binə qəsəbələrindəki körpələr evi, uşaq bağçalari, məktəb, xəstəxana, mədəniyyət evi, kitabxana və məscidlərdə oldu. Sakinlər, ağsaqqal və ziyalılar Mehriban xanımı hər yerdə xoş əhval-ruhiyyə ilə, səmimiyyətlə qarşılayaraq, onun respublikamızda gördüyü işləri, rəhbərlik etdiyi fondun çoxşaxəli fəaliyyətini, xeyriyyəçilik əməllərini yüksək qiymətləndirdilər. Onlar rayonun, yaşadıqları qəsəbələrin, eləcə də şəxsi qayğı və bir sıra problemləri ilə bağlı Mehriban xanıma öz xahişlərini, təkliflərini çatdırdılar. Zirədəki mədəniyyət evinin işçisi Sona Əliyeva Mehriban xanımın mədəniyyətimizin inkişafı üçün gördüyü genişmiqyaslı işlərin əhəmiyyətini vurğuladı, Azərbay-

can Mədəniyyətinin Dostları Fondunun fəaliyyətini yüksək qiymətləndirdi, YUNESKO-nun xoşməramlı səfiri fəxri adına da Mehriban xanımın məhz bu sahənin inkişafına verdiyi töhfələrə görə layiq görüldüyünü yaxşı xatırladıqlarını söylədi.

Mədəniyyət evinin əvvəlcə köhnə ATS-ə məxsus olduğunu, darısqallığa, şəraitin çətinliyinə baxmayaraq, burada uşaqlar üçün dərnəklərin açıldığını, vaxtaşırı tədbirlər keçirildiyini dedi. Mehriban xanım bu binanın mədəniyyət evi üçün tamamilə yararsız olduğunu, tezliklə qəsəbədə yeni binanın inşasına başlanacağını, artıq layihələrin hazırlandığını bildirdi. 1993-cü ildə Füzuli rayonunda gedən döyüşlərdə bir ayağını itirən əlil Füzuli Mehrəliyev 12 min nəfər sakini olan Zirə camaatının dolanışığı barədə məlumat verərək, qəsəbə sakinləri arasında təbii qazın paylanmasında ayrı-seçkiliyə yol verildiyini, xüsusilə qışda kəskin tələbat yarandığını, ona verilmiş torpaq sahəsinin qanunsuz əlindən alınıb başqasına verildiyini söylədi. Camaatın Mehriban xanıma inandığını, mövcud problemlərin həllinə yardımçı olacağına ümid etdiklərini, ona görə də noyabrın 6-da keçiriləcək seçkilərdə qəsəbə sakinlərinin ona səs verəcəklərini bildirdi. Mehriban xanım Azərbaycan Prezidentinin regionlarda keçirdiyi görüşlərdə ayri-ayri məmurların qanunsuz hərəkətləri barədə daxil olan müraciətlərin diqqətlə öyrənilib beləlləri haqqında ciddi cəza tədbiri görüləcəyi barədə dediyi sözləri xatırladıb, yerli icra orqanlarına xalqın haqlı tələb və şikayətlərinə obyektiv, ədalətlə baxmağı, bu məsələyə xüsusi diqqət yetirməyi tövsiyə etdi. Eyni zamanda qəsəbələrin abadlaşması üçün xeyli işlərin görülməsinə zəruri ehtiyac olduğunu diqqətə çatdırdı. Heydər Əliyev Fondunun həyata keçirdiyi «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı çərçivəsində cari dərs ilində 90 məktəbin tikilib istifadəyə verilməsini, ilin sonunadək daha 30 məktəbin də inşasının tamamlanacağını Azərbaycan tarixində nadir hadisə adlandıran müəllimə Tükəzban Həsənova Azərbaycan Mədəniyyətinin

Dostları Fondunun, Bədii Gimnastika Federasiyasının rəhbəri kimi milli-mədəni dəyərlərimizin qorunub saxlanması və dünyada təbliği, olimpiya idman hərəkatının genişlənməsində də böyük xidmətləri olan Mehriban xanımın xüsusən kimsəsiz, valideyn himayəsindən məhrum, əqli və fiziki cəhətdən qüsurlu uşaqların müalicəsi, onların təhsilə cəlb olunması, yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirdiyi tədbirlərin, respublikamızın regionlarına səfərləri zamanı uşaq evləri və internat-məktəblərin problemləri ilə tanış olub bunların həllinə kömək göstərməsinin ona cəmiyyətin bütün təbəqələri arasında hörmət və ehtiram qazandırdığını dedi. Qeyd etdi ki, respublikamızda fəaliyyət göstərən 100-ə yaxın qadın təşkilatı Mehriban xanımı özlərinin vahid lideri seçmiş, milli birlik, yekdillik nümunəsi göstərmişlər. Parisdə Mehriban xanıma YUNESKO-nun xoşməramlı səfiri diplomunun, «İlin qadını» fəxri mükafatının – Azərbaycan qadınının gözəllik, zəriflik və sədaqət rəmzi olan Mömünə xatının adını daşiyan türbənin maketinin təqdim olunmasının ardinca Azərbaycanin birinci xanımına «Yüzilliyin mesenatları» Beynəlxalq Xeyriyyə Fondunun təsis etdiyi «Yaqut xaç» ordeninin ilk dəfə olaraq qadın xeyriyyəçiyə verilməsini tarixi hadisə adlandırdı, Mehriban xanımı Əzizbəyov rayonunun seçici qadınları adından təbrik etdi və onun «İlin qadını» adını alarkən dediyi: «Mən öhdəmə götürdüyüm hər bir işə çox böyük məsuliyyətlə yanaşıram. Hər zaman öz fəaliyyətimdə çalışmışam bir neçə amala əsaslanım. Bunlar vətənpərvərlik, insansevərlik və mərhəmətlilikdir» – sözlərini xatırlatdı. Mehriban xanımın Milli Məclisin deputatı seçilmək üçün təbliğat kampaniyası aparmağa heç bir ehtiyacı olmadığını bildirərək, onu bəri başdan rayonun qadın seçiciləri adından təbrik etdi.

Türkan qəsəbəsində yüzlərlə sakinin toplandığı meydançada respublikanın xalq artisti, məşhur muğam ustası Ağaxan Abdullayev Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımın milli musiqi sənəti-

mizin qorunub saxlanmasına, tərəqqisinə verdiyi misilsiz töhfələri konkret faktlarla dilə gətirdi, Bakı kəndlərinin hərtərəfli inkişafı üçün gördüyü işləri faktlarla açıqladı, həmkəndlilərinin qarşıdan gələn seçkilərdə ona səs vermək istəyinin təbii, etibarlı əsaslara söykəndiyini vurğuladı, Mehriban xanımın millət vəkili kimi bu bölgənin problemlərinin həllinə ən yaxşı yardımçı olacağına inandığını bildirdi, qəsəbə sakinlərinin Mehriban xanımı namizədlər arasında Milli Məclisin deputatı adına ən layiqli namizəd hesab etdiyini söylədi. Mehriban xanım bu görüşlərə gəlməzdən əvvəl Əzizbəyov rayonunun iqtisadi potensialını, başlıca problemlərini, əhalini narahat edən məsələləri diqqətlə öyrəndiyini, əldə edilən məlumatların ümumiləşdirildiyini, qəsəbələrin hər biri üçün yaxın iki ili əhatə edən kompleks tədbirlər planı tərtib ediləcəyini bildirdi. Qəsəbələrin hamısında məktəb, xəstəxana, idman kompleksi, klub və kitabxana tikiləcəyini, təmirə ehtiyacı olan obyektlərdə əsaslı yenidənqurma işləri aparılacağını, yol, nəqliyyat, su, təbii qazla təminat sahəsindəki xeyli problemlərin yaxın vaxtlarda həll ediləcəyini vurğuladı. Yeni iş yerlərinin yaradılmasını, əhalinin məşğulluğunun təmin edilməsi üçün bir sira müəssisələrin açılacağını, yeni tikiləcək obyektlərin hamısının yeri, layihəsi ilə əlaqədar sakinlərlə məsləhətləşmələr aparılacağını, bu tukintilərdə yüzlərlə yerli vətəndaşımızın işləyəcəyini bildirdi. Qeyd etdi ki, on dörd min nəfər əhalinin yaşadığı Türkan qəsəbəsində 1930-cu ildə tikilmiş 214 nömrəli bağça yenidən bərpa edilib yararlı vəziyyətə gətiriləcək, burada çörək zavodu, aptek, daha bir təcili tibbi yardım məntəqəsi açılacaq, iki min sakini olan Yeni Türkandakı 9-illik məktəbin bazasında 500 yerlik təzə məktəb inşa ediləcək, şagirdlərin orta təhsilini tamamlamaq üçün xeyli məsafə qət edərək ətraf kənd və qəsəbələrə getməsinə son qoyulacaq, xeyli müəllim və xidməti işçinin məşğulluğuna şərait yaranacaq, Hövsan südçülük sovxozundakı 70 nömrəli körpələr evi, 218 nömrəli məktəb də əsaslı təmir ediləcək,

bu təhsil və tərbiyə ocaqlarının hamısı yeni avadanlıqla təchiz olunacaqdır. Qəsəbə arsaqqalı Hacı Rasim Mehriban xanımın indiyə qədərki fəaliyyətinin bütün xalqın gözləri qarşısında olduğunu, yüksək dəyərləndirildiyini, minnətdarlıq, razılıq hissləri ilə qarşılandığını dedi, ona Quran bağışladı. Müqəddəs kitabı 3 dəfə öpüb alnına sıxan Mehriban xanım uşaqlıqdan Uca Yaradana, Qurana, Islam dinimizə ürəkdən, içdən gələn hörmət və ehtiram hissləri ilə böyüdüyünü, ağsaqqalların, dindarların etimadını doğrultmaq üçün mümkün olan hər şeyi edəcəyini bildirdi. Mehriban xanım hər dəfə onu hərarətli alqışlarla, gülər üzlə, əziz qonaq kimi qarşılayan sakinləri, ona müraciət etmək istəyən, dərdini bölüşməyə gələn vətəndaşların hər birini səbirlə dinlədi, yazılı məktublarını aldı, bir çoxunu şəxsən qəbul etmək barədə fondun əməkdaşlarına tapşırıqlar verdi. Mehriban xanım ünvanına deyilən xoş sözlərə, ona göstərdikləri inam və etimada görə hamıya öz razılığını yetirdi, bundan sonra da hər qəsəbədə yenidən görüşəcəklərini bildirdi.

***Ağanisə SULTANOVA***
***Yeni Azərbaycan,***
***2005, 18 oktyabr***

## *Siz indiyə qədər gördüyünüz işlərlə artıq millət vəkili adını qazanmısınız*

Bu sözlər Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Bakının Əzizbəyov rayonunun təhsil, səhiyyə işçiləri və sahibkarlarla görüşlərində dönə-dönə səslənmişdir.

MEHRİBAN ƏLİYEVA: “İndi biz elə bir dünyada yaşayırıq ki, ətrafda diqqət yetirilməsi və düzgün dərk olunması tələb edilən problem və məsələlər lap çoxdur. Biz bugünkü gündən danışdıqda “qloballaşma”, “inteqra-

siya", "elmi-texniki tərəqqi", "yüksək texnologiyalar" kimi sözləri daha tez-tez eşidirik və siz mənimlə razılaşarsınız ki, bu sözlər həqiqi insanpərvərlik, mərhəmət, xeyirxahlıq, mənəviyyat kimi anlayışlardan daha tez-tez səslənir. Biz bu ümumbəşəri və əbədi dəyərləri ikinci sıraya keçirmirikmi? Xeyriyyəçilik missiyası bu gün həmişəkindən daha vacibdir. Vaxt vardı, Azərbaycanda xeyriyyəçilik ümummilli ideya, ümummilli miqyaslı iş idi. Bu gün mən iftixarla deyə bilərəm ki, biz bu ənənəni dirçəltmişik". Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, 14 saylı Əzizbəyov 2-ci seçki dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Mehriban xanım Əliyeva seçicilərlə görüşlərini davam etdirir. Mərdəkan, Şüvəlan, Zirə, Türkan, Binə qəsəbələrində sakinlərlə görüşlərdən sonra Mehriban xanım, rayonun təhsil, səhiyyə işçiləri, sahibkarları ilə də ayrı-ayrılıqda işgüzar, yaddaqalan görüşlər keçirdi. Mehriban xanım rayonun təhsil işçiləri ilə görüşdən əvvəl Türkan qəsəbəsində yerləşən Təhsil Nazirliyinin Elmar Mirzəyev adına nitqi qüsurlu uşaqlar üçün respublika xüsusi internat məktəbində aparılmış əsaslı təmir və yenidənqurma işləri ilə tanış oldu. Bildirildi ki, 1978-ci ildə tikilmiş bu məktəb binası indiyədək təmir edilmədiyinə görə yararsız hala düşmüşdü. İndi təmir və yenidənqurma işləri tam başa çatmışdır. Məktəbin üçmərtəbəli yataqxana və tədris korpusu, yeməkxanası, yardımçı binaların dam örtüyü, bütün kommunikasiya xətləri təzələnmiş, ilk dəfə otaraq istilik sistemi quraşdırılmışdır. İdman salonu və meydançaları, əyləncə mərkəzi, istirahət guşələri də tamamilə yenidən qurulmuş, həyətə asfalt örtük döşənmiş, tibbi yardım kabinələri müasir avadanlıqla dəstləşdirilmişdir.

Hazırda məktəbdə 9-16 yaşlarında 143 uşaq təlim-tərbiyə alır, 80 müəllim və tərbiyəçi, xidmətçi çalışır. Məkləb 9 illik təhsil verir. Buranı qurtaranlar orta təhsil verən digər məktəblərə köçürülürlər. Məktəbdə əmək təlimi dərslərinə xüsusi diqqət yetirilir, uşaqların müxtəlif peşələrə yiyələnməsinə imkan yaradılır. Mək-

təbin fizika müəllimi, veteran pedaqoq Mərhəmət Əliyeva kollektivin yekdil fikrini ifadə edərək dedi ki, bu şəhərcik, əslində, yeni tikilmiş böyük təhsil kompleksidir, Burada hər şey təzədir. Sakinlər, valideynlər, müəllim və uşaqlar yaxşı bilir ki, bütün bunlar Mehriban xanımın şəxsi təşəbbüsü, qayğısı ilə başa gəlmişdir. Hamımız Mehriban xanımın respublikamızdakı uşaq evlərinə, internat məktəblərinə əsil analıq qayğısı göstərməsini yüksək qiymətləndiririk. Bu qayğı və diqqətdən minlərlə ailə sevinc, təsəlli duyur. Biz bilirik ki, Siz bu günədək bir çox uşaq evi və internat məktəblərində olmuşsunuz, onların əksəriyyəti tam təzələnmiş, yenidən tikilmişdir, minlərlə uşağın yaşayışı və təhsili üçün şərait yaxşılaşdırılmışdır.

Ən əsası odur ki, taleyin acı hökmü ilə fiziki cəhətdən qüsurlu doğulmuş, atılmış, valideyn himayəsindən mərhum olmuş uşaqlar hiss etmişlər ki, unudulmayıblar, onlarla maraqlanırlar, onlar cəmiyyətimizə gərəkdirlər. Bu isə onları isti yaşayış yeri ilə təmin etməkdən və onlara təhsil verməkdən heç də az vacib deyildir.

Mehriban xanım məktəblilərin əl işlərinə tamaşa etdi, məktəbin şagirdlərindən ibarət xor kollektivinin ifasından razı qalan Mehriban Əliyeva nitqi qüsurlu uşaqların belə səlis ifasını yüksək qiymətləndirdi. Məktəbin kitabxana fondu ilə maraqlanan Mehriban xanım təzə əlifba ilə nəşr edilən kitabların azlığından narazılığını bildirdi, dərs prosesinin gedişi ilə, şagirdlərin bilik səviyyəsi, müalicəsi, loqoped kabinələri, reabilitasiya otaqları, yemək normaları, ərzaq ehtiyatı, yataq dəstlərinin, inventar və avadanlığın keyfiyyəti ilə ətraflı maraqlandı. Sonra məktəbin təzə iclas zalında rayonun təhsil işçiləri ilə görüş keçirildi. Mehriban xanım görüşdə Heydər Əliyev Fondunun fəaliyyətə başladığı ilk gündən təhsil problemlərinin həllini özünün birinci dərəcəli vəzifəsi kimi qəbul etdiklərini, hər bir xalqın, dövlətin gələcəyinin təhsildən asılı olduğunu bildirdi, Fondun işləyib hazırladığı "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni mək-

təb” Proqramları çərçivəsində respublikamızda, o cümlədən Əzizbəyov rayonunda görülmüş işlər, həyata keçirilən tədbirlər barədə məlumat verərək bugünkü görüşün məqsədini açıqladı, bildirdi ki, rayonun təhsil müəssisələrinin nümayəndələrindən hər bir qəsəbə, kənd məktəbinin mövcud problemlərini, çatişmazlıqlarını, onların aradan qaldırılması barədə təkliflərini eşitmək istəyir.

Son illər yeni təhsil obyektlərinin inşasının geniş vüsət aldığını, son bir ildə ölkəmizdə müasir tələblərə cavab verən 100 orta məktəbin tikilib istifadəyə verilməsini, ilin sonunadək daha 30 məktəbin inşasının başa çatacağını Azərbaycan tarixində görünməmiş hadisə hesab edən müəllimlər, bunun birbaşa Mehriban xanımın təşəbbüs və təşkilatçılığı ilə reallaşdığını vurğuladılar, bu geniş miqyaslı Proqramdan Əzizbəyov rayonuna da pay düşdüyünü razılıq hissi ilə qeyd etdilər, rayonun çoxminlik təhsil işçilərinin Mehriban xanımın deputatlığa namizədliyini ürəkdən bəyənib dəstəklədiklərini, noyabrın 6-da böyük ruh yüksəkliyi ilə seçki məntəqələrinə gedib öz hamilərinin xeyrinə səs verəcəklərini bildirdilər. Görüşlərdə qaldırılan problemlər də çox oldu:

– Hövsan südçülük sovxozunda 1220 şagirdin təhsil aldığı məktəb 9 illik təhsil verir, bundan sonra şagirdlər təhsilini davam etdirmək üçün bir neçə kilometr aralıdakı qəsəbə və kəndlərə üz tuturlar. Digər qeyri – normal vəziyyət: 2 min sakini olan bu kəndin indiyədək adı da yoxdur, bu inzibati vahid Əzizbəyov rayonuna daxil olsa da, torpağın sahibi Abşeron rayonudur.

– Uşaq evləri, internat məktəblərində bir dərs yükü əvvəl 24, sonra 18, indi isə 12 saat olub. Tərbiyəçi müəllimlər üçün isə bu norma həftədə 30 saatdır. Qeyri-normal hal budur ki, müəllimin 12 saatlıq əziyyəti ilə tərbiyəçi müəllimin 30 saatlıq əməyinin dəyəri eyni qiymətlə hesablanır. Sovet dönəmindən qalan, yüzlərlə tərbiyəçi müəllimin hüquqlarını pozan bu vəziyyət aradan qaldırılmalıdır.

– Hər rayonun təhsil şöbəsində minlərlə müəllim çalışır, çoxlu qanunlar, qərarlar qəbul olunur, təhsil işçilərindən, elə məktəbli şagirdlərdən də hüquqları pozulanlar olur. Kiçik kollektivlərdə belə hüquqşünas ştatı olduğu halda, minlərlə vətəndaşı birləşdirən təhsil şöbələrində hüquqşünas vəzifəsi yoxdur.

– Uzun illərdir ki, ölkənin Təhsil Qanununun qəbul edilməsi müşkül məsələyə çevrilib, bu fakt bütün cəmiyyəti narahat edir, buna zərurət çoxdan yaranıb.

– Məktəblərin əksəriyyətinin nəqliyyat vasitəsi yoxdur, yaxud çoxdan istismar müddətini başa vurub.

– Uşaq-evləri, internat məktəblərində yaşayan uşaqlar üçün gündəlik yemək norması aşağıdır. Sovet vaxtından qəbul edilmiş bir çox normativ sənədlər hələ də öz qüvvəsindədir.

– Binə qəsəbəsindəki 5 məktəbin heç birinin istilik sistemi yoxdur, məktəblər illərdən bəri təmir üzü görməyib, əhalinin sayı ilbəil artsa da, təzə məktəb tikintisi heç kimin yadına düşməyib, sıxlıq, darısqallıqdır, 3-4 şagird yanaşı qoyulan 2 partada oturur.

Mehriban xanım çıxışlarda ünvanına deyilən xoş sözlərə, ona inanıb etibar etdiklərinə görə təşəkkür etdi, qaldırılan hər bir məsələnin diqqətlə öyrənilib ən yaxın vaxtlarda tədbirlər görüləcəyini dedi. Fondun əməkdaşlarının rayonun təhsil müəssisələrinin problemləri ilə bağlı monitorinq aparıb müvafiq proqram hazırladıqlarını, bu görüşdə deyilənlərin də sənədə əlavə ediləcəyini bildirdi. Yaxın 2-3 ildə məktəblərin bütün maddi-texniki bazasının yeniləşəcəyini, bu problemlərin həlli ilə yanaşı müasir tələblərə cavab verən dərslik, proqram, kompüterləşmə proqramlarının da qəbul edilib həyata keçiriləcəyini diqqətə çatdırdı, belə görüşlərin bundan sonra da davam edəcəyini vəd etdi.

Mehriban xanım görüş iştirakçılarından salamlarını, ən xoş arzularını, xüsusilə müqəddəs Ramazan ayında Allahdan dualarını təmsil etdikləri kollektivlərin üzvlərinə çatdırmağı xahiş etdi. Sonra rayonun təhsil işçiləri ilə birlikdə xatirə şəkli çəkdirdi.

Şüvəlan qəsəbəsindəki beyin iflici və poliomelit keçirmiş uşaqlar üçün 16 saylı tnternat məktəbdə rayonun səhiyyə işçiləri ilə keçirilən görüş də bu təhsil-səhiyyə ocağı ilə tanışlıqdan başladı. Məktəbin şagirdləri Mehriban xanımı gül-çiçəklə qarşıladılar. Direktor Allahverdi Vəliyev 205 uşağın müalicə və təhsil aldığı, 98 nəfər müəllim, tərbiyəçi, tibb işçisinin çalışdığı bu müəssisədə uşaqların rahatlığı üçün hər cür şərait yaradıldığını bildirdi, istilik, su, kanalizasiya, işıq, rabitə sisteminin təzələndiyini, yeməkxana, idman zalı, kitabxana, müalicə və müayinə kabinələrinin müasir tibbi avadanlıqla komplektləşdirildiyini diqqətə çatdırdı. Məktəbin şağirdlərinin İrlandiya, Yaponiyada keçirilən yarışlardan qızıl medallarla qayıtdıqlarını, Bakı Şəhər Təhsil İdarəsinin turnirlərində birinci yeri tutduğunu dedi, əldə edilən uğurların xeyirxah insanların bu müəssisəyə daimi diqqət və qayğısının nəticəsi olduğunu minnətdarlıqla vurğuladı. Mehriban xanım ötən gəlişlərindən sonra burada baş vermiş əsaslı dəyişikliklərdən razı qaldığını bildirdi. Məktəblə tanışlıq görüş iştirakçılarında da xoş ovqat yaratdı. Mehriban xanım rayonun səhiyyə işçiləri qarşısında çıxış etdi. Özünün də ixtisasca həkim olduğunu bildirən Mehriban xanım öz həmkarları ilə görüşməkdən məmnunluq duyduğunu bildirdi, son vaxtlar ölkə rəhbərliyinin səhiyyə sistemində əsaslı dəyişikliklər, yeniləşmələr aparmağa başladığını, bu məqsədlə bir çox regionlarda müasir tələblərə cavab verən diaqnostika, müalicə mərkəzlərinin inşa edildiyini, bu işin sürətlə davam etdirildiyini dedi. Rayonun artıq bir çox tibb ocaqlarında olduğunu bildirən Mehriban xanım, bütün tibb müəssisələrinin təmsilçilərinin iştirakı ilə keçirilən görüşdə onların qayğı və problemlərini, əhaliyə səhiyyə xidmətinin səviyyəsini yüksəltmək, mövcud çatışmazlıqların aradan qaldırılması üçün onların təkliflərini öyrənmək istədiyini bildirdi.

Rayonun ayrı-ayrı səhiyyə müəssisələrini təmsil edən həkimlər öz həmkarlarının yaşadıqları dairədən

Milli Məclisin deputatlığına namizəd Mehriban xanım Əliyeva ilə görüşə həvəslə gəldiklərini söyləyərək, Mehriban xanımın təşəbbüsü və birbaşa rəhbərliyi altında hazırlanıb həyata keçirilən "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat" layihələrinin böyük əhəmiyyətini, artıq bu sahədə illərlə yığılıb qalmış problemlərin bir hissəsinin həll edildiyini, ölkəmizdə ilk dəfə olaraq Talassemiya mərkəzinin inşasına başlandığını, Mehriban xanımın şəxsi yardımı ilə onlarla ağır xəstənin müalicə üçün xarici ölkələrə göndərildiyini bildirdilər, rayonun çoxminlik tibb işçiləri adından ixtisasca həkim olan Mehriban xanımı tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün müvəffəqiyyətlə dissertasiya müdafiə etməsi münasibətilə təbrik etdilər, səhiyyə işçilərinin parlament seçkilərində fəal iştirak edəcəyini və artıq öz seçimlərini etdiklərini, öz həmkarlarını Milli Məclisdə görmək istədiklərini, Mehriban xanımın millət vəkili kimi ölkəmizin səhiyyə sistemindəki problemlərin aradan qaldırılmasına səmərəli kömək göstərəcəyinə inandıqlarını vurğuladılar.

Rus Soydaşlar Beynəlxalq Şurasının idarə heyətinin sədri, "Yüzilliyin mesenatı" Beynəlxalq Fondunun idarə heyətinin üzvü qraf Pyotr Şeremetyevin "Yaqut xaç" ordenini Heydər Əliyev Fondunun prezidentinə təqdim edərkən dediyi sözlər xatırlandı:" Mehriban Əliyevanın fəaliyyəti yüksək insani özünüdərkə, alicənablığa, niyyətlərin paklığına nümunədir". Səhiyyə işçiləri bu fikri xüsusı vurğuladılar ki, Mehriban xanım indiyə qədər gördüyü işlərlə əsil millət vəkili adını qazanmışdır, elə təkcə Əzizbəyov rayonunda onun şəxsi köməyi ilə həyata keçirilən tədbirlər, İllərlə həllini gözləyən problemlərin aradan qaldırılması ona bu dairənin layiqli deputatı olacağına ədalətli zəmin – səbəb yaratmışdır. Qaldırılan problemlər içərisində rayonda bir dənə də olsun uşaq sağlamlıq və diaqnostika mərkəzlərinin olmaması, tibb bacılarının çatışmaması, orta pillə kadrlara ciddi ehtiyacı nəzərə alaraq tibb məktəbinin açılması, tibb işçilərinin maaşlarının aşağı olması, Mər-

dəkan xəstəxanasında infeksion şöbənin yaradılması, əksər xəstəxanaların yararsız binalarda fəaliyyət göstərməsi, avadanlıqların köhnəlməsi, 50 min sakini olan Binə qəsəbəsində indiyədək kanalizasiya sisteminin, su təmizləyici qurğuların olmaması, bir neçə cəzaçəkmə müəssisəsinin, xüsusilə vərəmli xəstə məhbuslar üçün xüsusi təcridxananın qəsəbədəki yaşayış binalarının ortasında yerləşməsi, vərəmli uşaqlar üçün ayrıca xəstəxananın tikintisinə zəruri ehtiyac olması, Mərdəkan, Şüvəlandakı keçmiş yay uşaq istirahət düşərgələrinin fəaliyyətinin bərpa edilməsi, rayonun qəsəbə və kəndlərini birləşdirən yolların bərbad vəziyyəti, nəqliyyat, su, qaz çatışmazlığı və sair məsələlər diqqətə çatdırıldı. Çıxışlarda son vaxtlar Azərbaycan Prezidentinin apardığı kadr islahatlarının səhiyyə işçiləri tərəfindən rəğbətlə qarşılandığı da bildirildi, bu sahədə illərlə yığılıb qalmış problemlərin də sabiq nazirin fəaliyyətsizliyinin acınacaqlı bəhrəsi olduğu söyləndi, qeyd edildi ki, hələ indiyədək Bakının yaxınlığında yerləşən bu rayonun tibb müəssisələrində nəinki sabiq naziri, heç müavinlərini də görən olmayıb.

Mehriban xanım görüşdə söylənən fikirlərə münasibətini bildirərək onların həlli üçün lazımi tədbirlərin görüləcəyini dedi, təəssüflə qeyd etdi ki, maddi-texniki bazanın zəifliyi, köhnəlməsi ölkəmizin səhiyyə sisteminin müasir tələblər səviyyəsində yenidən qurulmasına imkan vermir.

Lakin ölkəmizin iqtisadi potensialının güclənməsi, büdcə gəlirlərinin günbəgün artması, dövlət tərəfindən geniş sosial layihələrin işlənib hazırlanması və ardıcıl həyata keçirilməsi bu problemlərin də qısa zamanda həllinə imkan verəcəyinə inandığını bildirdi. Heydər Əliyev Fondunun da bu işdə öz köməyini əsirgəməyəcəyini vurğuladı, qaldırılan məsələlərin hamısının Fondun əməkdaşları tərəfindən qeydə alındığını, diqqətlə öyrəniləcəyini, həmişə yardım göstəriləcəyini söylədi. Mehriban xanım ünvanına deyilən xoş sözlərə görə razılığını ifadə edərək görüşün xoş əhvali-ruhiyyə ilə,

faydalı, səmərəli, işgüzar dialoq, fikir mübadiləsi şəraitində keçməsindən razı qaldığını bildirdi, səhiyyə işçiləri ilə xatirə şəkli çəkdirdi.

Mehriban xanım hər dəfə olduğu kimi, yenə də onu hərarətli alqışlarla, gülərüzlə, əziz qonaq kimi qarşılayan qəsəbə sakinlərini, ona müraciət etmək istəyən, dərdini bölüşməyə gələn vətəndaşların hər birini səbirlə dinlədi, yazılı məktublarını aldı, bir çoxunu şəxsən qəbul etmək barədə fondun əməkdaşlarına tapşırıqlar verdi. Mehriban xanım ünvanına deyilən xoş sözlərə, ona göstərdikləri inam və etimada görə hamıya öz razılığını yetirdi, bundan sonra da yenidən görüşəcəklərini bildirdi. Elə həmin gün Mehriban Əliyeva Mir Mövsüm Ağa ziyarətgahını da ziyarət etdi, buraya gələnlərlə hal-əhval tutdu, kompleksdə aparılan tikinti, əsaslı təmir-bərpa işləri ilə tanış oldu. Bu ziyarətgahda yerli ustaların qədim milli, dini ornamentlərdən istifadə etməklə gördüyü işləri yüksək qiymətləndirdi. Qəsəbə dindarlarının iştirakı itə keçirilən görüş də silinməz xatirəyə çevrildi. Görüş iştirakçıları adından Hacı Nizam qarşıdan gələn Miili Məclisə seçkilərdə Mehriban xanıma xeyir-dua verdi, qələbə arzuladı.

Mehriban xanımın dediyi: “Mən öhdəmə götürdüyüm hər bir işə çox böyük məsuliyyətlə yanaşıram. Hər zaman öz fəaliyyətimdə çalışmışam bir neçə amala əsaslanım. Bunlar vətənpərvərlik, insansevərlik və mərhəmətlilikdir” sözlərini xatırladan din xadimi bunların hər birinin Allahın sevdiyi, Quranın təqdir etdiyi ən yaxşı insani keyfiyyətlər olduğunu söylədi.

Mehriban xanım uşaqlıqdan Uca Yaradana, Qurana, İslam dinimizə ürəkdən, içdən gələn hörmət və ehtiram hissləri ilə böyüdüyünü, dəfələrlə bu ziyarətgahda olduğunu, bundan sonra da gələcəyini, ağsaqqalların, dindarların ona etimadını doğrultmaq üçün mümkün olan hər şeyi edəcəyini bildirdi. Mehriban xanım ağsaqqalları, dindarları Müqəddəs Ramazan ayı münasibətilə təbrik etdi, hər bir azərbaycanlı üçün əziz olan ziyarətgahda xalqımızı bütün bəlalardan hifz et-

məyi Allahdan dua etdiyini bildirdi, sonra dünya şöhrətli sənətkar Kamil Əliyevin toxuduğu Mir Mövsüm Ağa xalçasını məscidə təqdim edərək dedi: “Siz bilirsiniz ki, Mİr Mövsüm Ağa da İçərişəhərli olub, bu xalça da Ağanı yaxından görüb yaxşı tanıyan, ürəkdən sevən, özü də İçərişəhərdə yaşayan böyük sənətkar Kamil Əliyev tərəfindən məhz İçərişəhərdəki iş yerində toxunub, dəfələrlə bu xalçanın izi ilə gələnlərə hər dəfə: –”Onun öz yeri var...”– deyə cavab verib. Bir neçə ay əvvəl dünyadan köçən ustadın ürəyindən keçən yer elə bu məscid idi, Ağanın son mənzili idi, hər gün yüzlərlə insanın üz tutduğu bu müqəddəs məkan idi. Quran ayələri ilə işlənmiş bu bənzərsiz, əvəzsiz sənət əsərini sonsuz məmnunluqla Sizə təqdim edirəm, onu qoruyub saxlamaq Sizin borcunuzdur. Allah əmanəti.”

Ziyarətgahdakı ağsaqqallar bu hədiyyədən mütəəssir oldular, Mir Mövsüm Ağanın ruhuna göstərdiyi ehtirama görə Prezident İlham Əliyevə və Mehriban xanıma razılıqlarını bildirdilər, onlara ən xoş arzularını çatdırdılar.

Binə qəsəbəsində yerləşən Mülki Aviasiya Akademiyasında Əzizbəyov rayonunun sahibkarları ilə görüş də maraqlı keçdi. Mehriban xanım bundan əvvəl rayonun əksər kənd və qəsəbələrində olduğunu, təhsil, səhiyyə işçiləri ilə ğörüşdüyünü, bu tədbirə gəlməzdən qabaq Əzizbəyov rayonunun iqtisadi potensialını, başlıca problemlərini, əhalini narahat edən məsələləri diqqətlə öyrəndiyini, əldə edilən məlumatların ümumiləşdirildiyini, qəsəbələrin hər biri üçün yaxın iki ili əhatə edən kompleks tədbirlər planı lərtib ediləcəyini bildirdi. Qəsəbələrin hamısında məktəb, xəstəxana, idman kompleksi, klub və kitabxana tikiləcəyini, təmirə ehtiyacı olan obyektlərdə əsaslı yenidənqurma işləri aparılacağını, yol, nəqliyyat, su, təbii qazla təminat sahəsindəki xeyli problemlərin yaxın vaxtlarda həll ediləcəyini vurğuladı. Yeni iş yerlərinin yaradılmasını, əhalinin məşğulluğunun təmin edilməsi üçün bir sıra müəssisələrin açılacağını, yeni tikiləcək obyektlərin hamısının yeri, layihəsi ilə əlaqədar sakinlərlə məsləhətləşmələr

aparılacağını, bu tikintilərdə yüzlərlə yerli vətəndaşın işləyəcəyini bildirdi.

Mehriban xanım heç bir vaxt sahibkarlıqla məşğul olmadığını, təbii ki, bu sahəyə aid təcrübə və məlumatının da azlığını diqqətə çatdıraraq onlardan rayonda iş adamlarının qayğı və problemlərini, real vəziyyəti öyrənmək istədiyini dedi.

Sahibkarlardan Əlibala Əfizadə, Azər Vəliyev, Tahir Alıyev, Ramiz Hüseynov və başqaları çıxış edərək öz rayonlarının deputatlığa namizədi ilə görüşə həvəslə gəldiklərini söylədilər, Azərbaycan Prezidentinin regionların sosial-iqtisadi inkişafı, yeni iş yerlərinin açılması, sahibkarlığın, azad bazar münasibətlərinin genişlənməsi, maneələrin aradan qaldırılması istiqamətində həyata keçirdiyi tədbirlərin əhəmiyyətindən danışdılar, sahibkarların dövlət rəhbərinin siyasətini ürəkdən bəyəndiklərini bildirdilər. Camaatın Mehriban xanıma inandığını, mövcud problemlərin həllinə yardımçı olacağına ümid etdiklərini, indiyədək verdiyi bütün vədlərə əməl etdiyini, ona görə də noyabrın 6-da keçiriləcək seçkilərdə rayon sakinlərinin ona səs verəcəklərini diqqətə çatdırdılar. Sahibkarlar milli-mədəni dəyərlərimizin, muğam, musiqi sənətimizin qorunub saxlanması və dünyada təbliğində, olimpiya idman hərəkatının genişlənməsində də böyük xidmətləri olan Mehriban xanımın xüsusən kimsəsiz, valideyn himayəsindən məhrum, əqli və fiziki cəhətdən qüsurlu uşaqların müalicəsi, onların təhsilə cəlb olunması, yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirdiyi tədbirlərin, respublikamızın regionlarına səfərləri zamanı uşaq evləri və internat məktəblərinin problemləri ilə tanış olub, bunların həllinə kömək göstərməsinin ona cəmiyyətin bütün təbəqələri arasında hörmət və ehtiram qazandırdığını dedilər. Qadın sahibkarlar isə qeyd etdilər ki, respublikamızda fəaliyyət göstərən 100-ə yaxın qadın təşkilatı Mehriban xanımı özlərinin vahid lideri seçmiş, milli birlik, yekdillik nümunəsi göstərmişlər. Parisdə Mehriban xanıma YUNESKO-nun xoşmə-

ramlı səfiri diplomunun, “İlin qadını” fəxri mükafatını Azərbaycan qadınının gözəllik, zəriflik və sədaqət rəmzi olan Mömünə xatının adını daşıyan türbənin maketinin Mehriban xanıma təqdim olunmasının ardınca Azərbaycanın birinci xanımına “Yüzilliyin mesenatları” Beynəlxalq Xeyriyyə Fondunun təsis etdiyi “Yaqut xaç” ordeninin ilk dəfə olaraq qadın xeyriyyəçiyə verilməsini tarixi hadisə adlandırdılar, bu uğurlar münasibətilə Mehriban xanımı Əzizbəyov rayonunun qadın seçiciləri adından təbrik etdilər, namizədin seçki platformasında mühüm yer tutan qadınların məşğulluğunun təmin edilməsi ilə bağlı müddəaların yüksək razılıq hissi doğurduğunu vurğuladılar. Dedilər ki, Mehriban xanımın Milli Məclisin deputatı seçilmək üçün təbliğat kampaniyası aparmağa heç bir ehtiyacı yoxdur, bir sıra müxalifət qəzetlərinin də yazdığı kimi, xalq bu seçkilərdə Mehriban xanım Əliyevanı Milli Məclisin deputatı adına ən layiqli namizəd hesab edir.

Rayonda sahibkarlığın real vəziyyəti, çətinlikləri barədə danışan iş adamları vaxtilə hər birində 2-3 min fəhlə-mühəndisin çalışdığı zavod və fabriklərin ya dayandığını, yaxud istehsal gücünün 10-15 faizi ilə işlədiyini, sifarişlərin azaldığını ürəkağrısı ilə diqqətə çatdırdılar, 80-ci illərin sonu, 90-cı illərin əvvəlində səriştəsiz, naşı adamların hakimiyyət başına gəlməsi ilə ağır sənayenin tənəzzülünün başlandığını faktlarla söylədilər, bu vəziyyətdən çıxış yolu üçün dövlət səviyyəsində proqram hazırlanmasının gərəkliyini söylədilər, rayonda indiyədək cəmi 3-4 sahibkarın kredit ala bildiyini, rayonda min sahibkardan yalnız 32-nin sənaye sahəsində fəaliyyət göstərdiyini, qalanlarının isə kiçik bizneslə, ticarətlə məşğul olduğunu dedilər, gömrük, vergi qanunvericiliyindəki boşluqlar, süni maneələr barədə danışdılar, yerli, daxili bazarın qorunması üçün tədbirlər görülməsinin, şəhər ətrafı qəsəbələrin əhalisinin məşğulluğunun təmin edilməsinin zəruriliyini vurğuladılar, regionlarda keçirilən biznesforumun Bakı ətrafı rayonlarda da təşkilinin əhəmiyyətli olacağını dedilər, konkret faktlarla rayonda

sahibkarlığın inkişafına kömək edə bilən potensial imkanların mövcudluğunu əsaslandırdılar.

Mehriban xanım Əliyeva söylənən fikirlərə öz münasibətini bildirdi, bəzi problemlərin qısa vaxtında həllinə şərait olsa da, digər məsələlərin köklü həlli üçün yeni qanunların qəbul edilməsinə ehtiyac olduğunu bildirdi.

Deputat seçiləcəyi təqdirdə bu problemlərin həllinə yardımçı olacağını dedi, qaldırılan məsələlərin Fondun əməkdaşları tərəfindən diqqətlə öyrənilib əlaqədar təşkilatlara çatdırılacağını vəd etdi, sahibkarlara, iş adamlarına yerli sosial problemlərin həilinə daha yaxından kömək etməyi, xeyriyyəçilik fəaliyyəti göstərməyi, imkansız ailələrə yardım əli uzatmağı tövsiyə etdi. Sonda görüş iştirakçıları bir daha noyabrın 6-da keçiriləcək siyasi kampaniyada fəal iştirak edəcəklərini, öz seçimlərində yekdil olduqlarını, xalqımızın ən layiqli yetirmələrdən biri hesab etdikləri, nəcib ziyalı ailəsində doğulub böyümüş, kamil tərbiyə görmüş, Azərbaycan qadınına məxsus ən nəcib, ali keyfiyyətləri, mənəvi-əxlaqi dəyərləri özündə birləşdirən və ölkəmizi bütün dünyada ləyaqətlə tanıdan Mehriban xanıma səs verəcəklərini bildirdilər.

***Hacı Nərimanoğlu***
***"İki sahil", 1 noyabr 2005-ci il***

# VI. Mehriban xanım Əliyevanın müsahibələri

## Mehriban xanım Əliyevanın AZTV-nın müxbirinə müsahibəsi

Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva YUNESKO-nun baş direktoru Koişiro Matsuuranın Azərbaycana səfərinin yekunlarına dair AzTV-yə müsahibə vermişdir.

**SUAL:** Mehriban xanım, ötən həftə respublikamızın ictimai-mədəni həyatı üçün ən əlamətdar hadisələrdən biri YUNESKO-nun baş direktoru cənab Matsuuranın və bir neçə xoşməramlı səfirin Azərbaycana səfəri oldu. Səfər çərçivəsində bir sıra mühüm tədbirlər keçirildi. Siz YUNESKO ilə Azərbaycan arasında əməkdaşlığın bugünkü səviyyəsini necə qiymətləndirirsiz?

**CAVAB:** Müstəqil Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. Bu illər ərzində ölkəmiz üçün əhəmiyyətli olan bir sıra tədbirlər həyata keçirilmişdir. YUNESKO Azərbaycan muğamını bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil etmişdir. İçərişəhər, Qız Qalası isə çox nadir memarlıq incisi kimi dünya mədəni irs siyahısına salınmışdır. Azərbaycanın bir sıra görkəmli şəxsiyyətlərinin yubileyləri YUNESKO-nun təqviminə salınıb və bəşəriyyət üçün böyük əhəmiyyəti olan hadisə kimi qeyd edilir.

Dahi Məhəmməd Füzulinin 500 illik yubileyi, “Kitabi-Dədə Qorqud” Dastanının 1300 illik yubileyi çox geniş tədbirlərlə qeyd olunub və yekun tədbirlərində YUNESKO-nun baş direktoru cənab Matsuuara da iştirak etmişdir. Hər iki yubiley ilə bağlı YUNESKO-nun iqamətgahında, Paris şəhərində də xüsusi tədbirlər keçirilmişdir.

Bu ilin sentyabr ayında Parisdə görkəmli Azərbaycan alimi Yusif Məmmədəliyevin 100 illik yubileyi təntənə ilə qeyd olunacaqdır. Bir sıra elm, təhsil və mədəniyyət proqramlarında Azərbaycanın qurumları iştirak edir. Azərbaycana aid olan məsələlərlə bağlı YUNESKO çərçivəsində tədbirlər keçirilir. Bu sırada mən xüsusilə təhsil sahəsində əməkdaşlığı vurğulamaq istərdim. Bildiyiniz kimi, Bakıda təhsil sisteminə həsr olunmuş böyük konfrans keçirildi. Bu konfransa biz uzun müddət hazırlıq görürdük. Əvvəl YUNESKO öz ekspertlərini ölkəmizə göndərmişdi, sonra ilkin tədbir Parisdə keçirilmişdir. Yekun tədbir olaraq Bakı şəhərində YUNESKO-nun baş direktoru cənab Matsuuranın və xoşməramlı səfirlərin iştirakı ilə "Azərbaycan-YUNESKO: gələcəyə körpü" adlı konfrans keçirildi.

Biz cənab Matsuuranın Azərbaycana səfəri zamanı ölkəmizin bir sıra maddi və qeyri-maddi irsinin qorunması ilə əlaqədar məsələləri müzakirə etdik. Mən çox inanıram ki, cənab baş direktorun ölkəmizə bu səfəri YUNESKO ilə Azərbaycan arasında əməkdaşlığın daha yüksək səviyyəyə qalxmasına güclü təkan verəcəkdir.

**SUAL:** Mehriban xanım, Siz YUNESKO-nun ilk azərbaycanlı xoşməramlı səfirisiniz və cənab Koişiro Matsuuara qeyri-maddi irsin qorunması sahəsində fəaliyyətinizi çox yüksək qiymətləndirdi. Bu istiqamətdə yeni planlarınız varmı?

**CAVAB:** Avqustun 24-də Beynəlxalq Muğam Mərkəzinin təməli qoyuldu və mən inanıram ki, bina inşa olunandan sonra bu Mərkəz bütün muğamsevərlər üçün doğma bir evə çevriləcəkdir. "Qarabağ xanəndələri" albomundan sonra biz muğam layihələri üzrə işlərimizi davam etdiririk. Bu ilin sonuna qədər muğam dəstgahları albomu işıq üzü görəcək, bir sıra muğam ustalarının kitabları və albomları çap olunacaqdır. Bir neçə qədim muğam traktatlarının tərcüməsi artıq başa çatıb və onlar da çapa hazırdır. Müasir fransız musiqişünası Cerardın əsəri də tərcümə olunub və o da çapa

hazırdır. Bir sözlə, muğamla bağlı çox geniş layihələrimiz var. Yaxın gələcəkdə muğam ustaları ilə bir daha görüşmək fikrim var. Onlarla həm muğam mərkəzinin layihəsini müzakirə etmək, həm də gələcək planlarımız haqqında danışmaq istəyirəm. Azərbaycan musiqi sənətinin muğam kimi əhəmiyyətli olan başqa bir qolu da var, bu da aşıq sənətidir. Hesab edirəm ki, ona da diqqət artırılmalıdır. Muğamla yanaşı, aşıq sənətinin də YUNESKO-nun qeyri-maddi irs siyahısına salınması çox zəruridir. Ümumiyyətlə, bizim mədəni irsimiz çox zəngindir, misal üçün meyxana sənəti. Bu sənətin qədimdə çox böyük ənənələri olub və bu gün də çox istedadlı davamçıları var. Amma bu sənətin fəlsəfəsi və tarixi yetərincə öyrənilməyibdir. Bir sözlə, hələ böyük işlər görmək lazımdır.

**SUAL:** Bizim məlumatımıza görə, YUNESKO-nun baş direktoru və ölkəmizə səfər edən xoşməramlı səfirlərlə Siz görüşlərinizdə Azərbaycanın bir neçə tarixi abidəsini, o cümlədən Qobustan dünya mədəni və təbii irsin qorunması, aşıq sənətinin isə bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri siyahısına salınmasını təklif etmisiniz. Yaxın vaxtlarda bu təkliflərinizin reallaşacağını gözləmək olarmı?

**CAVAB:** Cənab baş direktor və xoşməramlı səfirlər Bakıya səfər zamanı Qobustanda oldular. Biz orada bu abidənin bəşəriyyət üçün nə qədər əhəmiyyətli olduğunu müzakirə etdik. Amma YUNESKO-nun öz qaydaları var və hər bir abidənin siyahıya salınması müəyyən prosedurdan keçir. Öncə bir neçə ölkədən ekspertlər təklifləri öyrənir, öz rəylərini verir. Sonra komissiyaların iclaslarında müzakirələr gedir. Adətən, abidənin siyahıya daxilolma prosesi 3-5 il çəkir. Onu da nəzərdə saxlamalıyıq ki, bir ölkədən müəyyən dövr ərzində yalnız bir abidə və ya yalnız bir əsər YUNESKO-nun siyahısına daxil edilə bilər. Gələn ilin yayında YUNESKO-nun iqamətgahında keçiriləcək növbəti toplantıda Qobustanla bağlı müzakirələr aparılacaq və mən çox böyük ümid bəsləyirəm ki, bu məsələ öz müsbət həllini tapacaqdır.

**SUAL:** Mehriban xanım, müzakirələr zamanı Azərbaycanın işğal altında olan ərazilərindəki tarix və mədəniyyət abidələri, onların ermənilər tərəfindən dağıdılması ilə bağlı məsələlər diqqət mərkəzində oldumu?

**CAVAB:** Mən bu problemlər haqqında xoşməramlı səfirlərin YUNESKO-nun iqamətgahında keçirilən illik toplantısında və Kazanda YUNESKO-nun Avropa regionu üzrə toplantısında dəfələrlə danışmışam. Bildiyiniz kimi, YUNESKO elm, təhsil və mədəniyyətlə məşğul olan təşkilatdır. Şübhəsiz ki, YUNESKO tarixi abidələri qorumaq üçün tədbirlər keçirməli, konkret işlər görməlidir. Digər tərəfdən, hərbi münaqişə zonalarında vəziyyət həddən artıq siyasiləşdiyinə görə YUNESKO çalışır ki, siyasi xarakter daşıyan heç bir bəyanatla çıxış etməsin. Amma buna baxmayaraq, mən hər bir görüşümdə, YUNESKO-nun əməkdaşları ilə hər bir ünsiyyətdə bu sualları qaldırmağa çalışıram.

**SUAL:** Heydər Əliyev Fondunun təşəbbüsü ilə yeni dərs ili üçün ölkədə 132 məktəb tikilir və bu, çox böyük layihədir. Siz məktəb binalarının vaxtında təhvil verilməsi üçün işlərə çox ciddi nəzarət edirsiniz. Bu sahədə vəziyyət necədir?

**CAVAB:** Mən doğrudan da çalışıram ki, tikinti ilə bağlı hər gün məlumat alım. Tikintilərin bir qismində özüm şəxsən olmuşam, işlərin həqiqətən də çox böyük sürətlə getdiyini görmüşəm. Bu məktəblərin tikintisi “Yeniləşən Azərbaycana yeni məktəb” layihəsinin yalnız ilk mərhələsidir. Hazırda ikinci mərhələyə daxil olan məktəblərin siyahısı hazırlanır. Mən inanıram ki, 3-4 ildən sonra Azərbaycanın hər bir kəndində ən müasir tələblərə cavab verən məktəb binası olacaqdır.

**SUAL:** Siz həm də Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidentisiniz. Hamımız da bilirik ki, Fondun 10 illik yubileyi ərəfəsindəyik. Yaxın vaxtlarda bu Fondun xətti ilə hansı yeni layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Ümumiyyətlə, Fondun 10 illik fəaliyyətini necə qiymətləndirərdiniz? Üzeyir

Hacıbəyovun 120 və Yusif Məmmədəliyevin 100 illik yubileyləri ilə bağlı hansı tədbirlər planlaşdırılır?

**CAVAB:** Azərbaycan Mədəniyyətinin Dostları Fondunun yubileyini yeni layihələrlə qeyd emək istəyirik və hesab edirəm, ən böyük hədiyyə Üzeyir Hacıbəyov silsiləsindən ilk albom olacaqdır. Ümumiyyətlə, 2005-2006-cı illəri Üzeyir bəy Hacıbəyov illəri adlandırırıq. Bu sənətkarın adına layiq olan çox qlobal bir layihə hazırlayırıq. Üzeyir bəyin publisistikası, musiqi əsərlərinin not yazıları nəşr ediləcəkdir. Bir sözlə, Üzeyir bəy Hacıbəyovun bütün irsini əks etdirən bir layihə hazırlayırıq.

Görkəmli alim Yusif Məmmədəliyevin 100 illik yubileyi bu ilin sentyabr ayında YUNESKO tərəfindən Parisdə qeyd olunacaqdır. Ölkəmizdə bir sıra təntənəli tədbirlər nəzərdə tutulmuşdur.

**MÜXBİR:** Çox sağ olun, təşəkkür edir, bütün istiqamətlərdəki işlərinizdə uğurlar arzulayırıq.

**MEHRİBAN XANIM ƏLİYEVA:** Sağ olun.

***AzərTAc***

## *Mehriban xanım Əliyevanın “Caspian energy” jurnalına müsahibəsi*

“Heydər Əliyev Fondu ümummilli liderin kursunu davam etdirir”.

***MEHRİBAN ƏLİYEVA***

**Caspian Energy:** Mehriban xanım, rəhbərlik etdiyiniz Heydər Əliyev Fondu bu gün qarşısına hansı məqsəd və vəzifələri qoyur?

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyeva:

Heydər Əliyev Fondunun məqsədi Fondun Nizamnaməsində müəyyən edilmişdir, bu barədə ətraflı məlu-

matı bizim təşkilatın İnternet səhifəsindən ala bilərsiniz. Qeyd edim ki, bura, hər şeydən öncə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin irsinin öyrənilməsinə xidmət edən irimiqyaslı proqramların həyata keçirilməsinə dəstək vermək; Azərbaycan xalqının rifahının yüksəldilməsinə yönəldilmiş layihələrin həyata keçirilməsinə dəstək vermək; ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq; ölkənin iqtisadi potensialını möhkəmləndirmək; milli-mənəvi dəyərlərə sadiq gənclər yetişdirmək; Azərbaycanın beynəlxalq nüfuzunu artırmıq və s. daxildir.

**SUAL:** Heydər Əliyev Fondu gənc təşkilat olmasına baxmayaraq ölkənin ictimai həyatında əsas yerlərdən birini tutmağa nail olmuşdur. Fondun bugünkü fəaliyyəti və gələcək planları haqqında nə deyə bilərsiniz?

**CAVAB:** Artıq bir ildir ki, Heydər Əliyev Fondu ölkəmiz üçün əhəmiyyətli olan müxtəlif layihələrin inkişafında fəal iştirak edir. Fəaliyyətimizin birinci ili xeyli çətin və məsuliyyətli idi – layihələr üzərindəki işlərdən əlavə Fondun fəaliyyətinin təşkilatına və nizama salınmasına çoxlu güc və vaxt sərf olunmuşdur.

Buna baxmayaraq, birillik fəaliyyətimizə yekun vurmaq olar.

Fondun əsas fəaliyyəti əhalinin ən həssas təbəqəsinin, əsasən qaçqınların, məcburi köçkünlərin, aztəminatlı ailələlərin uşaqlarının, eləcə də uşaq evlərində və internat məktəblərində tərbiyə olunan uşaqların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəlmişdir.

Bu məqsədlə "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı yaranmışdır ki, onun çərçivəsində bu tip müəssisələrin vəziyyətinin monitorinqi keçirilmiş və uşaqların mütəmadi olaraq rast gəldiyi problemlər aşkara çıxarılmışdır. Biz Bakıdakı bütün belə müəssisələrə işgüzar səfərlər təşkil etmişdik. Monitorinqin nəticələrinə görə vəziyyəti acınacaqlı hesab olunan 10 məktəb müəyyən edilmişdir və ilk növbədə, məhz bu məktəblər əsaslı təmir olunmağa başlanmışdır. Əlbəttə,

biz bununla kifayətlənmək fikrində deyilik. Təmirə ehtiyacı olan qalan məktəblərdə təmir işlərindən başqa Fond tərəfindən uşaq evləri və internat yetirmələrinin sosial-psixoloji reabilitasiyasına imkan yaradacaq resurs mərkəzinin yaradılması planlaşdırılmışdır. Uşaqlara tibbi, hüquqi, psixoloji və gələcəkdə işə düzəlmək üçün lazım olan peşəkar bacarığa yiyələnməkdə onlara yardım göstəriləcək. Fond eyni zamanda səhiyyə sahəsində də layihələr həyata keçirir. Bunların içərisində xüsusilə “Diabetli uşaqlara ən yüksək qayğı” və “Talassemiyasız həyat naminə” layihələrini qeyd etmək lazımdır. Birinci layihə çərçivəsində diabetli uşaqların problemlərinin həllinə həsr olunmuş konfrans keçirilmiş, 14 yaşınadək olan diabetli uşaqlara dərman preparatları və iynələr paylanmışdır. Azərbaycanda belə uşaqların sayı 300-dən çoxdur və onların heç biri qayğı ilə əhatə olunmayıb. Hal-hazırda layihə üzrə işlər davam etdirilir və Fond uşaqlarımızın sağlamlığı üçün lazım olan hər bir şeyi onlara verir.

İkinci layihəyə gəlincə, təəssüflər olsun ki, bu, bu gün Fondun qarşısında duran ən çətin məsələlərdən biridir. Azərbaycan talassemiya xəstəliyinə düçar olmuş xəstələrin sayına görə dünyada aparıcı yerlərdən birini tutur, ölkədə 2 mindən artıq xəstə qeydə alınmışdır, tibb müəssisələrimizin professional-texniki imkanları isə belə təhlükəli düşmənlə mübarizə aparmağa imkan vermir. Eyni zamanda, bir çox ölkələrdə bu xəstəliklə mübarizədə müsbət nəticələr əldə edilmişdir.

Biz genişmiqyaslı profilaktik tədbirləri həyata keçirməklə bu ölkələrin təcrübəsini tətbiq etməyi planlaşdırırıq. Bu ağır xəstəliyə düçar olmuş xəstələrin problemləri Azərbaycanda yaradılacaq Talassemiya mərkəzi çərçivəsində Heydər Əliyev Fondu tərəfindən həll ediləcək.

Fond eyni zamanda Azərbaycanda müasir texnologiyaların inkişafı istiqamətində də müəyyən tədbirlər görür. Məsələn, böyük layihə olan “Azərbaycan” informasiya portalının yaradılması üzrə işlər yekunlaşmaq

üzrədir. Yaxın zamanlarda geniş auditoriyaya təqdim olunacaq portalın həcminə və keyfiyyətinə görə ölkədə analoqu yoxdur – onun yaranmasına Azərbaycanın aparıcı mütəxəssisləri cəlb olunmuş, çoxsaylı arxivlərdən, kitabxanalardan və dövlət müəssisələrindən dəyərli materiallar və sənədli bilgilər toplanmışdır.

Əminəm ki, "Azərbaycan" portalı Azərbaycan internetinin ən çox istifadə olunan və faydalı resurslarından biri olacaq.

Heydər Əliyev Fondunun yekunlaşmaq üzrə olan digər layihələrini də qeyd etmək lazımdır. Məsələn, Qaradağ rayonunda yaşayan 20 mindən artıq əhalini su ilə təchiz edəcək su kəmərinin çəkilişini, tarixi abidələrin və muzeylərin bərpasını, uşaqlar, qaçqınlar, əlillər və müharibə veteranları üçün həyata keçirilən tədbirləri.

Onu da əlavə etmək istəyirəm ki, əldə etdiklərimizlə kifayətlənmək fikrində deyilik və fəaliyyətimizin ikinci ilində Fond tərəfindən aparılacaq ictimai işlərin həcmi daha da artacaq.

**SUAL:** Mehriban xanım, Sizin sözlərinizdən belə bir nəticəyə gəlmək olar ki, Fond Azərbaycanın ictimai həyatının bütün sahələrində iştirak edir. Bəs Fondun fəaliyyətinin əsas prioritet istiqamətləri varmı?

**CAVAB:** Belə gətirib ki, Fond əsas diqqəti yetim uşaqlara, müxtəlif ağır xəstəliklərdən əziyyət çəkən uşaqlara ayırıb. Fondun uşaqlara belə yüksək səviyyədə qayğı göstərməsi Heydər Əliyevin istəyi və vəsiyyəti idi. Eyni zamanda, Heydər Əliyev Fondu çoxsahəli ictimai təşkilatdır. Gördüyünüz kimi, biz artıq səhiyyə, elm, məlumat, mədəniyyət, təhsil və başqa sahələrdə fəaliyyət göstəririk.

**SUAL:** Siz Heydər Əliyev Fondu tərəfindən tarixi abidələrin bərpasına toxundunuz, bu mövzunu daha aydın işıqlandıra bilərdinizmi?

**CAVAB:** Həqiqətən, Azərbaycanın mədəni-tarixi irsinin inkişafı və qorunması bizim birinci dərəcəli məsələlərimizdən biridir.

Biz ölkənin bu maraq dairəsində baş verən hadisələri diqqətlə izləyir və yaranan problemlərin həlli üçün bütün səyləri göstəririk. Mən Azərbaycanın tanınmış oğul və qızlarının adı ilə bağlı tarixi abidələrin bərpasını yalnız keçmişə hörmət və tarixi həqiqətin bərpası kimi deyil, eyni zamanda gənc nəsli milli-vətənpərvərlik ruhunda tərbiyə etməyin əsas elementi, Heydər Əliyevin "azərbaycançılıq" ideologiyasının inkişafı kimi qiymətləndirirəm.

Comərdi Qəssab, həqiqətsevər, müasirlərinin böyük hörmət və ehtiramını qazanmış Azərbaycanın ilk müsəlmanlarından biri, rəvayətə görə, imam Əlinin etibarına və hörmətinə malik idi.

Gəncə xanlığının müstəqilliyi uğrunda Rusiya imperiyasına qarşı mübarizə aparmış Cavad xan, həyat və fəaliyyəti bizim ölkənin vətəndaşlarına nümunə olan bir şəxsiyyətdir.

Bu xadimlərin tariximizdəki rolunu yüksək qiymətləndirərək, Heydər Əliyev Fondunun dəstəyi ilə Cavad xanın məzarı üstündə məqbərə ucaldılmış, Comərdi Qəssabın məqbərəsi köhnə layihələrə uyğun, qədim dövrün kərpicləri ilə yenidən bərpa olunmuşdur. Bu iki tarixi abidənin bərpası bu istiqamətdə həyata keçirdiyimiz yeganə layihələr deyillər. Məsələn, hal-hazırda Abdulla Şaiqin ev-muzeyi bərpa olunur.

**SUAL:** Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyev yüksək dövlət vəzifəsində çalışarkən daim Azərbaycan nümayəndələrini – tələbələri xaricə təhsil almağa göndərirdi. Heydər Əliyev Fondu belə proqramların həyata keçirilməsini nəzərdə tuturmu?

**CAVAB:** Heydər Əliyev Fondu ümummilli liderin kursunu davam etdirir və tələbələrimizin xaricdə təhsil almalarını mən, əlbəttə ki, ölkəmiz üçün vacib və lazımi bir proses kimi qiymətləndirirəm, lakin bizim üçün bu da vacibdir ki, müvafiq təhsil aldıqdan sonra istedadlı gənclər Azərbaycanda qalaraq, əldə etdikləri bilikləri Vətən naminə istifadə etsinlər. Bu gün bir neçə tələbə Fondun xətti ilə xarici ölkələrin müxtəlif ali mək-

təblərində təhsil alırlar. Biz əminik ki, dünyanın aparıcı universitetlərində əldə olunmuş biliklər ölkəmizin tərəqqi işinə böyük xeyir verəcək.

*"Caspian Energy" jurnalı*

## *Mehriban xanım Əliyevanın Parisdə YUNESKO-nun xoşməramlı səfirlərinin illik iclasından sonra jurnalistlərə müsahibəsi*

Martın 3-4-də Parisdə keçirilən YUNESKO-nun xoşməramlı səfirlərinin illik iclası başa çatdıqdan sonra Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban Əliyeva jurnalistlərin suallarına cavab vermişdir.

**SUAL:** Mehriban xanım, bu, xoşməramlı səfirlərin illik iclasında Sizin ilk iştirakınız idi. İclas və həmkarlarınızla birgə iş prosesi barədə nə deyə bilərsiniz?

**CAVAB:** Hesab edirəm ki, iclas yüksək səviyyədə keçdi. İclas çərçivəsində ümumi görüşlərlə bərabər, şəxsi görüşlərim də oldu. Cənab baş direktorla da görüşdüm. YUNESKO-nun baş direktoru Bakıya dəvətimi qəbul etdi və bu il ərzində ölkəmizə səfər edəcəyinə söz verdi. Bütün xoşməramlı səfirləri də Bakıya dəvət etdim. Ölkəmizlə bağlı həqiqətləri öyrənmək baxımından Azərbaycanda belə görüşlərin keçirilməsi çox faydalı ola bilər, ümumi işimizə xeyir verər.

Görüşlərim zamanı həyata keçirdiyimiz və nəzərdə tutduğumuz proqramlar barədə məlumat verdim, müxtəlif danışıqlar apardım. Mənə belə gəlir ki, görüşlərimiz çox faydalı oldu.

**SUAL:** Azərbaycan vətəndaşının ilk dəfə xoşməramlı səfir seçilməsi ölkəmizin tarixində mühüm hadisədir və YUNESKO kimi nüfuzlu bir təşkilat tərəfindən respublikamıza göstərilən yüksək etimaddır. Bu qurumla Azərbaycan arasında mövcud əlaqələrin daha da

inkişaf etdirilməsi və möhkəmləndirilməsi sahəsində gələcək fəaliyyətinizi necə təsəvvür edirsiniz?

**CAVAB:** Mən çıxışımda Azərbaycanla YUNESKO arasında çox sıx, çox yaxşı əlaqələr olduğunu bildirdim. Bir neçə layihəmiz vardır ki, onları YUNESKO ilə birlikdə həyata keçiririk. Məsələn, hazırda üzərində işlədiyimiz muğama həsr olunmuş layihələrin təqdimatı məhz Bakıda olmuşdur. Bu istiqamətdə böyük işlər görülmüşdür. Bundan əlavə, elə layihələrimiz də vardır ki, onların həyata keçməsi üçün YUNESKO ilə birlikdə iş aparırıq. Hesab edirəm ki, əlaqələrimiz yaxşı istiqamətdə davam edir və gələcəkdə daha sıx olacaqdır. Belə əlaqələr Azərbaycan üçün daha vacib və daha faydalıdır.

**SUAL:** İşğal olunmuş Azərbaycan ərazilərində mədəni abidələrin dağıdılması məsələsinin YUNESKO-da müzakirə olunması mümkündürmü?

**CAVAB:** Bilirsiniz ki, YUNESKO siyasətlə məşğul olmayan bir təşkilatdır. Buna baxmayaraq, bizim üçün ağrılı olan bu məsələni qaldırmaq lazımdır. Mən həm baş direktorla, həm də həmkarlarımla görüşlərimdə mövcud vəziyyət barədə məlumat verdim. Həmkarlarımdan bəzilərinin Azərbaycanda bir milyondan artıq insanın qaçqın və məcburi köçkün vəziyyətində yaşaması barədə məlumatları, demək olar ki, yox idi. Xoşməramlı səfirləri Bakıya dəvət etməkdə əsas məqsədim onlarla birlikdə qaçqın və məcburi köçkün düşərgələrinə baş çəkmək, soydaşlarımızın yaşadıqları şəraiti göstərməkdir.

Bildiyiniz kimi, bugünkü iclas "Hər bir insan üçün təhsil" probleminə həsr edilmişdi. Bizim çadır şəhərciklərində yaşayan ailələrdəki uşaqların hansı şəraitdə təhsil almaları barədə xoşməramlı səfirlərə məlumat verərkən onlar bunu çox təəccüblə qarşıladılar. Onlar mənə söz verdilər ki, Azərbaycanda olarkən mütləq çadır düşərgələrinə gedəcək və vəziyyətlə yerindəcə tanış olacaqlar.

Keçirdiyim görüşlər zamanı dağıdılmış abidələrimiz barədə də danışdım. Əlbəttə, bu istiqamətdə hələ

çox işləmək lazımdır və artıq bu səfərim zamanı həmin problemlə bağlı fəaliyyətə başlamışam.

*AzərTAc*
*2005, 4 mart*

## *Mehriban xanım Əliyevanın "İzvestiya" qəzetinin müxbirinə müsahibəsi*

**MEHRİBAN ƏLİYEVA**
**"Mən konkret iş görmək, konkret adamlara kömək etmək istəyirəm".**

Heydər Əliyev 1923-cü il mayın 10-da doğulmuşdur. Bu il 82 yaşı tamam olmalı idi. Amma qismət olmadı. O, səksən yaşında dünyasını dəyişdi. Özünün 80 illiyini qeyd etmək də ona nəsib olmadı. Dünyaya göz açmasının səksəninci gününü xəstəxana divarları arasında qarşıladı. Bu yubiley ərəfəsində bir çox ölkələr onu öz yüksək ordenləri ilə təltif etdilər. Lakin bu mükafatlar ona sağlığında təqdim edilməmiş qaldı. Heydər Əliyev həyatdan bütün milləti sıx birləşdirərək getdi. Bu da bir faktdır. Bir çox ölkələrin rəhbərləri onun xatirəsinə ehtiramını bildirmək, sonuncu "əlvida" sözünü demək üçün Bakıya gəldilər. Lakin o dekabr günündə baş verən bu kədərli və hüznlü hadisə apreldə hərbi məktəbin şagirdləri ilə görüş zamanı onun öz davranışı ilə nümayiş etdirdiyi borca sədaqətin yüksək nümunəsi ilə həmişə bərabər xatırlanacaqdır.

Heydər Əliyev həyatdan müəyyən bir missiyanı yerinə yetirərək getdi. Həyatdan heç də hər bir görkəmli siyasətçiyə, heç şübhəsiz ki, Heydər Əliyev belə siyasətçi idi, qismət olmayan tərzdə getdi. Özü də, tam əsasla deyə bilərik ki, özünün bütün işlərini səliqə-sahmana salaraq getdi. Yeni Azərbaycan dövlətçiliyinin qurulması sahəsində başladığı böyük işi öz məntiqini, dönməz xarakterini aldığı mərhələyə çatdıraraq həyatla vidalaşdı.

Bu gün millətin atasının işini Heydər Əliyevin oğlu layiqincə davam etdirir. Onun üzərinə ikiqat məsuliyyət düşür. O, ilk növbədə, millət qarşısında cavabdehdir. Bununla yanaşı, o, öz atası qarşısında daxilən cavabdeh olmaya bilməz, özünü nüfuz və etibardan sala bilməz, apardığı siyasəti Heydər Əliyevin müəyyən etdiyi yüksək səviyyədən aşağı sala bilməz. İlham Əliyevin prezidentliyinin ötən ilyarımı göstərdi ki, o, nəinki atasının xəttini qoruyub saxlamağa və davam etdirməyə, həm də gələcək üçün inkişaf etdirməyə qadirdir.

Böyük siyasi işlərdə getdikcə yeni-yeni amillər hərəkətə gətirilir və onlar strateji və taktiki nəticələrə nail olmaq üçün çox vaxt keyfiyyətcə yeni imkanlar yaradır. Müasir siyasi liderlərin nümayəndəsi kimi İlham Əliyevə bu baxımdan hazırda xanımı Mehriban Əliyeva misilsiz kömək göstərir. Birlikdə götürdükdə, müasir dünyada birinci xanımın rolu bəzən çox əhəmiyyətli olur.

Amma Mehriban xanım üçün bu, "sadəcə, özünü göstərmək" kimi müasir dəbə ehtiram əlaməti deyildir. O, öhdəsinə götürdüyü müstəqil vəzifəni tam düşünülmüş surətdə və inamla yerinə yetirir, artıq neçə aydır YUNESKO-nun xoşməramlı səfiri olaraq, çox ciddi humanitar proqramlar həyata keçirir.

İlk baxışdan, düşünmək olar ki, heç bir rəsmi səlahiyyət və müstəsna hüquq verilməyən adam nə edə bilər? Müqavilə imzalamaq – bunu edə bilməz, rəsmi danışıqlar aparmaq – onu da edə bilməz. Məgər müasir siyasətdə və diplomatiyada hər şey ancaq rəsmi yollarla həll edilir? Bəs bir qərara gəlmək üçün bütün imkanlar sanki tükəndikdə nə etməli? Bəzən hər hansı bir məsələ barəsində kiminləsə elə-belə söhbət (əslində isə, bu, sırf zahiri təsəvvürdür, çünki siyasətdə söhbətlər olmur) çox şeyi həll edir. Bəs nə mənfəət, nə də əlüstü qazanc gətirən, ona görə də böyük və sanki "ciddi" siyasətçilər üçün "maraqlı olmayan" ümidsiz humanitar problemlərin həllinə kim girişərdi? Halbuki, hər bir belə humanitar problemin arxasında ayrıca bir insan faciəsi (və özlüyündə ümumbəşəri faciə) durur!

Bax, Mehriban Əliyeva bu cür işə girişmişdir və onu layiqincə yerinə yetirir.

**SUAL:** Mən söhbətimizi bundan başlamaq istərdim Siz Mehriban xanımsınız. Adınızın rus dilində gözəl mənaları var-şəfqətli, sevimli. Həqiqətən, Siz mehriban, xeyirxah, nəvazişli, sevimli insansınız, xoşməramlı səfirsiniz, habelə Azərbaycan Milli Olimpiya Komitəsinin üzvüsünüz. Olimpiya oyunları da xoşməramlı oyunlardır. Belə çıxır ki, Mehriban xoş məramdır və gözəl keyfiyyətlərin mücəssəməsidir. Qızlarınızın adı nədir?

**CAVAB:** Leyla və Arzu. Çox gözəl Azərbaycan adlarıdır. Arzu istək, dilək, həsrət mənasındadır. Leyla gecə, qaranlıq gecə deməkdir.

Həqiqətən, belə bir nəzəriyyə var ki, insan doğularkən verilən ad onun bütün taleyinə təsir göstərir. Deyə bilmərəm, bu nəzəriyyə real həyatda özünü nə dərəcədə doğruldur, amma yaxşılıq, mərhəmət kimi anlayışlar mənim üçün, həqiqətən, ümdə anlayışlardır. Zənnimcə, geniş anlamda, mərhəmət ən yaxşı və ən ülvi insani keyfiyyətlərdən biridir.

**SUAL:** Sizin çıxışlarınızı (eləcə də həyat yoldaşınızın çıxışlarını) dinləyənlər rus dilini gözəl bildiyinizi qeyd edirlər. Hazırda Azərbaycanda rus dili ilə əlaqədar vəziyyət necədir və o, məişətdə nə dərəcədə yayılıb? Rus məktəbləri necə fəaliyyət göstərir? Rus dili Azərbaycan üçün nə deməkdir?

**CAVAB:** İlk növbədə demək istəyirəm ki, son 10-12 ildə Azərbaycanda tədris rus dilində aparılan heç bir məktəb bağlanmayıbdır. Bütün ali məktəblərdə dərslər rus dilində keçilən fakültələr qalır.

200 il ərzində Rusiya ilə yanaşı yaşama rus dilini həm mədəni, həm də adi həyatın təzahürünə çevirmişdir. Bakıda Rus Dram Teatrı kimi gözəl bir teatr işləyir, repertuarına, əsasən, rus klassiklərinin və rusdilli müəlliflərin müasir pyesləri daxildir. Musiqili Komediya Teatrında gözəl rus truppası var.

Rus dili bizim üçün, əvvəlkitək, təkcə böyük rus mədəniyyətinin dili deyil, həm də ünsiyyət və informa-

siya almaq vasitəsidir. Şəxsən mənim üçün istər sovet dövründə, istərsə də indi "İnostrannaya literatura" jurnalı dünya ədəbiyyatının müxtəlif əsərləri ilə tanışlıq imkanıdır.

Əlbəttə ki, indi gənclər rus dili ilə yanaşı, digər xarici dilləri də fəal öyrənirlər. Bu, normal meyildir. Amma bir çox nəsillərin səyləri ilə toplanmış çox böyük tarixi təcrübə, mədəniyyətlərin dialoqunun verdiyi belə gözəl nəticələr bizim üçün son dərəcə qiymətlidir. Azərbaycanda bu gün də ziyalıların xeyli hissəsi Rusiya elitası ilə elmi əlaqələri və yaradıcılıq əlaqələrini nəinki saxlayıb, həm də rus dilindən kifayət qədər fəal istifadə edir. Rus dilində yazan Maqsud İbrahimbəyovun yaradıcılığı buna ən parlaq misaldır.

Yeri gəlmişkən, bizdə Rus Dili və Ədəbiyyatı İnstitutunun bazasında Slavyan Universiteti yaradılıb. Burada rus dili mütəxəssisləri ilə yanaşı, bütün slavyan dilləri üzrə də kadrlar hazırlanır.

**SUAL:** Rusiyada Azərbaycan ili. Siz "İrs" ("Naslediye") jurnalının təsisçisisiniz. Gözəl jurnaldır. Mən Heydər Əliyeviçə həsr edilən sonuncu nömrəni oxumuşam. Çox maraqlı nömrədir, özü də nəfis tərtib edilib. Təəssüf ki, Rusiyada heç də hamının, hətta Qafqazla, Azərbaycanla maraqlananların da bu jurnalın varlığından xəbəri yoxdur. Siz onu hansısa şəkildə Rusiya auditoriyasında yaymaq fikrində deyilsinizmi? Heç olmasa, diaspor vasitəsilə? Belə planlarınız varmı? Azərbaycan ilinin proqramı sayəsində indi Siz Azərbaycan mədəniyyətinin Rusiyada öyrənilməsinə öz töhfənizi verə bilərsiniz. Mədəni irsin himayədarı kimi nə kimi işlər görməyi planlaşdırırsınız?

**CAVAB:** Planlar çoxdur. Hamısından danışmaq çox çətindir. Biz Rusiyada Azərbaycan ilindən elə istifadə etmək istəyirik ki, həm paytaxtda, həm də Rusiyanın ucqarlarında mədəni irsimizi yaxşı bilən adamlar olsun. Çox zəngin olan Azərbaycan mədəniyyəti, özünə maraq doğurmağa qadirdir, onu sevmək üçün onu öyrənmək kifayətdir.

10 il əvvəl biz "Azərbaycan Mədəniyyətinin Dostları" Fondunu yaradarkən onun əsas məqsədi Azərbaycan mədəniyyətini təbliğ etmək, tanıtdırmaq idi. "İrs" jurnalını da mən elə onda təsis etdim. Jurnal, əslində, Fondun fəaliyyətini işıqlandırmaqla məşğul olurdu və müəyyən bir mövzuya həsr edilən hər bir nömrə həm populyar, həm də tədqiqat materialı idi. İftixarla deyə bilərəm ki, Azərbaycan mədəniyyəti barədə bizdən əvvəl hələ heç kim belə şirin yazmayıbdır. Məsələn, miniatürdən və ya memarlıq abidələrindən yazmağı qarşımıza məqsəd qoyduqda, əməkdaşlığa, əslində, həm akademiya alimlərini, həm jurnalistləri, həm də sənətşünasları cəlb etmişik.

Fond da, jurnal da kifayət qədər mürəkkəb vəzifələri yerinə yetirməli idi. O illər müstəqil Azərbaycanın təşəkkül illəri idi. Siyasi, iqtisadi dəyişikliklərlə yanaşı, köhnə ideologiyadan xilasolma prosesi də gedir, stereotiplər dağıdılırdı. Kifayət qədər təlatümlü həmin dövrdə mədəni irsimiz yenidən fikir süzgəcindən keçirilir, əzəli milli ənənələrə və köklərə qayıdılırdı. Yeri gəlmişkən, azərbaycanlıların ümumdünya qurultayının iştirakçılarına jurnalın bir çox müxtəlif nömrələri paylanıldı və diasporun nümayəndələri bunu çox yüksək qiymətləndirdilər. Əlaqələrimiz yarandı və o vaxtdan bəri jurnalın hər bir nömrəsini onunla maraqlananların ünvanına göndəririk. Zənnimcə, jurnalın elektron versiyasına ehtiyac artıq çoxdan yaranmışdır. Onu bütün Rusiya auditoriyasında yaymaq isə kifayət qədər ciddi layihədir və bu barədə düşünmək olar.

Adətən belə hesab edilir ki, bizdən uzaq olan ölkələrə nisbətən, yaxın qonşular kimi biz bir-birimizi daha yaxşı tanıyırıq. Amma reallıqlar göstərir ki, bu, heç də belə deyildir. İstərdik ki, Azərbaycan ili, eləcə də sonrakı il – Azərbaycanda Rusiya ili bu məsələdə bizə kömək etsin.

Dünya informasiyanı, əsasən, internet mənbələrindən istifadə etməklə alır. Düşünürəm ki, bunu şərh etməyə dəyməz, sadəcə olaraq, fakt kimi qəbul etmək

və onu maksimum işə salmağa çalışmaq gərəkdir. Heydər Əliyev Fondunda biz "Azərbaycan" adlı xüsusi sayt hazırlayırıq. Burada bütün ölkə haqqında geniş informasiya toplamaq istəyirik. Bu sayt mayın axırlarında açılacaqdır. Hələlik təkcə Azərbaycan, rus, ingilis dillərində. Gələcəkdə bir sıra dilləri də əlavə etmək fikrindəyik.

**SUAL:** Bəs, xəbərlər lenti də olacaqmı?

**CAVAB:** Mütləq olacaq.

**SUAL:** Bu lent gün ərzində neçə dəfə təzələnəcək?

**CAVAB:** Gündə minimum üç-dörd dəfə.

**SUAL:** Saytı özünüz hazırlayırsınız, yoxsa Rusiya mütəxəssislərini cəlb edirsiniz?

**CAVAB:** Xeyr. Hər şeyi özümüz edirik. Yeganə olaraq, mütəxəssisləri tərcümə üçün cəlb edirik.

**SUAL:** YUNESKO muğamı dünya irsi hesab etmişdir. Siz bu qədim musiqi ənənəsinin himayədarısınız. Bu yaxınlarda Azərbaycanda "Qarabağ xanəndələri" albomu buraxılmışdır. Bu ideya kimin ağlına gəlmişdir? Fondunuzun belə musiqi toplusunu rus dinləyicilərinə təqdim etmək planları varmı? Azərbaycan xalq musiqisi müntəxəbatından məqalələrin rus dilində dərc ediləcəyini gözləmək olarmı?

**CAVAB:** Ondan başlayım ki, "Qarabağ xanəndələri" albomunda material Azərbaycan, rus, ingilis və fransız dillərində verilmişdir. Aydındır ki, musiqinin özünün tərcüməyə ehtiyacı yoxdur.

Muğama dair müxtəlif albomlar buraxacağımızla yanaşı, muğam haqqında elmi işlərdən ibarət xüsusi seriya da hazırlayırıq. Buraya həm orta əsrlərdə yaşayıb-yaratmış müəlliflər, eləcə də hələ 1980-ci illərdə muğama dair gözəl monoqrafiya buraxmış fransız tədqiqatçısı Dürinq kimi muğamın müasir tədqiqatçıları daxil olacaqlar. Təbii ki, istənilən belə layihə bir neçə dildə buraxılacaqdır. Muğam problemlərinə dair müxtəlif simpoziumlar, "dəyirmi masa"lar, qeyri-formal görüşlər keçirmək nəzərdə tutulur və ümidvaram ki, Rusiya sənətşünasları bu tədbirlərdə iştirak edəcəklər.

Bildiyiniz kimi, YUNESKO mənə “Xoşməramlı səfir” adı verilməsi haqqında qərar qəbul etmişdir. Mən şifahi və musiqi ənənələri üzrə səfirəm. Tamamilə təbiidir ki, dünya irsinin inciləri siyahısına daxil edilən muğam mənim fəaliyyətimin əsas sahəsi olmuşdur. Lakin, əlbəttə ki, Azərbaycan xalqının çox zəngin musiqi ənənələri təkcə muğamla məhdudlaşmır. Qarşıda aşıq yaradıcılığına dair, çox nadir ənənə olan və sovet dövründə aşağı səviyyəyə endirilən meyxanaya və bir sıra digər sənət növlərinə dair hələ nə qədər layihə və niyyətlər var.

“Qarabağ xanəndələri” albomunun təqdimatı göstərdi ki, belə layihələrə ehtiyac çox böyükdür.

**SUAL:** “Qarabağ xanəndələri” albomunu buraxmaq ideyası Sizə məxsusdur?

**CAVAB:** Bəli, bu, mənim təşəbbüsüm idi. Bilirsinizmi, muğam hər bir azərbaycanlının genetik kodudur. Hətta müəyyən səbəblər üzündən muğamı hələ başa düşməyən və dinləməyən, amma buna hökmən, mütləq gəlib çıxacaq ən gənc azərbaycanlının da genetik kodudur.

İstənilən musiqinin – simfonik, populyar və ya xalq musiqisinin, fərqi yoxdur, – öz yeri var. Pisi odur ki, hansısa birinə üstünlük verilir. Bu, televiziyada xüsusən parlaq təzahür edir. Təəssüf ki, müasir həyatda teleməkandan nə kənarda qalırsa, belə təsəvvür yaranır ki, o, sanki mövcud deyildir. Deyə bilmərəm ki, ölkəmizdə xalq musiqisi ilə, xüsusən muğamla bağlı problemlər olmuşdur. Sadəcə olaraq, yeni impuls gərək idi. Qeyri-adi yanaşma lazım idi.

Biz muğam ustaları ilə birinci dəfə “dəyirmi masa” arxasına toplaşaraq, ilk yeddi layihəmizi onların mühakiməsinə verdikdə, bu korifeylərin rəyini eşitmək mənim üçün son dərəcə vacib idi. Söhbətimiz alındı. Muğama dair konkret proqram da bu söhbətin nəticəsi oldu və o, YUNESKO-nun himayəsi ilə həyata keçirilməyə başlandı.

Lakin Xoşməramlı səfir kimi mənim fəaliyyətim, ümumən, şifahi ənənələrin və musiqi ənənələrinin qo-

runub saxlanılmasına yönəldilmişdir və bu fəaliyyəti ancaq Azərbaycanla məhdudlaşdırmaq düzgün olmazdı. Yeri gəlmişkən, bu ilin əvvəlində Kazanda YUNESKO-nun regional müşavirəsində çıxışımda mən gözəl Sabantuy bayramı kimi şifahi ənənənin yaşadılmasını dəstəklədim.

Muğam ümumdünya irsidir, lakin indiyədək ona vahid yanaşmalar, köklərə müraciət, muğamın fəlsəfi aspektlərinin öyrənilməsi mövqelərindən baxılmamışdır. Biz Bakıda Beynəlxalq Muğam Mərkəzi tikmək fikrindəyik. Prezident artıq fərman imzalamışdır və düşünürəm ki, bu mərkəz regional layihələrdə son dərəcə mühüm rol oynayacaqdır.

**SUAL:** Deməli, Siz Prezidentin Fərmanına yol açdınız?

**CAVAB:** Gəlin belə deyək: Mərkəzin yaradılması problemi hamımız tərəfindən qoyulmuşdu. Onun həllinin bir neçə variantı vardı və bunlar mərkəzin mövcud olan binalardan birində yerləşdirilməsini nəzərdə tuturdu. Prezident qərara aldı ki, yeni tikintiyə başlamaq daha yaxşıdır. Bu, sadəcə, mədəniyyət xadimlərinin qarşıya qoyduqları problemlərə dövlətin reaksiyasıdır. Yəqin ki, bu, dövlətlə vətəndaş cəmiyyətinin qarşılıqlı münasibətlərinin normal formasıdır.

Bu, təbiidir, necə ki, "Qarabağ xanəndələri" albomunu buraxdıqdan sonra "Qarabağ" kitabını hazırlamağa başlamağımız da təbii idi.

Məlumdur ki, Azərbaycanda bir neçə muğam məktəbi var. Aparıcı məktəblərdən biri məhz Qarabağ muğam məktəbidir. Hazırda o, böyük təhlükə qarşısındadır, bu janrın gənc ifaçılarının sayı xeyli azalmışdır. Balaca muğam ifaçılarını, adətən, Qarabağ bülbülləri adlandırırlar. Bu gün Qarabağın sakinləri olan məcburi köçkünlərin düşərgələrində böyüyən uşaqlar daha muğam oxumurlar, onların arasında belə Qarabağ bülbülləri son dərəcə azdır. Oxumaq üçün onlara Qarabağ dağları, Qarabağ təbiəti, Qarabağ torpağı lazımdır. Azərbaycan mədəniyyətinin Üzeyir Hacıbəyov və Bülbül

kimi belə böyük korifeylərinin Şuşada doğulduqlarını demək kifayətdir. Bax, beləcə, sırf musiqi layihəsindən siyasi layihə yarandı.

Qarabağ bizim ağrı-acımız, tariximiz, milli sərvətimizdir. Tezliklə "Qarabağ" kitabı çapdan çıxacaqdır. Yeri gəlmişkən, əlavə etmək istəyirəm ki, hazırda "Hacıbəyov" şərti adı altında böyük layihə üzərində intensiv iş gedir. Bu layihədə Hacıbəyovun bütün əsərlərinin, o cümlədən klavirlərinin yenidən çap olunması ilə yanaşı, onun bütün əsərlərinin CD və DVD-də buraxılması da nəzərdə tutulmuşdur. Bu layihəni ətraflı şərh etmək istəmirəm, lakin mənə elə gəlir ki, bizdə hələ indiyədək belə miqyasda və səviyyədə layihələr olmamışdır.

Mən YUNESKO-nun Xoşməramlı səfiriyəm. Bu təşkilat siyasi məsələlərlə məşğul olmur. Parisdə olarkən söhbətlərimiz zamanı deyirdim: "Yaxşı, biz işğal probleminə toxunmuruq, biz siyasi problemlərə toxunmuruq, lakin axı, bir milyon qaçqın-köçkün çadır şəhərciklərində yaşayır, uşaqlar təhsil almırlar. Dövlət bütün bu problemləri həll etmək iqtidarında deyildir. Təhsil YUNESKO-nun fəaliyyət sahəsidirmi? Bəli. Onda bəs, uşaqlarla nə etməli? Axı, onlar böyüyürlər. Onlar üçün vaxt itirilmişdir, onlar lazımi təhsil almırlar".

Sonra. Muğam, muğam problemi. Biz bu səsləri itiririk, bunun əvəzi heç vaxt qaytarılmayacaq. Biz memarlıq abidələrini itiririk, onlar dağıdılmışdır.

Artıq bu ərazilərdə dünya mədəniyyətinin nə qədər incilərinin məhv edildiyi haqqında ekspert rəyləri var. Biz bu məsələləri qaldırmalıyıq. Ona görə də qərara aldıq ki, o cümlədən muğam vasitəsilə Qarabağ problemi haqqında həqiqəti dünya birliyinə çatdıraq.

**SUAL:** Azərbaycanda sosial proqramlar. İÇV, hepatit və sair kimi viruslu infeksiyalarla mübarizə sahəsində vəziyyət necədir? Çoxuşaqlı ailələrə müavinət necə ödənilir? Yoxsulluqla mübarizədə hansı uğurlar qazanılmışdır?

**CAVAB:** Dərhal demək istəyirəm ki, Heydər Əliyev Fondu 2004-cü il mayın 10-da fəaliyyətə başlamışdır.

Bir ildir ki, işləyirik. Fəaliyyət dairəsi çox böyükdür. Bu Fondun başlıca vəzifəsi və məqsədi Heydər Əliyev irsini qoruyub saxlamaqdır. Biz Heydər Əliyev Universitetini, Heydər Əliyev İrsinə dair Elmi-Tədqiqat İnstitutunu yaratmağa hazırlaşırıq, yəni böyük, qlobal layihələr planlaşdırırıq, lakin Fondun yarandığı ilk gündən sosial problemlərlə məşğul olmağa başladıq. Bu problemlər, ilk növbədə, qaçqınlar və məcburi köçkünlərin, uşaq evləri və internat məktəblərinin, müxtəlif xəstəliklərdən əziyyət çəkən insanların problemləridir.

Bəri başdan demək istəyirəm ki, biz bilavasitə yoxsulluq problemləri ilə məşğul olmuruq. Azərbaycanda yoxsulluğun azaldılmasına dair dövlət proqramı var və o, beynəlxalq qurumlarla sıx əməkdaşlıq şəraitində gerçəkləşdirilir. Özü də nəzərə almaq lazımdır ki, əslində bizdə sosial dotasiya sistemi yoxdur, yəni Rusiyada monetizasiya adlanan proses bizdə artıq reallaşdırılmış və kifayət qədər sakit şəraitdə keçmişdir.

Uşaq səhiyyəsi proqramlarından ikisini – diabet və talassemiya xəstəlikləri ilə bağlı proqramları qeyd etmək istəyirəm. Uşaq diabeti ilə bağlı vəziyyət nisbətən düzəlmiş, proqram isə başlamışdır. Talassemiya problemi isə daha mürəkkəbdir: təəssüf ki, Azərbaycan talassemiyanın kifayət qədər geniş yayıldığı ölkələrə aiddir. Məlumdur ki, bu, qanın genetik xəstəliyidir. Lakin bir sıra Aralıq dənizi ölkələrinin təcrübəsi göstərir ki, bu xəstəliklə müvəffəqiyyətlə mübarizə aparmaq olar. Fond hazırda gündüz stasionarının da olacağı talassemiya mərkəzi tikir. Nə qədər ki, tikinti gedir, biz mütəxəssislər üçün məşğələlər keçirir, onları bir sıra ölkələrə təcrübə keçməyə göndəririk.

Uşaq evləri və internat məktəblərinə dair dörd böyük layihə gerçəkləşdirilmişdir, hazırda 12 məktəb təmir olunur. Mən şəxsən 28 internat məktəbində olmuşam və proqramımda ölkənin, əslində, hər bir belə müəssisəsinə getmək nəzərdə tutulmuşdur. Əlbəttə, getmək deyəndə, konkret yardım göstərmək də nəzərdə tutulur.

Onlara isə müxtəlif, hər cür kömək lazımdır. Elə problemlər var ki, onları dərhal və nisbətən asanlıqla həll etmək olur. Əlbəttə, bu, təmir, təchizat və təminat problemləridir. Lakin konkret problemləri həll edərkən, qlobal problemləri də unutmaq olmaz. Məsələn, uşaq evləri və internat məktəblərinin bütün sisteminin sovet pedaqogikası və təhsilin sovet sistemi ilə idarə olunması çərçivəsində yarandığını nəzərə almaq son dərəcə vacibdir. Ona görə də digər ölkələrin təcrübəsindən faydalanmaq və istifadə etmək üçün qapıları açmaq zəruridir.

Biz təhsil işçiləri, Azərbaycanda təmsil olunmuş müxtəlif ictimai təşkilatların nümayəndələri, ayrı-ayrı ölkələrin Azərbaycandakı səfirlərinin xanımları ilə dəfələrlə bir yerə toplaşaraq, problemləri müzakirə etmişik. Təkliflər hədsizdir – mövcud sistemi ləğv edib “ailəvi uşaq evləri”nə keçməkdən tutmuş konkret dərs vəsaiti yardımınadək. Önəmlisi odur ki, problemlərə heç kəs biganə deyildir. İndi bir çox qurumlar və insanlar Fondla bu istiqamətdə əməkdaşlıq əlaqələri yaradırlar. Lakin daha qlobal vəzifələr son dərəcə ləng həll olunur.

Tibb işçisi kimi çox gözəl başa düşürəm ki, psixi və fiziki qüsurları olan uşaqlar yalnız nəticədir, çox mürəkkəb ictimai proseslər zəncirində axırıncı halqadır. Bunun arxasında yoxsulluq, zərərli adətlər və bəzən də sadəcə, müəyyən zəruri tibbi biliklərin yoxluğu dayanır. Bütün bunlar uzunmüddətli proqramların gerçəkləşdirilməsini tələb edir. Biz reallaşdırılması illərlə çəkəcək layihələrdən qorxmuruq, lakin eyni zamanda gözəl anlayırıq ki, bizdən ani tezliklə yardım və fayda gözləyirlər. Bütün bunları vəhdət halında birləşdirmək mürəkkəb vəzifədir, lakin necə deyərlər, yolun öhdəsindən yolçu gələr.

**SUAL:** Siz qaçqınların hazırkı vəziyyətini necə təsvir edərdiniz, onların, ilk növbədə nəyə ehtiyacı var?

**CAVAB:** Bu elə bir problemdir ki, hətta hər şey nizama salındıqdan sonra belə onu unutmaq çətin olacaqdır. Mən inanıram ki, həqiqət zəfər çalacaq və

Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Dağlıq Qarabağ münaqişəsi, ilk növbədə, görünməmiş humanitar fəlakətdir. Bir milyon qaçqın-köçkünün hər birinin öz şəxsi faciəsi var.

Onların, ilk növbədə köməyə və həyanlığa ehtiyacı var. Görəydiniz ki, hər bir nümayəndə heyətini necə ümidlə qarşılayırlar. Düşünürlər ki, bəlkə bunlar doğma yerlərə qayıtmaqda nə iləsə kömək edəcəklər. Çox vaxt isə onları narahat edən problemləri, sadəcə, kiməsə danışaraq, ürəklərini boşaltmağa ehtiyac duyurlar.

Bəli, biz bu gün Azərbaycan dövlətinin və Azərbaycan cəmiyyətinin imkanı çatan hər şeyi edirik. Neft Fondundan ilk vəsait məhz qaçqın-köçkünlər üçün şəhərciklərin tikintisinə və onların çadır düşərgələrindən köçürülməsinə xərclənmişdir. Onlarla ünsiyyət zamanı bu insanların hədsiz dözümlülüyü və elə bir o qədər də hədsiz inamı adamı heyrətə gətirir. Onlar ədalətin zəfər çalacağına, işğal olunmuş torpaqların azad ediləcəyinə və yenidən ev-eşik sahibi olacaqlarına inanırlar.

**SUAL:** Böyük Vətən müharibəsində Qələbənin 60 illiyidir. Siz Moskvada keçirilən bayramda iştirak etmisiniz. Şəxsən Sizin üçün 9 May nə deməkdir?

**CAVAB:** Moskvada keçirilən bayram olduqca nadir hadisə idi və məncə, onun iştirakçılarının heç biri buna biganə qalmamışdır. Mənim üçün Qələbə bayramı, ilk növbədə, şərin cəzalandırılacağı və xeyirin qalib gələcəyi mövzusunda daha bir tarix dərsidir. 600 mindən çox azərbaycanlı cəbhəyə getmiş və onların yarısından çoxu geri qayıtmamışdır. O illərdə cəbhəyə lazım olan neftin 90 faizdən çoxunu Bakı verirdi. Məşhur "Molotov kokteyli" də Azərbaycan neftçilərinin məhsulu, daha dəqiq desək, 100 yaşı YUNESKO tərəfindən bu il qeyd olunan akademik Y.Məmmədəliyevin kəşfidir.

Burada müharibə kişilər kimi qadınları da, uşaqları da səfərbər etmişdi, onlar neft mədənlərində ərlərini və atalarını əvəz etmişlər. Bir sözlə, Azərbaycanda müharibə ilə bu və ya başqa dərəcədə əlaqəsi olmayan

ailə yox idi. Mənim valideynlərim müharibə vaxtı uşaq idilər, müharibə dövrünün uşaqları.

Biz Heydər Əliyev Fondunda veteranlarla çox gözəl görüş keçirdik. Həmin görüşdən qəlbimi sıxan qarışıq hisslə – iftixar və kədər hissi ilə ayrıldım. Qələbə bayramı, ilk növbədə, veteranların bayramıdır, onları qorumaq, onların qayğısına qalmaq lazımdır.

**SUAL:** Ərinizin prezident vəzifəsinə seçilməsi ilə həyatınızda nə kimi dəyişiklik baş vermişdir? Göz qabağında olmağınız Sizi narahat etmirmi? Uşaqlarınız, ciddi ictimai işiniz var. Prezidentin xanımı olmaq çətindirmi?

**CAVAB:** Bir kəlmə ilə desək, çox məsuliyyətlidir. Həyatıma gəldikdə isə, demək olar ki, dəyişməmişdir. Mən uşaqlıqdan daim kütləvilik elementi olan mühitdə böyümüşəm. Əgər nəzərə alsaq ki, Heydər Əliyevin ailəsinin üzvü olanda birinci kursda oxuyurdum, deməli ki, 20 ildən artıq bir müddətdə bir çox amillər formalaşmış davranış tipini şərtləndirmişdir. Odur ki, xüsusi dəyişikliklərin baş verdiyini demək mənim üçün çətindir.

Dəyişən başqa şeydir – məndən kənarda olan nə isə dəyişmişdir. Məsələn, ömür boyu mənim həyat amalım belə olmuşdur ki, etmək istədiyin yaxşılığı heç vəchlə gözə çarpdırmaq olmaz. İndi mən bundan, demək olar ki, məhrumam. Birinci xanım statusunda mən elə bir xeyriyyə aksiyası keçirə bilmirəm ki, o, ictimaiyyətin diqqətini cəlb etməsin. Bu, kütləvilik amili məni sıxsa da, yaşayışıma bəzi yeniliklər gətirir və mən bunu olduğu kimi qəbul edirəm. Bu isə özünü göstərməkdən tamamilə uzaq adam kimi mənə kifayət qədər çətin olur.

**SUAL:** Uşaqların buna münasibəti necədir?

**CAVAB:** Müxtəlifdir. Heydər, yəqin ki, bütün bunları sadəcə olaraq görmür. Heç nədən asılı olmayaraq, biz, onun nəzərində ən başlıca adamlarıq və əlbəttə ki, bizdən güclü, ağıllı və xeyirxah heç kim ola bilməz. Qızlar isə artıq böyükdürlər və məncə, üzərlərinə düşən məsuliyyət yüklərini layiqincə daşıyırlar.

**SUAL:** Ölkənin siyasi həyatında müxalifətsiz, söz azadlığı olmadan keçinmək mümkün deyil. Ailənizdə söz azadlığı baxımından vəziyyət necədir və "müxalifət" varmı?

**CAVAB:** Ailə, ilk növbədə həmfikirlər deməkdir. Bu insanlar – oxşar həyat prinsipləri və mənəvi dəyərləri olan kişi və qadındır. Odur ki, məncə, ailədə sözün radikal mənasında müxalifət olmamalıdır. İlhamla mənim çox şeylər barədə təsəvvürümüz eynidir. Biz təxminən oxşar mühitdə böyümüşük. Bu, ötən əsrin bütün mürəkkəbliklərinə baxmayaraq, öz ideallarına, mənəvi dəyərlərinə, milli ənənələrinə sadiq qala bilən Azərbaycan ziyalılarıdır. Belə köklərə malik olmaq xoşbəxtlikdir.

Qadın, hətta əgər o, prezidentin xanımı da olsa, hər şeydən əvvəl, qadındır, ailədə sülhün, razılığın və məhəbbətin təminatçısıdır. Mənim üçün çox vacibdir ki, həyat yoldaşım olduqca dolğun və gərgin iş günündən sonra evə gəlir və burada onu anlayır və dəstəkləyirlər, onu qiymətləndirir və sevirlər. Mən həm dost, həm də sevimli olmaq istəyirəm.

**SUAL:** Siz buna yəqin ki, nail ola bilirsiniz.

**CAVAB:** Nail ola bilib-bilmədiyimi İlhamdan soruşmaq lazımdır.

**SUAL:** Siz xalq ənənələrini dəstəkləyirsiniz, dünya mədəniyyətinin bir hissəsi kimi muğamı inkişaf etdirirsiniz. Siz dindar adamsınız? Görkəmli dövlət xadimlərinin müqəddəs yerləri nümayişkaranə ziyarət etməsinə münasibətiniz necədir?

**CAVAB:** Mən Allaha inanıram. Dindar deyiləm, məhz Allaha inanıram, bu anlayış mənim daxili aləmimi daha dəqiq əks etdirir.

Dövlət xadimlərinin müqəddəs yerləri nümayişkaranə ziyarət etməsinə gəldikdə isə, zənnimcə, bu onların günahından çox bədbəxtçiliyidir. Belə ki, Allahla və Müqəddəsliklə təmas kimi sırf şəxsi məsələ də protokola tabe olur və kütləvilik elementinə çevrilir. Hesab edirəm ki, buna görə onların daxili ehtiyacını şübhə altına almaq lazım deyildir.

**SUAL:** Siz ixtisasca həkim-oftalmoloqsunuz. Peşənizi unutmamısınızmı?

**CAVAB:** Birinci Moskva Tibb İnstitutunda təhsilimi başa vurduqdan sonra Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda işləmişəm. Mən uzun müddət ixtisasım üzrə işləməmişəm. Buna görə də, təbii ki, çox şey unudulubdur. Oftalmologiya elə bir sahədir ki, əgər bir-iki ay yayındınsa, gərək ötürdüklərinin yerini doldurasan.

**SUAL:** Peşə seçiminiz nədən irəli gəlmişdi?

**CAVAB:** Ağlım kəsəndən bəri başqa alternativim olmayıb. Anam şərqşünas-alim idi. Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna başçılıq etmişdir. Lakin məktəbi bitirdikdən sonra sənədlərini tibb institutuna vermişdi, çünki çox istəyirdi ki, həkim olsun. Nəyə görəsə valideynləri onu uzun müddət dilə tutmuşlar və nəticədə o, görkəmli filoloq olmuşdur. Bax onun bu baş tutmamış arzusu mənim seçimimi müəyyənləşdirmişdir.

İxtisas seçimimə isə İlhamın anası – həkim-oftalmoloq Zərifə xanım təsir göstərmişdir. Çox təəssüf ki, Zərifə xanım ilə ünsiyyətimiz çox çəkmədi. Biz 1983-cü ildə tanış olduq, 1985-ci ildə isə o, dünyasını dəyişdi. Bu istedadlı və gözəl qadınla bağlı ən xoş xatirələrim qalmışdır.

**SUAL:** Moskva. Orada nə qədər yaşamısınız, Moskva ilə bağlı nostalji hisslər keçirirsinizmi?

**CAVAB:** Yəqin ki, bu gənclik illərinin nisgilidir. Unudulmaz vaxtlar idi. Əlbəttə, Moskvada dostlarımız qalıb, onların hamısını böyük səmimiyyətlə xatırlayırıq. Bu gün Moskvanı, əlbəttə ki, tamamilə başqa cür qavrayıram. Protokolda hər dəqiqə nəzərə alınır və mən, əslində, şəhəri doyunca gəzə bilmirəm. Moskva fantastik surətdə gözəlləşmişdir, lakin bu, artıq başqa şəhərdir. Burada hər şey başqadır. O dövrün Moskvası artıq tarixdə, bir də mənim xatirimdə qalmışdır. Yəqin ki, vaxtilə yaxşı günlər keçirdiyimiz bütün şəhərlərdə bu, gec-tez baş verir.

**SUAL:** Atanın və oğulun xüsusiyyətlərini necə müqayisə edərdiniz? Heydər Əlirza oğlunun hansı keyfiyyətləri Sizin üçün xüsusilə yaddaqalandır?

**CAVAB:** Şübhəsiz ki, oxşarlıq var. Bu, özünü çox şeydə göstərir. İlk növbədə intellektdə və xasiyyətdə.

Heydər Əlirza oğlu barədə suala bir müsahibə çərçivəsində cavab vermək mümkün deyil. Onun haqqında çoxlu kitab yazılmışdır. Lakin təəssüf ki, onların heç biri onun şəxsiyyətinin bütün əzəmətini əks etdirmir. İlk növbədə, əlbəttə ki, Heydər Əlirza oğlu aydın ifadə olunan xarizmaya malik idi. Onun enerjisi ətrafda hər şeyi dəyişməyə qadir idi. Onun gəlişi ilə hər şey dəyişirdi. Onun fantastik yaddaşı, intellekti, hədsiz məlumatlılığı bəzən həlli müşkül görünən problemləri həll etməyə imkan verirdi. Mahiyyət etibarilə Heydər Əliyev fenomeni hələ də sonadək açılmamışdır. Tarixin sovet dövründə Heydər Əliyev haqqında çox yazırlar, Azərbaycanda sanki ümidsiz görünən vəziyyəti onun necə dəyişə bildiyini, yaxud Heydər Əliyevin necə "hakimiyyət ustası" olduğunu anlamağa çalışırlar. Lakin bütün bunlar eyni bir adam barədədir. Bu yazılarda liderin həm praqmatik, həm də strateq ola bilməsinin fəlsəfi baxımdan dərk edilməsi çatışmır.

O, ailədə, gündəlik ünsiyyətdə olduqca sadə idi. Uşaqları, nəvələri ilə onu təkcə qohumluq əlaqələri bağlamırdı. Həddən artıq məşğul olmasına baxmayaraq, onların hər birinə həssas qayğıkeşlik göstərirdi.

Ancaq onu müqayisə etmək çox çətindir. Heydər Əliyev əzəmətli, bənzərsiz şəxsiyyətdir! Xasiyyətinin hansısa cəhətləri, xüsusiyyətləri onun uşaqlarında, nəvələrində yaşayır. Lakin təbii ki, onlar başqadırlar. Yeni dövr yeni yanaşma tələb edir, həyat bir yerdə dayanmır.

**SUAL:** Oğlunuzun hansı sənətin sahibi olmasını istərdiniz?

**CAVAB:** Mən bu seçimə çox da qarışmaq istəməzdim. Mənim üçün başlıcası onun təbii potensial imkanlarının həyata keçə bilməsi və yaxşı bir insan kimi

böyüməsi üçün əlimdən gələni etməkdir. Əgər insanın intellekti və əxlaqı qaydasındadırsa, mənim bunu necə qiymətləndirəcəyimdən asılı olmayaraq, həyat yolunun seçimi onun öz haqqıdır.

**SUAL:** Yəqin ki, siz oğlunuzun öz babasına oxşamasını istərdiniz, bəs sülalə ənənəsinin davam etdirilməsinə necə baxırsınız?

**CAVAB:** Sadə bir həqiqətin – elitalar nəzəriyyəsinin hələ heç kəs tərəfindən ləğv olunmadığını anlamaq üçün Avropa tarixinə nəzər salmaq kifayətdir. Əlbəttə, mən ürəkdən istərdim ki, oğlum öz babasına çox oxşasın. Lakin hamımız bilirik ki, bizim hər birimiz öz xarakteri, öz taleyi, öz alın yazısı ilə doğuluruq. Mənə oğlumun taleyinə nə yazıldığını demək çətindir. O, ağıllı oğlandır, çox aydın xarakterə malikdir, böyüklərlə olmaq öz yaşıdları ilə olmaqdan onun üçün daha maraqlıdır. Həyatın necə olacağını əvvəlcədən bilmək mümkün deyil. Əlbəttə, mən bir ana kimi, sağlam ambisiyalardan məhrum deyiləm və onun üçün həyatda hər şeyin yaxşı olacağına inanmaq istəyirəm, necə olacağını isə zaman özü göstərər. Mənim üçün hər şeydən mühümü onun layiqli insan kimi böyüməsi, vətənini sevməsi, öz xalqı ilə fəxr etməsi, ona xidmət etməyə hazır olmasıdır. Bunu məhz hansı sahədə – hərbi işdə, elmdə, həkimlik sənətində, yazıçılıq sahəsində olması isə vacib deyil. Ailələrimizin tarixində təqlidəlayiq nümunələr çoxdur.

**SUAL:** Avropa klassikasına necə münasibət bəsləyirsiniz, müasir incəsənəti izləyə bilirsinizmi?

**CAVAB:** Mənim həyat tərzimlə harasa getmək, nəyəsə qulaq asmaq və ya baxmaq heç də həmişə mümkün olmur. Mən bu yaxınlarda, bərpadan sonra Qrand Operada oldum. Lakin bu, təsadüfi hal idi. Mən Parisdə idim, axşam məşğul deyildim, biletlər var idi, mən də getdim.

Deyə bilmərəm ki, mən müasir incəsənətin bilicilərindənəm. Lakin əsas yeniliklərdən və təmayüllərdən, əlbəttə, xəbərim var. Yəqin ki, Avropada bütün

premyeraların mərkəzində olduğun bir vaxtda "mədəniyyətdən bu sayaq istifadə" xüsusi həyat tərzi və asudə vaxt olmasını tələb edir, mənim isə vaxtım daim məhduddur. Buna baxmayaraq, əlbəttə, mən ölkənin mədəni həyatının bütün hadisələrindən xəbərdar olmağa çalışıram.

**SUAL:** Siz hansı kitabları oxuyursunuz, sizi hansı janr maraqlandırır?

**CAVAB:** Kitablar baxımından mən, necə deyərlər, olduqca "universal" zövqə malikəm. Kitabları mən həm Bakıda alıram, həm də kənardan, o cümlədən Moskvadan gətirirlər. Müasir ədəbiyyat haqqında onu deyə bilərəm ki, yaxşı və asan oxunan ədəbiyyat az deyil, lakin daim belə bir sual doğur ki, bunu ədəbiyyat adlandırmaq olarmı? Ona görə də biz yenidən klassikaya qayıtmağa məcburuq. Məsələn, mən bir qədər əvvəl təkrarən Dostoyevskini oxuyurdum, bir çox şeyləri yenidən kəşf etdim. İndiki qavrayış gənclik illərindəkindən tamamilə fərqlidir.

**SUAL:** Bəs televiziya haqqında nə deyə bilərsiniz?

**CAVAB:** Ümumiyyətlə, mən televiziya adamı deyil, kitab adamıyam. İş belə gətirib. İlham bütün informasiya proqramlarına baxır, o, evdə olmayanda isə, televizoru yandırmağa həvəsim də gəlmir. Kinematoqrafiyaya gəldikdə isə, kino da mənim üçün ədəbiyyatdan törəmədir. Buna görə də, Avropa, o cümlədən rus kinosu mənə Hollivudun istehsal etdiyi filmlərdən daha yaxındır. Bugünkü cəmiyyətdə televiziya çox zaman, sadəcə, vaxt keçirmək vasitəsidir. Mənim üçünsə əsas problem vaxt problemidir.

**SUAL:** Bəs dostlar?

**CAVAB:** Mənim qızlarım böyümüşlər və indi onlar, demək olar ki, mənim ən yaxşı rəfiqələrimdir. Bacımla münasibətlərimi çox qiymətləndirirəm. Biz onunla möhkəm dostuq. Mənim həyat ritmim, təəssüf ki, bəzən ən yaxın, doğma adamlarıma kifayət qədər vaxt ayırmağa imkan vermir. Atamla bir yerdə çox vaxt keçirə bilmədiyim üçün narahat oluram. Vaxtın qıtlığı daha geniş əlaqələr saxlamağıma imkan vermir.

**SUAL:** Siz özünüzü işlə həddindən çox yüklənmiş hesab etmirsinizmi?

**CAVAB:** Şübhəsiz, iş çox olur, lakin mən iş günümün dolğun olmasından əziyyət çəkmirəm. İnsan gördüyü işin haqlı, xeyirli və lazımlı olduğuna daxilən inandıqda həvəslə işləyir. Fiziki yorğunluq isə mənəvi məmnunluqla ödənilir.

**SUAL:** Siz qəhvə içirsiniz, yoxsa çay?

**CAVAB:** Mən çayı xoşlayıram, özü də qara çaydan daha çox yaşıl çay içirəm.

**SUAL:** Bəs siz necə dincəlirsiniz?

**CAVAB:** Bu, cavab verilməsi mümkün olmayan bir sualdır. Hələlik heç cür. Hesab edirəm ki, birlikdə, ailəliklə dincəlmək lazımdır. İlhamın nə vaxt imkanı olsa, onda dincələcəyik.

**SUAL:** Səfərlər zamanı protokola riayət etmək sizin üçün ağırdırmı?

**CAVAB:** Bilirsinizmi, çox maraqlı insanlarla görüşlər bütün bu uçuşları, reqlamenti kompensasiya edir. Bir qayda olaraq, prezidentləri görkəmli şəxsiyyətlər əhatə edirlər. Ölkədə maraqlı nə varsa, onları göstərirlər. Mən hesab edirəm ki, səfər etmək, insanlarla, başqa xalqların mədəniyyəti ilə tanış olmaq xoşbəxtlikdir.

**SUAL:** Prezident həyat yoldaşı ilə gəlir, onu danışıqlar, görüşlər, siyasi tədbirlər gözləyir. Xanımların öz proqramı olur?

**CAVAB:** Bəli, qarşılanma mərasimləri və digər xüsusilə təntənəli məqamlar istisna olmaqla, xanımların özlərinin ayrıca proqramı olur. Birinci şəxslərin həyat yoldaşlarına ən maraqlı nə varsa, göstərməyə çalışırlar. Bu, paytaxtlarla tanış olmaq üçün yaxşı imkandır. Dünyanın ən gözəgəlimli, maraqlı yerlərini görməyə və seyr etməyə bir də nə vaxt belə imkan olacaq?

**SUAL:** Yarım ildə nə qədər belə səfərləriniz olmuşdur?

**CAVAB:** Yəqin ki, dəqiq on səfərimiz olmuşdur, bəlkə də, on beş. Fiziki cəhətdən bu, kifayət qədər ağır-

dır, uçuşlar yorucudur, hər şey dəqiqəbədəqiqə reqlamentləşdirilmişdir, lakin nə etmək olar. Dözürük. Hər zaman formada olmaq və öz ölkəni ləyaqətlə təmsil etmək lazımdır.

**SUAL:** Lora Buş ciddi proqramlarla məşğul olur, Hillari Klinton qubernatordur, siyasi karyeraya başlayıb. Siz siyasətlə məşğul ola bilərdinizmi?

**CAVAB:** Əlbəttə, bunun üçün geniş imkanlar açılır. Lakin hər şey fərdiyyətdən asılıdır. Əgər siyasi fəaliyyət sənə yaxındırsa, əlbəttə ki, bu işə daha asanlıqla başlamaq olar. Mən siyasətlə məşğul olmuram, sadəcə insanlara kömək edirəm. Əgər bunu siyasət adlandırmaq olarsa, buyurun, elə də hesab edin. Çox vaxt siyasət dedikdə, insanın hakimiyyətə gəlmək niyyəti olduğu düşünülür. Mən hakimiyyət adamı deyiləm və hakimiyyətə can atmıram. Bu, mənlik deyil.

İstər YUNESKO-nun Xoşməramlı səfiri kimi, istərsə də Heydər Əliyev Fondunun prezidenti kimi mənə ehtiyac olduğunu hiss edirəm. Mənim adıma hər gün 200-dən çox məktub gəlir. Onların heç biri diqqətsiz qalmır. Mən konkret iş görmək, konkret insanlara kömək etmək istəyirəm. Konkret problemləri həll etmək, yardım edə bildikdə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nəsə edə bilmədikdə təəssüflənmək, qəzavü-qədər, sağalmaz xəstəlik qarşısında bütün gücsüzlüyünü dərk edərkən əziyyət çəkmək, xilas edilmiş bir uşağın təbəssümünü gördükdə isə bir daha sevinmək istəyirəm. Bu, mənim seçimimdir.

***Oleq SIQANOV***
***2005, 26 may***

## *Azərbaycan ilə YUNESKO arasında əməkdaşlıq daha yüksək səviyyəyə qalxacaqdır*

*Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın Azərbaycana səfərinin yekunlarına dair AzTV-yə müsahibə vermişdir*

---

**– Mehriban xanım, ötən həftə respublikamızın ictimai-mədəni həyatı üçün ən əlamətdar hadisələrdən biri YUNESKO-nun Baş direktoru cənab Matsuuranın və bir neçə xoşməramlı səfirin Azərbaycana səfəri oldu. Səfər çərçivəsində bir sıra mühüm tədbirlər keçirildi. Siz YUNESKO ilə Azərbaycan arasında əməkdaşlığın bugünkü səviyyəsini necə qiymətləndirirsiz?**

– Müstəqil Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. Bu illər ərzində ölkəmiz üçün əhəmiyyətli olan bir sıra tədbirlər həyata keçirilmişdir. YUNESKO Azərbaycan muğamını bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil etmişdir. İçərişəhər, Qız qalası isə çox nadir memarlıq incisi kimi dünya mədəni irs siyahısına salınmışdır. Azərbaycanın bir sıra görkəmli şəxsiyyətlərinin yubileyləri YUNESKO-nun təqviminə salınıb və bəşəriyyət üçün böyük əhəmiyyəti olan hadisə kimi qeyd edilir.

Dahi Məhəmməd Füzulinin 500 illik yubileyi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi çox geniş tədbirlərlə qeyd olunub və yekun tədbirlərində YUNESKO-nun Baş direktoru cənab Matsuuara da iştirak etmişdir. Hər iki yubiley ilə bağlı YUNESKO-nun iqamətgahında, Paris şəhərində də xüsusi tədbirlər keçirilmişdir.

Bu ilin sentyabr ayında Parisdə görkəmli Azərbaycan alimi Yusuf Məmmədəliyevin 100 illik yubileyi təntənə ilə qeyd olunacaqdır. Bir sıra elm, təhsil və mə-

dəniyyət proqramlarında Azərbaycanın qurumları iştirak edir. Azərbaycana aid olan məsələlərlə bağlı YUNESKO çərçivəsində tədbirlər keçirilir. Bu sırada mən xüsusilə təhsil sahəsində əməkdaşlığı vurğulamaq istərdim. Bildiyiniz kimi, Bakıda təhsil sisteminə həsr olunmuş böyük konfrans keçirildi. Bu konfransa biz uzun müddət hazırlıq görürdük. Əvvəl YUNESKO öz ekspertlərini ölkəmizə göndərmişdi, sonra ilkin tədbir Parisdə keçirilmişdir. Yekun tədbir olaraq Bakı şəhərində YUNESKO-nun Baş direktoru cənab Matsuuranın və xoşməramlı səfirlərin iştirakı ilə "Azərbaycan-YUNESKO: gələcəyə körpü" adlı konfrans keçirildi.

Biz cənab Matsuuranın Azərbaycana səfəri zamanı ölkəmizin bir sıra maddi və qeyri-maddi irsinin qorunması ilə əlaqədar məsələləri müzakirə etdik. Mən çox inanıram ki, cənab Baş direktorun ölkəmizə bu səfəri YUNESKO ilə Azərbaycan arasında əməkdaşlığın daha yüksək səviyyəyə qalxmasına güclü təkan verəcəkdir.

**– Mehriban xanım, Siz YUNESKO-nun ilk azərbaycanlı xoşməramlı səfirisiniz və cənab Koişiro Matsuara qeyri-maddi irsin qorunması sahəsində fəaliyyətinizi çox yüksək qiymətləndirdi. Bu istiqamətdə yeni planlarınız varmı?**

– Avqustun 24-də Beynəlxalq Muğam Mərkəzinin təməli qoyuldu və mən inanıram ki, bina inşa olunandan sonra bu mərkəz bütün muğamsevərlər üçün doğma bir evə çevriləcəkdir. "Qarabağ xanəndələri" albomundan sonra biz muğam layihələri üzrə işlərimizi davam etdiririk. Bu ilin sonuna qədər muğam dəstgahları albomu işıq üzü görəcək, bir sıra muğam ustalarının kitabları və albomları çap olunacaqdır. Bir neçə qədim muğam traktatlarının tərcüməsi artıq başa çatıb və onlar da çapa hazırdır. Müasir fransız musiqişünası Cerardın əsəri də tərcümə olunub və o da çapa hazırdır. Bir sözlə, muğamla bağlı çox geniş layihələrimiz var.

Yaxın gələcəkdə muğam ustaları ilə bir daha görüşmək fikrim var. Onlarla həm Muğam Mərkəzinin layihəsini müzakirə etmək, həm də gələcək planlarımız haqqında

danışmaq istəyirəm. Azərbaycan musiqi sənətinin muğam kimi əhəmiyyətli olan başqa bir qolu da var, bu da aşıq sənətidir. Hesab edirəm ki, ona da diqqət artırılmalıdır. Muğamla yanaşı, aşıq sənətinin də YUNESKO-nun qeyri-maddi irs siyahısına salınması çox zəruridir. Ümumiyyətlə, bizim mədəni irsimiz çox zəngindir. Misal üçün meyxana sənəti. Bu sənətin qədimdə çox böyük ənənələri olub və bu gün də çox istedadlı davamçıları var. Amma bu sənətin fəlsəfəsi və tarixi yetərincə öyrənilməyibdir. Bir sözlə, hələ böyük işlər görmək lazımdır.

**– Bizim məlumatımıza görə, Siz YUNESKO-nun Baş direktoru və ölkəmizə səfər edən xoşməramlı səfirlərlə görüşlərinizdə Azərbaycanın bir neçə tarixi abidəsini, o cümlədən Qobustanın dünya mədəni və təbii irsin qorunması, aşıq sənətinin isə bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri siyahısına salınmasını təklif etmisiniz. Yaxın vaxtlarda bu təkliflərinizin reallaşacağını gözləmək olarmı?**

– Cənab Baş direktor və xoşməramlı səfiriər Bakıya səfər zamanı Qobustanda oldular. Biz orada bu abidənin bəşəriyyət üçün nə qədər əhəmiyyətli olduğunu müzakirə etdik. Amma YUNESKO-nun öz qaydaları var və hər bir abidənin siyahıya salınması müəyyən prosedurdan keçir. Öncə bir neçə ölkədən ekspertlər təklifləri öyrənir, öz rəylərini verir. Sonra komissiyaların iclaslarında müzakirələr gedir. Adətən, abidənin siyahıya daxil edilməsi prosesi 3-5 il çəkir. Onu da nəzərdə saxlamalıyıq ki, bir ölkədən müəyyən dövr ərzində yalnız bir abidə və ya yalnız bir əsər YUNESKO-nun siyahısına daxil edilə bilər. Gələn ilin yayında YUNESKO-nun iqamətgahında keçiriləcək növbəti toplantıda Qobustanla bağlı müzakirələr aparılacaq və mən çox böyük ümid bəsləyirəm ki, bu məsələ öz müsbət həllini tapacaqdır.

**– Mehriban xanım, müzakirələr zamanı Azərbaycanın işğal altında olan ərazilərindəki tarix və mədəniyyət abidələri, onların ermənilər tərəfindən dağıdılması ilə bağlı məsələlər diqqət mərkəzində oldumu?**

– Mən bu problemlər haqqında xoşməramlı səfirlərin YUNESKO-nun iqamətgahında keçirilən illik toplantısında və Kazanda YUNESKO-nun Avropa regionu üzrə toplantısında dəfələrlə danışmışam. Bildiyiniz kimi, YUNESKO elm, təhsil və mədəniyyətlə məşğul olan təşkilatdır. Şübhəsiz ki, YUNESKO tarixi abidələri qorumaq üçün tədbirlər keçirməli, konkret işlər görməlidir. Digər tərəfdən, hərbi münaqişə zonalarında vəziyyət həddən artıq siyasiləşdiyinə görə YUNESKO çalışır ki, siyasi xarakter daşıyan heç bir bəyanatla çıxış etməsin. Amma buna baxmayaraq, mən hər bir görüşümdə, YUNESKO-nun əməkdaşları ilə hər bir ünsiyyətdə bu məsələləri qaldırmağa çalışıram.

**– Heydər Əliyev Fondunun təşəbbüsü ilə yeni dərs ili üçün ölkədə 132 məktəb tikilir və bu, çox böyük layihədir. Siz məktəb binalarının vaxtında təhvil verilməsi üçün işlərə çox ciddi nəzarət edirsiniz. Bu sahədə vəziyyət necədir?**

– Mən doğrudan da çalışıram ki, tikinti ilə bağlı hər gün məlumat alım. Tikintilərin bir qismində özüm şəxsən olmuşam, işlərin həqiqətən də çox böyük sürətlə getdiyini görmüşəm. Bu məktəblərin tikintisi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin yalnız ilk mərhələsidir. Hazırda ikinci mərhələyə daxil olan məktəblərin siyahısı hazırlanır. Mən inanıram ki, 3-4 ildən sonra Azərbaycanın hər bir kəndində ən müasir tələblərə cavab verən məktəb binası olacaqdır.

**– Siz həm də Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidentisiniz. Hamımız da bilirik ki, Fondun 10 illik yubileyi ərəfəsindəyik. Yaxın vaxtlarda bu Fondun xətti ilə hansı yeni layihələrin həyata keçirilməsi nəzərdə tutulur? Ümumiyyətlə, Fondun 10 illik fəaliyyətini necə qiymətləndirərdiniz? Üzeyir Hacıbəyovun 120 və Yusuf Məmmədəliyevin 100 illik yubileyləri ilə bağlı hansı tədbirlər planlaşdırılır?**

– Azərbaycan Mədəniyyətinin Dostları Fondunun yubileyini yeni layihələrlə qeyd etmək istəyirik və hesab edirəm, ən böyük hədiyyə Üzeyir Hacıbəyov silsiləsin-

dən ilk albom olacaqdır. Ümumiyyətlə, 2005-2006-cı illəri Üzeyir bəy Hacıbəyov illəri adlandırırıq. Bu sənətkarın adına layiq olan çox qlobal bir layihə hazırlayırıq. Uzeyir bəyin publisistikası, musiqi əsərlərinin not yazıları nəşr ediləcəkdir. Bir sözlə, Üzeyir bəy Hacıbəyovun bütün irsini əks etdirən bir layihə hazırlayırıq.

Görkəmli alim Yusuf Məmmədəliyevin 100 illik yubileyi bu ilin sentyabr ayında YUNESKO tərəfindən Parisdə qeyd olunacaqdır. Ölkəmizdə bir sıra təntənəli tədbirlər nəzərdə tutulmuşdur.

– Çox sağ olun, təşəkkür edir, bütün istiqamətlərdəki işlərinizdə uğurlar arzulayırıq.

– Sağ olun.

*Yeni Azərbaycan,*
*2005, 28 avqust*

## Mehriban Əliyeva: "Yeni parlamentin fəaliyyətinin effektli olacağına inanıram"

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri və parlament seçkilərində ən yüksək səs qazanmaqla qalib gələn Mehriban Əliyeva "Interfaks" agentliyinə müsahibə verib.

O bildirib ki, deputat kimi gələcək fəaliyyətində əsas diqqəti təhsil və səhiyyə sahəsinə ayıracaq.

**– Sizin rəhbərlik etdiyiniz Heydər Əliyev Fondu Azərbaycan cəmiyyətinin bir çox sosial problemlərinin həllində yaxından iştirak edir. Yaxın zamanlarda Fond daha hansı işləri görməyi planlaşdırır?**

– İlk olaraq biz əsas diqqəti gələcək nəslin daha az təminatlı hissəsinin təhsilini yaxşılaşdırmağa yönəltdik. Bu sahədə fəaliyyətimiz əsasən internatlar, yetim evləri və uşaq bağçalarının problemlərinin həllinə istiqamətlənib. Bizim xalqımıza böyük bədbəxtlik gətirən Dağlıq Qarabağ münaqişəsi valideynsiz qalmış uşaqların sayını əhəmiyyətli dərəcədə artırıb. Bununla yana-

şı, fond əqli və fiziki cəhətdən geridə qalmış uşaqlara da böyük diqqət ayırır. Bundan əlavə, fond müvəqqəti və birdəfəlik görmə, eşitmə və s. bu kimi problemlərlə üzləşən uşaqların çətinliklərini aradan qaldırmaq üçün də xüsusi proqram həyata keçirir. Bizim birbaşa təhsillə bağlı olmayan layihələrimiz də mövcuddur ki, burada əsas diqqət uşaqların sağlamlığına yonəlib. Buna misal olaraq mən talassemiya, şəkər xəstəliyindən əziyyət çəkən uşaqlara yardım proqramını göstərə bilərəm. Fond tərəfindən həyata keçirilən kənd məktəblərinin yenidən inşası və təmiri proqramı əhali arasında böyük rezonans doğurdu. Belə bir uzunmüddətli strategiyanın hazırlanmasında əsas məqsəd yaxın zamanlarda ölkənin bütün məktəblərinin qəbul olunmuş standartlara cavab verməsini təmin etməkdır. Hazırkı məqamda Heydər Əliyev İnstitutunun yaradılması istiqamətində işlər aparılır. Bu, bizim millətin intellektual elitasını formalaşdıra biləcək universitet olmalıdır. Biz istər Azərbaycanda, istərsə də onun hüdudlarından kənarda tanınmış təhsil işçiləri ilə müzakirələr aparırıq.

İnanıram ki, təhsildə Avropa standartları ilə milli dəyərləri özündə cəmləşdirə biləcək bir model yaradacağıq.

**– Mənəvi irsin qorunması sahəsində YUNESKO ilə Azərbaycan arasındakı əməkdaşlığı necə dəyərləndirirsiniz?**

– Bu əlaqələr çox yüksək səviyyədədir. Qurumun İcraçı direktoru Frederik Mayor 1996-cı ildə Azərbaycanın böyük şairi Məhəmməd Füzulinin 500 illik yubileyində iştirak etmək üçün Bakıya gəlmişdi. 2000-ci ildə “Kitabi-Dədə Qorqud” eposunun 1300 illik yubileyi zamanı YUNESKO-nun sonrakı İcraçı direktoru Koişiro Matsuura Azərbaycana təşrif buyurdu. Bu ilin sentyabrında isə YUNESKO-nun mənzil qərargahında 2000-dən çox qonağın da qatıldığı Azərbaycanın məşhur kimyaçı alimi Yusuf Məmmədəliyevin 100 illik yubileyi təntənəli şəkildə qeyd edildi. Bu əməkdaşlığın yüksək olmasını qurumun icraçı direktoru Koişiro Matsuura-

nın avqust ayında Azərbaycana rəsmi səfər etməsi də göstərdi. Onunla yanaşı, Azərbaycanda YUNESKO-nun bir çox xoşməramlı səfirləri də var idi. Təhsil sahəsində YUNESKO ilə Azərbaycan hökuməti arasında memorandum imzalandı. Həmin səfər tək təhsil sahəsində müzakirələrlə yekunlaşmadı. O zaman YUNESKO ilə birgə gerçəkləşdirilən Beynəlxalq Muğam Mərkəzinin təməlqoyma mərasimi də oldu. Prezident İlham Əliyevlə Koişiro Matsuura arasında səfərin yekunlarına dair imzalanan sənəd isə qurumla Azərbaycan arasında bütün sahələr üzrə hərtərəfli əməkdaşlıq üçün şərait yaratdı.

**– YUNESKO işğal olunmuş ərazilərdə milli tarixi abidələrin gələcək taleyi ilə bağlı hansısa addımlar atacaqmı?**

– Heç yadıma gəlmir ki, YUNESKO-nun xətti ilə reallaşan tədbirlərdə çıxışım zamanı mən bu məsələni qaldırmayım. Bütün mədəni və tarixi abidələrin siyahısını müəyyənləşdirmək mümkün deyil. Bu siyahıya işğal olunmuş ərazilərdə və münaqişə bölgəsində qalan dağıdılmış muzeylər, arxeoloji, təbil abidələr və s. daxildir. Tək onu xatırlatmaq kifayətdir ki, Azərbaycanın beşdə bir, hissəsini özündə cəmləyən işğal olunmuş ərazilərdə bizim mədəniyyətimizin korifeyləri sayılan Üzeyir Hacıbəyov və Bülbülün ev-muzeyləri, Xocalı, Kəlbəcər mədəniyyətinin qalıqlarını əks etdirən abidə, Azıx mağarası və s. yerləşir. Lakin tarixi abidələr məsələsi münaqişənin həlli istiqamətində aparılan danışıqlardan kənarda müzakirə edilə bilməz. Məlumdur ki, sözügedən münaqişə 17 ildən artıq davam edən geniş miqyaslı humanitar fəlakətlərə yol açıb.

Mən qeyd etmək istəyirəm ki, YUNESKO nə siyasi, nə də taleyi çox böhranlı vəziyyətdə olan konkret tarixi abidələrlə məşğul olan qurum deyil. Onun bir neçə məqsədləri movcuddur, mən düşünürəm ki, qurumun fəaliyyəti münaqişədən sonrakı dövrdə daha əlverişli olar.

**– YUNESKO-nun mədəni irsi siyahısına aşıq musiqisinin salınması şansları nə qədərdir? Ümumiyyətlə,**

**daha hansı Azərbaycan musiqi janrlarının bu siyahıya daxil edilməsi üçün təqdim olunacağı gözlənilir? Muğamın tanınması istiqamətində həyata keçirilən proqramın vəziyyəti nə yerdədir?**

– Mən bu şansları yüksək dəyərləndirirəm. Bununla biz tarixi ədaləti bərpa etmiş olarıq. Muğamla aşıq sənəti musiqi folklorunun ayrı-ayrı qollarıdır. Azərbaycanın bölgələrində muğam, bəzilərində aşıq, bəzilərində isə aşıq musiqisi geniş yayılıb. Hazırda isə Azərbaycan tərəfı YUNESKO-nun mədəni irsinə Novruz bayramının qəbul edilməsinə çalışır.

Muğamın tanınması istiqamətində görülən işlər öz bəhrəsini verməkdədir. Bu istiqamətdə hazırda muğam ensiklopediyasının hazırlanması, müxtəlif disklərin yazılması prosesi davam edir. Mən düşünürəm ki, sözügedən sahədə əsas irəliləyiş Beynəlxalq Muğam Mərkəzinin açılışından sonra olacaq.

**– Qobustan və Azərbayçanın bir sıra digər tarixi abidələrinin YUNESKO-nun "Mədəni və maddi abidələrin qorunması" proqramına daxil edılməsi nə qədər vaxt aparacaq?**

– Əvvəlcə onu bildirmək istəyirəm ki, bu proses üç ildən artıqdır ki, davam edır. YUNESKO-nun bu proqramına hansısa bir tarixi abidənin qəbulu üçün müxtəlif komissiyaların və ekspertlərin rəyi, külli miqdarda sənədlər və s. lazımdır. Xatırladım ki, cənab Matsuura səfəri zamanı Qobustana baş çəkdi. Buranın gözəl aurası isə bütün xoşməramlı səfirləri heyrətə gətirdi. Həmin gün biz artıq dünyadan köçmüş Qobustana aşiq olan Tur Xeyerdalı da xatırladıq. Noyabrın sonlarında biz buraya gələcək sonuncu ekspert qrupunu gözləyirik və ümid edirəm ki, 2006-cı ildə Qobustan bu siyahıya daxil ediləcək.

– Rəhbərlik etdiyiniz Azərbaycan Mədəniyyətinin Dostları Fondu haqda danışın.

– Bu il Fondun on ili tamam oldu. Bu bayramı çox möhtəşəm qeyd etdik. Ziyafət zamanı muğam, "Kitabi-Dədə Qorqud" eposundan hissələr və xalq mahnıları

səsləndirildi. Planlarımız isə az deyil. Gələn ilin fevralında Mstislav Rostropoviçlə Şostakoviçin 100 illiyi ilə bağlı birgə festival təşkil edəcəyik. Fondun yaxın zamanlarda reallaşdıracağı tədbirlərdən biri də Parisdə Firəngiz Əlizadənin yeni bəstəsinin təqdimatıdır.

Vyana kamera teatrı ilə Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettasının burada qoyulması barədə razılıq əldə etmişik.

**– Necə fikirləşirsiniz, Azərbaycanda qadınların karyera əldə etməsi çətindirmi?**

– Azərbaycanda qadınların böyük əksəriyyəti işləyir. Bir qayda olaraq, onların bir çoxu təhsil, səhiyyə, ictimai iaşə sahələrinə cəlb edilib. Azərbaycanda professor, ayrı-ayrı xəstəxanaların baş həkimi, məktəb direktorları və s. vəzifələrini tutan bir çox məşhur qadınlar var. Lakin onlar nədənsə karyera əldə etdiklərini düşünmür. Karyera dedikdə, burada əsasən qadın nazir, yaxud da qadın deputat nəzərdə tutulur. Bu cür yanaşma tamamilə yanlışdır. Son olaraq bildirirəm ki, Azərbaycanda qadınların karyera əldə etmək istəyi qarşısında heç bir maneə yoxdıır.

**– Bu il siz deputat seçildiniz. Bu dövr ərzində hansı problemlərin həllinə diqqət yönəldəcəksiniz?**

– Heydər Əliyev Fondunun fəaliyyət istiqamətləri olduqca genişdir. Buraya təhsil və səhiyyə, mədəniyyət və idman, sosial problemlərin həlli və s. daxildir. Mənim əldə etdiyim təcrübə imkan verir ki, yaranmış problemin çətinlik dərəcəsini müəyyənləşdirim. Bir çox məsələlər öz həllini qanunvericilik sahəsində tapmalıdır. Bunlara misal olaraq təhsil haqqında qanunu göstərə bilərik. Bir çox problemlərlə bağlı isə gözəl qanunlar qəbul edilib, lakin onlar işləmir. Ümid edirəm ki, yeni parlamentin fəaliyyəti effektli olacaq və o, cəmiyyət üçün aktual olan problemlərin həllini tapa biləcək.

*Azad Əlivev Həftə içi,*
*2005, 16 noyabr*

# VII. Mehriban xanım Əliyeva dünya mədəniyyət ocaqlarında

## Lyudmila Putina ilə Mehriban Əliyevanın görüşü və Tretyakov qalereyası ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri çərçivəsində onun xanımı Mehriban Əliyeva Rusiya Prezidentinin xanımı Lyudmila Putina tərəfindən təşkil olunmuş naharda iştirak etdi.

Səmimi qonaqpərvərlik şəraitində keçən naharda söhbət zamanı xanım Putina Mehriban xanımla Moskvada görüşündən məmnunluğunu bildirdi, Prezident İlham Əliyevin Moskvaya rəsmi səfərinin uğurla başa çatacağına ümidvar olduğunu söylədi.

Mehriban xanım Əliyeva səmimi münasibətə görə Rusiya Prezidentinin xanımına təşəkkür etdi, istər tələbəlik illərini, istərsə də Moskvada yaşadığı sonrakı dövrləri xatırladı. O dedi ki, Rusiya paytaxtında keçirdiyi anları daim xoş xatirələrlə yada salır. Moskva bizə bir də ona görə doğmadır ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin siyasi fəaliyyətinin müəyyən dövrü məhz bu şəhərlə bağlıdır. Ona görə də Moskva bizə həm də Heydər Əliyevlə bağlı maraqlı anları xatırlatdı.

Lyudmila Putina Prezident Heydər Əliyevin təkcə Azərbaycan xalqının tarixində deyil, həm də bütün Rusiyanın tarixində dəyərli bir insan, təcrübəli dövlət xadimi kimi xatırlanacağını vurğuladı və ehtiram bəslədiyini bildirdi.

Sonra Mehriban xanım Əliyeva Lyudmila Putinanın müşayiəti ilə Rusiyanın məşhur Tretyakov qalereyasına gəldi. Bu nadir incəsənət mərkəzində təxminən doqquz əsrlik bir dövrü əhatə edən on minlərlə qiy-

mətli sənət inciləri toplanmışdır. Bunların arasında A.Rublyov, K.Bryullov, İ.Şişkin, İ.Repin, V.Surikov və digər məşhur rus rəssamlarının əsərləri bu gün də öz təravətini itirməyib. Hörmətli qonağa bu əsərlərin ilkin vəziyyətdə saxlanması və bərpası üçün görülən tədbirlər barədə geniş məlumat verildi.

Eyni zamanda bildirildi ki, burada Azərbaycan təsviri sənət məktəbinin görkəmli nümayəndələri, dünya şöhrətli rəssamlar Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Fuad Əbdürrəhmanov, Tahir Salahov, Maral Rəhmanzadə, Ömər Eldarov, Toğrul Nərimanbəyov və başqalarının əsərləri ekspozisiyada layiqli yer tutur.

Mehriban xanım Əliyeva qalereya ilə tanışlıqdan sonra fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

***AzərTAc***
***2004, 10 fevral***

## *Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyevanın Türkiyədə keçirdiyi görüşlər*

Azərbaycan Respublikası Prezidentinin xanımı Mehriban Əliyevanın səfər çərçivəsində Ankarada bir sıra görüşləri olmuşdur.

Prezident iqamətgahının Pəmbə köşkündə onun Türkiyə Prezidentinin xanımı Səmra Sezərlə görüşü xüsusi mehribanlıq şəraitində keçdi. Söhbət zamanı siyasət, idarəetmə, elm və mədəniyyət sahələrində çalışan türk qadınlarının nailiyyətlərinin fərəh doğurmasından, xalqlarımız arasındakı tarixi yaxınlığın bu gün də uğurla davam etməsindən, türk soyunun gözəl adət-ənənələrindən və digər məsələlərdən bəhs olundu, ölkələrimizin inkişafında qadınların rolunu artırmaq üçün davamlı səylər göstərilməsinin vacibliyi vurğulandı.

Mehriban Əliyevanın Ankarada 1958-ci ildə yaradılmış Qızları Təkmilləşdirmə İnstitutu ilə tanışlığı da maraqlı keçdi. Prezidentin xanımını burada institutun

müdiri xanım Əminə Kirac və müavini Canan Yakan çox böyük mehribanlıqla qarşıladılar. Hörmətli qonağa məlumat verildi ki, türk qızları bu təhsil ocağında 2 il ərzində evdarlıq, zərgərlik, nəqqaşlıq, tikmə, qrafika, ayaqqabı modelçiliyi və s. sənətləri bütün incəliklərinə qədər öyrənirlər.

Müxtəlif geyim modellərinin nümayişi müasir türk qadınının incə zövqünü və mədəni səviyyəsini bir daha göstərdi. İnstitutun dərs otaqları ilə yaxından tanışlıq, səmimi ünsiyyət xoş təəssürat yaratdı.

Məşhur Ankara qalasının çöl divarları yanında yerləşən Anadolu Mədəniyyətləri Muzeyini ziyarət edən Mehriban xanım Əliyevaya bina haqqında ətraflı məlumat verildi. Bildirildi ki, bu muzeyin binası XV əsrdə sultan Fatehin vəziri Mahmud Paşa tərəfindən tikilmişdir. Muzey isə 1921-ci ildən fəaliyyət göstərir. Buradakı eksponatlar paleolitdən başlayaraq, günümüzə qədərki uzun bir dövrü əhatə edir. Muzeydə Türkiyənin bütün bölgələrinə aid müxtəlif növ eksponatların sayı 500 mindən yuxarıdır.

Muzeylə tanışlıq türk xalqının qədimliyi, mədəniyyəti və qüdrəti barədə təəssürat baxımından yaddaqalan oldu.

***AzərTAc,***
***2004, 16 aprel***

## *Prezident İlham Əliyevin Ukraynaya dövlət səfəri çərçivəsində Mehriban xanım Əliyevanın görüşləri*

Azərbaycanın dövlət başçısının Ukraynaya dövlət səfəri çərçivəsində Prezidentin xanımı Mehriban Əliyeva Kiyev şəhərində bir sıra görüşlər keçirmiş, maraqlı tədbirlərdə iştirak etmişdir.

İyunun 4-də Prezident sarayında Ukrayna Prezidentinin xanımı Lyudmila Kuçma ilə söhbət zamanı Mehriban Əliyeva dost ölkəyə Azərbaycanın səmimi

münasibətindən danışdı. Xanım Kuçma bu səfər zamanı aparılan danışıqların və imzalanan sənədlərin iki ölkə xalqlarının mənafeyinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Sonra Mehriban xanım Əliyeva Kiyevin qədim abidələri ilə tanış oldu. O, əvvəlcə XI əsrin yadigarı olan Sofiya məbədinə gəldi. Dünyanın məşhur memarlıq incilərindən olan məbəd 3 min kvadratmetr ərazini əhatə edir. Mehriban xanım Əliyevaya məlumat verildi ki, Sofiya məbədi illər ötdükcə genişlənib və cəlbedici bir görkəm almışdır. XI əsrdən qalmış dini şəkillər, mozaikalar və freskalar diqqəti daha çox cəlb edir. Divarlardakı yazılar bu gün də asanlıqla oxunur. Knyaz Vladimir Monomaxın öz xətti ilə yazdığı yazılar məbədin qədimliyindən xəbər verir.

Mehriban xanım Əliyeva Mixaylov məbədi ilə də tanış oldu. Ukraynanın nadir abidələrindən biri olan bu məbəddə saxlanılan eksponatlar rəngarəngliyi ilə diqqəti cəlb edir. Müxtəlif dövrlərdə dağıntılara məruz qalan məbədin bəzi eksponatları itib-batsa da, sonralar tarixçilər və arxeoloqlar həmin əşyaların bu müqəddəs məbədə qaytarılmasına nail olublar.

Mehriban xanım Əliyeva Prezident Leonid Kuçmanın xanımı Lyudmila Kuçma tərəfindən onun şərəfinə “Dnepr” otelində təşkil olunmuş naharda iştirak etdi. Sonra xanım Kuçma Kiyev şəhərinin mənzərəsini seyr edən Mehriban Əliyevaya şəhərin tarixi və bu günü barədə məlumat verdi.

Daha sonra Mehriban xanım Əliyeva Ukraynanın Milli Olimpiya Komitəsinə gəldi. Burada o, Olimpiya Komitəsinin nümayəndələri və idmançılarla görüş keçirdi. Azərbaycan Bədii Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyeva ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafına göstərilən dövlət qayğısından və ümumiyyətlə, sağlam nəsil yetişdirilməsi üçün görülən geniş tədbirlər barədə məlumat verdi. O, həmçinin iki ölkə idmançılarının dostluq əlaqələrindən söhbət açdı. Ukrayna Milli Olimpiya Komitəsinin prezidenti Mikola

Kostenko Prezident İlham Əliyevin gərgin səyi nəticəsində Azərbaycanda Olimpiya hərəkatının uğurlu nəticələrindən və idmançılarımızın müxtəlif yarışlarda qazandığı yüksək nəticələrdən xəbərdar olduğunu söylədi. O, ertəsi gün Kiyevdə keçiriləcək bədii gimnastika üzrə Avropa birinciliyinə hazırlıq barədə də məlumat verdi. Görüş iştirakçıları xatirə şəkli çəkdirdilər. Mehriban xanım Əliyeva Ukrayna Milli Olimpiya Komitəsinin muzeyinə milli Azərbaycan xalçası bağışladı.

Sonra Mehriban Əliyeva idman kompleksinə gəldi, bədii gimnastika üzrə Avropa çempionatında iştirak edən Azərbaycan komandasının məşqçiləri və üzvləri ilə görüşüb söhbət etdi, tövsiyələrini verdi və onlara uğurlar arzuladı. Sonra isə çempionata hazırlaşan idmançıların məşqlərinə tamaşa etdi, yarışın keçiriləcəyi böyük salonla tanış oldu.

*AzərTAc*
*2004, 4 iyun*

## *Mehriban xanım Əliyevanın Gürcüstandakı görüşləri*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfəri çərçivəsində onun xanımı Mehriban Əliyeva Gürcüstanın dövlət başçısı Mixail Saakaşvilinin xanımı Sandra Elizabet Rulovsun müşayiəti ilə Tbilisinin bir sıra elm, təhsil, səhiyyə, mədəniyyət ocaqlarına getmiş, gürcü xalqının qədim tarixi ənənələri ilə yaxından tanış olmuşdur.

Mehriban xanım Əliyeva iyunun 14-də xanım Sandra Elizabet Rulovsla birlikdə tanınmış gürcü modelyeri Teya Lomidzenin moda salonuna gəldilər. Modelyer yüksək qonaqları səmimiyyətlə qarşılayaraq, burada görülən işlər və gürcü xalqının milli dəyərlərinin qorunması və inkişaf etdirilməsi sahəsində salonun həyata keçirdiyi tədbirlər barədə geniş məlumat verdi. Mehriban xanım Əliyeva salonla tanışlıqdan məmnun-

luğunu söylədi və əl işlərindən ibarət olan sənət nümunələrinin onda xoş hisslər, duyğular yaratdığını bildirdi.

Mehriban xanım Əliyeva, xanım Sandra Elizabet Rulovs və modelyer xatirə şəkli çəkdirdilər.

Sonra dövlət başçılarının xanımları Tbilisinin uca nöqtəsinə qalxaraq, buradan şəhəri seyr etdilər. Mehriban xanım Əliyevaya Tbilisi şəhəri haqqında ətraflı məlumat verildi.

Xanım Sandra Elizabet Rulovs "Tbiliseli" klubunda Mehriban xanım Əliyevanın şərəfinə ziyafət verdi. Ziyafətdə Gürcüstan parlamentinin sədri Nino Burcanadze də iştirak edirdi.

Sonra Mehriban xanım Əliyeva Gürcüstan Prezidentinin xanımının müşayiəti ilə ölkənin qədim paytaxtı Msxeta şəhərinə gəldi. Burada qədim şəhərin tarixi, bu yerlərin özəllikləri barədə qonağa ətraflı məlumat verdilər. Mehriban Əliyeva qədim kilsəni də ziyarət etdi. XIII əsrdə tikilmiş kilsə bu günə qədər xalqın inam və inanc yeri kimi qorunub saxlanılır. Mehriban xanım Əliyeva "Svetisxoveli" məbədini də ziyarət etdi, gürcü xalqının adətinə uyğun olaraq, hər iki məbəddə şam yandırdı.

Burada jurnalistlər Mehriban xanımdan bunun səbəbini soruşdular.

**SUAL:** Xanım Əliyeva, Siz kilsədə şam yandırdınız. Bunu nə üçün etdiniz?

**CAVAB:** Məsələ bundadır ki, hər hansı adam məbəddə olanda, dini etiqadından asılı olmayaraq, şam yandırır və bu zaman onun qəlbində hansısa fikirlər və arzular olur. Şamı yandırdıqda da bu barədə düşünür.

Azərbaycan Prezidentinin xanımı uşaq təcili tibbi yardım mərkəzinə də getdi və bu sağlamlıq ocağının fəaliyyəti ilə tanış oldu.

Səfərin ikinci günü Mehriban xanım Əliyeva xanım Sandra Elizabet Rulovsun müşayiəti ilə Tbilisidəki İncəsənət muzeyinə gəldi.

Gürcüstanın qədim tarixi, mədəniyyəti ilə bağlı zəngin nümunələrin toplandığı muzey Mehriban xanım Əliyevada xoş hisslər, duyğular oyatdı. O dedi ki, bura-

da hər şey çox gözəldir. Təəssüf ki, hamısına istədiyin kimi baxmaq üçün vaxt azdır. Mən Pirosmani haqqında çox eşitmiş, çox oxumuşam. Onun əsərlərinə baxmaq mənim üçün çox xoşdur. Sizin çox yaxşı muzeyiniz var.

Jurnalistlər fürsətdən istifadə edərək, Mehriban xanım Əliyevaya sual verdilər.

**SUAL:** Siz bu gün gedirsiniz. Gürcüstanı nə kimi hisslərlə tərk edirsiniz?

**CAVAB:** Bəli, mən bu gün gedirəm. Biz burada cəmi iki gün olduq. Bu, çox az müddətdir. Sizin şəhəriniz çox gözəldir, adamlarınız çox səmimidir. Mən sizin üçün darıxacağam.

*AzərTAc,*
*2004, 17 iyun*

## *Azərbaycan Prezidentinin xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın Tatarıstana səfəri*

### Kazan Kremlində Tatarıstan Prezidenti ilə görüş

Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidentinin xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva YUNESKO-nun qeyri-maddi mədəni irsin qorunmasına dair Kazanda keçirdiyi regional seminarda iştirak etmək üçün Tatarıstanın paytaxtında səfərdə olmuşdur.

YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyeva dekabrın 15-də Kazan Kremlində Tatarıstan Respublikasının Prezidenti Mintimer Şaymiyev ilə görüşmüşdür.

Prezident Şaymiyev xanım Mehriban Əliyevanı böyük hörmətlə və ehtiramla qarşılayaraq gül dəstəsi təqdim etdi, tədbirdə iştirak etmək üçün Kazana səfərə gəlməsindən məmnunluğunu bildirdi.

Mehriban xanım Əliyeva Kazanda səmimiyyətlə qarşılandığına görə Prezident Mintimer Şaymiyevə tə-

şəkkür etdi, burada ilk dəqiqələrdən ona çox xoş münasibət göstərildiyini söylədi.

Tatarıstan Prezidenti və YUNESKO-nun xoşməramlı səfiri görüşdə qeyri-maddi mədəni irsin qorunub saxlanılmasına dair birgə regional layihələrin perspektivlərini müzakirə etdilər.

Tatar xalqının milli Sabantuy bayramının YUNESKO-nun qeyri-maddi irs siyahısına daxil edilməsinin mümkünlüyündən də söhbət getdi. Mehriban xanım Əliyeva dedi ki, Sabantuy bayramı YUNESKO-nun dünya inciləri siyahısına daxil edilməyə layiq bayramdır. Sabantuy bayramının çox qədim kökləri var, O, tatar xalqının milli "mən"ini əks etdirir. Bu, çox vacibdir. Axı, qeyri-maddi irsin qorunub saxlanılması haqqında Konvensiya məhz hər bir xalqın milli "mən"inin yaşadılmasına yönəldilmişdir.

Mehriban xanım Əliyeva daha sonra xatırlatdı ki, YUNESKO Azərbaycanın ənənəvi musiqi sənətinin incisi olan muğamı qeyri-maddi irs siyahısına daxil etmişdir. Azərbaycan xalqının bəzi bayramları da bu siyahıya daxil edilə bilər.

Görüşdə Tatarıstan Baş nazirinin müavini Zilə Valeyeva, Tatarıstan Prezidenti yanında beynəlxalq məsələlər üzrə dövlət müşaviri – Prezidentin Xarici Əlaqələr Departamentinin direktoru Timur Akulov və digər rəsmi şəxslər iştirak edirdilər.

## *Kazanda qeyri-maddi mədəni irsin qorunmasına dair YUNESKO-nun seminarı açılmışdır*

AzərTAc-ın Kazandan aldığı xəbərdə deyilir ki, dekabrın 15-də Tatarıstan paytaxtında qeyri-maddi mədəni irsin qorunmasına dair YUNESKO-nun regional seminarı başlanmışdır. Azərbaycan Prezidentinin xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva seminarda iştirak edir. Seminarda Avropa və Şimali

Amerikanın 49 ölkəsinin mədəniyyət və xarici işlər nazirliklərinin nümayəndələri təmsil olunmuşlar.

Tədbirdə ötən ilin oktyabrında Parisdə YUNESKO-nun 32-ci sessiyasında qəbul edilmiş beynəlxalq konvensiya müzakirə olunacaqdır. Konvensiyada qeyri-maddi mədəni irsin – xalqların milli bayramlarının, adət və ənənələrinin, musiqi və şifahi yaradıcılıq incilərinin qorunub saxlanılması və təbliği nəzərdə tutulur.

Belə bayramlardan biri də tatarların milli Sabantuy bayramıdır. Tatarıstan Respublikasının təşəbbüsü ilə Rusiya bu bayramın YUNESKO-nun şifahi və qeyri-maddi irs siyahısına salınmasını təklif etmişdir. Səkkiz əsrdən artıq bir dövrdə qeyd edilən Sabantuy təkcə tatarların deyil, Volqaboyu regionu və Rusiyanın digər regionları xalqlarının da bayramına çevrilir.

***Xalq qəzeti,***
***2004, 16 dekabr***

## *Kazanda YUNESKO-nun qeyri-maddi mədəni irsin qorunmasına dair regional seminarda Mehriban xanım Əliyevanın çıxışı*

– Xanımlar və cənablar!

Bu gün biz dünya mədəniyyəti xəzinəsinə layiqli töhfə vermiş xalqın qonağıyıq. Biz minillik tarixi olan bir şəhərə gəlmişik. Bu çoxəsrlik tarix və mədəniyyət Kazanın bənzərsiz simasında öz əksini tapmışdır. Kazan Kremli, haqlı olaraq, dünya irsinin ən gözəl obyektləri sırasına aid edilmişdir.

Tatar xalqı maddi mədəniyyət abidələri ilə yanaşı, onun ənənələrində bu gün də öz əksini tapan qeyri-maddi irsin zənginliyini də qoruyub saxlaya bilmişdir. Sabantuy xalq bayramı ənənələrə belə qayğıkeş münasibətə parlaq misaldır. Bu şəhərdə hər birimizin elə ilk dəqiqələrdən hiss etdiyimiz qonaqpərvərlik də nəsildən-nəslə ötürülən gözəl ənənədir.

İndi, kütləvi mədəniyyət stereotiplərinin hakim olduğu bir şəraitdə bu milli ənənələrin qorunub saxlanılması, onlara qayğı ilə, düşünülmüş münasibət göstərilməsi son dərəcə vacibdir. YUNESKO-nun çoxsaylı vəzifələrindən biri də insanın mənəvi dünyasını qorumaqdır. Odur ki, planetimizdə məskunlaşmış xalqlardan hər birinin milli "Mən"ini daha parlaq əks etdirən qeyri-maddi irs incilərinin qorunması ən aktual vəzifəyə çevrilir. Qeyri-maddi irsin mühafizəsi haqqında Konvensiya da məhz bəşər mədəniyyətinin bu ən kövrək hissəsinin qorunub saxlanılmasına yönəldilmişdir. Ümidvaram ki, bizim bu görüşümüz təmsil etdiyimiz ölkələrin hər birində həmin Konvensiyanın ratifikasiyası prosesinin sürətlənməsinə layiqli töhfəsini verəcəkdir.

Azərbaycan xalqı dünya mədəniyyətinə olduqca böyük töhfə vermişdir. Təsadüfi deyil ki, YUNESKO Azərbaycan muğamını bütün bəşəriyyətin inciləri siyahısına daxil etmişdir. Bununla əlaqədar diqqətinizi ona yönəltmək istərdim ki, Azərbaycan muğamının vətəni olan Şuşa, ölkəmizin digər şəhər və rayonları, – ümumən, Azərbaycan ərazisinin 20 faizi, – Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Ermənistanın işğalı altındadır. Adətən, Qarabağ bülbülləri adlandırılan ən yaxşı muğam ifaçılarının doğulduqları və formalaşdıqları şəhərlər indi tamamilə dağıdılmış, yer üzündən silinmişdir. Azərbaycan xalqının qədim memarlıq və mədəniyyət abidələri məhv edilmişdir.

Bu gün dünyada digər münaqişə ocaqları da mövcuddur, müharibələr gedir. Bütün bəşəriyyətə məxsus olan tarixi və mədəni dəyərlər dağıdılır. Onların çoxu həmişəlik itirilir. İcazə verin, bununla əlaqədar beynəlxalq təşkilatların və ümumən, dünya birliyinin münaqişə zonalarında olan mədəniyyət və tarix abidələrinin taleyinə daha ciddi diqqət yetirməsinin zəruriliyini vurğulayım. Şübhəsiz ki, bu münaqişələrin tezliklə həlli mədəni irsin dağılmasının qarşısını almağa kömək edərdi.

Əziz dostlar!

YUNESKO-nun xoşməramlı səfiri kimi burada olmağımdan son dərəcə məmnunam. Əminəm ki, bu, əməkdaşlığımızın yalnız başlanğıcıdır. Çox ümid edirəm ki, biz olduqca maraqlı regional layihələri həyata keçirə bilərik. Azərbaycanda artıq gerçəkləşdirilməyə başlanmış layihələr belə əməkdaşlıq üçün çıxış nöqtəsi ola bilər.

Çıxışımın sonunda belə mühüm seminarın bütün təşkilatçılarına təşəkkür etmək və hamımıza uğurlu, səmərəli iş arzulamaq istərdim.

Xalqlarımızın mənəvi irsinin qorunub saxlanılması və artırılması baxımından qarşımızda böyük vəzifələr durur. Əminəm ki, biz bu nəcib vəzifəni birgə yerinə yetirə bilərik.

Diqqətinizə görə sağ olun.

***AzərTAc***
***2004, 15 dekabr***

## *Azərbaycan prezidentinin xanımı Mehriban Əliyevanın Tehranda görüşləri*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasına rəsmi səfəri çərçivəsində Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva yanvarın 24-də Tehranda İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəminin xanımı Zəhra Sadeqi Xatəmi ilə görüşmüşdür.

Xanım Zəhra Sadeqi Mehriban xanım Əliyevanı böyük hörmətlə və ehtiramla qarşılayaraq, Azərbaycanın birinci xanımının İrana səfərə gəlməsindən məmnunluğunu bildirmişdir.

Mehriban xanım Əliyeva Tehranda səmimiyyətlə qarşılandığına, burada ona xoş münasibət göstərildiyinə görə təşəkkür etmişdir.

Yanvarın 24-də YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva İran Mərkəzi Bankı nəzdindəki Ləl-cəvahirat muzeyi ilə tanış olmuş, zəngin və çox gözəl olan muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır.

Azərbaycan Prezidentinin xanımı Tehrandakı xalça muzeyində də olmuşdur. Mehriban xanım Əliyevaya məlumat verilmişdir ki, burada İranın qədim və zəngin xalçaçılıq sənətinə aid minlərlə əl işi saxlanılır. Xalçalar arasında Təbriz xalçaçılıq məktəbinin nümunələri diqqəti daha çox cəlb edir. Ümumiyyətlə, İranın dekorativ-tətbiqi sənətində toxuculuq və xalçaçılıq mühüm yer tutur və onun əsas mərkəzləri Təbriz, Kaşan, Kirman, İsfahan və Yəzd şəhərləridir.

Mehriban xanım Əliyeva burada xalçanın toxunma prosesini izləmiş, miniatür sənətindən ibarət sərgiyə və muzeydə nümayiş etdirilən digər dəyərli eksponatlara, əl işlərinə də baxmışdır.

İranın qədim tarixinə, etnoqrafiyasına aid eksponatlar, o cümlədən müxtəlif dövrləri əks etdirən məişət əşyaları, incəsənət nümunələri hörmətli qonaqda böyük maraq doğurmuşdur.

Yanvarın 25-də YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva İranın sabiq Prezidenti, hazırda Dövlət Məsləhət Şurasının sədri Əli Əkbər Haşimi Rəfsəncaninin qızı Fatimə Rəfsəncanini onun xahişi ilə qəbul etmişdir. Görüş zamanı Fatimə Rəfsəncani rəhbərlik etdiyi xeyriyyə fondunun fəaliyyəti və həmin fondun bilavasitə yardımı ilə təşkil olunan Xüsusi Xəstəliklər Mərkəzinin talassemiya, hemofiliya, şəkərli diabet və böyrək xəstəlikləri olan insanlara tibbi yardım sahəsində gördüyü işlər barədə qonağa ətraflı məlumat vermişdir.

Mehriban xanım Əliyeva Tehranda İranın sonuncu şahı Məhəmməd Rza Pəhləvinin sarayını ziyarət etmişdir. Hörmətli qonağa məlumat verilmişdir ki, 73 il əvvəl tikilmiş sarayda 1970-ci illərin axırlarında əsaslı bərpa işləri aparılmışdır. Şahın evindəki əksər əşyalar

vaxtilə Fransadan gətirilmişdir. Bəzək işlərinin əksəriyyəti qızıldandır. Saraydakı yundan toxunmuş 121 kvadratmetrlik xalça diqqəti daha çox cəlb edir.

Azərbaycan Prezidentinin xanımı sarayın ayrı-ayrı otaqlarını gəzmiş, məişət və bəzək əşyalarına baxmışdır.

Elə həmin gün xanım Mehriban Əliyeva Xüsusi Xəstəliklər Mərkəzi ilə də yaxından tanış olmuş, buradakı şəraitlə maraqlanmışdır.

Xanım Mehriban Əliyeva rəhbərlik etdiyi Heydər Əliyev Fondunun şəkərli diabet xəstəliyinə tutulan uşaqlara yardım proqramı barədə məlumat verərək, hazırda talassemiyalı uşaqlara yardım proqramı üzərində iş getdiyini söyləmişdir. Bu sahədə İran tərəfinin əldə etdiyi təcrübənin onlar üçün faydalı olacağına inandığını bildirmişdir.

Xanım Fatimə Rəfsəncani rəhbərlik etdiyi fondun bu sahədə Heydər Əliyev Fondu ilə yaxından əməkdaşlıq etməyə hazır olduğunu söyləmişdir.

Mehriban xanım Əliyeva mərkəzlə tanışlıqdan məmnun qaldığını bildirmiş, xeyirxah və nəcib işlərinə görə bu səhiyyə ocağının kollektivinə uğurlar arzulamışdır.

***AzərTAc***
***2005, 24 yanvar***

## *Ər-Riyadda Muzey – Mərkəzlə tanışlıq*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri çərçivəsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva üçün də ayrıca səfər proqramı tərtib olunmuşdu.

Mehriban xanım Əliyeva Kral Əbdüləziz adına Tarixi Muzey-Mərkəzlə yaxından tanış oldu. Möhtəşəm tarixi abidə kimi öz gözəlliyi ilə seçilən bu Muzey-Mərkəz

barədə YUNESKO-nun xoşməramlı səfirinə ətraflı məlumat verildi. Bildirildi ki, burada ilk insanın yaranması, məskunlaşması və ölkənin bugünkü müasir tarixi əks olunur. Muzey-Mərkəzdə arxeoloji tapıntıların nümunələri ilə yanaşı, çoxəsrlik tarixi olan Səudiyyə Ərəbistanının ərazisində ilk neftin tapılması və hasilatı ilə bağlı dəyərli eksponatlar, Kral Əbdüləzizin şəxsi minik maşınları, əşyaları, onun müxtəlif dövrləri əks etdirən fotoşəkilləri toplanmışdır. Səudiyyə Ərəbistanı Krallığı ərazisində dövlətin qurulması və keçdiyi yol barədə də dəyərli materiallar vardır.

Mehriban xanım Əliyeva mərasim otaqlarına, salonlara, divarlarda, tavanda, hətta döşəmələrdə yüksək peşəkarlıqla təsvir olunan və Şərq mədəniyyətinin zənginliyinin əyani göstəricisi kimi diqqəti cəlb edən nadir qədim və zəngin sənət nümunələrinə baxdı.

Sonra İki Müqəddəs Ocağın Xadimi, Kral Fəhd bin Əbdüləziz Al Səudun həyatı və fəaliyyəti barədə film göstərildi.

YUNESKO-nun xoşməramlı səfiri İki Müqəddəs Ocağın – Məkkə və Mədinənin genişləndirilməsi və abadlaşdırılması ilə bağlı Muzey-Mərkəzin daxilində yaradılmış xüsusi kompleksə də baxdı. Burada toplanan və qorunub saxlanılan hər bir mədəniyyət, incəsənət nümunəsi hörmətli qonaqda bu ölkəyə böyük maraq və rəğbət yaratdı.

Mehriban xanım Əliyeva Muzey-Mərkəzlə tanışlıqdan məmnun qaldığını bildirdi, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Mehriban xanım Əliyevaya Muzey-Mərkəz barədə xatirə kitabı hədiyyə olundu.

***AzərTAc***
***2005, 11 mart***

## *Azərbaycan prezidentinin xanımı Mehriban Əliyeva Uşaq Kəndi Assosiasiyasında və Dövlət Sənət Muzeyində olmuşdur*

Azərbaycan rəhbərinin Özbəkistana dövlət səfəri çərçivəsində Prezident İlham Əliyevin xanımı Mehriban Əliyeva Prezident İslam Kərimovun xanımı Tatyana Kərimovanın müşayiəti ilə Özbəkistan Uşaq Kəndi Assosiasiyasının fəaliyyəti ilə tanış oldu. Regionda yeganə qurum olan bu assosiasiya "SOS kinder dor interneşnl" beynəlxalq humanitar təşkilatının yardımı ilə yaradılmışdır. Dünyadakı 130 anoloji assosiasiya sırasında nüfuzlu qurumlardan biridir. Mehriban xanım Əliyevaya təşkilatın fəaliyyəti, əsas məqsədi barədə ətraflı məlumat verildi. Burada sığınacaq tapan yetim və kimsəsiz körpələr hər cür nəvazişlə əhatə olunmuşlar. Uşaq kəndinin balaca sakinlərinin nümayiş etdirdikləri bədii proqram maraqla qarşılandı. Mehriban xanım uşaqlara müxtəlif hədiyyələr təqdim etdi.

Sonra Mehriban xanım Əliyeva Özbəkistan Dövlət Sənət Muzeyinə gəldi, buradakı nadir və qiymətli eksponatlarla tanış oldu. 50 mindən çox eksponatın toplandığı muzeydə tarixin ən qədim dövrlərinə aid nümunələr də var. XIX əsrə aid olan, zərif əl işləri ilə bəzədilmiş tikmələr, göz oxşayan xalı-xalçalar daha çox diqqəti cəlb edirdi. Qədim Şərq mədəniyyətinin əsrarəngiz, hər ilməsi, hər naxışı az qala min illərin yaddaşını əks etdirən nümunələri bu qədim diyarın insanlarının düşüncə tərzinin, dünyaya baxışının ifadəsidir. Hörmətli qonağa muzeydəki eksponatlar haqqında müfəssəl məlumat verildi.

Mehriban xanım Əliyeva muzeylə tanışlıqdan sonra Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı, muzeyə Azərbaycan rəssamlarının əsərlərini hədiyyə etdi.

***AzərTAc***
***2004, 26 mart***

## *Mehriban xanım Əliyevanın ISESCO-nun baş direktoru ilə görüşü*

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva mayın 27-də İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESCO) ölkəmizdə səfərdə olan baş direktoru doktor Əbdüləziz bin Osman Əl-Tuveycri ilə görüşmüşdür.

Fondun prezidenti müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini, zəngin irsini örənib gələcək nəsillərə çatdırmaq məqsədi ilə yaradılmış Fondun ölkəmizdə elm, təhsil, mədəniyyət və səhiyyənin inkişafı, sosial və ekoloji problemlərin həlli ilə bağlı həyata keçirdiyi layihələr barədə qonağa məlumat verdi.

Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun işləyib hazırladığı "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində hazırda Fondun vəsaiti hesabına respublikanın ucqar dağ kəndlərində yerləşən 120 ümumtəhsil məktəbində, əlil, yetim, valideyn himayəsindən məhrum olan uşaqlar üçün 11 xüsusi internat məktəbində, qocalar evlərində əsaslı təmir-yenidənqurma işləri aparıldığını, 25 belə müəssisənin Fondun qəyyumluğu ilə fəaliyyət göstərdiyini, talassemiyalı xəstə uşaqların müalicəsi üçün kompleks tədbirlərin işlənib hazırlandığını, Şərq musiqisinin nadir incisi olan qədim muğamlarımızdan ibarət kompakt disklərin buraxıldığını, çox əhatəli "Azərbaycan portalı" layihəsi üzrə işlərin davam etdiyini bildirdi.

Aldığı geniş məlumatdan razı qaldığını, cəmi bir il əvvəl fəaliyyətə başlayan Fondun qısa müddətdə belə dəyərli işlər gördüyündən məmnunluğunu söyləyən doktor Əl-Tuveycri Mehriban xanımın mərhum anası professor Aida xanım İmanquliyevanın ərəb ölkələrində görkəmli şərqşünas kimi yaxşı tanındığını vurğuladı, bir sıra nüfuzlu ərəbşünasların da təklif və təşəbbüsü ilə alimin əsərlərinin ərəb dilinə tərcümə olunub nəşr ediləcəyini bildirdi.

Görüşdə Azərbaycanla, eləcə də Heydər Əliyev Fondu ilə İSESCO arasında bir sıra birgə layihələrin həyata keçirilməsi imkanları, əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi məsələləri müzakirə edildi, qarşılıqlı fikir mübadiləsi aparıldı.

Heydər Əliyev Fondunun prezidenti qonağa professor Aida İmanquliyevanın əsərlərini və Fondun xatirə hədiyyələrini təqdim etdi.

İSESCO-nun baş direktoru Mehriban xanımı Səudiyyə Ərəbistanının paytaxtında rəhbərlik etdiyi təşkilatın yeni iqamətgahının açılış mərasiminə dəvət etdi.

Doktor Əl-Tuveycri sonra Fondun muzeyi ilə tanış oldu, dahi şəxsiyyət Heydər Əliyevin Vətənə, xalqa həsr edilmiş şərəfli ömür yolunu əks etdirən ekspozisiyaya, onun haqqında yazılmış kitablara baxdı. Görüşdən razı qaldığını bildirən qonaq Fondun binasının klassik Şərq arxitekturasının ən yaxşı ənənələrini özündə birləşdirdiyini də vurğuladı.

Görüşdə təhsil naziri Misir Mərdanov və Səudiyyə Ərəbistanının ölkəmizdəki səfiri Əli Həsən Əhməd Cəfər iştirak etmişlər.

***AzərTAc***
***2005, 27 mart***

## *Mstislav Rostropoviç və xanımı Qalina Vişnevskaya "qızıl toy"larını qeyd ediblər. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə iştirak edib*

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Moskvada dünya şöhrətli musiqiçi Mstislav Rostropoviçin və xanımı, məşhur müğənni Qalina Vişnevskayanın ailə həyatı qurmalarının 50 illiyinə həsr olunmuş "qızıl toy" mərasimində iştirak edib. Mərasim ərəfəsində Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyeva Rusiya Prezidentinin xanı-

mı Lyudmila Putina ilə görüşüb. Görüş zamanı ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlığın inkişafı perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Məşhur sənətçilərin "qızıl toy"una 300-dən çox qonaq, o cümlədən Mehriban xanım Əliyeva və qızı Leyla, İspaniya və Niderland kraliçaları, Fransa Prezidentinin xanımı, Rusiyanın birinci Prezidenti Boris Yeltsin, Moskvanın meri Yuri Lujkov dəvət olunublar. Mərasim Qalina Vişnevskayanın artıq bir neçə il hamilik etdiyi uşaq məktəb-teatrında başlayıb, sonra müğənninin opera ifaçılığı mərkəzində davam edib. Konsertdən sonra yubilyarların 1955-ci ildə burada tanış olduqları "Metropol" restoranında ziyafət verilib. Mehriban xanım Əliyeva mərasimdə, həmçinin Rusiyanın keçmiş Prezidenti Boris Yeltsin və onun xanımı ilə, SSRİ xalq artisti Tamara Sinyavskaya və digər qonaqlarla görüşüb. Mərasim iştirakçıları dünya musiqi mədəniyyətinin fəxri olan Mstislav Rostropoviçə və Qalina Vişnevskayaya yeni uğurlar, sənət və həyat sevincləri arzulayıblar. Heydər Əliyev Fondu adından xüsusi hazırlanmış hədiyyələr – yubilyarların ifa etdikləri musiqi əsərlərindən ibarət nəfis tərtibatlı disk dəstləri və onların unudulmaz Bakı görüşlərinin əks etdirildiyi fotoalbomlar mərasim iştirakçılarına təqdim olunub.

*Yeni Azərbaycan,*
*2005, 18 may*

## *Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın Türkiyənin Mərmərə qrupunun nümayəndə heyəti ilə görüşü*

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva avqustun 31-də Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suverin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Əvvəlcə Fondun sərgi və ekspozisiyası ilə tanış olan qonaqlara Azərbaycan xalqının ümummilli liderinin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən fotoşəkillər barədə ətraflı məlumatlar verildi.

Akkan Suver və nümayəndə heyətinin üzvləri fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərə, dünyanın tanınmış siyasi xadimlərinin ona bəxş etdikləri hədiyyələrə, ulu öndərimiz haqqında kitablara, onun müxtəlif ölkələrin liderləri, elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkillərinə böyük maraqla baxdılar.

Cənab Akkan Suver Xatirə kitabına ürək sözlərini yazdı.

Sonra Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva ilə nümayəndə heyətinin üzvləri arasında görüş oldu. Mehriban xanım qonaqları salamlayaraq dedi ki, Azərbaycan ilə Türkiyə arasındakı sıx əməkdaşlıq indi demək olar ki, yeni bir mərhələyə qədəm qoyub və sürətlə inkişaf edir.

2004-cü il mayın 10-dan fəaliyyətə başlayan Heydər Əliyev Fondunun vəzifələri, əsas məqsədləri haqqında ətraflı məlumat verən Mehriban xanım bildirdi ki, Heydər Əliyev tərəfindən yaradılmış azərbaycançılıq fəlsəfəsinin, azərbaycançılıq ideyasının təbliği, gələcək nəsillərə çatdırılması, ölkəmizin sosial problemlərinin həlli ilə bağlı məsələlər Fondun daim diqqət mərkəzindədir. Fondun vəsaiti hesabına 26 uşaq evi və internat məktəbində əsaslı təmir və bərpa işləri aparılmış, uşaqlara vaxtaşırı yardımlar edilmiş, diabet və talassemiya xəstəliyindən əziyyət çəkən uşaqlara kömək üçün xüsusi proqramlar həyata keçirilir.

Fondun təhsil və mədəniyyət sahəsində çox böyük layihələri olduğunu vurğulayan Mehriban xanım "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində ən ucqar rayon, qəsəbə və kəndlərdə yeni dərs ilinədək 132 məktəbin tikilib istifadəyə veriləcəyini, Azərbaycan

muğamının dünyaya daha yaxından tanıdılması üçün buraxılan "Qarabağ xanəndələri" albomunun YUNESKO səviyyəsində də yüksək qiymətləndirildiyini bildirdi.

Mərmərə Qrupu Vəqfinin ölkələrimiz arasında əlaqələrin inkişafı sahəsində səmərəli işlər gördüyünü vurğulayan Mehriban xanım Əliyeva bu görüşün Heydər Əliyev Fondu ilə Vəqfin qarşılıqlı əlaqələrində mühüm rol oynayacağına inamını ifadə etdi.

Bakıda "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş tədbirlərdə iştirakını, ümummilli liderimiz Heydər Əliyev ilə görüşlərini xatırladan cənab Akkan Suver Fondun çox maraqlı ekspozisiyası ilə tanışlıqdan məmnun olduğunu söylədi.

O, Heydər Əliyev Fondunun prezidenti və xoşməramlı səfir Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətini yüksək qiymətləndirdi, rəhbərlik etdiyi qurumun Fondla qarşılıqlı əlaqələrinin möhkəmlənəcəyinə əminliyini vurğuladı. Cənab Akkan Suver Fondun prezidenti Mehriban xanım Əliyevaya hədiyyələr təqdim etdi və onu yaxın aylarda Vəqfin təşkilatçılığı ilə Türkiyədə keçiriləcək konfransa dəvət etdi.

Dəvəti razılıqla qəbul edən Mehriban xanım Əliyeva qonaqlara və Mərmərə Qrupu Vəqfinə Fondun fəaliyyətindən bəhs edən kitab, "Qarabağ xanəndələri" albomu, üzərində Heydər Əliyevin əksi olan döş nişanları hədiyyə etdi.

Qonaqlar xatirə şəkli çəkdirdilər və Fonddan xoş təəssüratla ayrıldılar.

***AzərTAc***
***2005, 31 avqust***

## *Zaqrebdə keçirilmiş bir sıra görüşlər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasına rəsmi səfəri çərçivəsində Mehriban xanım Əliyeva üçün ayrıca proqram tutulmuşdu.

İyunun 10-da Mehriban xanım Əliyevanın Xorvatiya Prezidentinin xanımı Milka Mesiç ilə görüşü oldu. Dövlət başçılarının xanımları mədəniyyət, onun ayrılmaz qolu olan folklor sənətinin təbliği və bu sahədə əməkdaşlıq, habelə səhiyyə, kimsəsiz və əlil uşaqlara dövlət qayğısı məsələləri barədə fikir mübadiləsi etdilər.

YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva həmin gün Zaqrebdəki mərkəzi uşaq evinə də gəldi. Uşaq evinin müdiriyyəti və burada tərbiyə alan balacalar Azərbaycan Prezidentinin xanımını böyük səmimiyyətlə qarşıladılar. Hörmətli qonağa məlumat verildi ki, dövlət himayəsinə götürülmüş 120 əlil və kimsəsiz uşağın təlim-tərbiyəsi, hərtərəfli inkişafı üçün burada hər cür şərait yaradılmışdır.

Mehriban xanım Əliyeva bu uşaq müəssisəsinin kollektivinə nəcib və xeyirxah işlərində uğurlar dilədi, eyni zamanda, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ölkəmizdə uşaq evləri və internat məktəblərinin problemlərinin həlli, gənc vətəndaşlarımızın sağlamlığının qorunması sahəsində həyata keçirdiyi proqramlar haqqında məlumat verdi.

YUNESKO-nun xoşməramlı səfiri adından xorvatiyalı uşaqlara hədiyyələr təqdim olundu.

Mehriban xanım Əliyeva uşaq evinin müdiriyyəti və uşaqlarla xatirə şəkli çəkdirdi.

***AzərTAc***
***2005, 10 sentyabr***

## *Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Sofiyanın tarixi abidələri ilə tanış olmuşdur*

Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfəri çərçivəsində onun xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşmə-

ramlı səfiri Mehriban Əliyeva sentyabrın 23-də Bolqarıstan Prezidentinin xanımı Zorka Pırvanovanın müşayiəti ilə Sofiyanın bir çox tarixi abidələri ilə tanış olmuşdur.

Həmin abidələr arasında müqəddəs "Aleksandr Nevski patriarx məbədi" öz əzəməti ilə daha çox diqqəti cəlb edir. Burada hörmətli qonağa məlumat verildi ki, bu nəhəng kompleks 1877-1878-ci illərdə Bolqarıstanın azadlığı uğrunda döyüşlərdə həlak olmuş qəhrəmanların şərəfinə ucaldılmışdır. Deyilənə görə, məbədin tikintisində bütün bolqar xalqı iştirak etmişdir. Dünyanın hər yerindən buraya ibadətə gəlirlər.

Pravoslav müqəddəslərinin ikona və şəkilləri ilə bəzədilmiş məbəd həm də tarixi abidə kimi mühafizə olunur. Məbədlə tanışlıq zamanı Mehriban xanım Əliyevaya məlumat verildi ki, sosializm dövründə Bolqarıstanda dinə qoyulmuş qadağalarla əlaqədar məbəd bir qədər diqqətdən kənarda qalmışdı. Son vaxtlar məbədin təmiri və bərpası üçün dövlət tərəfindən tədbirlər görülməkdədir.

Məbədin dini rəhbəri Azərbaycan xalqına, onun Prezidentinə və Mehriban xanım Əliyevaya firavanlıq, xoşbəxtlik, əmin-amanlıq arzuları ilə dua etdi.

* * *

Bolqarıstanın ən qədim sənət əsərlərinin əsas hissəsinin nümayiş etdirildiyi Milli Rəssamlıq Qalereyasının bolqar incəsənəti filialı ilə tanışlıq da xoş təəssürat doğurdu. Mehriban xanım Əliyevaya burada toplanmış eksponatlar barədə ətraflı məlumat verildi. Bildirildi ki, ikonalar, freskalar, müxtəlif sənət inciləri bu ölkənin qədim tarixindən xəbər verir. X əsrdən başlayaraq, tarixin müxtəlif dövrlərində, hələ sənətin nəzəriyyəsi və sistemi mövcud olmadığı zamanlarda yaranmış həmin sənət əsərlərinin əksəriyyəti öz qeyri-adiliyi ilə diqqəti cəlb edir. Əsasən apostolların, çarların və hökmdarların təsvir edildiyi şəkillərin bəzilərində qədim Şərq üslubunun cizgiləri də açıq-aydın hiss olunur.

Pavilyonlarda nümayiş etdirilən əsərlərin böyük bir hissəsi XII əsr pravoslav incəsənətinə aiddir. Bizans-Tırnovo İncəsənət məktəblərinin nümunələri ilə tanışlıq da böyük maraq doğurdu. Mehriban Əliyeva eksponatlara tamaşa etdi, onların yaranma tarixi ilə maraqlandı.

* * *

Daha sonra Mehriban xanım Əliyeva Bolqarıstanın məşhur orta əsr memarlıq və rəngkarlıq sənətini özündə geniş təcəssüm etdirən Boyana kilsəsinə gəldi. Əsrlər boyu bu bina həm tarixi abidə, həm də yerli əhalinin ibadət yeri olmuşdur. Ölkəmizin birinci xanımına məlumat verildi ki, divarlardakı rəsmlərin bir hissəsi XI əsrdə, digər hissəsi isə XIII əsrdə çəkilmişdir. XIV-XV əsrlərdə isə kilsənin divarları yeni-yeni rəsmlərlə zənginləşdirilmişdir. Maraqlıdır ki, bir neçə yüzilliklər keçməsinə baxmayaraq, həmin rəsmlər əsasən öz orijinallığını qoruyub saxlamışdır. Müharibələr zamanı dağıdılmış daş kitabələrin qalıqları da burada mühafizə olunur.

Mehriban xanım Əliyevaya bildirildi ki, bu tarixi memarlıq abidəsi 1979-cu ildə YUNESKO-nun mədəni irs siyahısına daxil edilmişdir. Azərbaycan Prezidentinin xanımı kilsədə aparılan təmir-bərpa işləri ilə də maraqlandı, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

* * *

Həmin gün Bolqarıstan Prezidentinin xanımı Zorka Pırvanova Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyevanın şərəfinə nahar təşkil etdi. Söhbət zamanı Mehriban Əliyeva bu ölkədə onlara göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirdi.

Azərbaycan Prezidentinin xanımı ölkəmizdə qadın siyasətinin uğurlu nəticələrindən söhbət açdı, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Azərbaycanda həyata keçirdiyi layihələr, habelə mədəni irsin qorunmasına dövlət qayğısı ilə bağlı görülən işlər barədə məlumat verdi.

Bolqarıstan Prezidentinin xanımı dövlətimizin başçısı İlham Əliyevin rəsmi səfərinin bütün sahələrdə olduğu kimi, iki ölkənin qadın təşkilatları, elm, mədəniyyət, təhsil qurumları arasında əlaqələrin genişlənməsinə də təkan verəcəyinə əminliyini ifadə etdi.

***Xalq qəzeti,***
***2005, 27 sentyabr***

## *Mehriban xanım Əliyevanın Finlandiya prezidentinin həyat yoldaşı Pentti Arayarvi ilə görüşü*

Finlandiya Prezidentinin həyat yoldaşı Pentti Arayarvi sentyabrın 29-da Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva ilə görüşmüşdür.

Söhbət zamanı Mehriban xanım Əliyeva qonağa Azərbaycanın qədim tarixindən, xalqımızın zəngin mədəni ənənələrindən danışdı.

Yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən cənab Pentti Arayarvi Azərbaycan paytaxtına səfərinin ilk günü barədə təəssüratını bölüşdü.

***AzərTAc***
***2005, 29 sentyabr***

## *Latviya Prezidenti xanım Vayra Vike-Freyberqa Heydər Əlıyev Fondunda olmuşdur*

Oktyabrın 4-də Latviya Respublikasının Prezidenti xanım Vayra Vike-Freyberqa Heydər Əliyev Fondunda olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev və Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Latviya Prezidenti Vayra Vike-Frey-

berqanı və onun həyat yoldaşı İmants Freyberqsi Fondun binası önündə böyük səmimiyyətlə qarşıladılar.

Prezident Vayra Vike-Freyberqaya və nümayəndə heyətinin üzvlərinə Fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş geniş miqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən ibarətdir.

Prezident İlham Əliyev ali qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun həyatının uşaqlıq, gənclik illərini və siyasi fəaliyyətini əks etdirən eksponatlar barədə ətraflı söhbət açdı.

Xanım Vayra Vike-Freyberqa və Latviya nümayəndə heyətinin üzvləri fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu fotoşəkillərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış oldular. Latviya rəhbəri dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, onun xarici ölkələrin liderləri ilə birgə çəkilmiş fotoşəkillərinə böyük maraqla baxdı.

Latviya Prezidenti Fondla tanış olduqdan sonra xatirə kitabına ürək sözlərini yazdı. Sonra çay süfrəsi arxasında söhbət davam etdirildi. Prezident İlham Əliyev xanım Vayra Vike-Freyberqaya ölkəmizə səfəri zamanı çəkilmiş fotoşəkillərdən ibarət fotoalbom təqdim etdi. Prezident Vayra Vike-Freyberqa və nümayəndə heyətinin üzvləri Fondun eyvanından Bakının görməli yerlərini seyr etdilər, burada xatirə şəkli çəkdirdi-

lər. Ali qonaq Fonddan xoş təəssüratla ayrıldığını bildirdi.

*Azərbaycan,*
*2005, 1 oktyabr*

## *Tokioda Kabuki teatrı və "Meycici" məbədi ilə tanışlıq*

Martın 10-da Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı Səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Tokioda dünyada məşhur olan Kabuki teatrı və "Meycici" məbədi ilə tanış olmuşdur.

Mehriban xanım Əliyeva əvvəlcə Kabuki teatrına gəldi.

Hörmətli qonağa məlumat verildi ki, mənşəyi xalq mahnıları və rəqsləri ilə bağlı olan klassik yapon teatrı Kabuki teatrı XVII əsrdə Kioto şəhərində yaranmışdır. XVIII əsrin sonu Kabuki teatrının çiçəklənmə dövrü olmuşdur. Bu dövrdə formalaşmış tamaşalar müasir Kabuki teatrında da qorunub saxlanılmışdır. Kabuki teatrında qəti müəyyən edilmiş səhnə qanunları sistemi (əl-qol hərəkətləri, səsin modulyasiyası, simvolik qrim və s.) mövcuddur. İfaçılar kuklaların hərəkətlərini təqlid edirlər. Tamaşalar xüsusi avadanlıqla təchiz edilmiş böyük teatrlarda göstərilir. Ənənəvi Kabuki teatrı indiyədək böyük tamaşaçı kütləsinə malikdir və aktyorlar qrupu yalnız kişilərdən ibarətdir. Bu aktyorlar Yaponiyanın ən məşhur mədəniyyət ustaları kimi tanınırlar.

Azərbaycanın birinci xanımı burada göstərilən tamaşaya baxdı.

Mehriban xanım Əliyeva günün ikinci yarısında Tokio şəhərində 1920-ci ildən fəaliyyət göstərən böyük "Meycici" buddist məbədi ilə tanış oldu. Məbədin dini rəhbəri Azərbaycanın birinci xanımını salamladı və məbədin dini, elmi fəaliyyəti haqqında ətraflı məlumat verdi.

Mehriban xanım Əliyeva məbədlə tanışlıq zamanı dini mərasimin keçirilməsini müşahidə etdi və xatirə olaraq fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Məbədin dini rəhbəri tərəfindən Mehriban xanım Əliyevaya xatirə hədiyyəsi təqdim olundu.

*AzərTAc*
*2006, 10 mart*

## *Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun xoşməramli səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın Gürcüstan prezidentinin xanımı Sandra Elizabet Rulofsla görüşü*

Gürcüstan Prezidenti Mixail Saakaşvilinin xanımı Sandra Elizabet Rulofs oktyabrın 9-da Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidentinin xanımı Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva xanım Sandra Elizabet Rulofsu böyük səmimiyyətlə qarşıladı.

Gürcüstan Prezidentinin xanımı və onu müşayiət edən şəxslər əvvəlcə Fondun fəaliyyətinə, həyata keçirdiyi layihələrə həsr edilmiş sənədli filmə baxdılar.

Sonra iki ölkənin birinci xanımlarının görüşü oldu.

Mehriban xanım Əliyeva xanım Sandra Elizabet Rulofsu oğlunun olması münasibətilə gözaydınlığı verdi, Gürcüstan Prezidentinin xanımını oğlu Nikolosla birlikdə Bakıda görməkdən məmnunluğunu bildirdi.

Azərbaycanın birinci xanımı 2004-cü ilin mayın 10-da dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə hörmətli qonağa məlumat verərək dedi ki, qurumun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən,

onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir. Bununla yanaşı, Fond təhsil, səhiyyə, mədəniyyət, elm sahələri ilə də bağlı genişmiqyaslı layihələr hazırlayıb həyata keçirir. Uşaq evləri və internat məktəblərinin yenidən qurulması, maddi-texniki bazasının yaxşılaşması, valideyn himayəsindən məhrum olan uşaqlara hərtərəfli qayğı göstərilməsi, diabet və talassemiyadan əziyyət çəkən insanlara kömək, yeni məktəblərin tikintisi, əlil uşaqlarda informasiya texnologiyaları ilə işləmək vərdişlərinin aşılanması, zəngin mədəniyyətimizin öyrənilməsi, təbliği istiqamətində görülmüş işlərdən danışan Mehriban xanım bildirdi ki, ötən ilyarımda respublikamızda hər biri müasir tələblərə cavab verən 190 məktəb tikilib istifadəyə verilmişdir. Bunun 90-ı ən ucqar dağ kəndlərindədir. Gələn il daha 50 məktəbin tikintisi nəzərdə tutulur.

Hazırda Bakıda xalqımızın qədim musiqi sənəti olan muğamın təbliğinə xidmət edən Muğam Mərkəzinin, talassemiyalı xəstələrin müayinə və müalicəsi mərkəzinin tikilməkdə olduğu da vurğulandı.

Mehriban xanım Gürcüstanda yaşayan soydaşlarımızın qayğı və problemlərinin də daim diqqət mərkəzində saxlandığını, şagirdlərə hər il dərsliklər, məktəb ləvazimatı paylandığını da xatırlatdı.

Xanım Sandra Elizabet Rulofsla Bakıda və Tbilisidə ötən görüşlərində qarşılıqlı əlaqələrin qurulması, inkişaf etdirilməsi, birgə tədbirlərin həyata keçirilməsi istiqamətində dəyərli söhbətlər, məsləhətləşmələr apardıqlarını xatırladan Mehriban xanım indiki görüşün də ölkələrimiz, xalqlarımız arasında həmişə yüksək səviyyədə olan münasibətlərə müsbət təsir göstərəcəyinə əminliyini söylədi.

Xanım Sandra Elizabet Rulofs xoş sözlərə, hər görüşdə hiss etdiyi səmimi münasibətə görə Mehriban xanıma təşəkkür etdi, özünün də Gürcüstanda qeyri-hökumət təşkilatına rəhbərlik etdiyini vurğulayaraq, bundan sonra da Fondla ikitərəfli münasibətlərin, əlaqələrin genişlənməsinə çalışacağını bildirdi. Budəfəki səfər proqramının daha geniş olduğunu, ölkəmizi yaxından tanımaq imkanı əldə edəcəyini bildirən xanım Sandra Elizabet Rulofs Azərbaycanın birinci xanımı ilə görüşdən xoş və zəngin təəssürat aldığını vurğuladı.

***AzərTAc***
***2006, 9 oktyabr***

## *Moskvada tanınmış opera müğənnisi, Dünya vokal sənətinin parlaq nümayəndələrindən biri, SSRİ xalq artisti, Beynəlxalq Mükafatlar Laureatı Qalina Vişnevskayanın yubileyi*

Rusiyada tanınmış opera müğənnisi, dünya vokal sənətinin ən parlaq nümayəndələrindən biri, SSRİ xalq artisti, beynəlxalq mükafatlar laureatı, həmyerlimiz məşhur musiqiçi Mstislav Rastropoviçin ömür-gün yoldaşı Qalina Vişnevskayanın yubileyi qeyd olunmuşdur. Oktyabrın 25-də Moskvada keçirilmiş yubiley tədbirlərində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva da iştirak etmişdir.

Pyotr Çaykovski adına kinokonsert zalında Qalina Vişnevskayanın Opera İfaçılıq Mərkəzi və Dövlət Akademik Filarmoniyasının yubilyarın şərəfinə təşkil etdikləri "Vişnevskaya, vivat!" adlı qala-konsert olmuşdur. Məşhur dirijor Seyci Ozarın rəhbərliyi altında Rusiya Böyük Teatrının simfonik orkestrinin ifasında səslənən kompozisiyanın sədaları altında Qalina Vişnevskayanın

yaratdığı müxtəlif obrazları əks etdirən fotoşəkillər nümayiş etdirilmişdir. Tanınmış sənətşünas Svyatoslav Belzanın müşaiəti ilə səhnəyə çıxan yubilyarı zal sürəkli alqışlarla qarşılamışdır. Tədbirdə Rusiya Prezidenti Vladimir Putinin Qalina Vişnevskayaya ünvanlandırdığı təbrik məktubu oxunmuşdur. Gözəlliyi ilə seçilən nadir səs sahibini Moskva şəhərinin meri Yuri Lujkov da təbrik etmişdir. Rus və Qərbi Avropanın opera əsərlərində biri-birindən gözəl obrazlar yaradan, bu sahədə ən yüksək zirvələrə çatan, indi isə opera sənətinin incəliklərini yaradıcı gənclərə çatdıran, master-klasslar təşkil etməklə onları da sənət zirvələrinə doğru aparan Qalina Vişnevskayanın şərəfinə təşkil edilən qala-konsertdə tanınmış incəsənət ustalarının ifasında məşhur opera ariyaları səslənmiş, balet əsərlərindən parçalar, sonra isə yubilyarın yaradıcılıq dövrlərini əks etdirən qısa retrospektiv film göstərilmişdir.

Elə həmin gün “Metropol” otelində Qalina Vişnevskayanın şərəfinə ziyafət verilmişdir. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva yubilyarı səmimi təbrik etmiş, ona ürək sözlərini, ən xoş arzularını çatdırmışdır. Rusiyanın və bir sıra xarici ölkələrin ictimai və siyasi xadimləri, ziyalılar, incəsənət ustaları və diplomatik korpus nümayəndələrinin iştirak etdiyi ziyafətdə Qalina Vişnevskayaya Vətən qarşısındakı böyük xidmətlərinə və dünya incəsənətinə verdiyi töhfəyə görə “Birinci Yekaterina” ordeni təqdim olunmuşdur.

Yubilyar onunla bu sevinci bölüşmək üçün Moskvaya toplaşan çoxsaylı qonaqlara, eləcə də sənət dostlarına dərin minnətdarlığını bildirmişdir

***2006, 25 oktyabr***
***AzərTAc***

## *Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramli səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın Latviyaya səfəri*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Latviya Respublikasına dövlət səfəri çərçivəsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva oktyabrın 4-də Riqa şəhərində Latviya Tarix Muzeyi ilə tanış olmuşdur.

Hörmətli qonağa məlumat verildi ki, burada ölkənin tarixinin müxtəlif dövrlərinə aid çoxlu əşya və sənədlər toplanmışdır. Əlverişli coğrafi mövqedə yerləşən Latviya tarix boyu qonşularının hərbi təcavüzünə məruz qalmışdır. Bütün bu tarix, habelə latış xalqının azadlıq uğrunda mübarizəsi muzeyin eksponatlarında öz əksini tapmışdır.

Mehriban xanım muzeylə tanışlıqdan sonra fəxri qonaqlar kitabına ürək sözlərini yazdı. Hörmətli qonağa xatirə hədiyyəsi təqdim edildi.

Həmin gün Azərbaycanın birinci xanımı Latviya milli geyimlər sərgisində nümayiş etdirilən müxtəlif tikmələrə, zərif şəkildə işlənmiş zinət əşyalarına baxmışdır.

Mehriban xanıma məlumat verildi ki, burada Latviyanın 16 regionunu, bütövlükdə isə latış xalqının qədim tarixini və mədəniyyətini əks etdirən nadir nümunələr cəmlənmişdir. Məhz bu geyim dəstləri vasitəsilə latış xalqının zəngin keçmişi barədə məlumat almaq olar.

Mehriban xanım Əliyeva orta əsrlərin yadigarı olan qadın geyimlərinə, zərif əl işlərinə baxdı, bəzək əşyaları və onların toxunma üsulları ilə maraqlandı.

Sərginin Şərq və digər bölmələrində nümayiş etdirilən kişi və qadın geyimləri də originallığı ilə diqqəti cəlb edirdi.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva latış xalqının milli tarixi ənənələrini tikmələrdə yaşadan sərgini yüksək qiymətləndirdi və bildirdi ki, kişi və qadın geyimləri ilə yanaşı, latış xalqının kulinariyasını, musiqisini, eləcə də mədəniyyətinin digər elementlərini əks etdirən nümunələrin olması sərgiyə daha da zənginlik gətirə bilər.

Sərgi ilə tanışlıqdan xatirə olaraq Mehriban xanıma hədiyyə təqdim edildi.

Mehriban xanım Əliyeva fəxri qonaqlar kitabına sərgi barədə təəssüratını yazdı.

***2006, 4 oktyabr***

# MƏDƏNİYYƏTİMİZİN VƏ MƏDƏNİ İNCİLƏRİMİZİN HAMİSİ

---

**Dövri mətbuat materialları əsasında tərtib edilmişdir (1995-2007)**


Buraxılışa məsul: Fikrət Babayev

Redaksiya şurası: Lətifə Məmmədova – sədr

Leyla Rəsul – dizayner
Samir Abbasov – redaksiya şurasının üzvi
Əfsun Əhmədov – redaksiya şurasının üzvi
Oqtay Qəbələli – korrektor
Xuraman İsmayılova – texniki redaktor
Esmira Fuad – mətn redaktoru

Texniki redaktor: Rauf KƏRİMOV
Bədii redaktor: Elnur ƏHMƏDOV
Səhifələyici: Fəxri VƏLİYEV
Korrektor: Suğra OSMANOVA

Yığılmağa verilmişdir: 07. 11. 2006.
Çapa imzalanmışdır: 11.06.2007.
Nəşrin ölçüsü: 70 x 100 1/16. Ofset çapı.
Fiziki çap vərəqi: 26, 5.
Sifariş: 61. Sayı: 1000 nüsxə.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı–Az1122, H.Zərdabi pr. 78. Tel: 4977021, 4971362.
Faks: 4971295. E-mail: office@nurprint.com




## *Mehriban xanım Əliyeva*

*Heydər Əliyev Fondunun və*
*Azərbaycan Mədəniyyətinin Dostları*
*Fondunun prezidenti, YUNESKO və*
*İSESKO-nun xoşməramlı səfiri,*
*Milli Məclisin deputatı,*
*Azərbaycanın birinci xanımı*

*Mehriban xanım Əliyevanın*
*mədəniyyət sahəsində fəaliyyəti*

*Dövri mətbuat materialları*
*əsasında tərtib edilmişdir*
*(1995-2007)*